NƏSİMAN YAQUBLU

# CÜMHURİYYƏT QURUCULARI

BAKI – 2018

**Rəyçilər:** Boran Əziz
*tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin dosenti*

Aslan Kənan
*S.Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktor müavini*

**Redaktor:** İradə Quliyeva

**Mətnin yığıcısı:** Nəzakət Muradova

**Nəsiman Yaqublu. CÜMHURİYYƏT QURUCULARI**
**Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, 504 səh.**

Oxuculara təqdim edilən bu kitab Azərbaycan Cümhuriyyətinin qurucuları, əsasən, dövlət idarəçiliyinə başçılıq etmiş nazirlərin həyat və fəaliyyətləri haqqındadır.

Kitabda arxiv sənədlərindən, müxtəlif dillərdə çap olunmuş elmi əsərlərdən faydalanaraq ciddi axtarışlar aparılmış, Azərbaycanın milli, hüquqi və demokratik dövlətçiliyinin əsasını qoymuş şəxslərlə bağlı geniş məlumatlar təqdim edilmişdir.

Kitab Azərbaycanın XX əsr tarixi, Azərbaycan Cümhuriyyəti dövrü ilə maraqlanan mütəxəssislər, tarix, diplomatiya, beynəlxalq münasibətlər üzrə təhsil alan tələbələr, milli, demokratik, hüquqi dövlət quruculuğu prosesini öyrənmək istəyən geniş oxucu dairəsi üçün nəzərdə tutulmuşdur.

**ISBN: 978-9952-507-96-6**

Bu kitab satış üçün nəzərdə tutulmayıb.
Kitabda ifadə olunmuş fikirlər müəllifə məxsusdur və heç bir halda BP-nin rəsmi mövqeyini əks etdirmir.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq, bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991–ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2017-ci il***

Azərbaycanın uzunmüddətli etibarlı tərəfdaşı və iri neft-qaz layihələrinin əməliyyatçısı olan BP şirkəti ölkənin həyatının ən mühüm sahələrinə – təhsilə, yerli icmalarda imkanların yaradılmasına, kiçik və orta biznesin inkişafına, ətraf mühitin qorunmasına, milli idmanın inkişafına, xalqın zəngin mədəni irsinin və tarixinin təbliğinə öz töhfəsini verməklə Azərbaycanın gələcəyinin möhkəm təməllər üzərində qurulmasında iştirak edir.

Bu kitab Azərbaycan xalqının qürur mənbələrindən biri və Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə BP şirkətinin hədiyyəsidir.

# İÇİNDƏKİLƏR

Müəllifdən........................................................................................................................................8

Məhəmməd Əmin Rəsulzadə ...................................................................................................11
Fətəli xan Xoyski ...............................................................................................................................37
Əlimərdan bəy Topçubaşov .............................................................................................................55
Nəsib bəy Yusifbəyli..........................................................................................................................75
Həsən bəy Ağayev .............................................................................................................................99
Məhəmməd Həsən Hacınski...........................................................................................................113
Məmməd Yusif Cəfərov ..................................................................................................................127
Behbud xan Cavanşir........................................................................................................................141
Xosrov bəy Sultanov........................................................................................................................153
Aslan bəy Səfikürdski ......................................................................................................................169
Səməd bəy Mehmandarov .............................................................................................................182
Mustafa bəy Vəkilov.........................................................................................................................195
Xudadat bəy Rəfibəyli......................................................................................................................209
Xəlil bəy Xasməmmədov.................................................................................................................219
Əbdüləli bəy Əmircanov..................................................................................................................231
Əhməd bəy Pepinov.........................................................................................................................241
Xudadat bəy Məlikaslanov..............................................................................................................255
Cəmo bəy Hacınski ..........................................................................................................................271
Əkbər ağa Şeyxülislamov.................................................................................................................281
Əliağa Həsənov ................................................................................................................................295
Həmid bəy Şahtaxtinski ..................................................................................................................305
Konstantin Nikolayeviç Lizqar.......................................................................................................310
Musa Rəfiyev ...................................................................................................................................317
Mirzə Əsədullayev ...........................................................................................................................329
Ağa Əminov.......................................................................................................................................340
Rəşid xan Qaplanov .........................................................................................................................346
Ağa Aşurov .......................................................................................................................................353
Nurməmməd Şahsuvarov ...............................................................................................................360

Aslan Qardaşov ........ 365
Teymur bəy Makinski ........ 370
Rüstəm xan Xoyski ........ 375
Viktor Viktoroviç Klenevski ........ 378
Yevsey Yakovleviç Gindes ........ 382
İ.N.Protasov ........ 384
Nəriman bəy Nərimanbəyli ........ 386
Heybətqulu Məmmədbəyov ........ 389
Masey Aleksandroviç Sulkeviç ........ 391
Əliağa Şıxlinski ........ 398
Həbib bəy Səlimov ........ 400
M.Şeyxzamanlı, N.Şeyxzamanlı ........ 402
Nuru Paşa Killigil ........ 404
Şəfi bəy Rüstəmbəyli ........ 409
Ceyhun Hacıbəyli ........ 425
Üzeyir Hacıbəyli ........ 436
Əhməd Cavad ........ 447
Mir Yaqub Mehdiyev ........ 454
Məmməd Məhərrəmov ........ 456
Abbas Atamalıbəyov ........ 458
Əhməd Ağaoğlu (Ağayev) ........ 459
Yusif Vəzir Çəmənzəminli ........ 461
Məhəmməd xan Təkinski ........ 462
Əbdürrəhim bəy Haqverdiyev ........ 463
Adil xan Ziyadxanov ........ 464
Cəfər bəy Rüstəmbəyov ........ 465
Faris Vəkilov ........ 466
Vasili İvanoviç Razumovski ........ 467
Stanislav Stanislavoviç Vonsoviç ........ 468
Rəhim bəy Vəkilov ........ 470
Zivər bəy Əhmədbəyov ........ 471

Əlavələr ........ 473
Ədəbiyyat ........ 488

# MÜƏLLİFDƏN

Azərbaycan milli istiqlal hərəkatı xalqımızın uzun illər müddətində apardığı azad və müstəqil yaşamaq uğrundakı mübarizənin məntiqi davamıdır.

Azərbaycan xalqı XIX əsrdən başlayaraq çar Rusiyası istibdadına qarşı cəsarət və əzmlə müqavimət göstərmişdir. Müstəmləkə rejiminə qarşı aparılmış bu mücadilə tarixi inkişaf prosesi müddətində müxtəlif mərhələlərdən keçmişdir.

Hələ ötən əsrin əvvəllərindən – Azərbaycan torpaqlarının hissə-hissə çar Rusiyası tərəfindən işğalından başlayaraq xalqımız çətin və ağır sınaq qarşısında qalmışdır.

Danılmaz faktdır ki, xalqın oyanışında, yeni siyasi şüurunun formalaşmasında açıq fikirli, geniş düşüncəli şəxsiyyətlərimizin böyük rolu olmuşdur. Xalqı gerilik və cəhalət girdabından xilasa çalışan bu insanlar onun mübarizə əzminin və bacarığının güclənməsinə ciddi təkan vermişlər.

Qeyd edək ki, Azərbaycan cəmiyyətinin yeniləşməsində və inkişafında, xalqımızın istiqlala qovuşmasında, azad cümhuriyyət qurulmasında böyük şəxsiyyətlərimiz olan M.Ə.Rəsulzadənin, F.X.Xoyskinin, Ə.M.Topçubaşovun, N.Yusifbəylinin, H.Ağayevin və digər insanların xidmətləri inkaredilməzdir.

1918-ci ilin 28 Mayında Azərbaycan istiqlalı elan edilməsinin böyük məna və əhəmiyyəti oldu. Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadə bu münasibətlə yazırdı: "O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan xalqı bu tarixdən etibarən millət olaraq dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyatı ilə meydana atılmışdı".

Azərbaycan tarixinin görkəmli araşdırıcısı olan ABŞ tədqiqatçısı, professor T.Svyatoçovski isə 28 May istiqlalını belə dəyərləndirirdi: "İndiyə qədər coğrafi bir bölgənin adı olan Azərbaycan artıq iki milyonluq bir dövlətin adı idi. Tatarlar, transqafqaziya müsəlmanları və Qafqasiya türkləri kimi dəyişik adlarla anılan xalq artıq rəsmən azərbaycanlı olmuşdu".

Tanınmış alman tədqiqatçısı professor Berd Fon Mendenin isə Azərbaycan istiqlalının tarixi əhəmiyyətinə yanaşması belədir: "Bu tarix bilavasitə onunla bağlı olan zümrə xaricindəkiləri əlaqədar edən böyük bir günün tarixidir. Çünki bu sadə Qafqasyadakı milli dövlətçilik inkişafı üçün mühüm bir təməl daşı olmaqla qalmayıb, eyni zamanda, Rusiya imperatorluğunda başlayan siyasi ha-

disələrin seyrində mülkiyyət prinsipinin hakim rol oynamağa başlandığı bir günün tarixidir".

Göründüyü kimi, dünyanın tanınmış alimlərinin Azərbaycan istiqlalına verdiyi dəyər olduqca yüksəkdir.

**Həqiqətən, bu hadisə bütün Şərq aləmində, türk dünyasında yeni, demokratik prinsiplərə söykənən bir dövlətin yarandığını göstərirdi. Rusiya əsarətində yaşayan türk xalqları içərisində Azadlıq bayrağını ilk dalğalandıran və müstəqil yaşamaq haqqını dünyaya tanıtdıran Azərbaycan oldu.**

28 May istiqlalı ilə bağlı Azərbaycan xalqına ünvanlanan hökumət müraciətində bu sözlər yazılmışdı: "Mayın 28-i böyük və ümumi bir bayram hesab edilməlidir. Bu gündən bilafərq millət – hər kəs özünü bərabər hüquqla Azərbaycan vətəndaşı hesab etməlidir. Bu gün Ümumcahan millətlərinin ədalət üzrə olan və ixtiyaratının təmin edilən günlərindən biridir".

1918-ci ilin 28 Mayında dünyaya elan edilən İstiqlal Bəyannaməsində çox dəyərli hüquqi, demokratik məqamlar vardı. İstiqlal Bəyannaməsinin 4-cü bəndində yazılmışdı: "Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edir".

Azərbaycanın İstiqlal Bəyannaməsinin 5-ci maddəsində isə ölkədə yaşayan bütün millətlərin azad yaşamaq hüququnun təmin edilməsi qeyd olunurdu. İstiqlal Bəyannaməsində həmin hüquq belə ifadə edilmişdi: "Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişafı üçün geniş imkanlar verir".

İstiqlal Bəyannaməsində, 2-ci maddədə yaradılan dövlətin idarə forması Azərbaycan Xalq Cümhuriyyəti olaraq yazılırdı: **"Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir".**

Doğrudur, dövlətin sonrakı fəaliyyəti dövründə rəsmi sənədlərdə, möhürlərdə, buraxılan kağız pullarda, poçt markalarında, yazışmalarda bu ad Azərbaycan Cümhuriyyəti olaraq qeyd edilirdi.

Cümhuriyyətin isə müxtəlif formalarının mövcudluğunu bu dövlətin yaradıcılarından olan M.Ə.Rəsulzadə 1917-ci ilin martında "Açıq söz" qəzetində yazdığı "Cümhuriyyət" məqaləsində belə ifadə edirdi: "Fəqət cümhuriyyətdən cümhuriyyətə də fərq var. Cümhuriyyət elə əsaslar üzərində qurula bilər ki, yenə əlamın məhkum millətlərin hüququnu tamamilə təmin etməyib xalqın mümtaz qismi mənafeyinə uydurulsun, biistilah cümhuriyyəti xas olsun... Məhkum sinif və millət gözü ilə baxıldıqda işıqlı istibdad qarasından, məşrutiyyət işıqlı istibdaddan,

cümhuriyyət məşrutiyyətdən, cümhuriyyəti-əlam da (yəni hamının xalqın cümhuriyyəti – N.Y.) cümhuriyyəti xasdan daha faydalı və daha müvafiq məqamdır... Var olsun Cümhuriyyəti əlam!" ("Açıq söz" qəzeti, 17 mart 1917, №426).

M.Ə.Rəsulzadənin bu məqaləsi də dövlətin Xalq Cümhuriyyəti əsasları üzərində inkişafını təsdiq etməkdədir.

Azərbaycan Cumhuriyyəti dövründə xalqımız özünün müstəqil yaşamaq haqqına malik olduğunu sübut etmiş, az zaman müddətində istiqlalını böyük dövlətlərə tanıtmış, insanların siyasi, iqtisadi, ictimai və digər sahələrdə azad fəaliyyətinə şərait yaratmış, hərbi gücünün artırılması üçün milli ordu formalaşdırmış, ölkənin ərazi bütövlüyü və milli mədəniyyətinin inkişafında ciddi işlər görmüşdür.

Milli dövlət quruculuğu prosesində ən böyük nailiyyətlərdən biri 1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamentinin yaradılması oldu. Parlamentdə 120-yə qədər üzv olması nəzərdə tutulmuşdur. Azərbaycan Parlamentində ölkədə yaşayan bütün xalqların nümayəndələri və siyasi təşkilatların üzvləri təmsil olunmuşdu. Parlamentin 17 aylıq fəaliyyəti dövründə 270-dən çox qanun müzakirəyə çıxarılmış, onlardan 230-u qəbul edilmişdir.

Azərbaycan Cümhuriyyətinin 23 aylıq mövcudluğu dövründə beş dəfə Hökumət kabinetinin dəyişdirilməsi həm də demokratik idarəçilik sisteminin formalaşdığını əsaslandırırdı. Bu Hökumət kabinetlərində 35-ə qədər nazir fəaliyyət göstərmişdi. Həmin nazirlərin çoxunun yaş həddi 30-45 arasında idi.

Nazirlərin əksəriyyəti Moskva, Sankt-Peterburq, Kiyev, Xarkov və digər şəhərlərdəki universitetlərin, institutların məzunları idi. Onların 16 nəfəri müxtəlif universitetlərin hüquq fakültələrini bitirmişdilər. Yaradılan dövlətin hüquqi əsaslarla inkişaf etdirilməsində bu amil də əsaslı rol oynayırdı.

**Azərbaycan Cümhuriyyətininin qurucuları yüksək istedadlı, savadlı insanlar olmaqla yanaşı, vətəni və milləti sevən, onun mənafeyini hər istəkdən üstün tutan şəxsiyyətlər idi.**

***3 mart 2018-ci il.***

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

(1884 – 1955)



Azərbaycanın tanınmış ictimai-siyasi xadimi M.Ə.Rəsulzadə 1884-cü ilin yanvarın 31-də Bakının Novxanı kəndində anadan olub. O, ilk öncə 2-ci Rus-müsəlman məktəbində, sonradan isə Bakı Texniki məktəbində təhsil alıb.

1903-cü ildə M.Ə.Rəsulzadə ilk siyasi Müsəlman Gənclik Təşkilatını yaradıb. 1904-cü ildə Müsəlman Sosial-Demokrat Təşkilatı olan Hümmətin əsasını qoyanlardan biri olub. 1903-1908-ci illərdə "Şərqi-rus", "İrşad", "Təkamül", "Tərəqqi" qəzetlərində çoxlu sayda yazıları çap edilib.

M.Ə.Rəsulzadə 1909-1911-ci illərdə İranda, 1911-1913-cü illərdə Türkiyədə yaşayıb. O, 1911-ci ildə əsası qoyulan Müsavat Partiyasının Başqanı və ideoloqu olub.

M.Ə.Rəsulzadə 1918-ci ildə Azərbaycan Milli Şurasının Sədri seçilib.

Azərbaycan Cümhuriyyəti dövründə M.Ə.Rəsulzadə parlamentdə Müsavat və bitərəflərdən ibarət olan ən böyük fraksiyanın lideri kimi fəaliyyət göstərib.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra o, həbs olunub. Sonradan Rusiyaya, oradan isə xaricə gedib, mühacirət həyatı yaşayıb.

O, 1955-ci ilin martında Ankarada dünyasını dəyişib.

# AZƏRBAYCAN MİLLİ ŞURASININ SƏDRİ

Məhəmməd Əmin Hacı Ələkbər oğlu Rəsulzadə 1884-cü ilin yanvar ayının 31-də Bakının Novxanı kəndində ruhani ailəsində doğulmuşdur. O, ilk təhsilini Sultan Məcid Qənizadənin müdirlik etdiyi İkinci Rus-Tatar məktəbində almış, sonra Bakı-Texniki məktəbinə daxil olmuşdur. Burada bir qədər oxuduqdan sonra təhsilini yarımçıq qoyub, bütün fəaliyyətini siyasətə yönəltmişdir.

1903-cü ildə M.Ə.Rəsulzadə üzvləri müxtəlif rus litseylərində və digər orta məktəblərdə oxuyan azərbaycanlı türk tələbələrindən ibarət gizli bir dərnək yaratmışdır[1].

M.Ə.Rəsulzadənin o zaman yaratdığı **Müsəlman Gənclik Təşkilatının** təşviqat-təbliğat işində "Hümmət" qəzeti mühüm rol oynamışdır.

Qeyd edək ki, azərbaycanlı fəhlələri geniş dairədə inqilabi mübarizəyə cəlb etmək məqsədilə 1904-cü ilin sonlarında Bakıda RSDFP-nin Bakı Komitəsi nəzdində Müsəlman Sosial-Demokrat "Hümmət" qrupu yaradıldı[2]. "Hümmət"in baniləri arasında M.Ə.Rəsulzadə, N.Nərimanov, M.Əzizbəyov, M.H.Mövsümov, M.H.Hacınski və başqaları vardı. Müsavat Partiyasının yaradıcılarından olan Abbasqulu Kazımzadə, Kərbalayı Mikayılzadə də "Hümmət" təşkilatının keçmiş üzvlərindən idi.

Bu dövrdə mətbuat da geniş vüsət alır, inkişaf edir, ictimai-siyasi fikrin təşəkkülünə təkan verirdi. Mətbuata maraq həm də milli mənliyin dərk edilməsində oynadığı mühüm əhəmiyyəti ilə bağlı idi. Elə həmin illərdə M.Ə.Rəsulzadənin **ilk mətbu yazısı 1903-cü ildə Tiflisdə çıxan "Şərqi Rus" qəzetində çap olundu.** "Bakıdan məktub" başlığı altında nəşr edilən bu məqalədə M.Ə.Rəsulzadə elmin, təhsilin, məktəbin vacibliyinə toxunaraq yazırdı: "Qafqaz Müsəlman əhalisindən ümumi və Bakı əhlindən xüsusi təvəqqe edirəm ki, öz uşaqlarından balaca olan vaxtda elm və tərbiyə kəsb etməkdən başqa bir şey mənzur (məqsəd, niyyət) tutmasınlar. Məsələn, hər kəsin ki, qüvvəsi çatır uşağını məktəbə qoymağa, məbada-məbada palçıqçı, dükan şagirdi və qeyrəyə razı olsun"[3].

**1909-1913-cü illərdə isə M.Ə.Rəsulzadə İrana, Türkiyəyə gedib orada geniş fəaliyyət göstərdi.**

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə bağlı verilən əfvi-ümumidən (bağışlamadan) sonra M.Ə.Rəsulzadə Bakıya qayıtdı.

---

[1] Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. B.1991, s. 13-14.

[2] Azərbaycan Kommunist Partiyasının oçerkləri. B., 1964, s.63.

[3] "Şərqi-Rus" qəzeti, 1903, №14.

Bu dövrdə Bakıda Müsavat Partiyası qurulmuş və çar hökuməti əleyhinə ciddi mübarizə aparılırdı. M.Ə.Rəsulzadə Bakıya qayıtdıqdan sonra "Partiyanın rəhbərliyinə keçərək, onun proqramını yeni siyasi şəraitə uyğun şəkildə işləyib hazırladı, partiyanı türk-islam sintezini əsas tutan türkçü bir quruluş halına gətirdi"[4].

Bu illərdə M.Ə.Rəsulzadə ciddi siyasi iş aparır, o dövrdə hökumət tərəfindən fəaliyyətinə icazə verilən bəzi xeyriyyə və maarifçilik məqsədi daşıyan cəmiyyətlərə təsirini gücləndirirdi. Belə cəmiyyətlər sırasında "Nicat Maarif Cəmiyyəti", "Bakı Cəmiyyəti Xeyriyyəsi" və "Nəşri-Maarif Cəmiyyəti" vardı[5].

Bu dövrdə M.Ə.Rəsulzadənin "Dirilik" jurnalında çap edilmiş məqalələri ictimai əhəmiyyəti baxımından da diqqəti daha çox cəlb edirdi. Həmin məqalələrdə milli dirçəlişin yolları ətraflı şəkildə araşdırılmış, mövcud siyasi quruluşun imkanları çərçivəsində izah edilmişdir.

M.Ə.Rəsulzadə milli-azadlıq ideyasını dünya mədəniyyəti baxımından əsaslandırırdı. Göstərirdi ki, dünya mədəniyyətinin zənginliyi üçün ayrı-ayrı millətlər siyasi cəhətdən azad yaşamalı, biri digərinə təzyiq etməməlidir.

M.Ə.Rəsulzadənin sonrakı ictimai-siyasi, publisist fəaliyyətində "İqbal", "Yeni İqbal" və "Açıq söz" qəzetinin böyük əhəmiyyəti olmuşdur.

Bu qəzet haqqında M.Ə.Rəsulzadə yazırdı: "Açıq söz" ilk dəfə olaraq o vaxta qədər Qafqaziya müsəlmanı və yaxud tatar deyilən xəlqin türk olduğunu sərahət və israrla meydana atmış və bu xüsusda hərb senzoru ilə mübarizə etmək zərurətində qalmışdı"[6].

1917-ci ilin 27 fevralında Rusiyada Fevral-Burjua inqilabının baş verməsi Azərbaycandakı ictimai-siyasi proseslərə ciddi təsir göstərdi.

Fevral inqilabından sonrakı ilk günlərdə Azərbaycanda fəaliyyət göstərən təşkilatların mərkəzləşməsinə ehtiyac duyulurdu və bu məqsədlə 1917-ci ilin martın 29-da Bakı Müsəlman İctimai Təşkilatlarının Müvəqqəti Komitəsi yaradıldı. Müvəqqəti Komitənin sədri M.H.Hacınski, onun müavini isə M.Ə.Rəsulzadə seçildi. Müvəqqəti Komitə "bütün şəxsi incikliyi unudub milli-siyasi şüarlar ətrafında" birləşməyi və Ümummüsəlman Qurultayı çağırılmasını vacib saydı. Qurultayın açılışı ərəfəsində "Açıq söz" qəzeti yazırdı ki, bu qurultay Qafqaz müsəlmanlarının siyasi və milli mədəni inkişafında mühüm rol oynayacaq.

**1917-ci ilin aprelin 15-dən 20-dək Qafqaz müsəlmanlarının qurultayı keçirildi.** Qurultayda mövcud şərait təhlil olundu. Ölkənin siyasi vəziyyətinə

---

[4] Oruclu M. Müsavat Partiyasının fəaliyyəti. "Müsavat" jurnalı, B., 1995, №3 (7), s. 65.

[5] "Azərbaycan" jurnalı, Ankara, 1955, №12 (36), s.13.

[6] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti. İstanbul, 1990, s.17.

həsr edilmiş əsas məruzəni M.Ə.Rəsulzadə etdi. Məruzənin əsasında federativ demokratik respublika ideyası dayanırdı. Məruzəçi Rusiyadakı milli qruplara azad özünütəyinetmə hüquqlarının verilməsini tələb edirdi. M.Ə.Rəsulzadə bildirirdi ki, bu qayda ilə Rusiyanın ayrı-ayrı xalqları sonradan milli-ərazi muxtariyyəti prinsipləri əsasında İttifaq dövləti yarada bilərlər.

**1917-ci ilin mayın 1-dən 11-dək Moskvada keçirilən Ümumrusiya Müsəlmanları Qurultayı** milli mədəni inkişafın formalaşmasında mühüm rol oynadı. Qurultayda M.Ə.Rəsulzadənin "Ərazi Muxtariyyəti" ideyası ilə çıxışı böyük maraqla qarşılandı. M.Ə.Rəsulzadə çıxışında deyirdi: "Rusiyanın idarə forması demokratik respublika olmalıdır. Yer kürəsinin altıda birini tutan, Kamçatkadan Qara dənizə qədər və Arxangelskdən İranla sərhədə qədər uzanan, 170 milyon əhalisi olan çoxmillətli bir dövlət bir mərkəzdən idarə oluna bilməz. Ona görə də Rusiya dövlətinin idarə forması federasiya olmalıdır". Onun irəli sürdüyü məhəlli muxtariyyət ideyası qurultayda 271 səsə qarşı 446 səslə qəbul edildi[7].

Qeyd edək ki, 1917-ci ilin aprelində Qafqaz Müsəlmanlarının Qurultayında M.Ə.Rəsulzadə ilə N. Yusifbəyli hər iki təşkilatın (Müsavatla Türk Ədəmi Mərkəziyyətin) birləşdirilməsi qərarına gəlmişdilər. Əlavə edək ki, Qafqaz Müsəlmanları Qurultayına qədər də M.Ə.Rəsulzadə ilə N.Yusifbəylinin yaxın münasibətləri vardı. N.Yusifbəyli "Açıq söz" qəzetinə tez-tez gəlib gedərdi və bu iki şəxsiyyətin yaxınlığı, Azərbaycan istiqlalına eyni mövqedən yanaşmağı xalqımızın sonrakı taleyində mühüm rol oynadı.

1917-ci ilin iyun ayının 17-də M.Ə.Rəsulzadənin lideri olduğu Müsavatla N. Yusifbəylinin başçılıq etdiyi Türk Ədəmi Mərkəziyyət Partiyasının Birləşmə qurultayı keçirildi.

Bu hadisədən sonra **Müsavat Partiyasının Bakıda ilk qurultayı keçirildi.** Qurultay 1917-ci ilin oktyabrın 26-dan 31-dək davam etdi. 1917-ci ilin iyununda Müsəlman Demokratik Partiyası – Müsavatla Türk Ədəmi Mərkəziyyətin birləşmə qurultayından sonra bu, keçirilən ilk rəsmi toplantı idi. Qurultayda Türk Ədəmi Mərkəziyyət Firqəsi Müsavat öz proqramını elan etməli idi. Müsavat Partiyasının ilk bitkin sənədi məhz həmin proqram olmalı idi[8].

Qurultay partiyanın 76 maddədən ibarət proqramını qəbul etdi. Müsavatın proqramında dövlət və muxtariyyət təşkilatı məsələsi dəqiq izah edilərək belə qoyulmuşdur: "Rusiya dövlətinin şəkli-idarəsi milli-məhəlli muxtariyyət əsası üzərinə qurulan qoşma xalq cümhuriyyətindən ibarət olmalıdır"[9].

---

[7] Həsənov C. Azərbaycan Beynəlxalq münasibətlər sistemində. B., 1993, s. 33.
[8] Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 276, s.7, i. 168, v.1
[9] Azərbaycan Respublikası Dövlət Arxivi, f.894, s.10, i. 39, v.2

Qeyd olunmalıdır ki, beş yüzə qədər adamın iştirak etdiyi Müsavat Partiyasının birinci qurultayında M.Ə. Rəsulzadə Mərkəzi Komitənin sədri seçildi.

1917-ci ilin sonlarına doğru Azərbaycanın siyasi həyatında böyük yüksəliş dövrü idi. Artıq milli hərəkatda üç cərəyan seçilirdi: milli demokratlar, sosialistlər və islamçılar. Xüsusi olaraq fərqlənən milli demokratlar Azərbaycanın inkişafını milli dövlətçilikdə görürdülər.

1918-ci ilin fevralından, Zaqafqaziya Seyminin fəaliyyətə başlamasından sonra Azərbaycan siyasətçilərinin Zaqafqaziya istiqlalı uğrundakı mübarizəsinin yeni mərhələsi başlandı. Həmin ilin fevralın 23-də Tiflisdə Zaqafqaziyanın qanunverici orqanı – Zaqafqaziya Seyminin açılışı oldu[10]. Seymdəki Azərbaycan fraksiyası 44 millət vəkilindən ibarət olub, Müsavat, İttihad, Hümmət və Müsəlman Sosialist blokunu təmsil edirdi. 1918-ci ilin martın 14-də keçirilən Trapezund Sülh Konfransında da Türkiyə nümayəndələri artıq Zaqafqaziya nümayəndələrindən respublikaların siyasi quruluşları haqqında qətnamə tələb edirdi.

Bundan əlavə, 1918-ci ilin mart hadisələri də Zaqafqaziya Seymindəki münasibətləri gərginləşdirdi və Azərbaycanın milli müstəqilliyi uğrundakı mübarizədə həlledici mərhələ sayıldı.

Minlərlə günahsız adamın ölümünə səbəb olan ermənilərin xəyanəti, törətdikləri qırğın haqda məlumat 1918-ci ilin aprelin 2-də Zaqafqaziya Seyminə çatdırıldı. Lakin Seymin bu qırğına laqeyd münasibəti azərbaycanlı nümayəndələrdə ciddi narazılıq doğurdu. Eyni zamanda Seymin gürcü-erməni çoxluğu Bakı Sovetinə ciddi təsir göstərmək istəmirdi.

Bu hadisələrdən sonra fikir müxtəlifliyində olan azərbaycanlılar, gürcülər və ermənilərin Seymdə birgə fəaliyyəti getdikcə mümkün olmur, münasibətlərdə inamsızlıq yaranırdı.

Qeyd edək ki, gürcülər və ermənilər Türkiyə ilə münasibətdə ciddi siyasi ziddiyyətdə idi. Gürcülər Batum və Acarıstanın saxlanılması cəhdində olsalar da, buna nail olmaq üçün Qars və Ərdəhanı güzəştə getməyi lazım bilirdilər. Türklərin isə Seym daxilindəki ziddiyyətlərdən məlumatları vardı. Odur ki, Zaqafqaziya hökumətinin Türkiyə ilə apardığı müharibə 8 gündən artıq çəkmədi. Türklər aprelin 15-də Batumu tutdular, eyni zamanda Qarsı mühasirəyə aldılar[11]. Belə vəziyyətdə aprelin 19-da Seymə daxil olan Azərbaycan nümayəndələrinin birgə yığıncağında onlar Zaqafqaziyanın müstəqilliyini tələb etdilər. Azərbaycanlı nümayəndələr bildirdilər ki, əks halda onlar Azərbaycanın müstəqilliyi istiqamətində hərəkət edəcəklər.

---

[10] Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Б., 1998. с. 65.

[11] Yenə orada, s. 90.

Tezliklə gürcülər və ermənilər türklərin əsas tələbinin yerinə yetirilməsinin, yəni Brest-Litovsk Müqaviləsi şərtlərinin və Zaqafqaziyanın müstəqilliyinin elanının vacibliyini dərk edib, müharibənin dayandırılması zərurəti qarşısında qaldılar. 1918-ci ilin aprelin 22-də Zaqafqaziyanın müstəqilliyi elan edildi.

Lakin Zaqafqaziya Seymi daxilində ziddiyyətlər azalmır, getdikcə gərginləşirdi. Xüsusən, Almaniyanın da Zaqafqaziyada təsirinin artması gürcülərin onlara meylini gücləndirirdi.

Zaqafqaziya Seymi daxilindəki narazılıqlar, Gürcüstanın Qafqaz birliyindən çıxıb, Almaniya himayəsinə keçmək istəyi artıq bu millətlərin birləşib bir orqanda fəaliyyət göstərməsini sual altına qoymuşdu.

Mayın 25-də gürcülər Seymin buraxılması və Gürcüstanın müstəqilliyini elan etməsi qərarına gəldilər.

1918-ci ilin mayın 26-da Seymin sonuncu iclası keçirildi və fəaliyyəti dayandırıldı. Seymin fəaliyyəti dayandırıldıqdan sonra 1918-ci ilin mayın 27-də Zaqafqaziya Seyminin buraxılması ilə bağlı buraya daxil olan Azərbaycan nümayəndələrinin fövqəladə iclası keçirildi və iclas Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürərək, Azərbaycan Müvəqqəti Milli Şurasını elan etdi. Sonra Milli Şuranın Sədri seçkisinə başlanıldı. Müsavat Partiyası M.Ə.Rəsulzadənin sədrliyini irəli sürdü. İttihad Partiyası istisna olmaqla, qalan təşkilatların səsverməsi nəticəsində **M.Ə.Rəsulzadə Milli Şuranın Sədri seçildi.** H.Ağayev və M.Seyidov Milli Şura Sədrinin müavinləri seçildilər. Elə həmin iclasda Milli Şuranın doqquz nəfərdən ibarət İcraiyyə orqanı yaradıldı, F.Xoyski İcraiyyə orqanının sədri seçildi. İlk Azərbaycan hökumətinin təşkili F.Xoyskiyə tapşırıldı. Yaradılan ilk hökumət aşağıdakı tərkibdə idi: Nazirlər Şurasının Sədri və Daxili İşlər naziri – F.X.Xoyski; Hərbi nazir – Xosrov bəy Sultanov, Xalq Maarifi və Maliyyə naziri – Nəsib bəy Yusifbəyli; Xarici İşlər naziri – Məmməd Həsən Hacınski; Poçt-Teleqraf və Yollar naziri – Xudadat bəy Məlikaslanov; Əkinçilik və Əmək naziri – Əkbər ağa Şeyxülislamov; Ədliyyə naziri – Xəlil bəy Xasməmmədov; Ticarət və Sənaye naziri – Məmməd Yusif Cəfərov; Dövlət naziri – Cəmo bəy Hacınski.

Mayın 28-də Milli Şuranın ilk iclasında (24 nəfərin iştirakı ilə) aşağıdakı məsələlər müzakirə edildi:

1. H.Ağayevin Yelizavetpoldakı (Gəncədəki) son hadisələr barədə məlumatı;
2. M.Ə.Rəsulzadənin Batumdan teleqramının və məktubunun oxunması;
3. Seymin buraxılması və Gürcüstanın müstəqilliyini elan etməsi ilə əlaqədar Azərbaycanın vəziyyəti[12].

[12] Həsənov C. Azərbaycan Beynəlxalq münasibətlər sistemində. B., 1993. s. 85.

Azərbaycan istiqlalının elan olunması günündə M.Ə.Rəsulzadə Tiflisdə deyildi. Səbəbi həmin hadisə ərəfəsində onun Batuma göndərilərək, orada türklərlə danışıqlar aparması idi. Çünki müstəqil Qafqazın Batum danışıqlarına sülh heyəti göndərərkən (M.Ə.Rəsulzadə məhz bu heyətdə idi) Azərbaycan siyasi firqələrinin birləşmiş iclasında N.Yusifbəyli Osmanlı dövlətindən yardım istəmək zərurətini bildirmişdir.

Azərbaycan istiqlalı elan olunduqdan sonra Zaqafqaziya hökumətinin Batumdakı sülh danışıqları aparan heyəti parçalandı.

1918-ci ilin iyunun 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasındakı dostluq müqavilə"sini Türkiyə dövləti adından Ədliyyə naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin Baş komandanı Vəhib Paşa, Azərbaycan hökuməti adından isə Xarici İşlər naziri M.H.Hacınski və Milli Şuranın Sədri M.Ə.Rəsulzadə imzaladı. Azərbaycan Respublikası nümayəndələrinin xarici ölkələrlə imza atdığı ilk sənəddə hər iki dövlətin – Osmanlı imperiyası və Azərbaycan hökuməti arasında "Siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməkdə qarşılıqlı surətdə razılığa gəlindiyi" bildirilirdi[13].

İmzalanan sənədin birinci maddəsi belə idi: "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında daima sülh və möhkəm dostluq olacaqdır"[14].

Sənədin 4-cü maddəsində isə yazılmışdır: "Dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün, əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür"[15].

M.Ə.Rəsulzadənin başçılıq etdiyi Milli Şura Azərbaycanın bir müstəqil dövlət olaraq formalaşmasında həqiqətən böyük rol oynadı.

Azərbaycan İstiqlal Bəyannaməsinin 6-cı maddəsində göstərildiyi kimi: "Azərbaycan idarəsinin başında Şurayi Milli" dururdu.

Bu ərəfədə, iyunun 17-də Azərbaycan Respublikası nümayəndələrinin İstanbul Beynəlxalq Konfransına (orada Almaniya, Avstriya, Macarıstan, Türkiyə, Bolqarıstan və Qafqaz – Gürcüstan, Azərbaycan, Ermənistan və Dağlılar İttifaqı nümayəndələri iştirak edirdi) göndərilməsi müəyyənləşdi. Konfransda iştirak etmək üçün M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən (sonradan

---

[13] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894. s.2, i. 8, v.1

[14] Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f.277. s.2, i. 89, v. 10

[15] Yenə orada.

Ə.Pepinov da buraya qoşuldu) ibarət nümayəndə heyəti təsdiq edildi (Buraya əlavə dörd nəfər məsləhətçi və texniki heyət də daxil idi). Nümayəndə heyətinə konfrans iştirakçıları ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdir.

1918-ci il sentyabrın 15-də isə türk qoşunlarının və Azərbaycanın yeni yaranmaqda olan hərbi hissələrinin kəskin hücumu ilə Bakı şəhəri alındı. Şəhərin alınması uğrundakı döyüşlərdə çoxlu qurbanlar verildi.

M.Ə.Rəsulzadə həmin günlərdə İstanbulda idi. O, yazırdı: "O dövrün Hərbiyyə naziri və Baş komandan vəkili bulunan Ənvər Paşa həzrətləri telefon edirdilər:

**– Əmin bəy, Bakı alındı!** Bu qısa xəbərin məndə tövlid etdiyi təsiri qabil deyil, təsvir edə bilmirəm. O təsiri hələ unuda bilmirəm"[16].

Şübhəsiz ki, müstəqil Azərbaycan dövləti quruculuğu prosesində ilk uğurlu addımlardan biri Azərbaycan Parlamentinin yaradılması oldu.

Azərbaycan Parlamentinin yaradılması ilə bağlı Azərbaycan Milli Şurasının Sədri M.Ə.Rəsulzadə ciddi fəaliyyət göstərirdi. Onun imzası ilə 1918-ci il noyabr ayının 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi hazırlanmışdır. Müraciətnamədə deyilirdi: "Vətəndaşlar! Müharibə və zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurayi-Millisi iltizam-zaman ilə təkrar Azərbaycanın paytaxtı Bakıda toplandı. Şurayi-millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurayi-Millini milli bir şəkildən çıxarıb da dövləti bir şəklə salmaq oldu. Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurayi-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan (Parlament) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi, məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq məbusan irəlidə ümumi seçmə üsulu ilə Azərbaycan Məclisi Müəssisanı yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeyini müdafiə edəcək"[17].

**1918-ci ilin dekabrın 7-də, gündüz saat 13:25-də Azərbaycan Parlamentinin açılış mərasimi oldu.**

Parlamentin ilk iclasını M.Ə.Rəsulzadə giriş nitqi ilə açdı: "Möhtərəm Millət vəkilləri! Azərbaycan Milli Cümhuriyyətinin ilk Parlamentosunu açmaq səadətinin, Siz möhtərəm millət vəkillərini təbrik etmək şərəfinin öhdəmə düşməsi

---

[16] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti. İstanbul, 1990. s.51

[17] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895. s.3, iş 187, v. 1- 2



**M.Ə.Rəsulzadənin Azərbaycan Parlamentində çıxışı. Dekabr 1918-ci il.**

ilə iftixar edirəm (alqışlar)... Əfəndilər, Rusiyada zühur edən böyük inqilab digər həqiqətlər arasında bir böyük həqiqəti dəxi elan etmişdi. Bu həqiqət millətlərin hürriyyət və istiqlal haqları idi..."[18].

**M.Ə.Rəsulzadənin Azərbaycan Parlamentindəki çıxışı dəfələrlə alqışlarla qarşılandı.**

Azərbaycan Parlamentində Müsavat Partiyasının bəyannaməsini də təşkilatın lideri M.Ə.Rəsulzadə elan etdi. Həmin tarixi bəyannamədə göstərilirdi: "Bəli, artıq Azərbaycan ideyası barədə firqələrimiz arasında fikir ixtilafı yoxdur. Azərbaycan fikri millətin şüurunda yerləşmişdir. Üçrəngli əziz bayrağımız hamımızı siyasətcə birləşdirir. Azərbaycan istiqlalını müdafiə etmək hamımız üçün ortaq bir proqramdır. Ona görə firqələr Azərbaycan ideyasını propaqanda etməklə deyil, mövcud faktın siyasətən, hüquqən və xaricən müdafiəsilə məşğul olmalıdırlar"[19].

Azərbaycan Parlamentində ən güclü fraksiya Müsavatla bitərəf demokratların birləşməsi idi. Bu fraksiyanın ümumi sayı 38 nəfər idi.

Parlamentin işində M.Ə.Rəsulzadə böyük fəallıq göstərirdi. Parlament iclaslarında M.Ə.Rəsulzadə başçılıq etdiyi Müsavat fraksiyasının fəaliyyət proqramları haqqında tez-tez məlumatlar verirdi. Bu məlumatlarda ümumi bir məqsəd qarşıya qoyulurdu – Gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığı, milli və siyasi hüquqların qorunub saxlanılması, Azərbaycan xalqının qonşu

[18] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. B., 1991. s. 84
[19] Yaqublu N. Müsavat Partiyasının tarixi. B., 1997. s. 85

dövlətlərlə dostluq əlaqələrinin yaradılması və möhkəmləndirilməsi respublikada hüquqi-demokratik dövlət quruluşunun bərqərar edilməsi, geniş sosial islahatlar həyata keçirilməsi, ölkəni müdafiə edəcək güclü ordunun yaradılması.

1919-cu ilin mayında Azərbaycan İstiqlalının bir illiyi münasibəti ilə keçirilən tədbirlər, toplantılardakı çıxışlar haqqında o dövrdə nəşr edilən "Azərbaycan" qəzetində maraqlı məlumatlar vardır. Qəzet yazırdı: "Bir az keçəndən sonra Məclisi-Məbusan qarşısında M.Ə.Rəsulzadə cənabları kürsiyi-xitabətə çıxaraq xalqın alqışları altında bir nitq irad edərək, camaatı milli böyük bayram və bəxtiyarlıq ilə təbrik etdi: "Bizim düşmənlərimiz, azadlıq və istiqlaliyyətimizi gözləri götürməyən rəqiblərimiz deyirlər ki, Azərbaycan istiqlalını xanlar, bəylər elan etmişlər. Xalq onu istəmir. Budur camaat, bugünkü izdiham, bügünkü şadlıq istiqlaliyyətin xanlar deyil, bəylər deyil, xalq tərəfindən elan edildiyini düşmənlərimiz artıq görsünlər" (xalqın alqışı altında nitqinə xitam verir). Ondan sonra başqa natiqlər də nitq etdilər..."[20].

Parlamentin 1919-cu ilin avqustunda keçirilən altmış yeddinci iclasında birinci məsələ olaraq "Azərbaycan Darülfünunun (universitet – red.) təşkili haqqında qanun layihəsi" müzakirə edildi. Əsas məruzəçi olan parlament katibi Mehdi Hacınskinin çıxışından sonra geniş müzakirələr başladı.

Kravçenkonun, Q.Qarabəylinin çıxışından sonra M.Ə.Rəsulzadə geniş məzmunda fikirlərini parlament üzvlərinə çatdırdı.

Qeyd edək ki, parlamentdə universitet açılmasında tərəddüd mövqedə olan, "kimlər açacaq, necə açılacaq, kimlər oxuyacaq" deyən insanlar da vardı.

M.Ə.Rəsulzadə bu tərəddüdləri aradan qaldıran və universitet açılmasının millətə gərəkliyi vacib olan məzmunda çıxış edərək dedi: "Darülfünunun faydalarından birisi də budur ki, burada bir kərə elmi bir müəssisə vücuda gələcək. Bununla məmləkətin məchul qalmış bir çox xüsusiyyəti öyrəniləcəkdir. Camaat arasında elmə və fənnə nə qədər həvəs artacaqdır. Digər tərəfdən xaricə getməyə imkanı olmayan tələbələr elm və fənn hasil etmək imkanında olacaqlar. Vaxtilə bu darülfünun get-gedə milliləşəcək. Bununla bərabər orada türk dili ümumi surətdə məcburi olaraq keçiləcək və öyrədiləcəkdir"[21].

M.Ə.Rəsulzadə 1918-1920-ci illərdəki fəaliyyətində Azərbaycanın müstəqilliyi uğrunda qətiyyətlə mübarizə aparırdı.

Qeyd edək ki, Azərbaycanın müstəqil dövlət olaraq beynəlxalq nüfuzunun artdığı bir zamanda 1920-ci ilin 27 aprel işğalı baş verdi.

[20] "Azərbaycan" qəzeti. 1 iyun 1919, №192.
[21] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 12

Aprelin 27-də azərbaycanlı bolşeviklər gündüz saat 12-də Azərbaycan K(b)P MK, RK(b)P Ölkə Komitəsinin Bakı bürosu və Mərkəzi fəhlə konfransı adından parlamentə 12 saatlıq ultimatum verdilər. Ultimatumu müzakirə etmək üçün yaradılan parlament komissiyası ilə kommunistlər arasında gedən danışıqlardan sonra qərara alındı ki, bu məsələ parlamentin fövqəladə iclasına çıxarılsın.

Azərbaycan Parlamentinin 1920-ci ilin 27 aprelində sonuncu 145-ci iclası keçirildi.

M.Ə.Rəsulzadənin təklifi ilə iclasın açıq formada olması qərara alındı.

Axşam saat 19.30-da parlamentin fövqəladə iclasında M.Hacınski komissiya adından bildirdi ki, kommunistlərin ultimatumunun bütün şərtləri müsavatçıların lideri M.Ə.Rəsulzadə istisna olmaqla komissiya tərəfindən qəbul edilir.

Parlamentin son iclasında səs çoxluğunu pozan İttihadla Sosialistlərin birləşməsi idi. Çünki Müsavat parlamentdə 32 millət vəkili ilə, Müsavat mövqeli bitərəf qrup isə (başçısı F.Xoyski idi) 7 deputatla təmsil olunurdu. İttihad 11, Sosialistlər də 11 millət vəkilinə malik idi. Əhrarın təmsilçilərinin sayı 10 millət vəkili idi. Belə bir vəziyyətdə M.Ə.Rəsulzadə son dəfə olaraq parlamentin iclasında çıxış etdi. O, dedi: "Əfəndilər, mötəcaziz bir ultimatum qarşısında qalmışıq. Burada təslimdən bəhs edirlər. Fəqət əfəndilər, təslim nə demək? Kimə tərki mövqe edirik? Bizə deyirlər ki, hüdudunuzu keçən ordunun başında Nicati adında bir türk komandanı durmuşdur. Rusiyadan gələn bu mötəcaviz ordu təxmin edirlər ki, həyat və məmat mücadiləsində qalan Türkiyənin xilası üçün gedir. Yalandır. Gələn ordu rus ordusudur. Fərzən komandanı bir türk olsa da, yenə rusdur, istila ordusudur. Onun istədiyi 1914-cü il hüduduna qayıtmaqdır. Anadolu imdadına gedəcək bəhanəsilə yurdumuza girən bu işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir. Qızıl Rusiya ilə anlaşmaq üçün hökuməti mütləq bolşeviklərə təslim ultimatumu qəbul etmək zillətinə qatlanmağa ehtiyac yoxdur. Bu mötəcavizanə ultimatumu rədd etməliyik...[22].

Sədr M.Y.Cəfərov verilən ultimatumu səsə qoydu, üç nəfər bitərəf qalmaqla hakimiyyət bolşeviklərə verildi[23].

**1920-ci ilin aprelin 27-də baş verən hadisələrdən sonra M.Ə.Rəsulzadə yaxın əqidə dostları ilə gizli fəaliyyətə başladı.**

Parlamentdə hökumət təhvil verildikdən sonra M.B.Məmmədzadə ilə Ə.V.Yurdsevər M.Ə.Rəsulzadənin qaldığı mənzilə gedib, partiya liderindən məsləhətlər aldılar. M.Ə.Rəsulzadə ilə görüşdən sonra onlar C. Cabbarlının (böyük

[22] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. B., 1991, s. 146-147.
[23] Yaqublu N. Müsavat Partiyasının tarixi. B., 1997, s. 112-113

yazıçı və dramaturq – N. Y.) şəhər kənarındakı evinə getdilər. M.Ə.Rəsulzadənin göstərişlərinə uyğun olaraq Cəfər Cabbarlı, Mirzə Bala Məmmədzadə, Əbdül Vahab Yurdsevər, Məmməd Sadiq Quluzadə və Məmməd Həsən Baharlıdan ibarət Müsavatın Gizli Ümumi Mərkəzi yaradıldı. Ə.V.Yurdsevər bununla bağlı yazırdı: "Partiya mərkəzi qurulduqdan sonra vəzifə bölgüsünə başlanılmış və komissiyaların təşkilinə keçilmişdi. Emin bəyin də razılığı ilə gizli təşkilatın başına M.B.Məmmədzadə gətirilmişdir. Müavini sifətilə Bakı Komitəsinin təşkili mənə tapşırılmışdı. Ümumi mərkəzin baş katibliyinə isə Cəfər Cabbarlı seçilmişdi"[24].

Azərbaycanın işğalının ilk günündən bolşeviklər qanlı üsullara əl atdı. Bu dövr Azərbaycanda bolşevik rejiminin ən təhlükəli zamanı idi. Yalnız "1921-ci ilə ancaq hərbçilərdən 12 general, 27 polkovnik və polkovnik-leytenant, 46 kapitan, ştabskapitan, baş leytenant və leytenant, 146 zabit, 266 nəfər başqa işçilər güllələnmişdi. 1920-ci ilin aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 000 (qırx səkkiz min) adam qırmızı terrorun qurbanı oldu" [25].

M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Pankratovun əmri fövqündə bir əmr yox idi"[26]. Pankratov XI Ordunun Siyasi şöbəsinin rəisi idi. Ümumiyyətlə isə bu dövrdə Azərbaycanda üç qanlı təşkilat fəaliyyət göstərirdi: 1) XI Ordunun Pankratovun başçılığında olan Xüsusi Şöbəsi – "Osobıy otdel" 2) Azərbaycan Çekası 3) XI Ordunun inqilabi tribunalı.

Bu təşkilatların içərisində ən qorxulusu "Osobıy otdel" idi. Çünki "Osobıy otdel" sorğusuz-sualsız istədiyi adamı güllələmək, öldürmək hüququna malik idi. Yalnız 1920-ci ilin avqustunda AK(b)PMK Siyasi Bürosunun iclasında XI Ordunun Xüsusi Şöbəsinə AK(b)MK Siyasi Bürosunun xəbəri olmadan heç bir ölüm hökmü çıxarmamaq təklifi verilmişdi.

Azərbaycanda Pankratovun başçılığı altında olan "Osobıy otdel"də isə çoxlu ermənilər fəaliyyət göstərir və imkandan istifadə edib azərbaycanlıları qətlə yetirirdilər.

Lakin Sovet hakimiyyətinin basqı və təzyiqlərinə baxmayaraq, M.Ə.Rəsulzadənin rəhbərliyində olan Gizli Müsavat təşkilatı xalq arasında ciddi fəaliyyət göstərirdi. Partiyanın Bakı təşkilatından sonra Gəncə, Qarabağ, Qazax və digər bölgələrdə güclü bölmələri vardı. Həmin dövrdə Müsavatın gizli fəaliyyətinə rəhbərlik edənlərdən biri, tanınmış müsavatçı Ə.V.Məmmədzadə (Yurdsevər) yazırdı ki, Qızıl Ordu qüvvələri olmasa idi, Gizli Müsavat Azərbaycanın istənilən yerində sovet idarəsini devirə bilərdi.

---

[24] Yaqublu N. Müsavat Partiyasının tarixi. B., s.115.
[25] Yenə orada, s.128.
[26] Yenə orada.

Azərbaycanın digər bölgələrində də bolşeviklərə qarşı ciddi müqavimət göstərilirdi. Getdikcə M.Ə.Rəsulzadənin gizli fəaliyyəti də qeyri-mümkün olurdu.

Bakıda qalmağın təhlükəli olduğunu və daim axtarıldığını hiss edərək M.Ə.Rəsulzadə şəhəri tərk etməyi qərara aldı. Münasib yer olaraq Lahıcda qalmağa üstünlük verdi. Lahıca müsavatçı dostu Abbasqulu Kazımzadə ilə getdi. Əslən Lahıcdan olan digər dostu Ağabala Qasımov ona bu işdə böyükköməklik göstərdi.

Lahıcda olduğu müddətdə M.Ə.Rəsulzadə istiqlal tariximizin öyrənilməsinə əvəzsiz bir töhvə bəxş etdi: "Əsrimizin Səyavuşu"nu yazdı.

Lakin Lahıcda vəziyyət getdikcə gərginləşirdi. Onun ciddi izlənilməsi haqqında məlumatlar da çatdırılırdı.


ДЕЛО №61
Особого отдела при Революционном Воен. Совете XI-й армии
По обвинению Расул-заде и Кязим-Заде
Чл. партии Муссават
Начато 15 Октября 1920
Кончено 19
ПР-19877

**M.Ə.Rəsulzadəyə aid istintaq sənədi. 15 oktyabr 1920-ci il.**

M.Ə.Rəsulzadə 1920-ci ilin avqustunda Lahıcdan çıxıb Qaraməryəm istiqamətinə gedərkən həbs olundu. Onun həbsi tarixi Dövlət Təhlükəsizlik Xidmətinin (keçmiş Milli Təhlükəsizlik Nazirliyi) arxivində PR-19877 saylı istintaq işində (qovluq №61) 1920-ci ilin avqustun 25-i olaraq göstərilir. XI Ordunun Hərbi İnqilabi Şurasının Xüsusi şöbəsinin 1931 saylı həbs vərəqi əsasında azadlıqdan məhrum edilən M.Ə.Rəsulzadə (dostu A.Kazımzadə ilə birlikdə) özü haqqında məlumatlarda bildirir: "36 yaşı var, orta təhsillidir, peşəsi jurnalistdir, hökumətdə


Копия.
53.
Р.С.Ф.С.Р.
ЧЛЕН РЕВОЛЮЦИОННОГО ВОЕННОГО СОВЕТА
Кавказского фронта
7/XI-1920 года
НАЧАЛЬНИКУ ОСОБОТДЕЛА XI АРМИИ.
Находящихся под арестом при Особотделе Мамед Эмина Расул Заде, Мамед Али Расул Заде и Абас Кули Кязим Заде, считать освобожденными и отправить в мое распоряжение в поезд.
7/XI-20 г. Член Реввоенсовета Республики Нарком СТАЛИН.
С подлинным верно:
Секретарь

**İ.V.Stalinin M.Ə.Rəsulzadənin həbsdən azad olunması haqqında məktubu. 7 noyabr 1920-ci il.**

olub, Müsavat Partiyası Mərkəzi Komitəsinin sədridir, öz vəsaiti ilə yaşayır, ailəlidir"[27].

M.Ə.Rəsulzadə ilə bağlı istintaq işinin 1920-ci ilin oktyabrın 15-də başlandığı qeyd olunur.

M.Ə.Rəsulzadənin yaxın məsləkdaşı və əmisi oğlu Məmməd Əli Rəsulzadəyə isə artıq güllələnmə hökmü kəsilmişdi.

M.Ə.Rəsulzadənin isə güllələnməsi və yaxud ömürlük həbsdə saxlanması ilə bağlı söhbətlər eşidilirdi. Bu haqda ona məlumatı həbsxanada görüşdüyü keçmiş mübarizə dostu Stalin vermiş, ona buradan uzaqlaşıb, birlikdə Moskvaya getməyi məsləhət bilmişdi.

M.Ə.Rəsulzadənin razılığını aldıqdan sonra Stalin belə məktubla müraciət etmişdi: "R.S.F.S.R. Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasının üzvü. 7/XI-1920. XI Ordunun Xüsusi şöbəsinin rəisinə. Xüsusi şöbədə həbsdə saxlanılan Məmməd Əmin Rəsulzadə, Məmməd Əli Rəsulzadə və Abbasqulu Kazımzadəni azad olunmuş hesab edib, qatara mənim sərəncamıma göndərin. 7/XI-1920-ci il. Respublika Hərbi İnqilab Şurasının üzvü, Xalq Komissarı Stalin"[28].

Həbsdən azad edildikdən sonra M.Ə.Rəsulzadə ailəsi ilə qısa müddətdə görüşüb Stalinlə Moskvaya yola düşdü.

Moskvada o, bir müddət RSFSR Millətlər Komissarlığında çalışdı, sonra oradan Sankt-Peterburqa, Sankt-Peterburqdan Finlandiyaya, Finlandiyadan Türkiyəyə getdi.

**1922-ci ilin sonlarından M.Ə.Rəsulzadə İstanbulda fəaliyyətə başladı.** O, İstanbula gəldikdə burada Azərbaycandan gələn mühacirlər arasında dağınıqlıq, pərakəndəlik vardı. Bu adamları bir yerə toplamaq, təşkilat ətrafında birləşdirmək çətin idi. M.Ə.Rəsulzadə yazırdı ki, mühacirlər arasındakı "keşməkeş nəticəsi olaraq konsulluq bağlanmışdı"[29].

M.Ə.Rəsulzadənin və müsavatçıların İstanbuldakı fəaliyyətinə qədər mühacirlərimiz tərəfindən müəyyən işlər görülmüşdüsə də, lakin sistemli xarakter daşımırdı. Dağınıq halda olan bu qüvvələr vahid təşkilatda təmsil olunmurdu.

Qeyd edək ki, 1920-ci ilin əvvəlində Almaniyada-Berlində 100-ə qədər tələbə təşkilatlanmışdı. Azərbaycan Cümhuriyyətinin səlahiyyətli nümayəndəsi, Azərbaycan Parlamentinin sabiq Sədri Ə.M.Topçubaşov hələ 1920-ci ilin sentyabrında Millətlər Cəmiyyətinə Azərbaycanın işğal olunması məlumatını rəsmi

---

[27] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PR 19877 saylı M.Ə.Rəsulzadə və A.Kazımzadə ilə bağlı istintaq işi, v. 4.

[28] Yenə orada, v. 53

[29] Resulzade M.E. Şefibeyçilik. İstanbul, 1934, s. 58.

şəkildə çatdırsa da, bir faydası olmamışdı. "Kommunist" qəzeti isə onu bu fəaliyyətinə görə kəskin tənqid etmişdi[30].

Bu illər həm də Azərbaycan nefti uğrunda ayrı-ayrı dövlətlərin mübarizəsi dövrü idi. Belə ki, 1922-ci ilin aprel ayının 10-da Cenevrədə keçirilən konfransda məqsəd Bakı neftinin imtiyazı idi və bu da gizli saxlanılmışdı[31].

Bununla əlaqədar mühacirətdəki Azərbaycan nümayəndələri fəallıq göstərmiş, etiraz notaları vermişdi. Beləliklə, mühacirlər "Azərbaycan dava"sını bu və ya digər şəkildə davam etdirirdi.

M.Ə.Rəsulzadənin milli mücadilə tariximizdə ən böyük xidmətlərindən biri azərbaycanlı mühacirləri (o zaman mühacirlər iki qrupa bölünmüşdü: siyasi və qeyri-siyasi) birləşdirib toplamağı oldu[32]. Parisdə, Tehranda, Almaniya, İtaliya, Fransa, Xorasan, Mazandaran, Qars, Ərzurum kimi şəhərlərdə nümayəndələrimizin, əski mühacirlərimizin olmasına baxmayaraq İstanbulda bu işi M.Ə.Rəsulzadə öz üzərinə götürmüşdü.

O, Milli Mərkəz təşkil edib, müsavatçı olmayan siyasətçiləri də bir təşkilat halında birləşdirdi. Tezliklə bütün Sovetlər Birliyini həyəcana gətirən "Yeni Qafqasya" jurnalını nəşr etdi[33]. Az müddət içərisində M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti, keyfiyyəti-təşəkkülü, şimdiki vəziyyəti" əsəri çap olundu.

M.Ə.Rəsulzadə Azərbaycanla da əlaqəsini kəsməmişdi. 1920-ci ildə Azərbaycandakı dostlarına göndərdiyi bir tarixi müraciətdə yazırdı: "Əziz yurddaşlar! Bu məktub sizə kifayət qədər vacib bir məqamda yazılır. Bununla əlaqədar bildirmək istəyirəm ki, ölkə daxilində sizin qarşınızda tarixi vəzifə durur. Bunlar təxminən aşağıdakılardır: 1. İlk növbədə təşkilatın daxili nizam-intizamına fikir vermək və bü-



**M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" kitabı. İstanbul, 1923-cü il.**

[30] "Коммунист" газ., Б., 1920, №105.
[31] Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. B., 1994, s. 15.
[32] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. B., 1992, s. 175.
[33] Yaqublu N. M.Ə. Rəsulzadənin "Yeni Qafqasya" jurnalı. "Müxalifət" qəzeti, 1996, №38.

tün ölkə üzrə xırda özəklər yaratmaq. 2. Azərbaycanda gedən proseslərlə və təşkilatların vəziyyəti ilə Xarici Büronu müntəzəm şəkildə məlumatlandırmaq. 3. Xalqın milli istiqlaliyyətinə olan ümidinin bir az da itirilməməsi üçün müxtəlif təbəqələr və zümrələr arasında təbliğatı gücləndirmək. 4. Yerli kommunistlərdən Moskva əleyhinə maksimum dərəcədə istifadə etməyə çalışmaq... Yurddaşlar, bu qanlı yollarla irəliləyərək, biz azadlıq yolunda şəhid olmuş yoldaşlarımızı bir an belə unutmadan çalışmalıyıq. Hamı bilməlidir ki, azadlığın gələcəyi gün uzaqda deyil. Yoldaşlıq və dostluq salamı ilə Məhəmməd Əmin Rəsulzadə”[34].

M.Ə.Rəsulzadənin mühacirətdə olarkən Türkiyədəki fəaliyyətini iki dövrə bölmək mümkündür. Birinci dövr 1922-1931-ci illəri əhatə edir. İkinci dövr isə 1948-ci ildən başlayır. Hər iki dövrdə o, böyük çətinliklərlə qarşılaşmışdır. Mühacirət həyatının ağır şərtləri daxilində mübarizə aparmaq, maddi imkansızlıq, yurdsuzluq kimi çətinliklər içərisində yaşamaq və nəhayət kənar ölkə daxilində (istər Türkiyə olsun, istərsə də digər Avropa ölkələri) siyasi mücadiləyə uyğunlaşmaq çox ağır idi.

M.Ə.Rəsulzadə yazırdı: “Bulunduğumuz mühacirət şərtləri daxilində Azərbaycan davası naminə birləşmək milli davanı yaşatmış və yaşadan fikir sistem və nümayəndələrinə hörmət etməklə olur. Bunun üçün hər türlü kiçik hesablardan və hisslərdən sıyrılaraq fikrə önəm vermək lazımdır”[35].


A SON EXCELLENCE MARECHAL PILSUDSKY ,
Chef de l'Etat Majore Polonais .

Monsieur le Maréchal ,

Après l'occupation forcée de l'Azerbaïdjan par l'armée soviétique en Avril 1920 et l'éloignement "manu militari" de son gouvernement National ,une grande partie des officiers reguliers de l'armée d'Azerbaïdjan fut obligé de quitter le pays et de se transporter dans les pays limitrophes pour éviter la vengeance féroce des usurpateurs rouges .

Dix de ces officiers,qui avaient occupé des postes de confiance dans l'armée nationale et avaient opposé une résistance armée à l'invasion de l'armée rouge et , plus tard , avaient pris part à une série de soulevements populaires en vue de l'émancipation du joug détestable des russes , se trouvent actuellement à Constantinople dans des conditions de vie des émigrés .

Ayant appris par Mr. Djafer Seïdamet , Président et Délégué du Parlement Tatare de Crimée , que vous avez eu la bonté d'accueillir très favorablement la déclaration faite par lui pendant son dernier séjour à Varsovie à propos du désir des officiers d'Azerbaïdjan de servir dans les rangs de la vaillante Armée Polonaise afin d'approfondire leur connaissance militaires , et même que vous avez eu l'obligence de donner en principe

55

votre consentement à leur admission , je me permets de profiter de cette circonstance favorable et de venir prier par la présente Votre Excellence de vouloir bien prendre les dispositions nécéssaires à ce sujet . Le service rendu par la noble Nation Polonaise dans cette période difficile de notre histoire recevra , j'en suis certain , toute son appréciation de la part des Turcs d'Azerbaïdjan et servira de preuve éclatante des relations amicales qui depuis des longues années existent entre nos deux nations .

En vous présentant ma plus profonde reconnaissance , je vous prie , Excellence , de vouloir bien agréer les très sincères assurances de ma haute considération .

M. E. Rassoulzade
Président du Conseil National d'Azerbaïdjan .

Constantinople,le 31 Mars 1923 .

Annexe : la liste des officiers .

A Son Excellence
Monsieur M.E.RASSOUL-Zade
Président du Conseil National d'Azerbaidjan,
à
Constantinople

Monsieur le Président
[illegible] la réception de Vôtre lettre du 31 mars 1923 [illegible] les officiers de l'armée azerbaidjane qui ont manifesté leur désir [illegible]

[illegible]

Chef de l'[illegible]

Pilsudski
Maréchal

**M.Ə.Rəsulzadənin Polşanın dövlət başçısı marşal Pilsudski ilə yazışmaları.**

[34] İbrahimli X., Zeynalov R. Müsavat Partiyasının 1920-ci il 27 Aprel istilasından sonra fəaliyyəti tarixindən. “Müsavat” bülleteni, B., 1993, №1(5), s. 16

[35] Aküzüm F. Mehemmed Emin Resulzadeye göre çeşidli cehdleri ile Azerbaycan istiqlal mücadilesi. Ankara, 1977, s. 14.

Qeyd etmək lazımdır ki, Azərbaycanlı mühacirlər arasında – xüsusən İstanbul (M.Ə.Rəsulzadə) və Paris qrupu (C.Hacıbəyli, Ə.Şeyxülislamov) arasında da müəyyən narazılıqlar vardı və bu narazılıqlar Azərbaycan probleminin bir mərkəzdən idarə olunmasına maneçilik törədirdi. Bu məqsədlə gərginliyi aradan qaldırmaq üçün M.Ə.Rəsulzadə 1928-ci ildə Parisə gedib orada Ə.M.Topçubaşov, C.Hacıbəyli və Ə.Şeyxülislamovla görüşmüş, "Bir mərkəzdən idarə prinsipi" razılığına gəlmişdilər.

Təsadüfi deyildi ki, 1934-cü ildə Qafqaz Konfederasiyası aktını Azərbaycan adından M.Ə.Rəsulzadə ilə Ə.M. Topçubaşov birgə imzalamışdı.

M.Ə.Rəsulzadə 1934-cü ildə vəfat edən Ə. Topçubaşovun xatirəsinə "Qurtuluş" jurnalında bu sözləri yazmışdı: "Bir millətin siyasi tarixində mühüm və davamlı bir yer tutan adam üçün "öldü" deyərlərsə, inanmayınız – Əlimərdan bəy ölməmişdir!"[36].

Qeyd edək ki, bəzi mühacirlər isə bu görkəmli şəxsiyyətlər arasında narazılıq yaratmağa çalışmış, "Milli dövlətin Əlimərdan bəy kimi qiymətli dövlət adamımızın əlindən alınıb M.Emin bəyə verilməsinə" etirazlarını bildirmişdilər.

M.Ə.Rəsulzadə təəssüflə bildirirdi: "Yetər ki, biz – bizə düşmən olmayalım; yetər ki, hürriyyət və istiqlal eşqi ilə yanan biz məfkurəçilər xeyir ilə şəri ayırd edəlim"[37].

Sovet hökuməti isə bütün gücü ilə mühacirətdəki qüvvələri dağıtmağa, parçalamağa çalışırdı. 1932-ci ilin yanvarın 17-də Azərbaycan Kommunist Partiyası daxildəki və xaricdəki istiqlalçılarla mübarizəyə imkan verən qərar qəbul etmiş, mühacirləri dağıtmaq üçün bolşeviklərin xaricdəki adamlarına göndərdiyi bir təlimat da aşkarlanmış, Berlində çıxan "Naş vek" qəzetində nəşr olunmuşdu. Həmin təlimatı "İstiqlal" qəzeti də özünün 1932-ci il 5 saylı nüsxəsində çap etmişdi[38].

Azərbaycan Milli Qurtuluş hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadənin istiqlal tariximizdəki ən böyük xidmətlərdən biri Azərbaycanın azadlığı və müstəqilliyi davasını elmi və sistemli şəkildə aparan mətbuat orqanlarını yaratması oldu.

M.B.Məmmədzadə yazırdı: "Çünki o, (yəni M.Ə.Rəsulzadə – N.Y.) mətbuatın nə kimi bir qüvvə olduğunu yüksək qiymətləndirirdi... Mətbuat aydınlaşdırma ilə birlikdə fikirləri və beyinləri bir ideal ətrafında birləşdirmək, tərbiyə və sövq etmək qüdrətinə də malikdir"[39].

---

[36] "Qurtuluş" jurnalı. Berlin, 1934, №2.
[37] Resulzade M.E. Şefibeyçilik. İstanbul, 1934, s. 7.
[38] "İstiqlal" qəzeti. Berlin, 1932, №5.
[39] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. B., 1992, s. 177-178.

Əslində Azərbaycan mühacirət mətbuatının yaranma tarixi məhz 1923-cü il sentyabrın 26-dan – "Yeni Qafqasya" jurnalının nəşr vaxtından başlanır[40].

Sovet hökuməti hər vasitə ilə "Yeni Qafqasya"nı bağlamağa çalışırdı. Hələ 1925-ci ildə Sovetlər Birliyinin o zamankı Xarici İşlər Komissarı Çiçerin Bakıda çıxış edərkən demişdi: "Son zamanlar müsavatçıların Türkiyədəki fəaliyyətlərinin artdığını qeyd etməmək olmaz. Biz dəfələrlə Türkiyə hökumətinə müraciət edərək Sovet hökuməti əleyhinə yürüdülən bu dözülməsi mümkün olmayan intriqalara etiraz etdik və nəhayət, xitam verilməsini tələb etdik"[41].

M.Ə.Rəsulzadə "Yeni Qafqasya"ya göstərilən təzyiqlərə baxmayaraq, jurnalın nəşrini eyni güc və qətiyyətlə davam etdirirdi. Həmin vaxtlar Azərbaycandan göndərilən bir şəxs ona: "Yeni Qafqasya" nəşrini dayandırarsa və o, bolşeviklər əleyhinə çalışmazsa, mühacirlərin Azərbaycana qayıtması mümkün ola bilər" demişdi. M.Ə.Rəsulzadə isə həmin adama belə cavab vermişdi: "Mirzə Davudlara söylərsən ki, son qızıl rus nəfəri Poylu stansiyasını keçincə "Yeni Qafqasya"nın da son nüsxəsi çıxacağını sizə təmin edərim"[42].

Sovetlər Birliyinin təsiri ilə Türkiyə dövlətinin də mühacirlərə təzyiqi artır, siyasi-mətbu fəaliyyətləri məhdudlaşdırılırdı.

Nəhayət, 1927-ci ildə Sovet dövlətinin təzyiqi ilə Türkiyə hökuməti "Yeni Qafqasya"nın nəşrini yasaqladı. "Yeni Qafqasya"nın nəşri dayandırıldıqdan sonra M.Ə.Rəsulzadə böyük cəhdlərlə "Azəri Türk" jurnalının çapına nail oldu. Jurnal 1928-ci ildə İstanbulda nəşrə başladı[43].

"Azəri Türk" jurnalı gizli yollarla Azərbaycana gətirilir, xalq arasında yayılırdı.

1929-cu il martın 1-də M.Ə.Rəsulzadə daha bir mətbu orqanın – "Odlu Yurd"un nəşrinə başladı. Milli hərəkata güc verməyə, bolşevizmlə mücadiləni şiddətləndirməyə yönələn "Odlu Yurd" oxucuların böyük marağına səbəb oldu[44].

1932-ci il yanvarın 10-dan M.Ə.Rəsulzadə Berlində "İstiqlal" qəzetinin nəşrinə başladı. Qəzetin ilk səhifəsində M.Ə.Rəsulzadənin "Kəsilməyən səs" məqaləsi çap olundu: "Mütaliənizə təqdim olunan bu qəzet müqəddəs bir mübarizənin müdafiəçisi üçün yüksələn bir səsi mədəniyyət dünyasına çatdırmaq üçün nəşr olunur. Milli Azərbaycan istiqlal mübarizəsinin səsi! – Budur bizi həyəcanlandıran səs!"[45].

---

40 "Yeni Qafqasya" jurnalı. İstanbul, 1923, №1.
41 Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. B., 1992, s. 189.
42 Resulzade M.E. Şefibeyçilik. İstanbul, 1934, s. 56
43 "Azəri Türk jurnalı. İstanbul, 1928, №1.
44 "Odlu Yurd" jurnalı. İstanbul, 1929, №1.
45 İstiqlal" qəzeti. Berlin, 1932, №1.

M.Ə.Rəsulzadə 1931-ci ildən sonra Türkiyədə fəaliyyətlərinə imkan verilmədiyinə bərk təəssüflənir, Azərbaycan istiqlalçılıq məfkurəsi səsinin boğulmasından narazılıq edir, bildirirdi ki, bu iş qardaş Türkiyənin əli ilə edilmişdir. M.Ə.Rəsulzadə məqaləsində yazırdı: "Heyif o dövrə...". M.Ə.Rəsulzadə bunlara baxmayaraq, Atatürkə münasibətini dəyişmirdi, onun ölkəsinin məcburiyyətdən bu addımı atdığını qəbul edir və Atatürk haqqında yazırdı: "eyni zamanda, qurtulan Şərqin simvoludur"[46].




**M.Ə.Rəsulzadənin "Azərbaycan Problemi" kitabı. Berlin, 1938-ci il.**

1934-cü ilin noyabr ayından başlayaraq M.Ə.Rəsulzadə Berlində "Qurtuluş" jurnalını nəşr etdi. "Qurtuluş" aylıq məcmuəsi "İnsanlara hürriyyət, millətlərə istiqlal!" şüarı ilə çıxırdı[47].

M.Ə.Rəsulzadə 1936-cı ilin sentyabrından Polşada "Müsavat Bülleteni"ni də nəşr etməyə başladı[48]. "Bülleten"in saylarında daha çox nəzəri məsələlərə, problemlərə, ideoloji araşdırmalara üstünlük verilirdi.

Qeyd edək ki, "Azərbaycan" jurnalının nəşri də M.Ə.Rəsulzadənin mühüm xidmətlərindən biri idi. 1952-ci il aprelin 1-də o, Azərbaycan Kültür Dərnəyinin orqanı olan "Azərbaycan" jurnalının ilk sayını nəşr etdirdi. Jurnalın ilk nüsxəsinin üz qabığında bu sözlər yazılmışdı: "Birlik dirilikdir", "Türkləşmək, islamlaşmaq, müasirləşmək"[49].

M.Ə.Rəsulzadənin mühacirətdəki fəaliyyətinin mühüm bir dövrü də Polşada keçmişdir. O,1932-ci ilin əvvəllərində Polşaya getmişdi. M.Ə.Rəsulzadənin Polşa hökumətində nüfuzu və şəxsi əlaqələrinin olması da bu işdə mühüm rol oynamışdı. Digər tərəfdən Polşa ilə Azərbaycan arasında tarixən sıx münasibətlər olmuşdur. Bu tarixi bağlılıq haqqında M.Ə.Rəsulzadə yazırdı: "Bu münasibətlər üç əsasa söykənir: Azərbaycanın Qafqaz xalqları ailəsinə mənsubluğu, xüsusilə ölkənin türklər tərəfindən qurulması və nəhayət bu xalqın rus imperializmi tərəfindən əzilməsi"[50].

---

[46] Rəsulzadə M. Ə. Qurtulan Şərqin simvolu. Ankara, "Azərbaycan" jurnalı, 1981, s. 12.

[47] "Qurtuluş" jurnalı. Berlin, 1934, №1.

[48] "Müsavat" bülleteni. Varşava, 1936, №1.

[49] "Azərbaycan" jurnalı. Ankara, 1952, №1.

[50] Resulzade Mehmed Emin. Azerbaydzan w waice o niepoleglosc. Azerbaydjanskie wydawnictwo narodowe. Warsawa, 1938, s. 152-153.

M.Ə.Rəsulzadənin Polşanın qəhrəman oğlu Pilsudskiyə münasibəti də yüksək olub və Pilsudskinin ölümünə həsr etdiyi bir məqalədə o, yazırdı: "Lehistan (Polşa – N. Y.) qaralara bürünmüş, lehlilər milli bir matəm yaşayır. Milli qəhrəman marşal Pilsudski həyata vida etmişdir. Bu böyük adam Leh vətənsevərliyinin xalqa təqdis olunan parlaq bir timsalı idi[51].

M.Ə.Rəsulzadə 1931-ci ildə Türkiyəni tərk etmək məcburiyyətində qaldıqda ona və dostlarına sığınacaq verən məhz Polşa və Almaniya olmuşdu. Bundan əlavə M.Ə.Rəsulzadənin 1938-ci ildə Polşada Azərbaycan xalq nəşriyyatı tərəfindən polyak dilində "Azərbaycan müstəqillik uğrunda mübarizədə" kitabı da çap olunmuşdu. Əsərə ön sözü Şərq İnstitutunun direktoru senator Sedlitski yazmışdı.




**M.Ə.Rəsulzadənin "Azərbaycan müstəqillik uğrunda mübarizədə" kitabı. Varşava, 1938-ci il.**

M.Ə.Rəsulzadənin ikinci dəfə həyat qurduğu polyak qızı Vanda xanımın Marşal Pilsudskinin və ya Polşanın tanınmış xadimi Bekin yaxın qohumu olduğu qeyd olunmaqdadır.

M.Ə.Rəsulzadənin fəallığı ilə 1936-cı ilin avqustunda Polşanın Varşava şəhərində Müsavat Partiyasının konfransı da keçirildi[52].

1939-cu ildə Sovet qoşunları Polşanı işğal etdikdə M.Ə.Rəsulzadə ölkəni tərk etmək məcburiyyətində qaldı. O, Rumıniyanın paytaxtı Buxarestə gedib burada fəaliyyətini davam etdirdi[53].

Aydın bir həqiqət idi ki, kommunizmlə savaş aparan almanlar neçə illər idi bu mücadiləni dayanmadan yürüdən M.Ə.Rəsulzadə ilə də iş birliyinə çalışırdı. Lakin müharibənin başlanğıcında almanların mövqeyi hələ aydın deyildi. Əgər Almaniya Sovetlər Birliyi üzərində qələbə qazanardısa, onda Azərbaycana münasibət necə olacaqdı? Almaniya Azərbaycanın müstəqil bir dövlət kimi varlığını qəbul edəcəkdimi?

M.Ə.Rəsulzadə Hitlerin ideya və fikirlərini qəbul etmirdi və hələ 1930-cu ildə yazdığı məqalələrinin birində fikrini belə açıqlamışdı: "Daxildə və xaricdəki düş-

[51] Yaqublu N. Azərbaycan-Polşa münasibətlərində M. Ə. Rəsulzadənin rolu. Bakı: Adiloğlu, 2007, s. 161-162.
[52] Yaqublu N. Müsavat Partiyasının tarixi. B., 1997, s. 207-208.
[53] Müsavat Partiyasının sorğu kitabı. B., 1994, s. 27.

mənlərinin qənaətincə, hitlerizm, demokrasi rejiminin müxalifi olaraq iş başına gəlmiş, təsisinə başladığı idarə İtaliyada olduğu kimi, faşist diktatorluğu imiş"[54].

Bundan əlavə, M.Ə.Rəsulzadə Hitler Almaniyasının Şərq xalqlarına münasibətini aydınlaşdırmaq üçün Ankara və Berlindəki dostlarına təlimatlar da vermişdi. Almaniyanın Türkiyə Böyükelçisi fon Papen Ankarada Kərim Odərlə, professor fon Mende isə Berlində Hilal Münşi ilə danışıqlar aparmışdı. Danışıqların nəticələri M.Ə.Rəsulzadəyə çatdırılmış və məlum olmuşdu ki, almanlar bu xalqları müstəqil bir dövlət halında görmək istəmirlər[55]. Belə olduqda M.Ə.Rəsulzadə tələsməyib gözləməyi qərara almışdı. Lakin fon Papenin Ankaradan Alman Xarici İşlər Nazirliyinə göndərdiyi şifrələrdə mütləq olaraq M.Ə.Rəsulzadənin dəyərləndirilməsi bildirilmişdi.

Almaniya hökuməti əski mühacirlərlə əlaqələr qurmağa daim cəhdlər göstərirdi. 1942-ci ilin aprelində Şulenberqin vasitəçiliyi ilə Fransada, Balkanlarda, Türkiyə və İsveçrədə yaşayan bir çox millətçi-mühacirlər Berlinin məşhur "Adlon" mehmanxanasına toplaşıb, yığıncaq da keçirmişdilər[56].

Almanlar isə M.Ə.Rəsulzadə ilə hər vasitədə işbirliyinə çalışırdılar[57]. 1942-ci il oktyabrın 7-də M.Ə.Rəsulzadə Almaniyada alman ordusu, Xarici İşlər Nazirliyi və Şərq Nazirliyi ilə işbirliyi aparmaq üçün danışıqlara başladı. Lakin o, Azərbaycanın müstəqilliyinin elan edilməsinin alman siyasəti ilə bağlaşmadığını görüb oradan Buxarestə getdi.

Müharibənin sonlarına yaxın M.Ə.Rəsulzadənin başçılığı altında Münhendə "Azərbaycan Demokrat Birliyi" adlı cəmiyyət quruldu. Cəmiyyət azərbaycanlı əsirlərin xilasında böyük rol oynadı.

Bir müddət sonra M.Ə.Rəsulzadənin başçılığı ilə "Türkiyə-Azərbaycan" Cəmiyyəti də yaranmış və bu təşkilat üç minədək azərbaycanlının Türkiyəyə getməsini təmin etmişdi.




**M.Ə.Rəsulzadəyə Türkiyədə verilmiş xarici pasport.**

[54] "İstiqlal" qəzeti, Berlin, 1933, №30.
[55] Yaqublu N. Müsavat Partiyasının tarixi. B., "Ay-Ulduz", 1997, s. 209
[56] Patrik fon Zur Mühlen. Camali Xaç ilə Qızıl Ulduz arasında. Ankara, 1984, s. 68
[57] Yenə orada, s. 109


M.Ə.Rəsulzadə (birinci cərgədə ortada) mühacirətdəki dostları ilə.

M.Ə.Rəsulzadə 1948-ci ildə Türkiyəyə qayıtdıqdan sonra əski legionçuların və mühacirlərin bir mərkəz ətrafına toplanmasını vacib sayırdı. Elə bu məqsədlə də o, 1949-cu ilin fevralın 1-də Ankarada Azərbaycan Kültür Dərnəyini yaratdı[58]. Dərnəyin ilk toplantısında doktor İbrahim Bədəl M.Ə.Rəsulzadənin yaradılan qurumun Fəxri Başqanı seçildiyini elan etdi.

"Azərbaycan Kültür Dərnəyi"nin əvvəlinci maddələrində qeyd olunmuşdu: "Maddə 1. "Azərbaycan Kültür Dərnəyi" adı ilə bir dərnək qurulmuşdur. Dərnək siyasətlə məşğul deyildir. Mərkəzi Ankaradadır. Şöbəsi yoxdur. Maddə 2. Dərnəyin qayələri bunlardır: a) Azərbaycanı, onun tarixini, kültürünü araşdırmaq, işləmək və yaymaq; b) kitab, dərgi və qəzet olaraq çap etmək və mədəniyyət yığıncaqları tərtib etmək; c) möhtac Azərilərə maddi və mənəvi köməklik göstərmək"[59].

M.Ə.Rəsulzadənin mühacirətdəki fəaliyyətinin ən dəyərli mərhələsi məhz antisovet mübarizə blokunun yaranmasındakı xidmətidir. Onun da iştirakı ilə 1928-ci ildə Parisdə "Prometey" təşkilatı yaradılmışdı. "Prometey" təşkilatı müstəqil dövlətlərin yenidən təsisini elan etmiş və bunu başlıca hədəf olaraq tutmuşdu. Təşkilat özünün xarici siyasətini Polşanın və Avropa dövlətlərinin mənfəətlərinə uyğun yönəldirdi. "Prometey" Birliyinin olduqca sağında yer alan bəzi Qafqaz təşkilatlarının siyasi xarakteri daha dəyişik idi[60].

1939-cu ildə Polşanın işğalı ilə bağlı artıq "Prometey" öz fəaliyyətinə son qoydu. "Prometey"çilərin böyük bir qrupu Polşa və Qərb dövlətlərinin tərəfini tutdular.

[58] Azərbaycan Kültür Dərnəyinin Nizamnaməsi. Ankara, 1949.
[59] Yenə orada, s. 3.
[60] Patrik fon Zur Mühlen. Camali Xaç ilə Qızıl Ulduz arasında. Ankara, 1984, s. 21.

M.Ə.Rəsulzadə hələ mühacirətə qədərki fəaliyyətində Qafqaz xalqlarının birliyi uğrunda da əzmlə mübarizə etmiş, rus işğalına qarşı aparılan mücadilədə "Birliy"in mövcudluğuna ehtiyacın olduğunu daima vurğulamışdı. Təsadüfi deyildi ki, Müsavatın 1919-cu ildə qəbul edilən proqramında da bu problemə xüsusi yer ayrılmışdı.

Ə.Qaraca yazırdı ki, M.Ə.Rəsulzadənin yurd xaricində önəm verdiyi mühüm işlərdən biri "fikir və dava arkadaşları olan Krım, İdil, Ural, Şimali Qafqaz və Türküstan liderləriylə"[61] bir araya gəlib kommunizmə qarşı aparılan milli mücadilədə "Türk Birliyi"nə çalışması olmuşdu.

Ə.Qaraca qeyd edir ki, Qafqasya Konfederasionu fikrini mənimsəyən siyasət adamları buranın "Asiyanın bir İsveçrəsi" olacağını düşünmüşlər"[62]. Bu konfederasiyanın yaradılmasına çalışmaqda bir məqsəd də məhz bu "birlik"lə ölkələrinin yenidən hürriyyətə qovuşmalarını təmin etmək idi.

Qafqaz Konfederasiyası görüşünü vacib sayan Azərbaycan, Gürcüstan və Şimali Qafqazın mühacirətdəki milli təmsilçiləri 1934-cü ilin 14 iyulunda Belçikanın mərkəzi şəhəri Brüsseldə toplaşaraq "Qafqaz Konfedersiya saziş"ini imzaladılar. Ermənistan təmsilçiləri sazişi imzalamaqdan imtina etdilər[63].

İkinci Dünya hərbindən sonra mühacir təşkilatların birləşib antisovet mübarizə aparmasına getdikcə daha çox ehtiyac duyulurdu. Bu illərdə bir neçə rus, gürcü, erməni, tatar təşkilatları ilə yanaşı iki azərbaycanlı təşkilatı da mövcud idi. Təşkilatlardan biri 1924-cü ildən fəaliyyət göstərən Azərbaycan Milli Mərkəzi idi. Azərbaycan Milli Mərkəzi İkinci Dünya hərbindən sonra Ankarada yerləşirdi və Başqanı M.Ə.Rəsulzadə idi.

İkinci mühacir azərbaycanlı təşkilatı "Azərbaycan Milli Birlik Məclisi" adlanırdı. Təşkilat 1943-cü ildə Berlində yaradılmışdı. Təşkilatın rəhbəri Ə. Fətəlibəyli Düdənginski (sonradan rəhbər C.Hacıbəyli olmuşdu), Başqanlıq Heyətinin üzvləri isə Ceyhun Hacıbəyli, Əkbərağa Şeyxülislam idi. Hər iki təşkilat arasında çəkişmələr, ziddiyyətlər mövcud idi.

Belə bir vaxtda antibolşevik cəbhənin yaradılmasını vacib sayan "Amerikan Komitəsi" fəaliyyətə başladı. "Amerikan Komitəsi"nə əvvəl C.Layons, sonradan isə Amerikanın Moskvadakı keçmiş böyük elçisi Alan Gerk başçılıq edirdi. 1962-

---

[61] Karaca A. Kafkasya Konfederasionu Kafkasya Cümhuriyyətinin emniyyət kalxanı ola bilirmi? "Azərbaycan", Ankara, 1995, №305, s. 19.

[62] Yenə orada, s. 20.

[63] Yaqublu N. Müsavat Partiyasının tarixi. B., 1997, s. 224-225.

ci ildən isə Sovet Rusiyasını yaxından tanıyan, Moskvada Amerika attaşesi olmuş Stevens komitənin başqanı oldu[64].

"Amerikan Komitəsi"nin yardımı ilə 1951-ci il yanvarın 16-da bir çox rus partiyalarının iştirakı ilə Füssen konfransı keçirildi[65]. Konfransda mühacir ruslar yalnız Rusiyanın ərazi bütövlüyünün qorunması şərtilə qeyri-rus təşkilatları ilə işbirliyini mümkün saydılar.

Bu işin davamı olaraq yenə "Amerikan Komitəsi"nin dəstəyi ilə 1951-ci il avqustun 28-də Qərbi Almaniyanın Ştutqart şəhərində mühacir ruslar konfrans keçirdilər. Bu konfransda onlar "Rusiya Millətlərinin Qurtuluş Şurası" yaradılmasına qərar verdilər. Bununla bərabər Rusiyadakı milli azlıqların da nümayəndələrini bu "Şura"ya cəlb etmək məqsədi ilə ayrıca büro da yaradılmışdı.

1951-ci il noyabrın 7-də Qərbi Almaniyanın Visbaden şəhərində beş mühacir rus təşkilatlarının (1. "Rusiyanın Hürriyyəti üçün Mücadilə Birliyi". 2. "Milli Əmək Birliyi". 3. "Rus Xalq Hərəkatı". 4. "Xalqın Hürriyyəti üçün Mücadilə Məmiyyəti". 5. "Rusiya Xalqlarının Qurtuluşu üçün Mücadilə Birliyi") və beş də rus olmayan millətlərə mənsub təşkilatların nümayəndələrinin iştirakı ilə konfrans keçirildi. Konfransda ukraynalıların və gürcülərin, türküstanlıların, şimali qafqazlıların tanınmış adamları iştirak etmirdi[66].

Konfransda çıxış edən A.Kerenski "Bölünməz Rusiya" fikrini müdafiə edirdi. Qeyri-rus mühacirlər isə Birləşmiş Millətlər Təşkilatının insan haqlarına aid prinsiplərini müdafiə edirdilər. Konfransın yekunu kimi bir bəyannamə imzalandı. Bəyannaməni azərbaycanlı təmsilçilər də imzaladı.

"Rusiyanın bölünməzliyi" ideyası ilə çıxış edən, Azərbaycanın istiqlalını (eləcə də digər rus məhkumu xalqların) xalqın öz "iç işi" kimi qəbul etməyən, Azərbaycan davasının (yenə digər xalqların) Rusiyanın daxili məsələsi kimi anlayan rus mühacirləri ilə bəyannaməni imzaladığına görə "Milli Birlik Məclisi" M.Ə.Rəsulzadənin şiddətli hücumuna məruz qaldı. Bir çox şəhərlərdə yığıncaqlar keçirildi, təmsilçilərin hərəkəti pislənildi.

"Amerikanın Kommunizm ilə Mücadilə Komitəsi" Başqanı Don Levin 1951-1952-ci illərdə işbirliyi aparmaq üçün M.Ə.Rəsulzadəni İtaliya və Almaniyaya görüşməyə dəvət etmişsə də, Komitənin "Sovetlər Birliyinin mövcud mühafizəsi" prinsipinə dayandığı üçün görüş qəbul edilməmişdi[67].

---

[64] "Азербайджан" жур. Мюнхен, 1952, №6-7, с. 7.
[65] İbrahimli X. Azərbaycan siyasi mühacirəti. B., 1996, s. 200
[66] "Azərbaycan" jurnalı. Ankara, 1991, №28, s. 125.
[67] Müsavat Partiyasının sorğu kitabı. B., 1994, s. 29.

Bu illərdə M.Ə.Rəsulzadə çağdaş Azərbaycan ədəbiyyatının problemləri və tanınmış ədəbiyyat xadimlərimizin fəaliyyəti ilə bağlı dəyərli məqalələr çap etdirdi.

M.Ə.Rəsulzadə 1950-ci ildə nəşr etdirdiyi "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində H.Cavidin, Ə.Cavadın, C.Cabbarlının və başqalarının yazılarındakı sətiraltı mənalarda milli ruha bağlılığın duyulduğunu bildirirdi. Böyük şair H.Cavidin əsərlərində siyasi motivlərin güclü olduğunu vurğulayan M.Ə.Rəsulzadə yazırdı: "Məsələni sonradan başa düşən bolşeviklər pyesin göstərilməsini qadağan edirlər. "Sovet çörəyini yediyi halda tarixin pantürkist tiplərini idealizə etməyə cəsarət edən" şairə sovet tənqidçiləri atəş püskürürdülər"[68].

Bu araşdırmalardan ən mühümü sırasında, heç şübhəsiz, M.Ə.Rəsulzadənin Nizaminin 800 illik yubileyi münasibəti ilə yazdığı, lakin müharibənin çətinlikləri ucbatından 1951-ci ildə nəşr etdirdiyi "Azərbaycan şairi Nizami" monoqrafiyasıdır[69]. Müəllif Nizami yaradıcılığındakı milli və bəşəri dəyərləri dərin elmi təhlil əsasında oxucuya çatdıra bilmişdir.

M.Ə.Rəsulzadənin 1950-ci illərdəki fəaliyyətində bir mühüm təşəbbüs də, şübhəsiz ki, 1952-ci ilin 11-16 dekabrında Münhendə Ümumi Qafqaz Konfransının keçirilməsinə nail olması idi[70]. Milli Azərbaycan Mərkəzi, Gürcüstan Milli–Siyasi Mərkəzi və Şimali Qafqaz Milli Komitəsinin səlahiyyətli nümayəndələri 1920-1921-ci illərdə Sovet Rusiyası tərəfindən təcavüzə uğrayan və işğal altına alınan Qafqaz Cümhuriyyətlərinin istiqlalları uğrundakı mücadilə-



**M.Ə.Rəsulzadənin dəfni. Mart 1955-ci il.**

---

[68] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı, çağdaş Azərbaycan tarixi. B., 1991, s. 62

[69] Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. B., 1991.

[70] Yaqublu N. Müsavat Partiyasının tarixi. B., 1997, s. 237-238.

də birgə fəaliyyətin əsaslarını müəyyən etmək üçün bu konfransı keçirdilər. Konfransda Azərbaycan Milli Mərkəz Başqanı M.Ə.Rəsulzadənin çıxışı maraqla qarşılanmışdı[71].

1953-cü ildə M.Ə.Rəsulzadə Azərbaycan İstiqlalının 35-ci ildönümü münasibəti ilə "Amerikanın səsi" radiosundan Azərbaycan xalqına müraciət etdi.

1954-cü ilin sonlarında "Amerikan Kommunizm ilə Mücadilə Komitəsi"nin yeni Başqanı professor Kuneholt Ankaraya gəlmiş, M.Ə.Rəsulzadə ilə görüşmüşdü. O, komitənin Azərbaycanın istiqlal məsələsinə diqqətli olduğunu ifadə etmiş, onun bu mübarizə önündə layiq olduğu yeri almasını istəmişdi. Bu yaxınlaşmanı qəbul edən M.Ə.Rəsulzadə Komitə ilə yaxın münasibətlər qurmuşdu[72].

**1955-ci il martın 6-da Azərbaycan Milli Qurtuluş hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadə Ankarada vəfat etdi[73].** Ankara radiosu martın 7-də saat 22.[45]-də M.Ə.Rəsulzadənin vəfatı xəbərini bütün dünyaya yaydı[74].

**O, dünyadan köçərkən son dəfə olaraq üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan" sözlərini söyləyib həyata vida etmişdi.**

Qeyd edək ki, M.Ə.Rəsulzadənin Azərbaycanda yaşayan ailəsi Stalin repressiyalarından kənarda qalmadı: oğlu Rəsul 20 yaşında güllələndi, bütün ailəsini, əksər qohumlarını Qazaxıstana sürgünə göndərdilər. Sürgündə M.Ə.Rəsulzadənin analığı Maral xanım, həyat yoldaşı Ümmülbanu xanım vəfat etdi. Bir qızı (Lətifə) soyuqdan donub öldü. Digər qızı Xalidə Bakıya qayıtdıqdan sonra itkin düşdü. Yeganə sağ qalan oğlu Azər isə 1993-cü ildə Qazaxıstanda, Karaqandada dünyasını dəyişdi.



**M.Ə.Rəsulzadənin Ankaranın Əsri qəbiristanlığındakı məzarı.**

[71] "Azərbaycan" jurnalı. Ankara, 1991, №28, s. 123.
[72] Müsavat Partiyasının sorğu kitabı. B., 1994, s. 30.
[73] "Azərbaycan" jurnalı.Ankara, 1955, №12(36), s. 3.
[74] Yaqublu N. Müsavat Partiyasının tarixi. B., 1997, s. 242.

# FƏTƏLİ XAN XOYSKİ

(1875 – 1920)



Görkəmli siyasi və ictimai xadim Fətəli xan Xoyski 1875-ci ilin dekabrın 7-də Şəki şəhərində anadan olub. O, ilk təhsilini Gəncə klassik gimnaziyasında, sonradan isə Moskva Universitetinin hüquq fakültəsində alıb. Universitet təhsilini başa vurduqdan sonra Gəncə, Suxumi, Batum və Kutaisi dairə məhkəmələrində müxtəlif vəzifələrdə çalışıb. O, İkinci Dövlət Dumasının üzvü seçilib.

1918-ci ilin Mayın 28-də Azərbaycan Milli Şurası Azərbaycan Cümhuriyyətinin yaradılması haqqında qərar qəbul edərək ilk Hökumətin təşkilini Nazirlər Şurasının Sədri F.X.Xoyskiyə tapşırıb. O, bu Hökumətdə həm də Daxili İşlər naziri vəzifəsini icra edib.

F.X.Xoyski 1918-ci ilin dekabrın 26-da təşkil olunan Hökumət kabinetində də Nazirlər Şurasının Sədri və Xarici İşlər naziri vəzifəsini icra edib.

O, N.Yusifbəylinin yaratdığı Hökumət kabinetində (24.12.1919 – 01.04.1920) Xarici İşlər naziri vəzifəsini yerinə yetirib.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra F.X.Xoyski Gürcüstana gedib, orada 1920-ci ilin iyunun 19-da bolşeviklərin əli ilə erməni terrorçusu tərəfindən arxadan atılan güllə ilə öldürülüb. Məzarı Tiflisdə Botanika bağı ərazisindəki müsəlman qəbiristanlığındadır.

# NAZİRLƏR ŞURASININ SƏDRİ



F.X.Xoyski gənclik illərində

**Fətəli xan Xoyski** 1875-ci ilin 7 dekabrında (noyabr ayının 25-də) Şəki şəhərində anadan olmuşdur. Fətəli xanın atası İskəndər xan əslən Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Onların soyadları da buradan götürülüb[1].

F.X.Xoyski əvvəl Gəncə klassik gimnaziyasını, 1897-ci ildə isə Moskva Universitetinin hüquq fakültəsini 1-ci dərəcəli diplomla bitirmişdir. O, həmin ildə Yelizavetpol dairə məhkəməsi yanında kiçik məhkəmə məmuru vəzifəsinə təyin edilmişdir. F.X.Xoyski 1907-ci ildə Kutaisidə, Zuqdididə, Suxumidə, Yekaterinodar şəhərində məhkəmə sistemində çalışmışdır.

F.X.Xoyskinin ictimai-siyasi fəaliyyətinin əsas dövrü 1907-ci ildən başlanır. O, həmin ildə Yelizavetpol quberniyasından 2-ci Dövlət Dumasına üzv seçilərək buradakı müsəlman deputatları fraksiyasına daxil oldu (qeyd edək ki, F.X.Xoyski Kadet Partiyasının üzvü idi).

F.X.Xoyski Dumadakı çıxışlarında hökumətin aqrar məsələlərə dair ayrıseçkilik və köçürmə siyasətini kəskin tənqid edirdi.

1907-ci ilin mayın 18-də F.X.Xoyskinin də iştirak etdiyi 173 deputatın imzası ilə Rusiyada milli, dini fərqlərə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğv olunması haqqında Dövlət Dumasına qanun layihəsi təqdim edildi. Həmin qanun layihəsində Rusiya vətəndaşlarının hüquq bərabərliyi, daimi yaşayış üçün yer seçmə azadlığı, dövlət və ictimai xidmət sahələrində bərabərlik, şəxsiyyət toxunulmazlığı, söz və mətbuat azadlığı, təhsil hüququ tələb olunurdu. 1907-ci ilin iyun ayının 3-də II Dövlət Dumasının buraxılması haqqında çar manifesti elan olunduğundan layihə müzakirəyə çıxarılmadı.

F.X.Xoyski bu hadisədən sonra məhkəmə sistemində çalışdı, 1913-cü ilə qədər Yelizavetpolda andlı iclasçı kimi fəaliyyət göstərdi. Elə həmin ildən Bakıya köçüb burada dairə məhkəməsində andlı iclasçı olaraq fəaliyyətini davam etdirdi.

---

[1] Fətəli xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar). B., 1998, s.4.



**F.X.Xoyski (əyləşənlərdən soldan birinci) Rusiya Dövlət Duması üzvləri arasında (sağdan birinci isə Xəlil bəy Xasməmmədovdur), 1907-ci il.**

O, fəaliyyətinin Bakı dövründə şəhərin ictimai və mədəni həyatında, burada yaradılmış xeyriyyə cəmiyyətlərinin də işində fəal iştirak edirdi.

1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra F.X.Xoyski ciddi siyasi fəaliyyətə başladı. O, Bakıdakı Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçildi. O,1917-ci ilin aprelin 15-20-də Bakıda keçirilən Ümumqafqaz Müsəlmanları qurultayında iştirak edib təşkilatçılardan oldu[2].

1917-ci ilin noyabrında Tiflisdə Zaqafqaziya Komissarlığı, 1918-ci ilin fevralın 23-də Zaqafqaziyada qanunvericilik orqanı olan Zaqafqaziya Seymi işə başladı. Zaqafqaziya Seyminə Zaqafqaziyadan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlar daxil idi. Seymin Azərbaycan fraksiyasında 44 deputat təmsil olunurdu ki, oraya F.X.Xoyski də daxil idi.

1918-ci ilin aprelin 22-də Zaqafqaziya müstəqil Federativ respublikası elan edildi, aprelin 26-da isə Zaqafqaziyanın yeni hökuməti təşkil olundu. F.X.Xoyskiyə həmin hökumətdə Ədliyyə naziri vəzifəsi tapşırıldı. Onun bu vəzifədəki fəaliyyəti uzunmüddətli olmadı. 1918-ci ilin mayın 26-da Zaqafqaziya Seyminin son iclasında Seym buraxıldı. Mayın 26-da Gürcüstan öz istiqlaliyyətini elan etdi. Mayın 27-də isə Zaqafqaziya Seyminin azərbaycanlı deputatlarının fövqəladə iclasında onlar Milli Şuranın yaradılmasını elan edərək, Azərbaycanın idarə olunmasını öz üzərlərinə götürdülər. 1918-ci ilin mayın 28-də keçmiş Qafqaz canişinliyinin binasında keçirilən birinci iclasda Azərbaycanın istiqlaliyyəti haqqında bəyanat verildi. F.X.Xoyski Azərbaycan Nazirlər Şurası İcraiyyə Komitəsinin sədri seçildi. Ona

[2] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s.31.

Azərbaycan Cümhuriyyətinin Hökumətini təşkil etmək tapşırıldı. Bu hökumətdə o, Baş Nazir vəzifəsi ilə yanaşı, Daxili İşlər naziri vəzifəsini də icra edirdi[3].

**1918-ci ilin iyunun 16-da Azərbaycan Milli Şurası və Azərbaycan Hökuməti Gəncəyə gəldi.** Gəncədə mayın 25-dən üç yüz nəfər təlimatçı ilə burada olan Qafqaz İslam Ordusunun Baş komandanı Nuru Paşa ilə Azərbaycan hökuməti arasında müəyyən anlaşılmazlıq baş verirdi. Nuru Paşa onlara bir qədər şübhə ilə yanaşırdı. İyunun 17-də Gəncədə Milli Şuranın yeddinci iclası keçirildi və F.X.Xoyski tutduğu vəzifədən istefa verdi. Geniş müzakirədən sonra F.X.Xoyskiyə yeni hökumət təşkil etmək tapşırıldı. Yeni hökumətdə o, Baş Nazir vəzifəsi ilə yanaşı Ədliyyə naziri vəzifəsini də icra edirdi.

Gəncədə çox çətin şəraitdə F.X.Xoyskinin ikinci Hökumət kabinəsi fəaliyyətə başladı və o, ilk növbədə dövlət aparatının təşkili işi ilə məşğul olurdu. Bu müddətdə Nazirlər Şurası ilə yanaşı ayrı-ayrı nazirliklərin də idarə aparatı yaradılırdı.

F.X.Xoyskinin başçılıq etdiyi ikinci hökumət kabinəsi 12 nazirdən ibarət idi (Baş nazirlə birlikdə). Onların 3-ü portfelsiz nazir (yəni müşavir – red) idi – Ə.M.Topçubaşov (bitərəf), M.Rəfiyev (Müsavat), X.Xasməmmədov (Müsavat). Bu müddət ərzində Azərbaycan xalqının həyatında mühüm olan çox ciddi qərarlar qəbul edildi: 1) İyunun 26-dan Azərbaycanda ilk ordu yaradılmasına başlanıldı; 2) İyunun 27-də Türk dili (Azərbaycan dili) dövlət dili elan olundu; 3) Avqustun 28-də tədris müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul olundu; 4) Avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qanuna müvafiq olaraq 19 yaşına çatmış vətəndaşların ordu sıralarına səfərbərliyi elan olundu; 5) İyulun 15-də Fövqəladə Təhqiqat Komissiyası yaradıldı və komissiya 1918-ci ilin martın 31-də Bakıda yerli müsəlmanlara qarşı törədilmiş vəhşilikləri araşdırmağa başladı; 6) Avqustun 30-da Yelizavetpol – Gəncə, Qaryagin qəzası da Cəbrayıl adlandırıldı[4].

**1918-ci ilin sentyabrın 15-də Qafqaz İslam Ordusu Bakını azad etdikdən sonra, sentyabrın 17-də F.X.Xoyskinin başçılıq etdiyi hökumətin Bakıda fəaliyyəti mümkün oldu.**

F.X.Xoyskinin siyasi fəaliyyətinin ən mühüm sahəsi onun Azərbaycan Cümhuriyyətində tutduğu vəzifələrdəki çalışmaları ilə bağlıdır.

F.X.Xoyskinin Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının Sədri imzası ilə ilk sənədi (məktubu) Xarici İşlər naziri M.H.Hacınskiyə ünvanlanıb

[3] Fətəli xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar). B., 1998, s. 7.; Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., Gənclik, 1990, s. 31.

[4] Fətəli xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar). B., 1998, s.8.

(M.H.Hacınski o dövrdə Batumda idi). 1918-ci ilin mayın 29-da yazılan bu məktubda F.X.Xoyski bildirirdi ki, Azərbaycanın müstəqilliyi ilə bağlı teleqramın Tiflisdən göndərilməsinə maneçilik göstərirlər. O, qeyd edirdi ki, həmin teleqram rus və fransız dillərində Sizə çatdırılır və Siz Konstantinopolla birbaşa əlaqəsi olan radio ilə həmin məlumatı yayın. F.X.Xoyski bildirirdi ki, məlumatı Xarici İşlər naziri olaraq Siz özünüz imzalayın. Eyni zamanda o, məktubda Nəsib bəylə X. Sultanovun Yelizavetpola (Gəncəyə) getdiyini, ermənilərlə bütün mübahisələrin həll edilməsi üçün Yerevanın güzəştə getdiyini yazırdı. F.X.Xoyski məktubda müstəqilliklə bağlı sənədin Türkiyə tərəfindən rəsmi dəyərləndirilməsi məlumatını da onlara çatdırmağı və fransızca mətnə hökumətin müvəqqəti yerləşəcəyi yerin Konstantinopol olacağının əlavə olunmasını da xahiş edirdi[5].

**F.X.Xoyskinin Azərbaycan Nazirlər Sovetinin Sədri olaraq 1918-ci ilin mayın 30-da müxtəlif dövlətlərin Xarici İşlər Nazirlərinə Azərbaycanın müstəqil respublika elan olunması haqqında göndərdiyi radioqramması bu məzmunda idi: "Konstantinopol, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristianiya (Oslo), Kopenhagen Xarici İşlər Nazirlərinə. Gürcüstanın ayrılması nəticəsində Zaqafqaziya Federativ Respublikasının dağılması ilə bağlı Azərbaycan Milli Şurası Mayın 28-də Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olmaqla Azərbaycanın müstəqilliyini elan edib. Yuxarıda qeyd olunanla bağlı Sizdən öz hökumətinizi məlumatlandırmağınızı xahiş edirəm. Mənim hökumətimin müvəqqəti olacağı yer Yelizavetpol olacaq. Azərbaycan Respublikası Nazirlər Sovetinin Sədri Fətəli xan Xoyski"[6].**

F.X.Xoyskinin 1918-ci ilin iyulun 11-də İstanbulda Azərbaycan Nümayəndə Heyətinin sədri M.Ə.Rəsulzadəyə göndərdiyi təlimatda isə Türkiyədə Azərbaycan bonlarının (pulunun – red) hazırlanması ilə bağlı sifarişin verilməsi zərurəti qeyd olunurdu. F.X.Xoyski yazırdı ki, hökumətin pula ciddi ehtiyacı vardır. O, Ümumzaqafqaziya bonlarından Azərbaycana az ayrıldığına görə hazırda ölkənin pulsuz vəziyyətdə olduğunu qeyd edirdi. Təlimatda bildirilirdi ki, yeni bonların hazırlanması ilə bağlı gürcülərlə və ermənilərlə aparılan danışıqlar nəticə vermədiyindən yalnız Türkiyənin köməyinə ümid edilir[7].

F.X.Xoyskinin 1918-ci ilin 31 iyulunda Gəncədən İstanbula M.Ə.Rəsulzadəyə göndərdiyi məktubda isə ermənilərlə ərazi mübahisələrinin həlli formalarına

---

[5] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 4, v. 1-2.
[6] Yenə orada, s. 1, i. 5, v. 1.
[7] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 277, s. 2, i. 21, v. 4-5.

toxunulurdu: "Çox hörmətli Məmməd Əmin! İki gün əvvəl Məmməd Həsən (Hacınski – red.) cəbhəyə getdi, bu gün axşam mən oraya gedirəm. Bizim qoşunlar Bakıya yaxınlaşaraq Qobunu, Xırdalanı və Sumqayıtı tutublar, dəmiryol xətti ilə isə Hacıqabul və Ələtdədirlər. Ümid edirik ki, fövqəladə bir hadisə baş verməsə, 3-4 gündən sonra Bakını ələ keçirəcəyik. Mənim qohumumla göndərdiyin məktub və qəzetləri aldım. Azərbaycanın sərhədləri qeyd olunmuş və xahiş etdiyiniz xəritələrin hərəsindən bir ədəd göndərirəm ki, hər vasitə ilə Siz müdafiə edəsiniz. Əgər ermənilər Qarabağa iddia etsələr, onda Yerevanın və Qazaxın bir hissəsinin güzəşt olunmasından imtina edin. Əgər ermənilər razılaşmanı pozmazlarsa, onda Yerevan qəzasının xəritədə işarələnmiş hissəsini güzəştə getmək olar.

Sizə demək lazımdır ki, ermənilər sakitləşmir, orada-burada müsəlmanları və onların yaşadıqları kəndləri, evləri güllələyirlər. Bu günlərdə yenidən Yeni Bayazid qəzasında bir neçə müsəlman kəndini məhv ediblər. Onların generalı Andronik öz qoşunlarını Zəngəzur qəzası tərəfdən Yerevan və Yelizavetpol quberniyalarına çəkir və Gorusa yaxınlaşır. Biz hələlik Bakı məsələsi ilə məşğul olduğumuzdan kəskin qərar qəbul edə bilmirik. Allah özü kömək olsun, bu əməliyyat qurtaran kimi ümid edirik ki, bu qərəzli erməni hərəkatını aradan götürəcəyik. Gürcülərə gəldikdə isə, onlarla lap pisdir, bizim aramızda formal şəkildə iqtisadi-gömrük müharibəsi var; sərhədlərin müəyyənləşdirilməsi, əmlakın bölüşdürülməsi, bonun buraxılması və s."[8].

F.X.Xoyskinin M.Ə.Rəsulzadəyə yazdığı məktublarda Azərbaycan hökumətinin ciddi problemlərlə qarşılaşdığı görünməkdədir. Onun 1918-ci ilin 23 avqustunda İstanbula – M.Ə.Rəsulzadəyə göndərdiyi məktubda Bakı məsələsinin vacibliyi, ermənilərin Qarabağdan hərəkət edərək Zəngəzurun bir hissəsini tutduğu və bununla da Şuşa qəzası ilə əlaqənin kəsildiyi vurğulanırdı.

Qeyd edək ki, Bakı uğrunda aparılan savaş uğurla başa çatdı. Nuru Paşanın başçılığı altında Qafqaz İslam Ordusu Azərbaycan döyüşçülərinin də fədakarlığı ilə 1918-ci ilin sentyabrın 15-də Bakını azad etdi. Bu münasibətlə F.X.Xoyski Azərbaycan Respublikasının Tiflisdəki diplomatik nümayəndəsi M.Y.Cəfərova aşağıdakı məzmunda teleqram göndərdi: "Tiflis. Gəncədən Azərbaycan Respublikasının nümayəndəsinə. №158. 15 sentyabrda qəbul edilib (№9/363). 15-də 11.5 dəqiqədə ötürülüb. Olduqca təcili. Sentyabrın 15-də, saat 9-da Bakı qo-

[8] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 277, s. 2, i. 7, v. 37-38.

şunlarımız tərəfindən alınıb. Xahiş edirəm rəsmi məlumatlandırın. Nazirlər Sovetinin Sədri Xoyski"[9].

Bu hadisədən bir müddət sonra I Dünya müharibəsinin başa çatması ilə imzalanan Mudros müqaviləsi əsasında (30 oktyabr, 1918-ci il) ingilis qoşunları Bakıya daxil olurdu. F.X.Xoyskinin ingilis qoşunlarının komandanı general Tomsona göndərdiyi teleqramda onların noyabrın 17-də Bakıya daxil olmasına etiraz etmədiyini və bunun Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə mane törətməyəcəyi qeyd edilirdi. General Tomson isə göndərdiyi cavab teleqramında ona təşəkkür edir və qarşılıqlı əməkdaşlığa əsaslanan münasibətin olacağına toxunurdu.




**F.X.Xoyskinin imzaladığı sənəd.**

1918-ci ilin 17 noyabrında Nazirlər Şurasının Sədri F.X.Xoyskinin və Daxili İşlər naziri B.Cavanşirin Azərbaycan Respublikası adından Bakıya Müttəfiq qoşunların daxil olması haqqındakı rəsmi məlumatda yazılırdı: "Azərbaycan hökuməti ilə Müttəfiq qoşunların Ənzəlidəki təmsilçisi general Tomsonla aparılan danışıqlarda əldə olunan razılaşmaya əsasən bu gün səhər noyabrın 17-də Azərbaycan paytaxtına başda general Tomson olmaqla Müttəfiq qoşunların dəstəsi daxil olur. Müttəfiq qoşunların bu daxil olması Azərbaycanın müstəqilliyini, ərazi toxunulmazlığını pozan düşmənçilik aktı kimi qəbul edilə bilməz. Bütün dövlət və ictimai müəssisələr əvvəllər olduğu kimi qaydasında işləyəcək. Şəhərdə qayda-qanunun saxlanılması üçün hökumət tərəfindən bütün tədbirlər görüləcək. Hökumət bütün vətəndaşları sakitlik qaydalarını qorumağa, eləcə də müttəfiq dəstələri dostluqla qarşılamağa çağırır. Nazirlər Sovetinin Sədri F.X.Xoyski. Daxili İşlər naziri B.Cavanşir"[10].

**1918-ci ilin noyabrın 19-da keçirilən Milli Şuranın iclasında Azərbaycan Parlamenti yaradılması haqqında Azərbaycan hökumətinin qanun layihəsi bəyənildi.**

**Qeyd edək ki, Azərbaycan dövlətçiliyinin inkişafı baxımından 1918-ci ilin dekabrında Azərbaycan Parlamentinin yaranıb fəaliyyət göstərməsinin çox böyük əhəmiyyəti oldu.**

**1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamentinin təntənəli açılış mərasimi keçirildi. Azərbaycan Milli Şurasının Sədri M.Ə.Rəsulzadənin**

---

[9] Azərbaycan Respublikası Dövlət Arxivi, f.897, s. 1, i. 22a, v. 4.

[10] Azərbaycan Respublikası Dövlət Arxivi, f.2894, s. 6, i. 17, v. 6-7.

**açılış nitqindən sonra söz Nazirlər Şurasının Sədri F.X.Xoyskiyə verildi. O, sürəkli və gurultulu alqışlar altında bu çıxışı etdi: "Möhtərəm Azərbaycan Parlament üzvləri! Bu gün elə böyük, əziz və mübarək gündür ki, bunu biz azərbaycanlılar yuxumuzda da görməzdik. Bu gün o gündür ki, milli müqəddəratınızı öz əlinizə aldınız. Hökumət məni vəkil etmişdir ki, bu bayram münasibəti ilə sizi və sizinlə bərabər özümüzü təbrik edək (alqış). Hökumət sizin hüzurunuzda məsul olduğundan, borcludur öz fəaliyyəti və nə kimi şərait altında işlədiyi haqqında sizə bəyanat versin. Mən bu gün ümum hökumətin fəaliyyəti haqqında sizə müfəssəl məlumat verməyəcəyəm, hər vaxt istəsəniz hər nazir öz nəzarətinin fəaliyyəti haqqında məruzə təqdim edəcəkdir. Mən isə bu gün ancaq hökumətimizin nə kimi şərait altında təşəkkül edib fəaliyyətdə olduğunu və müxtəsər tarixini ərz edəcəyəm"[11].**

F.X.Xoyski çıxışında Azərbaycanın istiqlal elan etdikdən sonra düşdüyü ağır vəziyyətini, "bir kənddən digərinə getməyin qorxulu olduğunu", "dəmir yolunun tamamilə yatdığını", "dövlət idarələrinin dağılmasını", "hər kəsin özü-özünə hökumət olduğunu" qeyd etdi. F.X.Xoyski belə bir vəziyyətdə bütün Azərbaycan təmsilçiləri tərəfindən seçilən Milli Şuranın hökuməti təyin edib məmləkətin müqəddəratını ona tapşırdığını bildirdi. O, qeyd etdi ki, **qısa müddətdə Türkiyə ilə müzakirələr aparıldı, sülh bağlandı, silah olmadığından qanun və asayişin bərpası mümkün olmurdu, bundan ötrü türklərə müraciət edildi, Bakı əlimizə keçdi.**

**F.X.Xoyski həmin dövrdə vəziyyətin necə ağır olduğunu belə ifadə edirdi: "Belə ağır vəziyyətlə bərabər, təlatüm içində qayalar arasında nazik taxta qayıqda gedən dəmirçi vəziyyətində olan hökumət qayığını elə aparmalı idi ki, daşa dəyib dağılmasın"[12].**

**F.X.Xoyski qeyd edirdi ki, o dövrdə zəif olduğumuzdan bizə təzyiq edənlərə qarşı dözür, onların tamahı və tələblərinə qarşı "Azərbaycan azərbaycanlılar üçündür!" şüarını qoyurduq.**

**O, Azərbaycan Parlamentinin açılışındakı çıxışını bu sözlərlə yekunlaşdırdı: "Hökumətin fəaliyyətində nə qədər qüsur və nöqsan olmuşsa da, yol göstərən işıqlı ulduzu olmuşdur: millətin hüququ, istiqlalı və xeyri!"[13].**

---

[11] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920), I c. B., 2015, s. 94-99.

[12] Yenə orada, s. 98.

[13] Yenə orada, s. 100.


F.X.Xoyskinin imzaladığı sənəd.

1918-ci ilin 13 dekabrında Azərbaycan Parlamentinin sədr müavini H.Ağayev F.X.Xoyskinin Baş Nazir vəzifəsinə namizədliyi münasibəti ilə məktub yazdı. Lakin F.X.Xoyski H.Ağayevə təşəkkürünü bildirərək sağlamlığının bu vəzifəni yerinə yetirməsinə imkan vermədiyini bildirdi. O, eyni zamanda bütün gücünü xalqa xidmətə həsr edəcəyini də qeyd edirdi.

Dekabrın 18-də H.Ağayev F.Xoyskiyə Baş Nazir vəzifəsini qəbul etməsi ilə bağlı təkrar müraciətində bildirirdi: "Yeni hökumət təşkili üçün zati-alilərinizə 13 qanunda (dekabrda – red.) müraciət yazdığım məktubuma rədd cavabı almağa baxmayaraq, təkrarən zat-alilərinizdən millət naminə rica edirəm ki, vətənin bu ağır zamanında hökumət təşkili kimi məsuliyyətli bir vəzifədən bərkənar olmayıb, yeni müştərək bir Kabinə təşkilini öhdənizə götürəsiniz. Zati-alinizdə qərar müraciətimi Parlaman funksionlarının hamısının müttəfiqül-rəy və müştərəkən zat-alilərinin namizədliyini qəbul edib və tələb etməsi təzyidindən dolayı ricamın qəbulu ümidindəyəm, əfəndim!.. Parlaman rəisi adına H.Ağayev"[14].

**Bu müraciətlərdən sonra F.X.Xoyski razılaşdı və 1918-ci ilin dekabrın 26-da növbəti hökuməti formalaşdırdı. Onun sədrliyi ilə təşkil edilən Nazirlər Şurasında F.X.Xoyski həm də Xarici İşlər Naziri vəzifəsini yerinə yetirirdi. Onun formalaşdırdığı hökumət müxtəlif partiya və təşkilatları təmsil edən aşağıdakı nazirlərdən ibarət idi: 1) X.Xasməmmədov (Müsavat) – Daxili İşlər naziri 2) İ.Protasov (Slavyan-Rus Cəmiyyəti) – Maliyyə naziri 3) X.Məlikaslanov (bitərəf) – Yollar naziri 4) T.Makinski – Ədliyyə naziri 5) N.Yusifbəyli (Müsavat) – Maarif və dini etiqad naziri 6) A.Səfikürdski (sosialist) – Poçt-teleqraf və əmək naziri 7) S.Mehmandarov (bitərəf) – Hərbi nazir 8) R.Xoyski (bitərəf) – Sosial-təminat naziri 9) Y.Gindes (Slavyan-Rus Cəmiyyəti) – Xalq Səhiyyəsi naziri 10) M.Əsədullayev (bitərəf) – Ticarət və sənaye naziri 11) M.H.Hacınski (16.01.1919 tarixindən – Ə.Həsənov) – Dövlət müfəttişi 12) K.Lizqar (Slavyan-Rus Cəmiyyəti) – Ərzaq naziri 13) X.Sultanov (Müsavat) – Əkinçilik naziri[15].**

[14] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 277, s. 2, i. 17, v. 84.
[15] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s. 92.

F.X.Xoyskinin bir dövlət xadimi kimi fəaliyyətinin öyrənilməsində parlamentdəki çıxışları da çox önəmlidir.

O, növbəti dəfə Azərbaycan Parlamentinin dekabrın 20-də keçirilən 4-cü iclasında çıxış etdi. İclası parlamentə sədrlik edən H.Ağayev açdı. H.Ağayev iclasın fövqəladə keçirilməsinin iki səbəbi olduğunu vurğuladı: birincisi, erməni və gürcü millətləri arasında əlaqələrin pozulub münasibətlərin gərginləşməsi, ikincisi isə ermənilərdən olan bəzi məsuliyyətsiz dəstələrin vəhşilikləri, Andronikin komandanlığı altında qoşunun Azərbaycan Cümhuriyyəti hüdudunu keçib Zəngəzur, Şuşa və Cəbrayıl qəzalarında kəndləri xaraba qoyması, köməksiz xalqı qətlə yetirməsi.

Nazirlər Şurasının Sədri F.X.Xoyski parlamentin fövqəladə iclasında Qarabağ və Zəngəzurda Andronik ordularının hərəkətləri haqqında məlumat verdi. O, çıxışında dedi: "Zəngəzur əhvalatı təzə bir şey deyil. Bu, çoxdan başlamış bir işdir. Burada oturan məbuslara məlumdur ki, vaxtilə bir para ermənilər tərəfindən Qarabağ haqqında bir məsələ qaldırılmış idi. Hələ iyul ayında Andronik başına bir dəstə çətəçi yığaraq İrəvan quberniyasından Gəncə quberniyasının hüduduna keçdi. Burasını deməliyəm ki, Andronik Türkiyə təbəəsidir. O vaxt Azərbaycan hökuməti hələ Gəncədə ikən erməni hökumətinə müraciətlə isti cavab etmişdir ki, Andronik sizin tərəfinizdən bu işi görür, yoxsa bu hərəkətlər onun öz təşəbbüsüdürmü və onun qoşunları erməni hökumətinə tabedirmi, yoxsa onun hərəkətləri, şəxsi təşəbbüsləri və adi üsyan kimidirmi? Erməni hökuməti cavab verdi ki, Andronikin erməni hökuməti ilə heç bir əlaqəsi yoxdur, özü də bir asidir. Erməni hökuməti özü də onun rədd edilməsini və üsyanın yatırılmasını istəyir. Fəqət gücü yoxdur, iş görə bilmir"[16].

F.X.Xoyski çıxışında qeyd etdi ki, Azərbaycan əskəri qüvvələri Bakını azad etməklə məşğul olduğundan, Andronikin Zəngəzurdakı vəhşiliklərinin qarşısını ala bilmirdi. Sentyabrda Bakı alınandan sonra Androniki Şuşa qəzasından və Zəngəzur mahalından qovmaq mümkün oldu. Noyabrın 20 və 23-dən sonra Andronik yenə peyda oldu. F.X.Xoyski bu məsələlərlə bağlı ingilis hərbi qüvvələrinin komandanı general Tomsonu məlumatlandırdığını, onun isə dərhal tədbirlər görməyin vacibliyini söylədiyini qeyd edir. F.X.Xoyski çıxışında Andronikin başçılıq etdiyi quldur dəstələrinin planlarını açıqladı: "Aşkar fikirləri budur ki, Zəngəzur və Şuşa qəzalarını Azərbaycandan ayırıb, Ermənistana birləşdirsinlər". **F.X.Xoyski qətiyyətlə bildirir: "...Biz var qüvvəmizlə Azərbaycanın**

---

[16] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 1, v. 38-48.

**hüququnu müdafiə edəcək və heç kəsə yol verməyəcəyik ki, kənardan gələnlər Azərbaycanın hüququna təcavüz etsinlər".**

F.X.Xoyski 1918-ci ilin dekabrın 26-da Azərbaycan Parlamentinin beşinci iclasında yeni təşkil etdiyi hökumətin proqramı və tərkibi haqqında məruzə etdi. Həmin məruzəsində o, çətin və qorxulu vaxtda təzə kabinə təşkilini üzərinə götürdüyünü və bunun böyük məsuliyyət olduğunu söylədi. O, qeyd etdi ki, Sülh konfransında ən mühümü istiqlalımız məsələsi olacaqdır. Sonra çıxışında dedi: "Azərbaycan istiqlaliyyəti ondan ibarət deyil ki, özümüz ilə özgə dövlətlər arasında bir divar yapaq. Aşkardır ki, müstəqil Azərbaycan hökuməti özgə dövlətlər ilə əlaqəyə girməyə çalışacaqdır. Bu əlaqə əvvəlcə qonşu Rusiyada təşkil olunan məmləkətlər və Rusiyanın özü ilə də olacaqdır. Özgə məmləkətlər ilə olacaq əlaqə bir tək hökumətin vəzifəsi olmayıb, sizin qüvvəniz və göstərdiyiniz yol ilə hasil olacaqdır. **Bu istiqlaliyyətin hamımız üçün əziz və sevgili olduğuna əminiz**"[17].

F.X.Xoyski yeni hökumətin fəaliyyətində daxili işlərə diqqətin artırılacağını, Maarif nəzarəti sahəsində ana dilində məktəb açılması vacibliyini, ərzağın ədalətli bölgüsünün aparılacağını, ədliyyə nəzarətinin gücləndiriləcəyini, torpaq məsələsinin qəti surətdə həll ediləcəyini qeyd etdi və çıxışının sonunda yeni kabinənin üzvlərinin adlarını açıqladı.

F.X.Xoyski 1919-cu ilin 25 yanvarında Azərbaycan Parlamentinin doqquzuncu iclasında Müttəfiq ölkələrin Balkan yarımadası və Qafqazdakı qoşunlarının baş komandanı C.Milnlə görüşləri haqqında bəyanatla çıxış etdi. Qeyd etdi ki, görüş zamanı general İngiltərə hökumətinin Azərbaycan Cümhuriyyəti hökumətini tanıdığını və bundan başqa bir hökuməti tanımayacağını söylədi. F.X.Xoyski generala "İngiltərə və müttəfiq qoşunlarının Qafqasyaya nə məqsədlə gəlib?" sualı ilə müraciət etdikdə, onun belə cavab verdiyini qeyd etdi: "Bizim Qafqasyaya gəlməkdə məqsədimiz asayiş və sakitliyi qorumaqdır. Yenə təkrar edirəm, Sizin daxili işlərinizə qarışmayacağıq".

Azərbaycan Parlamentinin fevralın 4-də keçirilən on ikinci iclasında hökumətin Ermənistanda diplomatik nümayəndəliyinin təyini məsələsinin gecikdirilməsinə qarşı çıxan müxalifət nümayəndələrinin tənqidinə F.X.Xoyski belə cavab verdi: "Biz Ermənistana nümayəndə təyin etmək istəmişik, amma o hökumət cavab verməmişdir. Təkrar noyabr ayında müraciət edilmiş, yenə cavab çıxmamışdır"[18].

---

[17] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 1, v. 50-57.
[18] "Azərbaycan" qəzeti, 6 fevral 1919, №107.

Azərbaycan Respublikası Parlamentinin fevralın 5-də davam edən on ikinci iclasında F.X.Xoyski müxalifət nümayəndələrinin tənqidini cavablandırdı. O, qeyd etdi ki, hökumətə parlamentdə sorğu vermək ona bir köməkdir, lakin bədxahlıq sorğuları ilə iş heç zaman irəli getməz.

**F.X.Xoyski çıxışında dedi: "Siz bunu bilirsiniz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükədədir. Biliniz, indi elə vaxtdır ki, nəinki bez və çit, hətta elə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlalımız gedər. Belə mühüm zamanlarda hökumət işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olarmı? Bu məqamda bu cür sorğu verilir, aşkardır ki, bu, xeyirxahlıq fikri ilə verilmiş xeyirxahanə sorğu deyildir"[19].**

F.X.Xoyski Azərbaycan Parlamentinin 1919-cu ilin 18 fevralında Bakıda Denikin könüllüləri və ermənilərin fəallaşması ilə yaranan narahatlıqla da əlaqədar çıxış etdi: "Hökumətin nə qədər imkanı var çalışır ki, xəta yetirən təşkilatlar buradan rədd olsunlar və heç kəsin ixtiyarı olmasın bizdən iznsiz burada özbaşına işlər görsün. Hökumət bu barədə tədbirlər görür və görəcəkdir"[20].

Azərbaycan Parlamentinin 1919-cu ilin 6 martında keçirilən iclasında Denikin ordularının Dağıstana hücumu ilə əlaqədar yaranmış vəziyyət haqqında F.X.Xoyski öz münasibətini bildirdi. O, çıxışında Azərbaycana yaxın dost və həmdin olan Dağıstan Cümhuriyyətinə Denikin ordularının hücumu haqqında məlumat verdi. O, general Tomsona bir məktub yazdığını və orada bu fikrə əsaslandığını dedi: "Aşkardır ki, Dağıstan hökumətinə dəyən zərbə bizə dəymiş kimidir. Azərbaycanın nə Hökuməti, nə də Parlamenti qoymayacaqdır ki, onların hüququ tapdalansın. Var qüvvəmizlə onlara kömək edəcəyik"[21].

Azərbaycan Parlamentinin 1920-ci ilin 14 yanvarında Paris Sülh konfransı tərəfindən Azərbaycan istiqlaliyyətinin tanınmasına həsr olunmuş təntənəli iclasında F.X.Xoyski çıxış etdi və bu sözləri söylədi: "Möhtərəm məbuslar! May ayının 28-də, 1918-ci ildə Azərbaycan xalqı öz istiqlaliyyətini aləmə məlum etmişdir. Məlum etməklə onu özgə millətlər tərəfindən təsdiq etdirməyin çox qayəti vardır. İstiqlalını elan etdikdən sonra bir millət gərək cəmi aləmə göstərsin və isbat etsin ki, dörd həqiqət özünün istiqlaliyyətə layiqi vardır. Bu surətdə onun istiqlalı təsdiq edilə bilər. Habelə bu bir il on ay müddətində Azərbaycan milləti öz həyatını, dolanacağını Avropaya, cəmi mədəniyyət aləminə məlum edib özünü öylə göstərdi ki, Avropa onun həqqini verməklə və istiqlalını təsdiq etməyə vadar oldu"[22].

---

19 "Azərbaycan" qəzeti, 19 fevral 1919, №117.

20 Yenə orada, 24 fevral 1919, №121.

21 Azərbaycan Respublikası Dövlət Arxiv, f. 895, s. 1, i. 9, v. 44.

22 "Azərbaycan" qəzeti, 18 yanvar 1920, №14.

Azərbaycan Parlamentinin 1920-ci ilin 15 aprelində keçirilən iclasında F.X.Xoyski İran və Azərbaycan arasında müqavilələrin imzalanması və bu müqavilənin hər iki tərəf üçün faydalı olduğunu qeyd etdi.

F.X.Xoyski bildirdi ki, İranla altı müqavilə imzalanmışdır: ticarət, poçt və teleqraf, gömrük, tranzit və s. O, parlament üzvlərini məlumatlandırdı ki, İran hökuməti artıq Azərbaycan istiqlalını tanıyır.

Qeyd edək ki, F.X.Xoyski parlamentin açılışından sonra formalaşdırdığı üçüncü Hökumət kabinəsinin də fəaliyyətini yüksək səviyyədə təşkil etdi. 1919-cu ilin yanvarın 5-də onun başçılığı ilə Azərbaycanın Paris Sülh Konfransındakı nümayəndəliyi üçün təlimat hazırlandı. Həmin təlimatın 2-ci bəndində qeyd olunurdu: **"Bütün güc və bacarıqla Azərbaycanın tam müstəqilliyinə nail olub müdafiə etmək**".

F.X.Xoyski 1919-cu ilin fevralın 15-də Bakının Hərbi qubernatoru V.İ.Tomsona ünvanladığı məktubda Könüllü Ordu və erməni xadimləri tərəfindən icazəsiz döyüş hissələrinin yaradılmasına etirazını bildirirdi. O, qeyd edirdi ki, Könüllü Ordunun nümayəndələri olan Prijevalski və digərləri Bakının müxtəlif rayonlarında müəyyən adamlara silahlar paylayır və onların fəallığı ilə döyüş hissələrində güclü hazırlıq aparılır. O, Tomsonu məlumatlandırırdı ki, vaxtilə Azərbaycanın müsəlman əhalisinin qətlə yetirilməsində fəallıq göstərən erməni xadimi Amazasp da erməni əhalisini qeydə alır, onları silahlandırır, hərbi güclər yaradır. F.X.Xoyski cənab Tomsondan bu vəziyyətin qarşısını almağı xahiş edirdi.

1919-cu ilin martında F.X.Xoyski Nazirlər Şurasının Sədri vəzifəsindən uzaqlaşdı və N.Yusifbəylinin başçılığı altında yeni hökumət formalaşdı. Yaradılan 4-cü hökumətdə F.X.Xoyski nazir olaraq çalışmasa da, o, yenə dövlət quruculuğundan kənarda qalmadı. F.Xoyski 1919-cu ilin 25 aprelində Tiflisdə keçirilən Zaqafqaziya Konfransında iştirak etdi.

1919-cu ilin mayın 5-də F.X.Xoyski general Tomsonla görüşdü. Bu görüşdə beş əsas məsələyə toxunuldu: 1) Dəmiryol. 2) "Azərbaycan" qəzetində siyasi partiyaların Denikinlə mübarizə üçün Dağlı Hökumətinə kömək çağırışlarının çap olunması. 3) Dağlı Respublikasının müstəqilliyinə münasibət 4) Ermənilərin Naxçıvan ərazisini tutması. 5) Ordunun təchizatı.

General Tomson F.X.Xoyskiyə Azərbaycan hökumətinin dəmiryolu ilə bağlı razılaşma imzalanmasını gecikdirməyindən narahatlığını və bunun nəticəsində Azərbaycanın iqtisadi maraqlarına zərər dəydiyini söylədi.

İkinci məsələdə isə general Tomson Dağlı Hökumətinə kömək üçün dəstələrin yaradılması çağırışlarından və bu dəstələrin bolşevizmi gücləndirəcəyindən narahatlığını bildirirdi .

Üçüncü məsələdə Tomson Dağlı Respublikasının güclü olmadığını və yəqin ki, yıxılacağını söylədi. O, qeyd etdi ki, orada qarşılıqlı əlaqələri hələ müəyyənləşməyən xalqların bəzilərinin bolşevizmə də müxtəlif münasibətləri mövcuddur.

Dördüncü məsələdə isə Tomsonun Naxçıvan rayonunun idarəçiliyinin müvəqqəti olaraq ermənilərə verilməsi bildirilirdi. F.X.Xoyskinin əsaslı faktlarından sonra Tomson onunla razılaşdığını və bu məsələ ətrafında ciddi düşünəcəyini söylədi. F.X.Xoyski Tomsonun diqqətinə Qarabağda ermənilərin xalq arasında mövcud Azərbaycan hökumətinin tanınmaması təbliğatını apardıqlarını söylədi. Tomson bildirdi ki, onun sərəncamı əsasında orada bu işi aparanlar uzaqlaşdırılacaqlar.

1919-cu ilin 14 dekabrında Bakıda Azərbaycan-erməni konfransının ilk iclası keçirildi. Həmin konfransda ilk çıxışı F.X.Xoyski etdi. O, çıxışında hər iki xalq arasında müxtəlif görüşlərin, toplantıların keçirilməsinə baxmayaraq, nəticəsiz olduğunu qeyd etdi. **F.X.Xoyski o məqamı da vurğuladı ki, Zaqafqaziya xalqlarının marağı öz aralarında möhkəm dostluq münasibətlərinin yaradılmasını tələb edir.**

**F.X.Xoyski fikrini belə ifadə edirdi: "Mən bir an da olsun şübhə etmirəm ki, Qafqazın azadlıqsevər oğulları üçün – o, istər azərbaycanlı, dağlı, erməni və gürcü olsun – onların hamısı üçün müstəqil mövcud olmaq və müstəqillik ideyası çox dəyərlidir"**[23].

1919-cu ilin 24 dekabrında N.Yusifbəylinin yenidən formalaşdırdığı Nazirlər Şurasında Xarici İşlər naziri vəzifəsi F.X.Xoyskiyə tapşırıldı (həmin vaxta qədər o vəzifəni M.Y.Cəfərov icra edirdi).

F.X.Xoyskinin yeni vəzifədə ilk fəaliyyəti Zaqafqaziya respublikaları Konfederasiyasının yaradılması ilə bağlı çalışmaları oldu. Bu mənada onun 1919-cu ilin 30 dekabrında Gürcüstan və Ermənistan Xarici İşlər Nazirlərinə mövcud problemin öz hökumətlərində müzakirə edilib məlumatlandırma xahişi ilə bağlı teleqramı böyük əhəmiyyət daşıyırdı. O, bu teleqramında həmin ideyanın dəstəklənəcəyi təqdirdə Zaqafqaziya respublikaları nümayəndələrinin konfransının keçirilməsini mümkün sayırdı.

1920-ci ilin yanvarın 7-də Xarici İşlər naziri F.X.Xoyski Azərbaycanın diplomatik nümayəndəsi F.Vəkilova təcili teleqram göndərib Britaniya və Gürcüstan hökumətlərinin RSFSR-lə münasibətlərinin yaradılmasını aydınlaşdırmağı xahiş etdi.

1920-ci ilin yanvarın 14-də F.X.Xoyski RSFSR-in Xarici İşlər naziri Q.V.Çiçerinə aşağıdakı məzmunda nota göndərdi. Əslində bu, Q.V.Çiçerinin yanvarın 2-də

---

[23] Azərbaycan Respublikası Dövlət Arxivi, f 970, s. 1, i. 95, v. 52-54.

Azərbaycan hökumətinə göndərdiyi radioteleqrama (notaya) cavab idi: "Yanvarın 2-də göndərdiyiniz və yanvarın 6-da aldığım radioqrammanıza aşağıdakı cavabı verirəm: Azərbaycan xalqı böyük tarixi hadisələrin gedişində böyük qurbanların və iztirabların bahasına azadlığına və müstəqilliyinə nail olub, öz dövlət quruculuğu əsasında demokratik respublika yaratdı. Xalqların öz müqəddəratını təyinetmə hüququ əsasında Azərbaycan Respublikası bu məqama üstünlük verir ki, hər bir xalqın öz taleyini və həyatını müəyyənləşdirmək hüququ var. Buna görə Azərbaycan hökuməti onun daxili işlərinə kənardan müdaxiləyə imkan verməz və həmişə də başqa xalqların daxili işlərinə qarışmamağın tərəfdarıdır. Bu prinsipdən çıxış edərək Azərbaycan hökuməti rus xalqının öz daxili həyatında apardığı mübarizəyə müdaxiləni qəbul edə bilməz.

Neytral bir dövlət olmaqla Azərbaycan Respublikası qətiyyətlə öz azadlığını və müstəqilliyini hər müdaxilədən qorumaq istəyindədir. Bax, buna görə də Azərbaycan xalqı onun müstəqilliyinə təhlükə yaradan çar generalı Denikinlə gərgin mübarizə apardı və bu məqsədlə mübarizənin uğurlu olması üçün qonşu Gürcüstan hökuməti ilə hərbi müdafiə ittifaqı yaratdı.

Azərbaycan hökumətinin xarici siyasətinin yuxarıdakı istiqamətləri ondan Azərbaycan xalqı ilə başqa xalqların arasında xeyirxah münasibətlərin yaradılmasını tələb edir. Buna görə də Azərbaycan Respublikası hökuməti danışıqlar yolu ilə Azərbaycan və rus xalqları arasında hər iki dövlətin suverenlik prinsiplərindən yaranan xeyirxah qonşuluq münasibətlərinin yaranmasına tərəfdardır"[24].

F.X.Xoyskinin 1920-ci ilin fevralın 5-də RSFSR-in Xarici İşlər Naziri Q.Çiçerinə göndərdiyi növbəti cavab-notada Azərbaycanın suverenliyi və müstəqilliyi yenə əsas olaraq səslənirdi.

F.X.Xoyskinin 1920-ci ilin fevralın 26-da Ermənistanın Xarici İşlər Naziri A.Xatisova göndərdiyi teleqramda Zəngəzur qəzasında yaşayan müsəlmanların müdafiəsi üçün oraya Azərbaycan qoşunlarının istiqamətləndirildiyi qeyd olunurdu. O, qeyd edirdi ki, bizim hökumətimiz 23 noyabrdan olan razılaşmanı yerinə yetirir. Lakin həmin müddətdən bu günə qədər erməni qoşunları Zəngəzurda 40 müsəlman kəndini məhv edib. Teleqramda müsəlmanlar yaşayan digər kəndlərin məhvinin qarşısının alınması üçün müəyyən sayda Azərbaycan Ordusunun həmin bölgəyə göndərildiyi bildirilirdi.

1920-ci ilin martın 7-də F.X.Xoyski növbəti dəfə RSFSR-in Xarici İşlər Naziri Q.Çiçerinə cavab notası göndərdi. O, bu notasında da Azərbaycan hökumətinin

[24] Azərbaycan Respublikası Dövlət Arxivi, f.970, s 1, i. 157, v. 42.; "Азербайджан", газета, 1920, 14 января.

rus və Azərbaycan xalqları arasında mehriban dostluq münasibətləri yaradılmasına tərəfdar olduğunu vurğulayırdı[25].

F.X.Xoyskinin 1920-ci ilin 14 martında hazırladığı sənədində Azərbaycan dövlətçiliyi baxımından böyük əhəmiyyəti var idi. Həmin sənəd belə adlanırdı: "Azərbaycan Respublikasının Qərbi Avropada və Amerikada diplomatik missiyanın təsis olunması və Azərbaycan nümayəndəliyinin Paris Sülh Konfransında yaradılması haqqında olan qanun layihəsi ilə bağlı F.X.Xoyskinin izahedici məktubu". Bu sənəddə o, Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması istiqamətində fəaliyyətin davam etdirilməsini vacib sayaraq, hansı vacib işlərin görülməsini müəyyənləşdirərək yazırdı: "Antanta tərəfindən bizim respublikanın müstəqillyinin tanınması Azərbaycanın Avropa ölkələri və Amerika ilə düzgün qarşılıqlı münasibətlər yaratması vacibliyini daha da gücləndirir. Qeyd olunan missiyanın başlıca vəzifələrindən biri həmin ölkələrin və bizim dövlətin siyasi və maliyyə-iqtisadi vəziyyəti ilə tanışlıq, onlarla sıx siyasi, iqtisadi əlaqələrin yaradılmasıdır. Ölkəmizin siyasi vəziyyətinin möhkəmlənməsi üçün missiya aşağıdakı işləri görməlidir: a) Dövlətimizin müdafiəsinə xaricdən yönələn hər bir kömək üçün razılaşma şəraiti yaratmaq. b) Dövlətimizin suverenliyinin hüquqi cəhətdən tanınmasına nail olmaq. c) görüşlərin vacib olduğu dövlətlərdə bizim daimi diplomatik nümayəndəliyin yaradılmasına çalışmaq.

Göründüyü kimi, missiyanın siyasi işi ölkəmizin iqtisadiyyatının və sənayesinin inkişafına kömək etməlidir"[26].

**Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı yaxınlaşdıqca ermənilər də fəallaşır və ölkədəki vəziyyəti gərginləşdirirdilər. F.X.Xoyski bu vəziyyətdən çıxış yolu kimi 1920-ci ilin aprelin 5-də Müttəfiq qüvvələrin Zaqafqaziyadakı Ali Komissarlarına nota göndərdi.** O, həmin notada Azərbaycan dövlətinin mübahisəli məsələlərin danışıqlar, sülh və arbitraj yolu ilə həllində maraqlı olduğunu qeyd edirdi. F.X.Xoyski bildirirdi ki, bundan ötrü Azərbaycan hökuməti Zaqafqaziya respublikalarının 1919-cu ildə Tiflisdə keçirilən konfransında məhz həmin ideyanı müdafiə etmişdi. O, məlumatlandırırdı ki, Azərbaycan hökumətinin təşəbbüsü ilə bu ideyanı inkişaf etdirmək üçün yaxın günlərdə Tiflisdə Zaqafqaziya respublikalarının yeni konfransı keçiriləcəkdir.

F.X.Xoyski bu notasında ermənilərin Qarabağda dinc əhaliyə qarşı törətdikləri vəhşilikləri də qeyd edirdi. O, bildirirdi ki, ermənilərin xəyanətkarlıqla qo-

[25] "Азербайджан", газета, 1920, 9 марта, №48.
[26] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 221, v. 6-7.

şunlarımıza hücum etməsi onların məqsədinin zorakılıqla Qarabağı ələ keçirmək istəyidir. Ermənilər isə beynəlxalq ictimaiyyətə yalan məlumatlar yayırlar ki, guya "onlar Qafqazda boykot olunurlar", "Şuşa-Yevlax yolu onlara bağlanıb", "Azərbaycan hökuməti onların yaşadığı kəndləri artilleriya atəşinə tutub" və s.

F.X.Xoyski notanın sonunda Azərbaycan hökumətinin Qarabağda vəziyyətin qaydaya düşməsinin gecikdiyi ilə bağlı narahatlığını onların diqqətinə çatdırırdı[27].

Ermənilərin Azərbaycan ərazilərində törətdikləri vəhşiliklərə etiraz olaraq F.X.Xoyski 1920-ci ilin aprelin 6-da və 8-də Ermənistan Respublikasının Xarici İşlər nazirinə ardıcıl olaraq iki nota göndərdi. O, bu notalarda Ermənistan ərazisindən erməni silahlı dəstələrinin aprelin 5-də Azərbaycan ərazisinə keçib Yaradulla və Tatlı kəndlərində vəhşiliklər törətdiklərini, əhalinin üçdə birini qətlə yetirdiklərini və hazırda orada döyüşlər getdiyini qeyd edirdi.

**Azərbaycanın müstəqilliyi getdikcə təhlükəli xarakter alırdı. Bu məqamları isə Azərbaycanın Xarici İşlər naziri F.X.Xoyskinin teleqramlarından aydın görmək mümkündür. Həmin təhlükəni əsas yaradan isə bolşevik Rusiyası idi.**

F.X.Xoyskinin 1920-ci ilin aprelin 15-də RSFSR-in Xarici İşlər Komissarı Q.V. Çiçerinə göndərdiyi notada Rusiya Sovet hökumətinin qoşunlarının Azərbaycan Respublikası ilə sərhəd olan Dağıstanın Dərbənd rayonunda toplaşmasından narahat olduğu qeyd edilirdi: "Azərbaycan hökuməti Sovet hökumətinin məqsədlərindən məlumatlandırılmadığından təcili şəkildə həmin rayonlarda qoşunların toplaşmasının səbəbini öyrənməyi tələb edir. Bununla yanaşı, bu günə qədər bizim Rusiya və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətlərinin yaradılması ilə bağlı danışıqlar təklifimizə cavab almadığımızdan hökumətimiz həmin təklifə cavab xahiş edir və təklifi qəbul etdiyiniz halda danışıqlar üçün vaxtın və yerin müəyyənləşməsini bildirir"[28].

Bu notaların verilməsinə baxmayaraq, bolşevik Rusiyasının XI Ordusu 1920-ci ilin 27 aprelində Azərbaycan sərhədlərini keçərək müstəqil dövlətin ərazisini işğal etdi. Bu işğaldan sonra F.X.Xoyski ailəsi ilə birlikdə Tiflisə getmişdir. Burada bir müddət yaşadıqdan sonra 1920-ci ilin iyunun 19-da Tiflisdə erməni qatilinin arxadan atdığı güllə ilə öldürülmüş və oradakı Botanika bağında (hazırda yer belə adlanır) Azərbaycan dramaturgiyasının banisi M.F.Axundovun yanında dəfn edilmişdir.

---

[27] "Азербайджан", газета, 1920, 7 апрелья, №70.
[28] "Yenə orada, 1920, 20 апрелья, №77.

F.X.Xoyskiyə qarşı terror aktını ermənilər həyata keçirsələr də (daşnak partiyasının üzvləri Aram Erkonyan, Misak Kirakosyan), bu qəsdin təşkilatçısı bolşeviklər idi. Tiflisdə F.X.Xoyski Müsavat Partiyasının rəhbərləri və Azərbaycan Ordusunun bəzi komandirləri ilə Sovet rejiminə qarşı mübarizə aparır, "üsyançılar hərəkatı"na başçılıq edirdi[29].

F.X.Xoyskinin həyat yoldaşı milliyyətcə rus xanımı olan Yelizaveta Vasilyevna idi. F.X.Xoyskinin qohumları onu Ceyran adlandırırdı. Onların üç övladı olmuşdu: qızı Tamara (1902-1990), oğlanları Murad (1910-1973) və Ənvər (1914-1935). Övladların hər üçü Gəncədə doğulmuşdu. F.X.Xoyskinin qızı Tamara xanım bolşevik M.D.Hüseynovla ailə qurmuş və övladları olmamışdı. M.D.Hüseynov 1938-ci ildə güllələndikdən sonra Tamara xanım həbs edilmiş və o, 10 ilə qədər həbsxanada qalmışdı. Tamara xanım həbsdən sonra 90 yaşına qədər həyatda yaşadı.




**F.X.Xoyskinin Tbilisidə Botanika bağında olan məzarı.**

[29] Г.Мамулиа, Р.Абуталыбов. Страна огней в борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945, Париж-Баку., с. 37.

# ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV

(1863 – 1934)



Görkəmli ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşov 1863-cü ilin mayın 4-də Gürcüstanın Tiflis şəhərində anadan olub. Tiflis gimnaziyasında təhsilini başa vurduqdan sonra Peterburq Universitetinin hüquq fakültəsinə daxil olub. 1888-ci ildə universiteti fərqlənmə ilə bitirdikdən sonra Tiflisə gedərək, Dairə məhkəməsində çalışıb.

Ə.M.Topçubaşov 1896-cı ildə ailəsi ilə birgə Bakıya köçüb və burada "Kaspi" qəzetinin redaktoru vəzifəsində işləyib.

Ə.M.Topçubaşovun ciddi səyləri nəticəsində 1905-ci ilin avqustunda Nijni-Novqorod şəhərində Rusiya müsəlmanlarının birinci qurultayı keçirilib.

O, 1906-cı ilin aprelində Peterburqda açılan birinci Dövlət Dumasına Bakı quberniyasından üzv seçilib.

1918-ci ilin dekabrın 7-də Bakıda Azərbaycan Parlamenti fəaliyyətə başlayanda Ə.M.Topçubaşov sədr seçilib.

1920-ci ilin yanvarın 11-də Azərbaycanın dünya dövlətlərinə tanıdılmasında onun başçılıq etdiyi Nümayəndə Heyətinin böyük rolu olub.

1920-ci ilin aprelində Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra Ə.M.Topçubaşov Fransada qalıb və orada yaşayıb. O, 1934-cü ildə Parisdə dünyasını dəyişib.

# AZƏRBAYCAN PARLAMENTİNİN SƏDRİ

Azərbaycanın görkəmli dövlət xadimi Ə.M.Topçubaşov 1863-cü ilin mayın 4-də Tiflisdə anadan olmuşdur. Qeyd edək ki, onun doğum tarixi ilə bağlı müəyyən mübahisələr olsa da (yəni 1862, 1865 və s.), Rusiya Dövlət Arxivində saxlanılan doğum şəhadətnaməsində 1863-cü il göstərilib[1].



**Ə.M.Topçubaşov**

Ə.M.Topçubaşovun nəsli əslən Gəncədən olsa da, ulu babalarından biri Tiflisə, digəri isə İrəvana köçüb orada yaşamışlar. Ə.M.Topçubaşovun ulu babası sonuncu gürcü kralı yanında hərbi işdə Tiflis Qalabəyisi kimi mövqe qazanmışdır. **Babası Mir Cəfər Topçubaşov** isə 1819-1849-cu illərdə Peterburq Universitetində professor olaraq çalışmış, orada İran ədəbiyyatı və dildən mühazirə oxumuşdur.

Ə.M.Topçubaşov ilk təhsilini müsəlman mədrəsəsində aldıqdan sonra Tiflis Birinci klassik gimnaziyasında təhsilini uğurla başa vurmuşdur. Nəticədə ona Qafqaz təqaüdü verilmiş və sonradan o, Peterburq Universitetinə daxil olmuş, əvvəl tarix-filologiya, daha sonra hüquq fakültəsində təhsilini davam etdirmişdir. 1887-ci ildə 3-cü kursda oxuyarkən gizli tələbə təşkilatlarındakı iştirakına görə universitetdən xaric edilsə də, professorların müdaxiləsi ilə məhkəmənin qərarı karser cəzası ilə əvəzlənib və o, ali məktəbə bərpa olunmuşdur. Əlimərdan bəy universiteti qurtaran il uğurla dissertasiya müdafiə etmiş, hüquq elmləri namizədi adını almışdır. Lakin 1885-ci ildən mövcud olan "xristian olmayanların universitetdə elmi vəzifə tutmağı yasaq edilməsi" nizamnaməsi onun ali məktəbdə dərs deməyinə imkan yaratmayıb. Hətta ona ali məktəbdə qalmaq üçün dinini dəyişmək təklif edilsə də, o, imtina etmişdir.

Bu vəziyyəti görüncə Ə.M.Topçubaşov Tiflisə qayıdıb, burada Dairə məhkəməsində fəaliyyətə başladı. O, Dairə məhkəməsinin katibi, müstəntiq, hakim vəzifələrində çalışdı.

Ə.M.Topçubaşov 1893-cü ildə böyük mütəfəkkir H.Zərdabinin qızı Pəri xanımla ailə qurmuşdur.

[1] C. Həsənli. Tarixi şəxsiyyətin tarixi. B., 2013, s. 19.

Ə.M.Topçubaşov 1896-cı ildə Bakıya köçdü və fəaliyyətini burada davam etdirdi, Şəhər Dairə Məhkəməsinin vəkillərindən oldu.

Ə.M.Topçubaşov 1897-ci ilin oktyabr ayının 14-də şəhər Dumasına keçirilən seçkilərdə uğur qazandı, Həbib bəy Mahmudbəyov və Fərrux bəy Vəzirovla birgə Şəhər Dumasında ilk müsəlman ziyalılar oldular.

1898-ci ildə Ə.M.Topçubaşov H.Z.Tağıyevin satın aldığı "Kaspi" qəzetində baş redaktorluq etdi. Qeyd edək ki, "Kaspi"nin geniş oxucu auditoriyasının marağına çevrilməsində və Ümumrusiya qəzeti səviyyəsinə yüksəlməsində Ə.M.Topçubaşovun böyük rolu oldu. Ə.M.Topçubaşov 1898-ci ilin iyunun 24-dən 1907-ci ilin oktyabr ayının 20-nə qədər "Kaspi" **qəzetinin baş redaktorluğunu etdi**. Ə.M.Topçubaşova qədər isə"Kaspi" qəzetinə aşağıdakı şəxslər redaktorluq etmişdi: V.Kuzmin, G.Startsev, V.Liçkus-Xomutov, R.T.Qordiyevski, N.Sokolinski[2].

**Ə.M.Topçubaşov ilk azərbaycanlı idi ki, bu qəzetə redaktorluq edirdi. Onun redaktoru olduğu "Kaspi"də H.Zərdabi, M.Şahtaxtlı, Ə.Ağayev, F.Köçərli, H.Vəzirov və digər tanınmış ziyalılar yazılarla çıxış edirdi.**


Четвергъ, 6-го августа 1898 года.
ГОДЪ XVIII ИЗДАНІЯ.
КАСПІЙ
Выходитъ ежедневно, кромѣ послѣпраздничныхъ дней.

**Ə.M.Topçubaşovun redaktorluğu ilə nəşr edilən "Kaspi" qəzeti.**

Ə.M.Topçubaşov qəzetə redaktorluq etsə də, onun maraqlı yazıları da çap olunmuşdur: 1) "Müsəlmanlar azadlıq hərəkatında" ("Kaspi", 1905, №216); 2)"Müsəlmanların dirçəliş dövrü" ("Kaspi", 1905, №222); 3) "Milli qırğına nə vaxt son qoyulacaq?" ("Kaspi", 1905, №225). Onun bu və digər yazılarında yaşadığı dövrün ciddi problemlərinə toxunulurdu[3]. Ümumilikdə Ə.M.Topçubaşovun "Kaspi"də 1905-ci ilə qədər 25 məqaləsi işıq üzü görmüşdür.

Ə.M.Topçubaşov Azərbaycan mətbuatının inkişafı məsələləri ilə yanaşı, ümumilikdə nəşr və kitab çapı problemlərinə də diqqət yetirmiş, milli inkişafa öz töhfəsini vermişdir. "Kaspi" qəzetindəki yazılarında o, milli mətbuatın yaradılması vacibliyini, Azərbaycan mətbuatının və onun tanınmış xadimlərinin ağır şəraitini xüsusi qeyd etmişdir.

Bəs Ə.M.Topçubaşovun redaktorluğu dövründə "Kaspi" qəzeti hansı istiqamətlərə üstünlük verirdi? Təbii ki, qəzet öz proqramına və istiqamətinə uyğun olaraq maarifçilik problemlərini daha çox işıqlandırırdı. Eyni zamanda qəzet-

[2] С. Мовлаева. Пропаганда русской и азербайджанской культуры на страницах газеты "Каспий" (1881-1917 г.). Б., 1983, с. 30.
[3] N. Yaqublu. "Kaspi" qəzetinin yaranması və fəaliyyəti. B., 2011, s.55.

də məzmununa görə müxtəlif mövzulu yazılar çap edilirdi. Bunun nəticəsi idi ki, qəzetin artıq yüzlərcə abunəçisi vardı.

Ə.M.Topçubaşovun "Kaspi"də nəşr edilən "Müsəlmanlar azadlıq hərəkatında" yazısı öz aktuallığı ilə seçilirdi[4]. Məqalə 1905-ci ilin 17 oktyabrında çarın qəbul etdiyi məşhur manifestə (söz, mətbuat azadlığına icazə verilməsi) həsr edilmişdi.

"Kaspi"nin redaktorluğunu edən Ə.M.Topçubaşov qəzetdə çox kəskin və problem xarakterli yazılarla çıxış edirdi.

Bu baxımdan onun **"Azadlıq və Qafqaz xalqları"** məqaləsi xüsusi diqqət cəlb edir[5]. Ə.M.Topçubaşov bu məqalədə təəssüflə bir məqamı açıqlayırdı: "Biz hələ ki, həyatın çətin sualları ilə üz-üzə dayanmışıq, bu sualların içində isə bizi ən çox kədərləndirən erməni və tatar (azərbaycanlı – red.) milli hesablaşmasıdır. Bu, hal-hazırda bizim üçün dözülməz bir vəziyyət yaradan, erməni və tatarların həyat maraqlarına zərərli təsir göstərən sanki bir Axilles dabanıdır.

Əfsuslar olsun ki, biz hələ birgə fəaliyyətə istiqamətlənməmiş, ümumi düşmənlərimizi görə bilmirik. Hər bir xalq ayrı-ayrılıqda hərəkət edərək, şəxsi ictimai-siyasi platformalarını tərtib edir, sanki həmrəy fəaliyyətin qeyri-mümkün olduğu artıq həll edilib. Bu arada onun tək həlli ilə bağlı deyil, hətta qarşılıqlı fikir mübadiləsi haqqında müzakirələr belə getməyib"[6].

Ə.M.Topçubaşov mətbuatın əsas vəzifəsini xalqın ehtiyacını əks etdirmək və həqiqətə xidmətdə görürdü. Odur ki, Ə.M.Topçubaşovun "Kaspi"yə gəlişi ilə qəzet daha çox ictimai maraq kəsb etməyə başladı. Bu faktı sübut edən qəzetin həmin dövrdəki tirajı idi. "Qafqaz təqvimi"ndə verilən məlumata görə, 1899-cu ildə "Kaspi" qəzeti 2500 tirajla, 1900-1902-ci illərdə 3500 tirajla, 1904-cü ildə 5100 tirajla, 1906-cı ildə isə 10 000 tirajla nəşr edilirdi[7]. Bu, Ə.M.Topçubaşovun yüksək redaktorluq bacarığının göstəricisi idi.

1900-cü illərdə Ə.M.Topçubaşovun mətbuatdakı fəaliyyəti ilə yanaşı, ictimai-siyasi sahələrdəki çalışmaları da üstünlük təşkil edirdi. 1901-ci ilin oktyabr ayının 29-u və noyabr ayının 18-də yeni qaydalar əsasında dörd il müddətinə Bakı Şəhər Dumasına keçirilən seçkilərdə Əlimərdan bəy böyük üstünlüklə qələbə qazanmış, bu nəticə 1902-ci ilin fevralın 25-də Tiflisdə Qafqazın Mülki hissəsinin baş rəisi tərəfindən təsdiqləndikdən sonra o, Şəhər Özünüidarə Orqanının sədri kimi fəaliyyətə başlamışdır[8].

---

[4] "Kaspi" qəzeti, 1905-ci il, №216.
[5] Yenə orada, 1905-ci il, №217.
[6] Yenə orada.
[7] N. Yaqublu. "Kaspi" qəzetinin yaranması və fəaliyyəti. B., 2011, s. 52-53.
[8] C.Həsənli. Tarixi şəxsiyyətin tarixi. B., 2013, s. 83.

Qeyd edək ki, Bakıda Şəhər Duması 1878-ci ildən fəaliyyət göstərirdi və Ə.M.Topçubaşov bu vəzifəyə seçilən ilk müsəlman nümayəndə idi.

Ə.M.Topçubaşov 1905-ci ilin sonunda fəaliyyətinə icazə verilən, H.Z.Tağıyevin sədr olduğu Müsəlman Xeyriyyə Cəmiyyətinin də üzvü idi.

1905-ci ilin avqustun 15-də Rusiya müsəlmanlarının I qurultayının keçirilməsində Ə.M.Topçubaşovun böyük xidmətləri olmuşdur. Əslində Ə.M.Topçubaşov qurultayın keçirilməsinin əsas təşəbbüskarı idi. Lakin qurultayın Nijni-Novqorodda keçirilməsinə şəhər valisi müsbət cavab verməmişdi. Odur ki, qurultay iştirakçıları 300 rublla "Gustav Struve" gəmisini kirayə edib, avqustun 15-də Rusiya müsəlmanlarının ilk qurultayını Oka çayı üzərində keçirdilər. Qurultay çar Rusiyasında yaşayan müsəlmanların siyasi təşkilatlanmasında mühüm rol oynadı[9].

Rusiya müsəlmanlarının ikinci qurultayının keçirilməsi də Ə.M.Topçubaşova tapşırıldı.

1906-cı ilin yanvarın 13-23-də Peterburqda Rusiya müsəlmanlarının ikinci qurultayı keçirildi. Ə.M.Topçubaşov bir çox iclaslara sədrlik edirdi. Həmin qurultayda Rusiya imperiyasındakı bütün müsəlmanları Rusiya Müsəlmanları İttifaqı Partiyasında birləşməyə çağıran nizamnamə qəbul edildi.

1906-cı ilin avqustun 16-21-də Nijni-Novqorodda üçüncü Rusiya müsəlmanları qurultayı keçirildi və orada 800-ə qədər nümayəndə iştirak edirdi. Qurultayda Rusiya müsəlmanları İttifaqı Partiyasının 15 nəfərdən ibarət olan MK-sı formalaşdı və Ə.M.Topçubaşov sədr seçildi.

Bu dövrdə Ə.M.Topçubaşov yeni formalaşan Rusiya Dövlət Dumasının işində də fəallıq göstərirdi. 1906-cı ilin əvvəllərində Rusiya I Dövlət Dumasına seçkilər keçirildi və 25 müsəlman deputat burada təmsil edildi. 1906-cı ilin iyunun 21-də Ə.M.Topçubaşovun sədrliyi ilə Dumada Müsəlman fraksiyası yaradıldı[10]. Bu fraksiyanın, eləcə də onun daxil olduğu Muxtariyyətçilər Birliyinin parlament qrupunun fəaliyyəti (bu qrup Polşadan olan deputat A.Lednitskinin təşəbbüsü ilə yaradılmışdı) çar hakimiyyətini narahat edirdi. 1906-cı ilin iyulun 8-də Duma buraxıldı və kadetlər deputatlara Peterburqdan bir qədər kənarda – Vıborqda toplaşmağı təklif etdilər. Vıborqda xalqa müraciət qəbul edildi və həmin sənəddə Dumanın müdafiəsi üçün vergidən imtina, hərbi xidmətdən yayınma formalarından istifadə əsaslandırılırdı. Həmin Vıborq çağırışını 6 deputatla birgə Ə.M.Topçubaşov da imzalamış, bu fəaliyyətinə görə 1908-ci ilin yayında üç ay müddətinə həbsdə saxlanılmışdı.

[9] А.М.Топчибаши. Документы из личных архивов (1903-1934). М., 2012, с. 11.
[10] Yenə orada, s. 12.

1914-cü ilin iyun ayının 15-25-də Rusiyanın müsəlman vilayətlərindən olan 6 nəfər Duma deputatı və 34 nəfər tanınmış ictimai-siyasi, nüfuzlu ruhani Peterburqda toplaşıb müşavirə keçirdi. Müşavirəyə sədrlik edən IV Dumada müsəlman fraksiyasının rəhbəri K.M.Tevkelevin təklifi ilə bu toplantı IV Müsəlman qurultayı hesab edildi. Bu müşavirə-qurultayda Ə.M.Topçubaşov İ.Axtyamovla birlikdə sədrin müavinləri seçildilər.

1917-ci ilin Fevral-Burjua inqilabından sonra keçmiş çar Rusiyası ərazisində yaşayan xalqların ictimai-siyasi sahədə ciddi fəallıq dövrü başladı. 1917-ci ilin aprelin 15-20-də Bakıda Qafqaz Müsəlmanları Qurultayının keçirilməsi bu mənada böyük hadisə oldu[11]. Həmin qurultaya sədrliyi Ə.M.Topçubaşov etdi. Qurultayın açılışında o, dedi: "Qafqaz müsəlmanlarının bugünkü qurultayı ötən yüz il ərzində birinci xalq qurultayıdır ki, burada Qafqaz müsəlmanlarının azad sözü eşidiləcək. Bu qurultay gərək Qafqazın keçmiş tarixi əzəmətini bərpa etsin"[12].

Ə.M.Topçubaşov Qafqazda milli zəmində baş verən toqquşmalara işarə edərək bildirdi: "Köhnə rus hökumətinin Rusiyada yaşayan rus olmayan xalqlara qarşı siyasəti ayırıcı siyasət idi, ermənilərlə azərbaycanlılar arasında olan toqquşma da insana nifrət siyasətinin nəticəsi idi"[13].

Qeyd edək ki, 1917-ci ilin mayın 1-dən 11-dək Moskvada keçirilən Ümumrusiya Müsəlmanları Qurultayı milli mədəni inkişafa böyük təsir etdi. **Qurultayda M.Ə.Rəsulzadənin ərazi muxtariyyəti ideyası iştirakçılar tərəfindən böyük maraqla qarşılandı. Onun irəli sürdüyü məhəlli muxtariyyət ideyası qurultayda 271 səsə qarşı 446 səslə qəbul edildi[14]**.

Qurultayda Rəyasət Heyəti adından çıxış edən Ə.M.Topçubaşov mayın 7-də keçirilən altıncı iclasa da sədrlik etmişdi.

1917-ci ilin noyabrın 26-dan 28-nə qədər Cənubi Qafqazda Məclisi-Müəssisana seçkilər keçirildi. Ə.M.Topçubaşov və F. X. Xoyski başda olmaqla Müsəlman Milli Komitəsi və M.Ə.Rəsulzadənin başçılıq etdiyi Müsavat Partiyası Zaqafqaziya müsəlmanlarının 63 faizinin səsini qazanaraq böyük qələbə qazandılar[15].

Ə.M.Topçubaşov bu seçkilərdəki qələbədən sonra – 1917-ci ilin dekabr ayında Cənubi Qafqaz Müsəlman Komitəsinin rəhbərliyindən istefa verdi. Lakin Rusiyada hakimiyyətə gələn bolşeviklər 1918-ci ilin yanvarın 6-da Məclisi-Müəssisanın buraxılması haqqında dekret verdilər. **Bu hadisədən sonra 1918-ci ilin**

[11] "Kaspi", 1917, №84.
[12] Yenə orada.
[13] Yenə orada, №85.
[14] İ. İlqar. Rusiyada Birinci Müsəlman Konqresi. Ankara, 1990, s. 163-164.
[15] C. Həsənli. Tarixi şəxsiyyətin tarixi. B., 2013, s. 274-275.

**yanvarında Tiflisdə Cənubi Qafqazdan Məclisi-Müəssisana seçilən nümayəndələr regional qanunverici orqan olan Zaqafqaziya Seyminin yaradılması qərarına gəldilər və Seymin ilk toplantısı 1918-ci ilin fevralın 23-də keçirildi.** Seymin Müsəlman fraksiyasında Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, M.Y.Cəfərov və digərləri iştirak edirdi.

Qeyd edək ki, 1918-ci ilin mart hadisələrindən sonra aprel ayının 3-də Ə.M.Topçubaşov erməni əsgərləri tərəfindən həbs edilib bir ay saxlanıldı. Sonradan Hümmət təşkilatının zaminliyinə verilib azad olunsa da, ermənilərin tələbi ilə yenidən tutulub Bayıl həbsxanasına göndərildi[16]. Həbsxanadakı ağır şəraitdən sonra nəzarət altında xəstəxanaya yerləşdirilən Ə.M.Topçubaşov yenidən zaminə verilərək azadlığa buraxıldı.

1918-ci ilin 28 mayında Tiflisdə Azərbaycan istiqlalı elan edildiyi gündə Ə.M.Topçubaşov Bakıda həbsxanada olduğundan proseslərdə iştirak etmirdi. Odur ki, həmin günlərdə formalaşan Hökumət kabinetinin tərkibində Ə.M.Topçubaşovun adına rast gəlmirik. Ə.M.Topçubaşov yalnız iyun ayının 16-da Gəncədə F.X.Xoyskinin formalaşdırdığı ikinci Hökumət kabinetində portfelsiz nazir vəzifəsini tutdu.

1918-ci ilin avqustunda Nazirlər Kabinetinin Sədri F.X.Xoyski bu məzmunda 1144 saylı qərar verdi: "Azərbaycan Sülh Nümayəndə Heyətinin cənab sədrinə. Hökumətin 1918-ci ilin 20 avqust tarixli qərarına əsasən Azərbaycan Respublikası hökumətinin üzvü, nazir Əlimərdan bəy Topçubaşov Azərbaycan Respublikasının maraqlarına aid olan bütün məsələlərlə bağlı fövqəladə səlahiyyətlə Osmanlı hökuməti imperatorluğuna göndərilir. Hökumət qərara aldı ki, sədrlik etdiyiniz nümayəndələri məlumatlandıraq ki, əgər Beynəlxalq konfrans baş tutarsa, Ə.M.Topçubaşovla əlaqədə olun və o, Azərbaycan Sülh Nümayəndəliyinin tamhüquqlu üzvü kimi orada iştirak etmək hüququna malikdir"[17].

Ə.M.Topçubaşov bir müddət Tiflisdə qalıb əhəmiyyətli görüşlər keçirdikdən sonra İstanbula getdi.

Ə.M.Topçubaşov **fövqəladə nümayəndə və səlahiyyətli nazir kimi 1918-ci il sentyabrın 28-də İstanbula gəldi və bir neçə gün sonra rəsmi görüşlərə başladı. Maraqlıdır ki, o, bu görüşləri ilə bağlı daima qeydlər aparırdı. Həmin qeydlərdən məlum olur ki, Ə.M.Topçubaşov burada Azərbaycan dövləti üçün çox vacib görüşlər keçirmişdir.**

Ə.M.Topçubaşovun qeydlərindən məlum olur ki, o, İstanbulda ilk görüşünü Türkiyənin Sədrəzəmi (Baş Naziri) Tələt Paşa ilə keçirdi. Tələt Paşa həmin gö-

[16] C. Həsənli. Tarixi şəxsiyyətin tarixi. B., 2013, s. 278-279.
[17] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 138, v. 2.

rüşdə Berlinə olan səfəri haqqında məlumat verdi və orada Azərbaycanın maraqlarından çıxış etdiyini söylədi. O, qeyd etdi ki, Avstriya-Macarıstan, Almaniya hələlik Azərbaycanın dövlət müstəqilliyini tanımaq istəmir. Tələt Paşa Rusiyanın mövqeyini açıqlayan səfir İoffenin isə "Müsəlmanlar Qafqazda Türkiyənin təzyiqi ilə müstəqil dövlətlərini yaradırlar" fikrini diqqətə çatdırdı.

Ə.M.Topçubaşov cavabında dedi: "Mən bir qədər rus bolşevizmi ilə tanışam, Sizi inandırıram ki, indiki Rusiya hökuməti də müsəlmanlara yaxşı münasibətdə deyil. Bunu bolşeviklər, tanınmış millətçi-şovinistlər olan və bir gündə bolşeviklərə çevrilən erməni daşnaklarını Bakıda özlərinə köməyə dəvət edərkən sübut etdilər"[18].

**Sonra Ə.M.Topçubaşov Bakının azad olunmasında göstərilən köməyə görə Türkiyə hökumətinə təşəkkürünü bildirdi.**

Ə.M.Topçubaşov oktyabrın 2-də eyni gündə Türkiyənin Xarici İşlər naziri Əhməd Nəsimi bəylə də görüş keçirdi. Bu görüşdə də Əhməd bəy Ə.M.Topçubaşova Türkiyənin Azərbaycana kömək etməyə hər zaman hazır olduğunu qeyd etdi və ölkənin erməni və gürcülərlə sərhədləri məsələsinə toxundu[19].

Ə.M.Topçubaşov İstanbulda uğurlu görüşlərini davam etdirirdi. Eyni gündə iki görüş keçirir, Türkiyənin dövlət rəsmilərində Azərbaycana diqqəti artırmağa çalışırdı. Həmin görüşlərin ümumi xronologiyasından: "1) 1918-ci il, 3 oktyabr, 3-cü gün, saat 12:40-da Türkiyənin Ədliyyə naziri Xəlil bəylə görüş; 2) Eyni gündə saat 12:50-də Hərbi nazir Ənvər Paşa ilə görüş; 3) 1918-ci il 21 oktyabr, birinci gün, saat 14:15-də Türkiyənin yeni Sədrəzəmi (Baş Naziri) İzzət Paşa ilə görüş; 4) 1918-ci il 27 oktyabr, bazar günü, saat 12-də Türkiyənin yeni Xarici İşlər naziri Nəbi bəylə görüş; 5) 1918-ci il 28 oktyabr, birinci gün, saat 12:15 dəqiqədə Türkiyənin Xalq Maarif nazirinin yardımçısı ilə görüş; 6) Eyni gündə Türkiyənin yeni Şeyxülislamı ilə görüş; 7) 1918-ci il 3 noyabr, saat 21:30-da Türkiyənin Dəniz naziri və Türkiyənin Batum və Trapezund konfransındakı nümayəndə heyətinin sədri Rauf bəylə görüş; 8) 1918-ci il 4 noyabr, saat 12:10-da Türkiyə Xarici İşlər nazirinin yardımçısı Rişad Hikmət bəylə görüş; 9) 1918-ci il 5 noyabr, saat 11:20-də Türkiyə Xarici İşlər Nazirliyində Nəbi bəylə görüş; 10) 1918-ci il 8 noyabr, saat 14-də, Türkiyənin Maliyyə naziri Hüseyn Cavid bəylə görüş"[20].

Ə.M.Topçubaşov İstanbulda müxtəlif xarici ölkələrin təmsilçiləri ilə də görüşlər keçirirdi: Ukraynanın Türkiyədəki təmsilçisi Sukovkin, İranın Türkiyədəki təmsilçisi Mirzə Mahmud xan, ingilis polkovniki (albayı) Tamp, Rusiya Müvəqqəti

[18] Azərbaycan Respublikası Dövlət Arxivi. f. 894, s. 10, i. 150, v. 1-2.
[19] Yenə orada, v.3.
[20] Yenə orada, v.10-11.

hökumətinin keçmiş Xarici İşlər naziri P.N.Milyukov, Amerika rəsmisi, Prezident Vilsonla yaxınlığı ilə seçilən cənab Braun, İtaliya Krallığının Türkiyədəki nümayəndəliyinin katibi qraf Sfort, İsveçin Türkiyə təmsilçisi Ankarxberd, Rusiya imperiyasının keçmiş Xarici İşlər naziri S.D.Sazonov, Amerikanın Türkiyədəki diplomatik təmsilçisi Heyk, İranın Xarici İşlər naziri Muşavərəl Məmalək xan, Hollandiyanın Türkiyə təmsilçisi Van Der Does de Villebua, Ukraynanın Bolqarıstan təmsilçisi A.Sulqin, erməni Milli Şurasının Sədri və Erməni nümayəndələrinin Paris Sülh Konfransındakı başçısı A.Aqoronyan.

Ə.M.Topçubaşov bu görüşlərdə həmin ölkə təmsilçilərinə Azərbaycanla bağlı məlumatlar verir, onların münasibət və yanaşmalarını öyrənirdi. İngilis polkovniki Tampla görüşdən sonra o, yazırdı: "Admiral Londondan formal tapşırıq alıb ki, Rusiya imperiyasından ayrılmış dövlətlərin təmsilçilərini qəbul etməmək"[21].

Rusiya imperiyasının keçmiş Xarici İşlər naziri S.D.Sazonovla keçirilən bir görüşdə isə o, bu fikri Ə.M.Topçubaşova çatdırdı: "Mən Sizə deməliyəm ki, eşitdiyimə görə Qafqaz müsəlmanları ruslara çoz yaxındırlar və Rusiyadan ayrılmaq istəmirlər"[22].

Ə.M.Topçubaşovun keçirdiyi digər görüşdə İranın Xarici İşlər naziri Muavərəl Məmalək Əli Qulu xan belə demişdi: "Bu da doğrudur ki, Azərbaycan bizim şahların hakimiyyətinə tabe olmuşdu"[23].

**Bu görüş və söhbətlərdən Ə.M.Topçubaşova aydın olurdu ki, Azərbaycanın dünyada müstəqil dövlət kimi tanınmasında ciddi problemlər olacaq.**

1918-ci ilin dekabrın 16-da Ə.M.Topçubaşov Azərbaycanın müstəqil dövlət olaraq tanınmasında yarana biləcək problemlə bağlı Nazirlər Şurasının Sədri F.X.Xoyskiyə məktub yazdı və Paris Sülh Konfransında iştirak üçün bütün Zaqafqaziya Respublikalarının təmsilçilərindən Ümumi Nümayəndə Heyəti formalaşdırmağı təklif etdi: "Kiminlə görüşdümsə, Sədrəzəmdən (Baş Nazirdən – red.) başlayaraq Türkiyə nazirləri, xaricilər, publisistlər, onların sırasında Türkiyənin Dəniz Naziri, Türkiyənin Sülh danışıqlarında Nümayəndə Heyətinin sədri Rauf bəylə olan görüşlərimizdə hamı bir fikrə önəm verirdi ki, müstəqilliyə nail olmağın yolu Qafqaz xalqlarından ibarət Konfederasiya yaratmaqdır. Məncə bu, hələlik yeganə çıxış yoludur"[24].

[21] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 151, v.24-26.
[22] Yenə orda, v.39-41.
[23] Yenə orda, v.50-51.
[24] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 66, v.13-15.

1918-ci ilin 23 dekabrında Ə.M.Topçubaşovun Fransa Respublikasının Türkiyədəki diplomatik təmsilçisinə, Fransa hökumətinə memorandumun çatdırılması ilə bağlı məktubu təqdim olundu. Həmin məktub ABŞ-ın və İtaliyanın Türkiyədəki təmsilçilərinə də çatdırıldı. O, bu məktubda əlavə olunmuş memorandum haqqında məlumat verirdi. Qeyd edirdi ki, memorandumda Qafqaz Azərbaycanı ilə bağlı, onun bolşeviklərə qarşı apardığı mübarizə, müstəqil Azərbaycan Respublikası, əhalisi, ərazisi, gələcək quruluşu haqqında məlumatlar vardır. Ə.M.Topçubaşov məktubunda Fransa Respublikasının Azərbaycan Respublikasının müstəqilliyini tanıyacağına ümid etdiyini bildirirdi[25].



President
du Conseil des Ministres
de la Republique
d' Azerbaidjan

7. Janvier 1919
№ 34.

PASSEPORT DIPLOMATIQUE

au nom du Gouvernement de la République d'Azerbaidjan

Le Ministre des Affaires Etrangères prie les autorités militaires et civiles des Etats étrangers de laisser librement passer M-r ALI-MARDAN- TOPTCHIBACHEFF, Président du Parlement d'Azerbaidjan et Président de la Délégation de Paix de la République d'Azerbaidjan, qui se rend à Paris pour prendre part à la Conférence Internationale de Paix et de lui donner aide et protection en cas de besoin.

Par ordre du Gouvernement de la République d'Azerbaidjan:

Le Ministre des Affaires Etrangères F. Khoïsky

Signature du porteur: A.M.Toptchibacheff

**Ə.M.Topçubaşova verilən diplomatik pasport**

Qeyd edək ki, Ə.M.Topçubaşov Türkiyədə olarkən **1918-ci ilin dekabrın 7-də açılan Azərbaycan Parlamentində sədr vəzifəsinə seçilmişdir.**

Ə.M.Topçubaşovun və onun başçılıq etdiyi nümayəndə heyətinin Parisə buraxılmaması onlarda və Azərbaycan hökumətində narahatlıq yaradırdı. Ə.M. Topçubaşovun 1919-cu ilin 22 fevralında göndərdiyi teleqramda yazılırdı: "Konstantinopoldan Bakıya – İngilis Qərargahına teleqramma. Hökumətin sədrinə çatdırmağı xahiş edirəm ki, icazə verilmədiyindən hələ Parisə gedə bilməmişəm"[26].

Ə.M.Topçubaşovun Azərbaycan Nazirlər Sovetinin Sədri F.X.Xoyskiyə yazdığı 1919-cu il, 17 mart tarixli məktubundan məlum olur ki, Müttəfiq qüvvələrin təmsilçiləri Azərbaycan Nümayəndə Heyətinin Paris Sülh Konfransına getməsinə maneçilik yaradırlar. Fransa rəsmiləri ilə aparılan danışıqlar nəticəsində martın 29-da Azərbaycan Nümayəndə Heyətindən yalnız 2, yaxud 3 nəfərin Parisə getməsinə icazə verildiyi bildirilirdi.

Azərbaycan Nümayəndə Heyətinin Parisə – Sülh Konfransına getməsi ciddi problemə çevrilmişdi. İngilis nümayəndəliyi Ə.M.Topçubaşovun Londona getməsinə də icazə vermir, Fransa nümayəndəliyi isə yalnız fransızların müəyyən etdikləri 3 nəfərin Parisə getməyinə razılaşırdı.

---

[25] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 277, s. 2, i. 35, v. 4-6.
[26] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 66, v. 4.


N° 11 15 mars 1920

BULLETIN D'INFORMATIONS DE L'AZERBAÏDJAN

ORGANE BI-MENSUEL

RÉDACTION : Hôtel Claridge, 74, avenue des Champs-Élysées, PARIS (VIII$^e$)

TÉLÉPHONE : ÉLYSÉE 48-13

En Dépôt aux ÉDITIONS ERNEST LEROUX, 28, rue Bonaparte, Paris-VI$^e$

La reconnaissance des Républiques transcaucasiennes

Paris, le 10 février 1920

A Son Excellence M. l'ambassadeur des États-Unis d'Amérique, Paris.

Les soussignés, présidents des Délégations de la Géorgie et de l'Azerbaïdjan, ont l'honneur de déclarer ce qui suit à Son Excellence M. l'ambassadeur des États-Unis d'Amérique à Paris :

Les deux Républiques transcaucasiennes, savoir : la Géorgie et l'Azerbaïdjan, viennent d'être reconnues en tant qu'États indépendants, de facto, par le Conseil suprême des grandes puissances alliées siégeant à Paris, c'est-à-dire par la France, la Grande-Bretagne et l'Italie, le Japon ayant adhéré par la suite à cette décision. La reconnaissance de facto, sans parler de la reconnaissance formelle et définitive, n'a pas été jusqu'ici accordée aux Républiques transcaucasiennes par la Puissance qui, aux yeux de leurs peuples, incarne le mieux les grands principes de liberté et de justice par les États-Unis.

Or, dans ces derniers temps, de nombreuses missions américaines ont visité les pays susmentionnés et ont réuni sur ces Républiques toutes les informations nécessaires. Le Gouvernement fédéral n'ignore pas les sentiments de sympathie qu'inspire le pays américain aux pays transcaucasiens, ni leur désir d'entrer en relations suivies avec la grande démocratie américaine, et cela indépendamment de la décision que l'Amérique prendra en ce qui concerne les responsabilités à assumer par elle dans certains pays de l'Asie antérieure.

Aussi est-il naturel que les peuples et les Gouvernements de Géorgie et d'Azerbaïdjan attacheraient une très grande importance à ce que leur indépendance fût, dès maintenant, reconnue aussi par les États-Unis.

Les soussignés ont, par conséquent, l'honneur de prier Son Excellence de bien vouloir transmettre ce qui précède au Gouvernement qu'Elle représente, et de ne pas refuser son appui personnel à ce que la Géorgie et l'Azerbaïdjan soient au plus tôt reconnues en tant que Républiques indépendantes par le Gouvernement de Washington.

Le Président de la Délégation géorgienne,
Signé : M. TCHEIDZÉ.

Le Président de la Délégation d'Azerbaïdjan :
Signé : M. TOPTCHIBACHEFF.

**Parisdə Azərbaycanı tanıtmaq məqsədi ilə fransızca yayımlanan bülleten.**

Həmin dövrdə gözlənilmədən Azərbaycan Nümayəndə Heyətinin Parisə getməsi mümkün oldu. ABŞ prezidenti Vudro Vilsonun rəsmi şəkildə Versal konfransında Qafqaz məsələsini qoymasını nəzərə alıb, nümayəndələrin Parisə getməsinə icazə verildi[27].

Azərbaycan Nümayəndə Heyəti Parisə gəldiyi ilk gündən gərgin fəaliyyətə başladı. İlk görülən işlərdən biri Ə.M.Topçubaşov, Ə.Ağayev və C.Hacıbəylinin birgə hazırladıqları “Qafqaz Azərbaycanı Respublikasının Paris Sülh Konfransına memorandumu” adlı sənədin fransız və ingilis dillərində nəşrə hazırlanması oldu. Azərbaycanın tanıdılması baxımından nümayəndə heyətinin hazırladığı “Qafqaz Azərbaycanı əhalisinin etnik və antropoloji tərkibi”, “Qafqaz Azərbaycanının iqtisadi və maliyyə vəziyyəti” adlı sənədlər də (sonradan kitabça kimi nəşr olundu) əhəmiyyətli rol oynadı.

1919-cu ilin may ayında Ə.M.Topçubaşovun başçılıq etdiyi nümayəndə heyəti Polşa, Gürcüstan, Dağlılar Respublikası, Ermənistan və İran nümayəndə heyətləri ilə görüşmüşdülər.

Eyni zamanda nümayəndə heyəti 12 informasiya bülleteni hazırlayıb nəşr etdi[28].

1919-cu ilin sonunda C.Hacıbəylinin fransız jurnalı olan “Revyu dyu Mond Myuzyulman”da “İlk müsəlman respublikası Azərbaycan” məqaləsi çap olundu. Bu məqalədə Azərbaycanın tarixi coğrafiyası və inkişafı işıqlandırılırdı.

Nümayəndə heyətinin nəşr etdiyi bülletenlərdə erməni işğalçılarının Naxçıvanda azərbaycanlıları sıxışdırması, Ermənistandakı müsəlman əhalinin vəziyyəti, general Denikinin Qafqaza doğru irəliləməsi (Bülleten №3) ilə bağlı yazılar çap edilmişdi.

Bülletenin 7-ci sayında Britaniya siyasi xadimi S.Lidellin Bakıya səfəri və sonda Rusiya, eləcə də dünya mətbuatının Azərbaycanla bağlı məlumatların icmalı verilmişdi.

Bülletenin 9-cu sayında 1919-cu ilin dekabrında Bakıda keçirilən Azərbaycan-İran konfransı haqqında məlumat və Azərbaycan Cümhuriyyətinin bir illik fəaliyyəti haqqında yazılar vardır.

[27] C.Həsənli. Tarixi şəxsiyyətin tarixi. B., 2013, s. 353.
[28] Р.Абуталыбов. Годы и встречи в Париже. М., 2006, с. 56.

Bülletenin 10-cu sayında Rusiyanın Xarici İşlər Komissarı Çiçerinin F.Xoyskiyə 1920-ci ilin yanvarın 2-də göndərdiyi nota haqqında məlumat, Parisdə Zaqafqaziya ilə bağlı keçirilən konfransın materialları, Azərbaycanın cənub-qərbində qaçqınların vəziyyəti ilə bağlı yazılar dərc olunmuşdu.



**Ə.M.Topçubaşov. Paris, 1919–1920-ci illər.**

Bülletenin 11-ci sayında Azərbaycanın xarici ölkələr tərəfindən tanınması ilə bağlı materiallar, 12-ci sayda isə Qars hadisələri ilə bağlı məlumatlar, F.X.Xoyskinin Ermənistanın Xarici İşlər nazirinə notası, Çiçerinə isə üçüncü notası çap edilmişdi[29].

Qeyd olunmalıdır ki, Azərbaycan nümayəndə heyətinin fransız dilində hazırladığı mətnlərin tərtibində və redaktəsində fransız şərqşünası Lyusen Byuvanın (1877-1942) böyük rolu olmuşdu.

Azərbaycan Nümayəndə Heyətinin Azərbaycanın tanınması istiqamətində gördüyü ən əhəmiyyətli çalışmalardan biri də ABŞ Prezidenti V.Vilsonla görüş oldu. 1919-cu ilin mayın 28-də günün ikinci yarısı V.Vilson Azərbaycan Nümayəndə Heyətini qəbul etdi. Qəbul zamanı Ə.M.Topçubaşov ABŞ Prezidentinə müraciət edərək dedi: "Biz uzaq Qafqazdan, buradan bir neçə min mil uzaq olan Azərbaycandan gələrək xalqımızın azad və müstəqil həyatı üçün minnətdarlığımızı, dərin hörmətimizi, azadlıq və müstəqil həyat ruhu ilə yaşamaq istəyən xalqımızın təşəkkürlərini bildiririk. Qüdrətli Amerikanın nümayəndəsi kimi Sizə müraciət edib xahiş edirik ki, cənab Prezident, bizim ölkəmiz, bizim xalqımız və

[29] Р.Абуталыбов. Годы и встречи в Париже. М., 2006, с. 57-59.


ERNEMENT DE LA RÉPUBLIQUE D'AZERBAIDJAN
ENVOYÉ EXTRAORDINAIRE & MINISTRE PLENIPOTENTIAIRE

№ 18 Апреля 1919

Ə.M.Topçubaşovun imzası ilə məktub. 18 aprel 1919-cu ul.

elə bizim özümüz haqqında məlumatları bizdən eşidəsiniz. Çünki biz Avropa və Amerika mətbuatında tez-tez Azərbaycan haqqında səhv, saxtalaşdırılmış və həqiqətə uyğun olmayan məlumatların verildiyini eşitməli oluruq. Doğrudur, bizi hələ yaxşı tanımırlar, biz indi birinci dəfədir ki, Avropadayıq, lakin Sizi əmin edirik ki, müstəqil yaşamaq üçün bizdə hər şey vardır. **Biz ümid edirik ki, konfrans bizi dinləyəcək və biz Millətlər Cəmiyyətinə buraxılacağıq. Biz əminik ki, bütün xalqlar kimi, biz də Sizin böyük prinsipləriniz əsasında yardım alacağıq. Biz bildiririk ki, nə Kolçakın, nə Denikinin, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri-birisini tanımayacağıq. Biz Azərbaycan üçün yalnız öz parlamentimizi və öz hökumətimizi tanıyırıq və tanıyacağıq"**[30].

Ə.M.Topçubaşov çıxışından sonra Qafqaz Azərbaycan Respublikası nümayəndələrinin memorandumunu ABŞ Prezidentinə təqdim etmişdi.

**V.Vilsonla görüşdə Azərbaycan Nümayəndə Heyətinin altı benddən ibarət olan tələbləri ABŞ Prezidentinə təqdim olundu: 1) Azərbaycanın müstəqilliyi tanınsın; 2) Vilson prinsipləri Azərbaycana da şamil edilsin; 3) Azərbaycan nümayəndələri Sülh Konfransına buraxılsın; 4) Azərbaycan Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilsin; 5) ABŞ-ın Hərbi Departamentliyi Azərbaycana hərbi yardım göstərsin; 6) ABŞ-la Azərbaycan Respublikası arasında diplomatik münasibətlər yaradılsın"[31]**.

Ə.M.Topçubaşov prezidentə bildirdi ki, bu tələblər qəbul olunarsa, Azərbaycan keçmişdə tərkibində olduğu çar Rusiyasının borclarından öz payına düşəni tədricən ödəyəcəyinə təminat verir.

[30] C. Həsənli. Tarixi şəxsiyyətin tarixi. B., 2013, s. 359-360;
A.M.Топчибаши. Документы из личных архивов (1903-1934). M., 2012, c. 24.
[31] C. Həsənli. Tarixi şəxsiyyətin tarixi. B., 2013, s. 361.

ABŞ Prezidenti V.Vilson söhbətdə bu fikirləri diqqətə çatdırdı: "Amerikalılar dünyanı kiçik hissələrə bölmək istəmirlər; Azərbaycan məsələsi "rus məsələsi"ndən əvvəl həll edilə bilməz".

Ə.M.Topçubaşovun Azərbaycan Respublikası Nazirlər Şurasının Sədrinə Parisdən 1919-cu ilin 22-25 sentyabrında göndərdiyi məktubda **isə Azərbaycanın tanınması ilə bağlı ciddi çətinliklərin olduğu qeyd edilirdi: "Müttəfiqlər bizim müstəqilliyimizlə bağlı məsələni nəinki müzakirəyə çıxarmaq, hər şeydən göründüyü kimi, heç bunu etmək belə istəmirlər"**[32].

Ə.M.Topçubaşovun Azərbaycanın tanıdılması istiqamətindəki fəaliyyətini onun Parisdən Azərbaycan Respublikası Nazirlər Şurasının Sədrinə göndərdiyi məktublardan oxumaq mümkündür. O, bu məktublarda həm də demokratik Azərbaycan dövləti quruculuğunun mütləq vacibliyini qeyd edirdi.

Ə.M.Topçubaşovun 1919-cu ilin 6-10 noyabr tarixli göndərdiyi məktubda yazılmışdı: "...Doğrudur, bizi hələ dövlət kimi tanımırlar. Lakin getdiyimiz hər yerdə və hamıya artıq il yarımdan bəri bir dövlət kimi faktiki mövcudluğumuzu bildirir, öz parlamenti, hökuməti, inzibatçılığı, məhkəməsi, məktəbləri, ordusu olan Azərbaycanın müstəqil yaşadığını göstəririk. **Bu, Azərbaycan bolşeviklərlə amansız mübarizəyə tab gətirib. Deməli, azərbaycanlılar həyat qabiliyyətinə malikdirlər və özlərinin müstəqil dövlətini qura bilərlər.** Gücümüz çatdığı qədər, hətta gücümüz çatmasa belə, bu vəziyyəti qoruyub saxlamaq, bu özünütəsdiqi mühafizə etmək lazımdır. Biz istərdik ki, hamı, bütün xalqımız indi özümüzün müstəqil ictimai-siyasi və iqtisadi həyata qabil olduğumuzu sübut etmək üçün imtahan verdiyimizi yaxşı başa düşsün. İnanıram ki, buna gücümüz çatacaq. Çünki xalqımız, doğrudan da, qabiliyyətlidir, ölkəmiz isə təbii sərvətlərlə zəngindir. Lakin bizdə indiyə qədər əxlaqi başlanğıca əsaslanan siyasi məktəb olmadığından geniş xalq kütlələrinin öz gənc dövlətinin müəssisələrindən, qurumlarından nümunə götürməsi və yaşadığımız indiki sınaq anının bütün ciddiyyətini dərk etməsi çox zəruridir. Paytaxt və rəhbər xadimlər bax, Azərbaycana bütün varlığı ilə xidmət etməyin nümunəsini geniş xalq kütlələrinə onlar göstərməlidirlər. Çünki biz artıq şüurlarda geriyə dönüş üçün yer olmadığına və ola bilməyəcəyinə əminik.

**Qarşımızda yalnız bir yol var – bu da Azərbaycanın müstəqilliyinə aparan yoldur!** Bu yolu təhlükəsiz şəkildə keçmək üçün ilk növbədə ölkənin daxili vəziyyətini sahmana salmaq və möhkəmləndirmək zəruridir. Ölkənin özündə, onun inzibati qurumlarında və məhkəmələrində qayda-qanun yaratmaq və ümumən qanunçuluğa hörmət zəruridir. Ümumi mənafelərə qayğı və

[32] А.М.Топчибаши. Письмы из Парижа. В., 1998, с.38.

onlara sevgi hissi ilə yanaşmaq zəruridir. **Dövlət mənafelərini qorumaq yolunda xalqın mütəşəkkilliyi və birliyi zəruridir**. **Azərbaycan yalnız öz daxili həyatını bu şəkildə nizamlayacağı təqdirdə dövlət ola bilər.** Həm də elə bir dövlət ola bilər ki, artıq heç kəsin onu tanımasına möhtac qalmaz. Çünki daxilən güclü, sabit Azərbaycan artıq öz-özlüyündə real və inkaredilməz bir fakt kimi tanınmış olacaqdır. Daxildə dövlətçilik baxımından möhkəmləndikdə o, xaricdən gələn hər cür təhdidə layiqli cavab vermək üçün fiziki və mənəvi qüvvə əldə edəcəkdir.

Biz əminik ki, hökumət özünün mövcud qüvvələrini dövlət quruculuğunun bütün sahələrində Azərbaycanın daxili vəziyyətinin möhkəmləndirilməsinə sərf edəcəkdir. Biz hökumətimizdən onun məhz ölkənin daxili həyatını nizama salmaq yolunda atdığı hər yeni addım, verdiyi hər yeni sərəncam barəsində xəbərlər almaq arzusu ilə yaşayırıq. Hökumət yalnız bu yolla indiki vaxtda xalqın rəğbətini qazanmaq, eyni zamanda bizim də müstəqil dövlətçilik şəraitində yaşamağa qabil olduğumuzu nümayiş etdirmək iqtidarına malikdir. Yalnız daxildən güclü Azərbaycanın mövcudluğu şəraitində Nümayəndə Heyətinin buradakı fəaliyyətinin səmərə verəcəyinə ümid bəsləmək olar. Nümayəndə Heyəti isə öz növbəsində qarşıya qoyulan məqsədə çatmaq yolunda hər cür fədakarlığa hazırdır"[33].

Vəziyyətin belə gərginliyinə baxmayaraq, Azərbaycan Nümayəndə Heyəti çalışmalarını davam etdirirdi. Bu fəaliyyətlər və beynəlxalq ictimai-siyasi şərtlər, Cənubi Qafqazda Denikin təhlükəsi, bolşevik işğalının reallaşması Azərbaycanın, eləcə də Gürcüstanın müstəqilliyinin tanınmasına şərait yaradırdı.

**1920-ci ilin yanvar ayının 10-da İngiltərənin təşəbbüsü ilə Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı və burada Cənubi Qafqaz respublikalarının məsələsi geniş müzakirə olundu. Yanvarın 11-də Müttəfiqlərin Ali Şurası İngiltərənin Xarici İşlər Naziri lord Kerzonun təklifi ilə belə bir qərar qəbul etdi: "Müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar".**

**1920-ci ilin yanvarın 11-i Azərbaycanın müstəqil bir dövlət olaraq tanınması günü olaraq tarixə yazıldı.**

Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması 1920-ci ilin yanvarın 14-də təntənəli şəkildə Azərbaycanda da qeyd olundu.

Azərbaycan Nümayəndə Heyəti, başda Ə.M.Topçubaşov olmaqla sonradan Azərbaycanın Qərb dövlətləri tərəfindən de-yure tanınmasına çalışsalar da, bir nəticə vermədi. Ə.M.Topçubaşov 1925-ci ilin aprelində İstanbula M.Ə.Rəsulza-

[33] А.М.Топчибаши. Письмы из Парижа. B., 1998, c. 43.

dəyə yazdığı məktubda, xüsusən, Lozanna Konfransından (noyabr 1922 – iyul 1923) sonra Avropa dövlətlərinin münasibətlərinin dəyişdiyini qeyd edirdi.

1920-ci ilin aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildi. Həmin dövrdə – mayın əvvəlində Azərbaycan Nümayəndə Heyəti Sau-Remo konfransından Parisə yenicə qayıtmışdı. Mayın 3-də Ə.M.Topçubaşov fransız hökumətindən baş verən hadisələri öyrənmək üçün Azərbaycan hökumətinə teleqram göndərməyi xahiş etdi. O, yalnız mayın ikinci yarısında Tiflisdə olan Azərbaycan hökuməti rəhbərliyi ilə əlaqə saxlaya bildi.

1920-ci ilin iyunun 30-da Ə.M.Topçubaşov Londonda bolşevik ticarət nümayəndəsi L.Krasinlə sənəd imzalayan Antanta Ali Şurasının Sədri Klemansoya nota göndərdi[34].

İyulun 4-də Ə.M.Topçubaşov Belçikanın Spa şəhərində keçirilən Sülh konfransının sədri, İngiltərənin Baş Naziri Lloyd Corca xüsusi nota göndərdi. Həmin notada o, Azərbaycan xalqının bolşevizmdən xilas olması vacibliyini vurğulayırdı.

1920-ci ilin oktyabrın 8-də Ə.M.Topçubaşov Fransa Nazirlər Şurasının Sədri və Xarici İşlər naziri Klemansoya da nota göndərdi. O, bu notada əsas diqqəti Azərbaycanın zəngin təbiətinə, Xəzərin neftinə yönəldir və Parisin Azərbaycandakı müqavimət hərəkatına silahla kömək edəcəyi təqdirdə bu ölkənin Fransa üçün əhəmiyyətli bazar rolunu oynaya biləcəyini nəzərə çatdırırdı[35].

Ə.M.Topçubaşov göndərdiyi notalara əhəmiyyət verilmədiyini görüb, oktyabrın 9-da Fransa Xarici İşlər Nazirliyinin Baş katibi Filip Berteloya, ona Azərbaycanda yaranmış vəziyyəti izah etmək üçün şərait yaradılması xahişi ilə müraciət etdi. Bu müraciət əsasında Bertelo özü yox, Xarici İşlər Nazirliyinin siyasi və iqtisadiyyat departamentinin direktor müavini Laroş onunla görüşdü. Ə.M.Topçubaşov görüşdə Qafqaza xüsusi hərbi missiyanın göndərilməsini, Azərbaycanda silahlı üsyanın hazırlanmasında rol oynamağı və bunun müqabilində Fransaya Azərbaycanın neft müəssisələrinin müəyyən payının verilməsini vəd etdi.

Oktyabrın 27-də Fransa Xarici İşlər Nazirliyində olan Ə.M.Topçubaşov Dağıstanda və Azərbaycandakı üsyançılara Parisdən silah göndərilməsi vacibliyini bildirdi.

Sonradan Fransanın, eləcə də digər Avropa dövlətlərinin Sovet Rusiyasına (1922-ci ildən SSRİ-yə) olan münasibətində yumşalma hiss edilməyə başladı. Bu yumşalma mühacirlərin həm vəziyyətini, həm də mübarizəsini çətinləşdirirdi. Bunu Ə.M.Topçubaşovun yaxın dostlarına yazdığı məktublardan oxumaq mümkündür.

[34] Г.Мамулиа, Р.Абуталыбов. Страна огней в борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945, Париж-Баку, с. 68.
[35] Yenə orada, s. 72.

Ə.M.Topçubaşov Azərbaycanın bolşeviklər tərəfindən işğalı faktı ilə razılaşmayıb, mühacirətdə çətin mübarizə aparırdı. O, ilk öncə azərbaycanlı mühacirlərin birliyinə çalışır, Qafqaz xalqlarının birgə fəaliyyətini istiqamətləndirən qurumların, təşkilatların formalaşmasında önəmli rol oynayırdı.

Ə.M.Topçubaşov 1920-ci ilin 15 iyulunda Belçikanın Spa şəhərindən C.Hacıbəyliyə göndərdiyi məktubda nota verdiklərini, İtaliyanın, Belçikanın, Polşanın Xarici İşlər Nazirləri ilə görüşdüklərini yazırdı[36].

**1925-ci ilin iyulun 26-da Parisdə Azərbaycan, Şimali Qafqaz, Gürcüstan və Ukrayna respublikaları nümayəndələri arasında Qafqaz-Ukrayna əlaqələrinin möhkəmləndirilməsi və inkişafı ilə bağlı bəyannamə imzalandı. Sənəddə Sovet Rusiyasının həmin bölgələri işğal etməsi ilə bağlı ümumiləşmələr qeyd edildi. Sənəddə göstərilirdi ki, bu ölkələrin təmsilçiləri ərazilərinin bütünlüklə azad edilməsinə qədər siyasi və iqtisadi sahədə bir-birlərinə dəstək olacaqlar.** Həmin sənədi Azərbaycan Respublikası Nümayəndə Heyətinin sədri Ə.M.Topçubaşov, Şimali Qafqaz Respublikaları nümayəndə heyətinin müvəqqəti sədri H. Bammat, Gürcüstanın Daxili İşlər naziri N.Ramişvili, Ukrayna Respublikasının Xalq Təhsili naziri V.Prokopoviç imzalamışdılar[37].

1926-cı ilin 18 martında Parisdə dörd Qafqaz Respublikası Şurasının iclası keçirildi. İclasda Ə.M.Topçubaşov, C.Hacıbəyli, X.Sultanzadə, A.Mgerman, H.Bammat, S.Şamil, A.Çxenkeli, S.Amiredjibi, N.Ramişvili, Q.Qvazava iştirak edirdilər. İclasa sədrlik Ə.M.Topçubaşov tərəfindən aparılırdı. Müzakirə edilən məsələ bu idi: 3 Qafqaz Respublikası Şurası ilə Müstəqil Qafqaz Komitəsinin münasibətləri.

İclasda razılaşdırılan əsas məsələ hər iki təşkilatı təmsil edənlərin diplomatik fəallığının artırılması, Qafqaz Respublikalarının müstəqilliyinin bərpası uğrunda mübarizənin gücləndirilməsi oldu[38].

Ə.M.Topçubaşovun 1933-cü ilin 27 martında M.Ə.Rəsulzadəyə göndərdiyi məktubda yazılırdı: "Çox hörmətli Məmməd Əmin bəy! Qafqaz Konfederasiyasının formalaşması məsələsinə xəstəliyimdən sonra indi fikir söyləyə bilərəm. Etiraf etməliyəm ki, çoxlu suallar olandan sonra məni onun necə formada mövcud olacağı düşündürür. Ola bilsin ki, mühacirətin aktual şərtləri daxilində başqa bir formaya meyillənmək çox çətindir. Ancaq mənə elə gəlir ki, qəzetin köməkliyi ilə anketin Qafqaz Xalqlarının təmsilçilərinin baxışlarını tam şəkildə

---

[36] S.Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, f. 648, s. 6, i. 2, v. 2.
[37] Каваказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движение "Прометей". Сборник документов. М., 2012, с. 55-56.
[38] Yenə orada, s. 70.

işıqlandırıb toplanmış cavablardan düzgün nəticə çıxarılacağına təsir edəcəyi də çətindir.

Bu fikirlərimi bildirməklə, anket formasına uğurlar arzulayır və onda iştirak etməyi vacib sayıram. Və həm də mən Qafqaz Konfederasiyasının coşqun tərəfdarlarındanam. Bununla bağlı isə 1924-cü ilin oktyabr və noyabr aylarında Azərbaycan, Gürcüstan və Şimali Qafqaz xalqları təmsilçilərinin yığıncaqlarında bu haqda fikirlərimi bildirmişəm və orada Qafqaz Konfederasiyasının formalaşması üçün baza da hazırlanıb. Bu məsələyə mənim baxışlarım ümumi xarakterlidir və bu göndərilən məktubda qeyd olunub"[39].

Ə.M.Topçubaşovun Qafqaz xalqlarının birliyi istiqamətində ciddi çalışmaları olmuşdu. 1921-ci ilin iyunun 10-da Ə.M.Topçubaşov, Çxenkeli, Aqaronyan və Germoyev Qafqaz Respublikaları İttifaqının yaradılması ilə bağlı bəyannamə imzalamışdılar. 1934-cü ildə, iyul ayının 14-də isə Brüsseldə M.Ə.Rəsulzadə ilə birlikdə Azərbaycan adından Qafqaz Konfederasiyası (Azərbaycan, Gürcüstan və Şimali Qafqaz) paktını imzalamışdılar.

Ə.M.Topçubaşov 1920-ci illərdə yaradılan və Sovet rejiminə qarşı ciddi mübarizə aparan "Prometey" hərəkatının da fəallarından olub.

Bundan əlavə, Ə.M.Topçubaşovun Polşa Respublikası rəsmiləri ilə də yazışmaları bu ölkənin "Akt novıx dokumentov" ("Yeni Aktlar Arxivi") arxivində qorunub saxlanılmaqdadır[40].

Qeyd edək ki, Ə.M.Topçubaşovun Azərbaycanın tanınmış siyasi xadimi M.Ə.Rəsulzadə ilə 1920-ci illərdə ciddi yazışmaları olub. Ümumilikdə 35 məktubdan (19-nu Ə.M.Topçubaşov, 16-nı isə M.Ə.Rəsulzadə yazıb) ibarət olan bu yazışmalarda Azərbaycanda gedən proseslər, mühacirlərin fəaliyyəti, Qafqaz Xalqlarının Birliyi ideyası ilə bağlı maraqlı məlumatlar vardır[41].

Ə.M.Topçubaşov və Nümayəndə Heyəti Azərbaycanın dünyaya tanıdılması mübarizəsini ağır maddi şəraitdə aparırdı. Maliyyə çatışmazlığı, şəraitsizlik onların işini çətinləşdirirdi. Onun 1920-ci ilin yanvarın 29-da C.Hacıbəyliyə yazdığı məktubunda bu qeydlər vardı: "Bizim maddi vəziyyətimiz çox ağırdır: Gürcüs-

---

[39] Каваказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движение "Прометей". Сборник документов. М., 2012, с. 90.

[40] Polşa Respublikası, Varşava, Yeni Aktlar Arxivi, Xarici İşlər Nazirliyi, iş №6690;
Polşa Respublikası, Varşava, Yeni Aktlar Arxivi, Xarici İşlər Nazirliyi 1927-1931-ci illər), iş №6685;
Polşa Respublikası, Varşava, Yeni Aktlar Arxivi, Xarici İşlər Nazirliyi. iş №6708.

[41] А.М.Топчибаши и М.Э.Расулзаде. Переписка 1923-1926. (Составитель автор предисловия и примечания С.М.Исхаков). М., 2012.

tandan aldığımız 100 min frank artıq xərcləndi. Fevrala qədər çətinliklə yaşayarıq, sonra isə dava-dalaş!"[42].

O, azərbaycanlı mühacir X. Sultanova yazdığı 1925-ci il 2 yanvar və 1925-ci il 31 avqust tarixli məktublarında da fəaliyyət üçün maddi vəsaitin yoxluğunu bildirirdi[43].



**Ə.M.Topçubaşovun dəfni. M.Ə.Rəsulzadə (ortada) dəfndə iştirak edir. Noyabr 1934-cü il.**

Ə.M.Topçubaşovun mühacirət həyatı da çox ağır keçib. Onun C.Hacıbəyliyə yazdığı məktublarda həmin məqamlar açıqlanmışdır. Onun 1928-ci ilin 30 iyulunda yazdığı məktubdan: "Məktubunuzu aldım. Siz maddi kömək xahiş edirsiniz. Şəxsən məndə və Nümayəndə Heyətinin kassasında pul yoxdur"[44].

Ə.M.Topçubaşovun 1931-ci ilin 17 aprelində yazdığı məktubdan: "Mənzillə bağlı dəhşətli məsələ hələ həll edilməyib. Ödəmək üçün əjdaha tələblər qoyulur ki, bu da mənim üçün mümkün deyil. Vəziyyət olduqca ağırdır"[45].

1932-ci ilin aprelin 2-də yazdığı məktubdan: "Heydər bəyə (Heydər Bammat – red.) telefon etmək və yaxud onun yanına getmək imkanım yoxdur. Maliyyəsiz oturmuşam... Evdən çıxa bilmirəm"[46].

1932-ci ilin 14 mayında yazdığı məktubdan: "Son günlərdə baş verən hadisələrlə bağlı əhvalım ikrahedicidir. Borclar üstələyir, soyuq, ehtiyatlar tam tükənib"[47].

Ə.M.Topçubaşov Azərbaycan mətbuatının banisi sayılan H.Zərdabinin qızı Pəri xanımla evlənmişdi. Qeyd edək ki, Ə.M.Topçubaşov mühacirətdə olduğu

---

[42] Р.Абуталыбов. Годы и встречи в Париже. М., 2006, с. 50.
[43] А.М.Топчибаши. Парижский Архив 1919-1940 в четырех книгах. Книга Третья. 1924-1930. Москва, Художественная литература, 2017. составители, предисловие, перевод и примечания Г.Мамулиа и Р.Абуталыбов. Научный редактор И.Агакишиев, с.168-233.
[44] Р.Абуталыбов. Годы и встречи в Париже. М., 2006, с. 50.
[45] Yenə orada.
[46] Yenə orada.
[47] Yenə orada.

dövrdə H.Zərdabinin həyat və fəaliyyəti haqqında 1925-ci ildə “Azərbaycanın yolgöstərəni” adlı çox əhəmiyyətli bir məqalə də yazmışdı[48].

Ə.M.Topçubaşovun Pəri xanımdan üç oğlu (Rəşid, Ələkbər, Ənvər) və iki qızı (Sara və Sevər) dünyaya gəlmişdi.



**Ə.M.Topçubaşovun məzarı: Paris, Sen-Klu məzarıstanlığı.**

Ə.M.Topçubaşov 1926-cı ildə 25 yaşlı istəkli oğlu Rəşidi itirdi. Rəşid Sorbonna Universitetinin tələbəsi idi və bir neçə xarici dil bilirdi. Bu hadisədən Əlimərdan bəy bərk sarsıldı. Yaxın dostu X. Xasməmmədova 1931-ci ilin aprelin 2-də yazdığı məktubda bu qeydlər vardır: “Mən artıq Sizə yazmışdım: ən yaxşı təsəllini verdiyimiz qurbanlarla bağlı xatirələrdə tapmaq olar. Artıq 4 ildən çoxdur ki, özüm də sakitliyi və aramı məndən ötrü həmişəyaşar fikirlərdə, hərəkətlərdə, jestlərdə, xarakterlərdə – bir sözlə, əziz Rəşidimi xatırladan, surətini gözümdə canlandıran hər şeydə tapıram. Siz də, Suad xanım da onu tanıyırdınız... Hər cümə axşamı xanımımla, Əliəkbərlə birlikdə qəbrinin üstünə gedirəm, dua oxuyuram, məzarını çiçəklərlə bəzəyirəm. Tez-tez yazılarını, kitablarını, qeydlərini gözdən keçirirəm. Ötən ildən yazı masama yenidən oğlumun portretini qoymuşam. Ağlımla onun artıq dünyada olmaması fikri ilə barışıram, ürəyimsə övladımla birlikdədir”[49].

Ə.M.Topçubaşov Azərbaycan mühacirlərinə imkan daxilində diqqətli olmağa çalışırdı. Bunu onun Ceyhun Hacıbəylinin oğlunun məktəbdə təhsilinin davam etdirilməsi ilə bağlı 1932-ci ilin fevralın 26-da direktora yazdığı xahiş məktubu təsdiq edir: “Böyük təəssüflə və kədərlə öyrəndim ki, bizim Nümayəndə Heyətinin üzvü C.Hacıbəylinin oğlu Sizin rəhbəri olduğunuz Kollecdə təhsil haqqını ödəyə bilmədiyindən dərsə davamiyyətdən məhrum edilib... Öz üzərimə götürüb təsdiqləyirəm ki, ilk imkan yaranan kimi həmin şagirdin atası tərəfindən gözlənilən maliyyə Sizə ödəniləcək”[50].

Ə.M.Topçubaşov 1934-cü ilin noyabrın 5-də Parisdə dünyasını dəyişdi. Onun məzarı Paris yaxınlığındakı Sen-Klu qəbiristanlığındadır.

---

[48] Azərbaycan Mətbuat tarixi antologiyası. I c. B., 2010, s. 112-133.

[49] V.Quliyev. Əlimərdan bəy Topçubaşovun kədərli bir məktubu. “Ədəbiyyat” qəzeti, 28.12.2017

[50] S.Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, f. 649, s. 3, iş 103, v. 1.

# NƏSİB BƏY YUSİFBƏYLİ

(1881 – 1920)



Tanınmış ictimai-siyasi xadim Nəsib bəy Yusifbəyli 1881-ci ildə Gəncədə anadan olub. Orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra o, Odessa Universitetinin hüquq fakültəsində oxuyub.

N.Yusifbəyli sonradan Türkiyəyə gedib, orada Türk Dərnəyi adlı Cəmiyyətlə əlaqə saxlayıb.

N.Yusifbəyli 1909-cu ildə İstanbuldan Gəncəyə qayıdaraq, buradakı Müsəlman Xeyriyyə Cəmiyyətinin, Aktyorlar Cəmiyyətinin işində fəallıq göstərib.

O, 1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra Gəncədə Türk-Ədəmi Mərkəziyyət adlı partiya yaradıb.

N.Yusifbəyli 1918-ci ildə F.X.Xoyskinin birinci Hökumət kabinetində Maliyyə və Xalq Maarif naziri, ikinci və üçüncü Hökumət kabinetində Xalq Maarif və Dini Etiqad Naziri vəzifələrini icra edib.

N.Yusifbəyli 1919-cu ilin martın 14-də Nazirlər Şurasının Sədri və eyni vaxtda Daxili İşlər naziri vəzifəsini yerinə yetirib. O, 1920-ci ilin aprelin 1-nə qədər Azərbaycan Nazirlər Şurasının Sədri olaraq dövlət quruculuğu işlərinə rəhbərlik edib.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra N.Yusifbəyli Bakını tərk edib və Kürdəmir qəzasında naməlum şəxslər tərəfindən qətlə yetirirlib.

# NAZİRLƏR ŞURASININ SƏDRİ

Azərbaycanın görkəmli dövlət xadimi **Nəsib bəy Yusifbəyli** 1881-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra o, 1902-ci ildə Odessada (Novorossiyskidə) Universitetin hüquq fakültəsində oxumuşdur. O, universitetdə təhsil alan azərbaycanlıların yaratdığı təşkilatın başçılarından sayılırdı. Bu universitetdə Azərbaycandan olan Nəriman Nərimanov, Xosrov bəy Sultanov, Şahmalıyev qardaşları və digərləri də təhsil alırdı.

1905-1907-ci illərdə Rusiyada baş verən inqilab dövründə tələbələrin siyasi fəaliyyətindən ehtiyatlanan çar hökuməti Odessa Universitetini müvəqqəti olaraq bağladı. Bundan sonra N.Yusifbəyli Krımın Baxçasaray şəhərinə köçdü və burada görkəmli ictimai-siyasi xadim İsmayıl bəy Qaspıralının (1852-1914) redaktor olduğu "Tərcüman" qəzetində müxtəlif məqalələr çap etdirdi. O, burada İsmayıl bəyin qızı Şəfiqə Sultan xanım Qaspıralı ilə (1886-1975) ailə həyatı qurdu və bir müddət bu şəhərdə yaşadı. N.Yusifbəyli Baxçasarayda Azərbaycan dramaturqlarının əsərlərinin tamaşaya qoyulmasında fəallıq göstərmiş, özü də rollarda çıxış etmişdir. "Tərcüman" qəzetinin məlumatına görə (13 yanvar 1907-ci il) Ə.Haqverdiyevin "Dağılan tifaq" faciəsi Baxçasaray şəhər teatr həvəskarları tərəfindən tamaşaya qoyulmuş və N.Yusifbəyli Nəcəf bəy rolunu oynamışdır[1].

Bəzi mənbələrə görə isə N.Yusifbəyli maddi çətinliklə bağlı universitetin 4-cü kursunu bitirdikdən sonra təhsilini davam etdirməmişdir. Bu haqda araşdırmaçı Nazif Qəhrəmanlı da "Nəsib bəy nümunəsi" kitabında məlumat verir: "Rusiyada 1905-1907-ci illər inqilabı Nəsib bəyə öz təhsilini tamamlamağa imkan vermədi"[2].

N.Yusifbəyli çar hökuməti tərəfindən təqib edildiyindən 1908-ci ildə İstanbula getmiş, burada "Türk dərnəyi" adlı cəmiyyətin yaradıcılarından olmuşdur. O, 1909-cu ildə Gəncəyə qayıtmışdır.

N.Yusifbəyli Gəncədə yaşasa da, "Tərcüman" qəzeti ilə əlaqələrini kəsməmiş, müxtəlif yazılarla qəzetdə çıxış etmişdir. Onun bu illərdə "Tərcüman" qəzetində 1911-ci ilin mayın 20-də M.F.Axundovun anadan olmasının 100 illiyi ilə bağlı yazısı çap olunmuşdu.

Bundan əvvəl isə onun 1909-cu ildə sentyabrın 4-də "Tərcüman"da (№36) "Mətbuat" məqaləsi çap olunmuşdu və o, burada Rusiyada nəşr edilən müsəl-

---

[1] M. Əliyev. Nəsib bəy Yusifbəyli. "Odlar Yurdu" qəzeti, noyabr 1989, №22.

[2] N. Qəhrəmanlı. Nəsib bəy nümunəsi. B,. 2008, s.15.

man satirik jurnallarını, "Molla Nəsrəddin"i dəyərləndirirdi. "Tərcüman"ın 40-cı sayında isə tatar jurnalı "Yulduz"un redaktoru ilə o, polemika apararaq "Molla Nəsrəddin"i müdafiə edirdi[3].



**N.Yusifbəyli Krımda - Bağçasarayda: 1904–1905-ci illər.**

N.Yusifbəyli o illərdə Gəncədə fəaliyyət göstərən Müsəlman Xeyriyyə Cəmiyyətinin, Müsəlmanlar İçərisində Maarifi Yayan cəmiyyətin və Aktyorlar Cəmiyyətinin fəaliyyətində iştirak etmişdir.

N.Yusifbəyli 1915-ci ilin oktyabrın 2-dən Bakıda nəşrə başlayan "Açıq söz" qəzeti ilə yaxınlıq etmiş, redaktor M.Ə.Rəsulzadə ilə dostluq münasibətində olmuşdur[4].

Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra Azərbaycanın Bakı və digər şəhərləri ilə yanaşı Gəncədə də müxtəlif təşkilatlar yaranmağa başladı. Həmin dövrdə Gəncədə Müsəlman Milli Komitəsi yaradıldı. Ölkədə hakimiyyətsizlik və anarxiyanın hökm sürdüyü 1917-1918-ci illərdə (Azərbaycan Cümhuriyyəti hökuməti Gəncəyə köçənə qədər) başqa yerlərdə olduğu kimi Gəncədə də Azərbaycan türklərinin vəziyyəti və onların müdafiəsi ilə əlaqədar bütün məsələlər bu komitə tərəfindən həll edilirdi. Gəncə Müsəlman Milli Komitəsinə Difai Partiyasının fəal üzvü N.Yusifbəyli başçılıq edirdi. Difaiçilərdən Ə. Rəfibəyli, Xəlil bəy və Ələkbər bəy Xasməmmədovlar, Hacı Əli Hüseynzadə, H. Ağayev, A. Səfikürdski, M. Şeyxzamanlı, M. Pişnamazzadə (Komitənin dini məsələlər üzrə müavini), Ə. Cavad və başqaları Milli Komitənin üzvləri idilər. Komitənin Gənclər Təşkilatının sədri N. Şeyxzamanlı idi[5].

---

[3] M. Əliyev. Nəsib bəy Yusifbəyli. "Odlar Yurdu" qəzeti, noyabr 1989, №22.

[4] N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991, s. 62.

[5] Azərbaycanın ilk qeyri-hökumət təşkilatları. (hazırlayan və redaktoru Nəsiman Yaqublu). B., 2013, s. 26.

Qeyd edək ki, Azərbaycan milli istiqlal tarixində N. Yusifbəylinin 1917-ci ilin fevralından sonra Gəncədə rəsmi olaraq yaratdığı Türk Ədəmi-Mərkəziyyət Partiyasının böyük rolu olub. Xalqının azadlıq və istiqlal ideallarının gerçəkləşməsində böyük xidmət göstərən və 1917-ci ildə Azərbaycan istiqlalı adına Müsavatla birləşmək razılığına gələn bu təşkilatın tarixini öyrənmək çox maraqlıdır. Türk Ədəmi-Mərkəziyyətin fəaliyyəti və yaranma səbəbləri ilə bağlı isə geniş araşdırmalar aparılmamışdır[6].

Hələ ötən əsrin əvvəllərində gəncəli Cavad xanın rus əsarətinə qarşı mübarizəsi, qəhrəmanlıq və şücaət dolu hünəri gəncəlilərin yaddaşında yaşayırdı. Gəncə mühiti daima rus istibdad rejiminə bir nifrətdə köklənmişdir. XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi mühitində baş verən hadisələrin təsiri bu bölgədən də yan keçməmişdi. Bunun nəticəsində Gəncədə 1906-cı ildə Dram cəmiyyəti adlı bir təşkilat qurulmuş və gizli fəaliyyətə başlamışdı.

O dövrün güclü təşkilatlarından olan Ə. Ağaoğlunun başçılıq etdiyi Difai Partiyasının da Gəncə şöbəsi ciddi fəaliyyət göstərirdi.

Türk Ədəmi Mərkəziyyətin yaradılmasında fəal iştirak edən Nağı Keykurun xatirələrində yazırdı: "Çarlıq Rusiyasının imperializm rejimi 1917-ci il inqilabından sonra (fevral inqilabı – N. Y.) bütün əzəməti ilə çökmüşdü. Hamımız böyük bir sevinc içərisində idik. Gəncədəki gizli təşkilatımızı idarə edən rəhmətlik Yusifbəyli Nəsib bəylə rastlaşdığımda təbrik etdim və artıq gizli fəaliyyətdən üzə çıxdıq dedim". O da mənə: "Arkadaşlarla görüşdüm, sabah toplanacağıq, sən də gəl, Ədəmi-Mərkəziyyət Partiyası quracağıq" dedi. Rəhmətlik Nəsib bəy günün siyasi olayları və durum haqqında ətraflı bilgilər verdikdən sonra firqə quruldu və proqramda yer alan digər məsələlər yanında Azərbaycan və digər rus məhkumu türk elləri üçün də geniş məhəlli muxtariyyət haqqı istənilirdi"[7].

Vaxtilə "Tərcüman"da çalışıb böyük İ. Qaspıralı məktəbini keçən, 1908-ci ildə Türkiyədəki "Türk dərnəyi"ndə fəallıq göstərən N. Yusifbəylinin başçılıq etdiyi bu partiya qısa zaman müddətində Gəncədə böyük nüfuz qazandı. Türk Ədəmi-Mərkəziyyət getdikcə Gəncə və ətraf bölgələrə təsirini artırır, ciddi qüvvə olan rus şovinistlərinə və ermənilərə qarşı mübarizəsini gücləndirirdi. Ədəmi-Mərkəziyyətçilər erməni və rus şovinistləri ilə yanaşı, sosialistlərlə də mübarizə etmək məcburiyyətində idi. Digər bir qüvvənin – dindarların da Ədəmi-Mərkəziyyətçilərə qarşı çevrilməsi təşkilat üzvlərini böyük çətinlik qarşısında qoyurdu. Maraqlı qüvvələr tərəfindən qızışdırılan dindarlar kütlədə dini hisslərin

[6] N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 1997, s.50.
[7] Müsavat Bülleteni (Berlin), №4, 1962, s. 19-20.

güclülüyünü nəzərə alıb aşağıdakı məzmunda təbliğat aparırdılar: "Nəsib bəy bir kitab yazaraq (partiyanın proqramı nəzərdə tutulurdu), bu kitabda "artıq Qurani-Kərim köhnəlmiş, bizi idarə edə bilməz!" – demişdir[8].

Xalq arasında dolaşan məlumatlara aydınlıq gətirmək məqsədi ilə N.Yusifbəyli xalqın nüfuzlu adamlarını bir yerə toplayıb yığıncaq keçirdi. Yığıncaqda camaat arasından ilk eşidilən söz bu olmuşdur: "Artıq rus idarəsi qalmadı, hər işimizi şəriətə görə qurmalıyıq". Lakin N.Yusifbəyli məharətlə vəziyyətdən çıxış yolu taparaq demişdi: "Qarşımızdakılar millətimizin düşmənidirlər. Milli varlığımızı qorumaq bütün işlərimizin başında gəlir. Düşmənlərimiz dinimizlə deyil, millətimizlə uğraşır"[9].

N.Yusifbəyli toplantı sonunda böyük siyasi bacarıqla belə bir qərar təklif etdi: "Siyasət adamları din işlərinə qarışmamalı, din işləri din adamlarına buraxılmalı və bu din adamları da siyasətə qarışmamalıdırlar". Partiya qərarı kimi irəli sürülən bu fikir, yəni dövlətin dindən ayrılması razılıqla qəbul edildi. Belə məzmunlu qərar Azərbaycan istiqlalı dövründə mühüm sənəd kimi saxlanıldı.

N.Yusifbəylinin geniş savadı, elmi və siyasi əxlaqı Gəncədəki digər milli qüvvələri Ədəmi-Mərkəziyyət ətrafına toplamağa başladı. N.Yusifbəylinin mühüm xidmətlərindən biri də Gəncədə olan 188-119-cu rus alaylarını silahsızlaşdırmaqla bağlı gördüyü tədbirlər oldu. N.Yusifbəyli əvvəl Gəncə erməni qüvvələrini razı salaraq Difai təşkilatının silahlı qüvvələrinə arxalanıb bu iki alayı silahsızlaşdırdı. Görülən tədbirlər sayəsində rusların silahları əllərindən alındı və özləri də vaqonlarda Rusiyaya göndərildi[10].

Həmin vaxtlar Qafqaz cəbhəsindən dönən, Tiflisdə toplaşan rus silahlı qüvvələrinin Gəncəyə hücumu olmuşsa da, lakin bir naticə verməmişdi. Ədəmi-Mərkəziyyətçilərin xüsusi fəallığı ilə bütün Gəncə camaatı ayağa qalxmış, rusları Gəncənin otuz kilometrliyində – Şəmkirdə saxlamışdılar. Qısa vuruşmadan sonra ruslar təslim olmuşdular.

Bu hadisələrdə milli hissiyyatı və vətən qeyrəti ilə fəallıq göstərən Türk Ədəmi-Mərkəziyyət Partiyası getdikcə Gəncəni idarə edən təşkilata çevrilirdi[11].

Türk Ədəmi-Mərkəziyyət Partiyasının proqramı da çox məzmunludur. Proqramda yalnız Azərbaycan xalqının deyil, eləcə də rus əsarətində əzilən türk ellərinin haqqının qorunması vacibliyi göstərilirdi.

**Türk Ədəmi-Mərkəziyyət Partiyasının proqramında yazılmışdı:**

---

[8] "Müsavat" Bülleteni (Berlin), №4, 1962, s. 20.

[9] Yenə orada.

[10] Yenə orada.

[11] Yenə orada, s. 21.

"Rusiya əsarətində olan xalqlar özlərinin milli və mədəni istəklərinin müdafiəsi cəhdindədirlər. Rusiyadakı türk xalqları milli hərəkatın arxasında getməmək üçün həmişəkindən də çox bir yerə toplaşıb təşkilatlanmalıdırlar. Təsis yığıncağımızda yalnız sinfi məsələlərdən deyil, eyni zamanda milli prinsipdən danışacağıq və türklərin milli cəhdləri burada öz əksini tapmalıdır. Bu tələblər Rusiyada öz fəaliyyətini gücləndirmiş Türk Federalistləri Partiyasını razı salır.

Türk Federalistləri Partiyası kütlələrə əsaslanan demokratik təşkilat kimi türk əməkçi kütlənin iqtisadi və sinfi maraqlarını, onların milli-mədəni maraqlarını ifadə edir. Öz fəaliyyətində milli-demokratik prinsiplərə əsaslanaraq dövlətin federal əsaslar üzərində qurulmasını istəyir"[12].

Partiyanın proqramı 9 bölmədən ibarət idi. **Dövlət quruculuğu adlanan birinci** bölmənin ümumi məzmunu belə idi: Partiya aşağıdakı siyasi vəzifələri yerinə yetirməyi qarşısına məqsəd qoyub: 1. Milli ərazi muxtariyyəti əsasında demokratik respublika (Rusiya tərkibində). 2. Azərbaycanın, Türküstanın, Qırğızıstan və Başqırdıstanın muxtariyyəti. 3. Povoljye Krım tatarlarının, eləcə də bütün türk xalqlarının muxtariyyəti.

Proqramın birinci bölməsində **Azərbaycan** adının verilməsi də maraqlıdır. Çünki o zamana kimi Azərbaycan siyasi bir termin kimi işlədilmirdi. XIX əsrin əvvəllərində Azərbaycanı işğal etmiş çar Rusiyası məmləkəti quberniyalar şəklində idarə edirdi. Yəni Bakı quberniyası, Yelizavetpol quberniyası (Gəncə quberniyası və s.). Çar Rusiyası öz bölgələrinin idarəçiliyindəki sistemi olduğu kimi Azərbaycana tətbiq etmişdi.

Yuxarıda qeyd etmişdik ki, hələ 1917-ci ilin aprelində Qafqaz Müsəlmanlarının Qurultayında M.Ə.Rəsulzadə ilə N. Yusifbəyli hər iki təşkilatın birləşdirilməsi qərarına gəlmişdilər. Əlavə edək ki, Qafqaz müsəlmanları qurultayına qədər M.Ə.Rəsulzadə ilə N.Yusifbəylinin yaxın münasibətləri vardı. M.Ə.Rəsulzadə yazırdı: "Nəsib bəyin Azərbaycan istiqlalındakı və istiqlal hərəkatındakı rolu sadə nazirliklə və baş vəkalətdə bulunduğunu söyləməklə ifadə edilə bilməz. Onun hərəkatdakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox daha əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-ci ildə Türk Ədəmi-Mərkəziyyət Xalq Firqəsi adı ilə təsis edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsilə başlayır. Azərbaycan ideyasını siyasi bir mətləb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsib bəyindir."[13]

---

[12] "Kaspi", 1917, №109.

[13] N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991, s. 63.

Türk Ədəmi-Mərkəziyyət Partiyasının ilk qurucuları aşağıdakılardır: Nəsib bəy Yusifbəyli, Şəfi bəy Rüstəmbəyov, doktor Həsən bəy Ağayev, Xəlil bəy Xasməmmədov.

Sonralar sovet mətbuatı müsavata qarşı amansız hücumlara başlayanda Türk Ədəmi-Mərkəziyyəti də ləkələməyə çalışacaqdı. M.D.Hüseynov yazacaqdı: "Gəncə bəyləri (yəni Türk Ədəmi-Mərkəziyyətçilər – N.Y.) bu şüarı müdafiə edirdilər: Milli ərazi muxtariyyəti əsasında Rusiya Demokratik Respublikası. Muxtariyyətin bəylərə nə üçün lazımlığını başa düşmək çətin deyil. Bəylərə öz torpaqlarını Rusiya torpaqlarından hündür bir divarla qorumaq lazım idi. Onlar bu fikri özlərinin proqramının milli-ərazi muxtariyyəti hissəsində izah etdilər"[14].

1917-ci ilin iyun ayının 17-də M.Ə.Rəsulzadənin lideri olduğu müsavatla N.Yusifbəylinin başçılıq etdiyi Türk Ədəmi-Mərkəziyyət Partiyasının Birləşmə qurultayı keçirildi.



**N.Yusifbəyli (əyləşənlərdən ortada) Müsavatın I qurultayında. Oktyabr 1917-ci il.**

Müsavatın qurucularından olan M.Ə.Rəsuloğlu yazırdı: "Bir sıra müzakirələrdən sonra bu iki partiyanın birləşməsi qərarına gəldik. Partiyanın adı haqqında Nəsib bəy partiya adının Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat qoyulmasını təklif etdi, biz də qəbul etdik. Söhbət əsnasında Nəsib bəy: "Bu qədər uzun sözü kim söyləyəcək, ilk zamanlarda bu ad belə gedər, bizim arkadaşlarımız da məmnun olarlar. Zaman keçdikcə qısalaraq Müsavat adını alar" dedi. Həqiqətən də, elə oldu"[15].

Qurultayda ilk mərkəzi komitə yaradıldı. Komitənin tərkibinə aşağıdakılar daxil idi: Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Hacınski, Musa Rəfiyev,

[14] N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991, s. 24-25.
[15] M.Ə. Rəsuloğlu.Müsavat Partiyasının quruluşu. Müsavat bülleteni, № 4, 1962, s. 13.

Mustafa Vəkilov, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyov, Mirzə Məhəmməd Axundov. Partiyalar birləşəndən sonra N.Yusifbəylinin Bakıya gəlməsi ilə əlaqədar Məşədi Əli bəy Rəfiyev gizli səsvermə yolu ilə yekdilliklə Müsavat firqəsinin Gəncə şöbəsinin rəhbəri seçildi. Ə.Rəfiyev Azərbaycan Cümhuriyyətinin elanından sonra Gəncə Dövlət Bankının müdiri olur[16].

İki partiyanın birləşməsindən sonra Azərbaycanda güclü siyasi bir təşkilatın mücadilə dövrü başlayır. Müsavatın böyük nüfuza malik olduğunu 1917-ci ilin oktyabrında Bakı Sovetinə keçirilən seçkilər də bir daha təsdiqlədi: "Müsavat 25 min seçicidən 10 min nəfərinin, yəni bütün seçicilərin 40 faiz səsini qazanmışdır. Halbuki özləri üçün əlverişli şəraitdə keçirilən bu seçkilərdə bolşeviklər cəmisi 4 min seçicinin səsini toplaya bilmişdilər"[17].

Bu hadisələrdən sonra N.Yusifbəyli 1918-cilin fevralında formalaşan Zaqafqaziya seymində fəallıq göstərirdi. O, Zaqafqaziya Seyminin üzvü idi və 1918-ci ilin aprelin 26-da yaranmış müstəqil Zaqafqaziya Respublikası hökumətinin də Maarif naziri oldu.

1918-ci ilin 28 Mayında Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra (onun yaradıcılarından biri də N.Yusifbəyli idi) F.X.Xoyskinin başçılığı ilə təşkil olunan birinci Hökumət kabinəsində N.Yusifbəyli Xalq Maarif naziri vəzifəsini icra etmişdir. N.Yusifbəyli F.X.Xoyskinin sonradan formalaşdırdığı ikinci və üçüncü kabinələrdə də həmin vəzifələrdə çalışmışdır. O, eyni zamanda iki dəfə hökumət kabinəsini formalaşdırıb ölkənin Baş naziri olmuşdur.

N.Yusifbəylinin təşkil etdiyi ilk Hökumət kabinəsi (ümumilikdə sayca 4-cü) aşağıdakılardan ibarət idi: 1) Nazirlər Şurasının Sədri və Daxili İşlər naziri – N.Yusifbəyli (Müsavat) 2) Maliyyə naziri – Ə.Həsənov (bitərəf) 3) Ticarət və Sənaye naziri – A.Əminov (bitərəf) 4) Xarici İşlər naziri – M.Y.Cəfərov (Müsavat) 5) Yollar naziri – X.Məlikaslanov (bitərəf) 6) Poçt və Teleqraf naziri – C.Hacınski (sosialist) 7) Hərbi nazir – S.Mehmandarov (bitərəf) 8) Sosial təminat naziri – V.Klenevski (Slavyan-Rus Cəmiyyəti) 9) Səhiyyə naziri – A.Dostakov 10) Maarif və dini etiqad naziri – R.Qaplanov (Əhrar) 11) Əkinçilik naziri –A.Qardaşov (Əhrar) 12) Portfelsiz nazir – X.Amaspür (Daşnaksütun) 13) Dövlət müfəttişi – N.Nərimanbəyli (Müsavat) 14) Ədliyyə və Əmək naziri – A.Səfikürdski (sosialist) 15) sonralar Daxili İşlər naziri – X.Xasməmmədov (Müsavat)[18].

[16] H.Sadıq. Məşədi Əli bəy Hacı Məmmədhüseyn oğlu Rəfiyev. "Yeni Müsavat", №16 (75), 1993.
[17] C.Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində. B., 1993, s. 31.
[18] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti, 1918-1920. B., 1990, s. 92.

Azərbaycan Nazirlər Şurasının Sədri və Daxili İşlər naziri vəzifəsində N.Yusifbəyli qətiyyətli əmrlər, sərəncamlar verir, məktublar yazır, dövlət idarəçilik sistemini möhkəmlədirdi. Onun Hərbi nazirə 1919-cu ilin 18 mayında göndərdiyi 120 saylı məktubunda yazılırdı: "Cənab Hərbi nazirə. Sizi məlumatlandırıram ki, qeyd olunan bölgədə qoşunun yerləşməsi üçün polis nəzarəti yaradılmışdır. Daxili İşlər naziri N.Yusifbəyli"[19].

1919-cu ildə Gəncə qubernatoruna N.Yusifbəylinin göndərdiyi teleqram bu məzmunda idi: "Gəncə qubernatoruna. Sizə qanunla verilən səlahiyyətlə qətiyyətli hərəkət etmək lazımdır. Daxili İşlər naziri N.Yusifbəyli"[20].

N.Yusifbəylinin Gəncəyə – Hərbi nazirə göndərdiyi digər teleqramda Şuşadakı vəziyyətə toxunulur: "Gəncə – Hərbi nazirə. Təcili, general-qubernator Sultanov Şuşadan batalyonun çıxarılması haqqındakı sərəncamın ləğv edilməsini xahiş edir"[21].

N.Yusifbəyli Nazirlər Şurasının Sədri və Daxili İşlər naziri olduğu dövrdə (14.03.1919 – 22.12.1919) Azərbaycanda ictimai-siyasi vəziyyətə nəzarətin gücləndirilməsi və nəzarətdə saxlanılması məqsədi ilə Azərbaycan Respublikasının Dövlət Müdafiə Komitəsi yaradılmışdı. Dövlət Müdafiə Komitəsinin sədri vəzifəsini N.Yusifbəyli yerinə yetirirdi. Azərbaycan Respublikası Dövlət Müdafiə Komitəsinin 1919-cu ilin 11 iyununda qəbul etdiyi qərardan: "Məcburi qəza: 1. Azərbaycan Respublikasının bütün ərazisi hərbi vəziyyət elan edilir. Aşağıdakı cinayət halları ümumi mühakimədən çıxarılıb Hərbi Məhkəmə nizamnaməsi qaydalarına uyğun olaraq hərbi məhkəməyə verilir: 1) Azərbaycan Respublikası Dövlət hakimiyyətinə qarşı iğtişaş; 2) Respublikaya qarşı dövlət xəyanəti; 3) Azərbaycan Parlamenti Sədrinin və hökumət üzvlərinin həyatına qəsd; 4) Hərbi gözətçilər və hərbi hissəyə hücum; 5) Hökumətə silahlı müqavimət; 6) Öz xidməti vəzifəsini yerinə yetirən vəzifəli şəxslərin öldürülməsi və qəsdlər. Dövlət Müdafiə Komitəsi. Sədr – N.Yusifbəyli. Üzvlər: X.Məlikaslanov, A.Səfikürdlü"[22].

N.Yusifbəylinin Baş Nazir və Daxili İşlər naziri olaraq çalışdığı bu dövrdə silahlı erməni dəstələri Azərbaycan ərazilərinə hücumlar edir, kəndləri yandırır, dinc əhalini qətlə yetirirdilər. Bu hadisələrin qarşısının alınması üçün dövlət tərəfindən müvafiq tədbirlər görülürdü. 1919-cu ilin 19 aprelində N.Yusifbəylinin Hərbi Nazir S.Mehmandarova yazdığı məktubdan: "Çox hörmətli Səməd bəy! Son günlər Qarabağ ərazisində, xüsusən Zəngəzur bölgəsində ermənilə-

[19] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 5, v. 63.
[20] Yenə orada, i. 8, v. 56.
[21] Yenə orada, v. 54.
[22] Yenə orada, s. 1, i. 31, v. 2.

rin müsəlman kəndlərinə güclü hücumları başlayıb. Ayın 18-də ermənilər qəflətən müsəlmanlar yaşayan Tarovlu kəndinə hücum etmişlər və nəticədə hər iki tərəfdən itkilər olmuşdur. Bu, sanki ermənilərin bütün müsəlmanlar yaşayan ərazilərə hücumuna bir işarə olub. Çoxlu yaşayış yerlərində ölənlər və yaralılar var... General-qubernator doktor Sultanov Qarabağ məsələsinin tam həll edilməsi üçün orada hərbi hissənin gücləndirilməsini vacib sayır. Diqqətinizə çatdırıram ki, imkan daxilində doktor Sultanovun qaldırdığı məsələnin həllinə kömək edib, məni məlumatlandırasınız. Hörmət və sədaqətlə Yusifbəyli”[23].



**N.Yusifbəyli Nazirlər Şurasının iclasında (ortada).**

N.Yusifbəyli 1919-cu ilin dekabrın 24-də yeni Hökumət kabinəsini (sayca beşinci) formalaşdırdı və bu fəaliyyət 1920-ci ilin aprelin 1-nə qədər davam etdi: 1) Nəsib bəy Yusifbəyli (Müsavat) – Nazirlər Şurasının Sədri 2) F.X.Xoyski (bitərəf) – Xarici İşlər naziri 3) S.Mehmandarov (bitərəf) – Hərbi nazir 4) M.H.Hacınski-Daxili İşlər naziri (18.02.1920-dən sonra M.Vəkilov, birincisi əvvəl Müsavat, sonra kommunist, M.Vəkilov – Müsavat); 5) X.Xasməmmədov – Ədliyyə naziri; 6) Qaplanov – Maliyyə Naziri 7) H.Şahtaxtinski (05.03.1920-dən sonra N.Şahsuvarov, hər ikisi – İttihad) 8) Ə.Pepinov (sosialist) – Əmək və Əkinçilik naziri 9) X.Məlikaslanov (18.02.1920-dən sonra) Ticarət, Sənaye və Ərzaq naziri; 10) M.H.Hacınski – Yollar naziri, eyni zamanda Ticarət, Sənaye və Ərzaq üzrə müvəqqəti nazir; 11) M.Rə-

[23] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 100, s. 2, i. 97, v. 74.

fiyev (Müsavat) – İctimai Təminat və Səhiyyə naziri; 12) H.Məmmədbəyov (İttihad) – Dövlət müfəttişi.

**1919-cu ilin 28 Mayı Azərbaycan hökumətinin xüsusi diqqətində oldu və ölkədə böyük bayram kimi qeyd edildi. Baş Nazir N.Yusifbəyli Azərbaycan Hökuməti adından vətəndaşlara müraciət ünvanladı. Həmin müraciətdə yazılırdı: "Azərbaycan vətəndaşları! Bir il bundan əvvəl məbuslarımızın rəyi və arzusu istəyincə Azərbaycan xalqı müstəqil yaşayış yoluna qədəm qoydu. 1919-cu ilin mayın 28-i Azərbaycan Cümhuriyyətinin milli bayramıdır. Öylə bir bayram ki, onun xatiri ümum Azərbaycan vətəndaşları üçün daima möhtərəm və müqəddəs sayılacaqdır. Çünki öz dövlətinin milli bayrağı altında keçmiş olduğumuz birillik azad və zəhmətli həyatınız Azərbaycanın belə tarixi bir günü olduğunu sizə sözdən artıq izah edir".[24]**

N.Yusifbəyli bu tarixi müraciətində xalqımızın çar Rusiyasında ağır bir dövr yaşadığını, hər bir hüquqdan, mədəni tərəqqidən, siyasətdən məhrum olduğunu, evlərinin talan və qarət edildiyini, uşaq və qadınların böyük fəlakət və müsibətlərə düşdüyünü, bu ağır zamanda müstəqil və azad yaşamaq yolunu tapıb ona üstünlük verdiyini qeyd edirdi.

Vətəndaşlara müraciət bu sözlərlə yekunlaşırdı: "Azərbaycan vətəndaşları! Mayın 28-i böyük və ümumi bir bayram hesab edilməlidir. Bu gündə bilafərq millət hər kəs özünü bərabər hüquqla Azərbaycan vətəndaşı hiss etməlidir. Bu gün ümumcahan millətlərinin ədalət üzrə olan hüquq və ixtiyaratının təmin edilən günlərindən bir gündür. Azərbaycan millətinin ittihad və ittifaqına istinad edərək və buna ümidini izhar etməklə, hökumət Azərbaycan Cümhuriyyətinin ikinci ilinə qədəm qoyur. Ümumazərbaycan vətəndaşlarının qüvvə və müavinətinə ümid ilə hökumət onları dövlət bayramı ilə təbrik ediyor. Azərbaycan Vükalə Şurası rəisi və Daxiliyyə naziri: Nəsib bəy Yusifbəyli"[25].

N.Yusifbəyli Nazirlər Şurasının Sədri vəzifəsini 1920-ci ilin aprelin 1-nə qədər icra etmişdir.

Qeyd edək ki, N.Yusifbəylinin bir dövlət xadimi kimi fəaliyyətinin öyrənilməsində onun Azərbaycan Parlamentindəki çıxışları əhəmiyyətli yer tutur.

Onun Maarif və Dini-Etiqad naziri olarkən Azərbaycan Parlamentindəki ilk çıxışına 1919-cu ilin yanvarın 25-də keçirilən 9-cu iclasda rast gəlirik. N.Yusifbəyli çıxışında "hökumətin şəhərləri unudaraq yalnız kəndlərə kömək etdiyi" fikrini

---

[24] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) II c. B., 2016, s. 136.

[25] Yenə orada, s. 136-138.

təkzib edir. O, eyni zamanda səhiyyə sahəsində müəyyən işlərin uğurla görüldüyünü, kəndlərə göndərilmək üçün təbib, feldşerlərdən ibarət səyyar dəstələr hazırlandığını vurğulayır və əlavə edirdi ki, şəhərlər isə bu sahədə nəzarətə kömək etdiyindən onlar pul istəyirlər[26].

Parlamentin 1919-cu ilin 17 martında keçirilən 17-ci iclasına sədrlik edən H. Ağayev toplantı iştirakçılarına belə məlumat verdi: "Keçən iclasların birində mənə tapşırılmışdır ki, bir şəxs tapıb, hökumət təhvilini ona həvalə edim, indi o adam tapılıbdır. Nəsib bəy Yusifbəylidir. Hökumət təşkili ona həvalə olunmuş, o da bu barədə lazımi təşəbbüslər göstərir"[27].


Шифрованная 61
Гянджа
Губернатору
5400 Нужно действовать сообразно обстоя
тельств, пользуясь полнотою власти, предостав
ленной Вам законом, твердо и решительно
очка. Просьба Ваша об указании Вам как
йствовать для меня не понятна номер 38.
Министр Усуббеков
Апреля

**N.Yusifbəylinin imzası ilə məktub.**

**Bu dövrdə F.X.Xoyskinin istefasını qəbul edən parlament yeni hökumət təşkilini N.Yusifbəyliyə tapşırdı.** O dövrün şərtləri daxilində hökumət təşkili çox çətin idi və Ü. Hacıbəyli "Azərbaycan" qəzetində bu haqda yazırdı: "Həmfikir kabinə təşkili əmrində işi çətinləşdirən kabinənin koalisyon (müştərək) olmaq şərtidir. Yəni kabinə üzvləri hər fraksiyaya mənsub adamlardan seçilməlidir. Halbuki hər bir fraksiyanın özünəməxsus siyasi məsləki və xüsusi proqramı olduğundan ümumi idarəcə bütün ümumi və xüsusi işlərdə həmfikir olan kabinə təşkil etmək həqiqətən çətin bir əmrdir"[28].

Ü.Hacıbəyli "Azərbaycan" qəzetində dərc edilən "Yeni kabinə təşkilinə dair" məqaləsində N.Yusifbəylinin bir şəxsiyyət kimi də xarakterini belə açıqlayırdı: "Nəsib bəy həzrətlərinin fəal və son dərəcə çalışqan bir zat olduğu bizə məlum olan kimi, onun keçmişdə gördükləri işlərdən xəbərdar olanlara dəxi məlumdur.

[26] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) I c. B., 2015, s. 277-278.
[27] Yenə orada, s. 528.
[28] Ü.Hacıbəyli. Yeni kabinə təşkilinə dair. "Azərbaycan" qəzeti, 19 mart 1919, №140.

Karkünlükdən əlavə xüsusi təbiətində Hafiz Əleyhirrəhmətin "badustan mürüvvət, badüsmənan mədara" kəlami-hikmətamiz məfadinə müvafiqət edən və bununla bərabər həqqi nahəqqə verməməkdə sahibi-səbat olan bir mizacə malik olduğunu da o zatı yaxından tanıyanlara məlumdur. İdareyi-məmləkət işindəki təcrübəyə gəlincə Azərbaycan istiqlalı elanı günündən bəri bir nazir məqamında qalaraq təbiidir ki, bu mühüm işdə tam bir vüquf sahibi olub, işin nərədən başlandığından, nə yerdə qaldığından və nə yolda davam etdirmək lüzumundan kəmalincə müxbirdir. Məsləki siyasinə gəlincə, əsl demokrat və geniş nəzərli səmimi bir millətpərəst olduğu Müsavat Partiyasına mənsubluğuna görə deyil, bəlkə özünün tərzi məişətindən qövl və felindən görünən aşkara bir həqiqətdir.




**N.Yusifbəylinin imzası ilə 1919-cu ildə dövriyyəyə buraxılmış Azərbaycan pulu.**

Bu üzdən idarəyi-ümur məmləkətdə məqami-riyasətin karkünkardan və sahibi-təcrübə olan sınanmış bir millətpərəst əlinə tapşırılmasından nasıl məmnun olub da gələcəyə xoş nəzərlə baxın"[29].

1919-cu ilin 19 aprelində saat 12-də H.Ağayevin sədrliyi ilə Azərbaycan Parlamentinin növbəti iclası keçirildi. İclasda yeni hökumət kabinəsinin təşkili haqqında Nazirlər Şurasının Sədri N.Yusifbəylinin məktubu oxundu.

Sonra N.Yusifbəyli çıxış etdi. O, kürsüyə çıxanda alqışlarla qarşılandı. N.Yusifbəyli çıxışında böyük bir məsuliyyəti üzərinə götürdüyünü, Azərbaycan

[29] Ü.Hacıbəyli. Yeni kabinə təşkilinə dair. "Azərbaycan" qəzeti, 19 mart 1919, №140.

İstiqlalı elanından bu günə qədər millətin müstəqil yaşamağa layiq olduğunu qeyd etdi. Nəsib bəy bildirdi ki, Azərbaycan türkləri yaxın zamanda dünyanın mədəni millətləri sırasına da daxil olacaqdır. Baş Nazir çıxışında Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən Lənkəran qəzasının özgələr əlində olduğunu, 100 minə qədər vətəndaşın həyatına qəsd edildiyini, Tiflis və İrəvan vilayətlərində olan torpaqlarımıza göz dikənlərin olduğunu söylədi. O, bildirdi ki, torpaq məsələsinin də qəti surətdə həllinə tərəfdardır. Bundan ötrü torpaq işlərinə aid bütün vəsaitləri, təklifləri toplayıb parlamentin müzakirəsinə təqdim etməliyik və hökumət bu məsələdə zəhmətkeşlərin hüquqlarını müdafiə edəcək, fəhlələrin haqqını müdafiə, özünü sığorta üçün qanunlar hazırlayacaq.



**N.Yusifbəyli Tiflisdə sənəd imzalayır. 1919-cu il.**

**Azərbaycanda mətbuat, söz azadlığına toxunan N.Yusifbəyli çıxışında deyirdi: "Məbus əfəndilər! Hürriyyəti-kəlam, hürriyyəti-mətbuat, hürriyyəti-ictima mədəni və demokratik bir dövlət təşkilinin şəraiti –** əsliyyəsindəndir. Bu xüsusda zənn edirəm hər kəsdən biz irəli getdik. Azərbaycanda görülən bu hürriyyətlər dünyanın heç bir tərəfində mövcud deyildir. Hökumət təbii, müqəddəs olan bu hürriyyətləri mühafizə edəcəkdir. Hər kəs nə yazarsa yazsın, hər kəs nə istərsə söyləsin, **harada ictima edərsə etsin, yalnız bir məsələ vardır ki, ona əl uzatmağa dözmək olmaz, edilə bilməz. O da Azərbaycanın istiqlaliyyəti məsələsidir (ümumi sürəkli alqış). Bu istiqlaliyyəti, millətin bu müqəddəs və qanuni haqqını təhqir etdirməməyə, bu ülvi hissiyyatına toxundurmamağa hökumət var qüvvəsi ilə çalışacaqdır**"[30].

30 "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) I c. B., 2015, s. 632.

N.Yusifbəyli çıxışında bildirirdi ki, cinayət işlədən hər vətəndaş qanun qarşısında cavabdehdir və hansı mövqe tutmasından asılı olmayaraq cəzalanacaqdır, bundan ötrü isə Ədliyyə məhkəmələri xalqa yaxın və milli bir ruhda olmalıdır.

N.Yusifbəyli proqram xarakterli bu çıxışında maarif, təhsil məsələlərinə toxundu, milli məktəblərin tərəqqisi vacibliyini, ibtidai məktəblərin açılmasını, sənaye məktəblərinə ayrıca diqqət olunacağını, mövcud məktəblərin bir hissəsinin milliləşdiriləcəyini, digər hissəsinin isə qeyri-müsəlmanlar üçün rus dilində olacağını, müəllim ehtiyacı səbəbindən xaricdən müəllimlər dəvət ediləcəyini, dərs kitablarının azlığına görə maarif nəzarətinin bu sahədə çalışacağını qeyd etdi.

N.Yusifbəyli Azərbaycanda ali təhsil sisteminin də düşünüldüyünü, ali ziraət məktəbi qanun layihəsinin hazırlanıb təqdim edildiyini də söylədi. O,Tiflisdəki Mavərayi-Qafqaz universitetinin Bakıya köçürülməsi üçün müzakirələrin aparıldığını, sentyabrın əvvəllərindən tədrisin burada davam etdiriləcəyinə səy göstərilməsi haqqında məlumat verdi. Bakıda fəaliyyət göstərəcək universitetdə doğma dilimizin, tariximizin, ədəbiyyatımızın inkişafına kömək edən kursların açılacağını bildirdi.

O, həmçinin, çıxışında "bizim sərvətimiz, rifah halımız neft ticarətinə bağlıdır" fikrini önə çəkir, neftimizin ən böyük bazarı olan Rusiyanın yolunun bağlı qaldığını söyləyirdi. Eyni zamanda Rusiyanın Azərbaycan neftinə böyük ehtiyacı olduğunu, "Astraxan tərəfdən ticarət qapılarının açılması" təklifini irəli sürərsə, müəyyən şərtlərlə qəbul ediləcəyini bildirirdi. O, deyirdi: **"Rusiyada hansı partiya qalib gələcək, hansı adamlar iş başına keçəcək, bu, bizim vəzifəmiz deyil, böyük, azad Rusiyanın öz işidir. Biz Rusiya dövləti ilə hər zaman sülh və sağlıqla, dostluqla keçinmək istəyirik. Yalnız bir məsələ var ki, Rusiya (bolşevik Rusiyası, menşevikmi, yoxsa birimiz olsun) bizim daxili işlərimizə qarışmamalıdır. Biz Rusiyadan yalnız bunu tələb edirik. Bu da bizim haqqımız olduğunu təbii kimsə inkar etməz, zənn edirəm"[31]**.

N.Yusifbəyli Astraxan yolu açılarsa, 200 milyon pud nefti ixrac edib, nəticədə iki milyarda qədər pul əldə etməyin mümkünlüyünü bildirdi. O, çıxışında bir maraqlı məqamı da önə çəkdi: "Əgər nefti yalnız öz pulumuza sataraq, indiyə qədər buraxdığımız pulun cəmini toplamış olacağımızdan, nəticədə təbbi pulumuzun etibarı yüksələr"[32].

[31] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) I c. B., 2015, s. 636.
[32] Yenə orada, s. 636-637.

N.Yusifbəyli fəaliyyət proqramının təqdimatında ölkənin dəmiryolu probleminə də toxunub hökumətin Ələt-Culfa dəmiryolunun başa çatmasına çox əhəmiyyətli yanaşdığını qeyd etdi.

N.Yusifbəyli hərbi işin hökumətin fəaliyyətinin əsasını təşkil edəcəyini, əsgərin ehtiyacına, ləvazimatına hökumətin ayrıca diqqət edəcəyini, "əsgərlik kimi müqəddəs vəzifənin ilk əvvəl zənginlərin, varlıların, ziyalıların övladlarının vəzifəsi olduğunu hökumətin onlara anladacağını, bundan boyun qaçıran olarsa, lazım gələn cəzanın veriləcəyini" söylədi.

N.Yusifbəyli başçılıq edəcəyi hökumətin fəaliyyəti haqda məlumatları belə yekunlaşdırdı: "Xülasə, əfəndilər! Təkrar edirəm. Hər şeydən əvvəl istiqlalımız qüvvətə və millətin əzminə möhtacdır. Birincisi hərbiyyə nazirimizin müqtədir və təcrübəli əllərində olub, ikincisi isə sizin əllərinizdədir.

Əfəndilər! Təşkil etdiyim hökumət aramızda olan bütün firqələri (partiyaları – red.) əhatə etmir. Onun üçün təbii müxalifətdə qalanlar dəxi sizin aranızda olacaqdır. Mən ancaq bir şeyə əminəm, o da istiqlaliyyət məsələsində olan birliyinizdir. Bu məsələdə mənimlə və təşkil etdiyim hökumətlə həmrəy olmayan bir kəsin belə olmadığını bilir və bunun üçün də var qüvvəmlə və böyük inamımla çalışacağımı vəd edirəm"[33].

1919-cu ilin mayın 6-da Azərbaycan Parlamentinin növbəti toplantısı keçirildi. Parlament üzvü Ə.Qarayevin təklifi ilə Bakıda başlanan tətil məsələsi müzakirəyə çıxarıldı. Çıxışçı elektrik və dəmiryolu sahəsində başlanan tətilin su kəmərini əhatə edə bilməyəcəyindən danışaraq, parlamentin və hökumətin öz tərəfindən hansı tədbirləri görəcəyi ilə bağlı məlumat verilməsini bildirdi.

Bu, vacib olduğundan növbəti məsələlər gələn iclasa saxlanıldı. Bakıda başlanan tətillərlə bağlı ilk çıxışı M.Ə.Rəsulzadə etdi.

Sonra söz Nazirlər Şurasının Sədri N.Yusifbəyliyə verildi. O, çıxışında dedi: "Möhtərəm məbuslar! Bu tətil iqtisadi olmayıb, siyasi olduğunu güman edirəm, bilməyən yoxdur. Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək istəyən adamların özləri də inkar etmirlər. Onlar öz məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, o cümlədən də, Azərbaycanda da – onu da Rusiyanın bir parçası hesab edirlər, "Sovdepya" ("sovet" – red.) hökuməti təşkil edək. Onlar bunu inkar etmirlər və bu məqsədə çatmaqdan ötrü də vəsiləyə müraciət ediblər və edirlər"[34].

---

[33] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) I c. B., 2015, s. 637-638.
[34] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) II c. B., 2016, s. 98.

**N.Yusifbəyli** çıxışında bildirdi ki, mövcud Hökumət ölkədə bütün sahələrdə azadlığın olması üçün işlər görmüşdür. O, qeyd etdi ki, hökumətimizə müəyyən qruplar tərəfindən "bəy, xan hökuməti" deyilsə də, "iş başında olan hökumət öz demokrat və xalqpərəst əməli ilə demokratlığını isbat etmişdir". **O, məlumatlandırdı ki, bu qarışıqlığı yaradanlar öz əhalimiz deyil, özgə dövlətdən gələnlərdir və onların da məqsədi – Azərbaycanı Rusiyaya ilhaq etməkdir.**


Копия
Шифрованная 75
Ганджа
Военному Министру
При существующем положении вещей Карабагу, также по настоянію Английского командованія Правительство признало необходимымъ постановить чтобы войсковыя части, находящіяся въ предѣлахъ Карабагского Генерал Губернаторства действуютъ съ ведома и согласія Генерал-Губернатора, почему онъ являться ответственнымъ за ... в отношении применения этихъ войсковыхъ частей точка Въ связи съ этимъ Правительство также постановило назначить особое лицо помощникомъ Генерал-Губернатора по военной части точка Посылая по сему вопросу подробное сообщеніе почтою прошу распоряженія Вашего назначении военнаго лица помощникомъ генерал-губернатора
Председатель Совета Министровъ
20 Апр. 1919 г.

**N.Yusifbəylinin Hərbi nazirə məktubu.**

**N.Yusifbəyli çıxışında qətiyyətli bir fikir də söylədi: "Əgər Rusiya bizim istiqlaliyyatımızı tanıyırsa, bizimlə hesablaşırsa, o zaman neft verərik. Bunlar olmayınca, hökumət "sovdepyayə"** (sovet hökuməti – red.) **neft verməz. Lakin bunlar deyir ki, yolu şərtsiz açın, gəlsinlər. Buna heç bir hökumət, heç bir fəhlə, türk demokratiyası və heç bir azərbaycanlı razı olmaz"**[35].

N.Yusifbəyli tətil edənlərə qəti şəkildə xəbərdarlıq etdi: "Əgər bir kəs tərəfindən işləmək istəyənlərin üzərinə hücum olunarsa, hökumət var qüvvəsi ilə buna mane olacaq".

Baş Nazirin bu çıxışından sonra parlament hökumətin tətilin dayandırılması ilə görəcəyi bütün işlərə dəstək olacağını bildirən qətnamə qəbul etdi.

[35] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) II c. B., 2016, s. 99.

Azərbaycan hökumətinin qətiyyətli mövqeyi, ziyalıların, fəhlə və qulluqçuların birgə səyi ilə tez bir zamanda ölkədə tətil dayandırıldı.

Ü.Hacıbəyli "Azərbaycan" qəzetində bu uğurlu hadisə ilə bağlı "Siyasi imtahan" adlı məqaləsində yazırdı: "Biz istiqlalımızı satmaq, millətimizi məhv və nabüd etmək, vətənimizi xarabazara döndərmək istəmirik! Biz candan əziz tutduğumuz Azərbaycanımızı dünən bolşeviklərlə "hökumətlik" üstündə qarpış-qarpış salan, bu gün isə bolşevikləri köməyə çağıran, dünən ingilislərə yalvaran, bu gün ingilisləri söyən Curayev, Anaşkin və **Mikoyanların hava və həvəsinə, kefə – mayəşasinə qurban etmək istəmirik. İmtahan parlaq bir surətdə keçdi"[36].**

**Azərbaycan Parlamentinin 12 may iclasında N.Yusifbəyli ingilis generalı Millin 1919-cu ilin 20 martında İstanbulda nəşr etdiyi intibahnaməyə münasibət bildirdi. O, qeyd etdi ki, ingilislərin Bakıya gəldiyi ilk günlərdə millətimiz haqqında təsəvvürləri başqa olsa da, indi dəyişilib. N.Yusifbəyli bildirdi ki, bu, onunla bağlıdır ki, ingilislər millətimizin inkişaf edib özünüidarəyə sahib olduğunu görüb inandılar və bu fikri söylədilər: "Sizin daxili işlərinizə müdaxilə etmək artıqdır..."**

Azərbaycan Parlamentinin mayın 25-də keçirilən iclasında Dağıstanda baş verən hadisələr də müzakirəyə qoyuldu. Denikin ordusunun və "könüllülər"in Petrovsk və Dərbəndi işğalı Azərbaycan hökumətini narahat edirdi. Bu məsələyə münasibət bildirən N.Yusifbəyli parlament üzvlərinə bildirdi: "Bu günə qədər bizim sərhədimizi heç kəs keçməmişdir və ancaq meyitlərimiz üstündən keçə bilərlər!"

N.Yusifbəyli Azərbaycanın Teymurxanşurada olan Dağıstan hökuməti nəzdindəki nümayəndəsi Ə.Haqverdiyevin teleqrafını oxudu. Teleqrafdan məlum oldu ki, Petrovskiyə gələn könüllü ordu, İttihadi–Cəbaliyyun hökumətini tanımaqdan imtina edərək, Dağıstan Hökumətini tanıyır və onun daxili işlərinə qarışmır. N.Yusifbəyli məlumatında bildirdi ki, könüllü ordu qüvvələrinin Dağıstanda – Azərbaycan sərhədində toplaşması ölkəmiz üçün təhlükəli olduğundan, ingilis komandanlığının nümayəndəsi Satilvort ilə danışıqlar aparılmışdır. **N.Yusifbəyli çıxışında bu fikri vurğuladı: " Dağıstan hər kimin əlində olursa-olsun, istər Denikin, istər sair bir qüvvə, xülasə Dağıstan düşmən əlində olarsa, biz təhlükə altında qalırıq"[37].**

---

[36] Ü.Hacıbəyli. "Siyasi imtahan". "Azərbaycan" qəzeti, 11 may 1919, №177.

[37] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) II c. B., 2016, s.188.

Azərbaycan Parlamentinin 17 iyul tarixli iclasında Qarabağda baş verən hadisələr, Şuşa yaxınlığındakı Qaybalı kəndində 200 nəfərə yaxın sakinin öldürülməsi ilə bağlı müzakirələr davam etdirilir. N.Yusifbəyli məruzə ilə çıxış edən Çubaryana etirazını bildirir, onu qeyri-obyektivlikdə günahlandıraraq dedi: "Qarabağa göndərilən heyətdən əsl məqsəd bu deyil idi. Məqsəd o idi ki, cinayətin üstü açılsın və günahkarlar tapılsın. Çubaryanın dokladına (məruzəsinə – red.) Məclisi-Məbusan üzvlərindən birisi təqsirnamə adı verdi. Burada yəni bir məqsəd var. Məqsəd – günahkarları tapmaq deyil, general-qubernatoru təqsirləndirməkdir"[38].

N.Yusifbəyli erməni çıxışçılarının hadisələrdə Azərbaycan əsgərlərini günahlandırmasına etiraz edərək dedi: "O işi ki, əsgərlərimiz orada edibdir, oraya gələn adamları mühafizə edib, müdafiə etmişlər, yedirib-içirmişlər. Biz bilirik ki, başqa əksər belə hörmətkəranə hərəkətdə ola bilməzlər. O səbəbə, əsgərlərimizlə iftixar edirəm. Az bir zamanda yetişmiş əsgərlərimiz isbat olundu ki, nizam saxlayırlar"[39].

O,Qarabağda, eləcə də Ermənistanda baş verən bu hadisənin araşdırılması, eləcə də Azərbaycanda yaşayan ermənilərin və Ermənistanda yaşayan müsəlmanların vəziyyətini öyrənmək üçün komissiya yaradılması haqqında hökumətin qərar verdiyini bildirdi. O, qeyd etdi ki, komissiyanın təklifi belə olmalıdır: iki üzv Azərbaycan Parlamentindən, iki üzv Ermənistan Parlamentindən, iki nəfər də bitərəf adamlardan – ingilis və ya İtaliya nümayəndələrindən.

N.Yusifbəylinin başçılıq etdiyi Nazirlər Şurası – Azərbaycan hökuməti 1919-cu ilin avqustuna qədərki dövrdə böyük uğurlu işlər görmüşdü. Əsas işlərdən biri Azərbaycanın ərazi probleminin həlli sahəsindəki doğru fəaliyyət idi. Həmin dövrdə aşağıdakı uğurlu nəticələr vardı: 1) Lənkəran düşmənlərdən təmizlənmiş; 2) Qarabağ erməniləri Azərbaycan hakimiyyətinə tabe oldu; 3) Naxçıvan, Şərur və Dərələyəz qəzaları erməni əsgərlərindən təmizlənmişdir; 4) Zəngəzur məsələsinin yaxın vaxtlarda həlli gözlənilirdi; 5) Borçalı və Gürcüstan da sülh yolu ilə həll ediləcək bir vəziyyətdə idi. Bu müddət ərzində Azərbaycan ordusunda fərarilik halları aradan qalxmış, xalq isə əvvəlki kimi orduya əsgər verməkdən imtina etmirdi.

**Azərbaycan Parlamentinin 22 avqust iclasında N.Yusifbəyli çıxış edib şimaldan gözlənilən bolşevik təhlükəsindən danışdı. O, dedi: "Lakin düş-**

---

[38] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) II c. B., 2016, s. 307.

[39] Yenə orada, s. 309.

**mən bir Denikin deyil, ondan az təhlükəli olmayan bolşeviklər də vardır. Həm də bolşeviklər müqbilinə necə mübarizə edəcəyimizi bütün dünya təqib edir. Sülh konfransı da, bütün Avropa da bolşeviklərə qarşı tərzi-hərəkətimizə dördgöz ilə baxır, nə edəcəyimizi gözləyirlər. Bütün dünya ilə hali-hərbdə olan düşmənləri ilə Azərbaycan və Gürcüstanın necə hərb və mübarizə edəcəyini dördgöz ilə təqib edirlər"**[40].

N.Yusifbəyli bu məsələdə həmrəy olub, hökumətə kömək göstərməyin vacibliyini qeyd etdi.

1919-cu ilin sentyabrında N.Yusifbəyli başçılıq etdiyi hökuməti ciddi tənqid edənlərə (əsasən sosialist fraksiyasından olanların çıxışları) cavab olaraq istefa verdiyini bildirmişdi.Onun bu istefa addımı cəmiyyətdə birmənalı qarşılanmamışdır.

Ü.Hacıbəyli bu münasibətlə yazırdı: "Rəisül – Vükalə Nəsib bəy Yusifbəyli həzrətlərinin istefası xəbəri Azərbaycanın həqiqi demokratiya və füqərayi – kasibəsini təlaş və əndişələrə saldı. Bu hadisə, yəni Azərbaycan fəhlə, əmələ, tacir, sənətkar və bilümum bütün həqiqi demokratlarının Nəsib bəyə tərəfdar çıxıb da onun təkrar ümuri-idarə başında olmasını ciddən və misranə bir surətdə arzu etmələri Nəsib bəy əleyhində olanlar üçün bir şillə və Azərbaycan füqərayi – kasibəsi adına Nəsib bəyi danlamağa qalxanlardan ötrü bir şapalaqdır. Hökumətimizi "bəy-xan hökuməti" deyə nahaq yerə töhmətləndirmək istəyənlər də bu hadisə dolayısı ilə mənəvi bir zərbə yedilər, zənn edirəm"[41].

N.Yusifbəylinin istefası Azərbaycan cəmiyyətində etirazlarla qarşılanmışdı. "Azərbaycan" qəzetinin 23 sentyabr tarixli sayında (№280) çoxlu sayda imzalarla etiraz məktubları çap olundu. "Azərbaycan" qəzetində N.Yusifbəyliyə xalqın dərin hörmətini əks etdirən aşağıdakı yazılar var idi: "1) Biz, Bakı Hacı Pirverdi məscidi camaatı "Azərbaycan" qəzetinin 276-cı nömrəsində Rəisi-Vükəla Nəsib bəy Yusifbəyli əfəndinin istefa verdiyini oxuyub, xeyli qəmgin və məhzun olduq. Oylə vətən, millət yolunda bu qədər çalışqan bir vücudun istefasının qəbul edilməməsini, qəzet vasitəsilə rica edirik və Parlaman əzaları əfəndilərdən həm bu barədə kömək istəyirik (200-ə qədər imza); 2) Biz Sabunçu camaatı və fəhlə sinifləri "Azərbaycan" qəzetinin 274-cü nömrəsində Rəisi-Vükalə möhtərəm Nəsib bəy Yusifbəyli əfəndinin istefa verdiyini oxuyub, xeyli qəmgin və mükəddər olduq. Oylə vətən və millət yolunda çalışqan bir vücudun

[40] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920) II c. B., 2016, s. 421.
[41] Ü.Hacıbəyli. Yeni kabinə təşkilinə dair. "Azərbaycan" qəzeti, 23 sentyabr 1919, №280.

bizim üçün nə qədər lazım olduğunu bilərək və fəaliyyətini təqdir edərək, o vücudun istefasının qəbul edilməməsini qəzet vasitəsi ilə rica edirik və Parlaman əzaları əfəndilərindən həm bu barədə kömək etmələrini təmənna edirik (50-yə qədər imza)"[42].

"Azərbaycan" qəzetinə göndərilən bu müraciətlər N.Yusifbəylinin cəmiyyətdə böyük nüfuz sahibi olduğunu göstərirdi. Bu tələblərdən sonra N.Yusifbəyli Baş Nazir vəzifəsini yenidən davam etdirmişdir.

1920-ci ilin martın 9-da Azərbaycan Parlamentində müsəlman kəndlərinin dağıdılması və əhalinin qətl edilməsi ilə bağlı fövqəladə iclas keçirildi. Toplantıda çıxış edən N.Yusifbəyli, əsasən, Qars vilayətində yaşayan müsəlmanların ermənilər tərəfindən qətlə yetirilməsi və təqib olunması ilə bağlı məlumatlar verdi. O, qeyd etdi ki, Avropanın, İngiltərənin xahiş və israrına baxmayaraq, ermənilərin törətdikləri faciələrə görə müsəlman əhali Ermənistanı tanımaq istəmirdi. Onlar burada yaşayan müsəlmanların aqibətini görmüşdülər.

N.Yusifbəyli çıxışında bildirirdi ki, Qars vilayətində 364 min əhalidən 55 faizi türk və müsəlman, 25-30 faizi erməni, rus, rum və digərləridir. Buna baxmayaraq, ermənilər Qars vilayətinin müsəlmanlar yaşayan bölgələrində saylarını artırmağa başladılar. Ermənilər özlərinə tabe olmayan yerləri zorla nəzarətlərinə keçirdilər.

N.Yusifbəyli qeyd edirdi ki, erməni qoşunlarının 24 müsəlman kəndlərini "yerlə-yeksan etməsi, əhalini tamamən doğraması, uşaqları belə tonqalda yandırması haqqında" məlumatlar əldə edilmişdir.

N.Yusifbəylinin bu çıxışından sonra parlament üzvlərindən M.Ə.Rəsulzadə, Qəbulov, Ə.Əhmədov fikirlərini söylədilər.

**1920-ci ilin yanvarın 11-də Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması xəbəri yanvarın 12-də axşam saat 6-da Azərbaycan hökumətinə çatdı.** Bu xəbərin sabahı günü Bakıda bayram əhvalı hiss edilməyə başladı. Yanvarın 14-ü isə Azərbaycan hökuməti tərəfindən rəsmi elan edildi. Bayram tədbirləri belə sıralanmışdı: saat 11-də Təzəpir məscidində dua edilir, saat 12-də Azərbaycan Parlamentinin iclası keçirilir, saat 13-də Hürriyyət meydanında qoşunların rəsmi keçidi olur, saat 14-də Xarici İşlər Nazirliyi binasında hökumət tərəfindən təbriklər qəbul edilir, gecə şəhər çırağban bəzədilir.

Yanvarın 14-də Təzəpir məscidinin həyəti xalqla dolu, içərisində isə N.Yusifbəyli, X.Məlikaslanov, H.Şahtaxtinski, X.Xasməmmədov, C.Hacıbəyli, H.Məmmədbəyov və digər hökumət nümayəndələri, məmurlar vardı.

[42] Nəsib bəyin istefası ətrafında. "Azərbaycan" qəzeti, 23 sentyabr 1919, №280.

Şeyxülislamın dua oxuyub xalqa müraciətindən sonra Rəisi-Vükəla (Baş Nazir) N.Yusifbəyli tədbirdə çıxış etdi. O, dedi: "Camaat, bu bayram sizin öz arzunuz nəticəsidir. İlyarım əvvəl siz azad və müstəqil olmaq istədiniz və bu ilyarımın müddətində öz dolanışığınız və rəftarınızla bütün aləmə isbat etdiniz ki, siz müstəqil bir hökumət olmağa layiqsiniz. Hətta özünüzü elə nəzərə verdiniz ki, düşmənlərimiz də bu istiqlalı təsdiq etməyə məcbur olub, bu günü təsdiq etdilər. Ola bilər ki, bizdən də mədəni, bizdən də müstəid, bizdən də əvvəl və bizdən də artıq bu istiqlalın arzusunda olanlar vardır. Lakin onlar bu səadətə nail olmamışdırlar. Sizin bu az bir vaxtda bir hökumət təşkil edib də müstəqil olmağınıza layiq və qadir olmanız, özünüz imtahan verib isbat etdiyinizdən xudavəndi-təbarəkdən sizin üçün səadətlər diləyirəm"[43].

Yanvarın 14-də, saat 12-də Azərbaycan Parlamentinin binası qarşısında çoxlu sayda insanlar toplaşıb, Parlament üzvlərinin Təzəpir məscidindən gəlişini gözləyirdi. Keçirilən toplantıda natiqlər çıxış edərək xalqı təbrik edirdilər.

"Azərbaycan" qəzeti digər hökumət rəsmiləri ilə yanaşı Baş Nazir N.Yusifbəylinin xalq tərəfindən alqışlarla qarşılanmasını belə işıqlandırırdı: "Bu arada xalqda bir hərəkət başlandı: "Yol ver, yol ver", "Gəlir", "Gəlir" səsləri, "Yaşasın Nəsib bəy... Yaşasın Rəisi-Vükəla" cümlələri eşidilməyə başladı. Bunların ardınca xalqın arasından bir şəxs qalxmağa başladı. Bu, Nəsib bəy idi. Xalq onu çiynundə parlamanın içərisinə kimi aparırdı. Ardınca onu "...Ura!", "Yaşasın" kimi xalqın həqiqi və səmimi səsləri təqib edirdi"[44].

N.Yusifbəyli təmiz əqidəli və saf bir insan idi. Azərbaycan İstiqlal mücadiləsinin önəmli şəxsiyyətlərindən olan N.Şeyxzamanlı "Xatirələrim" kitabında N.Yusifbəyli ilə bağlı onun dediyi bir söhbəti belə təsvir edir: "Sən bilirsən, mən atamın icazəsi ilə bağlarımızdan birini müasir bağ yaratmaq qayəsilə ayırmışdım. Üç ildir milli işlərimizdən bağ ilə məşğul olacaq vaxt tapa bilmədim. Atama bir məktub yazaraq, bu il də bağ işi ilə məşğul ola bilməyəcəyimi, yenə əvvəlki kimi qamış alıb basdırmalarını söylədim. Babamdan bu cavabı aldım. Məktubu sənə oxuyuram. Atam məktubda ürəyində nə var hamısını yazıb: "Əziz oğlum, artıq səbrim tükənib, dözə bilmirəm. Hamısını yazacağam. Sıxıntı içində borc alaraq sənin ali təhsil almağını təmin edə bildim. Ali təhsilini bitirib Gəncəyə qayıdanda artıq hər şeyin rahat olacağını yəqin etdim. Sən Gəncəyə gəlib Bələdiyyədə ərzaq işləri üzrə müdir oldun. Sənə yenə mən baxdım. Məndən yalnız pul istədin. Sonra Tiflisə gedərək, Seymin Maarif Naziri

43 "Azərbaycan" qəzeti, 16 yanvar 1920, №13.
44 Yenə orada.

oldun. Aldığın pul ilə yenə özünü saxlaya bilmədin. Bir neçə dəfə pul istədin, göndərdim, sonra Azərbaycan İstiqlalını elan etdiniz. Gəldin Cümhuriyyətimizin Maarif naziri oldun. Dövlətimizin mərkəzi olan Bakıda işlədin. Yenə də aldığın maaş səni təmin etmədi. Yenə məndən pul istədin. Həmişə göndərirdim. Adına olan torpaq sahəsinin bir hissəsini satmışdım. O pullardan göndərdim sənə. **Bu gün isə Baş Nazirsən. Dövlət başçısısınız, yəni ölkəmizin padşahı olmuşsunuz. Yenə bağının qamışını mən alım. Sən, pul göndərə bilərsənmi?"**[45].

1920-ci ilin 27 aprelində Azərbaycan sovet rejimi tərəfindən işğal edildikdən sonra N.Yusifbəyli Bakını tərk etdi (çox ehtimal ki, o da digər silahdaşları kimi hələ bolşeviklər tərəfindən işğal edilməmiş Gürcüstana – Tiflisə getməyi qərara alıb). Nəsib bəy Kürdəmir qəzasında, Yevlağa yaxın bölgədə qətlə yetirildi. Bəzi məlumatlara görə, N.Yusifbəylinin Yevlağın Qarxunlu kəndindən olan Əşrəfin dəstəsi tərəfindən öldürüldüyü söylənilsə də, bu, təsdiqini tapmayıb. Qarxunlu Əşrəflə bağlı sovet dövründə aparılan istintaq materiallarında da hadisəyə toxunulmayıb. Çox ehtimal ki, N.Yusifbəylini izləyən, yaxud həmin bölgədə rastlaşdığı bolşeviklər tanıyaraq qətl ediblər. Bir mənbədə isə, N.Yusifbəylinin qətli zamanı qatillərin əlindən qaçmağı bacaran sürücüsünün İstanbula getdiyi və orada Nəsib bəyin həyat yoldaşı Şəfiqə xanımla görüşüb hadisəni danışdığı qeyd olunur.

M.Ə.Rəsulzadə isə 1923-cü ilin əvvəllərində Türkiyədə nəşr edilən "Azərbaycan Cümhuriyyəti" əsərində N.Yusifbəylinin sağ və yaxud ölümü ilə bağlı bir məlumatın olmadığını qeyd edirdi.

1920-ci ildə Azərbaycan işğal edildikdən sonra xanımı Ş.Qaspıralı övladları ilə birgə Türkiyəyə – İstanbula getmişdir. O, 1975-ci ildə İstanbulda vəfat etmiş, qızı Zəhra xanım isə 1996-cı ildə bu şəhərdə dünyadan köçmüşdür. N.Yusifbəylinin digər övladı – oğlu Niyazi Kürdəmir isə 1962-ci ildə Türkiyədə dünyasını dəyişmişdir.

N.Yusifbəyli sonradan mənşəcə Kazan tataplarından olan Eynülhəyat xanımla (1887-1955) ailə həyatı qursa da onlarn övladları olmamışdı. Eynülhəyat xanım AXC dövründə maarif sahəsində, sovet dövründə isə Bakı dövlət Universitetində çalışmışdır[46].

Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadə 1929-cu ildə İstanbulda nəşr etdiyi "Odlu Yurd" jurnalının 27 aprel tarixli 3-cü sayındakı "İstila qurban-

---

[45] Nağı Şeyxzamanlının xatirələri. B., 1997, s. 228-229.
[46] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005. s. 448.

ları – Nəsib bəy" məqaləsində yazırdı: "Bunu söyləməyə bilmərik ki, o, milli nümayəndələrdən biri idi. Elə bir nümayəndə ki, Milli Azərbaycan hərəkatının istiqlalla nəticələnən qayəsini formula etmək onun adı ilə bağlıdır. Bu sadə əlavə, Nəsib bəyin adını Azərbaycan tarixində ölməz və unudulmaz bir ad halına gətirilməsi kifayətdir. **Aprel matəmində intiqam milli istiqlal nəslinin qeyrətini təhrik edən böyük amillərdən biri də, heç şübhəsiz, Nəsib bəyin şəhidliyidir. Müzəffər istiqlal nəslinin ilk görəcəyi** şükran (hörmət, ehtiram – red.) vəzifələrdən birincisi – Nəsib bəy adını əbədiləşdirmək və Bakı ilə Gəncədə ona bir abidə qoymaqdan ibarət olmalıdır"[47].



**N.Yusifbəylinin ölümündən sonra Türkiyədə yaşayan oğlu Niyazi və qızı Zəhra.**

[47] M.Ə.Rəsulzadə. İstila qurbanları "Nəsib bəy". "Odlu Yurd" jurnalı, İstanbul , 27 aprel 1929, №3, s. 15.

# HƏSƏN BƏY AĞAYEV

(1875 – 1920)



Görkəmli ictimai-siyasi xadim Həsən bəy Ağayev 1875-ci ildə Gəncədə anadan olub. Gəncə klassik gimnaziyasında oxuduqdan sonra Moskva Universitetinin tibb fakültəsində təhsil alıb.

H.Ağayev 1911-1912-ci illərdə Gəncədə rus dilində nəşr edilən "Yujnıy Kavkaz" ("Cənubi Qafqaz") jurnalının redaktoru olub.

Onun fəallığı ilə 1914-cü ildə Gəncədə ilk tibb cəmiyyəti yaradılıb.

H.Ağayev 1917-ci ildə Gəncədə əsası qoyulan Türk Ədəmi-Mərkəziyyət Partiyasının yaradıcılarından biri olub.

H.Ağayev Zaqafqaziya Seyminə üzv seçilib və Azərbaycan Milli Şurası Sədrinin müavini vəzifəsini icra edib.

1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamenti yaradılanda H.Ağayev sədr müavini seçilərək fəaliyyət göstərib.

1920-ci ilin 27 aprelində Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra H.Ağayev Tiflisə gedib və burada iyulun 19-da erməni terrorçusu tərəfindən qətlə yetirilib.

# PARLAMENT SƏDRİNİN BİRİNCİ MÜAVİNİ

Azərbaycanın demokratik və hüquqi bir dövlət olaraq formalaşmasında tanınmış dövlət xadimi **Həsən bəy Ağayevin** böyük xidmətləri olmuşdur. Yüksək mədəniyyət sahibi H.Ağayev hər zaman vətəni üçün çalışmağa hazır bir insan idi. Parlamentin sədri vəzifəsinə Ə.M.Topçubaşovun seçilməsinə baxmayaraq onun Fransada Azərbaycanı dünyaya tanıtmağa görə qalması səbəbindən H.Ağayev bütün ağırlığı öz üzərinə götürmüş və sədrlik vəzifəsini icra etmişdi. Müzakirəyə çıxarılan 270-ə qədər qanun layihəsindən çoxu onun parlamentə rəhbərlik etdiyi vaxtda qəbul edildi. Azərbaycan Parlamentinin ən ağır və çətin iş günlərində H.Ağayev böyük məsuliyyətlə çalışdı. 1920-ci ilin fevralın 2-də vəzifəsindən gedərkən bütün parlament üzvlərinin imzası ilə ona təşəkkürnamə verildi.

Həsən bəy Ağayev 1875-ci ildə Gəncə şəhərində doğulmuş, orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra məşhur milyonçu Hacı Zeynalabdin Tağıyevin köməyi ilə Moskva Universitetinin tibb fakültəsinə daxil olub, 1901-ci ildə ali təhsilini başa vurmuşdur.

**H.Ağayev Moskvada təhsilini bitirdikdən sonra Bakıya qayıtmış, əvvəlcə H.Z.Tağıyevin Toxuculuq fabrikində və Qızlar məktəbində həkimlik etmişdir. Eyni zamanda o, "Kömürçü" meydanında sonradan onun adı ilə məşhurlaşan "Seyid xəstəxanası"nda işləmişdir. H.Ağayev həm cərrah, həm də ürək həkimi olaraq fəaliyyət göstərirdi. H.Ağayev 1906-1907-ci illərdə Bakıdakı 4-cü pulsuz müalicəxananın müdiri kimi də çalışmışdır.**

O, ilk siyasi fəaliyyəti dövründə sosial-demokratlara bağlı olduğundan bu təşkilatla yaxından təmasda olmuş və Hümmət təşkilatının üzvü kimi də ciddi çalışmışdı.

H.Ağayev jurnalistlik fəaliyyəti ilə də məşğul olmuşdur. Onun "Həyat" (1905-1906), "İrşad" (1905-1907), "Yoldaş" (1907), "Tərəqqi" (1908-1909), "Həqiqət" (1909-1910), "Günəş" (1910-1911), "Azərbaycan" (1918-1920) qəzetlərində, "Dəbistan" (1906-1908) jurnalında yazıları çap edilmişdir. Bu mətbuat orqanlarında o, elmi, ictimai və tibbə aid məqalələrlə çıxış etmişdir. Onun "Molla Nəsrəddin" jurnalında da yazısının çap olunması fikri deyilsə də, bu təsdiqlənməyib.

H.Ağayev 1918-ci ildə Gəncədə "Türk sözü" adlı qəzet çap etsə də, onun nüsxələri bu günədək tapılmayıb. Bundan əlavə o, 1911-1912-ci illərdə rus dilində 100-dən çox sayı çap edilmiş "Yujnıy Kavkaz" ("Cənubi Qafqaz") jurnalının redaktorlarından biri olub. Onun mətbuatdakı imzaları aşağıdakı kimidir: "Təbib

H.A", "Təbib H.Ağayev", "Təbib Həsən Ağayev", "Təbib Həsən Ağayev Gəncəli" və s.

H.Ağayev tərcümə ilə də məşğul olmuşdur. O, ilk dəfə olaraq Sumarta adasının güneyində yerləşən və bir zamanlar "Palembanq sultanlığı"nın mərkəzi olmuş Palembanq şəhəri haqqında məlumatları rus dilindən tərcümə edib "Həyat" qəzetində çap etdirmişdir. Sonra onun Qırvan şəhəri (Tunisdən 140 km məsafədə yerləşən şəhər) haqqında, "İngiltərə müsəlmanları" tərcümələri də çox maraqlıdır.


**H.Ağayev gənclik illərində.**

H.Ağayev eyni zamanda "Mülk-sinif-firqə" adlı bir kitabı da rus dilindən tərcümə etmişdir. Bu tərcümə əsəri inqilabi mahiyyət daşıdığından çar hökuməti onu təqib etmiş və H.Ağayev bir ilə qədər İranda yaşamaq məcburiyyətində qalmışdır. "Tənbəkiyə adət" kitabının da rus dilindən Azərbaycan dilinə tərcüməçisi də o, olmuşdur.

1905-ci ildə Bakıda H.Z.Tağıyevin başçılığı ilə yaradılan "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin əsas qurucularından biri H.Ağayevdir. 1907-ci ildə isə o, Qafqaz Müsəlman Müəllimləri Qurultayı Mərkəzi Komitəsinin sədri seçilmişdir[1]. Bu illərdə H.Ağayev maariflənmənin xalq arasında genişlənməsi üçün də önəmli işlər görmüş, burada yaradılmış maarifi yayan cəmiyyətin də sədri seçilmişdi.

H.Ağayev çox savadlı həkim idi. O, Gəncədə ilk Tibb Cəmiyyətini də yaradanlardan biri idi. Mənbələrdə göstərilir ki, H.Ağayev və X.Rəfibəyov 1914-cü ildə Yelizavetpol Tibb Cəmiyyətini yaradıblar.

H.Ağayev əslən Ufa türklərindən olan çar ordusunun istefadakı polkovniki Sadıq Əbdürrəhmanovun Peterburqda Nücabə Qızlar İnstitutunda pedaqoji ixtisas almış qızı Xədicə xanımla ailə həyatı qurmuşdur. Bu izdivacdan onların üç övladı dünyaya gəlmişdi (Xurşud – 1905, Gülrux – 1908, Nəzakət – 1910). H.Ağayevin qızı Xurşud xanım isə görkəmli dövlət xadimi Əhməd bəy Pepinovun həyat yoldaşı idi.

1917-ci ildən başlayaraq H.Ağayev siyasi fəaliyyətə daha çox önəm verdi. Xüsusən, 1917-ci ilin Fevral-Burjua inqilabından sonra N.Yusifbəylinin Gəncədə yaratdığı Türk-Ədəmi-Mərkəziyyət Partiyasının xalq arasında böyük nüfuz qa-

[1] M. Əliyev. Həsən bəy Ağayev. "Odlar yurdu" qəzeti, №3, fevral 1989.

zanmasında H.Ağayevin əvəzsiz xidmətləri olmuşdur. Odur ki, H.Ağayev həm də Türk-Ədəmi-Mərkəziyyət Partiyasının banilərindən biri sayılır. Qeyd edək ki, məhz bu partiya Azərbaycana ərazi muxtariyyəti ideyasını irəli sürmüş və bunu öz proqramında əsaslandırmışdır.

**1917-ci ilin aprelin 15-dən 20-dək Bakıda Qafqaz Müsəlmanlarının Qurultayı keçirildi. Bu qurultayda da H.Ağayev Azərbaycana ərazi muxtariyyəti ideyasını qətiyyətlə müdafiə edmişdi[2].**

**1917-ci ilin iyun ayının 17-də M.Ə.Rəsulzadənin lideri olduğu Müsavat Partiyası ilə N.Yusifbəyli və H.Ağayevin (eləcə də Ş.Rüstəmbəyli və X.Xasməmmədovun) başçılıq etdiyi Türk-Ədəmi-Mərkəziyyət Partiyasının birləşmə qurultayı keçirildi.**

Qeyd edək ki, Azərbaycan istiqlalı qazanılmasında bu birləşmənin çox böyük əhəmiyyəti oldu.

Birləşmə qurultayı asan keçmədi. Bir çox məsələlərin müzakirəsi zamanı müəyyən fikir ayrılığı ortaya çıxırdı. Məsələn, aqrar məsələyə münasibətdə fikir eyniliyinə gəlinmədiyindən müzakirənin həlli növbəti qurultayadək təxirə salındı. Çünki müsavatçılar bütün torpaqların kəndlilərə verilməsi mövqeyində idilər. Lakin Ədəmi-Mərkəziyyətin aqrar məsələyə münasibəti başqa idi və 1917-ci ilin dekabrında birləşmiş partiyaların ilk qurultayında proqramın aqrar bölməsində Ədəmi-Mərkəziyyətçilərin fikri əsas götürüldü.

Qurultayda ilk Mərkəzi Komitə yaradıldı. Komitənin tərkibinə aşağıdakılar daxil idi: Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Məhəmməd Həsən Hacınski, Mustafa Vəkilov, Musa Rəfiyev, Şəfi bəy Rüstəmbəyov, Mirzə Məhəmməd Axundov və Həsən bəy Ağayev[3].

1917-ci ilin mayında Vladiqafqaz şəhərində keçirilən Birləşmiş Dağlıların Müvəqqəti MK-sinin (bu qurum qurultayda Şimali Qafqaz və Dağıstan Dağlıları İttifaqı adlanırdı) ilk qurultayında (burada 340 nəfər nümayəndə iştirak edirdi) Azərbaycanı H.Ağayev təmsil edirdi. H.Ağayev dağlılara təbrik nitqində müstəqil dövlətçilik forması kimi respublika quruluşunda tam milli, mədəni və siyasi tərəqqinin əldə olunması mümkünlüyündən danışırdı[4].

H.Ağayev Zaqafqaziya Seyminin təşkilində və formalaşmasında da böyük fəallıq göstərmişdir. Zaqafqaziya Seymi dağıldıqdan sonra 1918-ci ilin mayın

---

[2] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918-1920. B., 1990, s. 56.
[3] N. Yaqublu. Müsavat Partiyasının tarixi. B., 2012, s. 56.
[4] V. Quliyev. Cümhuriyyət naziri: Rəşid xan Qaplanov.
www. kitabxana.net/0310.2010.

28-də Seymin tərkibindəki Müsəlman fraksiyası ayrıca bir qrup şəklində qalaraq Azərbaycanın istiqlalını elan etdi.

1918-ci ilin mayın 27-də Transqafqaz Seyminin buraxılması ilə bağlı bura daxil olan Azərbaycan nümayəndələrinin fövqəladə iclası keçirildi və iclas Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürərək Azərbaycan Müvəqqəti Milli Şurasını elan etdi, M.Ə.Rəsulzadə Milli Şuranın Sədri seçildi. H.Ağayev və M.Seyidov isə Milli Şura Sədrinin müavinləri seçildilər. Elə həmin iclasda Milli Şuranın doqquz nəfərdən ibarət icraiyyə orqanı yaradıldı, F.X.Xoyski İcraiyyə Orqanına başçılıq etdi.

1918-ci ilin mayın 28-də H.Ağayevin rəhbərliyi ilə Milli Şuranın ilk iclası keçirildi. İclasda bu məsələlər müzakirə edildi: 1) H.Ağayevin Yelizavetpoldakı (Gəncədəki) son hadisələr barədə məlumatı; 2) M.Ə.Rəsulzadənin Batumdan göndərdiyi teleqramın və məktubun oxunması; 3) Seymin buraxılması və Gürcüstanın müstəqilliyinin elanı ilə əlaqədar Azərbaycanın vəziyyəti.

Məhz üçüncü məsələnin müzakirəsində "İstiqlal Bəyannaməsi" qəbul edildi. Müzakirədə iştirak edənlərdən bəziləri istiqlal elanını bir qədər uzatmağı fikir olaraq irəli sürsələr də, 6 maddəlik İstiqlal Bəyannaməsinin (həm "Əqdnamə" həm də "Misaqi-milli" adlandırılır) qəbulu vacib sayıldı. Belə bir mövqenin ortalığa qoyulmasında H.Ağayevin xidməti az olmadı.

Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra H.Ağayev Azərbaycan Dəmir Yolu İdarəsinin Baş həkimi vəzifəsində çalışdı.

1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamentinin açılış mərasimi oldu. M.Ə.Rəsulzadə açılış nitqinin sonunda parlamentə bir sədr və bir baş müavin seçmək təklifi ilə çıxış etdi. Ayrılan 5 dəqiqəlik tənəffüsdən sonra Müsavat və bitərəflər adından Şəfi bəy Rüstəmbəyli Ə.M.Topçubaşovun sədrliyə, Həsən bəy Ağayevin isə müavinliyə namizədliyini irəli sürdü və təklif hamı tərəfindən qəbul edildi.

Yeni vəzifəyə seçilən H.Ağayev çıxışında dedi: "Möhtərəm Parlament üzvləri! Bu tarixi gündə mənim boynuma böyük bir şərəf, böyük bir iqdam düşdü. İzhari-etimad ilə məni uca mənsəbə layiq bildiyinizdən dolayı bilaistisna hamınıza təşəkkür edirəm.

...Bu ağır vəzifəni ifa edə biləcəkmiyəm, yoxmu, bunu deməyə cəsarət eləmirəm. Zira vəzifə xeyli məsuliyyətli və ağırdır. Burası hamınıza məlumdur. Fəqət hamının məqsədi sevgili Azərbaycanın səadəti, buraya toplanmamızdan murad – əziz vətənimizi sahili nicata çıxarmaq olduğundan ümidvaram acizləriniz sizinlə bərabər məqsədə nail və sizin müavinətiniz ilə vəzifəmi hüsni-ifayə müvəffəq olacağam"[5].

[5] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920). II c. B., 2016, s. 83; R.Hüseynov. Millətin zərrəsi. B., 2001, s.245.



**H.Ağayev Azərbaycan Parlamentinin üzvləri arasında. 1920-ci il.**

H.Ağayev bu çıxışında parlamentin katibi vəzifəsinə ən cavan məbusun seçilməsi təklifini edərək Rəhim Vəkilovun namizədliyini irəli sürdü və təklif qəbul olundu.

1919-cu ilin iyunun 27-də Azərbaycan Parlamentinin növbədənkənar iclası keçirildi. İclasda çox əhəmiyyətli bir sənədin – Azərbaycan hökuməti ilə Gürcüstan hökuməti arasında bağlanmış olan hərbi müqavilə təsdiq ediləcəkdi. Bütün parlament üzvləri, nazir və nazir müavinləri, Gürcüstan siyasi nümayəndələri və nazirləri də iclasda iştirak edirdi. Toplantını H.Ağayev açdıqdan sonra katib Əhməd Cövdət bəy müqaviləni oxudu. Sonra Xarici İşlər naziri M.Y.Cəfərov bu müqavilə münasibəti ilə bəyanatla çıxış etdi. Toplantıda Müsavat adından M.Ə.Rəsulzadə, Y. Əhmədov, İ. Əbilov (sosialistlərdən), H.H.Əfəndizadə (Əhrardan), gürcü nümayəndələrindən – Bakradze, Q.Qarabəyli (İttihad) hər iki dövlət arasında imzalanmış hərbi müqavilənin əhəmiyyətini qeyd etdilər.

H.Ağayev sonda bu məzmunda çıxış etdi: "Möhtərəm məbuslar! Bu gün Azərbaycan – Gürcüstan müqaviləsini bütün firqə və millətlər mütəhidil-rəy qəbul və təsdiq etməklə isbat etdilər ki, Ümumazərbaycan demokratiyası bilafərq din, dil və məsləki-siyasiyyə Azərbaycanın müqəddəratını və qonşu millətlərin və ümum Cənubi Qafqazın müqəddəratını gürcü və ermənilərlə bərabər təyin və müdafiə etmək istəyirlər.

Burada natiqlərin hamısı söylədilər və mən bütün qəlbimlə bu rəyə iştirak edirəm ki, ümidvar olmalıdır üçüncü millət də tək yaşaya bilməyəcəyini, hürriyyət və istiqlalını

təklikdə müdafiə edə bilməyəcəyini anlar, bu ittifaqa daxil olar. **O vaxt bu millətlər müttəfiqən yaşar, lazım gördükləri müqavilənamə və ittifaqları əqd edib bu surətlə hürriyyət və istiqlallarını ümumi qüvvə ilə müdafiə edərlər**"[6].

1920-ci ilin yanvarın 11-də Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması münasibəti ilə yanvarın 14-də Bakıda bayram tədbirləri keçirildi. Həmin gün gündüz saat 2-nin yarısında parlamentin təntənəli iclası oldu. İlk söz Xarici İşlər naziri F.X.Xoyskiyə verildi.

F.X.Xoyskinin çıxışından sonra H.Ağayev bu fikirləri söylədi: "İndiyə qədər bizim bir neçə təntənəli iclasımız olmuşdur. Lakin bu gün xariqüladə bir gündür. 19 ay yarım çəkdiyimiz zəhmət və məşəqqətlər nəticəsi olaraq bu gün istiqlaliyyətimiz təsdiq edilmişdir. Necə ki Fətəli xan Xoyski cənabları buyurdular ki, bu gün tək bizim bayramımız olmayıb, ümumislam aləmi bayramıdır. Bu gündən etibarən hökumətlər sırasında yeni, müstəqil bir islam hökuməti də vücuda gəlmişdir. Bu gündən etibarən bizi tanıdılar. Lakin tanınmaq üçün özünü tanıtdırmaq lazımdır. İndiyə kimi nəzərə vəhşi verilmiş olan biz Azərbaycan türkləri bu bir il yarımın müddətində özümüzün vəhşi olmayıb da özümüzün mədəni və müstəqil yaşamağa qabil və layiq olduğumuzu bütün aləmə bildirdik. Bunun üçün biz böyük imtahanlar verdik, böylə ki, dəfaətlə məmləkətimizə və paytaxtımıza gələn Avropa nümayəndələri bizim belə bir yüksək məqama ləyaqətli olmağımızı təsdiq etdilər. **Biz bu səadətə və xoşbəxtliyə nail olmağımız üçün az qurbanlar verməmişik, buna təxrib edilmiş şəhər və kəndlərimiz, yüz minlərlə qaçqınlarımız və vətən uğrunda canlarından keçən şəhidlərimiz sübutdur.** ***Bu gün o şəhidin ruhu şaddır.*** **Onların ruhu bu gün bizə deyir ki, biz sizin üçün əziz və möhtərəm bir nemət qoymuşuq, o neməti möhkəm saxlayınız. Çünki, iraq olsun** əldən versəniz daha ala bilməzsiniz. Mən əminəm ki, biz onu fəda-



**H.Ağayevə parlamentdəki fəaliyyətinə görə verilən təşəkkür məktubu. 1920-ci il.**

[6] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920). III c. B., 2017, s. 255.

karlıqla müdafiə edəcəyik. Yalnız istiqlalı almaq kifayət deyildir. Onu davam etdirmək lazımdır. Bunun üçün də Məclisi – Müəssisan seçkisi lazım gəlir və əminəm ki, bu xüsusda biz artıq ciddiyyət göstərib, vətənimizin ən səmimi oğullarını işbu Məclisi-Müəssisana seçim edəcəyik”[7].

**Azərbaycan Parlamenti H.Ağayevin sədrliyi müddətində böyük fəaliyyət göstərdi.** Bununla əlaqədar “Azərbaycan” qəzetində çap olunmuş “Azərbaycan Parlamentinin birinci illiyi” məqaləsində geniş məlumatlar vardır. Məlum olur ki, bir il müddətində parlamentin 104 iclası keçirilmiş, 120-yə yaxın əsaslı və mühüm qanunlar qəbul edilmişdir. Bir il müddətində ən çox maliyyə nəzarətindən parlamentə 82 qanun daxil olmuş, 55-i qəbul edilmişdir. Həmin qanunlardan 19-u hazırda komissiyalarda müzakirə olunmuş, 5-i Parlamentdə müzakirədədir, 3-ü isə qəbul edilməyib.

“Azərbaycan” qəzeti yazırdı: “Ən çox maliyyə qanunlarının parlamentə gəlməsi göstərir ki, dövlətin həyati-ümumiyyəsində olduqca bir fəaliyyət mövcuddur. Çünki maliyyə qanunları, xüsusilə, hökumət maşınının başlıca bir çarxını təşkil etməsinə görə məmləkətin fəaliyyəti-ümumiyyəsində ona görə müqayisə etmək lazım olur”[8].

H.Ağayevin Parlamentə sədrlik etdiyi bir il müddətində Ədliyyə nazirliyindən 31 qanun layihəsi təqdim olunmuş, bunlardan 14-ü qəbul edilmiş, 6-sının müzakirə prosesində, 10-nun komissiyalarda olduğu, 1-nin isə geri qaytarıldığı qeyd olunmuşdur.

Bu müddətdə Daxiliyyə nəzarətindən 24 qanun layihəsi daxil olmuş, bunlardan 14-ü qəbul edilmiş, 1-i müzakirə olunmuş, 6-sının komissiyalarda olduğu, 3-nin geri qaytarıldığı bildirilmişdir.

Eyni zamanda Xariciyyə nəzarətindən 2 qanundan biri, Səhiyyə nəzarətindən (Səhhəti ümumiyyə) 2 qanundan biri, Poçt və Teleqraf Nazirliyindən 5-i, Yollar nəzarətindən 2 qanun layihəsi, Ticarət və sənaye nəzarətindən 2 qanundan biri, Nafiə nəzarətindən 7 qanundan 2-si, Hərbiyyə nəzarətindən 9 qanundan 7-si, Maarif nəzarətindən 19 qanundan 7-si, Təftişat nəzarətindən 1 qanun daxil olmuş və o da komissiyalarda müzakirədə idi, Ziraət və əmlak nəzarətindən 11 qanundan 3-ü, Əmək nəzarətindən 1 qanun qəbul edilmişdir.

Azərbaycan Parlamentinin bu fəaliyyətində H.Ağayevin böyük xidmətləri vardı. “Azərbaycan” qəzeti 1919-cu ilin 9 dekabr sayında yazırdı: “Parlamentin sə-

[7] “Azərbaycan” qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920). I c. B., 2015, , s. 275-276.
[8] “Azərbaycan” qəzeti, 9 dekabr 1919-cu il, №340.

batkar və cavan və eyni zamanda qüvvətli bir məfkurə sahibi olan birinci rəis müavini doktor Həsən bəy Ağayevin adını da burada çəkməmək və ona həqiqi bir millət sədri deməmək əlimizdə deyildir. Həsən bəy ilə bərabər bütün parlaman fəaliyyətlərində cavanmərdanə çalışan Müsavat fraksiyonu da eyni bəyənmə və səmimi təvəccöhlərə layiqdir"[9].

H.Ağayevin başçılıq etdiyi Azərbaycan Parlamenti xalqın çox ağır günlərində önəmli rol oynadı, onu fəlakətlərdən xilas etdi: "Bir tərəfdən ingilis komandanlığının qeyri-müəyyən siyasəti, digər tərəfdən Biçeraxov alaylarının qeyri-qabil dözmək sərkeşliyi və bunlardan hasil olan ruh düşkünlüyü ancaq bir sığınacaq yeri və pənah tapırdı ki, o da Azərbaycan Parlamenti, Azərbaycan millətinin o məbədi-istiqbal və ümidi idi. Hər millətin elə dövrləri vardır ki, ani və fövqəladə bir surətdə vicdan təzahüratını meydana çıxarır...

...Parlament, həqiqətən, Azərbaycan istiqlaliyyəti tarixində böyük bir mövqe tutdu. Oradan çıxan qərarlar, oradan söylənilən əsaslı fikirlər, öldürücü və xatırlama zamanlarda yüksələn etirazlar, həyəcanlar hər bütün millətin vicdan və məfkureyi ümumiyyəsinin bir mərkəzi idi"[10].

H.Ağayevin böyük nüfuzunun olması, ona dövlət idarəçiliyində yaranan müəyyən problemləri həll etməyə imkan yaradırdı.

1918-ci ilin dekabrında Baş Nazir F.X.Xoyski istefa verdikdə H.Ağayev ona çox məzmunlu bir müraciət etmişdi: "Azərbaycan Cümhuriyyəti Məclisi–Məbusanın 10 dekabr tarixli iclasında yeni kabinə təşkili üçün baş vəkili seçmək və dəvəti mənə tapşırılmışdır. Parlaman fraksiyalarının rəyini nəzərə alaraq zati-alilərinin məharəti-siyasiyyələri və bu anadək vətən və millət uğrunda göstərdikləri hüsni-xidmət və fədakarlıq belə mühüm və müşkül bir məsələ üçün zati-alilərini dəvət etməyə məni məcbur etməsinə, yəni baş vəkaləti qəbul və müştərək bir kabinə təşkil etməsini arzu edirəm, əfəndim! Zati-alilərinə olan səmimiyyət və iradətimin qəbul buyurulması müraciət edilmişdir"[11].

H.Ağayevin bu müraciətindən sonra F.X.Xoyski ona belə cavab ünvanlamışdı: "Möhtərəm Həsən bəy! Dünən tərəfinizdən göndərilən məktubu aldım. Məktubda xəbər verirsiniz ki, mənim millət yolundakı sabiq fəaliyyətimi nəzərə alaraq və parlaman fraksiyalarının da məni seçmək üçün verdikləri rəyləri mücibincə, mən parlaman əndində məsul yeni müştərək kabinə təşkilinə dəvət edilirəm. Mənə göstərilən işbu ali etibardan səmimən məmnunam. Fəqət cis-

[9] "Azərbaycan" qəzeti, 9 dekabr, 1919-cu il, №340.
[10] Yenə orada.
[11] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920). II c. B., 2016, , s. 132.

mən zəifliyimdən naşi işbu məsələyi öhdəmə götürməkdən acizəm. Məəmafiə mən daima millət yolunda lazım gələrsə çalışmağı vəzifəyi-mənəviyyəmdən ədd edəcəyəm.

Fürsətdən istifadə edib rica edirəm ki, mənim səmimiyyət və iradətimi qəbul edəsiniz. Xan Xoyski"[12].

F.X.Xoyskinin etirazından sonra H.Ağayev dekabrın 18-də ikinci müraciətini etmişdi: "...Buna baxmayaraq ikinci camaat adından Sizə müraciət təvəqqe edirəm. Vətənimizin belə ağır günlərində hökumət təşkili kimi məsuliyyətli bir işdən boyun qaçırmayıb, müştərək kabinə təşkilini öhdənizə alasınız.

Ümidvaram təvəqqemə əməl edərsiniz. Xüsusilə ki, parlamanın ümum fraksiyaları bir səslə Sizin namizədliyinizdə ittifaqi-rəy hasil edərək bu mənsəbdə Sizi görmək istəyirlər.

Fürsətdən istifadə edib, səmimi ehtiram və sədaqətimi qəbul buyurmanızı rica edirəm. Məclisi-Məbusan Sədri əvəzinə: H.Ağayev"[13].

Bu müraciətdən sonra F.X.Xoyski növbəti hökumət kabinəsi yaratmağa razılaşmışdı.

H.Ağayev yalnız parlament iclaslarında sədrlik etmirdi. O, eyni zamanda qanunların hazırlanmasına dəstək olur, müzakirələrdə fəallıq göstərirdi. O, səhhəti ilə bağlı parlament sədrinin müavini vəzifəsindən uzaqlaşsa da, fəaliyyətini davam etdirirdi.

1920-ci ilin fevralın 23-də Azərbaycan Parlamentinin növbəti iclası keçirilir. İclasa sədrliyi Məmməd Yusif Cəfərov edirdi (o, həm də 1920-ci ilin fevralın 2-dən Parlament sədrinin müavini vəzifəsində H.Ağayevi rəsmi olaraq əvəz edirdi). İclasın gündəliyində səkkiz məsələnin müzakirəsi planlaşdırılmışdı. İclasda müzakirəsi nəzərdə tutulan 5-ci və 8-ci məsələlərlə bağlı qanun layihələrini H.Ağayev hazırlayıb müzakirəyə təqdim etdi.

Parlamentin 23 fevralda keçirilən iclasında müzakirə edilən 5-ci məsələ xaricdən gətirilən mətbuatın gömrük rüsumundan azad olunması haqqındakı qanun layihəsi idi. Həmin məsələnin müzakirəsində çıxış edən H.Ağayev dedi: "Keçmiş qanuna görə xarici ölkələrdən Rusiyaya gətirilən mətbu əsərlərin qarşısına böyük sədlər qoyulduğundan bəhs edilir. Deyir ki, xaricdən gətirilməkdə olan mətbu əsərlər üçün qanunlar vəz edilmişdi. Bu qanunlara görə, Rusiya daxilinə gələn asari-mətbuatın hər putuna 18 manat vergi alınırdı. Bu vergi rusca yazılmış

---

[12] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920). II c. B., 2016, s. 137.

[13] Yenə orada, s.158.

əsərlərə aid idi. Əcnəbi dillərdə olan əsərlərdən isə cildlərinə görə vergi alınırdı. Bu tədbirlərin nəticəsində Rusiya kitab cəhətincə çox nöqsan imiş. İndi həmin qanunlar bizim Azərbaycanda da mütədavi olduğundan, xaricdən Azərbaycana mətbu əsərlər gətirmək çətindir. Bunu nəzərə alaraq Azərbaycan daxilində kitabların qədərini artırmaq üçün hökumət bu verginin götürülməsini lazım bilmişdir. Əgər bu qəbul olunarsa, asari-mətbuə artar və çətinlik də çəkilməz"[14].

H.Ağayev çıxışında təklif etdi ki, mətbuat tam şəkildə vergidən azad edilsin və bununla da ölkədə kitab ucuzlaşsın.

H.Ağayevin təqdim etdiyi bu qanun layihəsi 3-cü oxunuşda qəbul olundu.

Parlament iclasının gündəliyindəki yeddinci məsələ belə adlanırdı: "Xəstəliklərlə mübarizə üçün səhhəti-ümumiyyə nəzarətinə 3 milyon 275 min rubl buraxılması haqqında qanun layihəsi". Bu qanun layihəsinin məruzəçisi H.Ağayev idi. O, çıxışında dedi: "Şəhərlərdə şəhər idarələri olduğundan əhaliyə tibbi müavinət etmək yolunda təşəbbüslər də olduğundan şəhər əhalisi açılmış xəstəxanalardan istifadə etməkdədirlər. Kənd əhalisinin vəziyyəti isə bu sahədə pisdir. Hazırda hər qəzaya bir qəza doktoru, bir də xəstəxana doktoru düşür ki, bu, olduqca azdır. Bu doktorların da biri təşrih ilə məşğul olduğundan demək olar ki, hər qəzaya bir doktor baxır. Əgər Azərbaycan xalqının öz əhalisini 3 milyon yarım hesab etsək və mövcud qəza xəstəxanalarını 33 qəbul etsək, o zaman orta hesabla bir doktorun öhdəsinə 75 min insan düşür ki, bununla əhaliyə edilən müavinəti təbbiyyə heç demək dərəcəsindədir"[15].

H.Ağayev çıxışında bir məqama da toxunurdu: "Son zamanlarda Azərbaycana bir çox müxtəlif yerlərdən qaçqınlar mühacirət etmişlərdir. Bununla bir tərəfdən əhalinin sayı artmış, digər tərəfdən qaçqınlar ruhca düşkün olduqlarından daha tez xəstələnirlər. Bununla bərabər qaçqınlar arasında müsri (yoluxucu) xəstəliklər də var. Bunların müəyyən yerləri olmadıqları üçün əksərən bir yerdə iqamət etməyib, Azərbaycanın müxtəlif nöqtələrini gəzdiklərindən müsri xəstəliyi də xalq arasında yayırlar. Bunları nəzərə alaraq, səhiyyə nəzarəti bir layihə tərtib etmişdir. Bu layihəyə görə nəzarət tərəfindən Azərbaycanın bir çox nöqtələrində xəstəxanalar açılacaqdır. Bu qanun layihəsi bu günlərdə parlamentə gələcəkdir. İndilik isə nəzarət istəyir ki, 10 dənə səyyar səhiyyə dəstəsi təşkil etsin. Hazırda belə səyyar səhiyyə dəstələrinə ehtiyac çoxdur. Bunun üçün də nəzarət 3 milyon 275 min manat pul istəyir"[16].

---

[14] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920). I c. B., 2015, s. 368.

[15] Yenə orada, s. 370.

[16] Yenə orada, s. 371.

Sonra məruzəçi bu pulun həkim və feldşerlərin maaşına, yol xərclərinə, dərman ehtiyaclarına sərf ediləcəyini qeyd edirdi. H.Ağayev səyyar səhiyyə dəstəsinin gedəcəyi Azərbaycan bölgələrinin siyahısını da təqdim edirdi: Göyçay, Xaçmaz, Şamaxı, Gəncə, Gədəbəy, Qazax, Dondarlı, Zəngilan, Cəbrayıl, Ağdaş.

H.Ağayevin hazırladığı bu qanun layihəsi də 3-cü oxunuşdan sonra sədr tərəfindən səsə qoyularaq parlamentdə qəbul olundu.

Azərbaycan Parlamentinin fevralın 26-da keçirilən toplantısında 7-ci, 8-ci və 9-cu məsələlərlə bağlı məruzələri H.Ağayev etdi.

7-ci məsələ bu mövzuda idi: "Bakıda milli ünas edadiyyəsi nəzdində uşaq bağçası açılması haqqında" qanun layihəsi.

Bu qanun layihəsi ilə bağlı çıxış edən H.Ağayev sənədin Maarif Nəzarəti tərəfindən hazırlandığını qeyd etdi. O, bildirdi ki, uşaqların ibtidai siniflərə hazırlanması baxımından uşaq bağçalarının əhəmiyyəti böyükdür və belə ibtidai tərbiyə görmüş uşaqlar məktəbdə çətinlik çəkmədən asanlıqla oxuyurlar. H.Ağayev bunu əsas götürüb Maarif Nəzarətinin açdığı 1-ci milli ünas məktəbi nəzdindəki uşaq bağçası üçün 29 min 230 manat pul sərf edildiyini və indiki layihənin təsdiqini xahiş etdi. Layihə 2-ci oxunuşdan sonra sədr tərəfindən səsə qoyularaq qəbul olundu, 3-cü dəfə oxu üçün gələcək iclasa saxlanıldı[17].

Parlamentdə müzakirə edilən 8-ci məsələ – "Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında əvvəlinci bir maarif təsis haqqında" qanun layihəsi idi. Bu məsələ ilə bağlı əsas məruzəni yenə H.Ağayev etmişdir.

H.Ağayev bu layihənin Maarif nəzarətində hazırlanıb göndərildiyini qeyd etdi. O, bildirdi ki, layihədə Qarabağ məktəblərinə məxsus bir müfəttişliyin yaradılması nəzərdə tutulur və layihə 3 maddədən ibarətdir. Layihə Maliyyə-büdcə komissiyalarında baxılaraq qəbul edilib və indi parlamentdə qəbulu arzu olunur. Layihənin müzakirəsində Mirzə Sadıq Axundzadə çıxış edib qeydlərini və müsbət mövqeyini bildirdi.



**H.Ağayev Azərbaycanın işğalından sonrakı günlərdə. 1920-ci il**

[17] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920). I c. B., 2015, s. 378.

H.Ağayev növbəti çıxışında qanunda nəzərdə tutulan müfəttişliyin Qarabağın dağlıq hissəsinə aid olacağını qeyd etdi.

Bu qanun layihəsi 2-ci oxunuşdan sonra sədr tərəfindən səsə qoyularaq qəbul edildi.

Parlamentin eyni iclasında (26 fevral tarixli) müzakirə edilən 9-cu məsələ belə adlanırdı: "Baş maarif müfəttişliyi vəzifəsi ehdasına aid qanun layihəsi".

Müzakirədə əsas məruzə ilə çıxış edən H.Ağayev bu layihənin Maarif nəzarəti tərəfindən təqdim olunduğunu və Azərbaycan daxilində 11 maarif müfəttişliyi üzərinə 5-nin də əlavə edilməsinin nəzərdə tutulduğunu qeyd etdi. H.Ağayevin mərizəsindən sonra layihə ətrafında müzakirələr başlayır. Çıxışçı Hacı Əhməd Nuruzadə yeni təsis ediləcək 5 müfəttişliyə əsasən etirazı olmadığını deyərək müəyyən qeydlərini bildirdi. Digər çıxışçı Hacı Kərim Sanıyev bu qanun layihəsinin qəbul edilməsi ilə məmurların sayının artacağını və buna ehtiyacın olmadığını söylədi. O, bu səbəbdən layihənin qəbulunun əleyhinə olduğunu qeyd etdi. Digər çıxışçı Muxtar Əfəndi isə layihənin qəbul edilməsinin vacibliyini bildirdi[18].

Sonda H.Ağayev çıxış edərək müzakirələrdə verilən sualları cavablandırdı. Bu qanun layihəsi də parlamentdə qəbul olundu.

**H.Ağayev Azərbaycan dövlətçiliyinin qorunması üçün bütün bacarığını sərf edirdi. 1919-cu il iyunun 13-də müsavatçıların təşəbbüsü ilə Denikin təhlükəsi əleyhinə Bakıda böyük mitinq keçirildi. Gündüz saat 12:00-da başlanan mitinqdə mitinqi aparmağa sədr seçilmiş M.Ə.Rəsulzadə Denikin əleyhinə "bəyannamə"ni oxudu. Həmin mitinqdə həm Azərbaycan türkcəsində, həm də rus dilində çıxış edən H. Ağayev Azərbaycan istiqlalını qorumağın vacibliyini bildirdi.**

1920-ci ilin aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdə, H.Ağayev Azərbaycan Ordusunun parlaq qələbəsi ilə nəticələnən Əskəran – Qarabağ müharibəsi nəticəsində Tiflisdə açılan Azərbaycan–Ermənistan konfransında səlahiyyətli nümayəndə olaraq iştirak edirdi. O, konfransdan sonra bir müddət orada qaldı. Tanınmış mühacir M.B.Məmmədzadənin 1928-ci ildə "Azəri-Türk" jurnalındakı "Doktor Həsən bəy" məqaləsində yazdığı kimi, o, bu konfransda Ermənistan daxilində yaşayan azərbaycanlılara qarşı törədilən qətliamların dayandırılmasına təminat almaq istəyirdi.

---

[18] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920). I c. B., 2015, s. 384.

Bu işğaldan sonra H.Ağayev əvvəl Gəncədə, buranın təhlükəli olduğunu gördükdə Tiflisdə qaldı. Eyni zamanda o, bu şəhərdə bolşevik işğalına qarşı mübarizəni davam etdirdi. O, burada bir gürcü dostunun evində yaşayırdı.

Bir məlumatda isə onun Tiflisdən Batuma, oradan da gəmi ilə Türkiyəyə gedəcəyi qeyd olunurdu[19].

H.Ağayev 1920-ci ilin iyulun 19-da, axşam dostlarının yığışdığı evə görüşə gedərkən(onu bu görüşə bir aktyor dəvət etdiyindən ölümündə o şəxs şübhəli bilinirdi), Tiflisdə məşhur "Kazyonnı teatr"ın yan küçələrinin birində erməni terrorçuları tərəfindən qətlə yetirildi (bəzi faktlarda bu qətldə bolşeviklərin əlinin olduğu qeyd edilməkdədir).

H.Ağayev Tiflisdə müsəlman qəbiristanlığında – M.F.Axundovun və bir ay əvvəl qətl edilmiş F.X.Xoyskinin məzarlarının yanında dəfn olundu.

H.Ağayevin ölümündən xəbər tutan həyat yoldaşı Xədicə xanım təcili Tiflisə gedib, onun yas mərasimində iştirak etdi.

H.Ağayevin qızı professor Nəzakət Ağazadə isə sonradan 1946-cı ildə Tiflisə atasının qəbrini ziyarətə getdikdə, bolşeviklərin H.Ağayevin və F.X.Xoyskinin qəbirlərini dağıtdıqlarını, yerlə-yeksan etdiklərini görmüşdü.

Tanınmış mühacir M.B.Məmmədzadə H.Ağayevin Azərbaycan tarixindəki rolunu belə xarakterizə edirdi: "Həsən bəyin şəxsində Azərbaycan gəncliyi Azərbaycan Parlamentarizminin, Azərbaycan demokratizminin təmsilçisini, rəhbər və qurucusunu itirmişdir. Və bu günün, istiqlal və cümhuriyyət hərəkatı liderlərinin idarəsi ilə mücadilə edən Azərbaycan gəncliyi sabahın dövlət həyatını düşünərkən necə Fətəli xanın fəaliyyətindən ilham almaq istəyirsə, dövlətin ən böyük və ən ali qanunverici, kontroledici və həyat yaradıcı müəssisəsi olan parlament və bu parlament sayəsində qurulacaq demokratik Cümhuriyyət həyatı üçün də Həsən bəy mərhumun buraxdığı müqəddəs xatirələrdən ilham almaqdadır.

**Həsən bəy Azərbaycan millətpərvərləri içərisində unudulmaz və unudulmayacaq və daima yaşayacaq müqəddəs bir xatirə buraxmışdır".**



**H.Ağayevin Tbilisidə məzarı.**

[19] R. Hüseynov. Millətin zərrəsi. B., 2001, s. 254.

# MƏHƏMMƏD HƏSƏN HACINSKİ

(1875 – 1931)



Tanınmış siyasi və ictimai xadim Məhəmməd Həsən Hacınski 1875-ci ildə Bakı şəhərində anadan olub. Əvvəl Bakı Realnı məktəbində, sonradan isə Peterburq Texnoloji İnstitutunda təhsil alıb.

1904-cü ildə RSDFP Bakı Komitəsi nəzdində yaradılan ilk Müsəlman Sosial-Demokrat təşkilatı Hümmətin yaradıcılarından olub.

M.H.Hacınskinin rəhbərliyi altında Bakıda Dənizkənarı bulvarda tikinti işləri aparılıb və 1911-ci ildə başa çatdırılıb.

M.H.Hacınski 1918-ci ilin aprelində yaranmış Zaqafqaziya Federativ Respublikası Hökumətində Ticarət və Sənaye naziri vəzifəsində çalışıb.

1918-ci ilin Mayın 28-də Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra o, F.X.Xoyskinin təşkil etdiyi birinci Hökumət kabinəsində Xarici İşlər naziri, ikinci Hökumət kabinəsində isə Maliyyə naziri vəzifələrini icra edib.

M.H.Hacınski N.Yusifbəylinin yaratdığı Hökumət kabinəsində az bir müddətdə (1920-ci ilin fevralın 18-dən) Ticarət, Sənaye və Ərzaq naziri olaraq da işləyib.

1920-ci ilin aprelin 1-də yeni Hökumət kabinəsini yaratmaq M.H.Hacınskiyə tapşırılsa da, o, bu işi yerinə yetirə bilməyib.

1920-ci ilin aprelində Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra, bir müddət Zaqafqaziya Dövlət Plan Komitəsində çalışsa da, sonradan həbs edilib və 1931-ci ildə Tiflis həbsxanasında həlak olub.

# XARİCİ İŞLƏR NAZİRİ

Azərbaycanın milli-demokratik dövlət quruculuğu tarixində tanınmış dövlət xadimi, **Azərbaycan Cümhuriyyəti dövründə ilk Xarici İşlər naziri olmuş Məhəmməd Həsən Hacınskinin** böyük xidmətləri vardır. Bu şəxsiyyət haqqında müxtəlif mənbələrdə müəyyən ziddiyyətli fikirlər söylənilsə də, lakin M.Hacınski vətənpərvər, millətini sevən, Azərbaycanın istiqlalı idealına sadiq olan bir şəxsiyyət idi. O, bütün bacarığı ilə Azərbaycanın müstəqil bir dövlət olaraq yaşamasına, bolşevik işğalından qorunmasına çalışsa da, buna nail olmamış, nəticədə müəyyən ümidlər bəslədiyi bir rejimin qurbanına çevrilmişdi.



**M.H.Hacınski gənclik illərində.**

**Məhəmməd Həsən Cəfərqulu oğlu Hacınski** 1875-ci ilin martın 3-də Bakıda anadan olmuşdur. Əvvəl Bakı Realnı məktəbində təhsil almış, 1902-ci ildə Peterburq Texnoloji İnstitutunda oxumuşdur. Təhsilini başa vurduqdan sonra bir müddət Moskvada qalmış, azərbaycanlı milyonçu Şəmsi Əsədullayevin neftayırma zavodlarının tikintisində çalışmışdır[1].

1903-cü ilin yanvarında M.H.Hacınski Bakıya qayıtmışdır. Bir müddət Ş.Əsədullayevin neft anbarlarına nəzarət edən idarədə çalışmışdır. Bir qədər sonra M.Hacınski Bakı şəhər idarəsində tikinti şöbəsinə rəhbərlik etmişdir.

1904-cü ildən isə onun fəal siyasi mübarizə dövrü başlayır. Belə ki, 1904-cü ilin sonlarında yaxın dostları Mirhəsən Mövsümov, Məhəmməd Əmin Rəsulzadə ilə birlikdə RSDFP Bakı komitəsi nəzdində Hümmət Müsəlman Sosial-Demokrat Təşkilatının və bir il ərzində cəmisi altı sayı nəşr edilmiş eyni adlı qəzetin yaradıcılarından biri olur[2].

Bu dövrdə M.H.Hacınski Bakı Şəhər İdarəsində də çalışır və Bakıda “Olimpiya” kinoteatrının, “Eldora

[1] M.Əliyev. Məmməd Həsən Hacınski. “Odlar Yurdu” qəzeti, №10, may 1989.
[2] N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 2012, s. 31.

do" restoranının, Dənizkənarı bulvarın tikilməsində dəyərli təkliflərini bildirirdi. Ümumiyyətlə isə Bakı şəhərinin layihələşdirilməsində və abadlaşdırılmasında M.Hacınskinin əvəzsiz xidmətləri olmuşdur.

1917-ci ilin iyun ayında M.Hacınski rəsmi olaraq Müsavat Partiyasının üzvü seçildi. Həmin dövrdə Bakıda Müsəlman İctimai-siyasi Təşkilatları İcraiyyə Komitəsinin iclasında yenidən yaradılan komitənin başçısı Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə və M.H.Hacınski isə onun müavinləri seçildi[3].

1917-ci ilin 11 noyabrında Tiflisdə Zaqafqaziya Komissariatı Müvəqqəti Hökuməti yaradıldı. Noyabrın 18-də fəaliyyətə başlayan hökumətdə Xudadat Məlikaslanov Nəqliyyat komissarı, Məmməd Yusif Cəfərov Ticarət və Sənaye komissarı, Xəlil bəy Xasməmmədov Dövlət nəzarəti komissarı, M.H.Hacınski isə Ticarət və Sənaye komissarının müavini kimi işə başladılar. Noyabrın 23-də isə Komissarlıq M.H.Hacınskini Türkiyəyə danışıqlara göndərdi. Artıq bu siyasi təmaslardan onun ciddi əlaqələri yaranırdı. Eyni zamanda M.H.Hacınski bu danışıqlar prosesində diplomatik təcrübə toplayırdı. Tezliklə M.H.Hacınskinin apardığı uğurlu danışıqlar öz bəhrəsini verdi. Vəhib Paşa ilə danışıqlardan sonra Osmanlı Türkiyəsi Zaqafqaziya Komissarlığını tanımaq qərarına gəldi.

1918-ci ilin fevralın 10-da Zaqafqaziya Seyminin 44 nəfər azərbaycanlı deputatdan ibarət olan Müsəlman fraksiyasında İrəvan quberniyasının Kəngərli və Uluxanlı kəndlərində ermənilərin törətdikləri qırğını araşdıran xüsusi iclasda M.H.Hacınski ayrıca məruzə etdi və bu məruzənin müzakirəsi aparıldı. Zaqafqaziya Seyminin komissiyalarından birinə M.H.Hacınski başçılıq etmişdir.

Sonradan ermənilərin 1918-ci ilin martında törətdikləri qırğında daşnakların və gürcü menşeviklərin münasibətinə etiraz edənlərdən və buna görə də Zaqafqaziya Seymindən çıxmaq məsələsini qaldıranlardan biri də M.H.Hacınski oldu. M.Hacınski Türkiyəyə qarşı Zaqafqaziya Seyminin "Silahlı müqavimət" təklifi ilə də razılaşmırdı.

1918-ci ilin 15 aprelində Acarıstanın Türkiyəyə birləşməsi reallığı ortalığa çıxanda Ə. Pepinovla birgə M.H.Hacınski Trabzonda Ənvər Paşa ilə danışıqlar apardı. Türklər bu danışıqlarda Batumun onlarda qalmasında israrlı idilər.

Bu danışıqlarla bağlı "Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1918-1920" kitabında belə məlumatlar vardır: "M.H.Hacınski gürcü-türk münasibətlərindəki düşmənçiliyi aradan qaldırmağın Batum məsələsindən asılı olduğunu bildirib, bu şəhərin gürcülərdə qalmasına çalışsa da, bunun əhəmiyyəti olmadı. Ənvər Paşa Türkiyənin Batuma olan hüququnun Rusiya hökuməti tərəfindən tanındığını qeyd edib bildirdi ki, ağılsız erməni siyasətinə uyub türklərə

[3] A. Dadaşov. Məhəmməd Həsən Hacınski. B., 2004, s. 106.

qarşı düşmənçilik mövqeyində durmasalar, Türkiyə Gürcüstanın azad şəkildə mövcud olmasını arzulayır və onu etibarlı qonşusu hesab edir"[4].

**Məhz həmin dövrdə Zaqafqaziya Seymində M.Ə.Rəsulzadə Müsavat Partiyası adından Bakının xarici casuslardan təmizlənməsi məsələsini qəti şəkildə qoydu.**

**1918-ci ilin 31 aprelində M.H.Hacınski Trapezund sülhməramlı nümayəndə heyətinin tərkibində Ənvər Paşa ilə danışıqlar aparırdı.**

**1918-ci ilin 11 mayında türklərlə danışıqlarda Zaqafqaziya nümayəndələri olaraq M.H.Hacınski və M.Ə.Rəsulzadə birgə iştirak edirdilər.**

Artıq bu görüşlərdə M.H.Hacınski peşəkar bir diplomat, xarici siyasətin incəliklərini öyrənən siyasi xadim olaraq formalaşırdı. O, Avropa dövlətlərinin daha çox Azərbaycanın nefti ilə maraqlandığını, bu bölgənin Türkiyənin nüfuz dairəsinə keçməsinə mane olduqlarını başa düşürdü.

1918-ci ilin mayın 26-da Seymdən çıxan gürcü deputatların öz müstəqil respublikalarını elan etməsi regionda yeni siyasi şərait yaratdı. Gürcüstan Seymdən çıxaraq, M.B.Məmmədzadənin yazdığı kimi, əvəzində Türkiyəyə qarşı torpaq bütövlüyünü qorumaq məqsədi ilə Almaniyanın himayəsinə daxil olmağı qərara aldı.

Transqafqaz Seyminin fəaliyyəti dayandırıldıqdan sonra 1918-ci ilin mayın 27-də buraya daxil olan Azərbaycan nümayəndələrinin fövqəladə iclası keçirildi və iclas Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürərək Azərbaycan müvəqqəti Milli Şurasını elan etdi. Sonra Milli Şuranın Sədri seçkisinə başlanıldı.

M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının Sədri seçildi. Elə həmin iclasda Milli Şuranın doqquz nəfərdən ibarət İcraiyyə Orqanı yaradıldı. F.X.Xoyski İcraiyyə Orqanının Sədri seçildi. F.X.Xoyski yaratdığı ilk Hökumət kabinəsinə M.H.Hacınskini də daxil etdi. Xarici siyasət sahəsində böyük təcrübəsi olan M.H.Hacınski Azərbaycanın ilk Xarici İşlər naziri təyin edildi.

Qeyd edək ki, Azərbaycan istiqlalının elan olunması günündə M.H.Hacınski və M.Ə.Rəsulzadə iştirak etmirdilər. Səbəbi – həmin hadisə ərəfəsində onların Batuma göndərilərək orada türklərlə danışıqlar aparması idi. Çünki Qafqazın müstəqilliyi ilə bağlı Batum danışıqlarına sülh heyəti göndərərkən (M.H.Hacınski və M.Ə.Rəsulzadə məhz bu heyətdə idi) Azərbaycan siyasi firqələrinin birləşmiş iclasında N. Yusifbəyli "Osmanlı dövlətindən yardım istəmək zərurəti"ni bildirmişdi.

Azərbaycan istiqlalı elan edildikdən sonra Zaqafqaziya hökumətinin Batumdakı sülh danışıqları aparan heyəti parçalandı.

[4] C. Həsənov. Azərbaycan Beynəlxalq münasibətlər sistemində: 1918-1920. B., 1993, s. 66.

**1918-ci ilin iyunun 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasındakı dostluq müqaviləsi"ni Türkiyə dövləti adından Ədliyyə naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin Baş komandanı Vəhib Paşa, Azərbaycan hökuməti adından isə Xarici İşlər naziri M.H.Hacınski və Milli Şuranın Sədri M.Ə.Rəsulzadə imzaladı**[5].

**Azərbaycan Respublikası nümayəndələrinin imza atdığı ilk sənəddə hər iki dövlətin Osmanlı imperiyası ilə Azərbaycan hökuməti arasında "Siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməkdə" qarşılıqlı surətdə razılığa gəlindiyi bildirilirdi.**

**M.H.Hacınskinin də imza atdığı sənədin birinci maddəsi belə idi: "Osmanlı imperatorluğu ilə Azərbaycan Respublikası hökuməti arasında daima sülh və möhkəm dostluq olacaqdır".**

**Sənədin 4-cü maddəsində isə yazılmışdı: "Dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün, əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür"**[6].

Qeyd edək ki, Azərbaycan Nazirlər Şurasının Sədri F.X.Xoyskinin tapşırığı ilə Azərbaycan istiqlalını əks etdirən mətnin ayrı-ayrı dillərdə dünya ölkələrinə yayılması o dövrdə Batumda Osmanlı Türkiyəsi ilə rəsmi danışıqlar aparan M.H.Hacınskiyə tapşırıldı. Bu məlumat M.H.Hacınski tərəfindən Batumdakı Türkiyənin informasiya mərkəzindən İstanbul radiosuna, oradan isə bütün dünyaya yayıldı.

1918-ci ilin iyununda Türk qoşunları Gəncəyə gələrkən Nuru Paşa ilə baş verən müəyyən anlaşılmazlıqların aradan qaldırılmasında M.H.Hacınski əhəmiyyətli rol oynadı. Milli Şuranın Gəncədə keçirilən ilk iclasında isə bəziləri "Nuru Paşa Azərbaycanın müstəqilliyini istəmir" deyəndə, M.H.Hacınski fikrini belə bildirmişdi: "Biz fikrimizi müəyyənləşdirmişik. Onlar yalnız müstəqil Azərbaycan hökumətinin qurulmağını istəyirlər. Onlar bizim işlərimizə qarışmaq fikrində deyillər"[7].

Problemi həll etmək üçün M.H.Hacınski, M.Ə.Rəsulzadə və F.X.Xoyskidən ibarət bir heyət Nuru Paşa ilə görüşüb anlaşmağa çalışdı. Nuru Paşa isə onlara siyasi müşaviri Ə. Ağaoğlu ilə danışıqları daha vacib saymışdı.

Vəziyyətin gərginliyini nəzərə alıb, N.Yusifbəylinin təklifi ilə Milli Şuranın 1918-ci il 17 iyun tarixli iclasında F.X.Xoyskinin ikinci Hökumət kabinəsi təşkilinin

---

[5] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 2, i. 88, v. 1-2.
[6] Yenə orada.
[7] N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991, s. 82.

razılığı əldə olundu. Bu hökumətdə də M.H.Hacınski Xarici İşlər naziri vəzifəsini icra etdi.

M.H.Hacınskinin Azərbaycan Cümhuriyyəti hökumətinin Fövqəladə İstintaq Komissiyasının yaradılması ilə bağlı hökumətə iyulun 15-də Yelizavetpolda (Gəncədə) yazdığı məktubda bolşeviklərin və erməni hissələrinin törətdikləri qətllərdən, cinayətlərdən bəhs edilirdi: "Artıq dörd aydır Azərbaycanın ərazisi kimi qəbul edilən yerlərdə bolşevik adı ilə quldur dəstələri və erməni hərbi hissələri dinc müsəlman əhalisinin həyatına və əmlakına qarşı vəhşiliklər törədirlər. Eyni zamanda Avropa ictimaiyyətinə bu dəstələr tərəfindən göndərilən qeyri-obyektiv məlumatlar çatdırılır. Ümumdövlət və əzab çəkən əhali qrupunun maraqları naminə aşağıdakı işləri görəcək təşkilat yaradılmalıdır: 1) Əhaliyə qarşı törədilən zorakılığın dəqiq qeydə alınması; 2) Bu zorakılığın baş verdiyi şərait; 3) Günahkarların müəyyənləşməsi və dəyən ziyanın müəyyənləşməsi.

Yaradılan bu təşkilat Fövqəladə İstintaq Komissiyası xarakteri daşımalıdır və bu komissiyanın gördüyü işlər əsas Avropa dillərində geniş yayılmalıdır (Rus, Fransız və alman, yəqin ki, türk dilində də).

Bu komissiyanın yaradılmasına indidən başlamaq lazımdır: nə qədər izlər itməyib. Adamlar sorğu-suala tutulmalı, fotolar çəkilməli, digər sübutlar toplanılmalıdır. Əks halda sonradan mümkün olmayacaq.

Əgər hökumət bu məqsədlə razılaşarsa, onda mən bu komissiyanın təşkilinə və xərclərinə 50 000 (əlli min) rubl ayrılması ilə bağlı nazirlərin birindən xahiş edə bilərəm. Xarici İşlər Naziri M.H.Hacınski. Yelizavetpol, 15 iyul 1918-ci il"[8].

M.H.Hacınski Azərbaycan Cümhuriyyətinin ilk aylarında böyük fəallıq göstərirdi. Onun 1918-ci ilin iyulunda İstanbula – Azərbaycan Nümayəndə Heyətinin Sədri M.Ə.Rəsulzadəyə göndərdiyi məktubda yazılmışdı: "Bu gün gürcülər bizə hərbi dəstələrimizin Qarayazı kəndindən çıxarılması ilə bağlı ultimatum veriblər. "Vəhşi Diviziya"nın dəstələri çoxdan orada dayanırdılar. Gürcülər isə Qarayazını öz ərazilərinin bir hissəsi sayırlar. Onlar bu işi silah gücü ilə həll etmək arzusundadırlar. Gürcülərin bütün məsələlərdə bizə münasibəti gülməlidir. Biz Gürcüstana, Avstriyaya, Almaniya və Türkiyəyə etiraz göndərdik. Silahlı toqquşma mümkündür. Bir neçə dəfə konfrans təşkil olunmasını təklif etmişik. Əgər söhbət Konstantinopolda sərhədlərin müəyyənləşməsindən gedirsə, onda biz yazılı şəkildə Borçalı, Siqnax, Zaqatala və Tiflisin, Qazaxın bəzi yerlərinin Azər-

[8] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 1061, s. 1, i. 8, v. 3.

baycana birləşdirilməsi məsələsini qoyuruq. Əgər bu sənədlərə ehtiyac varsa, onları Sizə göndərə bilərik. Xarici İşlər naziri Hacınski"[9].

**Azərbaycan Nazirlər Şurasının Sədri F.X.Xoyski mayın 29-da Batuma – M.H.Hacınskiyə Azərbaycan istiqlalının elanı mətninin tərcümə edilib, dünyaya yayılması haqqında belə məktub göndərmişdi: "Çox hörmətli Məhəmməd Həsən! Burada bizə Azərbaycanın istiqlalı ilə bağlı teleqramın göndərilməsinə müxtəlif maneçiliklər törədirlər. Teleqramın rus və fransız dillərində olan mətnini Sizə göndərirəm ki, orada radio ilə birbaşa xətlə Konstantinopola ötürüb yaysınlar. Teleqramı Xarici İşlər naziri kimi özünüz imzalaya bilərsiniz. Nəsib bəy və Sultanov informasiya toplamaq və xalqı hazırlamaq üçün Yelizavetpola** (Gəncəyə – red.) **getdilər. Ermənilərlə bütün mübahisələri həll edib bitirdik, onlar ultimatumu qəbul edib, mübahisəni qurtaracaqlar. Biz İrəvanı güzəştə getdik.**



**M.H.Hacınskinin şəxsi imzası olan məktub.**

Müstəqillik haqqında teleqramı Tiflisdən alan kimi Konstontinopola ötürün. Əgər mümkünsə, teleqramın ötürülməsi və ona Türkiyənin münasibəti haqqında bizi məlumatlandırın.

Teleqramın fransız dilindəki mətninə hökumətin müvəqqəti yerləşəcəyi yerin Yelizavetpol olacağını əlavə edin. Sizin Xoyski"[10].

Bu dövrdə cümhuriyyəti qurucularını, eləcə də M.H.Hacınskini narahat edən başlıca problem Bakının xəyanətkar qüvvələrdən azad edilməsi idi. Tanınmış dövlət xadimi M.Ə.Rəsulzadənin həmin dövrdə M.H.Hacınskiyə yazdığı məktubun da böyük tarixi əhəmiyyəti vardır. O, yazırdı: "Xarici İşlər naziri cənab Məhəmməd Həsən Hacınskiyə. Mən bir daha Tələt Paşa və Ənvər Paşa ilə görüşdüm. Sual çox qaranlıq idi. Hər şey keçdi, onlar mənə ümid verdilər. Mən alman səfiri Berkdorfolmla görüşdüm. Bakının neytral olması xəbərini qəzetə məlumat verən Tiflis nümayəndəliyindəki bir məmurdan öyrəndim. Hər ehtimala

[9] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 66, v. 20.
[10] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 4, v. 1-2.

qarşı Bakı məsələsi əhəmiyyət kəsb edir. Azərbaycanın səlahiyyətli nümayəndəliyinin sədri M.Ə.Rəsulzadə”[11].

Sonra M.Ə.Rəsulzadə qətiyyətlə bildirirdi: “Nəyin bahasına olursa-olsun, Bakını tutmaq lazımdır”.

**1918-ci ilin sentyabrın 15-də qəhrəman türk əsgərləri Nuru Paşanın** komandanlığı altında Bakını azad etdilər. Təbii ki, bu tarixi hadisənin baş verməsinin diplomatik cəbhəsindəki qələbəni təmin edənlərdən biri M.H.Hacınski idi.

Eyni zamanda, M.H.Hacınski Azərbaycan Parlamenti tərəfindən Avropaya – Paris Sülh Konfransına göndərilən Nümayəndə Heyəti Sədrinin müavini idi (sədr Ə.M.Topçubaşov idi). Qeyd edək ki, Azərbaycan Parlamenti tərəfindən Avropaya və Azərbaycan tərəfindən Paris Sülh Konfransına göndərilən, 1919-cu ilin yanvarın 9-da Bakı Dəmiryolu vağzalından yola salınan heyət aşağıdakılardan ibarət idi: Dövlət Müfəttişi, Müsavat üzvü Məhəmməd Həsən Hacınski, parlament üzvü və mətbuat xadimi Əhməd bəy Ağayev, parlament üzvü və sosialist Hümmət Partiyasının başçısı Əkbər ağa Şeyxülislamov, “Azərbaycan” qəzetinin baş redaktoru Ceyhun Hacıbəyli, sosialistlərdən Məmməd Məhərrəmov və Miryaqub Mehdiyev. Tanınmış ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşov əvvəlcədən İstanbula getmişdi.

Yola salınma mərasimində Nazirlər Şurasının Sədri F.X.Xoyski, nazirlər, parlament üzvlərinin çoxu, fraksiya və partiya rəhbərləri iştirak edirdi. Yola salınma mərasimində ilk olaraq M.Ə.Rəsulzadə, sonra Ə. Cövdət, heyət adından isə Ə.Ağaoğlu çıxış etdilər.

M.H.Hacınskinin F.X.Xoyskiyə Batumdan yanvar ayında yazdığı ilk məktubda belə narahatlıq dolu məqamlar vardı: “Çox hörmətli Fətəli xan! Biz yanvarın 11-də buraya gəlib çatsaq da, 17-nə qədər hələ getməyimiz mümkün olmayıb. Deyilənə görə, sabah yola düşməliyik. Erməni nümayəndələri hiyləgərlik edib hissələrə bölünüb, kiçik gəmilərdə yola düşdülər. Gürcülər buradadır, bizimlə gedəcəklər.

Fətəli xan, hələ Bakıdan Nümayəndə Heyətimizin zəifliyi hiss olunmaqdadır. Bizim qonşular göndərdiyi 12-lik heyətə ən məşhur xadimləri və məsləhətçiləri daxil ediblər. Hələ baxmayaraq ki, onların Parisdə, Londonda öz adamları və komitələri var. Siz Nümayəndə Heyətinin maliyyə cəhətdən möhkəmləndirilməsi haqqında fikirləşməlisiniz: ermənilərdə 10 milyon rubl, gürcülərdə də 5

[11] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 153, v. 19.

milyon var. Deyirlər ki, yetərincə maliyyə olmasa, orada heç bir iş həyata keçirə bilməzlər. Hörmətlə, Hacınski. Dostlara salam"[12].

M.H.Hacınski 1919-cu ilin yanvarın 27-də Nazirlər Şurasının Sədri və Xarici İşlər naziri F.X.Xoyskiyə aşağıdakı məzmunda məktub göndərmişdi: "Çox hörmətli Fətəli xan! Bu gün yanvarın 27-sidir və biz hələ burada nə zaman gedəcəyimizi bilmirik. Yəqin teleqramlarda oxudunuz ki, müttəfiqlər Rusiya ərazisində formalaşmış dövlətlərə "Prinssevix" ("şahzadə" – red.) adalarına gedib, orada Fransa, İngiltərə, Amerika və İtaliyanın xüsusi nümayəndələri ilə konfrans keçirməyi təklif ediblər. Bu, hələlik rəsmi təsdiq olunmayan teleqraf məlumatlarıdır və rəsmi olaraq hələ heç kim heç nə bilmir. Hər ehtimala qarşı, hadisənin belə olacağını qəbuledilməz sayırıq. Fətəli xan, mən Sizə hələ Batumdan Nümayəndə Heyətimizin zəifliyi haqqında yazmışdım. Konstantinopolda isə vəziyyətimiz daha da ağırlaşdı: Əhməd bəy Ağayev ciddi xəstələndi və bundan başqa ingilislər onun getməyinin əleyhinədirlər. Onun əleyhinə burada mətbuatda böyük kampaniya qaldırdılar. Necəliyindən asılı olmayaraq o, getməyəcək. Sonra Bakıda, biz güman edirdik ki, katiblərin və bəzi mütəxəssislərin ştat sayını Konstantinopolda artırmaq mümkün olacaq. Xəlil bəy də bizə belə məsləhət görmüşdü. Belə göründü ki, türklər buradan getməyə icazə vermirlər.


отношенія тоже не плохое. Есть слухъ, что Чхеидзе и Церетели
не будутъ пропущены въ Парижъ. Настроеніе у турокъ самое подав-
ленное. Турецкой власти въ Константинополѣ фактически нѣтъ.
Переживаемый моментъ есть сплошное оскорбленіе ихъ національно-
го самолюбія.
Фатали-Ханъ,, еще разъ прошу подумать объ усиленіи делегаціи:
Вы и остальные члены делегаціи что слишкомъ легко относились
къ делегаціи. Между тѣмъ всѣ народы посылаютъ туда въ большомъ
количествѣ самыхъ сильныхъ людей. Вѣдь предстоитъ большая борь-
ба.
Всего хорошаго. Привѣтъ товарищамъ. М. Гаджинскій.
Константинополь 27 января.

**M.H.Hacınskinin F.X.Xoyskiyə məktubu.**
**İstanbul, 27 yanvar 1919-cu il.**

Yeganə çıxış yolu – Bakıdan Babuşovun (Behbudov), olsun ki, Zeynal Tağıyevin göndərilməsidir. Düşünürəm ki, Ağayevin əvəz edilməsi üçün bu, mütləq lazımdır. Bu, mənim şəxsi fikrimdir. Nümayəndə Heyəti hələ bu məsələni müzakirə etməyib. Hər ehtimala qarşı Ağayevi kimsə əvəz etməlidir. Ermənilərin burada vəziyyəti çox yaxşıdır. Onlara müttəfiqlərin razılığı kimi yanaşırlar. Onlar,

[12] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 907, s. 1, i. 5, v. 6-7.

əlbəttə, zadrali nos (burunlarını sallayıblar). Bizə münasibətləri də pis deyil. Belə şayiə gəzir ki, Çxeidze və Sereteli Parisə buraxılmayacaqlar. Türklərin əhvalları yaxşı deyil. Konstantinopolda Türkiyə hakimiyyəti, demək olar ki, yoxdur.

Fətəli xan, xahiş edirəm Nümayəndə Heyətinin güclənməsi haqqında bir daha düşünəsiniz. Siz və heyətin digər üzvləri Nümayəndə Heyətinə yüngül yanaşdınız. Başqa xalqlar oraya daha çox sayda və güclü adamlarını göndərir. Axı qarşıda böyük mübarizə durur.

Sağ olun. Dostlara salamlar. M.H.Hacınski. Konstantinopol, 27 yanvar"[13].

M.H.Hacınski həmin dövrdə dövlət üçün böyük əhəmiyyəti olan tədbirlərdə iştirak edirdi.O,bir müddətdən sonra Parisdən Bakıya qayıtmışdı.

1919-cu ilin dekabrın 9-da Dövlət Müdafiə Komitəsi Azərbaycan – Ermənistan Konfransında iştirak etmək üçün Azərbaycan Respublikası hökumətinin üzvlərini müəyyənləşdirdi. Həmin şəxslər sırasında M.H.Hacınski də vardı. Dövlət Müdafiə Komitəsinin sənədindən: "Eşidildi: Dövlət Müdafiə Komitəsinin Sədrinin Azərbaycan – Ermənistan Konfransına nümayəndələrin təyin edilməsi haqqında məruzəsi; Qərara alındı: Azərbaycan – Ermənistan Konfransına Azərbaycan hökumətindən aşağıdakı üzvlər təyin edilsin: Fətəli xan Xoyski, Məhəmməd Həsən Hacınski və doktor Məmməd Rza bəy Vəkilov. Dövlət Müdafiə Komitəsinin katibi"[14].

1919-cu ilin dekabrın 24-də N. Yusifbəylinin təşkil etdiyi ikinci Hökumət kabinetində M.H.Hacınski Daxili İşlər naziri təyin edildi.

Qeyd edək ki, M.H.Hacınski Azərbaycan Cümhuriyyəti dövründə aşağıdakı sahələrə başçılıq etmişdir: "1) 6 oktyabr 1918-ci ildə F.X.Xoyskinin başçılığı ilə kabinetdaxili dəyişikliklərdən sonra – Maliyyə naziri; 2) 26 dekabr 1918-ci il – 14 mart 1919-cu illərdə –Dövlət müfəttişi; 3) 24 dekabr 1919-cu il – 1 aprel 1920-ci illərdə əvvəl Daxili İşlər naziri, sonradan isə Ticarət, Sənaye və Ərzaq naziri.

**1920-ci ilin martın 30-da N.Yusifbəylinin başçılıq etdiyi Hökumət kabinəsi istefaya çıxdığına görə, yeni Hökumət kabinəsinin təşkili aprelin 1-də M.H.Hacınskiyə tapşırıldı. O, yeni Hökumət kabinəsini formalaşdırmaq üçün parlamentdə təmsil olunan bütün partiya və fraksiyaların liderləri ilə, eyni zamanda bolşeviklərlə də danışıqlar apardı. Onun məqsədi – Bakı üzərinə hücuma hazırlaşan XI Qızıl Ordunu gecikdirmək, Qarabağda ermənilərin qiyamını yatırtmağa getmiş Azərbaycan Ordusunun Bakıya**

---

[13] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 5, v. 3-4.

[14] Yenə orada, i. 35, v. 18.

**qayıdışını təmin etmək idi** (bəzi mənbələrdə M.H.Hacınskinin bu planını xəyanət kimi təqdim edirlər).

M.H.Hacınski bolşeviklərdən rədd cavabı aldıqda, aprelin 22-də Azərbaycan Parlamentinin Sədrini əvəz edən M.Y.Cəfərova yeni Hökumət kabinəsi yaratmağın qeyri-mümkünlüyünü bildirdi[15].

O, eyni zamanda Müsavat Partiyasından çıxdığını, bolşeviklər partiyasının üzvü olduğunu elan etdi[16].

1920-ci ilin aprelin 27-də Azərbaycan Parlamentinin son iclası oldu. İclasa sədrliyi M. Y. Cəfərov, katibliyi R. Qaraşarlı edirdi. M.Y.Cəfərov mövcud vəziyyətlə əlaqədar partiyalarla, o cümlədən kommunistlərlə danışıqlar aparmaq üçün yaradılmış komissiyanın izahatının müzakirəyə qoyulacağını dedi və əlavə etdi ki, iclasın qapalı, yaxud açıq keçirilməsinə münasibət bildirilsin.

M.Ə.Rəsulzadənin təklifi ilə iclasın açıq keçirilməsi qərara alındı.

Komissiyanın sədri M.H.Hacınski parlamentdə son çıxışını etdi: "Əfəndilər! Vəziyyət hamıya məlumdur və bu barədə danışmaq istəmirəm. Bir komissiya təklif olunmuşdur və mən onun sədriyəm. Arkadaşlarla bərabər biz yerli kommunist firqəsi nümayəndələri ilə müzakirəyə girişdik. Burada olan Azərbaycan kommunist firqəsindən bir məktub gəlib. Bu məktubun məzmununu hamı bilir. Lakin onu təkrarən oxuyuram (rusca oxuyur – red.). Tərcümə etmək lazımdır ki, müxtəsər tərcümə edirəm. Mərkəzi Azərbaycan kommunist firqəsi bizə təklif edir ki, axşam saat 7-yə qədər hökuməti onlara təslim edək. Bununla belə əmin edirlər ki, onların şərtlərini qəbul etsək, Qızıl Ordu əsla Bakıya gəlməyəcək və Qızıl Ordunun Bakıya gəlməməsi üçün onlar əllərindən gələni edəcəklər. Onlar deyirlər ki, hökumət Azərbaycan kommunistlərinin əlində olarsa, Qızıl Ordu heç bir vədə buraya gəlməyəcək. Hökumət mexaniki surətdə təslim edilməlidir. Nə kimi məmurlar varsa, hamı öz yerlərində qalacaqlar. Yalnız hökumət başında olanlar kənar edilib, yerlərinə Azərbaycan kommunistləri keçir və müsəlmanlardan başqa orada kimsə yoxdur.

Altıncı şərtləri budur: "Əgər bu gecə bu məsələ həll olunarsa, onlar bir bəyanat çıxarırlar ki, Azərbaycan Parlamentinə daxil olan siyasi firqələr musəvi (bərabər) və azad fəaliyyət göstərəcəklər. Onlara qarşı və xüsusən, hökumət üzvlərinə qarşı heç bir xüsusi tədbir görülməyəcək və onlar təqib olunmayacaqlar.

---

[15] M. Əliyev. Məmməd Həsən Hacınski. "Odlar Yurdu" qəzeti, №10, may 1989.
[16] Yenə orada.

Sonra gələn Qızıl Ordunun məqsədləri məzlum millətə yardım etməkdir. Biz tərəfdən də bir neçə təklif verildi. Lakin onlar qəbul etmədilər"[17].

M.H.Hacınski bolşeviklərin verdiyi vədlərə sanki inanmayaraq bu qeydini də edirdi: "O ki qaldı dedikləri sözlərin doğru olub-olmamasına, bunu onların görəcəyi iş göstərir və bunun məsuliyyəti də həmin təklifi verən firqənin üzərinə düşür"[18].

**M.H.Hacınski çıxışında bolşeviklərin mövqeyindən həm də narazılığını bildirdi: "Lakin deyirlər ki, belə bir fikirlərlə xalqımızın əksəriyyətinin etimadını qazanmaq olar və onların vəzifələri – Azərbaycandan keçib, Türkiyəni zalım imperialistlərdən azad etməkdir. Əgər məqsəd budursa, Şimaldan gələn qüvvələrin təzyiqi altında hökuməti təslim etməyə nə ehtiyac var?"[19].**


M.H.Hacınski həbsxanada (sovet dövründə).

M.H.Hacınski sonda bolşeviklərə öz mövqeyini belə çatdırdı: "Fəqət, millətin müqəddəratını bir firqəyə, hətta təzyiq altında belə vermək olmaz. Zira hər kəs, o cümlədən kommunist firqəsi də tamamilə əmin ola bilər ki, parlament vasitəsi ilə, yaxud başqa bir mütəşəkkil vasitə ilə öz fikirlərini deyə bilər və qəbuluna da nail olarlar. Əgər bu, həyata keçirilərsə, Azərbaycan özünü azad hesab edə bilər"[20].

Azərbaycanda hakimiyyəti ələ keçirən bolşeviklər isə vədlərinə əməl etmədilər, parlamentin fəaliyyətini dayandırıb, ölkədə bir ideologiyanın hegemonluğuna əsaslanan, yalnız Kommunist Partiyasının fəaliyyətinə icazə verilən sovet rejimini yaratdılar.

---

[17] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 973.
[18] Yenə orada.
[19] Yenə orada.
[20] Yenə orada, s. 974.

Azərbaycanın işğalından sonra M.H.Hacınski Zaqafqaziya Dövlət Plan Komitəsi Sədrinin birinci müavini olaraq çalışdı. O, bu vəzifədə olarkən Azərbaycanda şəhərlərin abadlaşması istiqamətində müəyyən işlər gördü. Həmin dövrdə yazdığı məqalələrdə Gəncənin və yeni salınacaq Daşkəsən şəhərinin Azərbaycan sənayesi üçün əhəmiyyətini açıqladı. M.H.Hacınskinin 1920-ci illərdə sovet mətbuatında çoxlu məqalələri çap olundu[21].

Vəzifəyə təyin olunduqdan sonra M.H.Hacınski ailəsi ilə birlikdə Tiflisə köçdü. **1930-cu ilin 3 dekabrında M.H.Hacınskini Tiflisdə yaşadığı Maçabeli (keçmiş Sergiyevski) küçəsindəki 15 saylı mənzilində həbs etdilər.** M.H.Hacınski həbs edilərkən ona qarşı aşağıdakı ittihamlar irəli sürüldü:



M.H.Hacınskinin ölümündən sonra qalan ailəsi.

"a. Əksinqilabi Azərbaycan Milli Mərkəzinin (AMM) yaradıcısı, onun MK-sinin, sonra isə təşkilatın Zaqafqaziya Komitəsinin üzvü olmuşdur;

b. AMM-in rəhbəri olmaqla əksinqilabi mühacir dairələrlə əlaqə saxlamış, onlardan təşkilatın işi üzrə göstərişlər almışdır;

v. Gürcüstan və Ermənistanın millətçi təşkilatları ilə birgə, təşkilatın ziyankarlıq işlərini koordinasiya etmiş, təşkilatın ittifaq üzrə sənaye və kənd təsərrüfatında ziyankarlıq işlərini müəyyənləşdirmiş, üsyançı təşkilatçılara ümumi rəhbərlik etmiş, onu gözlənilən xarici müdaxilə üçün hazırlamışdır;

[21] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 63.

q. AMM-in Xarici Mərkəzinin əksinqilabi göstərişlərini birbaşa yerinə yetirmiş və təşkilatın millətçi tədbirlərinin ruhlandırıcısı olmuşdur"[1].

Dövlət Təhlükəsizlik Xidmətinin arxiv sənədlərində xaricdəki mühacirətlə əlaqənin ən çox M.Hacınski tərəfindən həyata keçirildiyi haqda məlumatlar vardır. M.Hacınskinin daha çox Ə.M.Topçubaşovla əlaqələri, 1930-cu ilin payızında ondan 40.000 rubl həcmində vəsait alması, bu pulun təşkilat üzvlərinin rayonlara gedib təbliğat aparmaları üçün ayrılması haqqında istintaq prosesində sorğu-suallar aparılır[2].

Sovet həbsxanalarında cəza üsulları ilə insanlardan müxtəlif faktların (olub, yaxud olmayıb) alınması şübhə doğurmasa da, bu rejimin devrilməsi üçün Azərbaycan daxilində və mühacirətdə fəaliyyətin aparılması mümkün idi. Bu mənada M.Hacınski və digər Cümhuriyyət qurucuları sonradan, yəni sovet rejiminin işğalçı xarakterini real həyatda gördükdən sonra mücadilə aparırdılar.

M.H.Hacınski həbsxanadan ailəsinə və uşaqlarına göndərdiyi son məktubunda (8 fevral 1931-ci il) yazırdı: "Mənim yazıq yetimlərim, ananızı incitməyin, ona qulluq edin. Mənə heç nə göndərməyin, burada hamısı var. Pianinonu satın, ac qalmayın"[3].

**Həbsxana həyatının ağırlığına, istintaq sorğularının üzüntülü olmasına, çox ehtimal ki, verilən işgəncələrə, ümumilikdə, sovet rejiminin haqsızlığına dözməyən M.H.Hacınski 1931-ci ilin fevralın 9-da mələfədən hazırladığı kəndirlə kamerada özünü asdı.**

M.H.Hacınskinin ölümündən sonra həyat yoldaşı Səadət xanım (o, 1972-ci ilə kimi yaşayıb) atasız qalan altı uşağı (Şamil, Nuşirəvan, Minurə, Tofiq, Muxtar və Murad) çətinliklə saxlamaq məcburiyyətində qaldı.

---

[1] L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 254.

[2] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PR 28006 saylı Əhməd bəy Pepinova aid istintaq işi, v. 76.

[3] A. Dadaşov. Məhəmməd Həsən Hacınski. B., 2004, s. 179.

# MƏMMƏD YUSİF CƏFƏROV

(1885 – 1938)



Azərbaycanın görkəmli dövlət xadimi Məmməd Yusif Cəfərov 1885-ci ildə Bakıda anadan olub. M.Y.Cəfərov orta təhsilini Bakıda aldıqdan sonra, Moskva Universitetinin hüquq fakültəsində oxuyub. O, 1912-ci ildə Moskva Universitetini fərqlənmə diplomu ilə bitirib və "Nikahın şəriət üzrə pozulması haqqında rəy" mövzusunda dissertasiya müdafiə edərək, hüquq elmləri namizədi elmi adını alıb.

M.Y.Cəfərov 1912-ci ildə Peterburqda açılan 4-cü Dövlət Dumasına Bakı, Gəncə və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən deputat seçiib.

1918-ci ilin Mayın 28-də Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra M.Y.Cəfərov F.X.Xoyskinin təşkil etdiyi birinci kabinədə Ticarət və Sənaye naziri, ikinci kabinədə isə Azərbaycan Cümhuriyyətinin Gürcüstanda diplomatik nümayəndəsi vəzifəsini icra edib.

1919-cu ilin martın 14-də Nazirlər Şurasının Sədri N.Yusifbəylinin yaratdığı IV hökumət kabinəsində M.Y.Cəfərov Xarici İşlər naziri təyin olunub.

M.Y.Cəfərov Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra Pambıqçılıq trestində və Azərbaycan Şərabçılıq trestində hüquq məsləhətçisi olaraq çalışsa da, istintaqa cəlb edilib.

M.Y.Cəfərov 1938-ci ildə Bakıda vəfat edib.

# TİCARƏT VƏ SƏNAYE NAZİRİ


M.Y.Cəfərov.

Azərbaycanın görkəmli dövlət xadimi M.Y.Cəfərov Azərbaycan istiqlalı elan edildikdən az müddət sonra F.X.Xoyskinin təşkil etdiyi birinci hökumət kabinəsində Sənaye və Ticarət Naziri vəzifəsini qısa müddətə icra etmişdir. O, 1918-ci ilin iyununda formalaşan ikinci kabinədə Azərbaycanın Gürcüstandakı diplomatik təmsilçisi olaraq çalışmışdır[1]. M.Y. Cəfərov bu müddətdə, gürcülərlə yaxından təmasda olmuş, danışıqlarda iştirak etmişdir. Onun 1918-ci ilin 21 iyununda Zaqafqaziya Federativ Respublikasının əmlakının bölüşdürülməsi ilə bağlı Gürcüstan Respublikası ilə apardığı danışıqlar haqqında Xarici İşlər nazirinə yazdığı məlumatlarda maraqlı faktlar vardır. O, qeyd edirdi ki, Gürcüstan hökumətinin sədri ilə görüşüb və danışıqlarda gürcülərin Azərbaycanla münasibətləri yaxşılaşdırmaqda maraqlı olduğu qənaətinə gəlibdir. Danışıqlarda Zaqafqaziyanın əmlakının bölüşdürülməsində gürcülərin Azərbaycana və Ermənistana müxtəlif münasibətlərinin olduğu qeyd edilib. Gürcüstan rəsmisi N.V.Ramişvili M.Y.Cəfərovu məlumatlandırıb ki, almanlar Bakıya doğru hərəkət edib nefti, neft məhsullarını əldə etmək istəyirlər. Bundan ötrü onların 2500 silahlı adamı var və bir alayın da gəlməsi gözlənilir[2].

1918-ci ilin avqustun 15-də M.Y.Cəfərov Tiflisdə Ermənistan Respublikasının nümayəndəsi A.Camalyana ermənilərin törətdiyi qanunsuzluqlarla bağlı nota göndərdi. Həmin notada qeyd olunurdu: “Hökumətimin tapşırığı ilə Sizə bildirirəm ki, Azərbaycan hökumətinin məlumatına əsasən Andronikin dəstəsindən olan erməni hərbi hissələri Azərbaycan hüdudlarına doğru hərəkət edərək, Şuşa – Əskəran yolunu və Zəngəzurda Gorus yolunun bir hissəsini tutublar. Erməni hərbi hissələrinin belə hərəkətləri Azərbaycan Respublikasına qarşı düşmənçilik faktıdır və sonrakı dövrdə iki respublika arasında dostluq münasibətlərinin saxlanılmasına imkan yaratmır.

[1] M. Əliyev. Məmməd Yusif Cəfərov. “Odlar Yurdu” qəzeti, iyul 1989, №13.
[2] Azərbaycan Respublikası Dövlət Arxivi , f. 897, s. 1, i. 11, v. 3.

Öz hökumətim adından erməni qoşunlarının Azərbaycan ərazisinə silahlı müdaxiləsinə ciddi etiraz edir, qarşılıqlı dostluq münasibətlərinin saxlanılması daxilində təcili olaraq hərbi hissələrinizi Azərbaycan hüdudlarından çıxarmağınızı xahiş eirəm. Əks halda Azərbaycan Respublikası sonra baş verəcək hadisələrin məsuliyyətini öz üzərindən götürür və bu məsuliyyətin Ermənistan Respublikası üzərində qaldığını bildirir”[3].



**M.Y.Cəfərov III Dövlət Dumasının üzvü olarkən.**

M.Y.Cəfərov Gürcüstanda çalışdığı dövrdə Borçalı bölgəsində yaşayan azərbaycanlıların vəziyyəti ilə ciddi maraqlanırdı. Bu bölgədə yaşayan əhaliyə qarşı ermənilər tərəfdən zorakılıq halları tez-tez baş verir və insanlar əziyyət çəkirdi. Bundan ötrü M.Y.Cəfərov borçalılara münasibətin tədqiqi ilə bağlı beynəlxalq komissiyanın çağırılmasını təklif edirdi. Bundan ötrü o, Almaniya hökumətinin Qafqazdakı təmsilçisi general-mayor Von Kressi ilə görüşüb, həmin təklifi etməyi vacib sayırdı[4].

M.Y.Cəfərov 1918-ci ilin 10 sentyabrında Gürcüstan Respublikasının Xarici İşlər naziri Qvardeladzeyə rəsmi olaraq bildirdi ki, Bakı şəhərinin azad edilməsi əməliyyatında burada yaşayan bütün əhali ilə yanaşı, gürcülərin də təhlükəsizliyi təmin ediləcəkdir.

1918-ci ilin noyabrın 14-də Tiflisdə Zaqafqaziya Konfransı keçirildi və M.Vəkilovla birlikdə M.Y.Cəfərov da tədbirdə iştirak etdi. Konfransda Azərbaycan Respublikasından başqa Gürcüstan Respublikasının və Şimali Qafqazın nümayəndələri də təmsil olunurdu.

Konfransda M.Y.Cəfərov təklif bildirdi ki, ermənilər iştirak etmədiklərinə görə bu konfrans saxlanılsın və ayrıca üç respublikanın tədbiri olaraq keçirilsin. Lakin gürcülərdən Ramişvili, Şimali qafqazlılardan Koçev bu təkliflə razılaşmadığından konfransın davam etdirilməsi məqsədəuyğun sayıldı.

1918-ci ilin sentyabrın 15-də Qafqaz İslam Ordusunun və Azərbaycan döyüşçülərinin böyük fədakarlığı ilə Bakı şəhəri düşmənlərdən azad edildi. Bu ha-

[3] Azərbaycan Respublikası Dövlət Arxivi f. 970, s 1, i. 18, v. 4.
[4] Yenə orada, s. 2, i. 120, v. 5.

disə münasibəti ilə Azərbaycan Nazirlər Sovetinin Sədri F.X.Xoyski və Türkiyənin diplomatik nümayəndəsi Əbdül Kərim Paşa Azərbaycan Respublikasının Tiflisdə nümayəndəsi olan M.Y.Cəfərova aşağıdakı məzmunda teleqram göndərdilər: "Tiflis. Gəncədən Azərbaycan Respublikasının nümayəndəsi Cəfərova. Çox təcilidir. Sentyabrın 15-də, saat 9-da Bakı qoşunlarımız tərəfindən alınıb. Xahiş edirəm, rəsmi məlumatlandırasınız. Nazirlər Sovetinin Sədri Xoyski"[5].

Eyni məzmunda teleqram da M.Y.Cəfərova Türkiyənin diplomatik nümayəndəsi Əbdül Kərim Paşa tərəfindən göndərildi.

1918-ci ilin dekabrın 5-də "Azərbaycan" qəzetində belə bir məlumat vardı: "Tiflisdən Milli Şura əzası, Gürcüstan hökuməti nəzdindəki siyasi nümayəndəmiz Məmməd Yusif Cəfərov, Nərimanbəyov və Ağamalıyev cənabları Bakıya varid olmuşdurlar"[6].

M.Y.Cəfərov Nazirlər Şurasının Sədri N.Yusifbəylinin formalaşdırdığı IV Hökumət kabinəsində (14.03.1919 – 22.12.1919) Xarici İşlər naziri vəzifəsini tuturdu. Bu dövrdə o, həm də Müsavat Partiyasının üzvü idi.

1919-cu ilin aprelində Tiflisdə birinci Zaqafqaziya konfransı keçirilirdi. Həmin konfransda Azərbaycanın Xarici İşlər naziri M.Y.Cəfərov iştirak edirdi və onun aprelin 28-də Tiflisdən Nazirlər Şurasının Sədri N.Yusifbəyliyə göndərdiyi məlumatda yazılırdı: "27-də konfransın ilk iclası keçirildi. Qarşılıqlı təbrik çıxışlarından sonra hər respublikadan bir nəfər olmaqla Rəyasət Heyəti seçildi. Bizdən Xan Xoyski oldu. Növbə ilə sədrlik edilə-


Г. Министру Внутреннихъ Дѣлъ.

1258 Сообщаю Вамъ для свѣдѣнія, что мною сегодня, 26 іюля, получена слѣдующая телеграмма изъ Тифлиса:

" Вчера выѣхалъ въ Шушу и Нуху Капитанъ Ольданьи для подысканія помѣщенія подъ казармы ожидающихся Итальянскихъ частей точка Четвертаго пятаго августа ожидается полковникъ Габба Н.Р. 2994, Замѣститель Дипломатическаго Представителя Джекиловъ."

Одновременно, мною срочными телеграммами уведомлены о поѣздкѣ Капитана Ольданьи Карабахск - Генералъ Губернаторъ и Гянджинскій Губернаторъ.-

Министръ Иностранныхъ Дѣлъ Джафаровъ

Директоръ Канцеляріи [illegible]

**Xarici İşlər naziri M.Y.Cəfərovun Daxili İşlər nazirinə məktubu. 19 iyul 1919-cu il.**

[5] Azərbaycan Respublikası Dövlət Arxivi f. 897, s. 1, i. 22a, v. 4.
[6] "Azərbaycan" qəzeti. 5 dekabr 1918, №56.

cək. Rəyasət Heyətinin bugünkü iclasında proqram və gündəlikdəki məsələlərin baxılması qaydaları müzakirə ediləcək. Cəfərov"[7].

M.Y.Cəfərovun 1919-cu ilin mayın 7-də Nazirlər Sovetinin Sədri N.Yusifbəyliyə göndərdiyi "Məxfidir" qrifli məktubda F.X.Xoyskinin general Tomsonla görüşü haqqında bilgilər vardır. M.Y.Cəfərov məktubda yazırdı ki, hər iki şəxsin apardığı danışıqda ölkədə beynəlxalq dəmiryolu bürosunun təşkili, "Azərbaycan" qəzetində siyasi partiyaların Dağlı Respublikasına kömək çağırışları, ermənilərin Naxçıvana hücumları və ələ keçirmək cəhdləri, ermənilərin Qarabağda xalq arasında (əsasən ermənilər arasında) ingilislərin hakimiyyətini tanımamaq təbliğatının aparılması məsələləri müzakirə edilmişdir[8].

M.Y.Cəfərov 1919-cu ilin iyulunda Azərbaycanın Daxili İşlər nazirinə bu məzmunda məktub göndərmişdi: "Sizə iyulun 26-da Tiflisdən aldığım növbəti teleqramla bağlı məlumat verirəm: Dünən kapitan Oldayni İtaliya qoşunlarının yerləşməsi üçün kazarma axtarmaq məqsədi ilə Şuşaya və Şəkiyə getmişdir. 4 yaxud 5 avqustda polkovnik N.R.Qabbanın gəlişi gözlənilir. Eyni zamanda mənim təcili teleqramlarımla Qarabağ general-qubernatoru və Gəncə qubernatoru kapitan Oldaninin səfəri haqqında məlumatlandırılıblar"[9].

Bu dövrdə Ermənistan hökuməti təcavüzkar siyasətini davam etdirirdi. Azərbaycan hökumətinin yürütdüyü sülhməramlı siyasətin əksinə olaraq ermənilər yerli müsəlman əhalini qətl edir, kəndləri yandırır, onları yaşayış yerlərindən qovurdular.

Xarici İşlər naziri M.Y.Cəfərovun 1919-cu ilin avqustun 2-də Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsinə göndərdiyi teleqramda Böyük Vedi hadisələri ilə bağlı Azərbaycanın notasına Bekzadyanın verdiyi notaya müəyyən formada cavabı vacib sayırdı[10].

M.Y.Cəfərov ölkənin ağır dövründə Xarici İşlər naziri vəzifəsini yerinə yetirirdi. Bunu onun yazdığı məktublardan, sərəncamlardan görmək mümkündür.

Onun 1919-cu ilin avqustun 4-də Bakıda ingilis hərbi qüvvələrinin komandanına göndərdiyi məktubda ciddi məqamlar vardır. Həmin məktubdan: "İngilis komandanlığının sərəncamı ilə Xəzər Hərbi Donanmasının bir hissəsi Könüllü orduya verilib. Azərbaycan hökuməti öz ərazisinin sahillərini qorumaqda maraqlı olsa da, müvafiq gəmilər olmadığından lazım gələn mühafizəni təşkil etməkdən məhrum olmuşdur.

[7] Azərbaycan Respublikası Dövlət Arxivi f. 970, s. 1, i. 45, v. 15.
[8] Azərbaycan Respublikası Dövlət Arxivi f. 897, s. 1, i. 48, v. 27-28.
[9] Azərbaycan Respublikası Dövlət Arxivi f. 970, s. 1, i. 15, v. 3.
[10] Yenə orada, s. 1, i. 7, v. 100.

Mənim avqustun 1-dən olan əlavəmi nəzərə alaraq Siz Əlahəzrətdən hökumətimizin tapşırığı ilə bu və ya digər şərtlər daxilində sahil mühafizəsi üçün, Könüllü orduya dövlət ərazisinin dənizdən qorunması məqsədi ilə verilən gəmilərin sayı qədər bizə ayırdığınızı məlumatlandırmaq xahişini etmək şərəfinə nail olduğumu bildirirəm. Xarici İşlər naziri M.Y.Cəfərov"[11].


3

Срочно.

Шуша Генералъ Губернатору СУЛТАНОВУ.

Сообщаю Вамъ для свѣдѣнія, что вчера 25 Іюля выѣхалъ Шушу и Нуху капитанъ Ольпэньи для подысканія помѣщеній подъ казармы ожидающихся итальянскихъ частей точка Номеръ 2251

Г.П. Министръ иностранныхъ дѣлъ

Xarici İşlər naziri M.Y.Cəfərovun Şuşaya – general-qubernator X.Sultanova məktubu. İyul 1919-cu il.

M.Y.Cəfərov Azərbaycanın Xarici İşlər naziri olduğu dövrdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərə etiraz edir, səlahiyyətləri daxilində bunun qarşısını almağa çalışırdı. Onun 1919-cu ilin 11 sentyabrında Ermənistan Respublikasının Azərbaycanda olan diplomatik nümayəndəliyinin göndərdiyi məktubda hadisəyə belə münasibət bildirirdi: "Daxili İşlər Nazirliyinin məsul işçisinin Qazax qəzasından 4 sentyabr tarixli məlumatına əsaslanıb, öz hökumətim adından müsəlmanlara qarşı törədilən zorakılıqların dayandırılması ilə bağlı etirazımı bildirirəm. Bu cinayəti törədənlərin məsuliyyətə cəlb olunmasını və müsəlmanların öz doğma yurdlarında təhlükəsiz yaşamasının təmin olunmasını bildirirəm"[12].

**M.Y.Cəfərov bütün vasitələrlə ermənilərin Azərbaycan ərazilərində və müsəlmanlar yaşayan bölgələrdə törətdikləri vəhşiliklərin diplomatik yolla qarşısını almağa çalışırdı.** Bu mənada onun 1919-cu ilin iyulun 1-də Britaniya Güclərinin komandanına göndərdiyi məktub əhəmiyyətlidir. Həmin

[11] Azərbaycan Respublikası Dövlət Arxivi f. 894, s. 10, i. 120, v. 9.
[12] Azərbaycan Respublikası Dövlət Arxivi f. 970, s. 1, i. 65, v. 10.

məktubda yazılmışdı: "Xarici İşlər Nazirliyinin Naxçıvandan aldığı məlumata görə, Ermənistan hökuməti Zəngəzura qoşunlarını göndərir. Bu vaxta qədər 700 adam və çoxlu patron göndərib. Bunun nəticəsində ayrı-ayrı silahlı toqquşmalar baş verib. Bu toqquşmalarda həm erməni əhalisi, həm də erməni nizami qoşunları iştirak edib.

Azərbaycan hökuməti həmişə mehriban dostluq münasibətlərinin möhkəmləndirilməsi üçün qonşu xalqlarla bütün konfliktləri dostluq və sülh yolu ilə həll etməyin tərəfindədir. Bu günə qədər Azərbaycan xalqı bütün mübahisəli məsələlərdə sülhpərvər siyasət yürüdə bilmişdir. Ümid edirik ki, Britaniya komandanlığının Ermənistan hökumətinə xeyirxah məsləhətləri əsasında Azərbaycan Respublikası ilə Ermənistan arasında ola biləcək kəskin ziddiyyətdən uzaqlaşmaq mümkün olacaq. Əks halda, əgər Ermənistan hökuməti Azərbaycana qarşı silahlı müqavimətini dayandırmasa, bu ziddiyyət daha da genişlənəcəkdir"[13].

**M.Y.Cəfərov sentyabrın 22-də Müttəfiq Qoşunların Zaqafqaziyadakı komissarı polkovnik V.N.Haskelə aşağıdakı məzmunda nota verdi: "Sizi məlumatlandırmaq istəyirəm ki, Yenibayazit, Sürməli və Eçmiədzin qəzalarında ermənilərin erməni administrasiyasının iştirakı ilə dinc müsəlmanlar üzərində törətdikləri zorakılıqlar Azərbaycan hökumətini erməni hökumətinə qarşı etiraz notası verməyə məcbur etdi və həmin notanın surətini xidmətçi ilə Sizə də göndərirəm.**

**Azərbaycan hökuməti inanır ki, bu qanunsuzluğun qarşısının alınması üçün Siz tərəfdən ən qəti tədbirlər görüləcək və Siz günahkarların müəyyənləşməsi üçün beynəlxalq istintaq komissiyasının yaradılmasına razılaşarsınız. Nəticədə, maddi vəziyyətindən və millətindən asılı olmadan hər kəs cəzasını çəksin"[14]**.

Azərbaycan Respublikasının Dövlət Arxivində saxlanılan sənədlər sırasında M.Y.Cəfərovun Xarici İşlər naziri vəzifəsində çalışarkən verdiyi əmrlər, sərəncamlar da qorunub saxlanılmaqdadır. Bu sənədlər onun işgüzar və daim fəaliyyətdə olan nazir kimi şəxsiyyətini təsdiq etməkdədir.

M.Y.Cəfərovun 1919-cu ilin 22 sentyabrında verdiyi əmrlə iqtisad elmləri namizədi Şeyx Əli Hüseynov Azərbaycan Respublikasının Krımda konsulu təyin edildi[15].

---

[13] Azərbaycan Respublikası Dövlət Arxivi f. 970, s. 1, i. 65, v. 20.
[14] Yenə orada, s 1, i. 184, v. 11.
[15] Azərbaycan Respublikası Dövlət Arxivi f. 894, s 10, i. 112, v. 10.

Həmin sənədlərdə yazılb: **"83 saylı əmr.** Nazirlik diplomatik şöbəsinin icraçı köməkçisi Ehtiyac Şükürov 1919-cu ilin 17 dekabrından hökumətin İrandakı diplomatik missiyasının icraçısı vəzifəsinə keçirilir.

**84 saylı əmr.** Dəftərxananın diplomatik şöbəsinin icraçı köməkçisi Fərəculla bəy Əliyev 1919-cu ilin 20 dekabrından şifrələr üzrə müdir vəzifəsinə təyin edilir"[16].

M.Y.Cəfərovun 1919-cu ilin mayın 4-də verdiyi əmrlə Nazirlər Sovetinin sərəncamına əsasən, həm Batumdakı konsul Əfəndiyevə, həm də Ermənistandakı diplomatik nümayəndə Təkinərə 40 000 rubl vəsait ayrıldığı qeyd olunurdu[17].

Azərbaycan Respublikasının Xarici İşlər naziri M.Y.Cəfərovun Tiflisdə əyləşən Böyük Britaniya hökumətinin Zaqafqaziyadakı Ali Komissarı olan Haskelə 1919-cu ilin 24 sentyabr tarixli təcili məktubunda Dağıstan xalqının Denikin ordusu ilə mübarizəsindən danışılırdı.

Məktubda qeyd olunurdu: "Bir aya yaxındır ki, Dağıstanda general Denikin ordusuna qarşı bütün vilayətə yayılan xalq üsyanları davam edir. Qan tökülür, kəndlər dağıdılır, dağıstanlıların olduğu Dərbənd şəhəri dənizdən gəmi artilleriyası ilə atəşə tutulur, əhali şayiəyə düşərək qaçır və çoxlu sayda qaçqın Azərbaycan ərazisinə keçir. Nəzərə alınsa ki, bu hadisələr Azərbaycan Respublikasının birbaşa sərhədi yaxınlığında baş verir və əhvalımızda əksini tapır. Hökumətin adından Sizdən xahiş edirəm ki, bu işə müdaxilə edib, qan tökülməsinin qarşısını alasınız. Müvəqqəti olaraq Dağıstanla Könüllü Ordu arasında neytral yer müəyyənləşdirəsiniz. Azərbaycan Respublikasının Xarici İşlər naziri M.Y.Cəfərov"[18].

M.Y.Cəfərovun 1919-cu ilin 29 sentyabrında Azərbaycanın Ermənistandakı diplomatik təmsilçisi M.X.Təkinərə göndərdiyi məktub da maraq doğurur. O, həmin məktubda M.X.Təkinərin Azərbaycan Cümhuriyyəti üçün çox ağır və problemli bir bölgədə öz işini bacarıqla yerinə yetirdiyini qeyd edirdi. Bu, eyni zamanda M.Y.Cəfərovun əməkdaşlarına olan yüksək münasibətin göstəricisidir. M.X.Təkinərin istefa ərizəsini qəbul edən M.Y.Cəfərov ona göndərdiyi məktubda yazırdı: "Çox hörmətli Məmməd xan! Sizin Azərbaycan Respublikasının diplomatik nümayəndəsi vəzifəsindən istefa verməklə bağlı müraciətiniz qəbul edilmişdir.

Bu haqda məlumat verməklə mən, dərin məmnunluq hissi ilə Sizin Azərbaycanın ən çətin dövründə – dövlət quruculuğu yolunda ilk addımlarını atdığı

---

[16] Azərbaycan Respublikası Dövlət Arxivi f. 970, s. 2, i. 120, v. 92.
[17] Yenə orada, s. 1, i. 88, v. 4.
[18] Yenə orada, s. 2, i. 45, v. 1.

vaxtlarda etdiyiniz fədakarlığı qeyd edirəm. Hökumətin adından onun tapşırığı ilə Sizə diplomatik nümayəndə kimi üzərinizə düşən vəzifəni uğurla yerinə yetirdiyinizə görə minnətdarlığımı bildirirəm. Bizim tam inam və hörmətimizi qəbul edin. Xarici İşlər naziri M.Y.Cəfərov"[19].

M.Y.Cəfərov Xarici İşlər naziri olarkən ermənilərlə münaqişəli məsələləri həll etmək üçün danışıqlar yoluna üstünlük verirdi. Doğrudur, ermənilər hər zaman olduğu kimi, bu danışıqları pozur, yaxud da razılaşmalara əməl etmirdilər.

1919-cu ilin 14 dekabrında Bakıda Xarici İşlər Nazirliyinin binasında keçirilən Azərbaycan–Ermənistan konfransı da elə hər iki dövlət arasında münasibətləri normallaşdırmaq xarakteri daşıyırdı. Konfransı ilk olaraq Azərbaycan Cümhuriyyətinin Xarici İşlər naziri M.Y.Cəfərov açaraq qeyd etdi ki, Zaqafqaziya Federasiyası parçalanıb, yerində üç müstəqil respublika – Azərbaycan, Gürcüstan, Ermənistan yaranandan sonra həll edilməmiş mübahisəli məsələlər qaldı. O, bildirdi ki, belə məsələlər sırasına respublikalar arasındakı qarşılıqlı münasibətlərin aydınlaşdırılması, ərazi məsələlərinin tam həll edilməsi daxil idi. M.Y.Cəfərov çıxışında qeyd etdi ki, mövcud problemlərin həlli yolunda Azərbaycan Cümhuriyyəti rəhbərliyi səylər nümayiş etdirsə də, qarşı tərəfdən bu, lazımi səviyyədə qiymətləndirilməlidir[20].

1919-cu ilin dekabrın 23-də Nazirlər Şurasının Sədri N.Yusifbəyli beşinci Hökumət kabinəsini formalaşdırdı. Həmin kabinədə Xarici İşlər naziri vəzifəsi M.Y.Cəfərova yox, F.X.Xoyskiyə tapşırıldı. Bu vəziyyətdə onun dekabrın 24-də Xarici İşlər Nazirliyi əməkdaşlarına müraciəti də çox maraqlıdır: "Bütün idarəyə elan edirəm ki, Nazirlər Sovetinin Sədri N.Yusifbəyovun yenidən formalaşdırdığı kabinədə Xarici İşlər naziri vəzifəsi Parlament üzvü F.X.Xoyskiyə tapşırılıb və mən nazirliyin idarəçiliyini ona verirəm.

Mövqeyimi tərk edərkən, özümün xoş borcum olaraq qeyd etmək istəyirəm ki, Respublikanın bu ağır günlərində nazirliyin istər mərkəzi, istərsə də xarici idarələrində bütün işlərdə çalışmağa hazıram və üzərimə düşən tapşırığın yerinə yetirilməsini yüngülləşdirdiklərinə görə birgə işimizlə bağlı onlara təşəkkürümü bildirirəm. Xarici İşlər naziri M.Y.Cəfərov"[21].

O, bu vəzifədə 1919-cu ilin dekabrına qədər çalışdı və Azərbaycan Cümhuriyyətinin dünyaya tanıdılmasında mühüm rol oynadı. Bu müddətdə onun rəhbərliyi altında tanınmış Azərbaycan sənətşünasları və ictimai xadimləri Məm-

---

[19] Azərbaycan Respublikası Dövlət Arxivi f. 970, s 1, i. 184, v. 11.
[20] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 759.
[21] Azərbaycan Respublikası Dövlət Arxivi f. 970, s. 1, i. 60, v. 2.

məd Ağaoğlunun və Hüseyn Mirzəcamalovun arxiv sənədləri əsasında hazırladıqları "Zaqafqaziyada rus siyasətinə aid sənədlər" kitabı çap edildi.

**Qeyd edək ki, M.Y.Cəfərovun fəaliyyətinin əsas bir dövrü də onun Azərbaycan Parlamentindəki çalışmalarıdır.**

1919-cu ilin iyunun 27-də Azərbaycan Parlamentinin növbədənkənar iclası keçirildi. İclasda Azərbaycan ilə Gürcüstan hökuməti arasında bağlanmış hərbi müqavilə təsdiq olunmalı idi. Parlament zalında Gürcüstandan gəlmiş siyasi nümayəndələr və nazirlər əyləşmişdilər.

İclası açan sədr H.Ağayev sənədin mühüm əhəmiyyətli olduğunu və Eydi-fətr münasibəti ilə bir neçə gün bayram ediləcəyini nəzərə alıb növbədənkənar iclasın çağırılmasını vacib saydıqlarını söylədi. Parlament katibi Cövdət bəy Azərbaycan–Gürcüstan hərbi müqaviləsinin mətnini oxudu. Sonra müzakirələr başladı. Müzakirədə ilk çıxış edən Xarici İşlər naziri M. Y. Cəfərov oldu.

O, çıxışında dedi: "Möhtərəm məbuslar! Bugünkü tarixi gündə mən istəyirəm Azərbaycan hökumətinin siyasəti barəsində, ümumiyyətlə, sizə bir-iki söz deyim. Ola bilər ki, bu siyasət qəbul edilsin, həmçinin ola bilər ki, qəbul edilməsin də. Bu xüsusda iki nəzər ola bilər. Fəqət bu siyasəti Azərbaycan hökuməti özü üçün bir rəhbər qəbul etmişdir. Azərbaycan hökuməti ümum millətlər və dövlətlər ilə, xüsusən Cənubi Qafqazda yaşayan millətlər və cümhuriyyətlər ilə həmrəy olmağa çalışmışdır və çalışacaqdır. Hələ oktyabr ayında hökumət mənə bu məzmunda bir məktub yazaraq bu yolda qonşu millətlər ilə müzakirəyə başlamağı tövsiyə etmişdir. Qonşularımızla siyasətimizi birləşdirmək, onlarla həmrəy olmaq həmişə bizim amalımız, idealımızdır. Ona görədir ki, noyabr ayında Qafqasya Cümhuriyyətləri konfransını keçirmək istədikdə hamıdan qabaq Azərbaycan hökuməti Cənubi Qafqasya hökumətləri siyasətlərinin birləşdirilməsini proqrama daxil etdi. İndi biz həmin məsələni sözdən əmələ çıxardıq və 16 iyun müqaviləsini bağlamağa müvəffəq olduq"[22].

M.Y.Cəfərov çıxışında Azərbaycan və Gürcüstan hökumətləri arasında həmişə ümumi bir rəyin olduğunu, "bir təhlükə gələrsə, hər ikimizi eyni dərəcədə təhdid edəcəyini" qeyd etdi.

M.Y.Cəfərov bildirdi ki, üçüncü qonşu dövlət olan Ermənistan nümayəndələri noyabr ayında keçirilməsi nəzərdə tutulan konfransa gəlmədikləri üçün tədbir baş tutmadı. M.Y.Cəfərov ermənilərin birləşmək məsələsində olan "Tor-

---

[22] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920) II c. B., 2016, s. 231-232.

paq və hüdud məsələləri həll edilmədikcə birləşmək olmaz" fikirlərini əsassız sayırdı.

M.Y.Cəfərov bu müqavilənin əhəmiyyətini belə əsaslandırırdı: "Bu şərtnamə göstərir ki, Azərbaycan və gürcü millətləri özlərini müdafiəyə hazırdırlar və bu xüsusda lazım gələn tədbirlər görməyi bacarırlar. Bu müqavilə sübut edir ki, biz xırda millət olduğumuz halda azad və müstəqil yaşamaq istəyirik. Öz azadlığımızı, istiqlalımızı hər növ təhlükəyə qarşı müdafiə, mühafizə etməyə və bu uğurda lazım gəlsə, qan tökməyə hazırıq. Bunlardan əlavə bir də göstərir ki, biz heç bir millətə, heç bir dövlətə təcavüz etmək fikrində deyilik"[23].

M.Y.Cəfərov çıxışında müqavilənin üç il müddətinə bağlandığını, ittifaqa daxil olan tərəflərin bir-birlərinin hüquqlarını qoruyacağının, dost siyasət yürüdəcəyinin, iki dövlətin siyasətinin birləşdiriləcəyi şərtlərinin müqavilədə əsas götürüldüyünü qeyd etdi.

1920-ci ilin martın 12-də Azərbaycan Parlamentinin 134-cü iclası keçirildi. Parlamentin sədri vəzifəsini icra edən M.Y.Cəfərov Rusiya inqilabının üç illiyi münasibəti ilə təntənəli iclasın keçirildiyini bildirdi. M.Y.Cəfərov çıxışında üç il əvvəl Rusiyada baş verən bu inqilab haqqında fikirlərini belə qeyd etdi: "Möhtərəm əfəndilər! Bu gün üç il olur ki, Rusiyada yaşayan millətlər istibdad zəncirindən qurtulmuşlardır. Fevralın 27-də Petroqradda böyük bir inqilab əmələ gəlmiş, Rusiya imperatorluğunu yıxmışdır. Bu inqilabda Rusiyanın cümlə millətləri də iştirak etmişlərdir. Əfəndilər, bu gün böyük və tarixi bir gündür. Əgər dünya min illərlə yaşasa, yenə belə bir günə təsadüf edilməyəcəkdir. Əvvəllərsə deyirdilər və deyirlər ki, Rusiya inqilabı qansız əmələ gəldi. Lakin Rusiya inqilabının gedişi və aldığı son vəziyyət bu fikrin yanlış olduğunu isbat etdi. Rusiya inqilabı uzun çəkdi, çoxlu qanlar axdı və böyük, saysız qurbanlar apardı. Bu inqilabın içində Azəri türkləri də iştirak etdilər. Qanlar tökdülər və qurbanlar verdilər"[24].

M.Y.Cəfərovun çıxışının davamında bu inqilabın nəticəsində millətlərin "təyini-müqəddəratı" əsasında Azərbaycan türklərinin istiqlal elan edib parlament və hökumət yaratdığını söylədi.

**M.Y.Cəfərovun Cümhuriyyət dövründə son çalışması Azərbaycan Parlamentində oldu. 1920-ci ilin 27 aprelində, axşam saat 20:45-də başlanan və son olan Azərbaycan Parlamentinin 145-ci iclasını o, apardı.**

---

[23] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – Aprel 1920) II c. B., 2016, s. 233.

[24] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 867-868.

M.Y.Cəfərov dedi: "Fövqəladə iclas açıq elan edilir. Seçilmiş komissiyanın izahatı müzakirəyə qoyulacaqdır. Mən istəyirəm bizim bu tarixi iclasımızın qapalı və ya açıq olmağı haqqında fikrinizi bilim..."

M.Ə.Rəsulzadənin təklifi ilə müzakirənin açıq formada keçirilməsi səsə qoyuldu və qəbul edildi. Sonra partiyalarla və kommunistlərlə danışıqlar aparmaq üçün yaradılan komissiyanın sədri M.H.Hacınski geniş məruzə etdi, Parlament üzvlərini vəziyyətin ağırlığı ilə bağlı məlumatlandırdı. Müzakirələrdə M.Ə.Rəsulzadə, Səməd Ağamalı oğlu, Aslan bəy Qardaşov, Hacı Kərim Sanıyev, Ağa Aşurov, Mustafa Mahmudov çıxış etdilər.

Azərbaycan Parlamentinin son iclası saat 23:25-də M.Y. Cəfərov tərəfindən bağlandı. Parlamentin qəbul etdiyi son qərara da imza edən M.Y.Cəfərov oldu: "Hakimiyyətin kommunistlərə təhvil verilməsi haqqında Müsavat Parlamanının qərarı. 27 aprel 1920-ci il. Axşam saat 11:00. Sizin 27 aprel tarixli məktubunuzu müzakirə və onun məzmununu həyəcanlı anla müqayisə edib təklifinizi nəzərə alaraq bizim tərəfimizdən seçilmiş komissiya: 1.Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti mühafizə edilir; 2.Azərbaycan Kommunist firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır; 3.Azərbaycanın son idarə formasını hər hansı bir təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputatları sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir; 4.Hökumət idarələrinin bütün xidmətçiləri öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir; 5.Yeni yaradılan müvəqqəti kommunist hökuməti parlamentin və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir; 6.Qızıl ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcəkdir. 7.Yeni hökumət haradan baş verməsindən asılı olmayaraq, Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlər görəcək və öz sərəncamında olan bütün vasitələrlə mübarizə aparacaqdır".

Azərbaycan Parlamentinin özünün fövqəladə iclasında bu şərtləri səs çoxluğu ilə qəbul etdiyini Sizin nəzərinizə çatdırıram. Parlamentin sədri – Məmməd Yusif Cəfərov, Dəftərxana direktoru – Vəkilov"[25].

Azərbaycanda hakimiyyətə gələn bolşeviklər sonradan bu qərara əməl etmədi.

1920-ci ilin aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra sovet rejimi dövründə M.Y.Cəfərov Pambıqçılıq Trestində və Azər-

[25] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 867-868.

baycan Şərabçılıq Trestində hüquq məsləhətçisi olaraq çalışsa da, həyatı ağır keçdi. 1924-cü ilin dekabrın 29-da onun həbsi ilə bağlı Azərbaycan Fövqəladə Komissiyasının İstintaq Əməliyyat Hissəsi Əks-kəşfiyyat şöbəsinin rəisi Qolikov tərəfindən hazırlanmış sənəddə qeyd olunurdu: "Mən – Azərbaycan FK İƏH Əks-kəşfiyyat şöbəsinin rəisi Qolikov həbs edilmiş Babayev Əbdüləli, Babayev Məmmədəli, Nəriman Qasımoğlu və b. işi üzrə 894 və 685 saylı işlərlə onların gizli Müsavat təşkilatına məxsusluqları barədə ittiham olunmaları ilə əlaqədar tanış olarkən qeyd edilən işlə bağlı Kladbişenski küçəsində 37 saylı evdə yaşayan Məmməd Yusif Cəfərovun adının hallandığını nəzərə alaraq Müsavat Partiyasına aidiyyatı olan Məmməd Yusif Cəfərovu həbs etmək və Az.FK-da nəzarət altında saxlamaq haqqında qərar verdim"[26].



**M.Y.Cəfərov polyak əsilli xanımı Yekaterina Frankovna Buxarskaya ilə.**

M.Y.Cəfərovla bağlı istintaq materiallarından aydın olur ki, onu sovet rejiminin ilk dövründən izləyirmişlər. Materiallarda bir məqam da vurğulanırdı: M.Y. Cəfərov yanına işə götürülmək üçün göndərilən kommunistlərə "iş yoxdur" deyirdi. Yenə istintaq materiallarında onun haqqında belə məlumatlar vardır: "...Cəfərov rəis kimi tabeliyində olanlarla çox mədəni davranır, ancaq qapalı adamdır, heç kimlə artıq şey danışmır. Yaxşı təəssürat oyadır, ancaq onun siyasi görüşləri şübhəlidir"[27].

[26] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 57-58.
[27] Yenə orada, s. 59.

Uzun sürən istintaq prosesindən sonra M.Y.Cəfərovun beş il müddətinə ciddi təcrid şəraitində saxlanılmaqla cəzasını SSRİ-nin şimal şəhərlərindən birində çəkməsi qərara alındı. Lakin həmin dövrdə Azərbaycan Fövqəladə Komissiyasının sədri M.C.Bağırovun Tiflisdən göndərdiyi 11 mart 1926-cı il tarixli şifrəli teleqramı əsasında həbsdən azad edildi[28].

M.Y.Cəfərov 1926-cı ilin martında qısa müddətə yenidən həbs olundu. 1928-ci ildə onu yenidən sorğu-suala çəkir, həbs oluna biləcəyi ilə təhdid edirdilər.

M.Y.Cəfərovun 1929-cu ilin 2 oktyabrında Az.DSİ-yə yazdığı ərizədən aydın olur ki, onun həbsdən azad olunmasına kömək edən Zaqafqaziya Fövqəladə Komissiyasının sədri Moqilyevski və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Sədri S.Ağamalıoğlu olmuşdur. Görünür, M.C.Bağırov Moqilyevskinin tapşırığı əsasında M.Y.Cəfərovun həbsdən azad olunması göstərişini vermişdir.

M.Y.Cəfərov 1938-ci ilin may ayının 15-də Bakıda vəfat etdi və Şağan kəndində dəfn olundu. O, sovet rejimində yaşadığı 18 illik ömrünün 5 ilini həbsxana divarları arasında, mövcud cəza sistemi orqanlarının nəzarəti altında keçirdi.

M.Y.Cəfərovun xanımı Bakı mədənlərində mühəndis kimi çalışan Polşa yəhudisinin qızı Yekaterina Frankovna Buxarskaya olmuşdur.

[28] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 86.

# BEHBUD XAN CAVANŞİR

(1877–1921)



Azərbaycanın görkəmli dövlət xadimi Behbud xan Cavanşir 1877-ci ildə keçmiş Tərtər qəzasının Azad Qaraqoyunlu kəndində anadan olub. 1890-cı ildə orta təhsilini Tiflisdə almandilli realnı məktəbdə alıb. 1902-ci ildə Almaniyada Freyburq Dağ-Mədən Akademiyasına daxil olub. B.Cavanşir Almaniyadan İngiltərəyə gedərək, Londonda ingilis dilində ixtisasartırma kursunda oxuyub. O, 1907-ci ildə Vətənə qayıdıb və milyonçu Şibayevin neft sənayesində çalışıb. Bakıda fəaliyyət göstərən Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbərliyinə seçilib. 1918-ci ilin iyunun 17-də F.X.Xoyskinin təşkil etdiyi ikinci Hökumət kabinəsində Daxili İşlər naziri, həmin ilin oktyabrın 6-da baş verən kabinədaxili dəyişikliklərdən sonra A.Aşurovun Poçt və Teleqraf naziri təyin olunması ilə bağlı Ticarət və Sənaye naziri vəzifəsini də icra edib. B.Cavanşir Azərbaycan Parlamentinin üzvü olub.

Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra N.Nərimanovun tapşırığı ilə B.Cavanşir Cənubi Qafqaz Soveti Xarici Ticarət təmsilçisi olaraq müasir neft-mədən avadanlığı almaq üçün Almaniyaya göndərilib. O, yolüstü İstanbulda həmyerlisi Ə.Ağayevin ailəsi ilə görüşüb. 1921-ci ilin 17 iyulunda axşam evdən çıxıb küçə ilə gedərkən arxadan Daşnaksütyun partiyasının üzvü Misak Torlakyan tərəfindən güllə ilə qətlə yetirilib.

# DAXİLİ İŞLƏR NAZİRİ

Azərbaycanın görkəmli dövlət xadimi Behbud xan Cavanşir Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəticəsi Azad xanın oğludur. O, 1877-ci ildə Tərtər qəzasının (Sovet dövründə Mirbəşir rayonu adlanırdı – red.) Azad Qaraqoyunlu kəndində anadan olmuşdur. Çar Rusiyası XIX əsrin əvvəllərində Qarabağ xanlığını işğal etdikdən və İbrahim xanın (Pənahəli xanın oğlu) nəslindən olanlara mənfi münasibət göstərdiyindən, onların Şuşada yaşaması da qeyri-mümkün olurdu.

B.Cavanşir 1890-cı ildə Tiflisdə alman dili təmayüllü realnı məktəbə daxil olmuşdur. Burada o, sonradan 26 Bakı komissarlarına başçılıq etmiş, 1918-ci ilin 31 mart soyqırımında dinc müsəlman əhaliyə zorakılıqlar törətmiş S.Şaumyanla səkkiz ilə yaxın bir yerdə təhsil almışdır. B.Cavanşir Tiflisdə realnı məktəbi başa vurduqdan sonra Almaniyanın Freyburq şəhərinə getmiş və burada dünyada ilk ali-texniki məktəb sayılan Dağ-Mədən Akademiyasında təhsil almışdır. Qeyd edək ki, o, bu akademiyanın ilk azərbaycanlı məzunu sayılır.

Almaniyada təhsilini bitirdikdən sonra B.Cavanşir İngiltərəyə – Londona getmiş, burada ingilis dilində təkmilləşdirmə kursları keçdikdən sonra 1907-ci ildə Bakıya qayıtmışdır. Mükəmməl təhsil alan B.Cavanşirin alman, ingilis, fransız, rus, gürcü və erməni dillərini bilməsi haqqında məlumatlar vardır. Onun erməni dilini müəyyən dövrlərdə işinə və fəaliyyətinə kömək etdiyi S.Şaumyandan öyrənməsi də qeyd olunmaqdadır. Onların müəyyən münasibətlərinin olması faktlarına isə Dubinskiy – Muxadzenin 1986-cı ildə nəşr edilən "Şaumyan" kitabının 13, 108-ci səhifələrində rast gəlmək mümkündür.

B.Cavanşir Bakıya qayıtdıqdan sonra Şibayevin neft mədənlərində işləməyə başladı. O, bu dövrdə ictimai fəaliyyətini də genişləndirirdi.O. milyonçu H.Z.Tağıyevin başçılıq etdiyi Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbərliyinə seçildi, Rusiyada və Avropada təhsil alan bir neçə azərbaycanlı gəncə təqaüd verdi, bəzi qəzetlərə də yardımlar etdi.

1920-ci ildə Bakıda rus dilində çapdan çıxan "Zaqafqaziyada rus siyasətinə dair sənədlər" kitabından aydın olur ki, B.Cavanşir Ə.Ağayevin (Ağaoğlunun) 1905-ci ildə gizli yaratdığı Difai Təşkilatının Mərkəzi Komitəsinin üzvü olmuşdur. O, eyni zamanda Nicat Cəmiyyətinin, Rusiya Texniki Cəmiyyətinin də üzvü olaraq çalışırdı. Bu cəmiyyətin elmi əsərlərində onun çoxlu məqaləsinin çap olunduğu qeyd edilir[1].

[1] İ.Əliyeva. Cavanşir nəslinin nazir oğlu. "Azərbaycan" qəzeti, 5 avqust 2015.

1907-ci ilin avqustun 28-də Cavanşir qəzasının rəisinin Daxili İşlər Nazirliyinə yazdığı raportda Xeyriyyə cəmiyyəti pərdəsi altında gizli fəaliyyət göstərən Difai antidövlət komitəsinin rəhbərləri Əhməd bəy Ağayev, Qara bəy Qarabəyov, Məhəmməd Həsən Hacınski, İsa bəy Aşurbəyov, Behbud bəy Cavanşirski və Niftalı bəy Behbudovun adları qeyd olunmuşdur. Raportda bu ziyalıların Behbud xanın Azad Qaraqoyunlu kəndindəki evinə yığılmasından xəbərdar olduqları bildirilir.

Qeyd edək ki, B.Cavanşirin doğulduğu bölgə Cavanşir qəzası adlanırdı və qəza Çar Rusiyasının 1873-cü ildəki müvafiq qanununa uyğun olaraq təşkil edilmişdi, Mərkəzi Tərtər sayılırdı. Cavanşir qəzası AXC dövründə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində inzibati-ərazi vahidi idi. Bu bölgədə çar üsul-idarəsinə qarşı əhalinin tez-tez etiraz çıxışları olmuş, 1917-ci ildə çarizmin devrilməsindən sonra ermənilər burada yaşayan müsəlmanlara qarşı zorakılıqlar törətmişdilər. 1917-ci ilin sonlarında ermənilərin bu bölgədəki kəndlərə hücumunun qarşısının alınmasında keçmiş difaiçilərin ciddi rolu olmuşdu.

Qeyd edək ki, B.Cavanşir yüksək savada malik sənaye mütəxəssisi idi. Onun çar Rusiyası dövründə aksiyalara malik olması və bu baxımdan neft sənayeçiləri arasında yaxşı tanındığı qeyd olunmaqdadır. O, dəfələrlə neft sənayeçiləri qurultayının icraiyyə komitəsinin sədri seçilmişdir[2].

B.Cavanşir 1917-ci ilin Fevral-Burjua inqilabından sonra yaradılan Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdir[3].

1918-ci ildə Bakıda baş verən Mart soyqırımının qarşısının alınmasında B.Cavanşir böyük səylər göstərmiş və o, həm də yaradılmış barışıq komitəsinin üzvü idi.

B.Cavanşir 1918-ci ilin iyunun 17-də F.X.Xoyskinin yaratdığı Hökumət kabinəsində Daxili İşlər naziri vəzifəsini icra etmişdir. O, bu sahədə də ciddi işlər görmüşdür. Həmin dövrdə onun təşəbbüsü ilə neft mədənlərini mühafizə edən Bakı şəhər polisinin maaşları neftdən gələn gəlirin üç faizi hesabına ödənilirdi[4].

Azərbaycanda Daxili İşlər Nazirliyi sisteminin formalaşmasında B.Cavanşirin xidmətləri danılmazdır. Məhz onun səyləri əsasında nazirlik Azərbaycanda polis sisteminin inkişaf edib xalqın milli maraqlarının qorunmasında ciddi rol oynadı. B.Cavanşirin təqdimatı əsasında Azərbaycan hökuməti 1918-ci ilin iyunun 2-də Gəncə quberniyasının 9 qəzasında polis orqanlarının təsisi ilə bağlı qərar verdi.

Qeyd etdiyimiz kimi, B.Cavanşir Azərbaycan Cümhuriyyətinin Daxili İşlər naziri olarkən ölkədə vəziyyət çox ağır idi. O dövrdə Azərbaycan hökuməti Gəncə-

---

[2] L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 181.
[3] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 66.
[4] İ. Əliyeva. Cavanşir nəslinin nazir oğlu. "Azərbaycan" qəzeti, 5 avqust 2015.

də yerləşirdi və Bakıya daxil olmaq qeyri-mümkün idi. Gəncədə yerləşən Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa ilə ağır danışıqlar gedirdi. **Azərbaycanın istiqlalı M.Ə.Rəsulzadənin fikrincə, sözlə elan edilsə də, reallaşmaq imkanı çox mürəkkəb idi. Əsas problemlərdən biri – Bakının alınması və hökumətin orada fəaliyyətə başlaması idi.**

Belə vəziyyətdə ölkədə ictimai asayişi qorumaq, qayda-qanun, intizam yaratmaq tələb olunurdu. Bu gerçəkliyi əsas götürən F.X.Xoyski hökuməti ciddi qərar qəbul etmək məcburiyyətində qalmışdı. 1918-ci ilin iyunun 23-də Nazirlər Şurasının Sədri F.X.Xoyskinin və Daxili İşlər naziri B.Cavanşirin imzaladığı qərarla ölkədə hərbi vəziyyət elan edildi. "Hökumət məlumatı" başlıqlı qərarda yazılırdı: "Azərbaycan Respublikası hökuməti, xarici vəziyyət və ölkədə böyük daxili anarxiyanın, fövqəladə şəraitin yarandığını diqqətə alıb, bütün Azərbaycan ərazisində fövqəladə vəziyyət elan edir və Daxili İşlər Nazirliyinə Qafqaz İslam Ordusunun Baş Komandanı ilə razılaşma əsasında buna uyğun məcburi qərar hazırlamağı tapşırır. 23 iyun 1918-ci il. Elizavetpol şəhəri. Nazirlər Şurasının Sədri F.Xoyski, Daxili İşlər naziri B.Cavanşir, Hökumətin İşlər müdiri R.Xoyski"[5].

Azərbaycanın Daxili İşlər naziri olan B.Cavanşir Nuru Paşa ilə razılaşma əsasında bu qərarı həyata keçirmək məcburiyyətində idi.

**1918-ci ilin sentyabrın 15-də Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən azad edildikdə B.Cavanşir Daxili İşlər naziri vəzifəsini icra edirdi. Bu, çox ağır bir dövr idi. O, qısa bir müddətdə Bakı şəhərində qayda-qanun yaradılmasında, ictimai asayişin qorunmasında mühüm tədbirlər gördü.**

1918-ci ilin sentyabrın 18-dən Azərbaycan hökuməti Bakıda fəaliyyətə başladı. B.Cavanşirin başçılıq etdiyi Daxili İşlər Nazirliyi "Metropol" mehmanxanasının binasında (indiki Nizami adına Ədəbiyyat Muzeyinin binası) yerləşirdi. O, Daxili İşlər naziri olarkən İçərişəhərdə Polis müdavimləri hazırlayan məktəb açdırır və burada 1200-ə qədər müdavimin təhsil alacağını planlaşdırır.

B. Cavanşir F.X.Xoyskinin başçılıq etdiyi II Hökumət kabinəsində (17.06.1918 – 07.12.1918) bitərəf olaraq Daxili İşlər naziri vəzifəsində 1918-ci ilin oktyabrın 6-na qədər çalışmaqla yanaşı, eyni zamanda Ticarət, Sənaye və Daxili İşlər naziri olaraq da fəaliyyət göstərmişdir. Yəni əslində iki nazirliyin işini o, 1918-ci ilin 26 dekabrına qədər yerinə yetirmişdir.

B.Cavanşir bu vəzifələrdə olarkən Azərbaycan üçün ciddi əhəmiyyət daşıyan sənədlərə imza atmışdır.

[5] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 1046, s. 2, i. 1, v. 17.

1918-ci ilin noyabrın 28-də Azərbaycan Cümhuriyyəti hökuməti ilə Şimali Qafqazın Dağlı Xalqları İttifaqı Respublikası arasında tarixi müqavilə bağlanır. Həmin müqaviləni Azərbaycan hökuməti adından Ticarət və Sənaye naziri Behbud xan Cavanşir və Maliyyə naziri Məhəmməd Həsən Hacınski, Dağlı Xalqları Respublikası tərəfdən Bahadur bəy Molaçixan və İbrahim bəy Heydərov imzalamışdı. Müqavilədə aşağıdakı bəndlər var idi: 1) Şimali Qafqazın Dağlı Xalqları İttifaqı Respublikası Azərbaycan Cümhuriyyətindən iki il müddətinə on milyon rubl faizsiz pul alır və bu ilin noyabrın 1-dən qaytarılmasına başlayır; 2) Dağlı Xalqları İttifaqı Respublikasının əkinçilik rayonlarında hakimiyyət reallaşdırarsa, bu respublika öz borcunu hazırkı müqavilənin 3 və 4-cü bəndlərinə uyğun olaraq buğda ilə əvəz edib ödəyə bilər; 3) Respublikaların razılaşmış hər iki şəxsindən biri bir şəxsi təyin edir və sonuncular öz aralarında razılaşma əsasında üçüncü şəxsi seçir və bu üçlük komissiya formalaşdırır; 4) Bu müqavilənin 3-cü bəndinə əsasən, komissiya müqavilənin müvafiq bəndləri üzrə Azərbaycan Cümhuriyyətinə veriləcək buğdanın növünü və çörəyin qiymətini müəyyənləşdirir..."[6].

B.Cavanşir öz fəaliyyətində Azərbaycan Cümhuriyyətinin qonşu dövlətlərlə ticarət və sənaye sahəsindəki əlaqələrinə böyük diqqət yetirirdi. Onun Ticarət və Sənaye naziri olduğu dövrdə Azərbaycan və Gürcüstan arasında 1918-ci ilin dekabr ayının 26-da çox əhəmiyyətli müqavilə imzalandı. Həmin müqaviləni Azərbaycan hökuməti tərəfindən B.Cavanşir, Gürcüstan hökuməti adından isə Azərbaycanda Gürcüstanın diplomatik nümayəndəsi Nikolay Karcivadze imzalamışdılar. Həmin müqavilədə aşağıdakı mühüm bəndlər nəzərdə tutulmuşdu: "1) Azərbaycandan Gürcüstana, eləcə də Gürcüstandan Azərbaycana yüklərin dəmiryoli ilə rüsumsuz daşınması müəyyənləşdirilir. 2) Azərbaycan hökuməti neft və neft məhsullarının həmçinin bir milyon puddan artıq olmamaqla, Gürcüstan əhalisinin ehtiyacları üçün daşınmasına icazə verir. 3) Daşınan neft və neft məhsullarının miqdarı müqavilə müddətində iyirmi milyon pud həcmini ötməməlidir... 4) Eyni qaydada Gürcüstan hökuməti də Gürcüstandan Azərbaycana əhalinin ehtiyacı üçün olan daş kömür və digər materialların daşınmasına icazə verir..."[7].

Bütövlükdə 19 maddədən ibarət olan bu müqavilənin bağlanması ilə hər iki ölkənin əhalisinin zəruri mallarla təminatına imkan yaranırdı. Həmin müqavilədə Gürcüstan tərəfi çörəyin, qəndin və dərinin rüsum alınmadan aparılmasına razılaşmasa da, digər materialları Azərbaycana rüsum ödənilmədən aparmaq hüququna malik idi.

---

[6] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 40, v. 3-4.

[7] Yenə orada, s. 10, i. 40, v. 101-103.

**1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamenti fəaliyyətə başladı.** B.Cavanşir də parlamentin üzvü oldu. O, parlamentdə bitərəflər fraksiyasında təmsil olunurdu. 1919-cu ilin oktyabrında həmin fraksiyada parçalanma olduğundan B. Cavanşir, B. Axundov və Ə. Əmircanov müstəqil bitərəflər qrupu yaratdılar.

B.Cavanşirin parlamentdəki çıxışlarına ən çox 1919-cu ildəki iclaslarda rast gəlmək mümkündür. Onun 1919-cu ilin 18 oktyabrında parlamentin 85-ci iclasındakı yürütdüyü fikirlər çox önəmlidir.

Parlamentdə "Gömrük idarələrindən alınan vergilər barəsində", Maliyyə naziri hüququnun genişləndirilməsi haqqında" 11-ci məsələ olaraq müzakirə edilirdi. Bu haqda ilk məlumatı M.Hacınski izah etdikdən sonra Ə.Cövdət bəy əlavə fikrini bildirdi. Sonra söz B.Cavanşirə verildi. O, dedi: "Möhtərəm məbuslar! Bu qanun ki, var idi – məmləkətə gələn mallara gömrük qoyulurdu ki, əvvəla vergi alındığı zaman haradan nə qədər mal gətirildiyi məlum olsun. Saniyən də mal az gətirilsin. Fəqət indi siyasət dəyişmişdir. Onsuz da mal az gətirilir. O zaman hər tərəfdən çox mal gətirən olurdu. Rəqabət var idi. Gömrüyün də təsiri olmurdu. İndi isə gömrük qoymaq sui-təsir edir. Ona görə belə ixrac olunan mala nə qədər istəyirsiniz, gömrük təyin ediniz. Amma idxalata gömrük qoymağın məmləkətə xeyri yoxdur. Çünki gömrük qoyduqda həm mal azalır, həm də baha olur"[8].

**B.Cavanşir izahdan sonra fikrini belə yekunlaşdırdı ki, "idxalata gömrük qoyulmasın ki, mal ucuz olsun və camaat ondan faydalansın".**

B.Cavanşirin çıxışından sonra A.Aşurov, M.Hacınski də çıxış edib fikirlərini bildirdilər. Parlament üzvlərinin qərarı ilə bu qanun layihəsi müzakirədən çıxarılıb maliyyə-büdcə komissiyasına göndərildi.

1919-cu ilin noyabrın 10-da Azərbaycan Parlamentinin 96-cı iclası keçirildi. İclasda dinlənilən məsələlərdən biri də "Etimadnamə Komissiyasının məruzəsi" idi (məruzəçi Rüstəmbəyli – red.). Onun çıxışından sonra Ə.Qarayev, S.M.Qənizadə, M.Ə.Rəsulzadə, Ə.C.Pepinov, Kravçenko, M.Mahmudov, M.Şeyxzamanov çıxış etdilər. Təklif səsə qoyulsa da, qəbul olunmadı. Belə olduqda B.Cavanşir çıxış edərək dedi: "Əfəndilər, burada Əhməd bəy dedi ki, Zəngəzurdan 3 zad gəlib, hərə cürbəcür adam tərəfindən qol çəkilibdir. Orada milli komitə yoxdur, bir cəmiyyət vardı ki, kasıblara kömək edirdi, ondan sonra Şeyxzamanov buyurdu ki, Zəngəzur belə gəldi, belə getdi, əvvəlinci gündən ki, biz Gəncədə idik, Dondarlı və Zəngilan bir yerdə idilər. O vaxt da Dondarlı gəlib iştirak edibdir və öz seçkilərində bir nəfər yüzbaşı Parlament üzvlüyünə qəbul göndərmişlərdi.

[8] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 290.

Buraya gələndə o adam İttihad firqəsinə daxil olmuş və sədrimiz izahat veribdir ki, bu seçki düz deyil, o gərək öz yerində təhqiq olunsun”[9].

Sonra B.Cavanşir belə təklif etdi ki, parlamentə üzvün ya xalq, ya da yerli komitələr tərəfindən seçilməsi aydınlaşmalıdır ki, əziyyət çəkilməsin.

Parlamentin 1919-cu ilin 27 noyabrında keçirilən 101-ci iclasında 600 milyonluq “emissiya məsələsi” ilə məsələnin müzakirəsi davam etdirildi. Əsas məruzəçi S.Ağamalıoğlu olmadığından, Y.Əhmədzadə məruzə etdi. Onun məruzəsindən sonra ilk olaraq Q.Qarabəyli, Malxazov, S.Ağamalıoğlu (o, sonradan iclasa gəlib – red.), Ə.Cövdət, M.Əfəndizadə, M.Ə.Rəsulzadə çıxış etdilər.

**Müzakirə olunan məsələyə B.Cavanşir belə münasibət bildirdi: “Möhtərəm məbuslar! Bir məmləkətin yaşamasından ötrü iki şey lazımdır: biri maliyyə, biri də qoşun. Qoşun da maliyyəsiz yaşamaz. Məmləkət üçün müəyyənləşmiş maliyyə siyasəti lazımdır. Görək bu, varmı? Məhəmməd Əmin Əfəndi dedi ki, filan-filan şeylər gələcəkdə olacaqdır. Biz gələcək söhbətini etməyirik, keçmişin söhbətini edirik. Heç bir dövlətdə bizim dövlət qədər dövlət yoxdur. Bizim pullarımızın Gürcüstan və Ermənistan pullarından heç fərqi yoxdur, bəlkə onlardan qiymətlidir. Lakin maliyyə siyasətimiz yoxdur. Buna görə də pulumuzun qiyməti düşür. Bu gün 600 milyon pulu patriotizm və siyasət nöqteyi-nəzərilə gərək qəbul edək. Ola bilməz ki, pul buraxıla və xərc oluna və siz də onu qəbul etməyəsiniz. Məmurların məvacibi verilmirsə, əlbəttə, bu barədə daxildə iğtişaş əmələ gələr. Amma görək hökumət bu işin başında duranların patriotizmi barəsində hanki işləri bizə təsdiq etdirəcək. O qanunlar ki, nazirlərə verilibdir, o qanunlar onlar üçün mütləq olmalıdır”[10].**

**B.Cavanşir çıxışında ölkənin idarə olunması üçün təcrübəli adamların önə çəkilməsini əsas sayırdı. O, vacib bir məqamı da vurğulayırdı: “Məmləkətin xəzinəsini saxlamaq bir şəxsin öz evini saxlaması kimidir”.**

B.Cavanşir çıxışında ölkəyə müxtəlif səbəblərdən gəlib məskunlaşmış insanlardan, onların dövlətə fayda verməsi vacibliyindən danışırdı: “Buraya hər tərəfdən qaçıb gələnlər, məsələn Denikindən, bolşevikdən qaçmışlar, ticarət ilə çalışırlar. Onlar nə əskər verirlər, nə də məmləkət ilə bir əlaqələri vardır. Onların fikirləri cürbəcür pisliklər ilə məmləkəti batırmaq və nəticədə əzməkdir. Vaxta ki siz bizim içimizdə olursunuz, bolşevikdən, menşevikdən qaçıb, burada yaşayırsınız, heç olmazsa bizə kömək ediniz. Onun bir azını da bizə veriniz”[11].

---

[9] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 454-455.
[10] Yenə orada, s. 539.
[11] Yenə orada, s. 542

B.Cavanşir hökumətdə tutduğu vəzifələrdən uzaqlaşdıqdan sonra da əsas fəaliyyətini parlamentdə davam etdirdi. Eyni zamanda o, 1919-cu ilin iyulun 18-də "Dəyanət" kommersiya şirkəti açdı və xarici ticarətlə məşğul oldu[12].

B.Cavanşir təhsil aldığı Almaniyadan yumşaq buğda növləri gətirib Qarabağda əkinçilikdə istifadə etmişdi. Maraqlıdır ki, Qarabağa ilk avtomobili gətirən və bu bölgənin yollarını abadlaşdıran da B.Cavanşir olmuşdur.

1918-1920-ci illərdə Bakıda təntənəli "Azərbaycan gecələri" konsertinin və bir çox cəmiyyətlərin təşkili də onun adı ilə bağlıdır.

Bəzi araşdırmalarda B.Cavanşirin də M.Hacınski ilə birlikdə Sovet Rusiyası ilə yaxınlaşmaq, diplomatik münasibətlər qurmaq cəhdləri qeyd olunur.

**1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra peşəkar mühəndis kimi tanınan və xariclə güclü əlaqələri olan B. Cavanşir neft sənayesi sahəsində çalışmışdır.** Həmin ilin sonunda N.Nərimanov onu müasir neft-mədən avadanlığı almaq üçün Almaniyaya göndərdi (6). B.Cavanşir yolüstü İstanbulda həmyerlisi Ə.Ağaoğlunun evində qaldı. Bir gecə küçə ilə gedərkən arxadan Daşnaksütun partiyasının üzvü Torlakyan tərəfindən atılan güllə ilə qətlə yetirildi.




**B.Cavanşirin qətlə yetirildiyi yer: İstanbul, Pera otelinin yanı.**

Tanınmış tədqiqatçı V.Quliyevin "Ağaoğlular" kitabında həmin hadisəni Əhməd bəyin qızı Sürəyya xanım belə təsvir edir: "Atam Maltadan qayıtdıqdan sonra erməni dostlarından bir professor bizə gələrək, atamın ermənilərin qara siyahısında olduğunu, atamı sevən dost kimi onu xəbərdar etməyi özünə vəzifə bildiyini və buna görə də hərəkət etmək lazım gəldiyini söylədi. Azərbaycanın Daxili işlər naziri olmuş Behbud xan Cavanşirin də ermənilərin qara siyahısında olması xəbərini almışdıq. O arada Cavanşir bəy xanımı və iki qardaşı ilə Parisə getmək üçün İstanbula gəlmişdi. Özü vəziyyətə tez uyğunlaşan adam idi və bizim Şahzadə bağındakı evimizdə beş gün gizli yaşadı. Ancaq rus əsilli xanımı bu həbs həyatına dözə bilməyəcəyini söylədiyindən onlar evimizi tərk edib "Pere Palas" mehmanxanasında yerləşdilər. Ertəsi gün

[12] İ. Əliyeva. Cavanşir nəslinin nazir oğlu. "Azərbaycan" qəzeti, 5 avqust 2015.

səhər tezdən Behbud xanın axşam "Pere Palas" mehmanxanasına gələrkən bir erməni tərəfindən vurulduğunu eşitdik"[13].

B.Cavanşirin qətli ilə bağlı aparılan məhkəmə prosesindən aydın olur ki, o, İstanbula 1921-ci ilin iyun ayının 25-də həyat yoldaşı Tamara Velkonskaya (o, rus xanımı idi), qardaşları Surxay və Cəmşidlə birlikdə gəlmişdir. B.Cavanşirin həyat yoldaşının məhkəmədəki ifadələrindən məlum olur ki, qatili gördükdə bir neçə gün əvvəl onunla Təpəbaşı baxçasında qarşılaşdıqları yadına düşür. Məlum olur ki, erməni terrorçu onları izləyirmiş.




**B.Cavanşirin qətli ilə bağlı İstanbulda keçirilən məhkəmə prosesi haqqında kitab.**

Hadisə baş verən günü, 1921-ci ilin iyulun 18-də axşam saat 23-də B.Cavanşir, həyat yoldaşı və qardaşları ilə birlikdə "Təpəbaşı" teatrından çıxıb, "Pere Palas" otelinə gedirmiş. Bu zaman terrorçu Misak Torlakyan arxadan yaxınlaşıb tapança ilə Cavanşirə üç güllə atıb. B.Cavanşir arxaya dönüb və qatilə doğru irəliləsə də, aldığı yaralardan yerə yıxılıb. B.Cavanşirin qardaşı Cəmşid qatili tutmuş, ona atılan güllə isə sol qaşını yaralayıb. B.Cavanşirin digər qardaşı Surxay və xanımı qatilin üstünə atılmış, onu zərərsizləşdirmişlər. Sonra qatil güllə səsini eşidib gələn polislərə təhvil verilmişdir.

B.Cavanşiri yaxınlıqdakı ingilis xəstəxanasına aparsalar da, onu sağaltmaq mümkün olmayıb və 35 dəqiqə sonra dünyasını dəyişib.

B.Cavanşir ölümündən üç gün sonra İstanbulda, Beşikdaşda Yəhya Əfəndi dərgahının olduğu tarixi məzarlıqda dəfn edildi. Onun başdaşı üzərində bu şeirin misraları yazılmışdı:

*Qaranlıqdan surət aldı bir şeytan,*
*Onun pəncəsində can verdi bir şir.*
*Bir yığın sümükdür torpaqda qalan,*
*Cənnətə yüksəldi Behbud xan Cavanşir.*

*Yolçu, gördüyün bir məqbər deyil,*
*Zülmə zəbun olan hakkın heykəli.*

[13] V.Quliyev. Ağaoğlular. B., 1998, s. 28.

*Keçmə, dur önündə, hörmətlə əyil,*
*Lənətlə an hakka saldıran əli.*

*Əsla uyumasın beynində kinin,*
*Müqəddəs borcundur intiqam almaq.*
*İstərsən yaşasın millətin, dinin,*
*Nur ol, zülməti boğ, nur ol, zülməti yax!*

Hadisədən sonra ağır məhkəmə prosesi başladı. Bu cinayətə dəstək verən erməni dairələri qəzetlərdə elan verərək şahidlər toplamağa çalışdılar[14].

O dövrdə İstanbul İngilis işğal nəzarəti bölgəsi sayıldığından, məhkəmə prosesini də onlar aparırdı. Prosesdə ingilis prokuroru Rickatson tərəfsizliyini qoruyub saxlasa da, onu uzaqlaşdırıb yerinə Çribbonu təyin etdilər.M.Torlakyanın əsas vəkilləri Türkiyə erməniləri olan Xosrovyan və sabiq Sivas vəkili Barsamyan idi. B.Cavanşir ailəsini vəkil Heydər Rifət bəy müdafiə edirdi.

Erməni vəkilləri hər üsuldan istifadə edərək, cinayətkara haqq qazandırmağa çalışırdılar. Bir təqdimatda onun bu cinayəti törədərkən "şüurunun yerində olmaması faktı"nı irəli sürsələr də, Doktor Məzhər Osmanın başçılığındakı həkim heyəti bunu təsdiqləmədi.

Sonradan həkimlərin rəyini "tərəfkeşlik edilib" adı ilə məhkəmə qəbul etmədi, qatilin müayinəsini ingilis həkiminə tapşırdılar.

Bu uydurma rəy əsasında M.Torlakyan İngilis işğal məhkəməsi tərəfindən bəraət aldı. Bundan sonra M.Torlakyan İstanbuldakı bir erməni Patriarxlığına təslim edildi, tez zamanda gəmi ilə Yunanıstanın Pire şəhərinə göndərildi. Yunanıstandan isə onun ABŞ-a getdiyi qeyd olunmaqdadır. Araşdırılan sənədlərdən onun Trabzonda doğulduğu və burada Darülmüəllimdə təhsil aldığı, sonra ailəsi ilə Rusiyaya getdiyi, erməni ordusuna da könüllü olaraq yazıldığı bildirilir[15].

Məhkəmədə şahid qismində ilk olaraq B.Cavanşirin qardaşı Cəmşid, sonra xəstəxananın həkimi C.Hil, xanımı Tamara Velkonskaya, Qalatasaray Mərkəz Polis bölməsinə mənsub 250 saylı türk polis məmuru Əli Əfəndi çıxış etdilər.

Şahid qismində məhkəmədə çıxış edən Azərbaycan Parlamentinin sabiq üzvü, "Azərbaycan" qəzetinin redaktoru Şəfi bəy Rüstəmbəyli bu sözləri dedi: "Rus inqilabından əvvəl Cavanşir məşhur bir mühəndis idi və sırf məsləki ilə məşğul olub siyasi işlərə qarışmazdı. İnqilabdan sonra namuslu bir millətpərvər

---

[14] Ə. Cəmaləddin. Torlakyan davası: Behbud xan Cavanşirin qətli. B., 2007, s. 11.
[15] Yenə orada, s. 26-27.

olaraq Azərbaycan siyasəti və milli məsələlərə qoşuldu. Azərbaycan hökuməti təşəkkül etməzdən öncə özü Müsavat Partiyasına mənsub idi. Azərbaycan Mərkəzi Komitəsinin üzvü olan Behbud xan Cavanşir Mərkəzi Milli Komitənin də üzvlərindən idi. Müsəlman və ermənilər arasında olan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Cavanşir Müsavat Partiyasının ancaq sıravi bir üzvü idi və zənginliyinə baxmayaraq, bu partiyada çox böyük nüfuz sahibi deyildi. Cavanşir çox sülhpərvər olub, ermənilər və müsəlmanlar tərəfindən təşkil edilən heyət üzvü olaraq Gəncə və Qarabağa getdi və erməni-müsəlman münaqişəsini sülh yolu ilə həll etməyə məmur oldu. Cavanşirin Bakı erməniləri arasında da bir xeyli dostu var idi. İlk təşəkkül edən Azərbaycan hökumətində Daxili İşlər naziri olmuşdur. Nazirliyi dövründə fəal adam olduğundan ermənilər və müsəlmanlar ondan çox razı idilər. Behbud xan Cavanşirin nazirliyi dövründə Ermənistanın heç bir tərəfində milli iğtişaşlar olmamışdır. Azərbaycan və Türk ordusu Bakını aldıqdan və hökumət Gəncədən Bakıya gəldikdən sonra Behbud xanın əmrləri və tədbirləri sayəsində Bakıda asayiş və intizam bərpa olundu və heç bir nümayiş olmadı”[16].

Məhkəmədə çıxış edən erməni şahidləri isə B.Cavanşirin ünvanına “şər və böhtan” ifadələri işlədir, onu ermənilərin qətlində günahkar sayır, Bakı alınarkən üç minə qədər ermənının öldürülməsində onun əli olduğunu qeyd edirdilər.

Erməni şahidləri məhkəmə prosesində bütün şantaj vasitələrindən istifadə edirdi. Onlar 1918-ci ilin sentyabrın 15-də Bakı azad edilərkən F.X.Xoyski və B.Cavanşirin əhaliyə müraciətlə yazdıqları bəyannaməni sanki ermənilərin qətlinə başlanması sənədi kimi təqdim edirdilər. Həmin sənədin qəzetdə yayımlanan bir müraciət olduğunu çıxışında bildirən Ş.Rüstəmbəyli belə izahat vermişdi: “Bu əmrnamədə bəzi məsuliyyətsiz şəxslərin soyqun və qəsblərə yol verdiyini, onların hərbi məhkəmələrdə cəzalandırılmasını bildirirdi”[17].

Digər erməni şahidi (Təhməzyan) isə əslən Trabzonlu olduğunu, 1916-cı ildə Bakıya getdiyini, Bakı azad olunarkən B.Cavanşirin və F.X.Xoyskinin verdiyi bəyannamədə ermənilərdən başqa “hər kəsin işi-gücü ilə” məşğul ola biləcəyinin qeyd olunduğunu, ermənilərin bundan qorxub küçələrə çıxa bilmədiyini söylədi.

Məhkəmədə ifadə verən Kirkor Əmiryan da 1918-ci ilin sentyabrın 15-də Bakının azad olunmasından sonra ermənilərin F.X.Xoyski və B.Cavanşirin göstərişi ilə qətl edildiyini söylədi və həqiqətə uyğun olmayan ifadələr verdi.

---

[16] Ə. Cəmaləddin. Torlakyan davası: Behbud xan Cavanşirin qətli. B., 2007, s. 257.
[17] Yenə orada, s. 262.

Pavel Teyğan adlı bir erməni (özünü həm də rusiyalı zabit kimi təqdim edir) də 1918-ci ildə Bakıda olduğunu, Behbud xanın "qətliamlar"da məsuliyyət daşıdığını bildirdi.

Digər şahid olaraq ifadə verən xanım Arus Xandanyan isə "yetimlərinin" B. Cavanşir tərəfindən qətl edildiyini, ondan bunun cavabını soruşduqda, köməkçilərindən birinə onu döyməyi əmr etdiyini söylədi.

Erməni şahidlərin yalan ifadələrinə baxmayaraq, B.Cavanşirin rus millətindən olan həyat yoldaşı Tamara Velkonskayanın məhkəmədə bu sözləri də eşidildi: "Həyat yoldaşım daima Azərbaycan müsəlmanları ilə ermənilər arasında sülh və barışığın təmin və təsisinə çalışırdı. Həyat yoldaşım heç bir zaman nə erməni qətliamlarında iştirak etmiş, nə də bu kimi qətliamlarda məsul olmuşdur. 1918-ci ilin martından, yəni Bakıdan çıxdıqdan sonra həyat yoldaşım təhlükədə olduğunu, erməni qətliamlarından məsul və ya qeyri-məsul olması dolayısı ilə deyil, fəqət müsəlman olduğu cəhəti ilə ermənilər tərəfindən haqqında nifrət yarandığını bilirdi"[18].

Həmin məhkəmədə Ə.Ağaoğlunun qızı, məhkəmədə vəkillik edən Heydər Rifət bəyin katibəsi, sonradan Türkiyədə tanınmış hüquqşünas – vəkil olan Sürəyya Ağaoğlu da iştirak edirdi. Şahidlərdən Qacar nəslindən olan Ziba xanım, Qara Ağazadə, Əhməd Həmdi Qarağazadə, Yusif bəy Qasımov ifadələrində ermənilərin müsəlmanlara qarşı törətdikləri vəhşilikləri qeyd etdilər.

B.Cavanşirin ölümündən sonra qardaşları Cəmşid və Surxay Türkiyədə qalıb yaşadılar, Azərbaycana qayıtmadılar. Həyat yoldaşı Tamara Velkonskaya isə Rusiyaya qayıdıb, ömrünün sonunadək ailə qurmadan Moskvada tənha yaşadı.

Sovet rejimi dövründə B.Cavanşirin Azərbaycanda yaşayan qohumlarını təqib etdilər, sürgünə göndərdilər. Onun bacısı oğlu Ənvər Cavanşir 1948-ci ildə sürgündən qayıdarkən Moskvada yaşayan B.Cavanşirin həyat yoldaşı Tamara xanımla görüşdü. Ondan "Nə üçün yenidən ailə qurub yaşamadınız?" sualına Tamara xanım belə cavab vermişdi: "Behbud xan kimi bir insanı tapmaq qeyri-mümkündür".



**B.Cavanşirin İstanbulda məzarı.**

18 Ə.Cəmaləddin. Torlakyan davası: Behbud xan Cavanşirin qətli. B., 2007, s. 37.

# XOSROV BƏY SULTANOV

(1879 – 1943)



Tanınmış dövlət xadimi Xosrov bəy Sultanov 1879-cu ilin mayında Zəngəzur qəzası Hacısamlı nahiyəsi Qasımuşağı obasının Qurdhacı kəndində (indiki Laçın rayonu) anadan olub. Xarkov Universitetinin tibb fakültəsini bitirib.

1918-ci ildə Tiflisdə Azərbaycan Cümhuriyyəti elan olunanda İstiqlal Bəyannaməsinə ilk imza atanlardan biri də X.Sultanov olub.

X.Sultanov 1918-ci ilin dekabrın 7-dən fəaliyyətə başlayan Azərbaycan Parlamentinə də üzv seçilib.

X.Sultanov F.X.Xoyskinin yaratdığı birinci Hökumət kabinetində Hərbi nazir vəzifəsini icra edib.

O, 1919-cu ilin yanvarın 15-də Qarabağın general-qubernatoru təyin edilib. 1919-cu ildə Xankəndinin, Şuşanın, Əsgəranın erməni silahlılarından azad edilməsində böyük xidmətləri olub.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra X.Sultanov Türkiyəyə gedib.

X.Sultanov 1943-cü ildə İstanbulda vəfat edib.

# HƏRBİ NAZİR, QARABAĞIN GENERAL QUBERNATORU

**Azərbaycanın ilk Hərbi naziri və Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov** 1879-cu ilin may ayında Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin, Qasımuşağı obasının Qurddağı kəndində (indiki Laçın rayonu) anadan olmuşdur. O, Xarkov Universitetinin tibb fakültəsində təhsil almışdır. Bir müddət Müsavat, sonradan isə İttihad Partiyasının üzvü olmuşdur.

Belə məlumatlar da var ki, X.Sultanov tələbəlik illərində bir rusla duelə çıxaraq sol gözündən zədə alsa da, atəş açaraq həmin gənci məğlub etmişdir. Bu fakt isə X.Sultanovun hələ gənclik illərindən qorxmaz, cəsarətli bir insan olduğunu sübut edir.

X.Sultanovun fəaliyyətinin əsas bir dövrünü də onun Birinci Dünya savaşı illərində Rusiya işğalına uğrayan Türkiyə torpaqlarında Anadolu türklərinə göstərilən yardımdakı fəaliyyətidir.

Məlum olduğu kimi, Rusiya ilə Türkiyə arasında müharibənin başlanması ilə sərhəddə yerləşən Batum və Qars bölgələrinin müsəlman əhalisi çox ağır vəziyyətə düşmüşdü. Müharibə başlayanda Qarsda yaşayan erməni əhalisi təcavüzkarlıq edərək çoxlu sayda müsəlmanları qətlə yetirmişdi. Sərhəd bölgəsində olan Oltu, Tavus, Qars, Ərdəhan, Gil, Caldır, Artvin və Ardanuc bölgələrində silahlı erməni könüllü dəstələri dinc əhaliyə qarşı vəhşiliklər törətmişdilər. Rusiya hökumətinin oradakı nümayəndəsi isə bu qətliama laqeyd yanaşmışdı. O dövrdə Qars qubernatoru Podqorskinin rəsmi dəvətindən sonra Bakıdan Ağa Balaquliyev, doktor Vəkilov, Gəncədən Aslan bəy Səfikürdski hadisə yerlərinə getmiş, Sarıqamışda olmuş, Xorasan bölgəsini gəzib qayıtdıqdan sonra müsəlmanların çox acı durumda olması ilə bağlı hökumətə məruzə təqdim etmişdilər[1].

1915-ci ilin noyabrında qərar verildi ki, Bakı Cəmiyyəti Xeyriyyələrindən və hökumətin digər xeyriyyə cəmiyyətlərindən ibarət bir komitə yaradılsın. Komitədə Mirzə Əsədullayevin sədrliyi ilə bu şəxslərdən ibarət heyət formalaşdı: mühəndis Fətulla bəy Rüstəmbəyov, Həbib bəy Mahmudbəyov, Behbud bəy Cavanşir və Babayev. Müsəlmanlara yardım etmək üçün digər bir dəstə adamın göndərilməsi də qərara alındı. Heyətin təşkili Bakıda Xosrov bəy Sultanova, Gəncədə isə Aslan bəy Səfikürdskiyə tapşırıldı. 1916-cı ilin martın 16-da 10 nəfər köməkçidən (Bakıdan Hüseynov, İlyasov, Mahmudov, Məhəmmədov, Mirzəcamalov, Vəkilov və Gəncədən Axundzadə, Şahsuvarov, Nəzərəliyev) ibarət olan

[1] "Qardaş köməyi" jurnalı. B., 2013-cü il, s.44.



**X.Sultanov.**

bir heyət X.Sultanov və A.Səfikürdski ilə birgə Qarsa getdilər və orada müsəlmanların vəziyyətinin həqiqətən ağır durumunun şahidi oldular.Məlum oldu ki, Hökumətin (Rusiya hökumətinin) buradakı komitəsi ancaq ermənilərə yardım göstərir, müsəlmanları özlərinə xain hesab edirdi.

Komitənin bu laqeydliyi və qeyri-insani mövqeyindən narazı qalan X.Sultanov komitənin iclasında müsəlmanlara yardım göstərilməsinin vacibliyini söyləyir. Onun bu mövqeyindən acıqlanan qubernatorun: "Nə deyirsiniz, xainlərə yardım etmək istəyirsiniz?" sualına X. Sultanov cavab verir ki, onların xəyanəti yalnız məhkəmə ilə sübut oluna bilər. Sübut edilməyibsə, deməli xain deyillər. Belə olduqda, qubernator bölgə rəisinin bu fikri söylədiyini qeyd edir. Qubernatorun bu əsassız cavabından sonra komitənin qərarı əsasında X.Sultanov köməkçiləri ilə Ərdəhan müsəlmanlarına yardımı öz üzərinə götürür[2].

X.Sultanov 1917-ci ildə nəşr edilən "Qardaş köməyi" jurnalındakı "Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi Hərbzadələrə Yardım Şöbəsinin fəaliyyəti" məqaləsində yazırdı: "Onların ümidgah və pənahı ancaq bir Allah idi. Bizim adamlarımız ürəkdə məhəbbət, gözlərində həmdərdlik və üzlərində qardaşlıq hissi ilə gəldikdə ilk vaxtlar məhəlli əhali çəkmiş olduqları müsibət, görmüş olduqları həqarət və təcavüz edilmiş namuslarına baxaraq, eyni zamanda qardaş köməyi uzadan əllərin varlığına şad olaraq deməyə söz tapmır, ancaq "Sizi Allah göndərmişdir" deyirdilər. Köməkçilər öz vəzifələrini qorxusuz, böyük fədakarlıq ilə, eyni zamanda da öz hüquq və şərəflərini bilərək yaxşı taktika ilə ifa edirdilər. Allahsız yunanların, ermənilərin və xırda hökumət məmurlarının insafsız əməllərini mənə bildirirdilər. Mən də Qafqaz Hökuməti aliyyəsi ilə Duma Vəkili Cəfərova xəbər verirdim. Müsəlmanlar bir az asudə nəfəs almağa başladılar"[3].

X.Sultanovun fəaliyyətinin ən mühüm dövrü 1918-1920-ci illərə aiddir. 1918-ci ildə onun Zaqafqaziya Seymindəki fəaliyyətindən sonra daha məsuliyyətli bir dövrü başladı. O, yaxın ideya və məslək dostları ilə birgə Azərbaycanın müstəqilliyi mücadiləsinin əsas şəxsiyyətlərindən birinə çevrildi. M.Ə.Rəsulza-

[2] "Qardaş köməyi" jurnalı. B., 2013-cü il, s. 45.
[3] Yenə orada, s.45-46.

dənin hazırlayıb Batumdan göndərdiyi İstiqlal Bəyannaməsini imzalayanlardan biri də X.Sultanov oldu. O, 1918-ci ilin mayın 27-də yaradılan Azərbaycan Milli Şurasının da üzvü seçildi. Azərbaycan İstiqlalını mayın 28-də rəsmi olaraq elan edən qurum X.Sultanovun da üzv seçildiyi Azərbaycan Milli Şurası idi.

**Azərbaycan İstiqlalı elan edilən gündə – mayın 28-də Fətəli xan Xoyskinin başçılığı altında ilk Hökumət kabinəsi formalaşdı. Azərbaycanın ilk Hərbi naziri vəzifəsi X.Sultanova tapşırıldı.**

1918-ci ilin iyununda Azərbaycan hökumətinin Tiflisdən Gəncəyə köçməsi ilə bağlı ilkin hazırlıq işlərinin aparılması üçün N.Yusifbəyli və Ş.Rüstəmbəyli ilə birlikdə X.Sultanov da Gəncəyə getdi, burada mühüm işlərə köməklik göstərdi.

1918-ci ilin iyunun 17-də Gəncə şəhərində Azərbaycan Milli Şurasının növbəti toplantısında F.Xoyskinin başçılığı altında **ikinci Hökumət kabinəsi** formalaşdı və X.Sultanova bu dəfə Azərbaycanın Əkinçilik naziri vəzifəsi tapşırıldı.

1919-cu ilin yanvarın 15-dən X.Sultanov Qarabağın general-qubernatoru təyin edildi.

1919-cu ilin 29 yanvarında Azərbaycan hökumətinin keçirdiyi iclasda "Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarına general-qubernator təyin edilməsi haqqında DİN-nin məruzəsi dinlənildi və aşağıdakı qərarlar qəbul olundu:

1. Xosrov bəy Sultanov general-qubernator təyin edilsin;

2. Nazirliyin iyirmi milyonluq fondundan general-qubernatorluğun ehtiyacları üçün beş milyon manat ayrılsın..."[4].

Arxivlərdə X.Sultanovun Qarabağda apardığı əməliyyatlarla bağlı əhəmiyyətli məlumatlar vardır. Bu məlumatlar X.Sultanovun böyük təhlükə və çətinliklər içərisində olsa da, öz vəzifəsini icra etdiyini göstərir.

X.Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə başlayarkən xalqa müraciət ünvanladı. Həmin müraciətdə o, başçılıq edəcəyi qurumun fəaliyyəti haqqında xalqı bilgiləndirdi.

1919-cu ilin 11 fevralında "Azərbaycan" qəzetində çap olunan bir yazı belə adlanırdı: "Müvəqqəti general-qubernator X.Sultanovun Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının əhalisinə müraciəti".

Müraciətdə yazılırdı: "Azərbaycan hökumətinin yanvar ayı qərarı ilə Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları xüsusi general-qubernatorluğa ayrılmışdır. Bu fövqəladə tədbirlər fövqəladə vəziyyətdən irəli gəlmişdir. Azərbaycanın təqribən yarısında, onun ən yaxşı hissəsi – 4 qəza artıq bir ilə yaxındır ki, anarxiya ucbatından dağılır. Şəxsi firavanlığı yüksək ideal sayan məsuliyyətsiz elementlərin rəhbərliyi al-

[4] L. Şüküroğlu. Cümhuriyyət Hökuməti repressiya məngənəsində. I c. B., 2000, s.101.

tında olan bandalar diyarı viranə qoyur; kəndləri yandırır, əhalini qırır, on minlərlə yurdsuz-yuvasız qadın və uşaq qaçqın düşmüşdür, yuxarıda göstərilən elementlər milli ədavət yayırlar. Əhalidən ümumi siyasi vəziyyət gizlədilir. Bu şəxslər öz şəxsi mənafelərini güdür, öz cəhdlərini partiya ideya forması donuna salırlar.

Öz həyatını xalqa xidmətə sərf etmiş ictimai xadim kimi mən milli mənsubiyyətindən asılı olmayaraq hamıya eyni münasibət göstərməyi, ciddi ədalət və qanunçuluq mövqeyində dayanmağı hakimiyyətin borcu sayıram. **Azərbaycanın müstəqilliyi, ərazi toxunulmazlığı, şəxsiyyətin ciddi məsuliyyəti və əmlak toxunulmazlığı – diyarın həyatı bu əsaslar üzərində qurulacaqdır"[5].**

X.Sultanov general-qubernator vəzifəsinə başlayanda bölgədə acınacaqlı durum vardı. Onun 1919-cu ilin fevralın 15, 16, və 17-də qəza rəisləri və ictimai xadimlərinin iştirakı ilə keçirdiyi ümumbölgə müşavirəsində məlum olurdu ki, indiyədək Zəngəzurda 166 kənd dağıdılmış, onların əhalisinin 30 faizi məhv edilmişdir. Bu müşavirədə Andronikin silahlı dəstəsinin bölgədən çıxarılması qəti olaraq qərara alındı.


Азербайджанская Республика
М. В. Д.
Вр. Генералъ Губернаторъ
Зенгезурскаго, Шушинскаго,
Джеванширскаго и Джабраильскаго
уѣздовъ
мая 1919 г.
№ 1348
Гор. Шуша

ЕГО ВЫСОКОПРЕВОСХОДИТЕЛЬСТВУ

Господину Предсѣдателю Совѣта Министров Азербайджанской Республики.

Представляя при сем копію схемы прохожденія кочевников на лѣтніе эйлаги, сообщаю Вашему Высокопревосходительству, что безболѣзненное передвиженіе кочевников по Шушинскому и Джеванширскому уѣздам, обезпечивается англичанами, а для Джабраильскаго уѣзда необходимо занятіе Герусов, для чего потребна охрана в 2000 человѣк / пѣхоты и кавалеріи/с артиллеріей и пулеметами.

Вр. Генерал-Губернатор

X.Sultanovun imzaladığı sənəd. Şuşa, 8 may 1919-cu il.

Ermənistan hökuməti X.Sultanovun general-qubernator təyin edilməsinə etiraz edirdi. General-qubernatorluğun yaradılması ilə bağlı Tomsonun Ermənistan hökumətinin üzvləri ilə İrəvanda 1919-cu ilin martın 28-də və aprelin 6-da keçirilən müşavirələrində ermənilər narazılıqlarını bildirirdilər. İkinci müşavirədə ermənilərin etirazına (xüsusən Xatisyan) cavab olaraq Tomson demişdi: "Sultanov ingilis zabiti Mak Mossenə tabe olacaqdır"[6].

[5] "Azərbaycan" qəzeti, 19 fevral, 1919-cu il.
[6] L.Şüküroğlu. Cümhuriyyət Hökuməti repressiya məngənəsində. I c. B., 2000, s.105.

Ermənistanın o dövrdə Xarici İşlər naziri olan S.Tiqranyan 1919-cu ilin yanvarında Azərbaycan hökumətinə teleqram göndərərək ərazi iddialarını irəli sürmüş və X.Sultanovun təyinatına ciddi etiraz etmişdir.

Ermənistan hökumətinin Azərbaycandakı diplomatik nümayəndəsi T.Bekzadyan isə Britaniya komandanlığının nümayəndələri ilə görüşdə həmin bölgədə ingilis general-qubernatorluğunun yaradılması fikrini irəli sürmüşdür.

Həmin dövrdə Xarici İşlər naziri vəzifəsini icra edən A.Ziyadxan 1919-cu ilin yanvarın 31-də Ermənistan hökumətinə 178 saylı teleqram göndərərək, Zəngəzur və digər bölgələrin Azərbaycanın tərkib hissəsi olduğunu əsaslandırmışdı.

X.Sultanovun Azərbaycan Nazirlər Şurasının Sədri N.Yusifbəyliyə Şuşadan 1919-cu ilin 8 mayında göndərdiyi 1348 saylı məlumatda maldarların yaylaqlara təhlükəsiz gedə bilməsini təmin etmək üçün Gorus bölgəsini tutmağın zəruriliyi bildirilirdi. Həmin məlumatdan: "Cənab əlahəzrətə bildirirəm ki, maldarların yaylaqlara təhlükəsiz keçməsi sxeminin surətini Sizə göndərirəm və qeyd edirəm ki, onların Şuşa və Cavanşir bölgəsindən keçməsi faydasızdır. Bundan ötrü Görusu tutmaq lazımdır. Bu əməliyyat üçün artilleriya və pulemyotla təchiz edilmiş iki min nəfərlik piyada və atlı lazımdır. General-qubernator Sultanov"[7].

X.Sultanovun 1919-cu ilin iyunun 5-də Ağdamdan Baş Nazir N.Yusifbəyliyə göndərdiyi teleqramda Şuşada ermənilərlə baş verən toqquşmanın təfərrüatları qeyd olunur. Həmin teleqramdan: "Dünən – 4 iyunda Şuşada ermənilərlə kiçik toqquşma baş verdi: atışma oldu. Lakin bu gün sülh yolu ilə həll etmək mümkün oldu. Bu gün Azərbaycandan Erməni Milli Şurasının fəalları olan Avetisyan, Tumanyan, İşxanyan göndəriliblər. İki nəfər özləri tez gedib, iki nəfər isə bu günlərdə göndəriləcək. Sabah – iyunun 6-da erməni tərəfdəki kazarmalar alınacaq. General-qubernator Sultanov"[8].

X.Sultanovun 1919-cu ilin 26 iyulunda Şuşadan S.Mehmandarova göndərdiyi 3743 saylı məlumatda Naxçıvanla kommunikasiyanın təminatı üçün Zəngəzura qoşun göndərib, Bazarçay kəndinin alınması qeyd olunurdu. Həmin məlumatdan: "Zəngəzurla Naxçıvanın əlaqəsi probleminin həll edilməsi ancaq Zəngəzurda hərbi hissələrin gücləndirilməsi ilə mümkündür. Bu haqda mən Sizinlə şəxsən danışdım və Siz də razılaşdınız. Bu məsələni indi əlverişli bir məqamda, maldarlar dağlarda, ermənilərdən arxada olarkən, qan tökmədən həll etmək olar. Bazarçay yaxınlığında olan Qızıl Boğaz və Bazarçay yerlərini tutmaqla, buradakı malakan əhalisi Azərbaycan hakimiyyətini tanımağa hazırdır. Və bundan

[7] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 96, v. 58.
[8] Yenə orada, s. 1, iş 65, v. 62.

ötrü onlar öz nümayəndələrini Xalq milisinin rəisi Sultanovun yanına göndərmişlər. Və məsələ bununla da öz-özlüyündə həll edilir.

Odur ki, cənab əlahəzrət, hərbi hissə dəstələrinin Xalq milisi dəstələri ilə birgə Bazarçay kəndini almaq üçün Sizin sərəncam verməyinizi xahiş edirəm.

Aldığım məlumata görə, Mərcanlı maldarları döyüşçülərimiz üçün bir neçə yüz buynuzlu heyvan verməyə razılaşıblar. General-qubernator X.Sultanov"[9].

X.Sultanovun 1919-cu ilin dekabrın 14-də Daxili İşlər Nazirinə göndərdiyi məktubda Zəngilan əhalisinin ermənilərdən müdafiəsi üçün ora kömək göndərdiyi məlumatı verilirdi[10].

X.Sultanovun və T.Novruzovun N.Yusifbəyliyə ermənilərin Zəngəzurda bütün cəbhə istiqamətində hücuma hazırlaşdıqları ilə bağlı teleqramı 1920-ci ilin martın 23-də Şuşadan göndərilmişdi. Teleqramda bildirilirdi: "Zəngəzur uyezdinin rəisindən indi aldığım məlumatın məzmununu çatdırıram: "Ermənilər bütün cəbhə boyunca ciddi kəşfiyyat aparırlar. Etibarlı məlumatlara görə, bütün cəbhə istiqamətində hücuma hazırlaşırlar. Onların başlıca məqsədi Qarabağla birləşməkdir. Partizan dəstəsinin komandiri təcili olaraq əlli min türk, iki yüz min rus, əlli min lebelev, on beş min ingilis, iki yüz min Berdanoklu güllə göndərməyi xahiş edir. Göndərilən güllələr ancaq bir döyüşə kifayət edəcək. Xahiş edirik general Şıxlinskinin vəd etdiyi dağ-batareya piyada alayının göndərilməsinə sərəncam verəsiniz. General-qubernator X.Sultanov; dəstə rəisi general Novruzov"[11].


от II сентября за № IOIO, :армяне сел. Мугандкуг напали на мусульманское село Давутлу, с цѣлью поджога домов; но упорное сопротивленіе мусульман заставило их отступить.

4/ По рапорту Пристава 3 уч., от II сентября за № 1009, :9 сего сентября армяне-Зейвинцы сдѣлали нападеніе на Зорскую позицію мусульман и послѣ получасовой стрѣльбы угнали двух ишаков. Во время перестрѣлки убит один армянин.

Об изложенном сообщаю Вашему Высокопревосходительству для свѣдѣнія.

Генерал-Губернатор

**X.Sultanovun imzası ilə məktub.**

X.Sultanovun 1920-ci ilin martında göndərdiyi teleqramda vəziyyətin getdikcə gərginləşdiyi görünürdü. Onun 1920-ci ilin 24 martında Ağdamdan M.Vəkilova Xankəndi və Şuşada gedən döyüşlər haqqında-

[9] Yenə orada,. s.1, iş 65, v. 70.

[10] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, iş 7, v. 112.

[11] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 82.

kı teleqramda yazılırdı: "Martın 23-də ermənilər gecə yarısı bizim Xankəndində olan döyüş hissəmizə güclü hücum etdilər. Eyni zamanda ermənilər Şuşaya da hücuma keçdilər. Hücumun qarşısı alınıb, ətraflarda atışma gedir. Şuşa Şuşukənddən bombalanır. Ağdam-Şuşa arasında olan teleqraf kəsilib. Ekstremistlərin uzaqlaşdırılması üçün bütün tədbirlər görülür. Qəzəblənmiş əhali tabeçilikdən çıxır. Dəstə rəisi tərəfindən Hərbi-səhra məhkəməsi yaradılıb. Xahiş edirəm, təcili olaraq adamlarla, başlıcası patronla kömək edin. General-qubernator X.Sultanov"[12].

X.Sultanovun Qarabağda hadisələrin təhlükəli inkişafı ilə əlaqədar partizan dəstələrinin yaradılması elanı haqqında parlamentin sədri M.Y.Cəfərova teleqramı: "Ermənilər bu gün Xankəndinə hücum etdilər. Şuşadan olan teleqraf xətləri qəsdən kəsilib. Mənim agentlərdən alıb dəfələrlə Sizə çatdırdığım məlumatlar teleqrafla da özünü doğruldur. Xankəndinə hücumun nəticələri haqqında hələ məlumatım olmadan yazıram. Hamıya partizanların mobilizasiya edilməsi haqqında əmr göndərilib. General-qubernator Sultanov"[13].

1920-ci ilin martın 31-də X.Sultanovun və K.Əliverdiyevin M.Vəkilova Şuşada, Xankəndində, Əskəranda ağır vəziyyət və təcili köməklə bağlı digər teleqramında bildirilirdi: "Sizin 28 martda olan gizli məlumatınıza uyğun olaraq 29-da səhər Əskərana hücum gözləyirdik. Gizli məlumatdakı təxmini gözləntiyə görə hücum Xankəndi tərəfdən başladı. Bizə məlum olmayan səbəbə görə, Əskəran bu günə qədər alınmayıb. Dünən cəbhədən aldığımız məlumata görə, Zəngəzur erməniləri Bağırbəyli kəndini, Qarabağ erməniləri isə Müsəlmanlar kəndini ələ keçiriblər. Beləliklə, zəngəzurlularla qarabağlılar arasında əlaqə yaranıb. Bu gün, yaxud sabah, saat 10-a qədər gözləmək lazımdır. Səhər Şuşaya, yaxud Şuşadan keçib erməni yaşayış yerlərindən birbaşa Xankəndi və Əskərana gedilməlidir. Bütün əhali səfərbər və təşkil edilib, ermənilərin hərəkətinin qarşısının alınması və müdafiə üçün lazım olan yerlər tutulub. Əgər kömək bir gün gecikərsə, o artıq kömək olmayacaq. Təcili cavab gözləyirəm.

Bundan əlavə, bizdə bütün güllələr qurtarıb. Partizanlar üçün güllə yoxdur. Xankəndi anbarından 150 min üçxətli və 50 min mauzerin ayrılması ilə bağlı təcili sərəncam verməyinizi xahiş edirəm. General-qubernator Sultanov. Parlament üzvü Əliverdiyev"[14].

---

[12] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 90.
[13] Yenə orada, v. 95.
[14] Yenə orada, v. 98.

X.Sultanovun Qarabağın general-qubernatoru təyin edilməsi erməniləri narahat edirdi. Xarici İşlər Nazirliyinin Azərbaycan hökumətinin Qarabağda fəaliyyətinə Ermənistan hakimiyyətinin mane olması ilə əlaqədar nota verməsi haqqında Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi Təkinskiyə 1720 saylı 18 iyun 1919-cu il tarixli məlumatında bu haqda bilgilər vardır: "Ermənistan hökumətinə xəbər verin: Sultanov Azərbaycan hökumətinin 15 yanvar 1919-cu il tarixli qərarı ilə. Azərbaycan Respublikası tərəfindən Azərbaycanın ayrılmaz və mübahisəsiz torpaqları olan Şuşa, Zəngəzur, Cəbrayıl, Cavanşir qəzalarının general-qubernatoru təyin edilib və bu, aprelin 3-də İttifaq Komandanlığı tərəfindən rəsmi qəbul edilib. Bu səbəbdən Sultanovun fəaliyyətinə və Azərbaycan qoşunlarının Qarabağa daxil olmasına erməni hökumətinin hər hansı etirazı Azərbaycan Respublikasının daxili işlərinə qarışmaqdır və müzakirə edilə bilməz. Şuşa rayonunda baş verən özbaşınalıqlarla bağlı isə general-qubernator tərəfindən güclü tədbirlər görülüb və həyat normal axarına düşüb"[15]

Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi Təkinskinin Yerevandan 1919-cu ilin 26 iyununda Azərbaycanın Xarici İşlər naziri M.Y.Cəfərova göndərdiyi 1874 saylı məlumatda qeyd olunurdu: "1919-cu ilin 25 iyununda mən Ermənistan Respublikasının Xarici İşlər nazirliyinə 224 saylı nota təqdim etdim: "Hökumətimin tapşırığı ilə Sizə bildirirəm ki, Sultanov Azərbaycan Respublikasının 15 yanvar 1919-cu il qərarı ilə Azərbaycan Respublikasının mübahisəsiz və ayrılmaz hissəsi olan Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının general-qubernatoru təyin edilib və aprelin 3-də rəsmi tanınıb. Odur ki, Sultanovun fəaliyyəti, yaxud Azərbaycan qoşunlarının qeyd etdiyimiz bölgələrdə yerləşməsinə erməni respublikasının hər formada etirazı Azərbaycan Respublikasının daxili işlərinə qarışmaq kimi qəbul edilir. Qarabağın general-qubernatoru Sultanov enerjili tədbirləri ilə Şuşa rayonunda qayda yaratmış və həyat öz axarı ilə davam edir. Xahiş edirəm, mənim inamım və Sizə olan hörmətimi qəbul edəsiniz. Diplomatik nümayəndə Təkinski"[16].

1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal edildi. Bu işğaldan sonra X.Sultanovun həyatında ağır dövr başladı.

Bolşeviklərin Azərbaycanı işğal etməsindən az sonra – 1920-ci ilin mayın 1-də X.Sultanov Qarabağ Hərbi İnqilab Komitəsini yaradıb sədri oldu[17]. Komitə Şuşa şəhərində yerləşirdi. İnqilabi Komitənin tərkibi aşağıdakılardan ibarət idi: Bahadur Vəlibəyov (sədr müavini), Məmməd Həsən Mirzəcanov (katib), üzvlər:

[15] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 25.
[16] Yenə orada, v. 30.
[17] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PR 20584 saylı Xosrov bəy Sultanovla bağlı istintaq işi, v. 10.

Ocaqqulu Musayev, Məmməd Əli Qayıbov, Fərhad Ağayev. Hətta İnqilab Komitəsinin qərarında qeyd edilirdi ki, bu dövrə qədər mövcud olan partizanlar bu gündən Qırmızı kəndli qvardiyası adlansın, qəza rəisləri və pristav vəzifələri ləğv edilərək qəza və sahə komissarları ilə əvəz olunsun[18].

Xosrov bəy Sultanov 1920-ci ilin mayın 10-da Şuşadan Bakıya gəlir və bununla bağlı ona başçılıq etdiyi Müvəqqəti Qarabağ İnqilab Komitəsinin 50 saylı mandatı verilir[19].

X.Sultanov Bakıya gəldikdən iki gün sonra – mayın 12-də 519 saylı həbs kağızı əsasında azadlıqdan məhrum edildi. Onun XI Ordunun Hərbi tribunalının rəisi Pankratovun göstərişi əsasında həbsi qeyd olunur.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin arxivində saxlanılan PR 20584 saylı istintaq işindəki sənədlərdən, onun mayın 12-də həbs edildiyi, həmin işin isə avqustun 9-da dayandırıldığı məlum olur[20].

İstintaq sənədlərində X.Sultanov özü haqqında bu bilgiləri verir: 1879-cu ilin aprelin 10-da anadan olub, Bibiheybətdəki neftsənayeçiləri xəstəxanasında həkim işləyib, cəbhədə Qaçqınlara kömək üzrə ictimai təşkilatın səlahiyyətli nümayəndəsi olub, Müsəlman-kəndli qurultayının sədri seçilib, Seymin üzvü olub[21].

X.Sultanov istintaq sənədlərində Xarkovdakı Tibb İnstitutunda oxuduğunu, ailəsinin olmadığını da qeyd edir. Həbs edildiyi sonuncu ildə Şuşada yaşayıb.

Bolşeviklər X.Sultanovu ağır cəzaya məhkum etməyə hazır-


А. С. С. Р.
ЧРЕЗВЫЧАЙНАЯ КОМИССИЯ
Арестный лист № 519
12 мая 1920 г.
Фамилия Султанов Имя и отчество Хосров Паша-Оглы
Адрес:
Возраст
Образование высшее
Профессия доктор медицины
Где работает и долго ли
Состоит ли членом какой либо организации и долго ли
На какия средства живет на жалованье
Имеет ли семью нет
Кем арестован
На каком основании предписание т. Панкратова
Подпись:
Приметы:
Сдал: Принял

**X.Sultanova aid həbs sənədi.**

[18] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PR 20584 saylı Xosrov bəy Sultanovla bağlı istintaq işi, v.11.
[19] Yenə orada, v. 14.
[20] Yenə orada, v. 4
[21] Yenə orada.

laşırdılar. Odur ki, 1920-ci ilin avqust ayının 9-da X.Sultanovun işi Ali Tribunalın məhkəməsinə verildi.

X.Sultanovun həbsdən azad olunması haqqında sənədlərə əsaslanan faktlar yoxdur.

DTK-nın arxivində onunla bağlı saxlanılan PR-20584 saylı istintaq işində Az. Çekanın səlahiyyətli nümayəndəsi olan Səfikürdlü tərəfindən onun istintaqının yekun sənədləri Azərbaycan SSR-nin Ali Tribunalına verildiyi qeyd olunur[22].

X.Sultanova Ali Tribunalda hansı hökmün kəsildiyi haqqında sənədlərdə məlumat yoxdur.

Bu mərhələdə X.Sultanova ciddi köməklik göstərildi və o, həbsdən azad olundu. Bu köməyin də ona N.Nərimanov və Ç.İldırım tərəfindən göstərilməsi ehtimalı vardır.

Bir məlumatda isə X.Sultanovun həbsdən qaçırılmasını qardaşı Sultan bəyin göndərdiyi adamların təşkil etdiyi qeyd olunur.




**X.Sultanova aid istintaq sənədi.**
**12 may - 9 avqust 1920-ci il.**

Əlyaşa Musayev isə (o, peşəcə rus dili müəllimi olmuşdu) "Qartal yuvası" kitabında bu işi həyata keçirən şəxsin laçınlı Oçaqqulu Musayev olduğunu qeyd edir.O.Musayevi sonradan ermənilər 22 yaşında qətlə yetirdilər.

X.Sultanov həbsxanadan çıxdıqdan sonra Qarabağa getmiş,1922-ci ilə qədər Abdallı bölgəsində gizli yaşamışdır. 1922-ci ildə o, qardaşı Sultan bəylə birlikdə İrana getməyə məcbur olmuşdur.

Qeyd edək ki,1920-ci illərdə, xüsusən Qarabağ bölgəsində İttihad Partiyasının çoxlu tərəfdarları var idi. Bu da hər şeydən əvvəl X. Sultanovun təbliğatı nəticəsində mümkün olmuşdur. Sovet məmurları isə İttihadı bəy-xan partiyası olaraq xalq arasında nüfuzdan salmağa çalışırdılar.

---

22 Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PR 20584 saylı Xosrov bəy Sultanovla bağlı istintaq işi, v. 21.

Belə faktlara da rast gəlinir ki, X.Sultanov İrana keçdikdən sonra Azərbaycanın Qarabağa yaxın olan sərhəd bölgələrinə ciddi təsirlər göstərmişdir. 1925-ci ilin sonunda o, Zəngilan rayonu ərazisində İranla sərhəddə yerləşən Mincivan bəylərinə Qarabağda Qızıl Ordu əsgərlərinin və zabitlərinin sayı, kommunistlərin, milislərin sayı, ərzaq və dövlət anbarları barədə məlumat toplamaq üçün göstəriş vermişdi[23].

Bundan sonra X. Sultanovun Türkiyədə, Almaniyada, Fransada, Polşada ağır mühacirət həyatı başladı. Həmin ölkələrdən (xüsusən Türkiyədən) onun İrana keçməsi, burada sovet rejiminə qarşı mücadilə əzmində olan əqidə dostları ilə görüşməsi haqqında məlumatlar vardır.

X.Sultanov mühacirət həyatının ağır şərtləri daxilində yaşamağa məcbur olmuşdur. Bu ağır şərtlərə aşağıdakı məqamlar daxil idi: vətənsizlik, vəsaitsizlik, sovet casus şəbəkəsinin təqibləri, sovet Azərbaycanında qalan qohum-əqrəbanın həbsi, incidilməsi və s. Buraya bir problemi də əlavə etmək mümkündür: müxtəlif ölkələrdən və Azərbaycandan olan mühacirlər arasında ziddiyyətlər və çəkişmələr.

X.Sultanovun mühacirət həyatının Türkiyə dövrünə aid məlumatlara G.Mamiliya və R.Abutalıbovun 2014-cü ildə Bakıda Azərbaycan və rus dillərində nəşr etdikləri "Odlar yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi. 1920-1945-ci illər" kitabında rast gəlirik.

Məlum olur ki, Müsavat Partiyasını tərk etmiş müəyyən sayda insanlardan 1924-cü ilin payızında İstanbulda X.Sultanovun rəhbərliyi altında bir qrup yaradıldı. Mühacirlərin Mərkəzi orqanı olan İstiqlal Komitəsini tanımaq istəməyən bu qrup Azərbaycan Milli Demokratik Respublika Partiyasını yaratdıqlarını elan etmişdilər. X.Sultanovun qardaşı İskəndər bəy Sultanovun Azərbaycan-İran sərhədində üsyançı dəstəyə başçılıq etməsi və tez-tez Qarabağa hücum edib işğalçı sovet hökumətinə problemlər yaratması mühacir dairələrdə X.Sultanovun mövqeyini möhkəmləndirirdi.

Bunun nəticəsi idi ki, Polşanın Türkiyədəki rəsmisi Roman Knoll


ПОСТАНОВЛЕНИЕ

1920 года, Августа 9 дня. Я, Уполномоченный Азерб.Ч. М.САФИКЮРДЛИ согласно постановления Ревкома от 22 мая и так же Комиссариата Юстиции от 22 мая о предании суду Верховного Трибунала Хорова Султанова и принимая во внимание отношение следственного Отдела Верховного Революционного Трибунала от I Августа за № 1762 ПОСТАНОВИЛ: весь имеющийся материал на Хорова Султанова передать в Верховный Трибунал Азерб. С.Р.

Уполномоченный [signature]

**X.Sultanovun istintaq işinin Ali Tribunala verilməsi qərarı.**

[23] V. Quliyev. Biz gedəsiyik, dünya qalası. B., 2001, s.348.

1924-cü ilin oktyabrında ilk olaraq onunla görüşmüşdür. Bu görüşdə R.Knoll X.Sultanova birləşmək tərəfdarı olan Qafqaz təmsilçilərindən ibarət qrup yaratmağı təklif etmişdi. X.Sultanov bu təklifə uyğun olaraq Azərbaycan və Şimali Qafqaz nümayəndələrindən ibarət böyük birlik yaratmaq istəyirdi. Hətta bu danışıqlara Qafqaz İslam Ordusunun keçmiş komandanı Nuru Paşa da qoşulmuşdu. Lakin bu prosesə müdaxilə edən Polşanın Türkiyədəki Hərbi attaşesi polkovnik T.Setsel gizli əməliyyatlarınkeçirilməsi üçün çox sayda olmayan müvafiq adamlardan ibarət komitənin yaradılmasını vacib saymışdı. Bunun nəticəsində İstanbulda Qafqaz Konfederatorları Birliyi Komitəsini yaratmaq qərara alınmışdı[24].

Həmin Komitədə Azərbaycanı Xosrov bəy Sultanov, Əbdüləli bəy Əmircanov və Əkbər ağa Şeyxülislamov təmsil edirdi. 1924-cü ilin avqustunda Polşa rəsmisi Knoll X.Sultanova fəaliyyət üçün üç min türk lirəsi maliyyə də vermiş və o, bu vəsaiti aldıqdan sonra Traperunddan İran Azərbaycanına daxil olmuşdu. O, Təbrizdə və Xoy şəhərlərində olmuş, burada məskunlaşmış azərbaycanlı mühacirlərlə görüşmüşdü. Bu mühacirlərin əksəriyyəti İran administrasiyasında, yaxud orduda xidmətə başlamışdılar. Xoy şəhərində Təbrizdə olandan da çox – üç yüzə qədər mühacir ailəsi yaşayırdı. Bu insanların çoxu Müsavat tərəfdarları idi və İstanbuldan aldıqları "Yeni Qafqasya" jurnalını Azərbaycana çatdırırdılar.

1924-cü ilin 21 noyabrında X.Sultanov Təbrizə gəlir və burada İ.Sultanovla, B.Qarabağlı ilə görüşür, yığıncaqlar keçirir və belə məlumat verir: "Dağılmış Müsavatdan yeni partiya yaranır: Azərbaycan Milli Demokratik Respublika Partiyası"[25].

X.Sultanov toplantıda bu partiyanın gürcü milli-demokratları və dağlılarla Qafqaz Konfederasiyası əsasında razılaşdıqlarını, bu Konfederasiyanı isə İngiltərə və Polşanın müdafiə etdiklərini söyləmişdir. O, inamla bildirmişdir ki, SSRİ-də tezliklə dəyişiklik olacaq, yaxud ora hücum ediləcək və bu situasiyaya azərbaycanlılar hazır olmalıdırlar. X.Sultanov müsavatçılarla fikir ayrılığının səbəbini belə izah etmişdir: müsavatçılar yalnız Türkiyə istiqamətinin, o isə Avropa xəttinin tərəfdarıdır[26].

X.Sultanov belə izahat da vermişdir ki, türklər (Türkiyə) öz daxili işləri ilə çox məşğuldurlar və Sovet Azərbaycanından ötrü SSRİ ilə mübarizə aparmaq istəmir. İngiltərənin isə Qafqazda öz maraqları var. Polşa isə SSRİ ilə gələcəkdə baş verəcək müharibədə Qafqaz Konfederasiyasını müttəfiq kimi görmək istəyir.

---

[24] Г.Мамулиа, Р.Абуталыбов. Страна огней в борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945, Париж-Баку, с. 244-245.
[25] Yenə orada, s. 254-255.
[26] Yenə orada, s. 255.

X.Sultanov 1924-cü ilin 6 dekabrında Tehrana getdi. O, İran hökumətinə Şimal-Qərbi diviziyanın tərkibində Qafqaz mühacirlərindən ibarət dəstə formalaşdırmaq, Sovet dövlətində daxili vəziyyət kəskinləşərsə, ondan istifadə etmək təklifini irəli sürmək istəyirdi. Bu danışıqların uğurlu keçəcəyi təqdirdə Polşadan silah alıb İran Azərbaycanına gətirmək mümkün olacaqdı[27].

Lakin X.Sultanovun bu layihələri reallaşmadı və Sovet hökuməti İrana müvafiq təzyiqlər göstərməyə başladı.

Qeyd edək ki, X.Sultanovla M.Ə.Rəsulzadə arasında şəxsi münasibətlərdə müəyyən problemlər yaşanırdı. Bu da mühacirət həyatının ağır şərtlərindən irəli gəlirdi və bu ziddiyyətlərdən isə OQPU kəşfiyyatçıları faydalanmağa çalışırdılar. Təsadüfi deyildi ki, Qafqaz Konfederatorları Birliyi Komitəsində Azərbaycanı M.Ə.Rəsulzadə və X.Sultanov təmsil edirdi.

X.Sultanov sonradan Polşada da hökumət rəsmiləri ilə danışıqlar aparmışdı.

1930-cu ilin aprelin 13-də Sovet Xarici İşlər Nazirliyi İran nümayəndəliyinə azərbaycanlı üsyançı dəstələrin İran Azərbaycanı ərazisində və Sovet-İran sərhədində baza yaratmağından narahatlığını bildirdi, Tehranı Azərbaycan partizanlarının fəaliyyətinin qarşısını almamaqda günahlandırdı. Həmin ilin mayın 24-də Moskvadakı İran səfirliyinə yeni bir nota verildi və burada müsavatçıların Təbrizdə, Ərdəbildə, Astaradakı fəallığından narahatlıq bildirildi. 1931-ci ildə Sovet qoşun hissələri azərbaycanlı üsyançı dəstələri məhv etmək məqsədi ilə Araz çayını keçib İrana daxil oldu, çoxlu mühacirləri həbs edib və öldürüb sıradan çıxardı[28].

Beləliklə, İranda olan mühacirlərin vəziyyəti olduqca pisləşdi. Azərbaycandan gələnlərin maddi durumu isə çox ağır idi. 1930-cu ilin 10 sentyabrında Azərbaycan diplomatik nümayəndəliyi Parisdə Millətlər Liqası Assambleyasından həmin ağır vəziyyətdə yaşayan qaçqınlara maddi yardım göstərilməsini xahiş etmişdi.

1931-ci ilin dekabrında X.Sultanov bununla əlaqədar Ə.M.Topçubaşova yazırdı: "Vətəndə və İranda hansı dəhşətlərin törədilməsi, həmvətənlərimizin hansı sıxıntılara məruz qalması təsvirə belə gəlməz. İran həbsxanaları azərbaycanlı mühacirlərlə doludur..."[29].

X.Sultanov 1938-ci ildə Atatürkün dəfn mərasimində Azərbaycan adından Ş.Rüstəmbəyli ilə birgə rəsmi nümayəndə olaraq iştirak etmişdi.

---

[27] Г.Мамулиа, Р.Абуталыбов. Страна огней в борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945, Париж-Баку, с. 256.
[28] Yenə orada, s. 354-355.
[29] Yenə orada, s. 357.

X.Sultanovun ömrünün sonlarındakı siyasi fəaliyyəti ilə bağlı faktlara 1940-cı illərin əvvəllərində rast gəlmək mümkündür. Belə ki, 1940-cı ilin əvvəllərində polyaklar Türkiyə ərazisində Qafqaz Konfederasiya Şurasını yaratmağa çalışırdı. Bu dövrdə Atatürk dövründən fərqli olaraq Türkiyə ingilis-fransız bloku xəttinə meyillənirdi. Yəni Sovet dövlətinin mühacirlərlə bağlı müəyyən təzyiqləri arxa plana keçmişdi və artıq İkinci Dünya müharibəsinin başlanması ilə yeni situasiya yaranırdı.

1940-cı ilin 23 yanvarında Parisdəki Azərbaycan nümayəndəliyinin katibi A.Atamalıbəyov polyaklara Qafqaz Konfederasiya Şurasının İstanbul filialı üçün iki namizədin – Mustafa bəy Vəkilli və Xosrov bəyin adını çəkmişdi: "Onun əsli İranla sərhəd olan Cənubi Qarabağdandır. Bu ailə çoxsaylıdır və ölkəyə güclü təsiri var. Xosrov bəy öz qohumlarının gücünə ölkə daxilində hərəkət edə bilər. O, parlaq, fəal vətənpərvərdir"[1].


DOKTOR
SULTANZADE HÜSREV
Dahili ve Çocuk Hastalıkları
Ruhsatname No. 8
Beyoğlu, Sokak Telef. B.

28/XI 33.

X.Sultanovun İstanbulda xəstəxanada çalışması haqqında sənəd. 28 noyabr 1933-cü il.

1942-ci ildə X.Sultanov Berlində "Adlon" otelində keçirilən konfransda iştirak edib, 1942-1943-cü illərdə isə Berlindəki Azərbaycan Milli Komitəsinin üzvü olub.

Ü.Hacıbəyli X. Sultanovun Qarabağda əhəmiyyətli bir insan olduğunu belə təqdim edirdi: "Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaatı tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi, burası – Azərbaycanın cənnəti hesab olunan bir yer çoxdan bəri cəhənnəmə dönüb, qətl və qital ocağı olmuşdu"[2].

Ü.Hacıbəyli X.Sultanovun vətənpərvərliyini və cəsurluğunu bu məzmunda xarakterizə edirdi: "Nə adi və nə də siyasi nəzakəti başa düşməyən erməni başçıları Qarabağ adlı torpağımızda sükunət edən erməni əhalisini, bu əhalinin xa-

[1] Г.Мамулиа, Р.Абуталыбов. Страна огней в борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945, Париж-Баку, с. 471-472.
[2] Ü.Hacıbəyli, "Qarabağ hadisatı". "Azərbaycan" qəzeti, 24 iyun 1919, №210.

hişinə rəğmən, Azərbaycan hökumətinə tabe etməmək yolunda daha böyük inadlıq göstərib, İngiltərə baş komandanlığının təklifini də rədd etməkdən çəkinmədilər. Azərbaycan hökumətinin səbir kasası doldu. Köçəri mövsümünün hüluli isə əhalini dəxi böyük müşkülat qarşısında qoyub, arada bir acıq və əsəbiyyət törətməyinə səbəb oldu. Ermənilərin inadlığı və hökumətimizin hövsələsi bu acığı və əsəbiyyəti getdikcə artırıb, Qarabağda bu gün-sabah bir qeyz və qəzəb partlanğıcı zühur edəcəyini naçar qoymuşdu. İşin bu yerə gəldiyini və bunun nəticəsi nə ola biləcəyini həqqi ilə anlamış olan general-qubernator Xosrov bəy Sultanov həzrətləri bunun qabağını almaq və qırğına mane olmaq üçün Qarabağ erməni başçılarının inadını sındırmaq və məsələni, camaatın qatışmasına məhəl qoymamaq üçün hökumət əli ilə, yəni qanuni bir yol ilə həll etmək əmrinə mübaşir oldu və olub da erməniləri itaətə məcbur etdi. Daha doğrusu, erməni camaatını xudsər və qeyri-məsul "komitetlər" qorxusundan xilas edib, camaatın öz meyil və arzularını hüsulə gətirdi"[3].

X.Sultanov İstanbulda yaşamış, orada 1943-cü ildə, yanvar ayının 7-də dünyasını dəyişmişdir. Məzarı İstanbulun Fəriköy qəbiristanlığındadır.




**X.Sultanovun İstanbulda məzarı.**

[3] Ü.Hacıbəyli, "Qarabağ hadisatı". "Azərbaycan" qəzeti, 24 iyun, 1919, №210.

# ASLAN BƏY SƏFİKÜRDSKİ

(1881-1937)



Azərbaycan Cümhuriyyətinin tanınmış xadimi Aslan bəy Səfikürdski 1881-ci ildə keçmiş Gəncə qəzasının Səfikürd kəndində anadan olub. Orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra Sankt-Peterburq universitetinin hüquq fakültəsinə daxil olub. Ali təhsilini başa vurduqdan sonra Gəncəyə qayıdıb və burada bir müddət vəkil köməkçisi işləyib. O, 1913-cü ildə Dairə Məhkəməsindən vəkil rütbəsi alıb və 1914-cü ilə qədər vəkil işləyib.

A.Səfikürdski 1916-cı ilə qədər Gəncə Dumasının üzvü olub.

A.Səfikürdski Azərbaycan Parlamentinin üzvü, F.X.Xoyskinin təşkil etdiyi 3-cü Hökumət kabinəsində (26.11.1918) Poçt, Teleqraf və Əmək naziri, 4-cü Hökumət kabinəsində isə Ədliyyə və Əmək naziri təyin edilib. O, bu vəzifədə çalışarkən Azərbaycanda ilk dəfə onun təşəbbüsü ilə hüquq elmi üzrə mükəmməl kitabxana təşkil edilib.

Azərbaycan 1920-ci ilin 27 aprelində bolşeviklər tərəfindən işğal edildikdən sonra A.Səfikürdski bir müddət Azərbaycan SSR Xalq Ədliyyə Komissarının müavini, "Azneft"in hüquq məsləhətçisi işləyib.

A.Səfikürdski 1922-ci ildə istintaqa cəlb olunaraq, üç ilə qədər həbsdə qalıb, əlavə üç il isə Azərbaycandan kənarda yaşamağa məhkum edilib.

A.Səfikürdski 1937-ci ilin oktyabrın 15-də Bakı şəhərində vəfat edib.

# POÇT, TELEQRAF VƏ ƏMƏK NAZİRİ

Azərbaycan Cümhuriyyətinin **23 aylıq mövcudluğu** dövründə Aslan bəy Səfikürdskinin ayrıca yeri vardır (qeyd edək ki, AXC dövründə o, həm də Səfikürdlü olaraq tanınırdı).

A.Səfikürdski, ona tapşırılan Poçt, Teleqraf, Ədliyyə, Əmək nazirliklərində gördüyü böyük işlərlə yanaşı, Azərbaycan Parlamentində ciddi fəallıq göstərirdi. Parlament iclaslarında müzakirə olunan qanun layihələri ilə bağlı onun maraqlı təklifləri, ideyaları olmuşdur. A.Səfikürdski Parlamentdə "Sosialist fraksiyası"na daxil olmuş, **Azərbaycan Cümhuriyyətinin bir dövlət olaraq güclənməsinə böyük kömək göstərmişdir.**

Aslan bəy Ağalar oğlu Səfikürdski 1881-ci ilin sentyabrın 30-da Gəncə qəzasının Səfikürd kəndində doğulmuşdur (qeyd edək ki, o, həbs edilərkən Fövqəladə Komissiyanın tərtib etdiyi anketdə doğum tarixi 1884-cü il göstərilib və əlavə edilib ki, 1892-1894-cü illərdə müəllim Poqorelovun evində təhsil alıb).

A.Səfikürdski Gəncə klassik gimnaziyasında təhsil aldıqdan sonra, Sankt- Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuşdur (bir məlumatda isə onun 1901-ci ildə Xarkov Universitetinə daxil olması, 1902-ci ilin yayında universitetin rektoruna ərizə yazaraq Sankt-Peterburq Universitetində təhsilini davam etdirməsi qeyd olunur. Bunu isə Sankt-Peterburqda yaşayan yaxın qohumunun ona maddi kömək göstərəcəyi ilə izah edib). O, burada azərbaycanlı tələbələrin təşkilatçılığı ilə yaranan Həmyerlilər Təşkilatının üzvü olaraq fəallıq göstərib[1].

A.Səfikürdski Sankt-Peterburq Universitetində oxuduğu illərdə tələbə hərəkatında iştirak etdiyinə görə 1903-cü ilin yazında universitetdən xaric olunsa da, 1904-cü ilin yanvarında yenidən ali məktəbə bərpa olunmuşdur.

Aslan bəyin qardaşları da yüksək ali təhsil alıblar. Ortancıl qardaşı Nəsrəddin bəy (1884-1920) üç il onunla birgə Sankt-Peterburq Universitetində oxuyub və 1920-ci ildə Sovet hakimiyyətinə qarşı olan Gəncə üsyanında şəhid olub[2]. Kiçik qardaşı Ağalar bəy (1890-1966) Moskva Universitetinin tibb fakültəsini bitirib, əvvəl Gəncədə, sonra Bakıda səhiyyə sahəsində çalışıb.

A.Səfikürdski təhsilini başa vuraraq 1905-ci ildə Gəncəyə qayıtmışdır (bir mənbədə onun 1907-ci ildə qayıtdığı qeyd olunur). Həmin dövrdən o, burada vəkil köməkçisi işləmişdir. 1913-cü ildə Dairə Məhkəməsindən vəkil rütbəsi almış və 1914-cü ilə qədər vəkil olaraq çalışmışdır.

---

[1] Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920). B., 1990, s.75.

[2] İ. Əliyeva. Əqidəsi xalqına sevgisindən qaynaqlanırdı. "Azərbaycan" qəzeti, 31 may 2013-cü il.

Onun 1911-ci illərdə Şuşa Şəhər Dumasında iclasçı, sonra andlı müvəkkil olaraq da çalışması da qeyd olunur[3].

**O, 1915-ci ildə Sankt-Peterburq Universitetinin professoru Bodulu-de Kurtilin sədrliyi altında Kiyevdə keçirilən qeyri-rus millətlərin qurultayında Qasım bəy Əmiraslanovla birgə Azərbaycandan nümayəndə olaraq iştirak etmişdir. Qeyd edək ki, ilk dəfə olaraq bu qurultayda "Azərbaycan muxtariyyəti" haqqında məsələ qaldırılmışdır[4].**



**A.Səfikürdski gənclik illərində.**

A.Səfikürdski həmin qurultay haqqında 1919-cu ildə yazırdı: "O vaxt elan olunmuşdur ki, Azərbaycanda məskun olan xalqlar tam muxtariyyət almalıdırlar. Qurultayda iştirak edən Gürcüstan və Ermənistan nümayəndələri də bu cür nöqteyi-nəzərdə dayanmışdılar. O vaxt xalqlar arasında sərhədlər barədə indikinə nisbətən mübahisə və fikir ayrılığı az idi. O vaxt bildirilmişdi ki, Azərbaycan bütün Bakı və Yelizavetpol (Gəncə) quberniyalarını, Zaqatala dairəsini, İrəvan və Tiflis quberniyalarının bir çox ərazi hissələrini əhatə etməlidir ki, Azərbaycan türkləri ilə məskundur. Gürcüstan və Ermənistan nümayəndələri buna etiraz etmirdilər. Hal-hazırda isə təəssüf ki, bu məsələdə razılıq yoxdur"[5].

A.Səfikürdski Gəncədəki Müsəlman Xeyriyyə Cəmiyyətinin və Aktyorlar Cəmiyyətinin fəal üzvlərindən biri olmuşdur. Qeyd edək ki, Gəncədə ilk xeyriyyə cəmiyyəti hələ XIX əsrin sonlarında – 1880-ci ildə məktəblilər tərəfindən Gəncə Kişi Gimnaziyasının əsasında yaradılmışdır. Bu qurumun nizamnamədə Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti adlanması qeyd olunurdu[6]. Cəmiyyətin başlıca vəzifəsi ən kasıb müsəlmanların himayə edilməsi, təhsil alanlara kömək etmək və s. idi.

Eyni zamanda, Gəncədə Xudadat bəy Rəfibəyovun başçılıq etdiyi Aktyorlar Cəmiyyəti də mövcud idi. Bu cəmiyyət isə aktyorlara və teatr truppalarına köməklik edirdi. **A.Səfikürdski o dövrdə bu cəmiyyətlərin işində yaxından fəallıq göstərirdi.**

A.Səfikürdski 1916-cı ilə qədər Gəncə Dumasının da üzvü olub.

[3] İ. Əliyeva. Əqidəsi xalqına sevgisindən qaynaqlanırdı. "Azərbaycan" qəzeti, 31 may 2013-cü il.
[4] M. Əliyev. Aslan bəy Səfikürdski. "Odlar Yurdu" qəzeti, №19, sentyabr 1989-cu il.
[5] "Azərbaycan" qəzeti. 28 may 1919-cu il, №110.
[6] Azərbaycanın ilk qeyri-hökumət təşkilatları (materialları hazırlayan və elmi redaktor N.Yaqublu). B., 2013, s.22.


БИЛЕТЪ
для входа
въ Императорскій С.-Петербургскій Университетъ

A.Səfikürdskinin Peterburq Universitetinə qəbul bileti.

1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra o, həmin ilin martında yaranmış Gəncə Qəza İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

A.Səfikürdski 1917-ci ilin noyabrın 11-də Cənubi Qafqazın siyasi partiya və ictimai təşkilatları nümayəndələrinin Tiflisdə keçirilən konfranslarında iştirak etmiş və orada eserlər partiyasından çıxıb, müsəlman sosialistləri blokuna daxil olmuşdur. Onun başçılıq etdiyi blok 1917-ci ilin noyabrın 26-28-də Rusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə 3 yer qazanmışdı.

Müəssislər Məclisi buraxıldıqdan sonra A.Səfikürdski 1918-ci ilin fevralında yaradılan Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının üzvü oldu.

**1918-ci ilin mayın 25-də Zaqafqaziya Seymi dağıldıqdan sonra burada təmsil olunan Müsəlman fraksiyasının üzvləri Azərbaycan Milli Şurasını yaratdılar. Azərbaycan Milli Şurası 1918-ci ilin Mayın 28-də Azərbaycan istiqlalını elan etdi. İstiqlal Bəyannaməsinə imza atanlardan biri də A.Səfikürdski oldu.**

1918-ci ilin iyununda Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçür. Osmanlı Türkiyəsi təmsilçiləri, xüsusən, Qafqaz İslam Ordusunun komandiri Nuru Paşa ilə aparılan danışıqlardan narazı qalanlardan biri də A.Səfikürdski idi.

Azərbaycan Milli Şurasının 1918-ci ilin iyunun 17-də Gəncədə keçirilən sayca yeddinci iclasında M.Ə.Rəsulzadənin çıxışından sonra A.Səfikürdski dedi: "Təəssüflər olsun ki, Paşa bizim Şuranı və hökuməti buraxıb, öz istədiyi bir hökumət qurmaq istəyir... Qorxuram ki, həmin yol xalqı xilas etməsin və bizi bəlalarla üzləşdirib camaatda türklərə ümidsizlik doğursun"[7].

Qeyd edək ki, A.Səfikürdski türklərin Azərbaycana gəlməsinin əleyhinə deyildi. Onu narahat edən, Nuru Paşanın ətrafındakı bəzi adamlardan şübhələnməyi idi.

1918-ci ilin iyununda o,İstanbul Beynəlxalq Konfransına göndərildi. İstanbulda Almaniya, Avstriya, Macarıstan, Türkiyə, Bolqarıstan və Qafqazdan – Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar İttifaqı təmsilçilərinin iştirakı ilə konfrans

[7] N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991, s. 82.

keçirilməli idi. Həmin konfransda Azərbaycanı M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdski(sonradan Ə.Pepinov da qoşuldu) təmsil edirdi. Nümayəndə heyətinə konfrans iştirakçıları ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdi[8].

**1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamenti fəaliyyətə başladı.** A.Səfikürdski də Qazax qəzasından Azərbaycan Parlamentinə üzv seçildi. O, parlamentdəki çıxışlarında kəndlilərin mənafeyini müdafiə edərək aqrar problemin həll olunması təklifini irəli sürürdü. A.Səfikürdski parlamentdə siyasi məhbuslara əfvi-ümumi (bağışlama) verilməsi üzrə xüsusi komissiyanın da üzvü idi.

A.Səfikürdski N.Yusifbəylinin 1918-ci ilin dekabrın 26-da formalaşdırdığı Hökumət kabinəsində Poçt-teleqraf və Əmək naziri (14 mart 1919-cu ilə qədər), 1919-cu ilin 14 martında yaradılan 4-cü hökumət kabinəsində Ədliyyə və Əmək naziri oldur(1919-cu ilin 24 dekabrına qədər).

O, bu vəzifələri icra edərkən ciddi işlər gördü, poçt və teleqraf sahəsinin xidməti keyfiyyətini yüksəltdi, teleqrafın türk dilində istifadəsinə çalışdı və Ədliyyə Nazirliyi nəzdində hüquq elmi üzrə kitabxana təşkil etdi.

A.Səfikürdskinin təşkilatçılığı ilə respublikanın bölgələrində poçt-teleqraf xidmətləri yaradıldı, poçt daşımaları bərpa edildi, yerlərdə telefon danışığı məntəqələri açıldı[9]. Onun nazir olduğu dövrdə üzərində Azərbaycan dövlətinin nişanları olan poçt markaları buraxıldı.

Azərbaycanda rabitə sistemini inkişaf etdirmək üçün A.Şəfikürdskinin fəallığı ilə Bakıda xüsusi Poçt-teleqraf məktəbi yaradıldı.

A.Səfikürdski ədliyyə sistemində çalışdığı dövrdə Azərbaycan Məhkəmə Palatası nəzdində Andlı Müvəkkillər Şurası yaratdı. O, məhkəmə orqanlarında çalışanların ana dilini bilməsini zəruri sayırdı. Eyni zamanda o, dairə məhkəmələri şəbəkəsini genişləndirdi, Şəkidə, Şuşada, Kürdəmirdə üç yeni dairə məhkəməsi açdırdı[10].

A.Səfikürdski 1919-cu ilin iyununda N.Yusifbəylinin sədr olduğu Dövlət Müdafiə Komitəsinin, 1920-ci ilin yanvarından isə Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi Komissiyanın, fevralın 5-dən isə Maliyyə-büdcə komissiyasının üzvü idi.

A.Səfikürdskinin Azərbaycan Cümhuriyyəti dövründəki fəaliyyətinin əsasını dövləti işləri ilə yanaşı, həm də parlamentdəki fəaliyyəti təşkil edirdi.

---

[8] Azərbaycan Respublikası Dövlət Arxivi,f. 970, s. 1, i 138, v. 4.

[9] İ. Əliyeva. Əqidəsi xalqına sevgisindən qaynaqlanırdı. "Azərbaycan" qəzeti, 31 may 2013-cü il.

[10] Yenə orada.

A.Səfikürdskinin (o, sosialistlər blokuna daxil idi) parlamentdəki ilk geniş çıxışı 1918-ci ilin 20 dekabrında keçirilən dördüncü iclasında oldu (bu vaxta qədər keçirilən iclaslarda o, məsələlərə münasibət bildirmişdi).

İclası açıq elan edən H.Ağayev gürcü və erməni millətləri arasında qeyri-rəsmi bir müharibənin başlanmasını, erməni hərbi dəstələrinin Azərbaycan sərhədlərini keçib, Zəngəzur, Şuşa və Cəbrayıl qəzalarına daxil olub, kəndləri xaraba qoyduğunu və bu məsələlərin də müzakirəyə çıxarıldığını qeyd etdi.

Bu vəziyyətlə bağlı ilk olaraq F.X.Xoyski geniş çıxış etdi. F.X.Xoyskidən sonra Ə.Cövdət, M.Mahmudov, Q.Qarabəyli, A.Əfəndiyev, M.Ə.Rəsulzadə, sonra isə A.Səfikürdski fikirlərini bildirdilər. O, qeyd etdi ki, Avropa "cahangirləri"nin siyasəti Avropada və Asiyada yaşayan millətləri bir-birilə döyüşdürür və nəticədə şəhərlər dağılır, kəndlər xaraba qalır, uşaqlar sahibsiz qalır, ailələr yiyəsiz olaraq çöllərə düşür. A.Səfikürdski çıxışında bildirirdi ki, biz bütün qüvvəmizlə çalışmalıyıq ki, müharibə olmasın və bundan ötəri səsimizi ucaldıb etiraz etməliyik. O, deyirdi: "Çünki böyük dövlətlər müharibə qanunlarına müvafiq müharibə edirlər. Müharibə qanunlarına toxunmur, əsirlərə və bitərəf duran əhaliyə əl uzatmırlar. Kiçik millətlər isə bunu gözləmirlər. Bu hadisələrin qarşısını almaqdan ötəri növbənöv yollar, çarələr var ki, bu da etiraz etmək və etirazdan hasil olan nəticələrdir. Bundan əlavə, konfrans çağırıb bu ixtilaflı məsələlər orada həll edilməlidir. Bu da olmazsa, Qafqaziyada təşkil olunmuş üç hökumət nümayəndələri yığışıb, bu məsələlərə baxmalıdır. Bu barədə Parlamentimiz çalışmalıdır"[11].

Parlamentin 1919-cu ilin fevralın 25-də keçirilən on altıncı iclasında müzakirə edilən məsələlərdən biri də "Hərbiyyə nəzarətinin qanun layihəsi" oldu. Bu layihə ilə bağlı Q.Qarabəyov, S.Mehmandarov, M.Rəfiyev çıxış etdilər.

**Sonra A.Səfikürdski çıxış etdi. O, bildirdi ki, hər bir yeni ordunun təşkilində müəyyən qüsurlar olur. O, qeyd etdi ki, Hərbiyyə Naziri fəaliyyətə başlayandan nöqsanlar azaldılmış, əhali də anlamışdır ki, öz hüququnu ancaq silah ilə qoruya bilər. A.Səfikürdskinin bu fikirləri parlamentdə alqışlarla qarşılandı: "Bir millətin öz cümhuriyyət və istiqlaliyyətini müdafiə etmək üçün cidası (süngüsü) olan cavan əsgərləri, inqilabçıları olmalıdır. Nəinki tək bir əsgərlər, bəlkə istiqlalını müdafiə etmək istəyən bütün millət silaha sarılmalıdır. Ələlxüsus, indiki zamanda ki, nəinki xaricdə, nəinki denikinlər, hətta içimizdə də qara qüvvələr bizi hər zaman yıxıb, puç etmək istəyirlər. Doğrudur, qəhr olsunlar, rədd olsunlar, xainlər!"[12].**

---

[11] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 114.
[12] Yenə orada, s. 315.

1919-cu ilin martın 17-də keçirilən parlamentin iyirmi dördüncü iclasında 14-ə yaxın məsələnin müzakirəsi nəzərdə tutulmuşdu. Müzakirə olunan 14-cü məsələ "Poçt və Teleqraf qanunnaməsi" ilə bağlı idi. Müzakirədə ilk öncə Q.Camalbəyov çıxış etdikdən sonra A.Qardaşov qısa olaraq fikrini bildirdi. Sonra söz Cümhuriyyətin Poçt və Teleqraf Naziri A.Səfikirdskiyə verildi. O, dedi: "Möhtərəm məbusların (deputatların – red.) buyurduqları mətləb, əlbəttə, həll olunur. Mən əmr vermişəm, türk dilində teleqraflar poçtxanaya verilsin və poçtxanada məmurlar qəbul etsinlər. Həmin türkcə olan teleqrafları türk hərfi ilə olmasa da, rus hərfi ilə yazıb versinlər. Mən təvəqqe edirəm ki, bundan sonra ancaq türkcə yazıb verəsiniz. Hərgah qəbul etməsələr, rica edirəm, telefon ilə xəbər verəsiniz. Milliləşdirmək məsələsinə mən daha yaxın oluram. Ələlxüsus, məmləkətimizin əksər camaatı fəhlə və zəhmətkeşlər olduğuna görə bunların dilləri də türkcədir. Mən nəzarətə gəldiyim andan bu xüsusları islaha çalışıram"[13].

Parlamentin həmin iclasında müzakirə edilən bir məsələyə də A.Səfikürdski münasibət bildirdi: "Bakı fəhlələrinə fevralın ikinci hissəsinin məvacibi verilmədiyindən onların tətil etməsi". Bu məsələ ilə bağlı əsas çıxışı Ə.Cövdət etdikdən sonra A.Səfikürdski də münasibətini bildirdi. O, qeyd etdi ki, çalışan fəhlələrin məvacibi mütləq verilməlidir və hökumət bu əhvalatdan xəbərdar olan kimi pulu tapıb hazırlamış, sabah ayın 18-də veriləcəkdir. O, eyni zamanda dövlətin maliyyə işlərinin yaxşılaşdığını da qeyd edirdi.

1919-cu ilin dekabrın 22-də Azərbaycan Parlamentinin yüz doqquzuncu iclası keçirildi. İclasda 10-na yaxın məsələnin müzakirəsi qərara alındı.

Parlamentin axşam saat 19:55-də başlanan iclasında "Hökumət bəyannaməsi"nin müzakirəsi başlandı. İlk öncə doktor Q.Qarabəyli geniş çıxış etdi. Sonra söz A.Səfikürdskiyə verildi. O, yeni hökumətin formalaşması üçün böyük əziyyətlər çəkildiyini, bundan ötrü sosialist fraksiyasının hökumətə daxil olduğunu, Denikinlə bağlı xalqın təşvişdə yaşadığını, hazırda Rusiya bolşeviklərinin Denikin və Kolçak ordusunu dağıtdığını qeyd edirdi. O, çıxışında dedi: "Biz bir söz deyəndə siz deyirdiniz ki, Gürcüstan və Ermənistan bunu etmir. Mən deyirəm ki, Gürcüstanın və Ermənistanın Şura hökuməti nəzdində nümayəndəsi var. Onların da Gürcüstanda nümayəndəsi var. Siz onu bilirsiniz ki, Rusiya camaatı indi qüvvətlidir, hər halda biz arzu edirdik. Azərbaycan da Moskva hökumətinə öz nümayəndəsini göndərsin. Onlar ilə danışmağa girişsin. Yenə də arzu edirik ki, Zaqafqaziya hökumətlərinin fikirləri bir olsun. Biz arzu edirik ki, fəhlələr ilə kənd-

[13] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 398-399.

lilər məsələsinin yeni təşkil edilmiş hökuməti bir qədər çalışsın və onlar da az da olsa xeyirə çatsın"[14].

A.Səfikürdski çıxışında general-qubernatorların faydalı işlər görməyinin vacibliyini, bəzilərini azaltmağın vacibliyini və hökumətin "fəhlə və camaatın mənafeyini nəzərə alacağı təqdirdə" etimad qazanacağını vurğuladı.

İclasda bir neçə şəxsin çıxışından sonra o, hökumətə etimadla bağlı dedi: "Möhtərəm məbus (deputat – red.) əfəndilər! Mən necə ki dedim, fraksiyamız da təkrar etdi. Biz hökumətə ona görə etimad edirik ki, Denikinin qabağına gedəcəkdir və xaricdən gələn düşmənlərdən Azərbaycanı müdafiə edəcəkdir"[15].

1919-cu ilin dekabrın 29-da Parlamentin yüz on birinci iclasında 10-a yaxın məsələ müzakirə edildi. 1919-cu il üçün yeni kredit açılması ilə bağlı olan qanun layihəsinin müzakirələrində ilk çıxışı A.Səfikürdski etdi. O, dedi: "Bir avtomobil xərci yarım milyon, belə şey olacaq? Camaat pulu belə xərclənəcək? Əgər artıq pul varsa, qəhrəman əsgərlərimiz üçün ayaqqabı alınsın. Nəinki belə lüzumsuz xərclər olsun. Camaat pulunu hər kəs elə xərcləməlidir ki, necə ki öz pulu. Bəlkə öz pulunu daha çox sərbəstliklə xərcləyə, nəinki xalq pulunu. Mən deyirəm Heyəti-Riyasət piyada getsin. Bunların hər birinə on min fayton pulu verilsə, ildə iki-üç yüz min manat edər, nəinki yarım milyon. Camaat pulunu xərcləyəndə diqqət etmək lazımdır. Hər kəsdən artıq biz diqqət etməliyik ki, bizdə heç bir ləkə olmasın"[16].

1920-ci ilin yanvarın 11-də Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması böyük hadisəyə çevrildi. Bu münasibətlə Azərbaycanda bayram tədbirləri keçirildi. Azərbaycan Parlamentinin yanvarın 14-də keçirilən 117-ci iclası bu hadisəyə həsr olundu.

Parlamentin sədri H.Ağayev iclası açaraq ilk sözü Xarici İşlər Naziri F.X.Xoyskiyə verdi. F.X.Xoyskinin çıxışından sonra M.Ə.Rəsulzadə Azərbaycan xalqını təbrik etdi. İttihad Partiyasının nümayəndəsi B.Vəzirov kürsüyə çıxıb, özünün yazdığı bir şeiri oxudu. Əhrar Partiyasının təmsilçisi M.Əfəndizadənin çıxışından sonra sosialistlər fraksiyasından A.Səfikürdski təbriklərə qoşuldu. O, çıxışında dedi: "Belə böyük nailiyyət və müvəffəqiyyətləri camaat ancaq mübarizə ilə qazana bilər. Elə də oldu. Bizim fikrimiz belə idi ki, əgər bütün dünyada yaşayan fəhlə və zəhmətkeşlər birləşməsələr, öz ixtiyarlarını əldə edə bilməzlər. Ona görə də yaşasın bütün dünya fəhlə və zəhmətkeşləri. Ona görə gərək heç bir millət

[14] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 635.
[15] Yenə orada, s. 650.
[16] Yenə orada, s. 664.

özgəyə göz dikməsin, hərgah özgəsinə ümid bağlasaq, gözümüzün birini şərqə, o birini başqa tərəfə tutsaq, bir şey edə bilmərik. Xalqımız bu istiqlaliyyəti tanıtdırdı. Azərbaycan il yarım və iki ildir ki, ömür edir. Niyə bunu o vaxt tanımayıb, ancaq iki gün bundan əvvəl tanıdılar? Bunun səbəbi var. Ona görə biz isbat etdik ki, biz müstəqil yaşaya bilərik. Topunu, tüfəngini Kolçaka, Yudeniçə verənlər anladılar ki, yürütdükləri siyasət səhv və bəladır, gördülər ki, Yudeniçə, Kolçaka verdikləri silahlar keçdi yoldaş Leninin əlinə. Kolçak Leninin əlinə əsir düşdükdə anladılar ki, getdikləri yol yanlışdır. O zaman Azərbaycan istiqlaliyyətini tanıdılar. Ona görə yaşasın Azərbaycan və Gürcüstan xalqı ki, bir gündə istiqlaliyyətlərini tanıdılar"[17].



**Nazir A.Səfikürdskinin Daxili İşlər nazirinə məktubu. 1919-cu il.**

Azərbaycan Parlamentinin 1920-ci ilin yanvarın 15-də keçirilən 118-ci iclasında sosialist fraksiyasının Xarici İşlər nazirinə sualı məsələsi müzakirəyə qoyuldu. İlk öncə A.Səfikürdski çıxış etdi. O, Şura hökumətindən, Xarici İşlər Komissarı Çiçerindən bir teleqraf gəldiyini və həmin teleqrafda Azərbaycan hökuməti ilə Sovet hökumətini "bir hərbi əlaqə yaradıb" düşmənə qarşı birgə mübarizə aparmaq qeyd olunduğunu bildirirdi. A.Səfikürdski bildirirdi ki, teleqrafdakı həmin təklifə tezliklə cavab verilməli və yazılmalıdır. O, həm də camaat arasında Denikin tərəfindən bir nümayəndə heyətinin də göndərilməsi ilə bağlı şayiələr dolaşdığını və indi bu məsələlərə hökumət tərəfindən aydınlıq gətirilməsini qeyd edərək deyirdi: "Siz özünüz bilirsiniz ki, iş sel kimi yeriyir. Ona görə də bu cür məsələləri həftələr ilə müzakirə etmək olmaz. Hər gün bir təbəddülat əmələ gəlir. Yerişlər qabağa gəlir. Əlbəttə, məsuliyyəti hökumət və Xariciyyə Naziri öhdəsinə götürməlidir və əhalinin rəyini bilməlidir. Nə bizim fraksiyalara, nə parlamentə bu barədə heç bir şey bildirilməmişdir. Millətin gözü yoldadır. Əlbəttə, bunlar bildirməlidir ki, fraksiyalar bəzi yollar göstərsin. Siz bilirsiniz ki, bizim həya-

[17] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 706-707.

tımız, istiqlaliyyətimiz və varlığımız Dərbənddən və Petrovskdan asılıdır. Hərgah Dərbənd və Petrovsk düşmənlər əlində olursa, bizim üçün böyük təhlükədir. Biz bəzi köməklik edirik. Denikin pəncəsində qalan yoldaşlara kömək edirik. Bəli, bir tərəfdən də bəzi işlərimiz Denikinin xeyrinə olur. İndi bilə bilmirik ki, hökumət buna nə nöqteyi-nəzər ilə baxır"[18].

Azərbaycan Parlamentinin 1920-ci ilin martın 8-də keçirilən 131-ci iclasında büdcə qanunu müzakirə edildi. Əsas məruzəçi M.Ə.Rəsulzadə idi. Onun çıxışından sonra müzakirələr başladı. Qanunda əsas narahatlıq yaradan 53-cü və 54-cü maddələrdir. Çıxışçı İ.Əbilov bildirdi ki, "büdcənin ixtiyarı parlamentin əlində olmalıdır".

Digər çıxışçı S.Ağamalıoğlu da bu maddələrlə bağlı narahatlığını bildirdi.

Büdcə qanunu ilə bağlı A.Səfikürdski də çıxış edərək dedi: "Arkadaşlarım mətləbdən danışdılar. Mətləb, doğrudan da, lazımdır. Parlament üsulu ilə idarədə camaat hər xüsusda güzəşt edə bilər. Parlamentin ixtiyarını artırmaqdan ziyan olmaz"[19].

A.Səfikürdski parlamentin icazəsindən kənar ola biləcək fövqəladə xərclərə də etirazını bildirir və qeyd edirdi ki, "pulların ixtiyarı da camaat vəkillərinin ixtiyarında olmalıdır".

Parlament üzvlərinin ciddi etirazına səbəb olduğundan büdcə qanununun 54-cü maddəsi səsə qoyuldu, 35 lehinə, 25 əleyhinə, 8 bitərəf qalmaqla ləğv edildi.

Parlamentin eyni iclasında maaşların artırılması da müzakirə olundu. Bu mövzuda məruzə edən Ağa Əminov həyatda bahalaşmanın getdiyini əsas götürüb, əhalinin kasıb sinfinin və məmurların əziyyət çəkdiyini qeyd etdi.

A.Səfikürdski problemin əlavə pullar kəsilib paylanılması üsulu ilə həllinə etiraz etdi.

O, bildirdi ki, Azərbaycanda 3-4 yerdə kağız pullar kəsilir, lakin ticarət və maliyyə siyasəti yoxdur. A.Səfikürdski dedi: "Biz indi maaşlar artırılmasında razı oluruq. Fəqət bu şərtlə ki, bundan bir çarə olmaz. Camaatı, məmləkəti və onlarla bərabər məmuru bu haldan çıxarmaq üçün çarə tapınız, tədbir görünüz"[20].

Azərbaycan Parlamentinin 1920-ci ilin aprelin 12-də keçirilən 140-cı iclasında müzakirə edilən 5-ci məsələ belə adlanırdı: "Azərbaycandan xaricə çıxarılan mallardan yeni gömrük rüsumu alınması haqqında qanun layihəsi". Bu haqda məruzəni Əbuzər bəy Rzayev etdi. O, ötənlərdə belə bir qərarın – Azərbaycandan xaricə çıxarılan xam malların hamısından 25 faizinin hökumət faydasına

[18] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 713-714; Azərbaycan Respublikası Dövlət Arxivi, f 895, s. 1, i. 262, v. 1-8.
[19] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 798.
[20] Yenə orada, s. 807-808.

alındığını, indi isə hökumətin bu malların qiymətindən 25 faiz almaq istəməsini qeyd edir. Bu qanun layihəsinin müzakirəsində çıxış edən A.Səfikürdski ticarət işlərinin qanunla aparılması vacibliyini bildirdi. O, çıxışının sonunda dedi: "Mən təklif edirəm ki, hər mala bir qanun olmamaq üçün ya bu qanun ləğv edilsin və ya indiki hökumətə tapşırılsın ki, ümumi mallar xüsusunda bir qanun gəlsin"[21].

Parlamentin sonuncu iclaslarında müzakirə edilən məsələlərdən biri belə adlanırdı: "Azərbaycan Cümhuriyyətinin Qərbi Avropa dövlətləri və Amerikada diplomatik nümayəndəliklərin təsisi və Paris Sülh Konfransındakı Azərbaycan Nümayəndə Heyətinin buraxılması haqqında qanun layihəsi". Bu qanun layihəsi ötən yüz qırx birinci iclasda təxirə salındığından 1920-ci ilin aprelin 19-da keçirilən yüz qırx ikinci iclasda yenidən müzakirəyə çıxarıldı. Layihə haqqında ötən iclasda M.Əfəndizadə tərəfindən məlumat verildiyindən müzakirələrə başlanıldı. Müzakirələrdə S.Ağamalıoğlu, Q.Qarabəyov, M.Ə.Rəsulzadə çıxış etdilər. A.Səfikürdski müzakirə edilən qanunla bağlı bir neçə dəfə fikir söylədikdən sonra Rusiya ilə münasibətlərə də toxundu. O, dedi: "Rusiyaya bir heyət göndərilməsi hamıdan artıq lazımdır. Bilirsiniz ki, Rusiyada bizim çox vətəndaşlarımız var. Onlar Moskva və qeyri-şəhərlərdə ehtiyac içində yaşayırlar. Rusiyada bir şəhər yoxdur ki, orada azərbaycanlı olmasın. Onların müdafiəyə hamıdan artıq ehtiyacları var. Ona görə Rusiyaya tezliklə səfarət göndərilməlidir ki, vətəndaşlarımızın siyasi və iqtisadi hüquq və mənafeyini müdafiə etsin... biz təklif ediriz, başqa dövlətlərə göndərilən ümumi əsaslar üzərinə Rusiyaya da səfarət göndərilsin. Çünki Rusiyaya göndərmək hamıdan vacibdir"[22].

**Azərbaycan Parlamentinin 1920-ci ilin aprelin 27-də son iclası keçirilir. Parlament üzvləri bolşeviklərin verdiyi ultimatumu müzakirə etdilər. M.Ə.Rəsulzadənin təklifi ilə iclasın açıq keçirilməsi qərara alındı.**

İlk olaraq parlamentdə bolşeviklərlə danışıqlar aparmaq üçün yaradılmış komissiyanın sədri M.H.Hacınski çıxış etdi və Kommunist Partiyasının hökuməti onlara təslim etməklə bağlı məktubunu oxudu, şərtləri diqqətə çatdırdı.

M.H.Hacınskidən sonra çıxış edən S.Ağamalıoğlu "təslimdən başqa çarə olmadığını" dedi.

S.Ağamalıoğlu çıxışını bitirəndən sonra A.Səfikürdski münasibətini bildirdi. O, çıxışında çox məsuliyyətli dəqiqələrdə yaşandığını, bu yoldan da qorxmamağı tövsiyə etdi. Mövcud ağır şəraitdən çıxış yolunu belə izah etdi: "İndi biz nə etməliyik? Təbii ki, razı olmalıyıq. Hərgah bizim millət bu istiqlaliyyətdən həqiqi bir ləzzət ala bilməzsə, onda millət özü-özünü indi də olmasa, bir aydan sonra,

[21] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 920.
[22] Yenə orada, s. 963.

ya da bir ildən sonra müdafiə edəcək. Bu məsələni millət özü həll etməlidir. Bizim sosialistlərin əqidəsi odur ki, gərək hökumət onların əlində olaydı... Necə ki, deyirlər: "Biz bacarsaydıq, hakimiyyəti özümüz ələ alardıq. Lakin qüvvəmiz olmadığı üçün bunu edə bilmədik". İndi başqa bir firqə var ki, o da Azərbaycanın fəhlələri tərəfindədir. Onlar da bizim vətəndaşlarımızdır, özlərini azərbaycanlı sayırlar və hökuməti bizdən istəyirlər. Biz isə heç bir şey bilmədən hökuməti veririk öz camaatımıza, yəni fəhlələrə və kəndlilərə ki, onlar da bunu istəyirlər. Məhəmməd Əmin demişkən, öz edamımıza özümüz qol çəkirik"[23].

A.Səfikürdskinin son mövqeyi belə oldu: "Biz Azərbaycan kommunistlərinin təklifini rədd etməyib, qəbul etməli və hakimiyyəti, bununla birlikdə millətin ixtiyarını onlara verməliyik"[24].

Qeyd edək ki, o, bu çıxışı ilə kommunistlərin hakimiyyətə gəlməsinə siyasi dəstək verdi.

1920-ci ilin aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən bir müddət sonra A.Səfikürdski də təqiblərə məruz qaldı. Azərbaycanda hakimiyyəti işğal yolu ilə ələ keçirən bolşeviklər ilk öncə onlara ciddi etiraz etməmiş A.Səfikürdskiyə vəzifə verdilər. O, 1920-ci ilin mayından Xalq Komissarlar Şurası tərəfindən Ədliyyə Komissarlığının Kollegiya üzvü, sonra isə Respublika Ədliyyə Komissarının müavini və "Azərneft" Birliyində hüquq işləri üzrə məsləhətçi işlədi. 1922-ci ilin aprelində isə Xalq hakimləri qurultayında Xalq Məhkəməsinin sədri seçildi.

1920-ci ildə Gəncədə C.Kazımbəylinin başçılığı ilə olan məşhur üsyanda A.Səfikürdskinin Sankt-Peterburq Universitetində təhsil almış qardaşı Nəsrəddin bəy də (1884-1920) iştirak edərək şəhid olmuşdu.

A.Səfikürdskinin 1917-ci ilin noyabrında mənsub olduğu eserlər partiyasından uzaqlaşmağına baxmayaraq, sovet rejimi 1922-ci ildə onu bu əlaqədə günahlandırıb, istintaqa cəlb etdi.

Aslan bəy Səfikürdskinin istintaqı ilə bağlı sənədlər Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin PS 20251 saylı qovluğunda saxlanılır. Ümumilikdə beş cilddən ibarət olan istintaq materialları belə adlanır: Eser Partiyasının Bakı şəhər təşkilatının istintaq materialları[25].

A.Səfikürdski 1922-ci ilin aprelin 8-də Az.FK sədrinin müavini Qaber-Korn və OQPU rəisi Quliyevin hazırladıqları ittihamnamə əsasında həbs olundu[26].

---

[23] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 975.
[24] Yenə orada, s. 975
[25] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS 20251 saylı istintaq işi.
[26] Yenə orada, v. 26.

A.Səfikürdski iki ay həbsxanada saxlanıldıqdan sonra iyun ayında dindirilmə prosesi başlandı. Onu Fövqəladə Komissiyanın əməkdaşı Valik istintaqa çəkir və belə suallarla müraciət edirdi: " 1) Sizdə 1921-ci ildə belə bir məsələ qaldırılıbmı ki, Azərbaycanda müsəlman xalqları qruplarının və demokratik qüvvələrin daxil olduğu vahid tələb partiyası yaradasınız?" 2) "1921-ci ildə Xalqçı Bakı təşkilatı ilə SİP (Sosialist İnqilabçıları Partiyası – red.) Bakı təşkilatının arasında hansı münasibətlər olub?" 3) "Siz ötən ilin yayında Feyzullayevə Krestovski barəsində nə isə tapşırıq vermisinizmi?" 4) "1921-1922-ci illərdə Sizin mənzilinizdə SİP Bakı təşkilatının nümayəndələrinin sizin azərbaycanlı eserlər qrupu ilə yığıncağı olubmu?"[1].

A.Səfikürdski bu sualların əksəriyyətinə "yox" cavabı verirdi.

1922-ci ilin iyunun 23-də davam edən istintaqda isə ona münasibət sərtləşir, işi aparan eyni müstəntiq onunla daha kobud davranırdı. 1922-ci ilin dekabrın 10-da Ali İnqilabi Tribunal Poluyanın sədrliyi ilə keçirilən iclasda A.Səfikürdskini Sosialist İnqilabçılar Partiyasının Zaqafqaziya təşkilatının işi üzrə dövləti cinayətlərlə bağlı günahkar sayaraq, üç il müddətinə azadlıqdan məhrum etdi.

Onu Moskvadakı Butırsk həbsxanasına göndərdilər. A.Səfikürdski burada bir zamanlar Azərbaycan Cümhuriyyəti hökumətində birgə çalışdığı Cəmo bəy Hacınski ilə aclıq etdi. Bu aclıq aksiyası 1923-cü ilin mayın 15-dən başlandı.

A.Səfikürdskinin həbs müddəti 1925-ci ilin aprelin 8-də başa çatsa da, onun Azərbaycana qayıtmasında problem yaradıldı. Dövlət Siyasi İdarəsinin Xüsusi Şöbəsinin 3-cü bölməsinin əməkdaşı Xoroşkeviçin Bakı eserləri prosesi üzrə A.Səfikürdskinin və C.Hacınskinin istintaq materialları əsasında yazdığı qeyddə onların üç il müddətində Qafqazda, Cənubi-Şərqdə, Moskva və Leninqrad quberniyalarında yaşaması qadağan edilirdi[2].

A.Səfikürdski üç il həbsdə, üç il də sürgündə yaşadıqdan sonra Azərbaycana qayıtdı. Həbs müddəti bitdikdən sonra o, "Azneft"də hüquq məsləhətçisi işləsə də, ömrünün sonunadək təqiblərdən xilas ola bilmədi.

A.Səfikürdski 1937-ci ilin oktyabrın 15-də Bakı şəhərində ağır ürək xəstəliyindən vəfat etdi. Həmin dövrdə XDİK(NKVD) qorxusundan onu dəfn etmək problemə çevrildi. Anadan olduğu Səfikürd kəndindəki qohumları gəlib onu dəfn etdilər.

A.Səfikürdskinin məzarının yeri isə bu günə qədər tapılmayıb.

---

[1] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS 20251 saylı istintaq işi, v. 32.
[2] Yenə orada, v. 42.

# SƏMƏD BƏY MEHMANDAROV

(1855 – 1931)



Görkəmli hərbçi Səməd bəy Mehmandarov 1855-ci ilin oktyabrın 16-da Lənkəranda anadan olub. O, ilk təhsilini Bakı Realnı məktəbində aldıqdan sonra Peterburqdakı İkinci Konstantinovka Artilleriya Məktəbində oxuyub.

1904-1905-ci illərdə baş verən rus-yapon müharibəsi zamanı S.Mehmandarovun komandiri olduğu diviziya Port-Artur qalasını yaponlardan bacarıqla müdafiə edib və buna görə ona general-mayor rütbəsi verilib.

S.Mehmandarov 1907-1910-cu illərdə 3-cü Sibir ordusunda artilleriya rəisi işləyib. 1908-ci ilin iyulun 13-də ona general-leytenant rütbəsi verilib.

Birinci Dünya müharibəsi dövründə o, Varşava əməliyyatı istiqamətində döyüşüb. S.Mehmandarov istefaya çıxdıqdan bir müddət sonra – 1918-ci ilin sentyabrında Bakıya gəlib və həmin ilin noyabrından Azərbaycan Milli Ordusuna ümumi rəhbərliyi yerinə yetirib.

O, Azərbaycanda Hərbi nazir olduğu dövrdə güclü nizami ordunu formalaşdırmağı bacarıb. Bu ordu Azərbaycanın ərazi bütövlüyünün qorunmasında böyük fədakarlıqlar göstərib.

1920-ci ildə Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra S.Mehmandarov həbs olunub. Həbsdən sonra Bakıya qayıdıb və ömrünün sonunadək burada yaşayıb. S.Mehmandarov 1931-ci ilin fevralında vəfat edib.

# HƏRBİ NAZİR

**Görkəmli hərbi xadim, Azərbaycanın Hərbi naziri Səməd bəy Mehmandarov** 1855-ci ilin oktyabrın 16-da Lənkəranda anadan olmuşdur. S.Mehmandarovun nəslinin Qarabağdan olduğu qeyd edilir. Onun atası Mirzə Sadıq bəyin ata babası Mirzə Əli bəyin Qarabağ xanlığında mehmandar vəzifəsini icra etdiyi bildirilir[1].

Çox ehtimal ki, bu nəslin "Mehmandarov" soyadını daşıması yuxarıdakı faktla bağlıdır. Mirzə Sadıq bəy 1833-cü ildə Lənkəranda tərcüməçi, qəza rəisinin sahə iclasçısı, 1855-ci ildə isə Lənkəran polis komissarı vəzifəsinə təyin edilib[2].

Tanınmış sərkərdə S.Mehmandarov belə bir ailədə böyümüşdür (sənədlərdə onların ailəsində on uşağın olduğu qeyd edilir).

S.Mehmandarov ilk təhsilini Bakı Realnı məktəbində almış və on altı yaşında Peterburqda İkinci Konstantinovkadakı Artilleriya məktəbinə daxil olmuş və 1875-ci ildə oranı bitirmişdir[3].

S.Mehmandarov Artilleriya məktəbini bitirdikdə ona podporuçik (leytenant) rütbəsi verilmişdir. 1890-cı ildə kapitan rütbəsinə, 1891-ci ildə isə ikinci dərəcəli "Müqəddəs Stanislav" ordeninə layiq görülmüşdür.

S.Mehmandarov 1894-cü ildə Çar Rusiyası Ordusunun hərbi komandanlığının əmri əsasında iki ilə qədər Varşava Hərbi Dairəsinin sərəncamına göndərilmiş və orada şəhər hərbi məhkəməsinin üzvü seçilmişdir. O, 1896-cı ildə ikinci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunmuş və 1898-ci ildə podpolkovnik rütbəsi alaraq Zabaykal Artilleriya diviziyasının komandiri təyin olunmuşdur. Həmin illərdə isə diviziya Mancuriyada yerləşirdi.

Ş.Nəzirlinin "Güllələnmiş Azərbaycan generalları" kitabında S.Mehmandarovun Zabaykal vilayətində olarkən etdiyi bir fədakarlıq haqqında maraqlı məqam vardır: "Batareya döyüşə hazır olan anda Zabaykal vilayətinin rəisi, general-mayor Rennenkampf əmr verdi ki, çinli əsgərlər Sisikara şəhərindən çıxır, onlara atəş açın. Bu vaxt silahsız, hərbi paltarda olan iki dəstə düşmən əsgəri təntənə ilə şəhərdən çıxmağa başladı. General nə qədər qışqırıb bağırdısa, Mehmandarov silahsız adamlara atəş açmadı"[4].

---

[1] Ş. Nəzirli. Güllələnmiş Azərbaycan generalları. B., 2006, s. 205.
[2] Yenə orada.
[3] M. Əliyev. Səməd bəy Mehmandarov. "Odlar Yurdu" qəzeti, №13, iyul 1988.
[4] Ş. Nəzirli. Güllələnmiş Azərbaycan generalları. B., 2006, s. 209



S.Mehmandarov (əyləşənlərdən ortada).

1901-ci ildə S.Mehmandarova polkovnik rütbəsi, üçüncü dərəcəli "Müqəddəs Vladimir" ordeni, eyni zamanda üstündə "Qəhrəmancasına fərqlənməyə görə" sözləri yazılmış qızıl qılınc verilmişdir[5].

1904-cü ilin yanvarın 26-da rus-yapon müharibəsi başladı. Həmin ilin dekabrın 16-da Port-Artur qalasının Hərbi Şurası danışıqsız təslimə razılaşdıqda, S.Mehmandarov buna ciddi etirazını bildirmişdir.

Müharibə başlananda S.Mehmandarov yeddinci Şərqi-Sibir atıcı topçu diviziyasının komandiri təyin olundu.

Bu müharibədə S.Mehmandarovun sərkərdəlik qabiliyyəti yüksək qiymətləndirilmiş və o, 1904-cü ilin oktyabrın 22-də general-mayor rütbəsi alaraq dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur.

S.Mehmandarov Çar Rusiyası ordusunda "Artilleriyanın Allahı" adı ilə məşhurlaşmışdı. Eyni zamanda onun artilleriya atəşinin avtomatlaşdırılmasında və səhra toplarının yüngülləşdirilməsi sahəsində əvəzsiz xidmətləri var və bu da hərb elmində bir yenilik olmuşdur.

S.Mehmandarov rus-yapon müharibəsindən sonra 1907-1910-cu illərdə 3-cü Sibir ordusunda artilleriya rəisi olaraq çalışmışdır.

1908-ci ilin iyulun 13-də hərbi xidmətlərinə görə S.Mehmandarova general-leytenant rütbəsi verilmişdir.

Birinci Dünya müharibəsində o, Varşava əməliyyatı istiqamətində alman qoşunlarının əsas zərbə qüvvələrinə qarşı gedən döyüşlərdə iştirak edirdi. Bu döyüşlərdə rus ordusu qələbə qazanmışdı və cəbhədəki sərkərdəlik məharətinə görə S.Mehmandarov 1915-ci ilin martın 22-də artilleriya üzrə tam general rütbəsi aldı[6].

1917-ci ildə Rusiyada Fevral-Burjua inqilabı baş verdikdə o, artıq istefada idi və Vladiqafqaz şəhərində olan malikanəsində yaşayırdı. S.Mehmandarov 1918-ci ildə qohum və dostları ilə görüşmək üçün Bakıya gəldi, həmin ilin noyabrından Nazirlikdə çalışdı, dekabrın 15-dən Hərbi nazir vəzifəsini yerinə yetirdi.

[5] M. Əliyev. Səməd bəy Mehmandarov. "Odlar Yurdu" qəzeti, №13, iyul 1988.
[6] Yenə orada.

Qeyd edək ki, 1918-ci ilin noyabrın 1-də Azərbaycan Nazirlər Şurası Hərbi Nazirliyin yaradılması ilə bağlı nazirin məruzəsini dinlədikdən sonra qərara aldı: "Azərbaycan hökuməti nəzdində Hərbi Nazirlik yaradılsın. Hərbi Nazir vəzifəsi Nazirlər Şurasının Sədrinə həvalə edilsin, general S.Mehmandarov onun müavini təyin olunsun"[7].

S.Mahmandarov bacarıqlı hərbçi olaraq ordudakı problemləri zamanında həll etməyi bacarırdı. Onun 1918-ci ilin noyabrında Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının Sədri F.X.Xoyskiyə yazdığı məlumatdan: "General-leytenant Şıxlinskinin hərbçi müsəlmanlar arasında böyük ziyalı gücünün olmaması haqqındakı məruzəsini nəzərə alıb, onun Hərbi nazirin ikinci müavini təyin edilməsi ilə bağlı zəmanət verirəm. Bu zəmanət həm də onunla bağlıdır ki, tezliklə mən hərbi hissələri, idarə və anbarları yoxlamağa getməliyəm. Odur ki, Yelizavetpolda (Gəncədə) bir müavinim olmalıdır. Bundan başqa, təklif edirəm ki, bütün texniki və hərbi-tədris sahələrinə rəhbərliyi elə həmin generala da tapşırmaq lazımdır"[8].

S.Mehmandarovun yüksək tələbkarlığının nəticəsində Azərbaycan Ordusu güclənirdi. Onun əsgər və zabitlərə qarşı tələbkarlığını təsdiqləyən sənədlər də mövcuddur. S.Mehmandarovun 1918-ci ilin 15 dekabrında hazırladığı əmrdə yazılıb: "Diqqət etmişəm ki, hərbi hissələrdə komandirlərin rütbəsini böyütdükləri praporşiklər (çavuşlar – red) hərbi forma geyinirlər. Əmr edirəm rəhbərliyə ki, praporşiklərin rütbəsini artırmaq hökumət tərəfindən Hərbi Nazirliyə həvalə edilib və digər rütbələri isə hökumət özü verir. Əmr olmadan zabit paltarı geyinənlər təcili şəkildə həmin formanı çıxarsınlar. Əgər onlar o rütbəyə layiqdirlərsə, onda alay komandirləri təcili olaraq təqdimat yazsınlar"[9].

S.Mehmandarovun 1918-ci ilin 17 dekabrında verdiyi 18 saylı əmrdə isə təqdim olunmuş siyahıdakı hərbi həkimlərin, feldşerlərin, tibb bacılarının maaş almaqla orduya və Azərbaycanın müalicə müəssisələrinə qəbulu qeyd olunurdu[10].

S.Mehmandarov Hərbi nazir olarkən ilk verdiyi əmrlərdən biri – Azərbaycan ordusu əskərinin ana dilində salamlaşmağı idi. Onun əmrində qeyd olunurdu: "Sırada, eləcə də sıradan kənarda olarkən əskərlərin türkcə salamlaşması – bir sözlə "salam", cavabı isə "əleyküm-salam" olmasını bütün zabitlərə əmr edirəm.

[7] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2898, s. 2, i. 22, v. 4.
[8] Yenə orada, v. 152.
[9] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i. 1, v. 24.
[10] Yenə orada, v. 26.

Təltif zamanı əskərə deyilməlidir: "Mərhəba!", əskər cavab verməlidir: "Çox sağ ol!"[11].

General S.Mehmandarovun 1919-cu ilin 18 yanvar – 29 aprel tarixində verdiyi çoxlu sayda əmrlər onun yüksək hərbi istedadı ilə yanaşı, bacarıqlı nazir olduğunu da sübut edir. O, bu əmrləri ilə düzgün zabit kadrları dəyişikliyi edir, başqa millətdən olan istedadlı zabitləri orduya cəlb edir, nazirliyin strukturlarını genişləndirir, ordunun döyüş qabiliyyətini gücləndirirdi. Bu əmrlərdə yazılıb: "1) Ştabs-Rotmistr Nəbibəyov aprelin 3-dən 3-cü süvari Şəki alayındadır; 2) Zabitlər məktəbinin kapitanı Xan Xoyski 2-cü süvari Bakı alayına keçirilir; 3) General-mayor Dubrovski yanvarın 12-dən Azərbaycan Hərbi-Dairə Məhkəməsinin sədridir; 4) Hərbu Nazirliyin nəzdindəki Hərbi məhkəmə hissəsinin rəisi podpolkovnik Samborskiy yanvarın 12-dən əvvəlki vəzifəsini icra etməklə, Azərbaycan Hərbi-Dairə məhkəməsinin prokuroru təyin edilir"[12].


...ый Министръ
...жанской Республики
...ября 1918 года
№ 799
...ганджа.

Председателю Совѣта Министровъ
Азербайджанской Республики.

Рапортъ.

Представляя при семъ рапортъ и докладъ Генералъ-Лейтенанта ШИХЛИНСКАГО, ввиду громаднаго недостатка интеллигентныхъ силъ среди мусульманъ-военныхъ, я ходатайствую о назначеніи его вторымъ Товарищемъ Военнаго Министра. Ходатайство это вызвано еще и тѣмъ соображеніемъ, что мнѣ въ скоромъ времени придется часто выѣзжать для осмотра различныхъ частей, управленій и складовъ, а потому необходимо замѣстителя въ Елисаветполѣ. Кромѣ того на того-же генерала я предполагаю возложить непосредственное завѣдываніе всѣми техническими и военно-учебными заведеніями.

Генералъ-отъ-Артиллеріи Мехмандаровъ

Начальникъ Главнаго Штаба
Генеральнаго Штаба
Полковникъ

**S.Mehmandarovun Nazirlər Şurasının Sədrinə göndərdiyi raport. Noyabr 1918-ci il.**

S.Mehmandarovun 1919-cu ilin yanvarın 5-də Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının Sədrinə göndərdiyi təcili teleqramda zabit kadrın dəyişdirilməsi vacibliyi bildirilirdi: "Birinci piyada Qazax alayının komandiri polkovnik (albay) Vəkilovun tam məsuliyyətsizliyini nəzərə alıb onun kapitan İsrafil İsrafilovla əvəz edilməsini təklif edirəm. İ.İsrafilov çox enerjili və bacarıqlı zabitdir, nüfuzludur. Ona podpolkovnik rütbəsi verilməsinə də zəmanət oluram. Hökumətin qərarını teleqrafla bildirməyinizi xahiş edirəm"[13].

Bu teleqraf S.Mehmandarovun kadr seçiminə ciddi diqqət etdiyini təsdiqləyir.

S.Mehmandarov hərbi məktəblərin yaradılmasına və inkişafına böyük diqqət yetirirdi. Bu məqsədlə onun 1919-cu ilin yanvarın 14-də Xalq Maarif Naziri N.Yusifbəyliyə göndərdiyi teleqram əhəmiyyətlidir: "Hazırda məktəbdə yer olmadığından əmr etmişəm ki, oraya yalnız tələbələri və orta təhsil müəssisələrini bitirənləri qəbul etsinlər. Ümumiyyətlə, məktəbə yüksək ibtidai məktəbləri

---

[11] Ş. Nəzirli. Güllələnmiş Azərbaycan generalları. B.2006, s. 253.
[12] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2898, s. 6, i. 5, v. 19-45.
[13] Yenə orada, s. 2, i. 22, v. 26.

və orta tədris müəssisələrində dördüncü sinfi bitirənlər qəbul ediləcəklər. Aprelin 1-dən vakansiya olacaq, indi isə qoşunlara könüllülər də daxil ola bilər[14].

**S.Mehmandarov ordu quruculuğunda böyük fədakarlıqlar göstərir, Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edirdi.** Onun səlahiyyətli nazirlərə, dövlət rəsmilərinə göndərdiyi məktublar, teleqramlar bu faktı təsdiqləyir. S.Mehmandarov 1919-cu ilin aprelin 21-də Gəncədən Nazirlər Şurasının Sədri, eyni zamanda Daxili İşlər naziri N.Yusifbəyliyə göndərdiyi 1663 saylı məxfi raportda yazırdı: "Bu il aprelin 15-dəki 1631 saylı raportla mən bolşeviklər tərəfindən orduda təbliğata başlamağa hazırlıq barədə məlumat vermişdim. Bakıda öz işini başa çatdıran Həmkarlar İttifaqı qurultayı belə bir bəyannamə qəbul etmişdir: "İttifaqın məqsədi Zaqafqaziya hüdudunda Sovet hakimiyyəti qurulmasının həyata keçirilməsi üçün hərtərəfli siyasi cəhd göstərməkdən ibarət olmalıdır". Bu bəyannamədə yerli bolşeviklərin Azərbaycanın müstəqilliyini məhv edib onu Sovet Rusiyası ilə birləşdirmək cəhdləri artıq şübhə doğurmur.


5 января 1919 года. ТЕЛЕГРАММА

БАКУ

ПРЕДСѢДАТЕЛЮ СОВѢТА МИНИСТРОВЪ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В слѣдствіе полной бездѣятельности командира перваго пѣхотнаго Казахскаго полка Полковника Векилова я предполагаю замѣстить его Капитаномъ Исрафиломъ Исрафиловымъ очень энергичнымъ и толковымъ офицеромъ точка Дабы Капитанъ Исрафиловъ имѣлъ авторитетъ ходатайствую производствѣ его чинъ Подполковника точка Рѣшеніе Правительства благоволите телеграфировать

Военмин Генералъ Мехмандаровъ

**S.Mehmandarovun Nazirlər Şurasının Sədrinə göndərdiyi teleqram. 5 yanvar 1919-ci il.**

**Bəyannamə nəzərə alınaraq, hökumətin fəaliyyətinin əsasında Azərbaycanın müstəqilliyinin müdafiəsi durmalıdır və mən şübhə etmirəm ki, bolşeviklərin dağıdıcı cəhdlərinə qarşı zəruri tədbirlər görüləcəkdir. Mən Bakı qarnizonunun qoşunlarına bolşeviklərin təsir göstərəcəklərindən ehtiyat edirəm, çünki Bakı hazırda Zaqafqaziya bolşeviklərinin fəaliyyət mərkəzidir.** Buna görə xahiş edirəm, Bakı Xəfiyyə bölməsi qarnizon qoşunlarında zərərli təbliğata yol verilməməsi üçün öz nəzarətini gücləndirsin və bu sahədə rəhbər şəxslərə hərtərəfli köməklik göstərsin.

Mənim tərəfimdən, həmçinin qoşunlardan daxili nizam-intizama nəzarəti gücləndirmək tələb edilmişdir. Bu barədə ona görə xahiş edirəm ki, Hərbi nazirlik Bakıda kəşfiyyat işini təşkil etmək və həyata keçirmək üçün kifayət qədər

[14] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2898, s. 6, i. 5, v. 33.

hazırlıqlı, yerli şəraitə bələd olan agentlərə malik deyil.

Ümid edirəm ki, ordunu və bununla da Azərbaycanın müstəqilliyini saxlamaq uğrundakı ümumi mübarizə işində Hərbi nazirlik Daxili İşlər Nazirliyindən ancaq Bakıda deyil, respublika ərazisinin hər yerində hərtərəfli dostluq köməyi görəcəkdir. Bunun üçün mən Zati-Alilərinizdən general-qubernatorlara və qubernatorlara müvafiq əmrlə bildirməyinizi xahiş edərdim. Tam artilleriya generalı Mehmandarov, Baş qərargah rəisi general-leytenant Sulkeviç”[15].



**S.Mehmandarovun Nazirlər Şurasının Sədrinə göndərdiyi məktub. May 1919-cu il.**

S.Mehmandarov ordunu bolşeviklərin zərərli təbliğatından qorumağa çalışır, bununla əlaqədar Nazirlər Şurasının Sədri, eyni zamanda Daxili İşlər naziri N.Yusifbəylini 1919-cu ilin mayın 11-də məlumatlandırırdı: “Mənim tərəfimdən belə bir məlumat alınmışdır ki, Bakıda müsəlmanlardan ibarət olan xeyli bolşevik təmayüllü şəxs hər vasitə ilə kazarmalara daxil olmağa, təbliğatla ordunun əsaslarını sarsıtmağa və bolşevik ideyalarını aşılamağa can atırlar. Bakıda yerləşən qoşunlar, xüsusilə piyada qoşunları hərbi tərbiyənin əsaslarını tamamilə mənimsəməmişlər və intizam o qədər də möhkəm deyil, buna görə də mən qoşunları Bakıya gətirmək istəmirdim. Bu gənc qoşunları bolşeviklərin dağıdıcı təbliğatından qorumaq üçün Zati-Alilərinizdən kazarmaların yerləşdiyi rayonlara kənar şəxslərin icazəsiz daxil olmasına imkan verilməməsi məqsədi ilə qoşunların yerləşdiyi rayonlarda polis nəzarətinin tətbiqinə sərəncam verməyinizi xahiş edirəm”[16].

Azərbaycanda müstəqil dövlət quruculuğuna mane olan qüvvələr dağıdıcılıq işlərini davam etdirsələr də, onların qarşısı güc nazirlikləri tərəfindən qətiyyətlə alınırdı. 1919-cu ilin iyununda Azərbaycan Cümhuriyyəti üçün ən təhlükəli problem Lənkəran qəzasında baş verən hadisələr idi. Azərbaycanın ərazi bütövlüyünü parçalamaq istəyən və qondarma “Muğan respublikası” yaratmaq istəyən bu qüvvələrə qarşı S.Mehmandarov çox qətiyyətli davranmışdı. O, do-

[15] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 5, v. 50.
[16] Yenə orada, s. 10, i. 96, v. 30.

ğulub boya-başa çatdığı bu bölgədəki separatçı qüvvələrə xəbərdarlıq edirdi: "Azərbaycan Respublikası hökumətinin iradəsi ilə mən Lənkəran qəzasına vətəndaş müharibəsini birdəfəlik kəsmək, qayda-qanun yaratmaq, yerli əhalini zalımlardan və qatillərdən qurtarmaq üçün dəstə göndərirəm. Azərbaycan qoşunları Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu yerin bütün millətlərdən olan əhalisi üçün qanunçuluğun və ədalətin müdafiəçisi kimi gəlir. Silahlı qüvvələrin himayəsi altında ölkənin bütün sahələrinin idarəçiliyində təxirə salınmadan mülki idarəçilik bərpa ediləcəkdir... Bununla yanaşı xəbərdar edirəm ki, hər hansı şura, komitə, yaxud "Muğan respublikası" şəklində heç bir özbaşına təşkilatın olmasına yol verilməyəcəkdir! **Lənkəran qəzasında yalnız Azərbaycan Respublikasının hakimiyyəti tanınacaqdır və onun sərəncamlarını yerinə yetirməyənlər qiyamçı kimi hərbi dövrün qanunlarına uyğun məsuliyyət daşıyacaqlar.** Xəbərdar edirəm ki, rus əhalisinə qarşı heç bir qarətə və zorakılığa yol verilməməlidir. Çünki onlar da qəzanın digər millətlərinin nümayəndələri ilə Azərbaycan Respublikasının bərabərhüquqlu vətəndaşlarıdır... Hər cür silahlı müqavimət ölüm hökmü ilə cəzalandırılacaqdır və qoşuna belə hallarda amansızlıqla fəaliyyət göstərməyi əmr edirəm. Bu barədə bu və ya digər bəhanə ilə əhalini qoşunlara, yaxud hakimiyyətə qarşı qaldıracaq şəxslərin hamısına xəbərdarlıq edirəm. Öz növbəsində mən dəstə rəisinə, qoşunların əhaliyə heç bir zərər verməməsi və mülki əhaliyə qarşı hər cür zorakılıq edənləri ciddi cəzalandırmağı əmr edirəm"[17].

S.Mehmandarov Hərbi nazir olaraq münaqişə bölgələrinə gedir, yaranmış vəziyyətlə yaxından tanış olurdu. Onun Nazirlər Şurasının Sədri N.Yusifbəyli ilə Qarabağ bölgəsinə səfəri haqqında "Azərbaycan" qəzeti yazırdı: "Qarabağın həyatında daha əlamətdar hadisə: bu, 29-30 iyul günləri oldu. Bu günlərdə Qarabağ özünün ən əziz və sevimli qonaqlarını – Gəncə qubernatoru Rəfibəyovun müşayiət etdiyi Baş Nazir N.Yusifbəylini və Hərbi nazir S.Mehmandarovu qəbul etmək sevincini yaşadı. Qonaqlar iyulun 29-da Xankəndinə gəldilər, orada qoşunların paradı oldu. Paradı Baş Nazir N.Yusifbəyli qəbul etdi. İyulun 30-da əziz qonaqlar Şuşaya gəldilər. Şəhərdə qonaqlar ruhanilər və əhali tərəfindən duz-çörəklə qarşılandılar. Sonra qonaqlar Azadlıq meydanına gəldilər və burada ruhanilər və əhali tərəfindən nitqlər söylənildi. Cavab nitqi söyləyən Baş Nazir müsəlmanların başqa millətlərin nümayəndələri ilə dinc yanaşı yaşamalarının zəruriliyindən danışaraq qeyd etdi ki, bunsuz Azərbaycanın rifahı mümkün deyil!!"[18].

---

[17] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 124, v. 15-16.
[18] "Azərbaycan" qəzeti. 3 avqust 1919-cu il.

1920-ci ilin mart ayında bütün cəbhə bölgələrində ağır vəziyyət yaranmışdı. Ermənilər hər yandan Qarabağ bölgəsinə hücum edir, kəndləri yandırır, günahsız insanları qətlə yetirirdilər. Bu çətin şəraitdə S.Mehmandarov döyüş əməliyyatlarına bacarıqla başçılıq edirdi. Onun general Ə.Şıxlinskiyə göndərdiyi teleqramda yazılıb: "Bu gün yenə Qaryagindən, Cəbrayıldan oraya ötürülən teleqram alınıb və bu məzmundadır: Şuşa, general Novruzovdan: Rəqib hücum edir və bütün cəbhə boyu atışmadır. Birinci hücumlarının qarşısı alınıb. Partizanlar çoxlu patron işlədirlər. Kəndləri ermənilər yandırırlar. Xahiş edirəm, hərəkət edib rəqibin Qarabağ erməniləri ilə birləşməsinə imkan verməyək..."[19].

Qeyd edək ki, 1918-1920-ci illərdə S.Mehmandarov Azərbaycan ordusunun gücləndirilməsi ilə əlaqədar zabit kadrları hazırlamaq məqsədi ilə 1918-ci ilin iyulunda əsası Nuru Paşa tərəfindən Gəncədə qoyulan zabit məktəbi açmış, sonradan – 1919-cu ilin əvvəllərində Bakıya köçürülərək, əsasında Hərbi məktəb təşkil olunmuşdu. Bundan əlavə onun təşəbbüsü ilə Bakıda istehkamçı və hərbi feldşer məktəbi, Gəncədə isə hərbiləşdirilmiş dəmiryolu məktəbi açılmışdır. 1920-ci ilin yanvarında isə bu məktəblərə müdavim hazırlayan xüsusi hərbi təmayüllü kadet korpusu təşkil olundu[20].

S.Mehmandarov Hərbi nazir vəzifəsində olarkən əsgərlər arasında böyük nüfuza sahib idi və ona çoxlu şərqilər qoşulmuşdu:

***Səməd Paşa sərdarımız,***
***Qan axıdar xəncərimiz.***
***Düşmənləri qəhr edərik,***
***Yurdlarını məhv edərik,***
***Biz bir tabor əsgərlərik.***
***Pək şanlıyıq!***[21]***.***

S.Mehmandarov 1918-ci ildən fəaliyyətə başlayan Azərbaycan Parlamentində də əhəmiyyətli çıxışlar edib. Onun parlamentdəki ilk çıxışı1919-cu ilin fevralın 25-də on altıncı iclasda oldu. Həmin iclasda 6-ya qədər qanun layihəsinin müzakirəsi nəzərdə tutulurdu ki, onlardan biri belə adlanırdı: "Hərbiyyə nəzarətinin qanun layihəsi".

İlk olaraq çıxış edən Qarabəy Qarabəyov (İttihad Partiyası) bildirdi ki, Hərbi nazir uzun müddət Rusiyada çalışdığından və məruzəsində xüsusi sözlər (ter-

---

[19] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 2, i. 5, v. 46.
[20] M.Əliyev. Səməd bəy Mehmandarov. "Odlar Yurdu" qəzeti, №13, iyul 1988.
[21] Ş. Nəzirli. Güllələnmiş Azərbaycan generalları. B., 2006, s. 254.

minlər) olduğundan, onun istisna olaraq türkcə yox, rusca danışılmasına icazə verilsin. O, bu xahişi həm Hərbi nazirin, həm də öz adından etdiyini bildirdi.

Q.Qarabəyov qeyd etdi ki, bir neçə gün əvvəl Hərbi Nazirliyin büdcəsinə milli-müdafiə komissiyasında bütün təfərrüatı ilə baxılmışdır.

Hərbi Nazirliyin ümumi ştat cədvəli və məmurların miqdarı ilə maaşları oxunduqdan sonra, söz nazir S.Mehmandarova verildi. Parlament üzvləri onu şiddətli və sürəkli alqışlarla qarşıladı. O, çıxışını bu sözlərlə başladı: "Mən əvvəlcə Parlamentdən üzr istəməliyəm ki, rusca danışacağam, çox utanıram ki, öz dilimi Məclisi-Məbusanda danışmaq qədər bilmədiyimdən rusca söyləməyə məcburam. Bu gün Sizə təqdim olunan heyət və maaş miqdarı ən vacib olan hissələrdən tərtib edilmişdir"[22].

S.Mehmandarov layihəni müzakirə edərkən orduda aşağıdakı problemlərin olduğunu nəzərə almağı parlament üzvlərindən xahiş etdi: "1) Cəbhədə olmuş bütün zabitlərin onlara verilmiş hərbi ləvazimatlarla yanaşı, öz əşyalarının da itirilməsi hallarında buna görə maliyyə ayrılmasının vacibliyi; 2) Ailələrindən kənarda olan zabitlərə mövcud olan bahalığın ciddi təsiri; 3) Əsgərə təlim və vətən üçün ölümə getməyə hazırlıq tərbiyəsi keçən zabitin geyiminin təmiz və səliqəli olması; 4) Azərbaycanın təcrübəli zabitlərə ehtiyacını nəzərə alaraq, Rusiya ordusunda xidmət etmiş başqa millətlərdən olan zabitlərin müstəqillik qazanmış xalqın ordusuna dəvəti, onların yüksək maaşla təmini; 5) Keçmiş Hərbi Nazirliyin qərarı ilə sentyabrda zabitlər üçün qənaətbəxş olan maaşın, hazırki bahalığa görə onların ehtiyacını ödəməməsi; 6) Maaş alanlara vəsaitin azlığının sui-təsiri; 7) Zabitlərin fəaliyyətinin yalnız hərb zamanında deyil, təbii hallarda da ağır vəziyyətdə olması. Əksər hallarda məhəllələrdə, bəzən (manevr zamanı) açıq havada, qar və yağmura baxmayaraq ac, susuz yaşamağa məcbur olan zabitin Vətənə canını belə qurban verməsi..."[23].

Sonra S.Mehmandarov Hərbi Nazirliyin fəaliyyəti haqqında məlumat verdi. O, dedi: "əlbəttə, heç kəs inkar etməz ki, türklər millətimizin xilaskarı olmaqla böyük xidmət etmişdilər. Amma burası, onların hərəkətini tənqid etməyimizə də mane ola bilməz. Hərbi Nazirlik Gəncəyə köçənədək bizə xəbər verdilər ki, əsgəri işlərimiz yaxşıdır və çoxlu əsgər yığılır, lazım olan kimi məşq verilir və ilaxır. Mən Gəncəyə belə gözəl ümidlə getdim. Hər yeri gəzdim, əsgəri hissələrimizə baxdım, fəqət, iş heç də yaxşı deyildi. Əsgərlərimiz əzgin, düşkün bir halda,

---

[22] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 308; "Azərbaycan" qəzeti, 7 mart 1919, №131.

[23] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 308-309.

yeməkləri pis, mənzilləri fəna bir halda. Yorğan-döşək yox, onların çoxu xəstə idi. Xəstə əsgərlərin hamısını sağlamları ilə dəyişməyə məcbur olduq. Qoşun yığmaq işləri yaxşı getmirdi. Rəislər və mövqif (duracaq, stansiya) komandirləri öz vəziyyətlərindən sui-istifadə edirdilər. Çox vaxt bir külfətin yeganə çörək gətirən adamını əsgər alırdılar. Bu iş də camaatı narazı salır, orduya əsgər verməkdən uzaqlaşdırırdı. Nuru Paşa Azərbaycandan gedərkən özü mənim yanıma gəlib dedi ki, əsgərlik barəsində Azərbaycan fəna bir halda qoyulmuşdur”[24].

S.Mehmandarov çıxışında qeyd etdi ki, hazırda orduda yemək, qida, geyim problemləri tədricən həll edilməkdədir. O, bildirdi ki, Gürcüstandan hərbi geyimlər almaq mümkün olmasa da, Şuşa fabrikində əsgəri paltar üçün parça toxunur və ondan istifadə edilir. Onun çıxışından məlum olurdu ki, 1919-cu ilin fevralına qədər olan dövrdə əsgər toplamaqla məşğul olan on bir “əxzi-əskər idarəsi” mövcuddur. S.Mehmandarov bildirirdi ki, Rusiyanın bütün bölgələrində eyni vaxtda əsgər toplanılsa da, biz o qaydanı Azərbaycanda dəyişmişik və bu işi tədricən həyata keçirəcəyik ki, hərbi rəislər düzgünlüyə nəzarət etsinlər. O, qeyd edirdi ki, hazırda altı ilin əsgəri orduya cəlb olunsa da, ilin sonunda buna ehtiyac olmayacaq və yalnız iki ilin, yəni 19-20 yaşlıları orduya yığmaq kifayət edəcəkdir. S.Mehmandarov bir faktı xüsusi vurğulayırdı: “Əhali özü qaçanlara nifrət edir və hətta çox vaxt olub ki, əsgərlikdən qaçanı döyüb, sonra geri gətirmişdilər. Güman var ki, müsəlmanlarda olan fitri nizam və ədəbə görə vaxtı ilə heç kəs qaçmayacaqdır”[25].

**S.Mehmandarov parlamentdəki çıxışını bu sözlərlə yekunlaşdırdı: “Bir neçə söz də şəxsim ətrafında qaldırılmış səs-küy haqqında ərz edəcəyəm. Bu sözləri o ağalar danışırlar ki, qoymamışam Azərbaycan xəzinəsinə südlü inək və Hərbiyyə nazirliyinə darüləcəzə (əlillər evi, qocalar evi) kimi baxsınlar. Mən bəyan edirəm ki, bu vaxtadək olduğu kimi, bundan sonra da tutduğum yol ilə gedəcəyəm və heç bir qüvvə məni bu yoldan çıxara bilməz. Hər kəs məndən sonra nazir olsa, görər ki, nə qədər zəhmət çəkilmiş və nə işlər görülmüşdür”[26].**

**Həmin dövrdə nəşr edilən “Azərbaycan” qəzeti S.Mehmandarovun çıxışından sonra parlament üzvlərinin ona olan inamını və hörmətini belə işıqlandırırdı: “Hərbiyyə naziri həzrətləri axırda salondan çıxarkən yenə bütün məclis şiddətli və sürəkli alqış ilə onu yola salır”[27].**

---

[24] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 310-311.

[25] Yenə orada, s. 313.

[26] Yenə orada.

[27] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2898, s. 2, i. 22, v. 152.

**Azərbaycan Cümhuriyyətinin son günləri çox ağır keçdi. Bu baxımdan təcrübəli hərbçi S.Mehmandarovun 1920-ci ilin aprelin 27-də Gəncəyə göndərdiyi teleqramın tarixi əhəmiyyəti vardır: "Hərbi sənəddir. Növbədən kənar. Birinci diviziyanın rəisinə. Gəncə. Bolşeviklər Yalama stansiyasına hücum edib irəliləyirlər. Xudatı tutublar. Vəziyyət gərgindir. Əmr edirəm: elə bu gün Qızılburuna Qazaxdan bir, Gəncədən də bir batalyon göndərin... Sabah batalyonların gələcəyini gözləyirəm. №1417, 1920-ci il, 27 aprel, general Mehmandarov"[1].**

**Qeyd edək ki, bu teleqram Gəncəyə çatmadı, bolşeviklər yolda onu ələ keçirmişdilər.**

Həmin dövrdə milli ordu hissələri Dağlıq Qarabağda Azərbaycan xalqı əleyhinə üsyan qaldıran erməni-daşnak qoşunlarına qarşı döyüşə səfərbər olunmuşdu. Bakı və ətraf bölgələrdə isə iki minə yaxın əsgər qalmışdı.

Hərbi nazir S.Mehmandarov hökumətə məlumatında Bakıya hücum edən 60 minlik bolşevik-düşmən ordusunun qarşısını almağın qeyri-mümkünlüyünü bildirmişdi. O, açıqca etiraf etmişdi ki, bu vəziyyətdə onun başçılıq etdiyi ordu müqavimət göstərmək imkanına malik deyil.

Qeyd edək ki, işğalçı XI ordu Azərbaycan ərazilərinə daxil olarkən Yalama stansiyasında 300-ə qədər milli ordu əsgərimiz cəsarətlə müqavimət göstərib, düşmənə qarşı döyüşdülər.

1920-ci ilin 27 aprelində Rusiya bolşeviklərinin Azərbaycanı işğal etdikdən sonra S. Mehmandarovun ağır günləri başladı. Onu 1920-ci ilin iyunun 3-də həbs etdilər. Tərtib olunmuş 226 saylı order əsasında yaşadığı Orlovsk küçəsi, 116 saylı evdə axtarış aparıldı[2]. Onun əleyhinə alınan ifadədə qeyd olunurdu: "Hərbi nazir Mehmandarov haqqında deyə bilərəm ki, o da bolşeviklərə və sovet hökumətinə pis münasibət bəsləyirdi"[3].

S.Mehmandarovun işini aparan müstəntiq Qubin isə XI Ordu xüsusi şöbəsinin istintaq materialları əsasında bu qərarı verdi: "...Vətəndaş Mehmandarov əksinqilabi Müsavat Partiyasının vəzifəyə qoyduğu adamdır və 399 saylı əmrdən göründüyü kimi, onu müdafiə etməklə orduda bolşevizmin aradan qaldırılması üçün həmin partiyanın qarşısında duran vəzifələri həyata keçirmişdir"[4].

1920-ci ilin avqust ayının 2-də XI Ordunun xüsusi şöbəsinin rəisi Pankratovun qeydi olan məktub əsasında S.Mehmandarov Ümumittifaq Fövqəladə Komissiyasının xüsusi şöbəsinin sərəncamına göndərildi.

---

[1] N. Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991, s. 148.
[2] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 48.
[3] Yenə orada, s. 52.
[4] Yenə orada.

S.Mehmandarovun və Ə.Şıxlinskinin qorunması ilə bağlı N.Nərimanov da 1920-ci ilin avqust ayının 1-də V.İ.Leninə iki səhifəlik məktub yazdı və hər ikisinin azad olunması xahişini etdi. Azərbaycanda isə o dövrdə N.Nərimanovla razılaşan bolşeviklərin sayı getdikcə azalırdı və bir qədər sonra o, özünün müdafiə etdiyi bolşevik rejimindən şikayət dolu məktubunu oğlu Nəcəfə ünvanlayacaqdı.

Moskvada S.Mehmandarovu və Ə.Şıxlinskini həbsə alıb (onların buraya sərbəst gəlmələri qeyd olunub) Butırsk həbsxanasına göndərdilər.

Sonradan N.Nərimanovun və Azərbaycanın Fövqəladə Səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin işə qoşulması hər iki generalın 1920-ci ilin noyabrın 3-də azad olunmasına imkan yaratdı.

S.Mehmandarov həbsdən azad edildikdən sonra, 1921-ci ilin payızında Moskvadan Bakıya qayıtdı. Burada Azərbaycan SSR Hərbi-Dəniz Komissarlığında məsləhətçi, 1924-1927-ci illərdə isə Azərbaycan Hərbi məktəbində və Zaqafqaziya hərbi-piyada məktəbində dərs dedi, Hərbi Elmi Cəmiyyətin sədri oldu.

S.Mehmandarov 1931-ci ilin fevralında vəfat etdi, Bakıdakı Çəmbərəkənd məzarlığında dəfn olundu. Həmin məzarıstanlıq (indiki Şəhidlər Xiyabanını və C.Cabbarlının ev muzeyinin qarşısı) dağıldığından S.Mehmandarovun qəbri itib-batmışdır.

Azərbaycan generalları ilə bağlı ciddi tədqiqatlar aparmış Ş.Nəzirlinin məlumatlarından aydın olur ki, S.Mehmandarovun vəfatından sonra da onun ailəsini incidiblər[5].

S.Mehmandarovun həyat yoldaşı – Kiyev zadəgan ailəsinə mənsub olan Yelizaveta Nikolayevna Teslavin adlı xanım olub. Onların 1908-ci ilin noyabrın 18-də İqor adlı bir övladları dünyaya gəlib (S.Mehmandarov oğlunun adını əvvəl Pir qoyub, sonra dəyişib və bu da yeganə övladının gec dünyaya gəlməsi ilə, Pir kimi qeyri-adi tapıntılığı ilə əlaqəli olub).

S.Mehmandarovun həyat yoldaşı və oğlunu əvvəlcə Kalininqrada, müharibə başlayanda isə qatarla Sibirə sürgün ediblər. Qatara yolda almanlar hücum etmiş, S.Mehmandarovun həyat yoldaşı yaralanıb həlak olmuş, oğlu İqor isə sağ qalmışdı.

**S.Mehmandarovun oğlu İqorun dediklərindən aşağıdakı həqiqətlər aydın olur: “NKVD işçiləri anamı da, məni də tez-tez döyürdülər. Mən bu cür münasibətin səbəbini soruşanda bildirirdilər ki, siz yaxşı valideyn seçməmisiniz, nazirin (yəni S.Mehmandarovun) oğlu olmusunuz”[6].**

[5] G. Rəsulqızı. Səməd bəy Mehmandarovun Bakıda səssiz ölən oğlu – İqor Mehmandarovdan qalan yeganə nişan kimdir?.. 19.06.2017. Modern.az. saytı.
[6] Yenə orada.

# MUSTAFA BƏY VƏKİLOV

(1896 – 1965)



Tanınmış ictimai-siyasi xadim Mustafa bəy Vəkilov 1896-cı ildə Qazax mahalında anadan olub. Bakıda gimnaziya təhsili aldıqdan sonra, 1912-ci ildə Moskva Universitetinin hüquq fakültəsinə daxil olub.

M.Vəkilov 1917-ci ildə universiteti bitirdikdən sonra ciddi siyasi fəaliyyət göstərib. O, 1917-ci ilin aprelində Bakıda keçirilən Qafqaz Müsəlmanları və həmin ilin mayında Moskvada təşkil olunan Ümumrusiya Müsəlmanlarının qurultaylarında iştirak edib.

M.Vəkilov Zaqafqaziya Seyminin üzvü olaraq da çalışıb.

O, Müsavat Partiyasının birinci qurultayında (26-31 oktyabr 1917, Bakı) partiyanın Mərkəzi Komitəsinin üzvü seçilib.

M.Vəkilov Azərbaycan Parlamentinin üzvü olmaqla yanaşı, 1920-ci ilin fevralından Azərbaycanın Daxili İşlər naziri vəzifəsini də icra edib.

1920-ci ilin 27 aprelində Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra M.Vəkilov Tiflisə, oradan isə Türkiyəyə getməyə məcbur olub.

M.Vəkilov 1965-ci ildə Türkiyənin Ankara şəhərində vəfat edib.

# DAXİLİ İŞLƏR NAZİRİ

Azərbaycan Cümhuriyyətinin formalaşmasında, bir dövlət olaraq güclənməsində Mustafa bəy Vəkilovun (Vəkilli) böyük xidmətləri vardır. M.Vəkilov Azərbaycanda yaşadığı illərdə bütün bacarığını güclü dövlətin yaranmasına həsr etmişdir. Sonradan ağır mühacirət həyatında o, yenə Azərbaycanın azad olması və sovet rejimindən xilasına çalışmışdır. O, bu mücadiləni Azərbaycandan kənarda – Türkiyədə, Polşada, Fransada aparmış və mövqeyindən geri çəkilməmişdi.

M.Vəkilovun 1917-ci ilin aprelin 15-20-də Bakıda keçirilən Qafqaz Müsəlmanlarının Qurultayında, Kiyevdə ukraynalı professor Qruşevskinin rəhbərliyi altında olmuş Qeyri-rus millətlərin qurultayında, həmin ilin mayında Moskvada təşkil edilmiş Ümumrusiya Müsəlmanlarının Qurultayında fəal iştirakı haqqında məlumatlar vardır.

M.Vəkilovun bu dövrdə (1917-1918-ci illərdə) Bakıda nəşr edilən müxtəlif qəzetlərdə siyasi və ictimai hadisələrlə bağlı çoxlu yazıları da çap olunmuşdur. O, eyni zamanda, 1917-ci ildə açılması nəzərdə tutulan Rusiya Müəssislər məclisinə Azərbaycandan nümayəndə seçilmişdir.

M.Vəkilov Türk Ədəmi-Mərkəziyyət Partiyası Müsavatın birinci qurultayında (26-31 oktyabr, 1917) MK üzvü seçilərək qurultaydan sonra M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Bakıda və qəzalarda başlanan "Azərbaycana muxtariyyət" şüarının təbliğatçılarından biri olmuşdur[1].

M.Vəkilovun parlamentdəki çıxışları onun Azərbaycan dövlətçiliyinin qorunması ilə bağlı fəaliyyətinin əsas məqamlarını sübut edir. Bu çıxışlardan məlum olur ki, M.Vəkilov Müsavat fraksiyasının üzvü olaraq parlamentdə Maliyyə-büdcə komissiyasında çalışıb.

Qeyd edək ki, M.Vəkilovun Azərbaycan Parlamentində (o dövrdə Məclisi-Məbusan adlanırdı) ilk çıxışına 1919-cu ilin 17 martında keçirilən 17-ci iclasında rast gəlinir. Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən bu iclasda 14 məsələnin müzakirəsi nəzərdə tutulmuşdur. M.Vəkilov sayca 4-cü olan "Hökumət məmurlarına bayram münasibəti ilə fevral maaşının 75 faiz miqdarında birdəfəlik müavinəti-nəqdiyyə verilməsi layihəsi" məsələsi ilə bağlı çıxış etmişdir. O, çıxışında bildirmişdir ki, hökumət məmurlarına bayram münasibəti ilə birdəfəlik 75 faiz nağd müavinət verilməsi üçün maliyyə və büdcə komissiyasına bir layihə təqdim edilmişdir. O, üzvü olduğu komissiyanın bu məsələni müzakirə etdikdən

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s.53.



**M.Vəkilov.**

sonra, belə qərara gəldiyini deyir: "Hökumət təklif edir ki, bütün idarə məmurlarına 75 faiz müavinəti-nəqdiyyə verilsin. Amma komisyon isə təklif edir ki, bütün qulluqçuları 3 qismə bölək. Birinci qism 1400 manatadək maaş alana 70 faiz, 1400-dən 2 minədək alana 60 faiz, 2 mindən artıq alana 40 faiz verilsin. Bu təbəddülatdan başqa bütün layihə qəbul edilmişdir..."[2].

Parlamentin 1919-cu ilin 17 martında keçirilən həmin iclasında M.Vəkilov çıxışında Maliyyə – büdcə komissiyasının təklif etdiyi məvaciblərlə bağlı layihəyə münasibət bildirdi. O, dedi: "Maliyyə-büdcə komissiyası mövzudan bəhs edən məsələyə praktik nöqteyi-nəzəri ilə baxdı. Sağ, sol firqələr burada dedilər ki, bu məsələ əsas etibarı ilə qəbul oluna bilməz. Hökumət bu layihəni təklif etməklə demək istəmir ki, məvaciblər artmayacaqdır. Komissiya belə baxdı ki, bahalıq davam edir. Məvacib çatmır, hökumət nəzdində olan beynəlidarə komisyonu işləyir. Hələ işini bitirməyibdir. Komissiyanın işi çətindir... Burada belə bir sual verildi. Dedilər ki, komissiya söyləyə bilməzmi, nə qədər pul veriləcəkdir? Əlbəttə, aparatlar əlində olan bir idarə bu iş üçün xəzinədən nə qədər para çıxaracağını bilməsə, komissiya haradan bu suala cavab verə bilər. Ancaq komissiyada belə bir söhbət oldu ki, 7-8 milyon arasındadır. Ona görə də komissiya tərəfindən təklif edirəm ki, bu layihəni də qəbul edəsiniz"[3].

Azərbaycan Parlamentinin 1919-cu ilin 24 aprelində keçirilən 32-ci toplantısı hökumətin parlamentə təqdim etdiyi növbəti qanun layihəsi ilə bağlı idi. Bu layihədə təklif olunurdu ki, 510 milyon kağız pul buraxmaq üçün hökumətə icazə verilsin. M.Vəkilov qeyd etdi ki, layihədə hökumətin vəsaiti necə və hara xərcləyəcəyi haqqında məlumat verilmişdir. O, çıxışının sonunda dedi: "Maliyyə-büdcə komissiyası düşünür və geniş söylədiyi istəkləri ilə bərabər görür ki, bu saat pul lazımdır, lakin o əldə yoxdur. Ona görə komissiya təklif edir ki, hökumətin bu layihəsi qəbul edilsin. Hökumət də büdcə komissiyasının arzularını

[2] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 - aprel 1920) I c. B., 2015, s. 531; "Azərbaycan" qəzeti, 19 mart 1919-cu il, №140.
[3] Yenə orada, s. 542; "Azərbaycan" qəzeti, 21 mart 1919-cu il, №142.

nəzərə alsın və gələcəkdə doğru yol ilə pul tapmağa çalışsın.Büdcə komissiyası təklif edir ki, layihəni qəbul edəsiniz"[4].

Azərbaycan Parlamentinin 1919-cu ilin mayın 6-da keçirilən iclasında fəhlələrin tətil etməsi məsələsinə toxunulmuşdur. Səməd Ağamalı oğlu məlumat verdi ki, fəhlələr maaşlarının artırılması üçün tətil edir və buna onların haqqı vardır. Çıxışlarda Həştərxan yolunun açılması vacibliyinə də toxunulurdu. M.Vəkilov isə çıxışında qətiyyətlə bildirmişdir: "Kollektivin iqtisadiyyata aid tələbləri hökumət tərəfindən qəbul ediləcəkdir. Fəqət, o maddələr ki, istiqlalımızın əleyhinədir, onlar qətiyyən qəbul edilə bilməz... Bizim haqqımız var ki, sosialistlərdən tələb edək ki, sözlərini aşkar desinlər. Onlar sözü deyirlər, lakin aşkar demirlər. Burada tətilin iqtisadi olduğunu söyləyirlər. Əlavə edirlər ki, iqtisadi tətilin əleyhinə deyillər. Lakin siyasi tələbə iqtisadi rəng verirlər. Burada fəhlələri aldadan kimi, siz sosialistlər bizi də aldadırsınız. Şübhəsiz, tətil siyasidir. Bu tətilin əsl məqsədi Azərbaycanı yıxmaqdır... Bugünkü tətil istiqlalımıza bir təcavüzdür... Qorxu düşmənimizdə deyil, ondadır ki, biz zəifik"[5].

1919-cu ilin 26 mayında Azərbaycan Parlamentinin iclasında M.Vəkilov çıxış edərək hökumətin 20 milyonluq fondunun 40 milyona qədər artırılması ilə bağlı məlumat verdi. O, dedi: "Ona görə, hər halda, hökumətə 20 milyon lazımdır. Maliyyə-büdcə komissiyası bu layihəni müzakirə edib qət etdi ki, hökumətin xərclərini təmin üçün 20 milyonu dövriyyəyə buraxmalıdır"[6].

M.Vəkilov Parlamentdəki çıxışlarında bir hüquqşünas kimi də məsələlərə müdaxilə edir, qanunun aliliyini uca tuturdu. O, deyirdi: "Əgər Azərbaycan daxilində yaşayan türk vətəndaşları hamısı bir qanuna tabe olmaq istəyirlərsə, hökumət onlara bir gözlə baxacaq: lazım olsa, əgər əlində dəlil olsa, təhərri icranı edəcəkdir".

Azərbaycan Parlamentinin 1919-cu ilin 7 avqustunda keçirilən iclasında qeyri-müsəlman olan parlament üzvləri təklif etdilər ki, məsələ mühüm olduğundan rusca danışılsın, yaxud türkcə irad olunan nitqlər ruscaya tərcümə edilsin. M.Vəkilov bu məsələyə etiraz edərək dedi: "mən başa düşmürəm, həddindən artıq səbirli olmağımızdanmı, yaxud hər şeyə kəmetinalıq göstərdiyimizdəndir ki, bu gün Məclisi-Məbusanımızda bizdən əcnəbi dildə danışmağımızı tələb edirlər. Ümum millətlərdə, hər bir dövlətdə qəbul edilmiş və heç vaxt **toxunulmamış olan əsaslardan birini biz də qəbul etmişik ki, Məclisi-Məbusanda**

---

[4] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 - aprel 1920) II c. B., 2016, s. 65; "Azərbaycan" qəzeti, 30 aprel 1919-cu il, №169.

[5] Azərbaycan Xalq Cümhuriyyəti. Parlament (Stenoqrafik hesabatlar). I c. B.,1998, s. 528

[6] Yenə orada, s. 603.

**öz dilimizdə danışaq. Bizim dilimiz var. O dildə danışmağa haqqımız var. Və danışmağa qərar vermişik”**[7].



اذربایجان حکومت جمهوریه‌سی
داخلیه ناظری

ПРАВИТЕЛЬСТВО
Азербайджанской Республики

МИНИСТРЪ
ВНУТРЕННИХЪ ДѢЛЪ
„13„ февраля 1920г.
№ 1665
Баку.

Н. № II.
IV- 20 г.

В. Срочно.

Г. МИНИСТРУ ИНОСТРАННЫХЪ ДѢЛЪ.-

Вслѣдствіе отношенія отъ 7-го сего февраля за № 800 при семъ препровожда[ю] Вамъ перечень оффиціальныхъ свѣдѣній [о] послѣднихъ кровавыхъ выступленіяхъ армянъ въ Зангезурскомъ уѣздѣ съ указ[ан]іемъ уничтоженныхъ ими мусульманск[их] селеній.-

За МИНИСТРА ВНУТРЕННИХЪ ДѢЛЪ
ТОВАРИЩЪ МИНИСТРА

И. д. Директора Канцеляріи

Начальникъ Отдѣленія

M.Vəkilovun şəxsi imzası olan sənəd. 13 fevral 1920-ci il.

Parlamentin 7 avqust saylı iclasında təbəəlik (vətəndaşlıq) təklifi parlamentdəki qeyri-müsəlmanlar irəli sürüldü və əsasən, Slavyan-rus cəmiyyəti təmsilçisi Kravçenko tərəfindən müzakirəyə qoyuldu. Bu məsələ ilə bağlı çıxış edən M.Vəkilov ortalığa çox sərt mövqe qoydu. O, qeyd etdi ki, təbəəlik qanunu qəbul edilmədikcə, heç bir mühüm məsələyə toxunmaq olmaz, hətta Məclisi-Məbusan çağırmaq olmaz. M.Vəkilov bu məsələ ilə bağlı irəli sürülən iki fikrə də əsaslı cavablar verdi. Birinci məsələyə, yəni təbəəliyin istiqlalımızın beynəlmiləl təsdiqi ilə bağlılığına etiraz etdi və bunu bəhanə adlandırdı. İkinci məsələyə də, yəni bu qanunu Rusiyadan icazəsi qəbul etməyin qeyri-mümkünlüyünə də narazılığını bildirdi. O, qeyd etdi: “Çünki bu adamlar əvvəllər Rusiya təbəəsi olublar. İndi Azərbaycan təbəəliyi qanunu verməklə haqları təsdiq edilib. Fəqət bizcə Rusiyanın icazəsinə burada ehtiyac yoxdur. Və gözləmək lazım deyildir. Qoy rusiyalılar əllərindən gələn qədər çalışsınlar, ağızlarına nə gəlsə, desinlər və bacardıqlarını etsinlər”[8].

M.Vəkilov çıxışında polyak icmasının nümayəndəsi Vonsoviçin də əsgərliklə bağlı fikirlərinə münasibət bildirdi. O, qeyd etdi ki, Azərbaycanda əsgərlik məsələsi yalnız türk-islamlara aiddir və burada hər nə qanun və danışıq olsa,

[7] “Azərbaycan” qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918-aprel1920) II c. B., 2017, s. 353-354;
[8] Yenə orada, , s. 355.

müsəlmanlar üçündür. Binaəlineyhn (biz şahidik ki) olanlar qabaqcadan əsgərlikdən azaddırlar"[9].

1920-ci ilin 5 yanvarında Azərbaycan Parlamentinin növbəti toplantısında komissiyalardan, xüsusən, Təftiş komissiyasının yaradılmasından danışıldı. Müzakirədə çıxış edən M.Vəkilov dedi ki, belə bir adi məsələyə geniş yer ayırmaq doğru deyildir. O, qeyd etdi ki, Təftiş komissiyası yaradılmasına etiraz yoxdur. M.Vəkilov bildirdi ki, ən doğru yanaşma parlamentdə çox sayla təmsil edilən partiyadan çox, az sayla təmsil edilənlərdən az sayda insanın komissiyaya daxil edilməsidir. O, bu yanaşma ilə bağlı parlamentin qərarı olduğunu da xatırladıb dedi: "Kimsə öz haqqından keçməz. Bu nöqteyi-nəzər ilə məsələdə Müsavat firqəsinin haqqına təcavüz edilir. Bir yerdə ki, başqa firqələr öz haqlarından artıq istəyir, Müsavat nə üçün özünün qərar verdiyi haqdan keçsin?"[10].

1920-ci ilin 8 yanvarında (qanuni-sani – keçmiş təqvimlə) parlamentin iclası keçirildi. İclasa sədrlik edən H. Ağayev bildirdi ki, növbəti məsələ ehtiyac içində olan qaçqınların ölkənin müəyyən kəndlərində yerləşdirilməsi və onlara toxumluq taxıl tədarükü üçün ümumi-xeyriyyə nəzarətinin səlahiyyətinə 21 milyon rubl buraxılması haqqında qanun layihəsinin müzakirəsidir.

Müzakirələrdə A.Aşurov, H.Əfəndizadə, Ə.Qarayev, R.Xoyski, M.S.Axundzadə, Q.Camalbəyov, M.Əfəndizadə, S.Ağamalıoğlu, M.Vəkilov çıxış etdlər. M.Vəkilov çıxışında vəziyyətin ağır olduğunu qeyd etdi: "Yayda qaçqınlar at və araba ilə, indi də vaqonlarla gəlirlər". M.Vəkilov bu məsələnin komissiyada da müzakirə edildiyini, qərarlar çıxarıldığını, konfransda qətnamə qəbul edildiyini vurğuladı. O, təəssüflə bildirdi ki, o zaman erməni nümayəndələri buna imza etmədilər. M.Vəkilov qeyd etdi ki, Azərbaycanın Ermənistandakı nümayəndəsinə Ermənistan hökuməti ilə bu mövzuda müzakirəyə başlamaq da tapşırılmışdır.

M.Vəkilov çıxışında bildirdi ki, hazırda Borçalı və Qazax qəzalarında 160 min qaçqın var ki, onların Ərəş və Nuxa qəzasına yerləşdirilməsi lazımdır.

M.Vəkilov bəzi çıxışçıların "bütün məmurlar xaindirlər" fikrinə etiraz edərək "məmurların içərisində yaxşı, namuslu adamlar vardır" fikrini əsas olaraq səsləndirdi. O, bu qeydindən sonra Maliyyə-büdcə komissiyası adından layihənin qəbulunu xahiş etdi.

1920-ci ilin aprelin 1-də parlamentin növbəti iclası keçirildi. Məmməd Yusif Cəfərov iclasa sədrlik edirdi. O, Nizamnamənin 104-cü maddəsində nəzərdə

---

[9] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918-aprel1920) III c. B., 2017, s. 365.
[10] Yenə orada, s. 241; "Azərbaycan" qəzeti, 9 yanvar 1920-ci il, №8.

tutulduğu kimi, Daxili İşlər nazirinin Qarabağ hadisələri haqqında izahat vermək istədiyini bildirdi.

Daxili İşlər naziri M.Vəkilov çıxışında dedi: "Möhtərəm məbus əfəndilər! Son günlərdə əfkari-ümumiyyəyi (ictimai fikri) işğal edən (məşğul edən) Qarabağ hadisələri barəsində izahat verəcəyəm. Martın 22-də və iki gün ondan irəli Şuşa qalasına Azərbaycan xidmətində olan 2 uçastokun (sahənin – red.) erməni pristavları general-qubernatorun görüşünə gəlmək adı ilə hərəsi 15-20 nəfər müsəlləh erməni strajnikləri (gözətçiləri) ilə şəhərə toplaşmışlar. Bir bu qədər də insan şəhərdə onlara qoşulub, martın 22-də, səhər saat 04.00-05.00 arasında qəflətən bizim Şuşadakı əsgərlərimizə hücum etmişlər. Bir neçə zabiti həbs edərək, əsgərlərə atəş açmışlar. Bir tərəfdən bayram münasibəti ilə xalq evlərində istirahətlə məşğul olduğundan, digər tərəfdən camaat belə xainanə və mübəttianənə bir hücum gözləmədiklərindən bu hadisə olduqca nagəhan (gözlənilməz) olmuşdur. Şuşadakı əsgəri hissələrimiz, onların başlarında duran zabitan qəhrəmananə bir surətdə ermənilərin hücumunu dəf edə bilmişdir"[11].

M.Vəkilovun məlumatından aydın oldu ki, ermənilər bu işə uzun müddət hazırlaşıblar. Onlar Şuşa kəndindən top atəşi vasitəsi ilə verilən işarə ilə hər tərəfdən eyni vaxtda əsgərlərimizə hücum etmişlər. M.Vəkilov Qaryagin, Cavanşir, Tərtər və Zəngəzur qəzalarında olan erməni əhalisinin də əsgərlərimizə qarşı çıxdıqlarını söylədi. M.Vəkilov ermənilərin bu fitnəsinin qarşısını almaq üçün əsgərlərimizlə yanaşı, əhalinin fəallıq göstərdiyini də qeyd etdi. O, bildirdi ki, hər yerdən əhali gəlib hücuma məruz qalanlara köməklik göstərir və Qarabağda müvəqqəti olaraq pozulmuş intizam və qayda yaxın dövrdə düzələcəkdir.

M.Vəkilov Azərbaycan Cümhuriyyətinin Daxili İşlər naziri olduğu dövrdə ciddi fəaliyyət göstərmişdir. Onun Azərbaycan hökumətinə göndərdiyi teleqramlar, yazdığı məktublar bunu təsdiq etməkdədir.

M.Vəkilovun 1920-ci ilin 25 martında ermənilərin Zəngəzura hücumu və Qarabağa təcili qoşun yığması ilə bağlı Azərbaycan Ordusunun Qərargahına göndərdiyi teleqramdan: "Cəbrayıldan, bizim Zəngəzur uyezdinin rəisi Kələntərovdan Şuşa general-qubernatorunun adına teleqram alınıb. Teleqramda bildirilir: "Bu gün səhərdən ermənilər bütün cəbhə boyu mənim idarə etdiyim bölgəyə hücum ediblər. Əl silahı və pulemyot döyüşü gedir. Patronlarımız yoxdur. Hərbçilər tərəfindən müdafiə tədbirləri görülür. Zəngəzur qəzasının rəisi Kələntərov.

[11] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 - aprel 1920) III c. B., 2017, s. 450-451; "Azərbaycan" qəzeti, 4 aprel 1920-ci il, №66.

Bu məlumatdan gördüyümüz kimi, ermənilər Zəngəzur qəzası istiqamətində hücuma keçiblər. Əgər biz tezliklə hərəkət edib, Şuşa general-qubernatoruna kömək etməsək, o, tələyə düşə bilər.

Xahiş edirəm, qoşunu və xüsusən artilleriyanı tələsdirəsiniz. Artilleriyasız heç nə etmək mümkün deyil. Bu vaxta qədər buraya bir əsgər gəlməyib. Əgər biz Əsgəranı gec alsaq, onda bu, tamamilə faydasız olacaq. Vəkilov"[12].

Martın 8-də Qazax general-qubernatoru A.X.Xoyskinin M.Vəkilova göndərdiyi teleqramdan aydın olurdu ki, Dilicandan 7 min nəfərlik erməni qoşunu Zəngəzura doğru hərəkət edir və onlar bu gün Başkənddə gecələyəcək. Bu məlumat ermənilərin güclü silahlı qüvvələrə malik olduğunu göstərməkdə idi.

1920-ci ilin 27 martında Daxili İşlər naziri M.Vəkilov öz müavininə Azərbaycan qoşunlarının Zəngəzurda hücuma keçdiyi və general H.Səlimovun başçılığı altında silahlı dəstələrin Ağdama gəlməsi haqqında telefonoqramma göndərmişdir.

Həmin telefonoqrammadan: "Təcili. Bu gün tezdən Cəbrayılda olan Qarabağ general-qubernatorunun köməkçisindən raport almışam. Raportda qəzanın vəziyyəti haqqında ətraflı məlumat verilirdi. O, məlumatlandırırdı: "Zəngəzurda işlərimiz əla gedir və bizim şərəfli qoşunlarımız Cəbrayıl və Zəngəzur partizanları ilə birləşərək irəli hərəkət edir və ermənilərdən bir neçə yaşayış yeri alınıb. Martın 23-də Zəngəzurdan bir neçə şəxs gələrək Malxələf kəndini yandırıb. Bu məlumatı alan kimi bizimkilər hücuma keçdilər və erməniləri geri oturtdular, iki nəfəri əsir götürdülər, iyirmi nəfəri öldürdülər, qalanları isə qaçmağa üstünlük verdi. Abdalanlarda martın 25-də bizim tərəfdən bir nəfər əsir götürülüb, otuz erməni öldürülüb. Zeyvə cəbhəsində bir pulemyot və bir əsir götürmüşük. Bütün əhəmiyyətli mövqelər müsəlmanlardadır.

Bu gün səhər Şuşa general-qubernatorunun köməkçisindən kağız almışıq. Onlar xahiş edirlər ki, imkan daxilində təcili şəhərə kömək edək. Silahlı dəstə başda general Səlimov olmaqla Ağdama daxil olub. General Hərbi nazirlik tərəfindən zirehli avtomobilin və üç yük maşınının təcili göndərilməsini xahiş edir.

Doktor Mirqasımov gəlib və lazaret (hərbi tibb məntəqəsi – red) təşkil edir. Qarabağlıların sanitar dəstəsinin göndərilməsini tələsdirin. General Səlimovun adından Hərbi-sanitar idarənin rəisi Qayıbovdan sanitar vəsaitlərinin göndərilməsini tezləşdirməyi xahiş edin. Daxili İşlər naziri Vəkilov"[13].

[12] Azərbaycan Respublikası Dövlət Arxivi, f.2898, s.2, i.22, v.2.
[13] Yenə orada, v.6.

1920-ci ilin aprelin 27-si Azərbaycan Cümhuriyyətinin mövcudluğunun son günü oldu. Azərbaycanın Rusiya bolşevikləri tərəfindən işğalı ərəfəsində M.Vəkilov Daxili İşlər naziri vəzifəsində çalışırdı. Bu işğaldan sonra M.Vəkilov əvvəl Tiflisə, oradan da İstanbula getdi.

M.Vəkilov Türkiyədə də Azərbaycanın yenidən müstəqillik qazanması uğrunda çalışdı və ciddi mübarizə apardı. O, buradakı fəaliyyətində Polşa hökuməti rəsmiləri ilə əlaqələr yaratdı, Qafqaz xalqları nümayəndələrinin təmsil olunduğu beynəlxalq qurumlarda ciddi çalışmalar göstərdi. 1920-ci illərdə Polşanın, Fransanın maddi dəstəyi ilə yaradılan və fəaliyyətinin əsas məqsədi – mühacirlərin bir araya gətirilib sovet rejiminə qarşı mübarizəni aparmalı olan "Prometey" hərəkatının sənədlərində M.Vəkilovun da adı vardır.



**M.Vəkilovun Polşa dövlətinin rəsmisi T.Qoluvkoya məktubu. 15 oktyabr 1928-ci il.**

M.Vəkilov bir müddət Polşada oldu, Polşa Xarici İşlər Nazirliyinin rəsmisi Tadeuş Qoluvko ilə görüşdü, onunla məktublaşdı. O, M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycan Milli Mərkəzinin üzvü oldu.

Polşa arxivlərində M.Vəkilovun (mühacirətdə Vəkilli familiyası ilə çıxış edirdi – red) Polşa dövlətinin rəsmisi T.Qoluvko ilə yazışmaları saxlanılmaqdadır.

M.Vəkilovun 1926-cı ilin avqust-sentyabr aylarında göndərdiyi məktubda Qafqaz İstiqlal Komitəsinin aylıq büdcəsinin təsdiqi haqqında məlumatlar vardır. Həmin məktubdan: "Surəti Cənab Qolubkoya. Cənab Qolubko!Yazıb Sizə bildiririk ki, "QİK"-in (Qafqaz İstiqlal Komitəsi – N. Y.) 16 avqust 1926-cı il iclasında komitənin müvəqqəti olaraq aşağıdakı aylıq büdcəsi təsdiq olunmuşdur:

| | |
|---|---|
| **Komitənin 22 üzvünün sərəncamına** | **– 720 m.l.** |
| **Gözlənilməz xərclərə** | **– 350 m.l.** |
| **Yerli mətbuatda təbliğata** | **– 180 m.l.** |
| **Dəftərxana və poçt xərclərinə** | **– 50 m.l.** |
| **Cəmi:** | **– 1300 m.l.** |

Bu kiçik büdcənin baxılması zamanı Sizə aydın olacaq ki, bizim sərəncamımızda olan məbləğin hamısı tələbatın təmin olunması üçün xərclənir, əlaqə və yerlərdə iş üçün heç bir şey qalmır. Təşkilatların yeni işlərə cəlb edilməsi və onlarla arasıkəsilməyən müntəzəm əlaqələrin qurulması bizim komitəmizin əsas və təxirəsalınmaz işlərindəndir. Məhz bunun üçün biz yenidən Sizin diqqətinizi işin bu ciddi tərəfinə yönəltmək istəyirik və bizim işimizdə olan bu böyük problemin aradan qaldırılmasında Sizdən ciddi səylər gözləyirik.

Eyni zamanda, Sizə bildiririk ki, müvəqqəti olaraq komitənin işindən kənarlaşdığıma görə, komitə bu yaxınlarda həmin məsələni araşdırmaq üçün komissiya yaradacaq. Sizdən son məsələ üzrə məlumat göndərməyinizi xahiş edirik. Səmimi salamla, **M. Vəkilli**"[14].

M.Vəkilovun Xarici İşlər Nazirliyinə göndərdiyi digər məktubda isə Qafqaz İstiqlal Komitəsi və ona yaxın olacaq mətbuat orqanlarının yaradılması və nəşri problemlərinə toxunulur:

**"Cənab T. Qolubkoya**

Komitə ilə iş zamanı Sizinlə mütəmadi və ola bilər ki, müntəzəm əlaqəyə ehtiyac hiss olunur. Əgər son zamanlar bizim tərəfimizdən bəzi susqunluq hiss etmisinizsə, bu Sizə 17 avqust tarixində ünvanladığımız məktuba cavabın gözlənməsi ilə əlaqəli idi. Lakin Sizin tərəfinizdən qeyd etdiyimiz məktubun alınması haqqında heç bir məlumat əldə etmədiyimizə görə Sizə onun surətini göndəririk. Fransız dilində jurnal haqqında Sizə aşağıdakıları bildirməyi vacib sayırıq: özünün 2 avqust tarixli iclasında komitə bu məsələni hərtərəfli müzakirə edərək, burada jurnalı fransız dilində "Müstəqil Qafqaz" adı ilə dərc etməyi qərara aldı və qeyd edildi ki, bu QİK-in mətbu orqanı olacaqdır...

Bu vaxt ərzində komitə burada adı çəkilən jurnalın dərc olunması üçün bir sıra addımlar atmışdır.

Lakin yaxınlarda Parisdən "N. R."dən daxil olan məktubdan təəssüf hissi ilə öyrəndim ki, jurnala dair belə qərara gəlinib ki, jurnal daima Parisdə dərc edilsin. Onun adını isə başqa cür qoyublar ki, rəhbərliyi Parisə keçir və s. O hələ də komitənin Sizin fikirlərinizlə üst-üstə düşən qərarlarının bu qədər tez dəyişməsinin səbəb və şəraitini bilmir. Lakin komitə həmçinin hesab edir ki, bu cür antik ada malik "Prometey" jurnalını burada dərc etmək olardı.

Hər şeyə rəğmən komitə özünün ilk sayının çıxmasının qarşısını almamaq məqsədi ilə bir nömrə üçün ümumi məbləği olan 445 Türkiyə lirəsini və jurnalın bu sayı üçün nəzərdə tutulmuş materialları Parisə göndərmişdir. Buna baxmaya-

[14] Polşa Respublikası, Varşava, Yeni Aktlar Arxivi, Xarici İşlər Nazirliyi, (1928-ci il), iş N6688, v. 43-45.

raq, komitə belə inamdadır ki, onun jurnal haqqında ilkin qərarları məqsədyönlü və düzgündür və bu haqda Parisə xəbər vermişdir.

Öz ideyalarının Türkiyənin ictimai-siyasi dairələrində təbliğinə böyük önəm verən komitə bu istiqamətdə bir neçə işlər həyata keçirmişdir. Bu məqsədlə Qafqaz məsələsinə və Qafqazla Türkiyə arasında əlaqələrə həsr olunmuş türk dilində kitabçanın çapı nəzərdə tutulmuşdur.

***Səmimi dostluq salamı ilə, Sədrlik edən M.Vəkilli. Noyabr, 1926-cı il"[15].***

Qeyd edək ki, dövrün hadisələrinin və Azərbaycanın müstəqilliyi uğrunda mühacirlərimizin apardığı mübarizənin ağır məqamlarının öyrənilməsində bu məktubların böyük əhəmiyyəti vardır.

M.Vəkilovun 1929-cu ilin 19 iyununda Varşavaya – Polşa rəsmisi polkovnik Tadeuş Şetselə yazdığı məktub da əhəmiyyətlidir. Bu məktubunda o, Ə.M.Topçubaşovla bağlı narazı qaldığı məqamları Polşa rəsmisinə çatdırmışdır. Eyni zamanda, bu məktubda SSRİ-nin Türkiyədəki səlahiyyətli səfiri (1923-1934-cü illər) Yakov Zaxaroviç Suriçin azərbaycanlı mühacirlərə qarşı təxribat və fəaliyyəti, Bammat-Qantəmir kampaniyasından yaranan ziddiyyətlər haqqında məlumat vermişdir[16].

M.Ə.Rəsulzadənin 1933-cü ilin 21 martında Varşavada Azərbaycan Milli Mərkəzi ilə bağlı yazdığı anketdə aşağıdakı adamlarla birlikdə M.Vəkilovun da həmin təşkilatın üzvü olduğu qeyd edilmişdir. Həmin anket məlumatından: "Milli Mərkəzin tərkibinə aşağıdakılar daxildir: Müsavatdan – Məhəmməd Əmin Rəsulzadə, Xəlil bəy Xasməmmədli, Mustafa bəy Vəkilli, Şəfi bəy Rüstəmbəyli; Azərbaycan nümayəndəliyindən – Mir Yaqub bəy, Məlik bəy Məhərrəmov; Sosialist xəttindən – Əkbər ağa Şeyxülislamov, bitərəf – Əbdüləli bəy Əmircan"[17].

Bu məlumatdan aydın olur ki, Milli Mərkəzin səlahiyyətli icraedici orqanı üç şəxsdən ibarət idi ki, (sədr M.Ə.Rəsulzadə – Varşava, Mir Yaqub Mehdizadə – Paris) onlardan biri də Mərkəzin Türkiyədəki siyasi təmsilçisi M.Vəkilov olmuşdur. Sənədlərdə bu Mərkəzin xətti ilə Mustafa bəyə hər ay 68 dollar yardım edildiyi qeyd olunmuşdur.

M.Vəkilovun mühacirətdə olduğu illərdə siyasi fəaliyyətlə bağlı məktublaşdığı şəxslərdən biri də M.Ə.Rəsulzadə idi. Bu məktublardan aydın olur ki, onların arasında həm də yaxın münasibət və qarşılıqlı hörmət var idi.

---

[15] N. Yaqublu. Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. B., 2007. s.102-104

[16] Из истории Азербайджанской эмиграции. М., 2011, с. 38-39.

[17] Yenə orada, c. 60.

M.Vəkilovun 1935-ci ilin 21 martında İstanbuldan M.Ə.Rəsulzadəyə ünvanladığı məktubda burada mühacirlər arasındakı ziddiyyətlər, eyni zamanda, görülən işlər haqqında bilgilər verilir[18].

M.Vəkilovun 1935-ci ilin 22 noyabrında İstanbuldan (ünvan: Ayazpaşa, Saddət apartmanı, Zeytunburun) yazdığı digər məktubda isə bildirilirdi: "Əzizim Emin bəy! Almaniyaya son göndərdiyiniz məktubu burada aldım. Bu qış da Sizə yazdığım kimi, Almaniyada qalmaq niyyətindəydim. Maləsəf, mümkün olmadı"[19].

Həmin məktubda "Prometey" jurnalının İstanbula göndərildiyi, 12-ci sayının gəlib çatdığı və digər problemlərlə bağlı məlumatlar da yazılmışdır.

M.Ə.Rəsulzadənin 1936-cı il yanvarın 28-də yazdığı məktubda qeyd olunur: "Əzizim Mustafa bəy! Düşünürəm ki, ötən ay Sizə göndərdiyim məktubu aldınız, Elə bir ciddi dəyişiklik gözlənilmir. Bu günlərdə "Jurnal de Ceneve" jurnalının redaktoru cənab Jan Martin buraya gəlmiş və Qafqaz haqqında məruzə etmişdir. Bu məruzəyə çoxlu adam toplaşmışdır. Məruzə çox maraqlı idi. O biri günü təntənəli banket təşkil edilmişdir.

Mehmet Girey Varşavada idi və artıq geri qayıdıb. Yolüstü o, Almaniyada qalmış və orada bizim dostlarla görüşmüşdür. Hələlik bu qədər. Ürəkdən Sizi salamlayıram. Emin"[20].

M.Ə.Rəsulzadənin 1937-ci ilin 22 iyulunda Polşada 2 saylı ekspozitura (Polşa gizli xidmət idarəsi – red) üçün hazırladığı Müsavat Partiyasının mühacirətdə olan üzvlərinin siyahısında M.Vəkilovun adı 2-ci olaraq göstərilmişdir.

1926-cı ilin noyabrında Parisdə nəşrə başlayan "Prometey" jurnalı haqqında da M.Vəkillinin maraqlı qeydləri vardır. 1926-cı ilin 29 noyabrında Parisdə M.Vəkilovun etdiyi qeydlərdən: "1) Parisə gəldikdə "Prometey" jurnalının nəşr edildiyini gördük və baş verən faktla razılaşdıq. 2) Cəmiyyətin qərarı ilə biz jurnalın idarə olunmasını üzərimizə götürdük. 3) Hazırladığımız büdcəni Sizə təqdim edirəm. 4) Cəmiyyət üzvləri arasında jurnalın adına və onun nəşrinə müxtəlif baxışlar var. 5) Ramişvili və Şamil jurnalın heç bir dəyişiklik olunmadan nəşrinin tərəfdarıdırlar. 6) Sultanzadə buraxılmış səhvlərdə inadkarlıq etmək istəmir: jurnalda Ukrayna və Polşaya daha çox istinadlar verilib. 7) Biz hər üçümüz o fikirdəyik ki, Cəmiyyətin təcili vəzifəsi – Türküstan aksionerləri müəssisəsinə yanaşmaqdır ki, jurnal həm də onların maraqlarını müdafiə edən orqan olsun. 8) Xahiş edirik,

[18] Из истории Азербайджанской эмиграции. Москва, 2011, с. 149-154.
[19] Yenə orada, s. 161.
[20] Yenə orada, s. 174-175.

büdcəyə təcili baxıb qəbul edəsiniz. 9) Administrasiya 4 nəfərdən ibarətdir: Hacıbəyli, Qvazava, Mehmet Şamil və Çikalenko"[1].

Bu qeydlər M.Vəkilovun mühacirətdəki fəaliyyətinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Bu, həm də onun çox çətin şəraitdə fəaliyyətini göstərən sənəddir.

M.Vəkilov mühacirətdə olduğu illərdə Qafqaz Konfederasiya Şurasının iclaslarında yaxından iştirak edirdi.

M.Vəkilovun mühacirətdəki fəaliyyətinin bir dövrü də İkinci Dünya müharibəsi ilə bağlıdır. Əslində o, İstanbulda yaşasa da, Almaniyada yaradılan Azərbaycan Milli Komitəsinin üzvü kimi fəaliyyət göstərmişdir.

**Qeyd edək ki, Azərbaycan Milli Komitəsi 1942-ci ilin yayında Berlində Broytiqamın və Von Mendenin ciddi fəaliyyətindən sonra təsis edilmişdi. Milli Komitənin sədri M.Ə.Rəsulzadə, üzvləri isə M.Y.Mehdiyev, M.Vəkilov və X.Sultanov idi. Bu quruma M.Ə.Rəsulzadənin sədr seçilməsində onun hələ 1930-cu illərin yarısından yaxın dostluq etdiyi Von Mendenin böyük xidməti olmuşdu.**

Komitənin bütün üzvləri Türkiyədə yaşadığından əsas işi M.Ə.Rəsulzadə həyata keçirirdi. O, bütün gücü ilə almanların Azərbaycanın və Qafqazın müstəqilliyini tanımasına çalışırdı. 1942-ci ilin yayında alman qoşunları Şimali Qafqazda yerləşdiyindən onların növbəti uğurlarına da inam var idi. Almanlar başqa xalqların müstəqilliyini tanımağa tələsmirdi. Onların bu mövqeyində "yumşalma" 1943-cü ilin yazında Stalinqrad döyüşlərində alman qoşunlarının Qafqazdan geri çəkilməsindən sonra başladı. Bu hadisədən sonra almanlar Azərbaycan Milli Komitəsinə müəyyən müstəqilliklər verdilər.

1943-cü ilin avqustunda M.Ə.Rəsulzadə mühacirlərlə baş verən ziddiyyətlər və almanlar tərəfindən müstəqilliyimizə müsbət yanaşmanın olmaması səbəbindən komitə sədrliyindən istefa verib Berlindən Buxarestə getdi[2]. M.Vəkilovun bundan sonra bu komitədəki fəaliyyəti və onun hansı əlaqələrinin mövcudluğu haqqında heç bir məlumat yoxdur.

M.Vəkilovun mühacirətdəki fəaliyyəti və xüsusən, bir şəxsiyyət kimi xarakterinin öyrənilməsində Parisdəki Azərbaycan nümayəndə heyətinin baş katibi Abbas Atamalıbəyovun 1940-cı ilin 23 yanvarında polyaklara yazdığı təqdimatın ciddi əhəmiyyəti vardır. Həmin təqdimatda yazılırdı: "İstanbulda mühacirətdə

[1] Каваказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движение "Прометей". Сборник документов. М., 2012, с. 69.
[2] Г.Мамулиа, Р.Абуталыбов. Страна огней в борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945, Париж-Баку, s. 516.

olan Azərbaycan siyasi xadimləri arasında mən iki şəxsi təqdim edə bilərəm – Mustafa bəy və Xosrov bəy. Mustafa bəy Vəkilli keçmiş vəkil, Azərbaycan Parlamentinin üzvü və sonuncu Azərbaycan milli hökumətində Daxili İşlər naziri olub. O, Azərbaycanın qərb rayonlarından tanınmış bir ailəyə mənsubdur və lokal formada, eyni zamanda, bütün ölkədə geniş təsirə malikdirlər. Bu nəsildən milli hərəkatın birinci dərəcəli liderləri olan insanlar çıxmışdır. Hazırda Mustafa bəy parlaq və alovlu bir patriot kimi milli hərəkatın liderlərindən biridir. O, çox yavaş hərəkət edən ehtiyatlı siyasi xadimdir. Onun Türkiyə siyasi dairələrində çox geniş və faydalı əlaqələri var”[3].




**M.Vəkilovun Ankaradakı məzarı.**

Qeyd edək ki, A.Atamalıbəyovun bu təqdimatı diqqətə alındı və Qafqaz Konfederasiya Şurasının digər bölmələri ilə məsləhətləşdikdən sonra, 1940-cı ilin mayında bu qurumun İstanbul filialı formalaşdı. Azərbaycanlıları bu qurumda X.Sultanov və M.Vəkilov təmsil etdilər.

M.Vəkilov İkinci dünya müharibəsindən sonra Ankarada bankda hüquq məsləhətçisi işləmişdir[4].

Mustafa bəy Vəkilov 1965-ci il noyabrın 1-də 69 yaşında Ankarada vəfat etmişdir.

Qeyd edək ki, M.Vəkilov tanınmış Azərbaycan şairi Səməd Vurğunun yaxın qohumudur.

M.Vəkilovun oğlu hazırda Ankarada yaşayır.

---

[3] .Мамулиа, Р.Абуталыбов. Страна огней в борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945, Париж-Баку, с. 471-472.
[4] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005, s. 432.

# XUDADAT BƏY RƏFİBƏYLİ

(1878 – 1920)



Tanınmış dövlət xadimi Xudadat bəy Rəfibəyli (Rəfibəyov) 1878-ci ildə Gəncə şəhərində anadan olub. Gəncə klassik gimnaziyasında orta təhsilini başa vurduqdan sonra o, Xarkov Universitetinin tibb fakültəsinə daxil olub. 1903-cü ildə ali təhsilini başa vurduqdan sonra Gəncəyə qayıdıb. X.Rəfibəyov burada Aktyorlar Cəmiyyətinin yaradıcılarından biri olub. O, Həsən bəy Ağayevlə birlikdə Yelizavetpol Tibb Cəmiyyətinin yaradılmasında fəal iştirak edib.

X.Rəfibəyli Gəncədəki (Yelizavetpol) şəhər xəstəxanasının Baş həkimi olaraq çalışıb. O, 1917-ci ilin fevralında Rusiyada baş verən Burjua inqilabından sonra mart ayında Gəncədə yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü olub.

1918-ci ilin 28 Mayında Azərbaycan Cümhuriyyəti yarandı və X.Rəfibəyli F.X.Xoyskinin təşkil etdiyi ikinci Hökumət kabinəsində Səhiyyə və Himayədarlıq (sosial-təminat) naziri vəzifəsinə təyin olundu.

1918-ci ilin dekabrında F.X.Xoyski hökuməti istefaya çıxdığı üçün X.Rəfibəyli da vəzifədən uzaqlaşdı. O, 1919-cu ilin mayın 6-dan başlayaraq Gəncənin qubernatoru vəzifəsini icra etdi. 1920-ci ilin aprelində Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra X.Rəfibəyli həbs olunub. O, saxta ittihamlarla günahlandırılaraq, 1920-ci ilin iyun ayının 1-də güllələnib.

# SƏHİYYƏ VƏ SOSİAL-TƏMİNAT NAZİRİ. GƏNCƏNİN GENERAL-QUBERNATORU

Xudadat bəy Rəfibəyli (Rəfibəyov) tanınmış ziyalı ailəsində anadan olmuşdur. Onun atası Ələkbər bəy Difai Təşkilatının yaradıcılarından və Gəncənin tanınmış şəxsiyyətlərindən biri idi. Ələkbər bəy 1884–1888-ci illərdə Nuxa qəzasının Bum sahəsində, Yelizavetpol qəza polis sahəsində və Ərəş qəzasının 1 saylı sahə polisində pristav vəzifəsində işləyib. 1890-cı ildə Yelizavetpol qubernatorunun 17 sentyabr 1890-cı il 42 saylı əmri ilə Yelizavetpol qəzasının, 1895–1896-cı illərdə isə Yelizavetpol şəhərinin pristavı olub.

X.Rəfibəyli 1888-ci ildə Gəncədə rusdilli klassik gimnaziyanın hazırlıq şöbəsinə daxil olmuş, iki il burada təhsil aldıqdan sonra, birinci sinfə daxil edilmiş və 8 il bu gimnaziyada təhsil almışdır. 1898-ci ildə o, təhsilini Xarkovda İmperator Tibb Universitetinin tibb fakültəsinin cərrahlıq şöbəsində davam etdirmiş və 1904-cü ildə universiteti bitirmişdir. Elə həmin ildə o, təyinatla Xarkovdakı qospitalda ordinator işləyib. X.Rəfibəyli burada işlədiyi dövrdə yaxın qohumu Mirzə bəyin qızı Cavahir xanımla evlənmiş və onların üç övladı dünyaya gəlmişdir: Kamil, Rəşid, Nigar (sonradan Azərbaycanın xalq şairi N.Rəfibəyli – red.). 1907-ci ildə Xudadat bəy ailəsi ilə Gəncəyə qayıtmışdır. Həmin ilin noyabrın 15-də o, qubernatorun əmri ilə Afanasyev adına Yelizavetpol xəstəxanasına direktor təyin edilmişdir[1].

X.Rəfibəyli 1912–1913-cü illərdə Sankt-Peterburqda İmperator Kliniki İnstitutunda 6 ay məşhur professorların apardığı 12 ixtisas kursunun da dinləyicisi olub.

Xarkovda təhsilini bitirdikdən sonra X.Rəfibəyli həkimliklə yanaşı, ictimai sahələrdə də fəaliyyət göstərmişdir. Onun fəal iştirakı ilə Gəncədə dahi Nizaminin məqbərəsini bərpa etmək üçün ayrıca bir cəmiyyət yarandı[2].

Həmin dövrdə Gəncədə X.Rəfibəylinin təsisçiliyi ilə Aktyorlar Cəmiyyəti yaradıldı. Cəmiyyət tamaşaların quruluşuna kömək edir, teatr truppalarının təşkilatlarına, aktyorlara maddi kömək göstərirdi. Burada daha bir “Projektor” adlı teatr binası da mövcud idi. Onu Qaragözov soyadlı bir şəxs tikdirmişdi. Burada Azərbaycan dilində tamaşalar oynanılırdı[3].

1915-ci ilin iyunun 14-də N.Vəzirovun iki pyesi – “Ev tərbiyəsi” və “Pulsuzluq” Sidqi Ruhullanın iştirakı ilə tamaşaya qoyuldu. Qeyd edək ki, teatr haqqında kitab da XX əsrin əvvəllərində Azərbaycan dilində Gəncədə çıxmışdı.

[1] L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 135.
[2] M. Əliyev. Xudadat bəy Rəfibəyov. “Odlar Yurdu” qəzeti, 8 aprel 1989, s. 58.
[3] Azərbaycanın ilk qeyri-hökumət təşkilatları (hazırlayan və elmi redaktoru: N.Yaqublu). B., 2013, s. 25.


**X.Rəfibəyli.**

"Teatr nədir" adlı bu kitabın müəllifi Gəncə Realnı məktəbinin türk dili müəllimi Mirzə Məhəmməd Axundzadə idi.

X.Rəfibəylinin rəhbərliyi ilə 1914-cü ildə Gəncədə Yelizavetpol Tibb Cəmiyyəti adlı ilk qurum yaradılmışdı. Həmin cəmiyyətin katibi Həsən bəy Ağayev olmuşdur[4].

Bu cəmiyyətin fəaliyyəti ilə bağlı məlumatlara Tiflisdə çap olunmuş illik "Qafqaz" təqvimində rast gəlmək mümkündür.

Məlum olur ki, Yelizavetpol Tibb Cəmiyyəti Birinci Dünya savaşında türklərə yaxından köməklik göstərmiş, həkimlərdən ibarət könüllü dəstələrin döyüş bölgələrinə gedib yaralı döyüşçülərə tibbi xidmət göstərməsini təşkil etmişdir.

1918-ci ildə Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra X.Rəfibəyli Səhiyyə və Sosial-Təminat Naziri vəzifəsində çalışdı. 1918-ci ilin oktyabrın 6-da olan kabinədaxili dəyişikliklərdən sonra onun tutduğu vəzifə belə adlanırdı: Xalq Səhiyyəsi naziri. Bu onunla bağlı idi ki, F.X.Xoyskinin kabinədaxili dəyişikliklərindən sonra müsavatçı M.Rəfiyev portfelsiz nazirdən yeni yaradılan Sosial-Təminat və Dini Etiqad naziri vəzifəsinə təyin edildi[5].

Yəni N.Yusifbəylinin idarə etdiyi dini etiqad sahəsi ilə X.Rəfibəyliyə aid olan sosial-təminat sahəsi birləşdirilib ayrıca nazirlik yaradılmışdı. Həmin kabinədaxili dəyişikliklərdən sonra N.Yusifbəyli yalnız bir sahə ilə məşğul olaraq Xalq Maarif naziri təyin edilmişdi.

X.Rəfibəyli Səhiyyə və Sosial-Təminat naziri vəzifəsində çalışdığı ilk aylarda hökumət Gəncədə yerləşirdi. Bu dövrdə Azərbaycanın bütün bölgələrində olduğu kimi Gəncədə də böyük gərginlik yaşanırdı. Bakını və ətraf bölgələri nəzarətdə saxlayan erməni (qismən rus) hərbi birlikləri (onların sayının 10 minə qədər olduğu yazılır) Gəncəni də təhdid altında saxlamağa çalışırdılar.

Həmin dövrdə yalnız Gəncənin erməni məhəlləsində və ətraf yerlərdə yaşayan ermənilərin üç minə qədər silahlı dəstələri vardı. 1918-ci ilin mayın 25-dən 300 silahlı ilə Gəncəyə gələn Nuru Paşa da bu qüvvələrdən ehtiyatlanırdı.

[4] M. Əliyev. Xudadat bəy Rəfibəyov. "Odlar Yurdu" qəzeti, 8 aprel 1989.
[5] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 91-92.



**X.Rəfibəyli Nuru Paşa ilə (ortadakılar).**

X.Rəfibəyli bəzilərinin şübhə ilə yanaşdığı Qafqaz İslam Ordusunun komandiri Nuru Paşa ilə səmimi münasibətlər yaratmışdı. O, Qafqaz İslam Ordusunun qəhrəman əsgərlərinə və yaralananlara kömək üçün xüsusi tibbi qruplar təşkil edirdi. X.Rəfibəyli özü də bu qrupların tərkibində yaralı əsgərlərə tibbi xidmət göstərdi.

Arxivdə saxlanılan sənədlər arasında Nuru Paşa və Xudadat bəyin hərbi və tibbi qulluqçularla birgə tarixi fotosu qorunub saxlanılır. Qeyd edək ki, Nuru Paşa Gəncədə olarkən şəhərin mərkəzində yerləşən Şeyxzamanovlara məxsus mülkdə yaşayırdı.

X.Rəfibəyli Səhiyyə və Sosial-Təminat naziri vəzifəsində çalışarkən (istər Gəncə, istərsə də Bakı dövrü olsun) yeni səhiyyə ocaqlarının yaradılmasında böyük işlər gördü. Həmin dövrdə ölkədə geniş yayılmış yoluxucu xəstəliklərin qarşısının alınmasında Səhiyyə Nazirliyinin əvəzsiz xidməti oldu. O dövrdə əhali taun xəstəliyindən əziyyət çəkirdi və X.Rəfibəyov bunu nəzərə alıb, Gəncə yaxınlığındakı Zurnabad kəndində bu xəstəlik əleyhinə müalicə stansiyası yaratdı. Onun göstərişi ilə yeni xəstəxanalar və səyyar hərbi tibb məntəqələri təşkil edilir, xaricdən tibbi ləvazimatlar alınırdı.

1918-ci ilin sentyabrın 15-də Bakı şəhəri düşmən qüvvələrdən azad olundu. Sentyabrın 18-də Azərbaycan hökuməti Bakıya gəlib fəaliyyətini burada davam etdirdi.

**X.Rəfibəyli Bakıya köçdükdən sonra burada səhiyyə sahəsində ciddi işlər gördü. Nazirliyin göstərişi ilə dövlət hesabına pulsuz xəstəxanalar açıldı, yeni tibb ocaqlarının tikintisinə başlanıldı. Kənd yerlərində əhaliyə tibbi xidmət üçün müalicəxana və məntəqələr təşkil olundu[6].**

[6] M. Əliyev. Xudadat bəy Rəfibəyov. "Odlar Yurdu" qəzeti, 8 aprel 1989.

X.Rəfibəylinin başçılıq etdiyi dövrdə nazirlikdə beş şöbə fəalyyət göstərirdi: şəhər və məhkəmə tibbi şöbəsi; kənd tibbi şöbəsi; tibb statistikası şöbəsi; əczaçılıq şöbəsi; baytarlıq və sanitariya şöbəsi.

X.Rəfibəylinin başçılığı ilə dərman və tibb alətlərinin saxlanılması üçün anbar, ekspertiza aparmaq üçün xüsusi laboratoriya təşkil edildi[7].


ВЫПИСКА
изъ журнала постановленій Правительства Азербайджан-
кой Республики отъ 6-го Мая 1919 года.

| СЛУШАЛИ: | ПОСТАНОВИЛИ: |
|---|---|
| Докладъ Министра Внутреннихъ Дѣлъ о назначеніи Гянджинскаго Губернатора. | Назначить Доктора Худададъ-бека Рафибекова Гянджинскимъ Губернаторомъ. |

Съ подлиннымъ вѣрно:
Помощникъ Секретаря [signature]

**X.Rəfibəylinin Gəncənin qubernatoru təsdiq edilməsi haqqında qərar. 6 may 1919-cu il.**

Xudadat bəyin Gəncənin qubernatoru vəzifəsinə təyin edilməsi ilə bağlı müxtəlif məlumatlar qeyd olunmaqdadır. "Cümhuriyyət hökuməti repressiya məngənəsində" kitabında onun qubernator kimi fəaliyyətinin bir qədər əvvələ aid olması ilə bağlı məlumat da vardır[8].

Kitabda həmin dövrə aid 1919-cu ilin 20 fevral tarixli, X.Rəfibəyliyə məxsus əmrin mövcudluğu bildirilir. Əmrdə Gəncə qubernatorunun qəza rəislərinə və polistmeysterlərə ingilis aviasiyasının zabitlərinin Azərbaycan ərazisində hava bazası yaratması işinə köməklik göstərilməsi qeyd olunur. Həmin əmrdə yazılıb: "Daxili İşlər Nazirinin dəftərxanasının mənə bildirdiyi kimi, tezliklə ingilis aviasiyasının zabitləri yaxın gələcəkdə Britaniya aeroplanlarının enməsində istifadə etmək üçün Qafqazın aeronavtika sahələrinə baxış keçirəcəklər. Bunu nəzərə alaraq, polis rəislərinə bu vəzifələrin yerinə yetirilməsində onlara lazımi köməklik göstərmələrini təklif edirəm... Qubernator Rəfibəyov"[9].

Tanınmış tədqiqatçı R.Hüseynov 1996-cı ildə nəşr etdirdiyi "Rəfibəylilər" kitabında belə məlumat yazır: "Xudadat bəy vəzifəsinin icrasına mayın 17-də başlayıb. Həmin gün Gəncə quberniyasının idarəçiliyini yerinə yetirən və elə Xudadat bəy kimi, hökumət tərəfindən mayın 6-dan yeni vəzifəyə – Baş qərargahın

[7] M. Əliyev. Xudadat bəy Rəfibəyov. "Odlar Yurdu" qəzeti, 8 aprel 1989.
[8] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 19, s. 3, i. 203, v. 84, s. 128.
[9] Yenə orada, v. 84.

baş idarəsinin topoqrafiya şöbəsinə müdir təyin edilmiş general-mayor Vəkilov imzaladığı son əmrlə vali kürsüsünü təhvil verib"[10].

Azərbaycan Hökumətinə aid olan 1919-cu il 6 may tarixli qərarın çıxarışında belə yazılıb: "Eşidildi: Gəncə qubernatorunun təyin edilməsi haqqında məruzəsi; Qərara alındı: Doktor Xudadat bəy Rəfibəyovu Gəncənin qubernatoru təyin etmək. 1919-cu il, 6 may"[11].

X.Rəfibəyli 1920-ci ilin mayında həbsdə olarkən, istintaqa verdiyi ifadədə bildirir ki, qubernator əmrinin 1919-cu ilin mayın 6-da verilməsinə baxmayaraq, fəaliyyətə atasının qırx mərasimi başa çatdıqdan, yəni mayın 17-dən sonra başlamışdır.

X.Rəfibəyli Gəncənin general-qubernatoru vəzifəsində çalışarkən ciddi işlər gördü. Həmin bölgədə o, sabitliyi qoruyur, hökumət əleyhinə qanunsuz fəaliyyətlərin qarşısını alırdı. Gəncə və Gəncəbasar bölgələrinin silahlı quldur dəstələrindən azad edilməsində onun böyük rolu olmuşdur. Xudadat bəy vəzifəsindən sui-istifadə edən məmurlara qarşı çıxırdı. Onun Gəncə və Gəncə ətrafı bölgələri inkişaf etdirmək, məktəblər, xəstəxanalar açmaq, yeni müəssisələr yaratmaqla bağlı ayrıca fəaliyyət planının olduğu qeyd edilir.

O, 1920-ci ilin fevralın 5-də Daxili İşlər Nazirliyinə göndərdiyi məktubda yazırdı: "Aşağıdakıları diqqətinizə çatdırmağı şərəf bilirəm: Şamxor qəza rəisinin mənə çatdırdığı 4 fevral 94 saylı məlumatına əsasən onun baş köməkçisi Babayev ezamiyyətdən qayıdarkən belə məlumatlar alıblar ki, yanvarın 22-də bir neçə min nəfərdən ibarət olan erməni hərbi dəstələri müsəlmanlar yaşayan Şişqaya, Sədadaqaç və Hacı Qərib (Gəncə qəzasının keçmiş 9-cu sahəsi) kəndlərində soyğunçuluq etmiş, evləri dağıtmış və guya müsəlmanlar tərəfindən öldürülmüş bir erməni əsgərinə görə 280 min rubl pul istəmişlər. Ermənilər əhalinin mal-qarasını və əmlakını da talayıb aparmışlar. Əhalinin çoxu sağ qalmaq üçün Şamxor qəzası istiqamətinə qaçıb getmişlər. 300-ə qədər adam Burcalı kəndinə doğru getmiş, hava şaxtalı olduğundan 30-a qədər adam yolda həlak olmuş, qalanları isə hazırda Burcalı kəndindədir. Bu faktların yoxlanması üçün Babayev Gədəbəy və Qaramurad kəndlərinin nüfuzlu şəxsləri ilə sorğu aparmış və onlar da bu faktları təsdiq etmişlər. Bundan başqa həmin faktı Yeni Saratovka sərhəd dəstəsinin komandiri də təsdiqləyir.

Burcalıya gələn qaçqınların sayının dəqiqləşdirilməsi və onların vəziyyətinin və ehtiyaclarının öyrənilməsi üçün Babayev növbəti sərəncamla yerli pristavı

[10] R. Hüseynov. Rəfibəylilər. B., 1996, s.132-133.
[11] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 1, i. 23, v. 21.

həmin kəndə ezamiyyətə göndərmişdir. Əlavə edirəm ki, Gədəbəydən Burcalıya qədər olan yol qarla örtülmüş və hər iki məntəqə arasında məlumat yoxdur.

Növbəti məlumatlar gecikmədən diqqətinizə çatdırılacaq.Qoyulmuş məsələləri məlumatınız və müvafiq sərəncamlarınız üçün çatdırıram. Qubernator Rəfibəyov"[12].

Qeyd edək ki,1920-ci ilin aprelində ermənilər yalnız Qarabağ bölgəsində deyil, Gəncədə və ətraf yerlərdə gərginlik yaradır, əhaliyə qarşı zorakılıqlar törədirdilər.

X.Rəfibəyli 1920-ci ilin 15 aprelində Daxili İşlər nazirinə göndərdiyi teleqramda yazırdı: "Gəncə qəzasının 2-ci sahəsinin pristavı məlumat verir ki, ermənilər Şişqaya kəndinə hücum edərək, demək olar ki, bütün sakinləri qırıblar. Gədəbəyə yaralılar gəlib. Hazırda ora yaxın kənddə döyüş gedir. Müsəlmanların vəziyyəti ağırdır. Bunu məlumatınız və sərəncamınız üçün çatdırıram"[13].

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildi. Bu hadisədən sonra X.Rəfibəylinin Gəncənin general-qubernatoru vəzifəsində işləməsi qeyri-mümkün oldu. O, 1920-ci ilin aprelin 30-da tutduğu vəzifədən uzaqlaşdı. Xudadat bəy bu vəzifədən uzaqlaşarkən 66 saylı son əmrini (əslində bu, bir müraciət idi) verib, Gəncə Quberniyasının İdarə Heyətinə, dəftərxana qulluqçularına və digər əməkdaşlara təşəkkürünü bildirirdi. O, yazırdı: "Bir ilə yaxın Gəncə qubernatoru vəzifəsini icra edərkən əmin oldum ki, həm quberniya idarəsinin və qubernator dəftərxanasının qulluqçuları, həm də mənə tabe olan polis idarəsinin qulluqçuları onlara həvalə olunmuş vəzifələri vicdanla yerinə yetirmiş və quberniyada asayiş, sülh və əmin-amanlıq yaratmaq işində mənə kömək etmək üçün var qüvvələrini əsirgəməmişlər. Ona görə də qubernator vəzifəsini tərk edərkən adlarını saydığım idarələrin qulluqçularına çəkdikləri zəhmətlərə və qeyrətlə işlədiklərinə görə səmimi minnətdarlıq etməyi özümə mənəvi borc bilirəm və ümidvaram ki, onlar **Azərbaycan Respublikasının tərəqqisi və çiçəklənməsi naminə** öz vəzifələrini indən belə də vicdanla və səylə yerinə yetirəcəklər"[14].

1920-ci ilin mayın 12-də X.Rəfibəylini həbs etdilər. Onu silahlı əsgərlərin nəzarəti altında Gəncədən qatarla Bakıya gətirdilər. Məlumatlara görə o, həbs zamanı da özünü çox qürurlu aparmışdır. X.Rəfibəylinin həbs olunmasını eşidən çoxlu sayda gəncəli vağzala toplaşmış, Şəmkirdən 500 nəfərdən ibarət silahlı

[12] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 15, v. 6-7.
[13] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 31, v. 56.
[14] Əli Şamil. https://ali-shamil.tr.gg

dəstənin onu azad etmək cəhdinə isə özü razı olmamışdır. Xudadat bəy inanırdı ki, o, günahsızdır və özünü müdafiə edə biləcəkdir.

İstintaq materiallarından aydın olur ki, ona qarşı əsas müqaviməti göstərən, iddiaları qaldıran ermənilərdir.

1920-ci ilin mayın 12-də – Xudadat bəyin həbs edildiyi gün Gəncə sakini Nikolay Qriqoryeviç Babakev – Xyants adlı bir erməninin XI Ordunun xüsusi şöbəsinin müstəntiqinə ifadəsi: "...Rəfibəyov qubernator təyin edildiyi gündən xristianlara qarşı törədilmiş bir cinayət də açılmayıb. Şikayətlərlə bağlı Rəfibəyova müraciətlər bir qayda olaraq yerinə yetirilmirdi. Son vaxtlar Gəncə qəzasının erməni kəndləri Rəfibəyov tərəfindən təşkil edilmiş müsəlman quldur dəstələri tərəfindən talan olunur və yandırılırdı. Dəstələrin başçıları onun tərəfindən təyin edilirdilər və onların adları Qaraçinar dəstəsinin Bakıda yerləşən keçmiş rəisi podpolkovnik Pnakadzeyə yaxşı tanışdır. 1917-ci ildə Türkiyə cəbhəsindən qayıdan rus eşelonlarını güllələyən müsəlman quldur dəstəsinin başında Rəfibəyov dayanmışdı..."[1].


Губернаторъ
Правитель Канцеляріи

X.Rəfibəylinin imzası ilə sənəd.

X.Rəfibəyli erməni müstəntiqi Safikyana belə cavab vermişdir: "Mənim fəaliyyətlərim barəsində rəy və xasiyyətnaməni isə yalnız ermənilər deyil, ruslar, almanlar, gürcülər, yəhudilər və digər millətlərdən olanlar, həmçinin Həmkarlar İttifaqı, Gəncə Həkimlər İttifaqı, Qızıl Xaç kimi təşkilatlar verə bilərlər. Qatı daşnak olduğu üçün dəfələrlə həbsxanaya salınmış Babakevxyansın ərizəsinə gəlincə, o, tamamilə vecsizdir və həqiqətə uyğun deyildir".

Mayın 13-də milliyyətcə erməni olan[2] iki nəfər Mənəşid kənd sakini 32-ci atıcı diviziya yanında 8-ci xüsusi bölməyə belə ifadə verdi: "Xudadat bəy Rəfibəyov və Səfikürdskinin başçılıq etdikləri dəstələr 1917-ci ildə Şamxor və s. stansiyalarda qardaşlarımızı (yəni rusları – red.) vəhşicəsinə öldürür, ölənlərin meyidlərini soyur, kanala, quyuya atır, sağ qalanları isə diri-diri yandırırdılar"[3].

---

[1] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c., B., 2000, s. 144-145.
[2] Yenə orada, s. 149.
[3] Yenə orada, s. 148.

X.Rəfibəylini sorğu-suala tutub istintaq aparan da, saxta ittihamlar əsasında ifadə verənlər də ermənilər idi. Növbəti ifadə verən ermənilər isə aşağıdakılardır: Sərkisov, Ovanes Vartanov, Ambursum Cevorkova, Ovanes Akopov, Yegiş Cevorkova, Arutyunova və b. Onlar X.Rəfibəyovu onun "quldur dəstəsinin – Mustafabəyovun" iştirakı ilə mal-qaralarını apardıqlarından, var-yoxlarını taladıqlarından şikayət edirlər[4].

X. Rəfibəylini saxta ittihamlarla günahlandıraraq 1920-ci ilin iyunun 1-də Xəzər dənizindəki adalardan birində güllələdilər.

**X.Rəfibəyli həbsdə olarkən – 1920-ci ilin mayın 25-dən 26-na keçən gecə Gəncədə Sovet hökuməti əleyhinə böyük üsyan başladı.**

Qeyd edək ki, X.Rəfibəyli həbs edilərkən onun istintaqında "Gəncə üsyanı" ilə bağlılığına diqqət yetirilirdi. Xudadat bəyin üsyanla əlaqəsi olduğunu təsdiq edən faktlar olmasa da, bu üsyanın təşkilindən xəbərdar olmasını söyləmək mümkündür.

Gəncə üsyanının qəhrəmanı polkovnik Cahangir bəy Kazımbəyli də sonra yazdığı "Gəncə üsyanı haqqında xatirələr"ində X.Rəfibəylinin həbsinin bu üsyanın başlanmasına təsiri olduğunu qeyd edir.

1920-ci ilin mayın ortalarından isə Gəncədə vəziyyət kəskinləşmiş və Qızıl Ordu hissələri ilə əhali arasında toqquşma baş verəcəyi gözlənilirdi. X.Rəfibəylinin həbs edilib Bakıya aparılması, istintaqının ermənilərə tapşırılması, hətta onun artıq güllələnməsi məlumatının yayılması Gəncədəki hadisələrə təsir edirdi.

**1920-ci ilin mayın 25-dən 26-na keçən gecə Gəncədə sovet hakimiyyəti əleyhinə üsyan başladı. Gəncədəki sovet ordusunun bütün komandir heyəti, eləcə də şəhərdəki "şəriət polku" tərksilah edildi (12). Gəncəlilər 1920-ci ilin 28 mayını sovet rejimi olmayan bir şəhərdə qeyd etdilər. Üsyana başçılıq edən Azərbaycan Milli Ordusunun keçmiş 3-cü piyada Gəncə alayının komandiri albay C.Kazımbəy xatirələrində xalqın üsyana rəğbətini belə ifadə edirdi: "Uzun müddət küçələrdə sevinc qışqırtıları eşidilirdi"[5].**

**Gəncə şəhəri bir həftəyədək üsyançıların nəzarətində oldu. Ruslar ağır itkilər verməsinə baxmayaraq, əlavə qüvvələrlə 2-ci ordunu gücləndirib şəhəri ələ keçirə bildilər. Bu işdə ermənilər də ruslara kömək etdilər.**

**Mayın 31-də axşam şəhəri ələ keçirən sovet ordusundan 8500, milli ordumuzdan və mülki əhalidən isə 8000–13000-ə qədər adam həlak olmuşdu[6].**

---

[4] Yenə orada, s. 148-149.

[5] C.Kazımbəy. Gəncə üsyanı haqqında xatirələr. "Azərbaycan" qəzeti, №123-124 (639-640), 1993.

[6] N. Yaqublu. Müsavat Partiyasının tarixi. B., 2012, s. 129.

**Gəncə üsyanının yatırılmasından bir gün sonra – 1920-ci ilin iyunun 1-də isə bolşeviklər X. Rəfibəylini güllələdilər.**

X.Rəfibəylinin qətlindən sonra onun ailəsinə qarşı təzyiqlər davam etdi. 1931-ci ildə İstanbulda azərbaycanlı mühacirlərin nəşr etdikləri "Bildiriş" qəzetinin birinci səhifəsində "Şimaldan günəşin doğmasını bəkləyənlər" adlı bir yazı çap edilmişdi. Yazıda bildirilirdi ki, bolşevik Əliheydər Qarayev Bakıda nəşr olunan "Kommunist" qəzetindəki bir məqaləsində milli hökumət dövründə Gəncə valisi olmuş doktor Xudadat bəy Rəfibəyovun həyat yoldaşının evi axtarılarkən, oradan qızı Nigar xanımın (sonradan xalq şairi N.Rəfibəyli – red.) 1928-ci ilin iyun ayında yazdığı bir şeir tapıldığını bildirir. Şeir belə adlanır: "Şimaldan günəşin doğmasını gözləyənlərə". Şeirdə deyilir: "Başında şimal rüzgarları əsən şair, sən İsa şəklini Lenin şəkli ilə əvəz edib, bizi rus mujiki ruhunda tərbiyə edir, ona baş əyməyə məcbur edirsən. Lakin bunu bil ki, şimaldan günəş doğmamış və doğmayacaqdır. Şimal Şərqin qanını içəndir... Günəş Şimaldan deyil, daima olduğu kimi Şərqdən doğacaqdır!![7].

Ə.Qarayev bu şeirə görə Pedaqoji İnstitutda təhsil alan Nigarın bütün işlərdən azad olunmasını tələb etmişdir. Sonradan isə şair M.Rzaquluzadə Moskvadan məktub göndərib, şeirin Nigara yox, ona aid olduğunu bildirmişdir.

O zamanın proletar şairlərindən biri isə N.Rəfibəyliyə belə ittiham-şeir yazmışdır:

*Bağlamışsan ümidini Şərqdən doğan Günəşə,*
*Fəqət sənin duymadığın bir günəş var, ey Nigar!*
*Biz günəşiz, günəş biz,*
*O gündən başlayır mübarizəmiz.*

Başqa bir proletar şair isə Nigarın atası Xudadat bəyə işarə edərək yazırdı:

*Sən atanın yolunu izləyirsən, deyilmi?*
*Sən Müsavat dövrünü gözləyirsən, deyilmi?*[8].

X.Rəfibəylinin oğlu Kamil Türkiyədə yaşadı. Nigar Rəfibəyli isə sonradan Azərbaycanın xalq şairi oldu. X.Rəfibəylinin nəvəsi (Nigar xanımın oğlu) Anar bu gün Azərbaycanın tanınmış yazıçısıdır.

[7] "Bildiriş" qəzeti, 1931-ci il, №27.
[8] Anar. Sizsiz. B., 1992, s. 538.

# XƏLİL BƏY XASMƏMMƏDOV

(1875 – 1945)



Görkəmli siyasi xadim Xəlil bəy Xasməmmədov 1875-ci ildə Gəncədə anadan olub.

O, Moskva Universitetində oxuyub və hüquq fakültəsini bitirib. X.Xasməmmədov Rusiya İmperiyasının II və III Dövlət Dumasının üzvü seçilib.

X.Xasməmmədov 1917-ci ildən Müsavat Partiyası Mərkəzi Komitəsinin üzvü olub.

X.Xasməmmədov Zaqafqaziya Seyminin və Zaqafqaziya diplomatik nümayəndəliyinin üzvü kimi də fəaliyyət göstərib.

1918-ci ilin 28 mayında Azərbaycan Cümhuriyyətinin yaradılmasında onun böyük rolu olub.

X.Xasməmmədov F.X.Xoyskinin təşkil etdiyi birinci Hökumət kabinetində (28.05.1918 – 17.06.1918) Ədliyyə naziri, ikinci kabinetdə (17.06.1918 – 07.12.1918) portfelsiz nazir və Yollar naziri, üçüncü kabinetdə (26.12.1918 – 14.03.1919) Daxili İşlər naziri, beşinci kabinetdə (24.12.1918 – 01.04.1920) Ədliyyə naziri vəzifələrini icra edib.

1920-ci ilin aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra X.Xasməmmədov Türkiyəyə gedib, İstanbulda yaşayıb.

X.Xasməmmədov 1945-ci ildə İstanbulda vəfat edib.

# ƏDLİYYƏ NAZİRİ

Azərbaycanın tanınmış siyasi xadimlərindən olan Xəlil bəy Xasməmmədov Gəncədə orta təhsilini aldıqdan sonra Moskva Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş və 1895-ci ildə oranı bitirmişdir. 1895-1919-cu illərdə Yekaterinodar və Yelizavetpol qəzalarının məhkəmələrində işləmişdir. 1913-1918-ci illərdə o, Yelizavetpol şəhər bələdiyyə rəisi, Yelizavetpol qəza İcraiyyə Komitəsinin sədri olmuşdur.

X.Xasməmmədovun bir siyasətçi və hüquqşünas olaraq formalaşmasında Rusiya Dövlət Dumasının mühüm rolu olmuşdur. 1907-ci ilin 20 fevralında Rusiyada II Dövlət Duması fəaliyyətə başladı (I Dövlət Dumasına müsəlman-azərbaycanlı əhali arasında seçkilər 1906-cı ilin 31 mayında keçirilmiş və sonradan çar tərəfindən buraxılmışdı). II Dövlət Dumasında 5 azərbaycanlı deputat var idi: Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Mustafa Mahmudov, Məhəmməd ağa Şahtaxtlı və Zeynal Zeynalov. II Dövlət Duması 1907-ci ilin iyununda II Nikolayın fərmanı ilə buraxıldı. Bir qədər sonra, 1907-ci ildə fəaliyyətə başlayan III Dövlət Dumasında Cənubi Qafqazın müsəlman əhalisini bir deputat – Xəlil bəy Xasməmmədov təmsil edirdi. X.Xasməmmədov burada III Dövlət Dumasının fəaliyyətinin sonunadək – 1912-ci ilin iyununa qədər çalışdı.

II Dövlət Dumasında azərbaycanlı deputatlar müsəlman parlament fraksiyasına, F.X.Xoyski və X.Xasməmmədov isə onun bürosuna daxil oldu. Qeyd edək ki, Duma üzvləri tərəfindən fraksiya proqramını əks etdirən bir kitabça da nəşr etdirmişdi. Bu kitabça-proqramda vətəndaşların hüquqları, dövləti və dini quruluş, yerli özünüidarə, məhkəmə, xalq maarifi, maliyyə və dövlət iqtisadiyyatı, kəndli və fəhlə məsələsi üzrə müddəalar, fraksiyanın siyasi məqsəd və vəzifələri şərh olunmuşdur. Proqramda əks edilən aqrar siyasət, torpaq məsələsi müsəlman deputatlar arasında mübahisə yaratmışdı.

Fraksiya üzvü olan X.Xasməmmədov həmin proqramı bütövlükdə qəbul etmədi. Qeyd edək ki, X.Xasməmmədov Dövlət Dumasında F.X.Xoyski ilə birlikdə milli dini bərabərlik komissiyasının üzvü idi.

İxtisasca hüquqşünas olan X.Xasməmmədov Duma komissiyasının yerli məhkəmə haqqındakı məruzəsini maraqla dinləmiş və F.X.Xoyski ilə birlikdə Rusiyanın bütün yerlərində islahat keçirilməsi, məhkəmənin yerli əhalinin dilində aparılması zəruriliyinə tərəfdar çıxmışdılar[1].

[1] Д.А.Колесников. Трудовики в период первой российской революции. М., 1985, с. 216.


X.Xasməmmədov.

Qeyd edək ki, X.Xasməmmədovun Rusiya Dövlət Dumasındakı fəaliyyətinə aid məktublaşması onun bu dövr fəaliyyətinin öyrənilməsində ciddi sənədlərdir. Arxiv sənədləri arasında X.Xasməmmədovun Bakıya – Ə.M.Topçubaşovun həyat yoldaşı Pəri xanım Topçubaşovaya 1908-ci ilin mayın 8-də göndərdiyi bir teleqram da vardır. Həmin teleqramda X.Xasməmmədov Ə.M. Topçubaşovun böyük nüfuza malik olduğunu xatırladaraq onun "Vıborq işi" ilə bağlı olan məşhur çağırışını qeyd edir.

X.Xasməmmədov teleqramda bildirirdi: "Vıborq işi" ilə bağlı Əlimərdan bəy üzərindəki hökm yerinə yetirildi. Əvvəlcə Müsəlman fraksiyası özünün təcili toplantısında Ə.M.Topçubaşovla və digər deputat Ramvellə və digər müsəlmanlarla "Volna" restoranında bunu qeyd etdilər. Çıxış edənlər Topçubaşova hörmətlərini bildirərək onun müsəlman deputatların Vıborq işindəki fəaliyyətini və Müsəlman partiyasının sədri kimi çalışmağını xüsusi vurğuladılar"[2].

X.Xasməmmədovun Ə.M.Topçubaşova ünvanlanan 1908-ci il 2 avqust tarixli məktubunda isə Müsəlman fraksiyasının Dumadakı fəaliyyəti ilə bağlı müəyyən məqamlara toxunulur: müəyyən məsələlərin həlli ilə bağlı müzakirələrdə çətinlik yarandığı, onların say etibarı ilə azlıqda qaldığı və s. qeyd olunur. Məktubun sonunda X.Xasməmmədov təəssüf hissi ilə yazır: "Milli məsələlərlə və dilimizin təbliği ilə bağlı təkliflərimizi komissiya qəbul etmədi. Dumanın komissiyanın layihəsini dəyişməyə olan inamı azdır. Ümumiyyətlə, indiki şərtlər daxilində nəyəsə ümid etmək olmaz. Bütün fəaliyyətimizin sonu ləyaqətli cavab və etirazlardan bilinəcək. Bundan ötrü bizə kömək lazımdır, öz gücümüz yetərli deyildir. Belə şəraitdə işləmək bizim üçün çətindir"[3].

X.Xasməmmədovun Ə.M.Topçubaşova ünvanladığı bu məktub onun hansı çətinliklərlə Dövlət Dumasında fəaliyyət göstərməsini təsdiqləyir.

1917-ci ilin Fevral-Burjua inqilabından sonra X.Xasməmmədov Zaqafqaziyada gedən proseslərdə yaxın iştirak etdi.1918-ci ilin fevralında yaradılan Zaqafqa-

[2] Azərbaycan Respublikası Dövlət Arxivi. f.3172, s.1, i 2, v.14-15.
[3] Yenə orada, v.15-16.

ziya Seymində müsəlman fraksiyasının üzvü oldu. O,fraksiyada "Müsavat" və demokratik bitərəflər qrupunun təmsilçisi idi[4].

X.Xasməmmədov 1918-ci ilin mayın 27-də Seymin süqutundan bir gün sonra keçirilən Seymin müsəlmanlardan ibarət üzvlərinin fövqəladə iclasında yaradılan Azərbaycan Milli Şurası Rəyasət heyətinin üzvü seçildi.

1918-ci ilin 28 Mayında Azərbaycan istiqlalı elan edildikdən sonra F.X.Xoyskinin başçılıq etdiyi birinci müvəqqəti hökumət kabinəsində Ədliyyə naziri vəzifəsi X.Xasməmmədova tapşırıldı.

X.Xasməmmədov F.X.Xoyskinin başçılıq etdiyi III hökumət kabinəsində (26.12.1918 – 14.03.1919) Daxili İşlər naziri vəzifəsini icra etdi. O, bundan əvvəl Ədliyyə naziri vəzifəsində də çalışmışdır. Daxili İşlər naziri olaraq çalışdığı qısa müddətdə o, bütün bacarığını Azərbaycanda asayişin qorunmasına, dövlətin inkişafına sərf etdi. Onun bu dövrdə verdiyi əmrlər, sərəncamlar, göndərdiyi teleqramlar bu faktı təsdiq etməkdədir.

X.Xasməmmədov Daxili İşlər naziri olarkən verdiyi bir sərəncamda yazılırdı: **"Qubernatorlara əsgəri xidmətə çağırış vaxtı, əsgəri mükəlləfiyyət haqda keçmiş Rusiya nizamnaməsindən istifadə edilməsinin zəruriliyi haqda Sərəncam.12 fevral, 1919-cu il.Təcili.** Nazirlikdə hal-hazırda təcili olaraq əsgəri mükəlləfiyyət haqda nizamnamənin layihəsi hazırlanır və yeri gəlmişkən, Azərbaycan Respublikasının müvafiq idarələrinin təşkili prosesi gedir və yaxın vaxtlarda bu qanun layihəsi parlamentin müzakirəsinə çıxarılacaq.

Ancaq 1894-1899-cu illərdə doğulmuş gənclərin hazırkı çağırışının mümkün qaydaya salınması məqsədi ilə, birinci dərəcəli dövlət əhəmiyyətli çağırış olaraq Azərbaycan ordusunun tezliklə yaradılması heç bir halda dayandırıla bilməz. Hərbi nazirlə olan razılaşmaya uyğun olaraq, Zati-alinizə göstəriş verməyi zəruri hesab edirəm, dediklərimi dəqiq və fevralın 12-də olan 859 saylı telefonoqrama əlavə olaraq qəbul etmənizi Sizdən xahiş edirəm...

Hesab edirəm ki, türk hərbi komandanlığı tərəfindən hazırlanmış, hələ də qüvvədə olan, olduqca qeyri-müəyyən və qeyri-mükəmməl təlimat səbəbindən yaranan şikayətlərin əksəriyyətini ləğv etməlisiniz.

Sonra həmin qəza idarələrinə hər bir rayonda olan kənd icmalarında çağırış yaşında olan bütün müsəlmanların düzgün çağırış siyahısını, xristian dininə itaət edənlərdən ötrü komissiya təşkil olunmasını və bununla bağlı sərəncam vermələrini təklif etmək (152 maddə, əskəri mükəlləfiyyət haqda Nizamnaməsinin xüsusilə 1 əlavəsinin, qeyd 3, 154, 162-166, 168 və 169, 1915-ci il nəşri), həmçi-

[4] Адрес – Календарь Азербайджанской Республики на 1920 г. Б., 1920, с. 8-9.

nin çağırış siyahılarının şəhər idarələri tərəfindən tərtib edilməsi gərəkdir.

Aydındır ki, bu siyahıya o gənclər də daxil edilməlidir ki, artıq çağırışda və qəza əsgəri idarəsində olublar, burada ya əsgəri xidmətdən azad ediliblər və ya xidmətə qəbul ediliblər və s... Ancaq bu çağırışlar barədə siyahılarda müvafiq qeyd edilməsi zəruridir ("qəbul edilmişdir", "I dərəcəli güzəşt" və digərləri).



**Daxili İşlər naziri X.Xasməmmədovun Hərbi nazirə teleqramı.**

Müsəlmanların əksəriyyətinin doğum haqqında məlumatlarının doğru olmaması məsələsinə gəlincə, komissiyalar cavan adamları çağırış siyahısına daxil edərkən, həm yerli mollalardan, həm də inanılmış etibarlı adamlardan alınan məlumatlar rəhbər tutulmalıdır, ancaq yaş haqda şübhə olanda əsgəri mükəlləfiyyət haqda nizamnamənin 165 maddəsinin tələblərinə dəqiq əməl edilməlidir.

Polisə bir vəzifə olaraq tapşırın ki, əsgəri mükəlləfiyyət haqda nizamnaməyə əsasən (maddə 152), kənd komissiyalarının fəaliyyətinə ciddi şəkildə nəzarət etsinlər, onun üzvlərini şüurlu olaraq düzgün olmayan hərəkətlərə görə hökmən məsuliyyətə cəlb etsinlər, eyni zamanda, komissiya üzvlərini onların öz vəzifələri haqqında daim təlimatlandırsınlar.

Daxili İşlər naziri: X.Xasməmmədov; Dəftərxana direktoru: Doqudovskiy; Şöbə rəisi: Boqdanoviç"[5].

X.Xasməmmədovun 1919-cu ilin martın 13-də təsdiq etdiyi daha bir sənəd belə adlanırdı: **"Qubernatorlara əsgəri hissələrin mülki hakimiyyətə kömək məqsədi ilə ancaq xüsusi müstəsna hallarda cəlb edilməsi haqqında Sərəncam 13 mart, 1919-cu il"[6].**

***Qeyd edək ki, X.Xasməmmədov Daxili İşlər naziri olarkən 8 aprel 1919-cu ildə general-qubernator doktor X. Sultanova "N.Nərimanovun Azərbaycan ordusunda bolşevizmin təbliğatını apardığına görə həbs edilməsi barədə"***

[5] Azərbaycan Respublikası Dövlət Arxivi. f.894, s.2, i.88, v.3-4.

[6] Yenə orada, v. 6-7.

***sərancam göndərmişdi.Həmin sərəncamda yazılmışdı:*** "Hərbi nazirin aldığı agentura məlumatına görə bolşevik Nərimanov Bakıya gəlib orada parlamentin "Hümmət'dən olan üzvləri, başlıcası isə Sanıyev və Qarayevlə görüşmüş, sonra isə Şuşa və Qazax qəzalarının əhalisi ilə görüşmək və imkan daxilində qoşun daxilində bolşevizmi təbliğ etmək məqsədilə həmin qəzalara getmişdir. Hərbi nazir təsdiq edir ki, belə təbliğatın nəticəsində orduya gənclərin axını xeyli azalmış və təhlükə doğuracaq həddə çatmışdır. Bu barədə Sizə məlumat verməklə mən əlahəzrətinizdən Sizin general-qubernatorluğun ərazisində göründüyü vaxt Nərimanovun tutulması üçün sərancam verməyinizi xahiş edirəm. Bu barədə tərəfimdən Gəncə qubernatoruna da teleqrafla bildirilmişdir. Daxili İşlər naziri Xasməmmədov"[1]

Bu sənədlərdən göründüyü kimi, X.Xasməmmədov nazir olduğu dövrdə Azərbaycanda qanunçuluğun tərəfində ciddi dayanmışdır.

X.Xasməmmədovun 1918-1920-ci illərdəki fəaliyyətinin öyrənilməsində onun parlamentdəki çıxışları önəmli rol oynayır. Bu çıxışlarda onun dövlət quruculuğu sahəsində ciddi çalışmaları öz əksini tapır.

X.Xasməmmədovun parlamentdə ilk çıxışı 1919-cu ilin fevralın 4-də keçirilən 10-cu iclasda oldu. İclasa sədrliyi H. Ağayev etdirdi. İclasın gündəliyinə 6 məsələ daxil edilmişdi: 1) Daxil olan kağızlar; 2) Əmək nazirinə sorğu; 3) Xariciyyə nazirinə sorğu; 4) Torpaq və sorğu komissiyaları seçimi; 5) Dəmiryol qulluqçularının halını yaxşılaşdırmaq üçün qanun layihəsi; 6) Ticarət nazirinə, bez, neft və buğda barəsində sorğu.

Parlamentdəki çıxışında X.Xasməmmədov sorğu məsələsinin əhəmiyyətini belə izah edirdi: "Möhtərəm məbuslar! Sorğuya cavab vermədən əvvəl bir neçə kəlmə söyləmək istərəm. Əvvəla, bunu nəzərə almalısınız ki, sorğu Parlaman əlində böyük bir ixtiyardır. Sorğu ixtiyarı Parlaman üçün bir nəzarət, təftişdir. Sorğu elə böyük bir şeydir ki, onun vasitəsi ilə hökumətin məcmu işlərini bilə bilərsiniz, belə də olmalıdır. Xüsusən o yerlərdə ki parlamentarizm üsulu ilə idarə olunurlar. Hər nazir özünü borclu bilir ki, daxil olan sorğuya cavab versin. Mən daxiliyyə naziri və bütün hökumət o fikirdəyik ki, hökumət düz, doğru və qanuni olsun gərək və hər sorğu barəsində doğru cavab versin və sizin fikrinizi bilsin. Bunların hamısı məmləkətin salamatlığı və xeyri üçündür"[2].

---

[1] Azərbaycan Respublikası Dövlət Arxivi, f.1054, s.1, i.4, v.2.

[2] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918-aprel 1920), I c. Bakı, 2015, s. 324-325; "Azərbaycan" qəzeti, 7 fevral 1919, №108.



آذربایجان حکومت جمهوریه‌سی
داخلیه ناظری
МИНИСТРЪ ВНУТРЕННИХЪ ДѢЛЪ
Азербайджанской Республики.

Шуша
Генерал Губернатору
доктору Султанову.

Daxili İşlər naziri X.Xasməmmədovun Şuşaya – Qarabağın general-qubernatoru X.Sultanova məktubu.

X.Xasməmmədov sorğunun əhəmiyyətindən danışdıqdan sonra Azərbaycan hökumətinin əhalidən buğda və digər ərzaq yığması haqqında qanunu vermədiyini, bu işin yalnız türk əsgərləri Bakıda olarkən baş verdiyini qeyd etdi. O, bildirdi ki, türklər Azərbaycanı tərk edərkən qoyduqları əşyalar hərbiyyə və ərzaq sahələrinin nəzarətinə verilib. Bəzi yerlərdə isə daxiliyyə nəzarətində saxlanılır və bu da, əsasən, arpa və buğdadan ibarətdir. X.Xasməmmədov yığılan buğda ilə bağlı Qubada, Göyçayda, Gəncədə müəyyən problemlər olduğundan oraya məmur göndərildiyini söylədi.

X.Xasməmmədov çıxışında neft məsələsinə də toxundu. Bir çox yerlərə külli miqdarda, qanunsuz olaraq neft aparıldığını (xüsusən Qazax bölgəsinə və oradan da Gürcüstana) qeyd etdi. Sonda fikrini belə yekunlaşdırdı: "Müqəssirlər ilə də, əlbəttə, məmləkətin qanununa müvafiq rəftar ediləcəkdir. Sorğuda daha başqa bir şey yoxdur. Bir neçə söz də deyəyim. Mən sizin hüzurunuzda deyirəm – qüsurlarımız var. Nəzarətin hər bir işi "düzdür" demirəm. Ancaq işlərin hamısını bu üç-dörd ayda düzəltmək mümkün olmamışdır. Böyük müşkülat vardır. Nəzarət ixtiyarında olan bütün vasitə və qüvvə ilə bunları qaydaya salmağa borcludur. Nəzarət çalışır ki, o qüsurları rəf olana və idarəni öylə yola qoyaq ki, camaat razı, məmləkət salamatda qalsın"[3].

[3] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918-aprel 1920), I c. B., 2015, s. 327.

1919-cu ilin aprelin 3-də Parlamentin 19-cu iclası keçirildi. İclasda sədrlik edən H.Ağayev 41 nəfərin iclasda iştirak etdiyini söylədi.

İclasda müzakirə edilən bir məsələ də "daxiliyyə nəzarəti məmurlarının maaşlarının artırılması və bəzi məmurluqların təşkili" haqqında qanun layihəsi idi. Bu məsələ ilə bağlı əsas məruzəni doktor Musa bəy Rəfibəyov etdi. Məsələ ətrafında çıxış edənlərdən biri də hökumət üzvü X.Xasməmmədov oldu. O, çıxışında dedi: "Daxiliyyə nəzarəti xidmətlərinin məvacibləri az olduğundan bu layihə yanvarın əvvəllərində daxiliyyə nəzarətində hazırlanmışdır. Əski hökumət yeni hökumətin ixtiyarına keçdikdən sonra gördü ki, məvaciblər o qədər cüzidir ki, məmurlar dolana bilmirlər. Məmurlar yaxşı dolanıb və yaxşı qulluq etsinlər deyə, hökumət onların maaşlarının artmasını təhti-qərara aldı. Çünki ac qulluq olmaz. İkinci qanunda anlatdıq, ərz etdik ki, bir neçə məmuriyyət də var ki, bizə lazımdır. Biz bunu layihədə yazdıq"[4].

Bu çıxışdan aydın olur ki, X.Xasməmmədov həm də qanunların yazılıb hazırlanmasında fəallıq göstərmişdir.

X.Xasməmmədov çıxışında deputat Malxazovun "Şəxsin azadlığı və mülkiyyət məsələsi" fikrinə də münasibət bildirdi. O, qeyd etdi ki, bunlar böyük məsələlərdir və vaxtı yetişəndə danışıla bilər, bunlar üçün də qanun lazımdır. X.Xasməmmədov hüquqşünas olduğundan, çıxışında yalnız qanuna əsaslanmağı başlıca fikir olaraq söyləyirdi.

1920-ci ilin 22 qanuni-sanidə (yanvar – red.) keçirilən parlament iclasında 9-cu məsələ ilə ("Seyidbəyovun həbsdən buraxılması haqqında Ədliyyə nazirinə sosialistlərin sualı") bağlı X.Xasməmmədov çıxış etdi. O, bu dəfə Ədliyyə naziri olaraq fikrini parlament üzvlərinə çatdırırdı. İclasın sədrinin verdiyi məlumatdan aydın olurdu ki, X.Xasməmmədov əfvi-ümumi (ümumi bağışlama) haqqında bir qanun layihəsini müzakirəyə hazırlamışdır.

X.Xasməmmədov çıxışında əsas sual olan Seyidbəyovun həbsdən buraxılmasına toxundu və qeyd etdi ki, hər bir müqəssirin haqqı var ki, məhkəmədə hökm çıxarılana qədər şikayət edib müəyyən şərtlər daxilində müvəqqəti həbsdən azad olsun. O, bildirdi ki, Seyidbəyov da ərizə yazıb, 50 min manat müqabilində zəmanətə buraxılıb. X.Xasməmmədov parlament üzvlərinin diqqətinə çatdırırdı ki, mövcud qanunlarımızın əleyhinə burada heç bir zidd hərəkət edilməmişdir[5].

---

[4] Yenə orada, s. 605.

[5] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918-aprel 1920), III c. B., 2017, s. 330; "Azərbaycan" qəzeti, 15 fevral 1920, №32.

**1920-ci ilin aprelində Azərbaycan bolşeviklər tərəfindən işğal edildi.**

Bu hadisədən bir qədər əvvəl X.Xasməmmədov Türkiyəyə səfir təyin edilsə də, vəzifəsini icra etmək imkanı olmadı. Azərbaycan işğal edildikdən sonra o, Tiflisə getdi. 1920-ci ilin iyunun 19-da erməni daşnak partiyasının üzvləri Aram Erkanyan və Misak Kirakosyanın F.X.Xoyskiyə qarşı terror aktı zamanı X.Xasməmmədov da iki güllə ilə yaralansa da, lakin sağ qaldı. Bu qəsddə bolşeviklərin də iştirakı bəzi sənədlərdə qeyd olunmaqdadır. Bolşeviklər isə bu şəxsiyyətləri aradan götürüb Azərbaycandakı müqavimət hərəkatını zəiflətmək istəyirdi.



на мѣсто подлежащихъ увольненію, единственнымъ основаніемъ для чего должны служить честность прежде всего, знаніе дѣла, дѣловитость и полная независимость кандидата отъ какихъ бы то ни было мѣстныхъ связей и вліяній.-

Увѣренъ, что Ваше Превосходительство, будучи проникнуты чувствомъ любви къ родинѣ и пониманіемъ всей важности возлагаемаго мною на Васъ порученія-создавъ въ Казахскомъ уѣздѣ сильную, честную и умную власть, которая-бы въ своихъ дѣйствіяхъ руководилась единственно благомъ народа и сумѣла-бы дать ему возможность мирно развивать свою трудовую дѣятельность,-примите всѣ мѣры къ наилучшему выполненію возлагаемаго мною на Васъ порученія, отвѣтственность за что всецѣло возлагаю на Васъ.-

Объ исполненіи сего и данныхъ, обнаруженныхъ разслѣдованіемъ, имѣете донести мнѣ въ возможно непродолжительномъ времени.-

Министръ Внутреннихъ Дѣлъ Х. Хасмамедовъ

Директоръ Канцеляріи

Начальникъ Отдѣленія

**Daxili İşlər naziri X.Xasməmmədovun imzası ilə məktub.**

Tiflisdə qalmağın qeyri-mümkünlüyünü başa düşən X.Xasməmmədov Türkiyəyə, oradan Fransaya getməyə məcbur oldu.

X.Xasməmmədovun mühacirətdə olduğu dövrə təsadüf edən ilk məktubu Əbdüləli bəy Əmircanova ünvanlanıb. Məktub 1921-ci ilin 23 mayında Parisdən yazılıb. Həmin məktubdan: “Hörmətli Əbdüləli bəy! Sizin may tarixli məktubunuza cavab olaraq bildirirəm ki, mənim sərəncamımda bizim həmyerlilərimizə – qaçqınlara kömək üçün heç bir maliyyə yoxdur. Parisdəki Sülh Konfransının nümayəndələri tərəfindən bir neçə adama müəyyən dotasiya verilir ki, onların da siyahısı bizim indiki konsulluqdadır.

Sizin xatırlatdığınız 25 min frank, həqiqətən, bizim nümayəndəliyin dediyi F.B.Vəkilovun adına göndərilib. Bu pul Vəkilova və onun iki dostuna ödənilməsi, eləcə də, işin təşkil olunması üçün ayrılıb.

Hazırkı şəraitdə vəziyyətin dəyişdiyini nəzərə alıb yazılı şəkildə Vəkilovdan xahiş etmişəm ki, həmin pulun ikinci iş üçün nəzərdə tutulan hissəsi Azərbay-

canın harasında qeydiyyatından asılı olmayaraq Anadoluda yaşayan qaçqınlara verilsin.

Bununla birgə təklif etmişəm ki, ona ayrılan pul yerlərdəki qaçqın təşkilatlarına verilsin. X.Xasməmmədov"[6].

X.Xasməmmədov eyni zamanda, M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycan Milli Mərkəzinin üzvü, İstanbul bölməsinin sədri olmuşdur.

X.Xasməmmədov mühacirətdə yaşadığı dövrdə keçirilən tədbirlərdə də fəallıq göstərirdi. 1930-cu ildə İstanbulda nəşr edilən "Odlu Yurd" məcmuəsi tərəfindən Azərbaycan Cümhuriyyətinin 12-ci ildönümü münasibəti ilə "Milli Azərbaycan gecəsi" təşkil olunmuşdu. X.Xasməmmədov mərasimdə açılış çıxışı etdi: "28 May tariximizdə ən şərəfli bir gündür, bu gün milli bayramımızdır. Bu münasibətlə, əziz vətəndaşlar, cümlənizi ürəkdən təbrik edirəm. On iki il əvvəl, tam bu gün, xalqımızın hissiyyatına, əfkarına və idealına tərcüman olaraq Milli Şuramız Azərbaycanın istiqlalını elan etdi. O zaman mən Milli Şuranın üzvlərindən idim. Qeyd etməliyəm ki, Milli Şurada müxtəlif siyasi firqələr olmasına rəğmən, İstiqlal Bəyannaməsi bir səs və müştərək inamla qəbul olunmuşdur. Bu göstərir ki, istiqlal elanı mənliyini və məfkurəsini tapmış bir millətin müştərək və kollektiv bir əsəridir"[7].

Sonra o, Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı faktını mərasim iştirakçılarına çatdırıb əlavə etdi: "Bu istila bizim üçün nə qədər böyük bir faciə olsa da, keçici bir hadisədir. İstilanın ilk günlərindən etibarən açılan və hələ də davam edən və gündən-günə şiddət kəsb edən milli mücadilə mənim inamımı çox qüvvətləndirir və canlandırır. Qurtuluşumuz mühəqqəqdir. İstiqlal eşqi ilə hazırlıqlı olan və bu yolda heç bir fədakarlığı əsirgəməyən bir millətin nəhayət hürriyyətinə yetişməməsi mümkün deyil"[8].

X.Xasməmmədovun mühacirətdə yaşayarkən Polşa rəsmiləri ilə də yazışmaları vardır. O, 1934-cü ilin 25 martında İstanbuldan Penter Karol Dubiçə (Polşa diplomatı, Polşa səfirliyinin 1932-1934-cü illərdə Türkiyədəki məsləhətçisi) yazdığı məktubunda ona xoş münasibət göstərdiyinə görə minnətdarlığını bildirirdi[9].

Mühacirət həyatının ağır şərtləri daxilində mühacirlərarası ziddiyyətlər də yox deyildi. Odur ki, X.Xasməmmədovun M.Ə.Rəsulzadə ilə münasibətlərində müəyyən problemlər yaranırdı. Belə ki, 1927-ci ildə Türkiyədəki mühacirlərdən

[6] А.М.Топчибаши. Документы из личных архивов. 1903-1934 гг. М., 2012, с. 183.
[7] "Odlu Yurd" jurnalı. İstanbul, 1930, iyun, sayı 17 (5), s. 196-197.
[8] Yenə orada.
[9] Из истории азербайджанской эмиграции. Москва, 2011, с. 107.

Ş.Rüstəmbəyli ilə birlikdə X.Xasməmmədovun Müsavatın idarəçiliyindən narazılığını bildirərək təşkilatı parçalamaq istəyi, paralel şəkildə üzv olduqları Milli Mərkəzin işinə önəm verməsləri müsavatçılar tərəfindən narazılıqla qarşılanmış və 25 nəfər partiya üzvü tərəfindən ciddi xəbərdarlıq tədbiri görülmüşdü. Bundan sonra onlar təşkilatın fəaliyyətinə problem yaratmayacaqlarını bildirmişdilər[10].

X.Xasməmmədov və Ş.Rüstəmbəylinin Azərbaycan Milli Mərkəzinə ayrılan maliyyə vəsaiti ilə də bağlı M.Ə.Rəsulzadə arasında olan münasibətlərdə də müəyyən problemlər yaranmışdı[11].

1942-ci ilin iyununda Almaniya Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə Berlində "Adlon" otelində Qafqaz xalqlarının tanınmış siyasi xadimləri ilə birlikdə azərbaycanlılardan M.Ə.Rəsulzadə, M.Y.Mehdiyev, M.Vəkilli, X.Sultanov, X.Xasməmmədov və F.Əmircanın da iştirakı ilə konfrans keçirildi[12]. X.Xasməmmədovun və F.Əmircanın bu konfransda iştirakında Nuru Paşanın ciddi rolu olmuşdu.

Qeyd edək ki, Fransa, İtaliya, Türkiyə, İsveçrə və Balkanlarda məskunlaşan tanınmış mühacirlərin bu görüşünün təşkilatçısı Almaniya Xarici İşlər Nazirliyinin əsas Şərq mütəxəssisi və Moskvadakı keçmiş səfiri olmuş Şulenberq idi. Onun mühacirlərlə olan bu tarixi görüşü isə "Adloniada" adlandırıldı[13].

"Adlon" otelində keçirilən konfransda Qafqazdan olan mühacirlər Qafqazın müstəqilliyinin Almaniya tərəfindən tanınması haqqında həmin ölkənin Xarici İşlər Nazirliyi təmsilçilərindən qeyri-rəsmi də olsa müsbət cavab ala bilmişdilər. Almaniyanın Şərq Nazirliyinin Qafqaz şöbəsinin rəisi Von Mendenin köməyi ilə Qafqaz xalqlarının təmsilçilərindən ibarət Milli komissiyaların yaranmasına da razılıq verilmişdi.

X.Xasməmmədov da digər azərbaycanlı təmsilçilərlə birgə bu mürəkkəb siyasi prosesin iştirakçısı idi. O, eyni zamanda müxtəlif konfranslarda, tədbirlərdə çıxışlar edir, sovet rejiminin işğalçı mahiyyətini ictimaiyyətə çatdırırdı.

X.Xasməmmədov Türkiyədə yaşadığı dövrdə türk xanımı ilə ailə qurmuş və onların Rauf adlı bir övladı da olmuşdur. Ailə qurduqdan uzun müddət sonra dünyaya gələn və yeganə övlad olan Rauf Yekta (misilsiz, tayı-bərabəri olmayan mənasında – red) Qalatasaray liseyində təhsil alırdı. 1931-ci ilin martın əvvəllərində Rauf 12 yaşında dünyadan köçdü. Bu hadisə X.Xasməmmədovu bərk sarsıtdı. Onun övladının ölümü münasibəti ilə İstanbulda M.B.Məmmədzadənin

[10] X.İbrahimli. Azərbaycan siyasi mühacirəti. B., 1996, s. 125.
[11] N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 1997, s. 172.
[12] X.İbrahimli. Azərbaycan siyasi mühacirəti. B., 1996, s. 183.
[13] Yenə orada, B., 1996, s. 182.

redaktorluğu ilə çıxan "Bildiriş" qəzeti yazırdı: "İstanbulda Azərbaycan sabiq Milli hökuməti Ədliyyə vəkili Xəlil Xasməmməd bəy əfəndinin 12 yaşındakı oğlu – Qalatasaray liseyi tələbəsi Rauf bəy mübtəla olduğu xəstəlikdən qurtulmayaraq dünən vəfat etmişdir. Kədər-didə ailəsinə təziyətlərimizi bəyan eyləriz"[14].

Xəlil bəy ömrünün son illərini Nəsib bəy Yusifbəylinin kürəkəni olan Mirzə bəy Göygölün (Zəhra xanımın həyat yoldaşı) evində yaşadı.

O, İstanbulda yaşadığı dövrdə yazılarını Mehmet Gürgören imzası ilə çap etdirirdi.

X.Xasməmmədov 1945-ci ildə İstanbulda vəfat etmiş və Fəriköy məzarlığında dəfn olunmuşdur.



**X.Xasməmmədovun İstanbulda məzarı.**

[14] "Bildiriş" qəzeti, İstanbul, mart 1931.

# ƏBDÜLƏLİ BƏY ƏMİRCANOV

(1870-1948)



Azərbaycan Cümhuriyyətinin Maliyyə naziri Əbdüləli bəy Şirəli bəy oğlu Əmircanov 1870-ci ildə Şəki şəhərində anadan olub. İlk təhsilini 1876-1883-cü illərdə Şəki şəhər məktəbində alıb. 1888-ci ildə Tiflisdə Aleksandrovsk Müəllimlər İnstitutunu bitirdikdən sonra doğulduğu Şəkidə müəllim işləyib. O, tanınmış pedaqoq, maarifçi Teymur bəy Bayraməlibəyovla birlikdə Lənkəranda bir çox mədəni-maarif tədbirlərinin həyata keçirilməsində mühüm rol oynayıb.

1918-ci ilin martında Bakıda azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilən soyqırımda minlərlə günahsız insanın ölümdən xilasında, şəhərdə qırğının qarşısının alınmasında o, böyük xidmətlər göstərib.

1918-ci ilin iyunun 17-də F.X.Xoyskinin formalaşdırdığı ikinci Hökumət kabinəsində Ə.Əmircanova Maliyyə naziri vəzifəsi tapşırılıb. O, bu vəzifəni 1918-ci ilin oktyabrın 6-na qədər icra edib və həmin vaxt aparılan kabinədaxili dəyişikliklərdən sonra Dövlət müfəttişi vəzifəsini yerinə yetirib.

1918-ci ilin 7 dekabrında Azərbaycan Parlamenti fəaliyyətə başlayanda Ə.Əmircanov Parlamentə üzv seçilib. O, parlamentdə bitərəflər qrupuna daxil olub və Maliyyə-büdcə komissiyasında çalışıb.

Ə.Əmircanov 1920-ci ilin aprelində Azərbaycan sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Türkiyəyə gedib. O,1948-ci ildə İstanbulda vəfat edib.

# MALİYYƏ NAZİRİ

Azərbaycanın görkəmli dövlət xadimi və parlamentin ilk üzvlərindən olan Əbdüləli bəy Şirəli bəy oğlu Əmircanov 1870-ci ildə Şəkidə anadan olmuşdur. O, 1876-1883-cü illərdə buradakı məktəbdə təhsil aldıqdan sonra Tiflisə getmiş və 1888-ci ildə Aleksandrovsk Müəllimlər İnstitutunu bitirmişdir.

Tiflisdəki Aleksandrovsk Müəllimlər İnstitutunda Ə.Əmircanov Azərbaycanın tanınmış maarif xadimləri olan S.M.Qənizadə, H.Mahmudbəyov, S.Əbdürrəhmanbəyovla birlikdə təhsil almış və onlarla yaxın dostluq münasibətində olmuşdur[1].

Əlavə edək ki, tanınmış milyonçu Şəmsi Əsədullayev 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar Ə.Əmircanovun təhsil aldığı Tiflis Müəllimlər İnstitutunda öz adına iki təqaüd təyin etdirmişdir.

Ə.Əmircanov Tiflisdə ali təhsilini bitirdikdən sonra Şəkiyə qayıtmış və burada şəhər məktəbində müəllim işləmişdir. O, həmin məktəbdə Azərbaycan dilində dərs keçirilməsi, rus dilinin öyrədilməsi, tarix, coğrafiya, təbiətşünaslıq və riyaziyyat fənlərinin tədris edilməsində böyük rol oynamışdır.

XIX əsrin axırlarında Ə.Əmircanov Lənkərana köçmüş, orada müəllim işləmiş və o dövrün tanınmış maarifçisi olan Teymur bəy Bayraməlibəyovla (1862-1937) birlikdə bir çox mədəni-maarif tədbirləri həyata keçirmişdir. Ə.Əmircanov Lənkəranda çalışarkən orada ailə həyatı qurmuşdur[2].

XX əsrin əvvəllərində Ə.Əmircanov Bakıya köçmüş, rus-Azərbaycan məktəblərində dərs demiş, dövlət idarələrində və müxtəlif şirkətlərdə mühasib olaraq çalışmışdır.

Ə.Əmircanov Bakıda o dövrdə fəaliyyət göstərən mədəni-maarif cəmiyyətlərinin işində yaxından fəallıq göstərmişdir. Belə cəmiyyətlərdən biri də Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti idi. Cəmiyyət 1905-ci ildə dövlət qeydiyyatına alınmışdı. Cəmiyyətin əsas yaradıcıları sırasında məşhur milyonçu Hacı Zeynalabdin Tağıyev olmaqla digər tanınmış ziyalılar da var idi: Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Həsən bəy Ağayev, Cəmo bəy Hacınski və digərləri[3].

Bu cəmiyyətin fəaliyyətinə xeyriyyə ilə yanaşı, mədəni və təhsil müəssisələrinin inkişafına kömək etmək də daxil idi. Cəmiyyət bu məqsədlə məktəblərin

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s. 79.
[2] M. Əliyev. Əbdüləli bəy Əmircanov. "Odlar Yurdu" qəzeti, №24, dekabr 1989-cu il.
[3] Azərbaycanın ilk qeyri-hökumət təşkilatları (materialları hazırlayan və redaktor N. Yaqublu). B., 2013, s. 16.



**Ə.Əmircanov.**

və tələbələrin dərsliklə təmin edilməsinə, həmçinin ən kasıb şagirdlərin məktəbə daxil olmasına və orta təhsil müəssisələrində təhsillərini tamamlamasına kömək göstərirdi.

Ə.Əmircanov bu cəmiyyətin işlərində fəallıq göstərən ziyalılardan biri idi.

Ə.Əmircanovun yaxından əməkdaşlıq etdiyi digər bir cəmiyyət isə Nəşri-Maarif Cəmiyyəti idi. Nəşri-Maarifin əsası 1906-cı ilin avqustun 1-də qoyulmuşdur. Cəmiyyətin təsisçiləri aşağıdakılar idi: Şəhər Dumasının üzvləri İsmayıl bəy Səfərəliyev, Məmmədhəsən Hacılı, Bakı tacirləri Əsədulla Əhmədov Ağahüseyn Tağıyev, Əliağa Həsənov, neft sənayesi sahibi Həsən Mustafayev. Cəmiyyətin fəaliyyətinin əsasını müsəlman əhalisi arasında savadın yayılmasına kömək məsələsi təşkil edirdi. Cəmiyyətin 1906-cı ilin noyabrın 24-də keçirilən toplantısında H.Z.Tağıyev İdarə Heyətinin sədri seçilmişdir.

"Nəşri-Maarif" Cəmiyyəti aşağıdakı işləri reallaşdırmağı da planlaşdırırdı: kitabxana-oxu zalı açılışı; pedaqoji kurslar və xalq müəllimlərinin hazırlığı üçün xüsusi təhsil müəssisələrinin təşkili; tamaşaların qoyuluşu; ədəbi axşamların keçirilməsi və s.

Qeyd edək ki, Ə.Əmircanov cəmiyyətin bu işlərində yaxından fəallıq göstərirdi.

**1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra Ə.Əmircanov da siyasi hadisələrə qoşuldu.** 1918-ci ilin 31 Mart hadisələrində erməni silahlıları Bakıda birbaşa S.Şaumyanın göstərişi ilə on mindən çox günahsız dinc insanı qətlə yetirdi. Həmin dövrdə qətliamın qarşısını almağa çalışan ziyalılardan biri də Ə.Əmircanov idi. O, 1918-ci ilin martında yaradılmış Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin də üzvü idi.

**1918-ci ilin 28 Mayında Azərbaycan Cümhuriyyəti yaradıldı** və F.X.Xoyski yaratdığı ikinci Hökumət kabinəsində (17.06.1918) Maliyyə naziri vəzifəsinin icrasını Ə.Əmircanova tapşırdı. Ə.Əmircanov Maliyyə naziri olarkən onun başçılığı ilə hökumət bankı da fəaliyyət göstərmişdir.

1918-ci ilin oktyabrın 6-da Nazirlər Şurasının Sədri F.X.Xoyskinin kabinə dəyişikliyindən sonra Ə.Əmircanov Maliyyə naziri vəzifəsindən uzaqlaşıb, Dövlət Müfəttişi vəzifəsini icra etdi.

**1918-ci ilin dekabrın 7-də Bakıda Azərbaycan Parlamenti fəaliyyətə başladı.** Ə.Əmircanov da parlamentə üzv seçilərək bitərəflər qrupuna daxil oldu. **O, Azərbaycan Parlamentinin üzvü olaraq iclaslarda fəal iştirak edir və dövlətin maliyyə, vergi sistemlərinə aid sənədlərin hazırlanmasında mühüm rol oynayırdı.**

1918-ci ilin dekabrında F.X.Xoyski hökuməti istefa verdiyindən Ə.Əmircanov Dövlət Müfəttişi vəzifəsini tərk etdi.

1919-cu ildə Ə.Əmircanov B.Cavanşirlə birlikdə xarici ölkələrlə ticarət əlaqələri yaratmaq üçün Bakıda "Dəyanət" şirkəti yaratdı.

O, cümhuriyyət dövründə bir çox mədəni-kütləvi tədbirlərin təşkilatçılarından biri olmuşdur.

Ə.Əmircanovun Azərbaycan Cümhuriyyəti dövründəki fəaliyyətinin öyrənilməsində onun parlamentdəki çıxışları mühüm rol oynayır. O, bu fəaliyyəti ilə yeni yaranmaqda olan dövlətin iqtisadiyyat, sənaye, gömrük və digər sahələrini inkişaf etdirməyə çalışmışdır. Bu sahələr üzrə yeni qanun layihələrinin hazırlanıb müzakirəyə çıxarılmasında böyük fəallıq göstərmişdir.

Bu mənada, Ə.Əmircanovun 1919-cu ilin iyunun 16-da parlamentin 48-ci iclasındakı çıxışı əhəmiyyətlidir. Əsasən, səkkiz məsələnin müzakirəsinin keçiriləcəyi iclasda Ə.Əmircanov iki sənədlə bağlı məruzə etmişdir: 1) Gəlir vergisindən azad olunan varidat miqdarının artırılması haqqında; 2) Maliyyə nəzarətində gömrük vergisi şöbəsinin yaranması haqqında[1].

Ə.Əmircanov birinci qanun layihəsini Azərbaycan və rus dillərində oxuyub parlament üzvlərinin diqqətinə çatdırdı. O, bildirdi ki, 1917-ci ilin 13 iyun qanununa görə, gəlir vergisindən azad olunan varidatın miqdarı 1000 rubl təyin edilmişdir. O, qeyd etdi ki, 1000 rublun dəyəri indi çox aşağı düşdüyündən, Maliyyə nazirinin təklifi əsasında bu rəqəm 5 min rubla qaldırılsın, həmin məbləğdən artıq olan varidatdan 187 min manat vergi alınsın. Ə.Əmircanovun təqdim etdiyi layihə maddələr üzrə səsə qoyulduqdan sonra qəbul edildi.

Ə.Əmircanov digər layihə ilə bağlı çıxışında dedi: "Üç növ vergi olduğuna görə, üç kargüzar lazımdır ki, vergi işlərinə baxsın. Biri vergi rüsumu vərəqi üzrə; biri də vergi rüsumu olmadan – vərəqəsiz; biri də gömrük. Keçmiş Maliyyə naziri Məhəmməd Həsən Hacınski parlamentə bir ərizə təqdim etmişdir ki, şöbə

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 722.

ikiyə bölünsün. Bu qanun parlamentdə keçməmişdir. Xüsusi şöbədə gömrük işlərindən ötəri "rüsumlu" və "rüsumsuz" şöbələrinin smetası parlamandan keçibdir. Təzə gömrük şöbəsindən ötəri ildə 14 min rubl istənilir. Maliyyə və büdcə komissiyası əksəriyyətlə bunu qəbul edib, parlamana göndərib. Bu, yarımillik pulun yarısıdır. Bu 10 min və 7 min də əvvəldən qəbul olunmuşdur. Mərkəzi gömrük idarəsinə və artırılmasına 14 min rubl istənilir"[2].

Layihənin müzakirəsində ilk çıxış edən Ağa Aşurov oldu. O, çıxışında gömrük işlərinin Maliyyə yox, Ticarət nazirliyinin nəzarətinə verilməsi vacibliyindən danışdı və Rusiyada da həmişə belə olduğunu qeyd etdi.

Ə.Əmircanov A.Aşurovun fikirləri ilə razılaşmadığını bildirərək, əlavə etdi ki, gömrüyə gəlir sahəsi kimi yanaşıldığından Maliyyə nəzarətinə verilib.

Qanun layihəsinin 5 maddəsi də qəbul olunduqdan sonra ikinci oxunuş növbəti iclasa saxlanıldı.

Parlamentin həmin iclasında bir məsələ də müzakirə edildi: "Maliyyə Nazirinə ikinci müavinin təyini xüsusunda". Bu qanun layihəsi ilə bağlı Ə.Əmircanov məruzə etdi. O, bildirdi ki, Maliyyə Nazirliyinin 1918-ci ilin 21 oktyabr ayında təsdiq edilmiş ştatında Maliyyə naziri üçün bir müavin nəzərdə tutulub. Hazırda Maliyyə nazirliyi mədənçilərə 605 milyon pul ayrılması, bank və kredit işlərinə də nəzarəti öz sahəsinə aid etdiyinə görə bir müavinin də artırılması vacibdir. Yəni müavinlərdən biri hökumət pulunu çıxarmaq və hazırlamaq işlərinə, digəri isə idarə və qeyri işlərə baxacaqdır"[3].

Bu qanun layihəsi də 24 lehinə, 13 əleyhinə və 9 bitərəf olmaqla qəbul edildi.

Azərbaycan Parlamentinin 1919-cu ilin 7 iyununda keçirilən 52-ci iclasında Ə.Əmircanovun məruzə etdiyi qanun layihələri aşağıdakılar idi: 1) Poylu stansiyasında Gömrük idarəsi təsis edilməsi haqqında; 2) Gömrük idarələrində anbar vergisi miqdarının artırılması haqqında; 3) Bakı gömrükxana ştatının yaradılması haqqında; 4) Gürcüstan Cümhuriyyətindəki Azərbaycan siyasi nümayəndəliyi nəzdində Maliyyə Nəzarəti Agentliyinin təşkili haqqında; 5) Ermənistanla sərhəddə Uzun Tala Gömrük idarəsi qarşısında gömrükxana təsisi haqqında; 5) Xəzinə xeyrinə buğ qazanlarından alınan verginin artırılması haqqında[4].

Bu qanun layihələri ilə bağlı müzakirələrdə Səməd Ağamalıoğlu, Rza bəy Ağabəyov, Hacı Kərim Sanıyev, Ağa Aşurov, Əhməd Cövdət çıxışlar etdilər. Gər-

---

[2] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 723.
[3] Yenə orada, s. 726.
[4] Yenə orada, s. 769-770.

gin müzakirələrdən sonra qanun layihələrinin ikinci oxunuşu qəbul olundu, 3-cü – sonuncu oxunuş növbəti iclasa saxlanıldı.

Bu faktlardan göründüyü kimi, Ə.Əmircanov maliyyə mütəxəssisi olaraq hökumət üçün faydalı işlər görürdü.

1919-cu ilin 22 sentyabrında parlamentin 76-ci iclası keçirildi. Ə.Əmircanov aşağıdakı qanun layihələrinin məruzəçisi idi: 1) Azərbaycandan xaricə çıxarılan spirtli içkilərdən (üzüm şərabı və pivə istisna olmaqla) alınan gömrük vergisinin miqdarı haqqında; 2) Balıq və balıq məhsulu ixracı vergisinin dəyişdirilməsi haqqında; 3) Pivə bişirilməsindən alınan aksiz vergisinin dəyişdirilmə miqdarının və pivə spirtinin artırılması haqqında; 4) Maliyyə Nazirliyi nəzdində qeyri-hissə şayiə vergilərinin (nakladnoy sbor – rusca – red.) və inhisar şöbəsinin təsisi haqqında; 5) Vergi müdiriyyətləri hissələrinin qapıçı tutulması üçün sənədə əlavə olaraq 7200 rubl ayrılması haqqında; 6) Hökumət məmurlarının maaşları haqqında.

Ə.Əmircanov dövlət üçün böyük əhəmiyyət daşıyan "Hökumət məmurlarına yeni maaş verilməsi haqqında"kı qanun layihəsini parlamentin müzakirəsinə təqdim edərək dedi: "Möhtərəm məbuslar! Güzəranın gündən-günə bahalaşması münasibəti ilə məmurların maaşı az olduğundan parlamentin fevral qətnaməsinə görə, Maliyyə naziri nəzarətində bir komissiya təşkil olunmuşdur. O komissiya fevraldan aprelə qədər qanuna baxıb, apreldə hökumətə təqdim etmişdir. Hökumət bunu qəbul etməyib, maliyyə-iqtisad komissiyasına verilib, bu komissiya da qanunu müzakirə edib verib hökumətə, hökumət qəbul edib, 9 avqustda verib Maliyyə-büdcə komissiyasına. Maliyyə-büdcə komissiyası da bunu müzakirə edib parlamentə təqdim edib. Mühüm məsələ olduğu üçün və gecikdirilməməsi ilə bağlı parlament mayın 12-də qərar qəbul edib ki, məmurların məvacibi martdan artırılsın. Mən burada bir şeyi unutdum, ərz edim ki, nəinki maaşların artması, bəlkə bir para məmurların məvacibinin bərabərləşdirilməsi də lazımdır"[5].

Ə.Əmircanov məruzəsində maraqlı faktlara toxunmuşdur ki, bu da yeni yaranmaqda olan dövlətin vətəndaşlara diqqətli olması məsələsidir. Onun çıxışından məlum olur ki, dövlətin qulluqçulara mənzil verməsi, onlara işıq və odun çatdırması, tədris müəssisələrinin yeməklə təchizatı nəzərdə tutulub. Bundan əlavə, Maarif Nazirliyi sahəsində olan müəllimlərin Pedaqoji Şurada katib və artıq vəzifələri olarsa, onlara xüsusi maaş verilməsi, dəmiryol qulluqçularına vaqonda getmək üçün yol pulunun ayrılması, nazir müavinlərinə maaşın 50 fai-

[5] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 120.

zindən artıq olmamaqla əlavələr çatdırılması məlumatlarını da Ə.Əmircanovun məruzəsindən öyrənmək mümkündür.

Parlamentin 1919-cu ilin 2 oktyabrında keçirilən 80-ci iclasında çıxış edən Ə.Əmircanov Azərbaycanın əsas sərvətlərindən olan balıqçılıq haqqında danışdı: "Bizim Azərbaycanımız o qədər balıq verir ki, onu Rusiyadan başqa, Avropa və Amerikaya da aparırdılar, yenə qurtarmırdı. Bir Bankə ilə Samur çayı arasında tutulan balıq bunu sübut edir, məsələn: 1916-cı ildə 1.950 000 put, 1917-ci ildə 2 milyon 500 min put xırda balıqlar tutulmuşdur. Bunların hamısı Rusiyaya gedib. Bankədən aşağı hərçəndi burada hesabı yoxdur, əlbət ki, ondan da çox balıq tutulur. Kutaisin və Gürcüstanın dolanacağı bütün-bütünə bu balıqdandır. Kürdən çıxan naqqa və som balıqlar var ki, müsəlmanlar yemir, onlar gərək xaricə çıxsın"[6].

Parlamentin 1919-cu ilin noyabrın 6-da keçirilən 93-cü iclasında Ə.Əmircanov "Ağstafa gömrükxanasının ştatının qüvvətləndirilməsi" haqqında olan qanun layihəsi ilə bağlı məruzə etdi. O, çıxışında qeyd etdi ki, gömrük işlərində Bakıdan sonra ikinci yeri Ağstafa tutur və malların gec baxılması ilə bağlı oradan şikayətlər daxil olur. Bu, hər şeydən əvvəl oradakı işçilərin sayının az olması ilə bağlıdır. Ə.Əmircanov qeyd etdi ki, bu problemin həll olunması üçün Maliyyə Nazirliyi layihə təqdim edib və oradakı qulluqçuların sayının artırılması təklif olunub. Yəni qulluqçuların sayı 15-dən 20-yə qədər artır, nəzarətçi isə əvvəl 3 idi, indi 5 olur.

Bu məsələnin müzakirəsində Camalbəyov, Ağa Aşurov çıxış etdilər. Təqdim olunan layihə 2-ci oxunuşda qəbul olundu və 3-cü oxunuşda növbəti iclasa saxlanıldı.

1920-ci ilin fevralın 2-də parlamentin 121-ci iclası keçirildi. Parlamentin iclasına müvəqqəti sədrliyi doktor Məmmədrza ağa Vəkilov etdi. İclasda ilk olaraq, Parlament Sədrinin müavini məsələsi gündəmə gəldi. Həsən bəy Ağayev səhhətindəki problemlərlə bağlı istefa verdiyindən onun yerinə bir şəxsin seçilməsi zəruriliyi ortaya çıxmışdı. Müsavat fraksiyası tərəfindən həmin vəzifəyə Məmməd Yusif Cəfərovun namizədliyi irəli sürüldü. Eyni qaydada M.Ə.Rəsulzadə, Ə.Əmircanov, Ə.Qarayev və Kravçenkonun da namizədliyi irəli sürülsə də, onlar öz namizədliklərini geri götürdülər. M.Y.Cəfərovun namizədliyi gizli şar üsulu ilə səsə qoyuldu. Lehinə 47 ağ şar və əleyhinə 5 qara şar verildi və beləliklə , M.Y. Cəfərov Parlament Sədrinin birinci müavini seçildi.

Ə.Əmircanov çıxışlarında, irəli sürdüyü fikirlərdə qətiyyətlik və konkretlik tərəfdarı idi. Onun bu mövqeyi parlamentdə qəbul edilir, diqqətlə yanaşılırdı.

[6] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 202.

1920-ci ilin martın 9-da parlamentin 132-ci iclası keçirildi. Bu iclasda çıxış edən Ə.Əmircanov dedi: "Bu sözlər ki, burada deyilir, bəlkə bir çoxu əsaslıdır. Bunların hamısı yaxşı sözlərdir. Amma yaxşı söz ilə qarın doymaz. Məmurlarımızın bir qismi-əzəmi vəzifəsini bacarıqlı ifa edir. Fəqət bunları da bir qədər təmin etmək lazımdır. Bu gün maaşların artırılması qəbul edilməzsə, bununla özünüz məmurları pis yola salarsınız. Hamısını rüşvətxor edərsiniz. Ona görə mən rica edirəm, hökumət və maliyyə-büdcə komissiyasının təklif etdikləri kimi, ümumi məmurların maaşını yanvarın 1-dən etibarən 80 faiz artırasınız"[7].

Bu Ə.Əmircanovun Azərbaycan parlamentində son çıxışı oldu.

1920-ci ilin aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra Ə.Əmircanov Türkiyəyə – İstanbula getdi.

O, 1920-ci illərdə Türkiyədə siyasi fəallıq göstərdi, burada yaradılmış Azərbaycan Milli Mərkəzinin üzvü oldu.

Ə.Əmircanovun 1920-ci illərdəki fəaliyyəti və əlaqələri ilə bağlı sənədlərə 1921-ci ildə rast gəlmək mümkündür. Bu sənədlərdən aydın olur ki, o, artıq 1921-ci ildə İstanbulda yaşayırdı və Xəlil bəyə yazdığı məktubda ağır vəziyyətdə olan mühacirlərə kömək etməsini xahiş edirdi.

X.Xasməmmədov 1921-ci ilin mayın 23-də ona yazırdı: "Çox hörmətli Əbdüləli bəy! Sizin 22 mayda yazdığınız məktuba cavab olaraq bildirirəm ki, bizim qaçqınlara kömək etmək üçün sərəncamımda heç bir vəsait yoxdur"[8].




**Ə.Əmircanova Türkiyədə verilmiş pasport.**

[7] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 843.
[8] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 3172, s. 1, i. 2, v. 20.

M.Ə.Rəsulzadənin yazdığı məlumatlarda da Ə.Əmircanovun Azərbaycan Milli Mərkəzinin üzvü kimi adı 1927-ci ildə mövcud olmuş birinci heyətdə qeyd olunmuşdur. Azərbaycan Milli Mərkəzinin 1934-1936-cı illərdəki siyahısında isə onun adı qeyd olunmamışdır[9].

1928-ci ilin iyununda M.Ə.Rəsulzadənin sədrlik etdiyi Azərbaycan Milli Mərkəzinin ikinci heyəti aşağıdakı mühacirlərdən ibarət olaraq formalaşdı: M.Ə.Rəsulzadə (sədr), Ə.Əmircanov (xəzinədar), Ə.M.Topçubaşov, M.Y.Mehdiyev, M.Məhərrəmov, X.Xasməmmədov, M.Vəkilli və Ə.Şeyxülislamov[10].

1928-ci ilin 17 iyununda Ə.Şeyxülislamov Parisdən Ə.Əmircanova məktub göndərmişdi. Həmin məktubda maliyyə problemlərinə toxunan Ə.Şeyxülislamov sonda yazırdı: "Bundan əlavə, mən başqa yolla Azərbaycandan məlumat almaq üçün orada kiminləsə əlaqə saxlamalıyam. Çox xahiş edirəm ki, bu məktubu alan kimi iyul ayı üçün mənə veriləcək pulun heç olmasa 1000 frankını teleqrafla göndərin"[11].

Ə.Əmircanovun Azərbaycan Milli Mərkəzindən uzaqlaşması məlumatı 1928-ci ilin 26 noyabrında Ə.M.Topçubaşovun Parisdə yaşadığı Sent-Kludan C.Hacıbəyliyə yazdığı məktubunda da bəhs edilmişdir. Ə.M.Topçubaşov yazırdı: "...M.Ə.Rəsulzadədən latın hərfləri ilə yazılmış məktub aldım. O, təsdiqləyir ki, baş vermiş narazılıq nəticəsində X.Xasməmmədov, Ş.Rüstəmbəyli, Ə.Əmircanov artıq Mərkəzin heyətindən çıxıblar. Ə.Əmircanov bu haqda Ə.Şeyxülislamova yazıb"[12].

Ə.Əmircanov 1937-ci ilin 17 mayında İstanbuldan Mir Yaqub Mehdiyevə göndərdiyi məktubda isə M.Ə.Rəsulzadə əleyhinə fikirlərini ifadə etmişdir. O, həmçinin Qafqazda yaşayan 9 milyonluq əhalinin 6 milyonunun müsəlman, 3 milyonunun isə gürcü və erməni olduğunu qeyd edərək yazırdı ki, Türkiyədəki türklər say etibarı ilə çox olmaqlarına baxmayaraq, müsəlmanların yox, gürcü və ermənilərin aparıcı mövqe tutduqlarına təəccüblənirlər.

Ə.Əmircanov məktubunun sonunda yazırdı: "Sizin "patriotluğunuza" inanıb müraciətlə xahiş edirəm ki, yeni Azərbaycan Milli Mərkəzinin siyahısının hazırlanmasına başlayasınız. Siz sədr olmalısınız. Türkiyədən kənar kimi istəyirsiniz cəlb edin. Buradan türklərin etibarını qazanmış adamları dəvət edin. Aşağıda-

---

[9] Из истории Азербайджанской эмиграции – сборник документов, произведений, писем. M., 2011, s. 250.

[10] Г.Мамулиа, Р.Абуталыбов. Страна огней в борбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945 гг. Париж – Баку-2014, s. 322.

[11] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 3172, s. 1, i. 4, v. 7-8.

[12] S.Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, f. 649, s. 3, i. 99, v. 1.

kıların cəlb olunmasını təklif edirəm: Mustafa Vəkilli, X.Xasməmmədov, Mirzə Hacızadə, Mir Əli, Sultanov və Əmircanov (yəqin ki, Lütfəli Əmircanov – red.). Mənim müraciətimə diqqət edərək vaxt az olduğundan tez cavab verin. Güclü Milli Mərkəzin təşkili vaxtı gəlib çatıb”[13].

Əbdüləli Əmircanov 1948-ci ildə İstanbulda vəfat etmişdir.




**Ə.Əmircanovun İstanbulda məzarı.**

[13] Из истории Азербайджанской эмиграции. М., 2011, s. 232.

# ƏHMƏD BƏY PEPİNOV

(1893 – 1938)



Tanınmış dövlət xadimi, maarifpərvər şəxsiyyət olan Əhməd bəy Pepinov 1893-cü ildə Gürcüstanın Axalkalaki mahalının Bolacur kəndində anadan olub. O, Tiflis Gimnaziyasında təhsil aldıqdan sonra Moskva Universitetində eyni vaxtda hüquq və iqtisadiyyat fakültələrində oxuyub.

Ə.Pepinov Moskvada təhsilini başa vurduqdan sonra Bakıya qayıdıb və Tiflisdə fəaliyyət göstərən Zaqafqaziya Seyminin üzvü seçilib. O, Seymdə Müsəlman sosialist blokuna daxil idi.

Ə.Pepinov 1918-ci ilin dekabrın 7-dən fəaliyyətə başlayan Azərbaycan Parlamentinin üzvü, eyni zamanda katibi idi. O, parlament iclaslarında qanun layihələrinin müzakirələrində böyük fəallıq göstərib.

Azərbaycan Nazirlər Şurasının Sədri N.Yusifbəylinin 1919-cu ilin dekabrın 24-də yaratdığı Hökumət Kabinəsində Ə.Pepinov Əmək və Əkinçilik naziri vəzifəsini 1920-ci ilin aprelin 1-nə qədər icra edib.

1920-ci ildə Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra Ə.Pepinov bir müddət Sovet Azərbaycanında mədəni-maarif və nəşriyyat işlərində çalışıb. Ə.Pepinov 1930-cu ildə həbs olunub və Ulyanovsk şəhərinə sürgünə göndərilib. O, 1937-ci ildə ikinci dəfə həbs edilərək 1938-ci ilin iyulunda güllələnib.

# ƏMƏK VƏ ƏKİNÇİLİK NAZİRİ

Azərbaycanın görkəmli dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin Əmək və Əkinçilik naziri Əhməd bəy Ömər oğlu Pepinov 1893-cü ildə Gürcüstanın Axalkalaki mahalının Bolacur kəndində anadan olmuşdur. Ə.Pepinov milliyyətcə məshəti türküdür. Əslində onun soyadı Ömərbəyovdur. Sonrakı siyahıyaalınmada gürcülər "Pepinov" yazıblar. Bu, çox ehtimal ki, Əhməd bəyin atasına məxsus meşəliyin, yaxud da oradakı bir ağacın gürcücə adından götürülüb.

Ə.Pepinov "Molla Nəsrəddin" jurnalının əsasını qoyanlardan biri, tanınmış jurnalist və ictimai xadim Ömər Faiq Nemanzadənin (1872–1938) bacısı oğludur. Ə.Pepinov dayısı Ö.F.Nemanzadədən ərəb-fars dilində yazıb-oxumağı öyrənmişdir. O, Axalkalakidə (Axaltsixi) anadan olsa da, uşaqlıq illəri Şamaxıda (dayısı Ö.F.Nemanzadə bir müddət orada müəllimlik edib) və Tiflisdə keçmişdir. O, dayısı Ö.F.Nemanzadənin himayəsi altında böyümüşdür. Onun Tiflisdə dayısı ilə yaşadığı evin birinci mərtəbəsində mətbəə yerləşib, ikinci mərtəbəsində isə Cəlil Məmmədquluzadə ilə qonşu olublar.

Geniş imkanlı ailədən olmayan Ə.Pepinov Tiflis Gimnaziyasında təhsil aldıqdan sonra, yəni universitetə daxil olana qədər fərdi dərs verərək özünün dolanışıq və ehtiyacını ödəmişdir.

Ə.Pepinovun qızı Sevda Pepinovanın sonradan mətbuata açıqlamasından aydın olur ki, atası Tiflis Gimnaziyasını qızıl medalla bitirmişdir[1].

Ə.Pepinov 1912-ci ildə Moskva Universitetinə daxil olaraq eyni vaxtda iki fakültədə – hüquq və iqtisadiyyatda təhsil almışdır.

O, Moskvada oxuyarkən M.Ə.Rəsulzadənin 1915-ci ilin oktyabrın 2-dən Bakıda nəşr edilən "Açıq söz" qəzeti ilə əməkdaşlıq etmiş, "Axalkalikili Əhməd Cövdət" imzası ilə yazıları çap olunmuşdur[2].

Ə.Pepinov Moskvada oxuyarkən azərbaycanlı tələbələrin hazırladığı Azərbaycan Həmyerlilər Təşkilatının əsas rəhbərlərindən də biri olmuşdur. Belə məlumat da vardır ki, Ə.Pepinovun yaxından iştirakı ilə tələbələr Moskvada Azərbaycan etnoqrafik konsert gecələri və bir çox mədəni tədbirlər həyata keçiriblər[3].

1917-ci ilin Fevral-Burjua inqilabından sonra Ə.Pepinov Tiflisdə Hümmət Sosialist Təşkilatının üzvü oldu. Tiflisdə gürcü inqilabçıları arasında menşe-

---

[1] "Günay" qəzeti, 26 fevral, 2000-ci il, №8.

[2] M.Əliyev. Əhməd bəy Pepinov. "Odlar Yurdu" qəzeti, №15 (446), avqust 1989.

[3] Yenə orada.

vik ideyalarının üstünlük təşkil etməsi səbəbindən o, bu cərəyana da meyil göstərmişdir.

Əsası 1904-cü ildə qoyulmuş Hümmət Təşkilatı 1919-cu ilin iyulunda parçalansa da, Ə.Pepinov sağ hümmətçi mövqeyində qalmışdır. Sağ hümmətçilər Azərbaycanın gələcəyini müstəqil ölkə olaraq, lakin sosial-demokrat ideyası istiqamətində görürdülər. Lakin sol hümmətçilər, yəni bolşevik düşüncəli olanlar Rusiyanın tərkibində və vahid mərkəzdə olan kommunist ölkə kimi yanaşırdılar.

Ə.Pepinov 1919-cu ilin yanvarın 29-dan sentyabrın 15-dək 105 sayı çap edilmiş parlamentdəki sosialist fraksiyasının (müsəlman sosialistlər, hümmətçi menşeviklər və müsəlman sağ eserlər) orqanı olan "Zarya" adlı rusdilli gündəlik ictimai-siyasi qəzetin fəal əməkdaşlarından olub[4].

Ə.Pepinovun Moskva Universitetində təhsil alarkən eser partiyası ilə yaxınlığı haqqında da məlumat vardır.

Ə.Pepinov 1917-ci ilin sonlarında Bakıya qayıtmış, 1918-ci ilin fevralında Tiflisdə fəaliyyətə başlayan Zaqafqaziya Seyminin üzvü olmuşdur.

1918-ci ilin 28 mayında Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra Ə.Pepinov dövlət quruculuğunda yaxından iştirak etmişdir.

1918-ci ilin iyunun 17-də Azərbaycan Cümhuriyyəti nümayəndələrindən ibarət olan bir heyət İstanbula göndərildi. M.Ə.Rəsulzadənin başçılıq etdiyi bu heyətin tərkibində aşağıdakılar var idi: Xəlil bəy Xasməmmədov, Aslan bəy Səfikürdski, Əhməd bəy Pepinov.

Nümayəndə Heyəti iyunun 24-də İstanbulda oldu. Burada Almaniya, Avstriya, Macarıstan, Türkiyə, Bolqarıstan ölkələri ilə yanaşı, Qafqazdan olan Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar İttifaqının da nümayəndələrinin iştirakı ilə konfrans keçirilməsi nəzərdə tutulurdu.Bu, Ə.Pepinovun Azərbaycan Cümhuriyyətinin rəsmisi olaraq ilk səfəri idi[5].

Ə.Pepinov Azərbaycan Cümhuriyyəti dövründə Nazirlər Şurasının Sədri N. Yusifbəylinin təşkil etdiyi ikinci kabinədə (24 dekabr 1919-cu il) Əmək və Əkinçilik naziri vəzifəsinə təyin edildi. Bu kabinə 1920-ci ilin aprelin 1-nə qədər çalışıb sonra istefaya getdiyindən Ə.Pepinov da nazir vəzifəsindən uzaqlaşdı.

Ə.Pepinov parlamentdə fəallıq göstərməklə yanaşı, 1918-1920-ci illərdə Bakıda təntənəli "Azərbaycan gecələri" konsertinin və bir çox tədbirlərin də təşkilatçısı olmuşdur[6].

---

[4] R. Hüseynov. Millətin zərrəsi. B., 2010, s. 267.
[5] N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 2012, s. 73.
[6] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 84.

Ə.Pepinov Azərbaycan Cümhuriyyəti dövründə müxtəlif dövlət tədbirlərində iştirak etmişdir. 1919-cu ilin martın 23-də Azərbaycan qoşun hissələrinin Gəncədə hərbi nümayişi keçirilmişdir. Həmin tədbirdə F.X.Xoyskinin başçılıq etdiyi hökumət və parlament üzvləri ilə yanaşı, sosialistlər fraksiyasından Ə.Pepinov da iştirak edirdi.

Ə.Pepinov 1918-1920-ci illərdəki fəaliyyətində Sosialistlər firqəsi ilə Hümmətin həm də təmsilçisi olaraq çıxış edirdi. 1919-cu ilin sentyabrın 27-də onun S.Ağamalıoğlu ilə birlikdə Qazax qəzasında keçirilən Kəndli qurultayında iştirakı haqqında "Bednota" qəzetinin 1919-cu il 8 oktyabr tarixli 15-ci sayında məlumat verilmişdir. Ə.Pepinovun Kəndli qurultayında iştirakı onun həm də Hümmətə yaxınlığını təsdiqləyirdi[7].

Ə.Pepinov rus dilində nəşr edilən "Zarya" qəzetinin də redaksiya heyətinin üzvü idi.

**1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamenti fəaliyyətə başladı.** Ə.Pepinov həmin dövrdə parlamentin üzvü olmaqla yanaşı, parlamentin katibi vəzifəsini də icra edirdi.

Qeyd edək ki, Ə.Pepinov cümhuriyyət dövründə yalnız parlamentdə deyil, dövlət üçün əhəmiyyətli olan digər sahələrdə də fəallıq göstərirdi. 1919-cu ilin yanvarın 8-də Azərbaycan Parlamenti tərəfindən Avropaya Sülh Konfransına göndərilən nümayəndələrin (M.Hacınski, Ə.Ağayev, Ə.Şeyxülislamov, C.Hacıbəyli, M.Məhərrəmov, M.Mehdiyev) yola salınma mərasimində dəmiryolu vağzalına toplaşanlar qarşısında M.Ə.Rəsulzadə ilə yanaşı Ə.Pepinov da çıxış etdi.

"Azərbaycan" qəzeti bu haqda yazırdı: "Sosialistlər ittifaqı adından Əhməd Cövdət cənabları bir nitq edərək, Azərbaycan demokratiyası tərəfindən bütün Avropa və cahan demokratiyasına salam yetirmələrini və dünya füqərayi-kasibəsindən bizə amal və arzularımızın hüsuli, bəşarəti gətirmələrini arzu ediyor"[8].

Ə.Pepinov Azərbaycan Parlamentində Sosialistlər fraksiyasına daxil idi. O, parlamentdə ilk çıxışını 1918-ci ilin dekabrın 10-da keçirilən 2-ci iclasda etdi. Ə.Pepinov çıxışında mənsub olduğu fraksiyanın yeni yaradılan parlamentdəki fəaliyyətini belə açıqladı: "Biz sosialistlərin parlamentə girməkdə məqsədi parlament ideyasını və Məclisi-Müəssisanın tezliklə çağırılmasını bu kürsüdən müdafiə etməkdir. Bu məqsəd ilə biz Hökumətin yürüdəcəyi siyasət haqqında bu surətlə bəyan ediriz. Firqə və fraksiya nümayəndələrindən mürəkkəb və müştərək bir hökuməti qəbul edir və onun proqramına demokratik əsaslara müva

[7] L. Şüküroğlu. Cümhuriyyət rəhbərləri repressiya məngənəsində. I c. B., 2000, s. 227.
[8] "Azərbaycan" qəzeti, 10 yanvar 1919, №84.



Ə.Pepinov.

fiq olmasını arzu ediriz. Gələcək Hökumətin əvvəlinci vəzifəsi Azərbaycan Cümhuriyyətinin istiqlalını bütün qüvvəsi ilə müdafiə etməkdir. Biz inanırıq ki, azəri türklərinin istiqlalı təyin və təsdiq olunandan sonra "yalançı millətçilik" ortadan çıxar və indiki əsrin məhsulu olan sinif ayrılığı və sinif mübarizəsi asanlıqla bizim də camaatın içinə girər ki, bu da ümumi demokratiyanın xeyrinədir"[9].

Ə.Pepinov çıxışında yaranacaq hökumətin xarici siyasət sahəsində Şimali Qafqaz Cümhuriyyəti, Gürcüstan Cümhuriyyəti, Ermənistan Cümhuriyyəti ilə siyasi, iqtisadi əlaqələri saxlamağın vacibliyini bildirdi. O, bu günə qədər ölkədə hüquqi bir həyatın olmadığına toxunaraq gələcək hökumətdən daxildə qanuna əsaslanan idarəçilyin formalaşmasına, azadlığın olmasına şərait yaratmağı tələb etdi.

Ə.Pepinov Azərbaycan Parlamentində ilk olaraq qadınların hüquqlarını müdafiə edir, onlara kişilərlə bərabər haqq və səlahiyyətin verilməsini vacib sayırdı.

Parlamentin 1918-ci ilin 15 dekabrında keçirilən 3-cü iclasında Mir Yaqub Mehdiyev İttihad fraksiyası tərəfindən Əhməd Pepinovun (bəzi iclaslarda o, Əhməd Cövdət kimi təqdim olunub) parlamentə katibliyini irəli sürdü və M.Ə.Rəsulzadə də Müsavat fraksiyasının bu təklifi dəstəklədiyini bildirdi[10].

Parlamentin 1918-ci ilin 30 dekabrında keçirilən 6-cı iclasında isə Ə.Pepinov general Tomsonun qəzetdə çap olunan bəyannaməsi haqqında danışdı. O, bildirdi ki, general Tomson buraya öz hökumətinin razılığı ilə gəlib və müharibə zamanı "müttəfiqlər demokratiyası xırda millətlərə hürriyyət və azadlıq verəcək" demişdi. Ə.Pepinov qeyd edir ki, müttəfiqlərin nümayəndəsi olan Tomson da Azərbaycan istiqlalını tanımaya bilməzdi. Çünki generala bu tapşırığı ingilis və Ümumcahan demokratiyası verib[11].

Azərbaycan Parlamentinin 1919-cu ilin mayın 5-də keçirilən 33-cü iclasında çıxış edən Ə.Pepinov çox vacib bir məsələyə toxundu: "Bakının nefti Azərbaycanın səadət mənbəyidir. Ola bilər ki, fəlakət mənbəyimiz də olsun. Səadət

[9] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 66.
[10] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 1, v. 29-36.
[11] Yenə orada, v. 60.

mənbəyimizdir, onun üçün Maliyyə Naziri 1 milyard mədaxilimiz olacağını söylədi. Bir çox mədənlərimiz var, lakin o mədənlərdən istifadə edə bilmirik. Bəlkə hökumət hər ay sandığından 30, bəlkə 60 milyon sərf edir. Biz mədənlərimizin hasilatını göndərə bilmərik. Onun üçün cibimizdən xərcləyirik. Əgər bu yolda çalışılsa idi, Bakının nefti Rusiya daxilinə gedər, Rusiya pulu da vətənimizə axardı. Fəqət ingilislər tərəfindən bu yol qapanıbdır"[12].

Ə.Pepinov son fikrini belə söylədi: "Sabahkı halımız bugünkündən çətin olacaq. Bunun yeganə çarəsi Rusiya ilə ticarət münasibətimizi düzəldib, neft aparmaq üçün ingilislərdən qəti olaraq yol verilməsini tələb etməliyik. Daxilimizdə isə bu ilin və keçən ilin gəlir vergisini toplamalıyıq. Belə olarsa, bir yana çıxmaq mümkün olar"[13].

1919-cu ilin mayında Bakıda vəziyyət olduqca ağırlaşdı və şəhəri fəhlə tətilləri bürüdü. Azərbaycan Parlamentinin mayın 6-da keçirilən 34-cü iclasında bu məsələ geniş müzakirə edildi. Müsavat fraksiyasından çıxış edən M.Ə.Rəsulzadə bu tətilin iqtisadi xarakter daşımadığını, siyasi olduğunu, təhlükənin Rusiyadan qaynaqlandığını, istiqlaliyyətin müdafiəsinin Hökumət tərəfindən təşkil olunmasını bildirdi.

M.Ə.Rəsulzadədən sonra N.Yusifbəyli çıxış edərək tətilin siyasi olduğunu və bunu həmin adamların özlərinin təsdiqlədiyini qeyd etdi.

N.Yusifbəylidən sonra Ə.Pepinov çıxış etdi. O, dedi: "... Bu gün Azərbaycan paytaxtı fövqəladə əhval içərisindədir. Biz camaat vəkilləriyik. Hökumətin borcudur söyləsin və biz də öz sözümüzü deyək ki, bu məsələyə nə cür baxırıq, münasibətimiz, hərəkətimiz nə cür olacaqdır. Məmməd Əmin əfəndi burada tətil xüsusunda tətilin nə cür olduğunu və mahiyyətini söylədi. Mən deyirəm ki, hər baş verən hərəkətin nəticəsini doğru eləməkdən ötrü və ya doğru olmamasını isbat eləmək üçün öz hərəkətimizin doğruluğunu ortaya qoymalı və işimizi düzgün aparmalıyıq"[14].

**Ə.Pepinov çıxışında tətil edənlərin içərisində "həm sağdan, həm soldan" qorxulu ünsürlərin olduğunu, "Denikin təhlükəsi" yarandığını, onların "Azərbaycanı Rusiya mütləqiyyətinə yaxınlaşdırmaq" istədiklərini və həmin qüvvələrlə mübarizənin vacibliyini qeyd etdi. O, çıxışını belə yekunlaşdırdı: "Kim ki bizi əsarət altına almaq istəyirsə, istər sağdan olsun, istər soldan, onun əleyhində olmalıyıq"[15].**

[12] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 487.
[13] Yenə orada, s. 489.
[14] Yenə orada, s. 518.
[15] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 521.

**Parlamentin 1919-cu ilin mayın 12-də keçirilən 36-cı iclasında isə Ə.Pepinov istiqlalı müdafiə etməyin vacibliyindən danışdı: "Parlaman və Hökumət vaxtın əhəmiyyətini dərk edib, bütün varlığı ilə istiqlalımızı müdafiə və təmin etməyə çalışmalıdır. Çar əsarətindən yeni qurtarmış Azərbaycan xalqı yeni əsarətə, Avropa əsarətinə girə bilməz!"**[1].

**1919-cu ilin mayın 28-də Azərbaycan Parlamentinin 42-ci fövqəladə təntənəli iclası keçirildi. Azərbaycan istiqlalının birillik bayramı münasibəti ilə ilk olaraq parlament sədrinin müavini H.Ağayev çıxış etdi. O, Azərbaycan istiqlalının əhəmiyyətindən danışdıqdan sonra bu tarixi hadisə və tarixi günün yaddan çıxmaması üçün bu günün şərəfinə bir abidə ucaldılmasını, bundan ötrü yaranan fonda hər bir məbusun bir günlük maaşını bağışlamasını və ilk olaraq özünün bu addımı atdığını söylədi. Parlament üzvləri H.Ağayevin bu çıxışını ayaqüstə, sürəkli alqışlarla qarşıladılar.**

H.Ağayevdən sonra M.Ə.Rəsulzadə, sonra isə Ə.Pepinov çıxış etdi. O, dedi: "Möhtərəm məbuslar! Bu gün Azərbaycan xalqının və Bakı şəhərində Azərbaycan demokratiyasının zənciri-əsarətdən qurtulub hürr yaşamağa ayaq basdığı gündür. Bu gün xalq avazələr ilə öz milli hissiyyatlarını göstərməkdədir. Bu, açıq bir dəlildir ki, hər bir insan hürr olduğu kimi, hər bir millət zəhmətkeşləri, hər bir xalq da hürr yaşamaq və hürr keçinmək amanındadır. Fəqət dünyaya nəzər yetirsək görərik ki, millətlərin bəlkə çoxu başqalarının zənciri-əsarətində, ayaqları altında inləməkdədir. Azərbaycan xalqı iki il bundan əvvəl həmin zəncir altında idi... Budur, bugünkü Azərbaycan xalqı, "hər bir millət öz müqəddəratını həll edə bilər" şüarı səmərəsinin bir illiyini bayram edir"[2].

**Ə.Pepinovun son sözləri parlamentdə sürəkli alqışlarla qarşılandı: "Yaşasın millətlərin təyini-müqəddəratı! Yaşasın Azərbaycan istiqlalı! Rədd olsun Azərbaycanın düşmənləri!"[3].**

Parlamentin 1919-cu ilin iyunun 5-də keçirilən 45-ci iclasında Nazirlər Şurasının Sədri N.Yusifbəyli Denikin təhlükəsi ilə bağlı yaranmış vəziyyət haqqında məlumat verdikdən sonra Ə.Pepinov çıxış edərək dedi: "Keçmiş rus generalları Könüllü ordu adı ilə gah Sibirdə, gah Kubanda, Donda birləşməyə başladılar. Onlar yaxşı bilirdilər ki, Rusiya çarizmini yıxan Rusiya demokratiyasını üzmədikcə istibdad öz zəncirlərini xırda millətlərin boynuna vura bilməyəcək. Ona görə ən əvvəl işləri rus demokratiyası ilə çarpışaraq bir neçə yerlərdə

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 579.
[2] Yenə orada, s. 629-630.
[3] Yenə orada, s. 630.

hakimiyyətlərini qura bilmişdirlər. Lakin Rusiya demokratiyasının əlində olan qüvvələr o qədər böyükdür ki, yerə sərilmiş generallar bir də o qüvvəyə qarşı dura bilməzlər. Fəqət onların köməyinə Avropa imperialistləri, Avropa yoldaşları qoşub silah ilə, pay ilə yardım edirlər. Onlar bilirdilər ki, bu gün Rusiyada azad olanların göstərdikləri misallar bütün dünyaya keçəcəkdir. Hər yerdə zəhmətkeşlər, məhkum millətlər zülmdən qurtarmaq istəyəcək. Ona görə Avropa vətəndaşları, imperialistləri bütün öz silahlarını, toplarını, pullarını verib əsarətdən qurtaranları yenidən rus generalları vasitəsi ilə zəncirə almaq və Rusiya istibdadını qurmağa çalışdılar”[4].

Ə.Pepinov çıxışında düşmən qüvvələrin mövcudluğu, xalqın qazandığı azadlığa təhlükə yarada biləcəyini və artıq Dağıstanın bu taleyi yaşadığını qeyd etdi.

Parlamentin 1919-cu ilin avqustun 11-də keçirilən 64-cü iclasında Azərbaycan vətəndaşlığı ilə bağlı məsələ müzakirə edildi. Ədliyyə Naziri A.Səfikürdski “Bir evdə kişi Azərbaycan vətəndaşıdırsa, onun həyat yoldaşı başqa ölkənin vətəndaşı olmamalı, hər ikisi Azərbaycan vətəndaşı olmalıdır” fikrini irəli sürdü.

Ə.Pepinov çıxış edərək bu fikrə etirazını bildirdi və bunu başqa ölkə vətəndaşının hüquqlarının pozulması kimi qiymətləndirdi.

Azərbaycan Parlamentinin 1919-cu ilin sentyabrın 22-də keçirilən 76-cı iclasında “Azərbaycan Hökumət Darülfünunun (universitet – red.) təşkili haqqında qanun layihəsi” müzakirə edildi.

Müzakirədə Ə.Pepinov darülfünunda yaradılacaq şurada tələbələrin də nümayəndələrinin iştirakı vacibliyini nəzərə çatdırdı. O, təklif etdi ki, həmin şura elmi məsələlərdən əlavə, inzibati və qeyri məsələlərə də baxsın. Odur ki, həmin şurada tələbələrin 3-4 nümayəndəsi mütləq olmalıdır[5].

Ə.Pepinovun bu təklifi səsə qoyulsa da, qəbul olunmadı.

Azərbaycan Parlamentinin növbəti 81-ci iclasında (9 oktyabr 1919-cu il) bir qanun layihəsi müzakirə olundu: “Hökumət əleyhinə və hökumət əsaslarına sui-qəsd edənlər və üsyançıların məsuliyyəti haqqında” layihə ilə bağlı əsas məruzəni Şəfi bəy Rüstəmbəyli etdi. Onun məruzəsindən sonra S.Ağamalıoğlu, R.Ağabəyov çıxış etdilər.

Layihə haqqında danışan Ə.Pepinov bu fikri önə çəkdi: “Biz əsli Rusiyadan qalmış qanunları işlədirik. Onlardan bir çoxu bizim üçün yaramadığından dəyişməsi və atılması lazımdır, belə olan surətdə bu gün bu qanunu düzəltmək üçün

---

[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 672-673.
[5] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 116.

geri göndərməyin heç bir əhəmiyyəti yoxdur. O qanun da vardır ki, kim padşah və xanədana qəsd edirsə, ona cəza verilməlidir”[6].

Ə.Pepinov çıxışında qeyd etdi ki, o, bu qanunun qəbulunu inkar etmir, sadəcə bu gün üçün daha vacib olanlarının müzakirə və təsdiqini önəmli sayır: “Biz, ümumiyyətlə, nəzarətdən parlamana başqa, böyük lüzumlu qanunların gəlməsini istərdik”.

Parlamentin 88-ci iclasında (25 oktyabr 1919-cu il) “Mətbuat nizamnaməsi haqqında” qanun layihəsi müzakirə edildi. Müzakirədə M.Ə.Rəsulzadə, S.Ağamalıoğlu, A.Kazımzadə, Ə.Qarayev, İ.Əbilov çıxış etdilər.

Müzakirədə Ə.Pepinov fikrini belə bildirdi: “Məsələnin mahiyyəti üzrə natiqlər çox danışdılar. Artıq o xüsusda danışmayacağam. Fikrim Məmməd Əmin əfəndinin sözlərinə cavab verməkdir. O, dedi ki, bu qanun tənzimata aiddir. Əgər onun içərisində öylə maddələr var ki, Siz onu bəyənməyirsiniz, göstərin, dəyişək və qəbul edək. Bizi başqa ayıran şey varsa, o da hürriyyəti mətbuata sədd çəkmək lazımdır, ya yox. Bura mətbuata sədd çəkmək qanunu gəlməmiş, ancaq tənzimat qanunu gəlmiş. Yoldaşımız Baqradze doğru söylədi ki, mətbuatın iki dövrü var: biri mətbuat çıxandan qabaq, biri də sonra. Bu qanun mətbuat dünyaya gəlməzdən qabaqkı qanundur, prinsip və əsas üzrə bizim ayrılığımız yoxdur”[7].

Ə.Pepinovdan sonra çıxış edən M.Ə.Rəsulzadə onun fikrindəki bəzi məqamlara izah verdi.

Azərbaycan Parlamentinin 91-ci iclasında (1 noyabr 1919-cu il) “Ziraət və əmlak nəzarətindəki etirazi-tənzimatının 1919-cu il ştat və məsarif smetası haqqında” qanun layihəsi” müzakirə olundu və Ə.Pepinov əsas məruzəni etdi. O, mərizəsində vacib məqamlara toxundu: “Bizə lazımdır ki, xırda məktəbləri məmləkətin hər bir guşəsində açalım və açılması çarələrini də düşünəlim. Çünki məktəblərimiz ancaq bu sayədə milliləşə bilər. Yoxsa, indiki şəkli ilə hətta 4-5 ilə də belə milliləşdirmək olmayacaqdır. Göyçayda məktəb açılmasına zidd deyiləm. Fəqət onu da təklif edirəm ki, Nəzarət (nazirlik – red) xırda məktəblərə əhəmiyyət verib düşünsün. Bu xüsusda məmləkətin ehtiyacını nəzərə alaraq maarif planı hazır eləsin, biz də biləlim”[8].

Parlamentin 100-cü iclasında (24 noyabr 1919-cu il) “600 milyon rubl dövlət kağız pulu buraxılması haqqında” olan qanun layihəsinin müzakirəsi keçirildi.

---

[6] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 213.
[7] Yenə orada, s. 338.
[8] Yenə orada, s. 391.

Əsas məruzəni Rza bəy Ağabəyov etdi. O, parlament üzvlərini məlumatlandırdı ki, hökumətin buraxdığı 600 milyon pul 1919-cu ilin iyununda qurtarıb və yenidən 600 milyon pul buraxılması üçün parlamentdən icazə istənilir.

R.Ağabəyovdan sonra Ə.Qarayev, M.Əfəndizadə, A.Aşurov çıxış etdilər. Növbəti çıxış edən Ə.Pepinov oldu. Qeyd etdi ki, müharibə nəticəsində başqa ölkələrdə olduğu kimi, bizdə də böhran yaranmışdır və bu, etiraf edilməlidir. Lakin o, çıxışında hökuməti də günahlandırıb dedi: "Burada etiraf etdilər ki, hökumət maliyyə siyasətində ifrata qədər varmışdır. Maliyyə işlərini yeni hala salmaq əvəzinə, hökumət köhnə siyasəti davam etdirməkdədir. Yeni tədbirlərə müraciət olunmamışdır. Hökumətin təqsiri də buradadır"[9].

Bu Ə.Pepinovun Azərbaycan parlamentində son çıxışı oldu.

**1920-ci ilin aprelin ortalarında Ə.Pepinov R.Vəkilovla (parlament üzvü) birlikdə Azərbaycan Parlamentinin tapşırığı əsasında Sovet Rusiyası ilə danışıqlar aparmaq məqsədi ilə Vladiqafqaza getdi. Bu danışıqlarda məqsəd Samur körpüsünün şimalında dayanmış XI Qızıl Ordunun Bakı üzərinə hücumunu gecikdirmək və nizami Azərbaycan ordusu hissələrinin Dağlıq Qarabağdan Bakıya təcili qayıdışını təmin etmək idi.**

**Məlum olduğu kimi, 1920-ci ilin martında ermənilər Dağlıq Qarabağda Azərbaycan əleyhinə üsyan qaldırdığından Milli ordu hissələri oraya göndərilmişdi**[10].

Lakin XI Ordu 1920-ci ilin aprelin 27-sində Azərbaycan ərazisinə daxil olub, ölkəni işğal etdi.

Ə.Pepinov isə Bakıya işğaldan bir müddət sonra qayıtdı. Bu müddətdə o, Şimali Qafqazda – Pyatiqorskda olmuş, bolşeviklərin nümayəndəsi S.Orconikidze ilə aprelin 24 və 25-də danışıqlar da aparmışdı. Lakin Rusiya bolşeviklərini və XI Ordunu ləngitmək mümkün olmamışdı

S.Orconikidze isə onun haqqında Bakıya zəmanət məktubu göndərib, ondan kadr kimi faydalanmağı lazım bilmişdir. Ə.Pepinov çox ehtimal ki, bu məktubdan sonra 1920-ci ilin mayın 4-də Xarici İşlər Komissarlığında informasiya şöbəsində kargüzar işinə göndərildi. Bir müddət sonra Əmək Komissarlığında Kollegiya üzvü olaraq çalışmış, oradan isə İctimai-Təminat Komissiyasında Qaçqınlar məsələsi ilə məşğul olmuşdu. 1922-ci ildə o, Xalq Maarif Komissarlığına göndərilərək burada 1930-cu ilə qədər – həbs olunana qədər işlədi. Bu

[9] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 507.
[10] M. Əliyev. Əhməd bəy Pepinov. "Odlar Yurdu" qəzeti, №15 (446), avqust 1989.

sistemdə Ə.Pepinov Dövlət Nəşriyyatının texniki şöbəsinin müdiri, nəşriyyat direktoru, komissarlığın plan şöbəsinin müdiri vəzifələrini icra etdi[11].

Ə.Pepinov Azərbaycan Dövlət Nəşriyyatına rəhbərlik etdiyi dövrdə aşağıdakı əhəmiyyətli kitablar çap olundu: "Türk ədəbiyyatı tarixi", "Azərbaycan ədəbiyyatı tarixi" (müəllif İsmayıl Hikmət); "Türk dilçiliyinə giriş", "Türk dili və ədəbiyyatının metodikası" (müəllif Bəkir Çobanzadə); "Sicimqulunamə" şeirlər toplusu (müəllif Əli Nəzmi); "Azərbaycan ədəbiyyat tarixi" (müəllif Firidun bəy Köçərli); "Azərbaycan ədəbiyyatı" silsiləsindən ayrı-ayrı naməlum klassiklərimiz haqqında ilk dəfə xalqa təqdim olunan kitabçalar; "Aran köçü", "Namus davası" (müəllif Hacı Kərim Sanılı); "Qadınlarımızın vəziyyəti" (müəllif Yusif Vəzir Çəmənzəminli); Müxtəlif tədris proqramları[12].




**Ə.Pepinov həbsxanada (sovet dövrü).**

Ə.Pepinov ilk dəfə 1930-cu ilin dekabrında həbs edildi. Əvvəl onun haqqında Azərbaycan SSR Siyasi İdarəsi Kollegiyasının məhkəməsi tərəfindən Milli Mərkəzin üzvü kimi güllələnmə qərarı çıxarılmış, 4 ay sonra isə Zaqafqaziya DSİ yanında məhkəmə "Azərbaycan Milli Mərkəzi işi"nə yenidən baxmış, onun cəzası 10 il işlə əvəz olunmuşdur.

Sonradan – 1933-cü ilin iyunun 8-də işə yenidən baxılmış və qalan 5 illik həbsin Ulyanovskda çəkilmə qərarı verilmişdir.

Ə.Pepinov 1930-cu ildən 1933-cü ilin iyununa qədər Bakıda Xalq Daxili İşlər Komissarlığının həbsxanasında saxlanıldı. Həmin vaxtdan o, 1936-cı ilə qədər Ulyanovsk şəhərinə sürgünə göndərildi.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin arxivində Ə. Pepinovun istintaqı ilə bağlı PR-28006 saylı iş saxlanılır. İstintaq işinin 1937-ci ilin 7 sentyabrında başlayıb və 1938-ci ilin martın 15-də yekunlaşdığı qeyd edilib[13].

---

[11] R. Hüseynov. Millətin zərrəsi. B., 2010, s. 312.

[12] Yenə orada, s. 283.

[13] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi,PR 28006 saylı Ə.Pepinova aid istintaq işi, v.1.

Ə.Pepinov ilk dəfə həbs edilərkən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 64, 65, 66-cı maddələri ilə mühakimə olunurdu: "1) Azərbaycan Milli Mərkəzinin əsas rəhbərlərindən biri kimi Təhsil Komissarlığında tutduğu vəzifədən sui-istifadə etməklə ideoloji cəbhədə ziyankarlıq törətməkdə; 2) əksinqilabi Mühacir Mərkəzlə birbaşa əlaqədə və onlardan gizli ədəbiyyat almaqda; 3) ədəbiyyat, incəsənət, həmçinin təhsil müəssisələrində gənclər arasında millətçi ovqatın yayılmasında; 4) öz nüfuz və yüksək vəzifəsi ilə təşkilatın tədbirlərinin həyata keçirilməsində ilhamlandırıcı olmasında; 5) Təşkilatın digər üzvləri ilə birlikdə üsyanın hazırlanmasında iştirak etməsində[14].

Ə.Pepinov 1936-cı ilin mayında sürgün müddəti başa çatdıqdan sonra Bakıya gəlmiş, yaxınları ilə görüşmüşdür.

1936-cı ildə Ə.Pepinov Qazaxıstana işləməyə getdi. O, Qazaxıstan KP(b) MK-nın katibi Mirzoyanın təklifi ilə Qazaxıstan Xalq Komissarları Sovetinin sədr müavini Teymur Əliyevə işlə əlaqədar müraciət etdi. T.Əliyev onun iqtisadçı olaraq işə düzəlməyinə köməklik göstərdi. Həmin il Mirzoyan tərəfindən dəvət olunan azərbaycanlılar işdən azad edildiyindən Ə.Pepinov yenidən Ulyanovska qayıtmağa məcbur oldu, burada Sənaye Həmkarları İttifaqında plan-iqtisadçı vəzifəsində işlədi və bu müddətdə Krasnoqvardeysk küçəsi, ev 24, mənzil 1-də yaşadı.

Ə.Pepinovun ikinci dəfə həbs edilməsi qərarını Dövlət Təhlükəsizlik Komissarı Sumbatov 7 iyul 1937-ci ildə təsdiqləmişdir. 1893-cü il təvəllüdlü, Azərbaycan Milli Mərkəzinin fəal üzvü Ə.Pepinovun həbs edilməsi ilə bağlı qərarı müstəntiq Qriqoryan və 4-cü şöbənin rəisi kapitan Sinman hazırlamışdılar.

1937-ci ilin 7 sentyabrında Xudyakov və Avdeyevin iştirakı ilə Ə.Pepinovun mənzilində axtarış aparıldı. Axtarışda 8 ədəd müxtəlif yazışma, almanca-rusca lüğət, qazax-rus lüğəti, 12 ədəd foto-şəkil və 1 ədəd kitab müsadirə edildi.

1938-ci ilin sentyabrın 8-də Dövlət Təhlükəsizliyi Komitəsinin çavuşu Xudyakovun imzaladığı sənəddə Ə.Pepinovun Ulyanovsk həbsxanasından Bakıya gətirildiyi bildirilirdi[15].

"1937-ci ilin 23 noyabrında aparılan istintaqda Ə.Pepinov müstəntiqin "Sizin bu gün öz əksinqilabi fəaliyyətiniz haqqında danışmaq fikriniz varmı?" sualına belə cavab vermişdi: "Mən heç bir əksinqilabi iş aparmamışam"[16].

[14] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PR 28006 saylı Ə.Pepinova aid istintaq işi, v. 120.
[15] Yenə orada, v. 6.
[16] Yenə orada, v. 8.

**Lakin, 1937-ci ilin həbsindən sonra Ə.Pepinovu çox "etiraf"lar etməyə məcbur etdilər. Bu da sovet istintaq idarələrində olan amansız işgəncələr və cəza üsulları ilə bağlı idi.**

Ə.Pepinov istintaqa belə açıqlama verdi**: "Mən əmin oldum ki, istintaq mənim əksinqilabi fəaliyyətim barədə kifayət qədər məlumata malikdir, qərara gəldim ki, tam tərksilah olaraq, öz əksinqilabi fəaliyyətim barədə istintaqa hərtərəfli danışım"[17].**

Ə.Pepinovun üzvü olduğu əksinqilabi təşkilatın fəaliyyəti ilə bağlı "etiraf"ları aşağıdakılar idi**: "1) Azərbaycanı Sovet İttifaqından ayırıb Dağıstanla birləşdirib milli-burjua respublikası yaratmaq; 2) Kapitalist ölkələri SSRİ-yə qarşı müharibə elan edəndə sovet hökumətinə qarşı silahlı üsyan təşkil etmək; 3) Sənaye və kənd təsərrüfatında təxribatlar, ziyankarlıqlar törətmək, 4) Təşkilatın Parisdə Ə.M.Topçubaşovla, İstanbulda M.Ə.Rəsulzadə ilə əlaqəsini gücləndirmək; 5) Məhəmməd Həsən Hacınskinin, Xudadat bəy Məlikaslanovun, Firuz Ordubadskinin bu təşkilatın üzvü olması"...[18].**

**1938-ci ilin iyulun 3-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyasının qapalı iclası Kolpakov və Kulikin sədrliyi altında keçirildi. 15 dəqiqə ərzində davam edən məhkəmə prosesi Ə.Pepinovu ən ağır cəzaya –** güllələnməyə məhkum etdi. Hökm elə həmin gün yerinə yetirildi[19].


Секретно.

СПРАВКА.

Приговор о расстреле Пепинова Ахмедбека Омеровича приведен в исполнение в гор. Баку "3" VII 1938 г. Акт о приведении приговора в исполнение хранится в Особом архиве 1-го спецотдела НКВД СССР том № 8 лист № 44

НАЧ 12 ОТД.1 СПЕЦОТДЕЛА НКВД СССР
Лейтенант Госбезопасности (Шоволов)

**Ə.Pepinovun güllələnməsi haqqında arayış. 3 iyul 1938-ci il.**

[17] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi,PR 28006 saylı Ə.Pepinova aid istintaq işi, v. 160.
[18] Yenə orada, v. 165.
[19] Yenə orada, v. 171.

Ə.Pepinovun güllələnməsi haqqında olan arayışda hökmün 1938-ci ilin iyulun 3-də Bakı şəhərində yerinə yetirildiyi qeyd olunur[20].

Ə.Pepinovun qardaşını, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun müəllimi olan Məmməd Pepinovu da "əksinqilabi" iş apardığına görə 1937-ci ilin noyabrın 17-də həbs etdilər. Ona 1938-ci ilin aprelin 19-da güllələnmə hökmü kəsilsə də, həmin ilin mayında yazdığı ərizə əsasında cəzası 10 illik həbslə əvəz edildi. Sonradan işə yenidən baxıldıqdan sonra o, 8 il müddətinə azadlqdan məhrum edildi və 1946-cı ilə qədər həbsdə saxlanıldı. M.Pepinov 1951-ci ildə Qazaxıstan DTN tərəfindən yenidən həbs olundu və Novosibirsk vilayətinə DTN orqanlarının nəzarəti altında yaşamağa göndərildi.

Ə.Pepinovun həyat yoldaşı Xurşud xanım Azərbaycan Parlamentinin sədr müavini Həsən bəy Ağayevin qızı idi. Onlar 1923-cü ildə ailə həyatı qurmuşdular. Xurşud xanım həm də Azərbaycanın tanınmış musiqişünası olmuşdur. Ə. Pepinov həbsdə olarkən ailəsinə təzyiq göstərilməməsi üçün həyat yoldaşına boşanmaq təklifi etmiş və vəziyyəti nəzərə alan Xurşud xanım bu təklifi qəbul etmişdir. Xurşud xanım 1954-cü ildə rəhmətə gedib.

Ə.Pepinovun qızı Sevda xanım isə məşhur gülüş ustası, aktyor Lütfəli Abdullayevin həyat yoldaşı olmuşdur.

[20] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi,PR 28006 saylı Ə.Pepinova aid istintaq işi, v. 8.

# XUDADAT BƏY MƏLİKASLANOV

(1879 – 1935)



Görkəmli dövlət xadimi, məşhur alim, ixtiraçı-mühəndis Xudadat bəy Məlikaslanov 1879-cu ilin aprelində Şuşanın Tuğ kəndində anadan olub. O, 1899-cu ildə Şuşadakı Realnı məktəbi bitirərək Sankt-Peterburq Yol Mühəndisliyi İnstitutuna daxil olub. 1904-cü ildə institutu birinci dərəcəli diplomla bitirib.

1918-ci ildə onun rus dilində Tiflis dəmiryolu nəqliyyatı tarixindən bəhs edən kitabı nəşr edilib.

O, 1918-ci ilin 28 Mayında Azərbaycan istiqlalı elan edildikdən sonra F.X.Xoyskinin təşkil etdiyi birinci Hökumət kabinəsində Yollar, Poçt və Teleqraf naziri olub. X.Məlikaslanov N.Yusifbəylinin təşkil etdiyi Hökumət kabinələrində də eyni vəzifələri yerinə yetirib. O, Azərbaycan Parlamentinin də üzvü olaraq çalışıb.

Azərbaycan 1920-ci ilin aprelin 27-də Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra X.Məlikaslanov Azərbaycan Dövlət Tikinti Komitəsində sədr, Azərbaycan Ali Xalq Təsərrüfatı Şurası yanında Dəmiryol Tikintisi İdarəsinin rəisi və digər vəzifələrdə çalışıb.

X.Məlikaslanov 1930-cu ildə əsassız ittihamlarla həbs edilib, 1933-cü ildə azadlığa buraxılsa da, 1934-cü ildə yenidən azadlıqdan məhrum olunub.

X.Məlikaslanov 1935-ci ilin iyulun 23-də həbsxanada vəfat edib.

# YOLLAR, POÇT VƏ TELEQRAF NAZİRİ

Azərbaycanda, ümumilikdə, yol nəqliyyatı sisteminin formalaşmasında, dəmiryolunun inkişaf etdirilməsində görkəmli dövlət xadimi Xudadat bəy Məlikaslanovun böyük xidmətləri olmuşdur.

X.Məlikaslanov 1879-cu ilin aprelində Şuşanın Tuğ kəndində anadan olub. O, 1899-cu ildə Şuşa Realnı məktəbini bitirərək, Sankt-Peterburq Yol Mühəndisliyi İnstitutuna daxil olmuşdur. 1904-cü ildə ali təhslini birinci dərəcəli diplomla başa vurmuşdur. Xudadat bəy 1901-1904-cü illərdə Rusiya Sosial Demokrat Fəhlə Partiyasının üzvü olmuş və təşkilatın Peterburq Komitəsində çalışmışdır. Sonradan o, RSDFP sıralarından uzaqlaşmış və ömrünün sonunadək heç bir partiyanın üzvü olmamış, bitərəf qalmışdır[1].

X.Məlikaslanov Sankt-Peterburq İnstitutunda təhsil alarkən Mehmandarov, Ləmbəranski, Terequlov, Əzizbəyov, Vəzirov, Mahaç Dahadayı ilə (sonradan onun şərəfinə Mahaçqala şəhəri adlandırıldı) yaxından münasibətdə olub (Onların birlikdə çəkdirdikləri bir foto X.Məlikaslanovun yaxınlarında saxlanılmaqdadır). Qafqazın cənubundan və şimalından olan bu şəxslər həm də Qafqaz Həmyerliləri Təşkilatını yaratmışdılar.

X.Məlikaslanov institutu bitirdikdən sonra Voloqda-Petrozavodsk dəmiryolu çəkilişi ilə əlaqədar 6 aya qədər Peterburqda işləmişdir. O, 1905-ci ildə Tiflisə köçmüş və Zaqafqaziya Dəmiryolu idarəsində stansiya rəisinin köməkçisi işləmişdir. Sonradan Zaqafqaziya Dəmiryolunun ən ağır və dağlıq hissəsi hesab edilən Suram aşırım keçidində yol xidməti rəisinin köməkçisi, daha sonra isə rəis təyin edilmişdir[2].

Eyni zamanda onun rəhbərliyi altında həmin sahədə xeyli mülki tikinti işləri aparılmış, ikinci yolun çəkilişi davam etdirilmiş, Çiatura maqnas mədəninə ensiz dəmir yolu çəkilmiş, digər texniki işlər görülmüşdür. Bu dövrdə onun çap edilmiş 10-dan çox məqaləsindən 4-ü Peterburq jurnallarında nəşr olunmuşdur. Nəşr edilmiş məqalələrindən ikisi belə adlanır: 1) “Yüksəklikdə aparılan dəmiryolu tikintisinin hesablanması”; 2) “Dəmir – beton şpallar sahəsində ilk ixtira və onun tətbiqi”.

1906-cı ildə X.Məlikaslanov rus millətindən olan Mariya Viktorovna ilə ailə həyatı qurmuşdur.

[1] M. Əliyev. Xudadat bəy Məlikaslanov. “Odlar Yurdu” qəzeti, №5-6, mart 1989.
[2] Yenə orada.


**X.Məlikaslanov.**

1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra mart ayının 9-da X.Məlikaslanov Tiflisdə Zaqafqaziya Dəmiryolu üzrə müvəkkil təyin edilmişdir. O, 1917-ci ilin noyabrın 15-də Zaqafqaziya Komissarlığında Dəmiryolu Nəqliyyatı Nazirliyi üzrə komissar, 1918-ci ilin aprelin 26-da yaranmış müstəqil Zaqafqaziya Federativ Respublikası Hökumətində Dəmiryol (nəqliyyat) naziri olmuşdur. 1918-ci ildə onun Tiflis dəmiryolu nəqliyyatı tarixinə həsr edilən kitabı rus dilində nəşr edilmişdir[3].

X.Məlikaslanov bu dövrdə Tiflisdə fəaliyyət göstərən Zaqafqaziya Seyminin üzvü idi və toplantılarda da iştirak edirdi. 1918-ci ilin aprelin 7-də Seymin Müsəlman fraksiyasının fövqəladə sessiyası keçirildi. İclasda Hacıqabul stansiyasında polkovnik knyaz Maqalovun hərbi dəstələrinin məğlubiyyəti ilə əlaqədar məsələ müzakirə edildi və başlıca günahın menşeviklər partiyasında, onun hökumətdəki nümayəndələrinin bolşeviklərə qarşı apardığı ikibaşlı siyasətdə olduğu göstərildi[4].

Seym üzvlərindən X.Məlikaslanov və M.Məhərrəmov bu iş üzrə müvəkkil təyin edilsələr də, hərbi sursatı ala bilmədiklərini qeyd etdilər. Seym üzvü N.Yusifbəyli isə daha sərt mövqedən çıxış edərək "vəd verən şəxslərin" kömək göstərmədiklərini söylədi və hökumət qarşısında (Zaqafqaziya Hökuməti – red.) ultimatum qoyub Tiflisi tərk etməyin vacibliyini bildirdi.

X.Məlikaslanov çıxışında təəssüflə qeyd etdi: "Hakimiyyətin bir tərəfində hamı durub, o biri tərəfində yalnız müsəlmanlar. Birincilərin tərəfində texniki və maddi üstünlük, bizim tərəfimizdə isə çoxluqdur. Faktiki olaraq təcrid edilməmizə və ağır vəziyyətimizə baxmayaraq, çətin ki, belə bir şəraitdə əlaqələri kəsməklə bir şey qazanarıq. Bolşeviklərdən bizə aman yoxdur, onlar bizi hələ ki, əziblər. Menşeviklər də düşmən cəbhədə durur. Əgər bizi bir tərəfdə əzirlərsə, başqa tərəfdə möhkəmlənmək lazımdır. Əgər Türkiyə ilə müharibə məsələsi həll olunarsa, hələ ki, menşeviklərlə danışmaq üçün imkanlar qalır"[5].

[3] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 72.
[4] Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s. 9-10.
[5] Yenə orada.

1918-ci ilin mayın 26-da Zaqafqaziya Seymi süqut etdi. Bu hadisədən bir gün sonra, mayın 27-də Seymin bütün keçmiş müsəlmanlardan ibarət üzvlərinin fövqəladə iclası keçirildi. Həmin iclasda Milli Şuranın yaradıldığı elan edildikdən sonra Şuranın Rəyasət Heyəti seçildi. Rəyasət Heyətinə Müsavat Partiyasından və bitərəflərin demokratik qrupundan M.Ə.Rəsulzadə, M.H.Hacınski, N.Yusifbəyli, X.Xasməmmədov, M.Y.Cəfərov; Müsəlman sosialistlər blokundan X.Məlikaslanov və Cəmo Hacınski; Sosial-demokrat Hümmət Partiyasından doktor X.P.Sultanov seçildi.

Keçirilən gizli səsvermədən sonra Batumda Osmanlı Türkiyəsi təmsilçiləri ilə danışıqlar aparan M.Ə.Rəsulzadə Milli Şuranın Sədri seçildi.

İclasın sonunda çıxış edən X.Məlikaslanov bildirdi ki, Gürcüstan Hökumətinin sədri rəsmi sənədlə müraciət edərək keçmiş Zaqafqaziya Hökumətindəki nazirləri Zaqafqaziyanın bölünməsinə həsr olunmuş müzakirəyə çağırır. O, həmin iclasda hansı mövqedə dayanmağın vacibliyi ilə bağlı həmkarlarının tapşırıqlarını öyrənmək istədiyini bildirdi[6].

**1918-ci ilin mayın 28-də Qafqaz canişinliyinin sarayında H.Ağayevin sədrliyi və M.Mahmudovun katibliyi ilə keçirilən Müsəlman Milli Şurasının iclasında Azərbaycanın istiqlalının elanı, Azərbaycan Cümhuriyyətinin yaradılması haqqında qərar qəbul edilmişdir. Azərbaycan istiqlalı elan edilməsi qərarına imza atan 22 nəfərdən (24 nəfərdən 2-si bitərəf qalmışdı) biri də Xudadat bəy Məlikaslanov olmuşdur.**

Bu qərarın qəbulundan sonra Milli Şura F.X.Xoyskiyə birinci Müvəqqəti Hökuməti yaratmağı tapşırdı. Bir saatlıq fasilədən sonra F.X.Xoyskinin yaratdığı 9 nəfərdən ibarət olan hökumətin tərkibinə X.Məlikaslanov da daxil edildi. O, bu Hökumətdə Yollar və Poçt-Teleqraf naziri vəzifəsini icra edəcəkdi.

Azərbaycan Cümhuriyyəti dövründə formalaşan bütün Hökumət kabinələrində X.Məlikaslanov yeganə nazir olaraq eyni vəzifəni yerinə yetirmişdir. Onun nazir kimi çalışdığı Hökumət kabinələrinə diqqət edək: 1) F.X.Xoyskinin yaratdığı birinci Müvəqqəti Hökumət kabinəsində (28.05.1918 – 17.06.1918) – Yollar və Poçt-Teleqraf naziri; 2) F.X.Xoyskinin yaratdığı ikinci Hökumət kabinəsində (17.06.1918 – 07.12.1918) – Yollar naziri (o, bu vəzifəsini 1918-ci ilin oktyabrın 6-na qədər icra etmiş, həmin vaxtda olan kabinədaxili dəyişikliklərlə əlaqədar bu işdən müvəqqəti olaraq uzaqlaşmışdı); 3) F.X.Xoyskinin təşkil etdiyi üçüncü Hökumət kabinəsində (26.12.1918 – 14.03.1919) – Yollar naziri; 4) N. Yusifbəyli-

[6] Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. B., 2006, s. 18-20.

nin təşkil etdiyi dördüncü Hökumət kabinəsində (14.03.1919 – 22.12.1919) – Yollar naziri; 5) N.Yusifbəylinin təşkil etdiyi beşinci Hökumət kabinəsində (24.12.1919 – 01.04.1920) – Yollar naziri, eyni zamanda Ticarət, sənaye və ərzaq üzrə müvəqqəti nazir (18.02.1920-ci ildən sonra Ticarət, sənaye və ərzaq naziri M.H.Hacınski olub)[7].



X.Məlikaslanov dostları ilə (soldan birinci).

**X.Məlikaslanov yüksək təşkilatçılıq qabiliyyətinə malik kadr olmuşdur. Bu keyfiyyətlərinə görə Nazirlər Şurasının Sədri N.Yusifbəyli onu həm də özünə müavin təyin etmişdir. X.Məlikaslanov 1919-cu ilin iyunun 11-də yaradılan Respublika Dövlət Müdafiə Komitəsi Sədrinin birinci müavini idi.**

**Onun təşəbbüsü ilə 1919-cu ildə Bakıda ana dilində dərs keçilən ilk Dəmiryol nəqliyyatı məktəbi açılmış, Azərbaycan dəmiryolunda təmir işləri görülmüş, nəqliyyatın nizamlı çalışması qaydaya salınmışdır.**

**1919-cu ilin aprelində Nazirlər Şurasının göstərişi ilə, X.Məlikaslanovun rəhbərliyi altında xüsusi komissiya tərəfindən latın əlifbasına keçmək üçün layihə hazırlanıb parlamentə təqdim olunsa da, təsdiqi müvəqqəti olaraq dayandırılmışdı.**

Qeyd edək ki, Azərbaycanla Gürcüstan arasında nəqliyyat əlaqələrinin möhkəmlənməsində X.Məlikaslanovun böyük rolu var idi. Məlumdur ki, 1918-ci ilin 26 dekabrında Azərbaycanla Gürcüstan arasında ayrıca müqavilə, 1919-cu ilin martın 18-də isə dəmiryolu rabitəsi haqqında digər bir saziş imzalandı. 1919-cu ilin aprelin 17-də Azərbaycan Dəmiryolu İdarəsi Batum şəhərində öz ticarət agentliyini yaratdı[8]. Hətta tezliklə Bakı-Tiflis arasında sürət qatarının da işə salınacağı planlaşdırılırdı.

---

[7] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 91-93.
[8] İ. Əliyeva. Xudadat bəyin acı taleyi. "Azərbaycan" qəzeti, 29 avqust, 2013.

Azərbaycan Cümhuriyyəti dövründə Azərbaycanın su yolları sahəsində də böyük inkişaf gedirdi. Azərbaycan Hökuməti Bakıya köçəndən sonra, 1918-ci ilin oktyabrın 30-da Bakı Ticarət limanı idarəsinin fəaliyyətinin bərpası nəticəsində ticarət gəmiləri vasitəsi ilə Mahaçqala, Salyan, Lənkəran limanları arasında sərnişin və yük daşınmasına şərait yarandı[9]. 1919-cu ildə Bakı-Batum neft kəməri bərpa olundu və neftin böyük satış bazarına çıxarılması təmin edildi. Bakıdan Xəzər dənizi ilə Salyana, Lənkərana, Ənzəliyə, Port-Petrovska (Mahaçqalaya), Həştərxana gəmilər işləyirdi. Həmin vaxt Xəzər Dəniz Donanmasındakı buxar gəmilərinin sayı 17-yə çatmışdı[10].

X.Məlikaslanovun Yollar naziri olduğu dövrdə – 1919-cu ilin iyulun 15-dən başlayaraq Bakı–Batum istiqamətində 4-cü qatar, Bakı Port-Petrovsk (Mahaçqala) istiqamətində isə hər gün 4 cür qatar hərəkət edirdi[11].

X.Məlikaslanov Azərbaycanın şosse yollarının bərpasına da ciddi diqqət edirdi. 1919-cu ilin fevralın 17-də Hökumətin nazirliyə ayırdığı bir milyon kredit bu sahənin inkişafına sərf edildi. Aprel ayının 24-də isə Yevlax-Şəki şosse yolunun təmiri və sel sularından qorunması məqsədi ilə bənd tikintisi aparılmasına 210 min manat vəsait ayrıldı. Bundan əlavə, 1919-cu ilin aprelin 28-də Bakıda avtomobillərin təmiri və avtomobil zavodunun saxlanması üçün 175 min manat vəsait ayrılmışdır[12].

Qeyd etdiyimiz kimi, öz peşəsinin istedadlı mütəxəssisi olan X.Məlikaslanov bütün bilik və bacarığını özü ifadə etdiyi kimi, müsəlmanlar üçün yeni olan bir sahəyə həsr edir və böyük nəticələr əldə edirdi.

X.Məlikaslanov 1919-cu ilin dekabrın 24-dən 1920-ci ilin fevralın 18-nə qədər paralel şəkildə Ticarət, sənaye və ərzaq üzrə müvəqqəti nazir vəzifəsini də icra etmişdir.

X.Məlikaslanov Azərbaycan Cümhuriyyəti dövründə bütün nəqliyyat sahəsinin inkişafına önəm verirdi. Bu sahədə o, yeni dəmiryolu xətlərinin açılmasını vacib sayırdı.

1919-cu ilin martın 19-da N.Yusifbəylinin sədrliyi ilə keçirilən Nazirlər Şurasının toplantısında Culfa-Bakı Dəmiryolunun tikintisinin davam etdirilməsi ilə bağlı X.Məlikaslanovun məruzəsi dinlənildi və ona layihə hazırlayıb parlamentə

---

[9] İ. Əliyeva. Xudadat bəyin acı taleyi. "Azərbaycan" qəzeti, 29 avqust, 2013.
[10] Yenə orada.
[11] Yenə orada.
[12] Yenə orada.

təqdim etmək, tikintiyə100 milyon manat həcmində kreditin ayrılması üçün müraciət hazırlaması tapşırıldı[13].

Azərbaycan Cümhuriyyəti dövrünə aid arxiv sənədlərindən məlum olur ki, X.Məlikaslanov fəal nazir olaraq Azərbaycan bölgələrinə də tez-tez gedir, problemləri həll etməyə çalışırdı. 1919-cu ilin iyunun 7-də Nazirlər Şurasının Sədri N. Yusifbəyliyə göndərdiyi teleqramda onun Şuşada olduğu, Bakıya gəlmək üçün icazə istədiyi qeyd edilirdi[14].

Nazirlər Şurasının Sədri N.Yusifbəylinin Bakıya – X.Məlikaslanova göndərdiyi bir teleqramda Hərbi nazirlə razılaşma əsasında general Teymur bəy Novruzovun atlı diviziyasının rəisi təyin edilməsi xəbərinin təcili olaraq Hökumətə çatdırılması xahiş edilirdi[15].

1918-ci ilin iyulunda Maliyyə naziri Əbdüləli bəy Əmircanov X.Məlikaslanova pul vahidi olan bonun çapı və istifadə olunması ilə bağlı aşağıdakı məzmunda məktub göndərmişdi: "Azərbaycan Respublikasının Yollar və Teleqraf naziri X.Məlikaslanova. Xahiş edirəm Gürcüstan hökumətinə çatdırasınız ki, Azərbaycanın Gürcüstan və Ermənistanla birlikdə 300 milyon rubl həcmində və eyni zamanda, yeni bonun buraxılması məsuliyyəti ilə bağlı bəyannaməyə prinsipial narazılığımız yoxdur. Bu şərtləri onlarla razılaşın: 1-cisi, indi beynəlxalq komissiya bon buraxılması ilə bağlı Azərbaycanın məsuliyyət ölçüsünü aydınlaşdırmalıdır; 2-cisi, Azərbaycan Respublikası bonun ötən miqdarından (yəni 300 milyon rublluq) 10 milyon rubl dəyərində olanı almalıdır; 3-cüsü, yeni bonun buraxılması (ölçüsü və buraxılma qaydaları) Xüsusi beynəlxalq komissiyanın nəzarətində olmalıdır. Maliyyə Naziri Ə.Əmircanov"[16].

X.Məlikaslanovun 1918-ci ilin avqustunda Azərbaycanın Gürcüstandakı daimi nümayəndəsi M.Y.Cəfərova göndərdiyi məktub da bonun buraxılması haqqında idi[17].

1918-ci ilin iyulunda X.Məlikaslanov "Xarici İşlər nazirini əvəz edən" imzası ilə Gürcüstan Respublikasının Xarici İşlər nazirinə bu məzmunda məktub göndərmişdir: "Hökumətimizin aldığı məlumata görə, iyulun 27-də Borçalı və Qazax qəzalarının sərhədində Xram çayı üzərindəki körpüdə gürcü və yerli müsəlman əhali arasında silahlı toqquşma olmuş, nəticədə hər iki tərəfdən ölənlər və yaralananlar vardır. Müsəlmanlar tərəfindən iyirmi nəfər gürcü silahsızlaşdırılıb və saxlanılıb.

[13] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 3, i. 165, v. 57.
[14] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 12, v. 11.
[15] Yenə orada, v. 6.
[16] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 18, v. 32.
[17] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 12, v. 71.

Hesab edirik ki, iki dost xalqlar arasında belə hadisələr olmamalıdır. Mənim Hökumətim saxlanılan gürcüləri Gürcüstan hökumətinin sərəncamına verməyi qərara alıb. Ümid edirik ki, Gürcüstan Hökuməti baş verən hadisəyə eyni cür yanaşır və gələcəkdə belə hadisələrin qarşısının alınması üçün bütün tədbirləri görəcək"[1].

Tanınmış dövlət xadimi X.Məlikaslanovun siyasi fəaliyyətinin əsas dövrünü onun Azərbaycan Parlamentindəki çıxışları təşkil edir. Parlamentin 1919-cu ilin 4, 5, 6 fevralında keçirilən 12, 13, 14 iclaslarında müzakirə edilən 6 əsas məsələdən biri Dəmiryol qulluqçuları ilə bağlı idi. Müzakirəyə təqdim olunan qanun layihəsi belə adlanırdı: "Dəmiryol qulluqçularının vəziyyətini yaxşılaşdırmaq üçün qanun layihəsi". Bu qanun layihəsi ilə bağlı Dəmiryolu nəqliyyatı və Poçt-Teleqraf naziri olan X.Məlikaslanov məruzə etdi. O, dedi: "Möhtərəm məbuslar! Hökumət tərəfindən mən bəyan edirəm ki, qanunu komissiyanın dəyişdirdiyi kimi qəbula razıyız. Hökumət belə baxırdı ki, o fəhlələrin istədikləri çox deyildir. Hökumət bahalığı nəzərə alaraq fəhlələrin maaşının artırılmasını lazım görürdü. Fəqət, pulumuz az olduğundan mümkün olmurdu. İndi təvəqqe edirəm, komissiyanın qətnaməsini qəbul edəsiniz. Dəmiryolu ilə gedib-gələnlərə bu işlər hamıdan artıq məlumdur. Ancaq təvəqqe edirəm, Siz bu məsələyə el nəzəri ilə deyil, dövlət-nöqteyi nəzəri ilə baxasınız, çünki bir qədər dərindən baxılarsa, dəmiryol məsələsi çox müşkül işdir. Burada texnika var, ticarət var, sənət var, təsərrüfat var... Bunların hamısını birdən düzəltmək çətindir. Sizə məlumdur, dəmiryolu bizim əlimizə nə halda düşmüşdü. Yollar dağılmış, qulluqçular qaçmış, vaqonlar, parovozlar xarab olmuş, su kəməri və neft parovozu qırılmış... Çox çətinliklə çalışıb bir vaqon yola salmışıq ki, sərnişin və yük hərəkəti açılsın. Gediş-gəliş olsun və əsgəri ehtiyaclar ödənilsin"[2].



**Nazir X.Məlikaslanovun M.Y.Cəfərova məktubu. Avqust 1918-ci il.**

[1] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 12, v. 54.

[2] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 215-216.

X.Məlikaslanov çıxışında bildirdi ki, hazırda Hökumətin bazasında olan 230 parovozun 60 faizi yararsız haldadır və çalışıb 140-a qədərini yararlı vəziyyətə gətiriblər. O, qeyd etdi ki, Bakı ilə Gəncə arasında olan 280 sərnişin vaqonundan 5-6-sı yararlı idi və onlar təmir olunaraq 20 faizə çatdırılıb.

X.Məlikaslanov dəmir yollarının ilk olaraq əsgəri ehtiyaclara xidmətinin vacibliyindən danışdı və əsaslandırdı ki, bu sahədə işlər bir an da olsun ləngiməyib. Eyni zamanda o, vurğuladı ki, burada olan ingilislərlə də dostluğumuz üçün onların əsgəri ehtiyaclarını ödəməliyik. O, hazırda Azərbaycanda 80-90 yük vaqonunun işlədiyini, Bakı ilə Tiflis arasında bir yox, üç qatarın işə salınması vacibliyini və qarşıdakı günlərdə bir sürət qatarının istifadəyə veriləcəyini qeyd etdi.

Bundan əlavə, X.Məlikaslanov fəhləyə artıq məvacibin verilməsini, tarifin yüksəldilməsini önə çəkirdi. O, çıxışında vacib olan bir məqamı belə açıqladı: "Məlumdur ki, müsəlman camaatı bu vaxtadək dəmiryolunda işləməmişdir, indi dəmiryolunda işləyənlərin çoxu və bəlkə hamısı dostumuz ruslardır. Bunlar da azdırlar, tapmaq olmur. İndi məktəblər açılmışdır. Dəmiryol məmurları hazırlanır ki, öz əhalimiz də məmurluğa girsinlər, gələcəkdə dostlarımız ruslar getsələr, özümüzünkülər işləsinlər"[3].

Parlamentin fevralın 6-da keçirilən iclasında ilk söz X.Məlikaslanova verildi. O, neft haqqında Hökumət adından müəyyən fikirlərini bildirdi: **"Bizim məmləkətimizi məşhurlaşdıran və hətta bir çox düşmən qazandıran bir sərvətimiz var: neft".** O, ildə 500 milyon pud neftin Azərbaycanda hasil olduğunu, az bir hissəsinin Batuma, qalanının isə Rusiyaya göndərildiyini, hazırda isə Batuma dəmiryolu ilə 20 milyon pud, neft kəməri ilə 50



**X.Məlikaslanov N.Yusifbəylinin başçılıq etdiyi Hökumət kabinetinin üzvləri arasında (soldan birinci).**

[3] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 218-219.

milyon pud göndərildiyini və yolun olmamasından Rusiyaya neft göndərməyin qeyri-mümkünlüyünü qeyd etdi.

X.Məlikaslanov neftin hazırkı dövrdə inhisara alınmasının da qeyri-mümkünlüyünü və bundan ötrü yeni idarələrin, təşkilatların və məmurların olması vacibliyini əsas götürürdü. O, bildirirdi ki, Ukraynaya neft göndərilməsini razılaşmışıq və ingilislər də bizə nefti daşımaq üçün gəmi verəcəklərini söyləmişlər. X.Məlikaslanov neftlə bağlı fikirlərini belə yekunlaşdırdı: "Neft məsələsinə məhəlli deyil, dünya nöqteyi-nəzərindən baxmaq lazımdır. Çünki Azərbaycandan başqa, Amerika, İngiltərə və Rumıniyada da 3 milyard tondan çox neft hasil olur. Buna görə, neft bazarında bir rəqabət, bir mübarizə başlanacaqdır. Hər kəs çalışır ki, nefti ucuz çıxsın. Çalışmalıdır ki, mübarizə meydanında Amerika nefti Bakı neftinə qalib gələ bilməsin. Məsələn, Marselə Amerika nefti də gəlir, Bakı nefti də. Bunların hansı uzuc olsa, əlbəttə, onu alacaqlar"[4].

X.Məlikaslanov çıxışında uzun müzakirələrdən sonra Gürcüstanla tranzit müqaviləsinin imzalandığını və bu əsasda Gürcüstana Azərbaycan Hökumətinin ucuz nefti verməsi müqabilində onların vergi almayacağını da qeyd etdi.

Parlamentin 1919-cu ilin fevralın 18-də keçirilən iclasında 5-ə qədər məsələ müzakirə olundu. 3-cü məsələ isə dəmiryol tarifi ilə bağlı qanun layihəsi idi.

Bu məsələ ilə bağlı Maliyyə-büdcə komissiyası tərəfindən A. Rzayev məlumat verdikdən sonra X.Məlikaslanov parlament üzvlərini məlumatlandırdı. O, Hökumət layihəsi ilə büdcə komissiyası layihəsi arasında fərqin olduğunu (Hökumət biletin 12 dəfə, Komissiyada 15 dəfə artdığını) qeyd etdi və layihənin təxirə salınmadan qəbulunu vacib saydı. Müzakirələrdə İ.Əbilov (sosialist), M.Rəfiyev (Müsavat), Əhməd Cövdət (sosialist), M.Ə.Rəsulzadə (Müsavat), Yusif Əhmədov (bitərəf) çıxış etdilər. Sonda layihənin fraksiyalara müzakirəyə verilib sonradan parlamentə qaytarılması qərara alındı. X.Məlikaslanov layihənin vacibliyini xatırladıb 5 gün müddətinə fraksiyaların fikir bildirməsini xahiş etdi.

Parlamentin 1919-cu ilin 6 noyabrında keçirilən 93-cü iclasında 7-yə qədər məsələ müzakirə olundu və Hökumətə Sosialistlər fraksiyasının, eləcə də Şamaxı qaçqınları barəsində suallar hazırlandı. X.Məlikaslanov çıxışında bu problemə toxundu: "Möhtərəm məbuslar! Keçən iclasda sosialistlər Hökumətə bir sual vermişlər ki, nədən ötəri Hökumət sədrinin ev əşyası alınmasına 1milyon pul buraxılmışdır? Hökumət tərəfindən cavab vermək istəyirəm. Siz bilirsiniz ki,

---

[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 243-244.

Hökumət üzvlərinin və nümayəndələrinin o qədər iqtidarları yoxdur ki, öz evləri üçün lazım əşyaları alsınlar ki, xaricdən gələn qonaqları da qəbul etsinlər. Qeyri yerlərdən gələn çox olur. Məsələn, İngiltərədən, İtaliyadan, Fransadan, Amerikadan çox nümayəndələr gəlirlər. Onları qəbul etmək üçün küçəbəküçə gəzib yer axtarırırq. Ya gəlməmişdən fikir edirik ki, nə yerdə və kimin evində onları qəbul edəcəyik? Hökumət qərara qoymuşdur ki, o cür nümayəndələri qəbul üçün bir ev tədarükündə olsunlar. Onun üçün də bir şey alsınlar"[5].

X.Məlikaslanov çıxışında qeyd etdi ki, ötən Baş Nazir (F.X.Xoyski – red.) üçün hökumət pul vermişdi. Onun evinə bəzi əşyalar alınmışdı və o, vəzifədən gedəndə həmin əşyaların ya pulunu ödəməyi, yaxud onda əmanət qalmasını təklif etdi. Lakin əşyalar az olduğu üçün orada qaldı.

X.Məlikaslanov Hökumətin icazəsi ilə digər Baş Nazir olan N.Yusifbəyli üçün (N.Yusifbəylinin o zaman hələ Bakıda evi yox idi və müvəqqəti qaldığı mənzil var idi – red.) əşya almağın zəruriliyini və ucuz olmasından ötrü Bakıdan köçən, evinin əşyalarını satan bir şəxsdən alındığını qeyd etdi. Bildirdi ki, burada qanundankənar iş görülməyib və alınan əşyalar da qərara görə o, vəzifədən gedəndən sonra hökumətə çatacaqdır.

X.Məlikaslanov özünün də Tiflisdə bir xarici nümayəndənin yanına gedərkən rəsmi geyim tapmağa məcbur olduğunu dedi.

**Bu faktlardan Azərbaycan Cümhuriyyəti Hökumətini idarə edənlərin qanuna ciddi yanaşdıqları bir daha təsdiqlənir.**

Azərbaycan Parlamentinin 1919-cu ilin 11 dekabrında keçirilən 106-cı iclasında 14-ə qədər məsələnin müzakirəsi nəzərdə tutulmuşdu. Toplantıda "Xam malların Azərbaycan daxilindən xaricə çıxarılması şəraiti haqqında" təqdim edilmiş qanun layihəsi geniş müzakirəyə səbəb oldu. Abuzər bəy Rzayev əsas məruzəni etdikdən sonra Rza bəy Ağabəyov, Sultan Məcid Qənizadə, Hacı Kərim Sanıyev, Yusif Əhmədov, Muxtar Əfəndizadə, Ağa Əminov, erməni fraksiyasından olan Arşaq Malxazyan çıxış etdilər. X.Məlikaslanov isə mövcud problemləri belə izah etdi: "Bu layihənin milyondan artıq xeyri var. İş buradadır ki, vəziyyətimiz gündən-günə ağırlaşır, ticarət azalır, Batumdan yol vermirlər, paraxod vermirlər, xarici banklar möhtəkirlik edir. Hökumət bu fəlakətdən qurtarmaq üçün çox şeylə imtahan edir. Bu halda resept yazmaq çox çətindir, necə ki, ərz eylədim, ticarət sərbəst deyil, yollar açıq deyil, xaric ilə əlaqəmiz düzgün deyil, teleqraf mübadiləsi yoxdur. Hökumət bu məsələni müzakirə etdi, bir fikrə gəldi ki, ticarəti sərbəst edə bilmərik. Müharibədən əvvəl hər dövlət səy edirdi ki,

[5] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 427.

kənara çox mal aparılıb, az gətirilsin, onun əvəzinə qızıl gətirilsin, o qızıl sistemi ki, vardır, bunun üçündür ki, bankda qızıl olsun, bir milyard qızıl olduqda iki milyard da qızıl pul ola bilər. Bizim dilimiz yoxdur, mallarımız getmir, əvəzinə çox mal gəlir, bir azdan əlimizdə heç şey qalmayacaq. Siz bilirsiniz ki, gündən-günə funt-sterlinqin qiyməti artır, qiyməti səkkiz yüz rubladır, müharibədən əvvəl 10 manat idi. O zaman 10 manata 25 pud neft almaq olardı, indi isə 80 min putadək almaq olur, bundan anlaşılır ki, bizim pulumuz düşmüşdür"[6].

X.Məlikaslanov qeyd etdi ki, Azərbaycan pulunu süni surətdə aşağı salanlar var və xarici valyuta olarsa, vəziyyətdən çıxmaq mümkündür. O, çıxışının sonunda bu qanunun qəbulunun vacibliyini parlament üzvlərinin diqqətinə çatdırdı.

Parlamentin 1920-ci ilin aprelin 8-də keçirilən 139-cu iclasında "Dəmiryol tariflərinin artırılması haqqında" olan qanun layihəsi ilə bağlı Ə.Əmircanov məruzə etdikdən sonra Qara bəy Qarabəyov fikir söylədi. O, çıxışında dəmiryolu sahəsindəki vəziyyəti ciddi tənqid edərək layihənin qəbuluna öz etirazını bildirdi.

**Müzakirənin sonunda çıxış edən X.Məlikaslanov dedi: "Möhtərəm məbuslar! Qara bəyin danışığından belə çıxır ki, bizim əsla dəmir yolumuz yoxdur, o vaqonlar ki var, sanki bizim deyilmiş. Mən elə bilirəm ki, Qara bəy bu sözləri ürəkdən demədi. Hələ öz danışığından anlaşılır ki, həqiqətən ürəkdən danışmır. Siz özünüz bilirsiniz ki, biz bu dəmir yolunu nə əziyyət ilə başa gətirmişik. Dünyanın hər yerində dəmir yolları bu haldadır. Səbəbi də budur ki, paravoz çatmır, yollar xarab olmuş, yenisi də yoxdur. Biz belə çətinliklərə baxmayaraq, yenə bir şey yaratdıq. Gürcülərin məmurları, dəmir yol mütəxəssisləri çox idi, bizdə isə belə adamlar yoxdur. Ona görə biz dəmir yolunu yoxdan vücuda gətirmiş olduq"[7].**

**X.Məlikaslanov çıxışlardakı tənqidi məqamlara faktlarla cavab verdi və dəmir yolunun indiki zamanda əsgəri və ticarət işlərində ölkəyə fayda gətirdiyini əsaslandırdı. O, qeyd etdi ki, bu sahədə 86-ya qədər şəxsin işdən çıxarılıb məsuliyyətə cəlb olunması intizamsızlıqla mübarizəmizi təsdiqləyən faktlardır.**

Azərbaycanda ciddi dövlət quruculuğu prosesinin getdiyi bir zamanda Rusiya bolşevikləri ölkəni işğal etdilər.

[6] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 607.
[7] Yenə orada, s. 898.

1920-ci ilin aprelin 27-də Azərbaycan işğal edildikdən sonra X.Məlikaslanova ilk dövrlərdə göstərilən yaxşı münasibət sonradan dəyişərək onun həbsinə, daha sonra isə həbsxanada ölümünə səbəb oldu.

1921-ci ilin əvvəllərində X.Məlikaslanov Azərbaycan Dövlət Tikinti Komitəsində şöbə müdiri, sonra Komitə sədri vəzifəsində çalışdı. Sonradan o, Azərbaycan Ali Xalq Təsərrüfatı Şurası yanında Dəmiryol Tikinti İdarəsinin rəisi və Şuranın məsləhətçisi oldu.

Sovet Azərbaycanında sonrakı illərdə o, aşağıdakı vəzifələrdə də çalışmaq imkanı qazandı: 1) Zaqafqaziya Dəmiryolu İdarəsinin üzvü (1922-1924); 2) Azərbaycan Dövlət Plan Komitəsinin Sənaye-nəqliyyat tikinti bölməsinin üzvü (1923-1925); 3) Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsində Yol, sənaye, nəqliyyat və tikinti bölməsinin sədri (1921-1930); eyni qayda-da həmin fakültənin dekanı (1924-1930); 4) RSFSR və Azərbaycanın bir-sıra elmi-texniki və mədəni-maarif təşkilatlarının üzvü (1921-1930); 5) SSRİ Ali Xalq Təsərrüfatı Şurasının Elmi-texniki Kollegiyasının üzvü (1927-1930); 6)Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi üzvlüyünə namizəd (1926-1930)[8]; 7) Azərbaycan Nəqliyyat İnstitutunda Dəmir yolu kafedrasının və Azərbaycan İnşaat İnstitutunda İnşaat İşinin Təşkili kafedrasının müdiri (1933-1934)[9].

X.Məlikaslanov texnika elmləri sahəsində də ilk azərbaycanlı professorlardandır. Bu illərdə onun Moskvada rus dilində bir neçə elmi məqaləsi və Azərbaycanda dəmir yolu sahəsinə aid iki kitabı nəşr edilmişdir (1927-1929-cu illərdə).

Sovet dövründə onun fəallığı ilə Culfa-Bakı dəmiryolu tikintisi sürətlənmiş, Sabunçu elektrik dəmir yolu tikintisinə başlanılmışdır.

Bəzi məlumatlara görə, istedadlı mühəndis olan X.Məlikaslanov tərəfindən Bakı metropoliteninin tikilməsi məsələsi ilk dəfə olaraq irəli sürülmüşdür.

Sovet dövləti Cümhuriyyət dövrünün bu istedadlı kadrından faydalanaraq müəyyən dövrdə ona çalışmaq imkanı yaratdı.

X.Məlikaslanov peşəsinə çox bağlı insan idi. Yaxın qohumu Mariya Fyodorovna xatırlayırdı ki, o, həbsxanadan göndərdiyi məktublarda da qohumlarından bu məlumatları soruşurdu: "Azərbaycan Dövlət Layihə İdarəsində tikinti işləri layihəsini kim həyata keçirir?"; "Orada Leninqraddan dəvət edilən Sokolov yoxdur ki?". Onun bu məktublarında "24 yanvar 1935-ci il" tarixi qeyd olunmuşdur[10].

---

[8] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 73.
[9] Yenə orada, s. 73-74.
[10] Р. Алиева. Первый министр. Газета "Вышка", 14 февраля 2003 г., №6.

X.Məlikaslanov haqqında sonralar sovet həbsxanalarında saxlanılıb, özünü asmaq məcburiyyətində qalan M.Hacınskinin istintaqa verdiyi ifadə də maraqlıdır.

M.Hacınskinin ifadələrindən məlum olur ki, X.Məlikaslanovun 1920-ci illərdə Culfa-Bakı Dəmiryolu tikintisini sürətləndirməkdə məqsədi Naxçıvanı Azərbaycana yaxınlaşdırmaq, ucqar əyalətlərə getmək imkanı əldə etmək idi. O dövrdə isə belə şayiələr dolaşırdı ki, Naxçıvan Azərbaycandan ayrı olduğu üçün Ermənistana birləşdiriləcək. Bu mənada Culfa-Bakı dəmir yolunun böyük əhəmiyyəti vurğulanırdı.

M.Hacınski ifadəsində bildirirdi ki, X.Məlikaslanov Yevlax-Şuşa dəmiryolunun elə istiqamətdən getməsini planlaşdırırdı ki, o vaxta qədər Saruxanovun (erməni) çəkdiyi layihəni dəyişsin və xətt Ağdamdan, türk rayonlarından keçsin[11].

M.Hacınski ifadəsində X.Məlikaslanovun təşəbbüsü ilə Nuxa barama fabrikinin tikintisinin aparıldığını da qeyd edirdi.

**Sovet rejimi Azərbaycan Cümhuriyyəti qurucularına düşmən mövqeyindən yanaşırdı.** X.Məlikaslanov 1920-ci ilin oktyabrın 30-da 2373 saylı həbs kağızı əsasında 308 saylı orderə əsasən xüsusi şöbənin əməkdaşı İsayev soyadlı şəxs tərəfindən həbs edildi[12].

İstintaq-arxiv işində saxlanılan 109 saylı anketdə bir məlumat da diqqəti cəlb edir: "Dəmir yolu sahəsində komissar vəzifəsində və sonra nazir işləyib, heç bir əmlakı olmayıb"[13].

**Böyük vəzifələrdə çalışmış bir şəxsin haqqında sovet istintaq orqanının ciddi axtarışından sonra "onun heç bir əmlakı yoxdur" təqdimatı X.Məlikaslanovun vicdanlı və təmiz insan olduğunu sübut edirdi.**

X.Məlikaslanov həbs edildikdən sonra evində axtarış aparan şəxslər aşağıdakılar idi: Mudrak (Xüsusi şöbə); İ.İsayev; Klavdiya Klenevskaya; İvan İqnatyev. Əslində Cümhuriyyət dövrünün nazirini həbsə alan və evini axtaran, istintaq edən bu insanların Azərbaycana heç bir aidiyyəti yox idi.

X.Məlikaslanov bir müddət həbsdə saxlanıldıqdan sonra azadlığa buraxıldı.

X.Məlikaslanov sovet dövründə ikinci dəfə 1930-cu ildə həbs olundu. Onu bu dəfə Azərbaycan Milli Mərkəzi ilə əlaqəsinə görə həbs etdilər. X.Məlikaslanov Azərbaycan Sovet Sosialist Respublikasının Cinayət Məcəlləsinin 64, 65, 66

[11] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 286.
[12] Yenə orada, s. 277-278.
[13] Yenə orada, s. 278.

və 68-ci maddələri üzrə cinayət törətməkdə ittiham olunurdu: "a. Qarşısına sovet hakimiyyətini devirmək və milli müstəqil Azərbaycanın yaradılması məqsədini qoymuş AMM-nin əksinqilabi Mərkəzi Komitəsinin üzvü olmaqda; b. AMM-nin nüfuzlu nümayəndələrindən biri kimi təşkilatın xaricdən aldığı göstərişlərin yerinə yetirilməsində fəal iştirak etməkdə; v. ASSR-nin dəmir yollarında və şosse yollarında ziyankarlıq və təxribat işlərinə rəhbərlik etməkdə"..."[14].


Телеграфъ
Телеграмма
Евлахъ Е.В.ж.д.
Г-ну Министру
Юсуфбекову
Изъ Баку
Требуется Ваш приезд в Баку по возвращении из Шуши
Министр путей сообщения
Мелик-Асланов

**Nazir X.Məlikaslanovun N.Yusifbəyliyə teleqramı. 31 iyul 1919-cu il.**

Qeyd edək ki, AMM – Azərbaycan Milli Mərkəzi İstanbulda M.Ə.Rəsulzadə tərəfindən yaradılmışdı və oradakı tanınmış mühacirlərdən – keçmiş Cümhuriyyət nazirlərindən olan X.Xasməmmədov, Ə.Əmircanov və digərləri bu təşkilatın üzvləri idi. AMM həqiqətən sovet rejiminə qarşı ciddi mübarizə aparır və onun işğalçı mahiyyətini dünya ictimaiyyətinə çatdırırdı.

İstintaqda ona qarşı olan təzyiqlərə baxmayaraq, X.Məlikaslanov ittihamları qəbul etməmişdir.

X.Məlikaslanov 1933-cü ilin ortalarında həbsdən azad olundu. O, bir müddət Azərbaycan Nəqliyyat İnstitutunda və İnşaat İnstitutunda çalışdı. 1934-cü ilin avqustunda o, yenidən həbsə aldılar.

X.Məlikaslanov 1935-ci ilin iyulun 23-də həbsxanada vəfat etdi.

X.Məlikaslanovun həbsxanadakı ölümü ilə bağlı yaxın qohumu Mariya Fyodorovna Bakıda rus dilində çıxan "Vışka" qəzetinə açıqlamalar vermişdir. O, qeyd etmişdir ki, X.Məlikaslanov heç də həbsxanada yazılan rəydəki kimi "qəfildən" dünyasını dəyişməyib. Şahidlər danışır ki, onun ölümündə müstəntiq Gerasimovun günahı var və onu çox güman ki, "xalq düşməni" adı ilə aradan götürüblər[15].

---

[14] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya mənqənəsində. I. c. B., 2000, s. 289.
[15] Р.Алиева . Первый министр. Газета "Вышка", 14 февраля 2003 г., №6.

Ailəsinin ciddi çalışmalarına baxmayaraq, X.Məlikaslanovun cənazəsini onlara vermədilər. Onu Çəmbərəkənddəki ümumi məzarıstanlıqda dəfn etdilər.

X.Məlikaslanovun ölümündən sonra onun ailəsini yaşadıqları geniş mənzildən (indiki Xaqani küçəsində olan Yazıçılar Birliyinin binasından) çıxarıb Şirşov küçəsindəki evə köçürdülər.

X.Məlikaslanovun xanımı Mariya Viktorovna 1966-cı ildə 86 yaşında Bakıda vəfat etdi. Onların övladları olmadığından X.Məlikaslanov bacısı oğlanları Xosrov və Lütfəlini oğulluğa götürüb saxlamış, böyütmüşdü. Onların savadlı, vicdanlı, zəhmətsevər böyüməsində X.Məlikaslanovun və xanımının ciddi rolu olmuşdur.

X.Məlikaslanovun oğlu kimi böyütdüyü Xosrov Məlikaslanov istedadlı mühəndis-ixtiraçı olaraq, professor adını qazandı və Dövlət Mükafatı laureatı oldu. O, 4 əhəmiyyətli ixtiranın müəllifi olsa da, "xalq düşməni" oğlu adını daşıdığından bu ixtiralarının reallaşmasına imkan vermədilər. O, 1959-cu ildə Sovet İttifaqında ilk dəfə olaraq suyun dərinliyində qazıntı qurğusu ixtira etsə də, ona imkan verilmədi və eyni qurğu böyük vəsaitlə Hollandiyadan alındı. "Şelf-2" ixtirasının müəllifi Xosrov olsa da, o, qəsdən maneçilik törədilməməsi üçün həmin ixtiranı "həmmüəlliflər" kimi təqdim etmişdir[16].

Qeyd edək ki, X.Məlikaslanovun qardaşı Teymur bəy də təhsilini Peterburq Yol İnstitutunda almış, əvvəl Azərbaycanda, sonra da mühacirətdə yaşadığı İranda dəmir yolu nəqliyyatının inkişafında mühüm rol oynamışdır.

[16] Р.Алиева.Первый министр. Газета "Вышка", 14 февраля 2003 г., №6.

# CƏMO BƏY HACINSKİ

(1888 – 1942)



Cəmo bəy Süleyman oğlu Hacınski 1888-ci ilin iyunun 14-də Qubada anadan olub. Gənc yaşlarından Bakıya köçən C.Hacınski burada gimnaziyada təhsil aldıqdan sonra Peterburq Universitetinin hüquq fakültəsində oxuyub. 1914-cü ildə ali təhsilini başa vurduqdan sonra 1915-1917-ci illərdə Batum vilayətində Birinci Dünya müharibəsi dövründə zərər çəkənlərə kömək göstərmək üzrə müsəlman qaçqın komitəsinin müvəkkili olaraq çalışıb.

1918-ci ilin mayın 28-də Azərbaycan Cümhuriyyəti elan olunduqdan sonra C.Hacınski F.X.Xoyskinin yaratdığı birinci Hökumət kabinəsində Dövlət nəzarətçisi vəzifəsini icra edib. 1919-cu ilin martın 14-də N.Yusifbəylinin yaratdığı Hökumət kabinəsində C.Hacınskiyə Poçt və Teleqraf naziri vəzifəsi tapşırılıb. O, bu vəzifəni 1920-ci ilin aprelin 1-nə qədər icra edib.

C.Hacınski Azərbaycan Parlamentinin də üzvü olaraq fəaliyyət göstərib.

1920-ci ildə Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra bir müddət Ədliyyə Komissarlığında çalışıb. 1922-ci ildə o, həbs olunub. Həbsdən azad edildikdən sonra Kənd Təsərrüfatı sahəsində və Azərittifaqda müxtəlif vəzifələrdə çalışıb.

C.Hacınski 1937-ci ildə yenidən həbs olunub və 1942-ci ildə həbsxanada dünyasını dəyişib.

# DÖVLƏT NƏZARƏTÇİSİ, POÇT VƏ TELEQRAF NAZİRİ

Azərbaycanın görkəmli dövlət və siyasi xadimi **Cəmo bəy Süleyman oğlu Hacınski** 1888-ci ilin iyunun 14-də Azərbaycanın Quba rayonunda anadan olmuşdur. O, görkəmli siyasi xadim, Azərbaycan Cümhuriyyəti dövründə parlamentin katibi olmuş Mehdi bəy Hacınskinin (1879-1941) kiçik qardaşıdır.

C.Hacınski gənc yaşlarından Bakıya köçmüş, burada gimnaziyada təhsil almışdır. Onun 1907-ci ildə "Kaspi" qəzetində müxbir olaraq çalışması haqqında da məlumatlar vardır.

C.Hacınski sovet dövründə həbsdə olarkən istintaqa verdiyi ifadələrdə hələ 1905-ci ildən Eser Partiyasının (Sosialist İnqilabçılar Partiyası) üzvü olduğunu bildirmişdir.

C.Hacınski Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuş və 1914-cü ildə oranı bitirmişdir.

Azərbaycan Sovet Ensiklopediyasının 10-cu cildində (s. 156) C.Hacınskinin Nicat Cəmiyyətində fəalliyyəti, Türk Yurdu Cəmiyyətində Azərbaycan incəsənətindən mühazirələr oxuması, "Qubalı" təxəllüsü ilə Azərbaycan və rusdilli mətbuatda müntəzəm çıxış etməsi, tarixi abidələrin bərpası ilə məşğul olması, "Milli nəğmələr" kitabında şeirlərinin dərc olunması və digər məlumatlar qeyd olunmuşdur[1].

Qeyd edək ki, Azərbaycan Dövlət Himninin Cəmo bəy Hacınskiyə aid olması haqqında da Azərbaycan mətbuatında müəyyən məlumatlar dərc olunmuş və istinad olaraq 1919-cu ildə nəşr edilən "Milli nəğmələr" kitabında himnin mətninin sonunda "Cəmo bəy" yazılması əsas götürülür. Eyni zamanda, "Cəmo bəy" adını əsas götürən tanınmış ictimai xadim Cəmo Cəbrayılbəylinin yaxınları isə himnin ona aid olduğunu söyləyir.

C.Hacınski 1915-ci ilin dekabrından 1917-ci ilin aprelinə qədər Batum vilayətində və Dənizkənarı rayonda Birinci Dünya müharibəsi dövründə zərər çəkənlərə kömək göstərmək üzrə Müsəlman Qaçqın Komitəsinin müvəkkili vəzifəsində işləmişdir[2].

1917-ci ilin aprelində o, Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra yaranmış Müvəqqəti Hökumətin Zaqafqaziya Komitəsinin müvəkkili kimi həmin ilin iyul ayınadək bu vəzifəni icra etmişdir. C.Hacınski iyul ayında Zaqafqazi-

[1] Azərbaycan Sovet Ensiklopediyası. X c., B., 1987, s. 156.
[2] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 70.

ya Kəndli Deputatları İcraiyyə Komitəsinin sədr müavini seçilmiş və oradan nümayəndə kimi Rusiya Müəssislər Məclisinə yeni seçkilər üzrə Zaqafqaziya Mərkəzi Komissiyasının sədri vəzifəsinə göndərilmişdir[3].



**C.Hacınski.**

C.Hacınski həbs edilərkən Fevral-Burjua inqilabından sonrakı fəaliyyəti haqqında istintaqa bu məlumatları vermişdir: "Fevral inqilabının əvvəlində, təqribən 1917-ci ilin mayında, yaxud iyununda o zaman Tiflisdə olan və Müvəqqəti Hökumətin Xüsusi Zaqafqaziya Komitəsində və fəhlə-kəndli deputatların diyar mərkəzində işləyən bir qrup şəxslə Müəssislər Məclisinə öz siyahımızı təqdim etmək məqsədi ilə başqa – partiya sosialist qrupu yaratmaq fikrinə düşdük. Bu qrup Müsəlman sosialist bloku adı altında yaradıldı, seçkidə müstəqil siyahı ilə iştirak etdi və Müəssislər Məclisinə iki deputat keçirdi. Bu qrupun tərkibinə Əhməd Pepinov, İbrahim Heydərov, Aslan Səfikürdski, Rza Qaraşarlı, A.Qantəmirov, Məmməd Məhərrəmov, Bağır Rzayev və bir neçə nəfər daxil idi. Zaqafqaziya Seymi təşkil ediləndə bizim qrupdan 7 nəfər seymin tərkibinə daxil olub Müsəlman sosialist bloku adı altında fraksiya yaratdı. Seymin buraxıldığı 26 may 1918-ci ilin dekabrında Azərbaycan Parlamentini çağırmaq qərara alındı və keçmiş Zaqafqaziya Seyminin bütün müsəlman üzvləri Bakıya dəvət edildi. Bakıya gəlib Azərbaycan Parlamentinin tərkibinə daxil olan seymin keçmiş iki bloku – Müsəlman sosialist bloku və Hümmət sosialist firqəsi adı altında birləşdilər və parlamentin buraxılmasına qədər bir yerdə işlədilər. Firqənin tərkibinə S.Ağamalıoğlu, Ə.Pepinov, B.Rzayev, C.Hacınski, Ə.Qarayev, İ.Abdinov, A.Səfikürdski, İ.İsmayılzadə, Q.Camalbəyov, R.Qaraşarlı və b. daxil idilər. Təqribən 1919-cu ilin payızında sosial-demokrat platformasında dayanan firqə üzvləri Azərbaycan SDFP-ni yaratdılar. Bu partiyaya mən, A.Səfikürdski, R.Qaraşarlı və İ.İsmayılzadə daxil olmadıq. Bizim başlıca fikir ayrılığımız məhz həmin vaxt müzakirə olunması gözlənilən aqrar məsələyə görə idi. Azərbaycan Müəssislər Məclisinə seçkilər yaxınlaşırdı. Seçkilər zamanı işsiz qalmamaq üçün 4 nəfərdən ibarət həmin qrup

[3] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 70.

1919-cu ilin noyabr, yaxud dekabrında Azərbaycan Sİ (Xalqçı) partiyasını yaratdılar. Pul vəsaiti və işçilər olmadığı üçün biz partiyanın işini genişləndirə bilmədik"[4].

1918-ci ilin fevralında C.Hacınski Zaqafqaziya Seyminin üzvü, fevralın 28-də isə Seym tərəfindən təsdiq olunmuş Müsəlman fraksiyasının tərkibindəki Müsəlman sosialist blokuna daxil idi.

1918-ci ilin mayın 28-də Tiflisdə keçmiş Qafqaz canişininin sarayında Milli Şuranın sədr müavini H.Ağayevin sədrliyi ilə keçirilən ilk iclasda müzakirə edilən 3 məsələdən biri də seymin buraxılması və Gürcüstanın öz müstəqilliyini elan etməsi ilə əlaqədar Azərbaycanda vəziyyət idi.

Üçüncü məsələ ilə bağlı məruzə edən X.Xasməmmədov Azərbaycanın müstəqil cümhuriyyət elan edilməsinin vacibliyini bildirdikdən sonra N.Yusifbəyli, Ə.Şeyxülislamov, M.H.Seyidov və digərləri də bu fikri dəstəkləyən çıxışlar etdilər. Geniş müzakirədən sonra 24 nəfərlik Milli Şura üzvündən 22-si (S.M.Qəniyev və C.Axundov bitərəf qalmaqla) səs verməklə Cümhuriyyətinin elanı barədə qərarı qəbul etdilər. Azərbaycanın İstiqlal Bəyannaməsinin qəbuluna səs verib imza atanlardan biri də Cəmo bəy Hacınski idi[5].

Azərbaycan Milli Şurasının tapşırığı ilə F.X.Xoyski Azərbaycan Cümhuriyyətinin birinci müvəqqəti Hökumətini təşkil etdi və C.Hacınski Dövlət nəzarətçisi vəzifəsini yerinə yetirməyə başladı.

**C.Hacınski N.Yusifbəylinin yaratdığı dördüncü (14.03.1919 – 24.12.1919) və beşinci (26.12.1919 – 01.04.1920) Hökumət kabinələrində Poçt və Teleqraf naziri vəzifəsini icra etmişdir. O, həm də 1918-ci ilin dekabrın 7-dən fəaliyyətə başlayan Azərbaycan Parlamentinin üzvü seçilmişdir.**

**C.Hacınski Azərbaycan Cümhuriyyəti dövründə rabitə sisteminin** də **inkişaf etdirilməsində mühüm xidmətlər göstərmişdir. Görkəmli iqtisadçı Məmmədhəsən Baharlı (1896-1943) bununla bağlı 1921-ci ildə məqalə də yazmışdır.**

Qeyd edək ki, Azərbaycan Cümhuriyyəti dövründə ilk dəfə 1918-ci ilin iyulun 3-də Poçt və Teleqraf Nazirliyinin əsası qoyuldu. 1918-ci ilin sentyabrından başlayaraq poçt-teleqraf xidmətinin, poçt daşınmalarının, dağıdılmış teleqraf xətlərinin bərpasına başlanıldı.

---

[4] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS-20251 saylı istintaq işi, v. 25-26.

[5] Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şura iclaslarının protokolları. 1918-ci il. Протоколы заседаний Мусульманских фракций Закавказского Сейма и Азербайджанского Национального Совета. 1918 г. Б., 2006., s. 18-20.

1919-cu ilin sonlarına doğru Azərbaycanda 54 poçt-teleqraf xətti və bir şəhərlərarası telefon stansiyası yaradılmışdı[6].

Bundan əlavə, Azərbaycanda teleqraf stansiyası, radiostansiya və poçt-teleqraf məktəbi də açılmışdı.

1920-cu ilin martın 1-də Azərbaycan Hökumətinin qərarı ilə Poçt və Teleqraf Nazirliyi nəzdində Azərbaycan Teleqraf Agentliyi – AzərTAC yaradıldı[7].

Eyni zamanda, Gürcüstan və Ermənistanla poçt-teleqraf müqavilələri imzalanır, poçt-teleqraf məlumatlarının çatdırılması bərpa olunurdu.

Bundan əlavə, Azərbaycanın Parisdə olan Nümayəndə heyəti Fransanın poçt və teleqraf şirkətləri ilə Azərbaycan Cümhuriyyətində dünya stndartlarına uyğun poçt-teleqraf işlərinin aparılması və Gəncə radiostansiyasının Eyfel qülləsindəki ötürücü vasitəsi ilə Avropa radiostansiyalarına qoşulmasının təmini haqqında razılaşma əldə etmişdi. Razılaşmaya uyğun olaraq Azərbaycana lazımi avadanlıqlar və mütəxəssislər göndəriləcəkdi[8].

Azərbaycan Nümayəndə Heyətinin rəhbəri Ə.M.Topçubaşovun 1919-cu ilin noyabrın 6-da Eyfel qülləsindəki radiostansiyadan birbaşa Gəncə radiostansiyasına – Nazirlər Sovetinin adına göndərdiyi teleqramda yazılırdı: "İlk Azərbaycan radiosunun fəaliyyətə başlaması münasibəti ilə Sizi təbrik edirəm və bu, bizim vətənimizin iqtisadi-mədəni həyatında mühüm rol oynayacaqdır"[9].

1919-cu ilin martın 14-dən 1920-ci ilin aprelin 1-nə qədər isə Azərbaycanın Poçt və Teleqraf naziri vəzifəsini Cəmo bəy Hacınski yerinə yetirmişdir. Əsası A.Səfikürdski tərəfindən qoyulan poçt və teleqraf sisteminin inkişafında C.Hacınskinin də böyük xidmətləri vardır.

C.Hacınski Azərbaycan Parlamentinin də üzvü olaraq çalışırdı.

C.Hacınskinin Azərbaycan Parlamentində fəaliyyətinə az rast gəlmək mümkündür. Onun parlamentdə müzakirə edilən məsələlərdə iştirakı faktı 1918-ci ilin dekabrın 15-nə aiddir. Həmin gün parlamentin 3-cü iclası keçirilirdi. İclas H.Ağayevin sədrliyi, Ə.Cövdətin (Pepinovun) katibliyi ilə açıldı. İclasda yeddiyə qədər məsələ müzakirəyə çıxarıldı: 1) Daxil olan kağızlar; 2) Etibarnamə komissiyasının məruzəsi; 3) Tərtibat və təzminat komissiyasının məruzəsi; 4) Heyəti-rəyasayə baş katib seçilməsi; 5) Büdcə komissiyası seçkisi; 6) Fəhlə ko-

---

[6] М.Дамиров. Организация государственной власти в Азербайджане (1918-1920 гг). Одесса, 1998, с. 96.

[7] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 51, s. 1, i. 2, v. 103.

[8] М.Дамиров . Организация государственной власти в Азербайджане (1918-1920 гг). Одесса, 1998, с. 97.

[9] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 145, v. 109.

missiyası seçkisi; 7) Məclisi-müəssisan dəvəti üçün seçki qanunu verəcək komissiya seçkisi.

Parlamentdə müzakirə edilən 3-cü məsələ Tərtibat və Ləvazimat Komissiyasının sədri Abbasqulu Kazımzadə tərəfindən təqdim edildi. A.Kazımzadə parlamentin birillik büdcəsinin üzvlər tərəfindən qəbul olunmasını xahiş etdi. Sonra müzakirələr başlandı.

Müzakirələrdə ilk olaraq M.Ə.Rəsulzadə, Ə.Şeyxülislamov, A.Səfikürdski çıxış etdilər.

Bu müzakirədə çıxış edən C.Hacınski dedi: "Mən özüm Tərtibat və Ləvazimat Komissiyasının üzvüyəm. Bu məvacib müzakirə edildikdə parlament üzvlərini də nəzərə aldıq. Komissiya qərar verdi ki, nəinki qulluqçular və bəlkə üzvlər də lazım olan bir para şeyləri ucuz əldə etsinlər"[10].

Sonra C.Məlikyeqanov çıxış etdi. M.Ə.Rəsulzadə, A.Kazımzadə, Ə.Cövdət müdaxilələr etdilər. Növbəti dəfə C.Hacınski müzakirəyə qoşuldu: Mən sədr olduğuma görə təbiidir ki, etiraz edənlərə deyil, qulluqçular mənə müraciət edəcəklər. Ona görə də mən burada smetanın təsdiqini təklif edirəm. Beləliklə, smeta geri qaytarılmaz"[11].


СЕКРЕТНО.

Министръ Почтъ и Телеграфа Азербайджанской Республики

15. марта 1919

№ 3

г. БАКУ

Для телеграммъ: МИНПОЧТЕЛЬ

Господину Министру Внутреннихъ Дѣлъ

На отношение Ваше отъ 10 сего марта за №2675 сообщаю, что контроль надъ телефонными переговорами весьма занимаетъ и меня, но дѣло необходимо обставить въ условiяхъ приличествующихъ нормамъ правовы[го] государства. По этому поводу я б[у]ду имѣть возможность лично говорить съ Вами въ весьма недалеком[ъ] будущемъ, и надѣюсь, что мой про[]ектъ будетъ Вами вполнѣ одобрен[ъ].

Министръ Почтъ и Телеграфа

Директоръ Канцелярiи

И.Д. НАЧАЛЬНИКА ОТДѢЛА

**Nazir C.Hacınskinin Daxili İşlər nazirinə məktubu. 15 mart 1919-cu il.**

Sonra çıxış edən A.Kazımzadə parlament üzvlərinə maaş verilməsinin vacibliyini vurğuladı. Ş.Rüstəmbəyli bəzi parlament üzvlərinin hökumət qulluğundan da maaş aldıqlarını və iki yerdən məvacibin düzgün olmadığını bildirdi.

M.Ə.Rəsulzadə bu məsələnin qanun şəklində Məclisdə qəbulunu uyğun hesab edərək fikrini belə yekunlaşdırdı: "Dövlət xidmətində olanların maaşları başqa yerlərdə parlament maaşından çox olar isə buradan almamalıdırlar".

M.Ə.Rəsulzadədən sonra Ə.Cövdət bəy təklifin müzakirəyə qoyulmasını bildirdikdə, C.Hacınskinin mü-

---

[10] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 89.
[11] Yenə orada, s. 91.

nasibəti belə oldu: "Mən elə zənn edirəm. O nakaz (təklif-red) ki, hazır olacaqdır, o, iki ay çəkəcəkdir. Belə bir təklif Seymdə hazırlanmadı. Təklif edirəm, bu məsələni əsasən qəbul edək, o üzvlər ki, başqa xidmətdədirlər, qulluqlarından əl çəkməlidirlər; nazir və nazir müavinlərindən başqa"[12].

Müzakirənin sonunda M.Ə.Rəsulzadənin "Dövlət xidmətində olanlar başqa yerlərdə parlament maaşından çox olarsa, buradan almamalı, əks surətdə təfavütünü almalıdır" təklifi qəbul edildi.

Parlamentin 1919-cu ilin yanvarın 16-da keçirilən 8-ci iclasında 9-a yaxın məsələ və 10-cu olaraq Nuxa və Zaqatala qəzalarının adi yolları haqqında Əhrar Komissiyasının Hökumətə təqdim etdiyi sorğu müzakirəyə qoyuldu.

Sonra parlament sədrinin müavini H.Ağayev Nizamnamə Komissiyası tərəfindən kvorum haqqında qanun olmadığından kvorumun təyin edilməsi təklifini irəli sürdü.

Bu məsələyə ilk münasibəti C.Hacınski bildirərək dedi: "Məlum olduğu üzrə, parlament məbuslarının bir qismi hökumətə daxil olub, bir qismi də Avropaya getmişdir. Ona görə də sosialistlər fraksiyası təklif edir ki, kvorum hazır məbusların yarısı qədər, yəni 33 təyin olunsun"[13].

M.Ə.Rəsulzadə isə 1919-cu ilin yanvarın 16-na qədər Parlamentə 82 məbus seçildiyindən kvorumun seçilmiş üzvlərin yarısı qədər – yəni 41 olmağını təklif etdi. M.Ə.Rəsulzadənin təklifi parlament üzvləri tərəfindən qəbul olundu.

Parlamentin sonrakı iclaslarındakı müzakirələrdə C.Hacınski fəallıq göstərmir. Qeyd edək ki, C.Hacınski parlamentdə sosialist firqəsinin üzvü olaraq təmsil edilirdi.

1920-ci ilin 27 aprelində Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra C.Hacınski Ədliyyə Komissarlığında inzibati-maliyyə şöbəsinin rəisi vəzifəsində çalışmışdır. Lakin sonrakı illərdə onun sovet rejimində rahat yaşaması qeyri-mümkün olmuşdur. Bolşeviklər Azərbaycan Cümhuriyyətinin keçmiş Dövlət müfəttişi və nazirinə inanmırdılar. C.Hacınski Sovet hakimiyyətinə qarşı əksinqilabi fəaliyyətdə günahlandırılırdı. O, həm də Azərbaycanda Eser (Sosialist İnqilabçılar) Partiyasının Zaqafqaziya təşkilatının liderlərindən olmuş şəxs kimi də ittiham edilirdi.

Odur ki, 1922-ci ilin 27 aprelində C.Hacınskini əsassız ittihamlarla həbs etdilər. 1922-ci ilin mayın 29-da isə ağır istintaq prosesi başladı. Az.SSR Fövqəladə Komissiyasının müvəkkili Valik ilk olaraq ona SİP (yəni Sosialist İnqilabçılar Parti-

---

[12] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 92.
[13] Yenə orada, s. 174.

yası) haqqında sual verir, A.Səfikürdskinin mənzilində keçirilən yığıncaqla maraqlanırdı[14]. C.Hacınski həqiqətən elə bir toplantının olduğunu, orada konkret iş barəsində danışılmadığını bildirdi. İstintaq prosesində müstəntiq istədiyi cavabları almasa da, C.Hacınskiyə 3 il azadlıqdan məhrum edilməklə cəza kəsildi.

1923-cü ilin aprelin 11-də C.Hacınskinin də daxil olduğu 12 nəfərlik dustaq qrupunu Moskvaya-Butırsk həbsxanasına göndərdilər. Həbsxanada onlara qarşı çox sərt rejim yaradıldı. Mövcud həbsxana qaydalarına etiraz olaraq məhbuslar aşağıdakı şərtləri irəli sürərək aclıq etdilər: "1) Uzun müddətə məhkum edilmiş şəxslər kimi bizi hər birimizin məşğul olmasının mümkün olduğu və quru kameralarda yerləşdirsinlər, indi hamımız nəm kamerada saxlanılırıq; 2) Bizi burada saxlanılan sosialist yoldaşlarımızla birləşdirməyi tələb edirik; 3) Gəzinti müddəti uzadılmalıdır, indiki 1 saat kifayət deyil; 4) Ərzaq təminatının yaxşılaşdırılmasını tələb edirik; 5) Həbsxana müdiriyyətinin bizimlə nəzakətlə davranmasını tələb edirik; 6) Tamamilə yolverilməz və qəzəbləndiricidir ki, zəruri ehtiyacların ödənməsi üçün çıxmağa da icazə verilmir; 7) Bizə həqiqi tibbi xidmət göstərilməsini tələb edirik; 8) Məktub, baratın ayda bir dəfə göndərilməsi bizi qane etmir, buna görə də onların sayının artırılması arzu olunur. Bütün bu tələblərin yerinə yetirilməsi ona görə vacibdir ki, iki il ərzində bu həbsxanada sağlamlığını xeyli dərəcədə itirmiş bizlər əlil olmayaq. 11 may 1923-cü il bəyanatımıza cavab olaraq bizə baş çəkəcəyinizə, qeyri-müəyyən vəziyyətimizi aydınlaşdıracağınıza vəd vermişdiniz, ancaq vədinizi yerinə yetirmədiniz. Mayın 15-nə qədər də gəlmədiniz. Buna görə də bu gün səhərdən (15 may) biz tələblərimizin yerinə yetiriləcəyi vaxta qədər aclıq elan edirik. 12-ci dəhliz, otaq 52"[15].

Aclıq edənlər arasında Azərbaycan Cümhuriyyətinin iki naziri də vardı: C.Hacınski və A.Səfikürdski.

C.Hacınskinin həbs müddəti (o, Çelyabinskdəki həbsxanada saxlanılırdı) 1925-ci ilin aprelin 11-də başa çatsa da, ona (eləcə də A.Səfikürdskiyə) Zaqafqaziyada, Şimali Qafqazda, sərhədyanı ərazilərdə, Moskva və Leninqrad quberniyalarında yaşamaq qadağan edildi[16]. Bu səbəbdən o, əlavə üç il də Azərbaycandan kənarda – Arxangelsk vilayətində Solovki həbsxanasında saxlanıldı.

C.Hacınski həbsxana həyatını başa vurduqdan sonra 1928-ci ilin iyulunda azad edilərək Bakıya qayıtdı. Həmin aydan etibarən Respublika Kənd Təsərrüfatı

[14] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS-20251 saylı istintaq işi, v. 14.
[15] Yenə orada, v. 32.
[16] Yenə orada, v. 267.

Kooperasiyası İttifaqında (Göybirliyi) plan şöbəsinin katibi və sonra müdiri vəzifələrində çalışdı[17].

C.Hacınskinin 1938-ci ildə həbsxanada verdiyi ifadələrdən məlum olur ki, o, 1930-1931-ci illərdə Tiflisdə Zaqafqaziya Kənd Təsərrüfatı idarəsində də çalışıb.

C.Hacınski 1933-cü ilin noyabrın 1-dən Azərittifaq sistemində işlədi və 1934-cü ilin noyabrın 6-da Sənaye Kooperasiyasında baş məsləhətçi vəzifəsində çalışdı. Həmin vəzifə 1937-ci ilin yanvarın 7-də ləğv olunduğundan C.Hacınski işdən çıxarıldı.

1937-ci ilin oktyabr ayında C.Hacınskini yenidən həbs etdilər. Bu dəfə o, Azərbaycan SSR Cinayət Məcəlləsinin 72, 73-cü maddələri əsasında məsuliyyətə cəlb olundu. Onun həbsi ilə bağlı tərtib olunan arayışda yazılmışdır: "Cəmo bəy Hacınski: 48 yaş, Bakı şəhər sakini, azərbaycanlı, bitərəf, müəyyən bir məşğuliyyəti yoxdur. Keçmiş Sosialist İnqilabçılar Partiyasının üzvü kimi əksinqilabi eser mövqeyində qalmaqda davam edir və fəal əksinqilabi iş aparır. Yuxarıda göstərilənlər əsasında Cəmo bəy Hacınski həbs edilib, cinayət məsuliyyətinə cəlb olunmalıdır. 4-cü şöbə, 2-ci bölməsinin rəisi leytenant Qalstyan, 21 oktyabr 1937-ci il, 4-cü şöbənin rəisi Sinman bunu təsdiq edir"[18].

Həbs zamanı aparılan qeydlərdən məlum olur ki, o, həmin vaxt Bakıda Krasnaya küçəsi, ev 23-də olan mənzildə yaşayır, həyat yoldaşı Mariya Lvovna Hacınskidir, oğlu Camal 11 yaşında, qızı Nelli isə iki aylıqdır.




**C.Hacınski həbsdə.**

Bu dəfəki istintaqı Martirosov familiyalı müstəntiq aparırdı. Müstəntiqin sualları belə idi: "1) Siz nə vaxtdan SİP-in (Sosialist İnqilabçılar Partiyası) üzvüsünüz?; 2) SİP-də Siz hansı məsul vəzifəni yerinə yetirmisiniz?; 3) Sovet hakimiyyəti qurulduqdan sonra Siz hansı əksinqilabi iş aparmısınız?; 4) SİP-in Sizə məlum olan adlarını deyin; 5) Müstəntiqə məlumdur ki, Siz həbs edilənə qədər

[17] M. Əliyev. Cəmo bəy Hacınski. "Odlar Yurdu" qəzeti, №18, sentyabr, 1989.
[18] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS-20251 saylı istintaq işi, v. 260.

əksinqilabi eser mövqeyində qalmısınız və əksinqilabi iş aparmısınız. Məsləhət görürük, özünüz düzgün ifadə verəsiniz; 6) Siz Bakıda 1919-cu ildə əksinqilabi Müsavat Hökumətində hansı vəzifəni tutmusunuz?”[19].

C.Hacınski eser təşkilatının üzvü olmaqda təqsirləndirilirdi. İstintaqda səsləndirilirdi ki, eser təşkilatının başlıca məqsədi silahlı üsyan yolu ilə sovet hakimiyyətini devirmək, ziyankarlıq, təxribat aksiyaları və partiya, hökumət rəhbərlərinə qarşı terror törətməkdir.

1938-ci ilin 2-3 dekabrında Zaqafqaziya Hərbi Dairəsi Hərbi Tribunalının səyyar qapalı məhkəmə iclası dövlət ittihamçısı və müdafiə olmadan işə baxdı. Stelmaxoviçin sədrliyi ilə aparılan məhkəmə iclasının hökmünə əsasən,“1905-ci ildən Eser Partiyasının üzvü, Azərbaycan sovetləşənə qədər Müsavat Hökumətində işləmiş, keçmiş Poçt və Teleqraf naziri olmuş, Sovet hakimiyyətinə qarşı düşmən mövqedə durmuş, Bakıda fəaliyyət göstərən əksinqilabi Eser təşkilatının üzvü olan C.Hacınski Azərbaycan CM-nin 21, 64-cü maddələri ilə günahkar sayılaraq 8 il müddətinə ciddi rejimli islah əmək düşərgəsində saxlanılmaqla və 4 il siyasi hüquqlardan məhrum edilməklə, əmlakının yarısı müsadirə olunmaqla azadlıqdan məhrum edilir”[20].

C.Hacınski cəzasını çəkmək üçün Kirov vilayətinin Vyatka 3-cü həbs düşərgəsinə göndərildi və 1942-ci ildə orada vəfat etdi.

Sovet rejimi Hacınskilər ailəsinin sakit yaşamasına imkan vermədi. Onun qardaşı Əhməd Hacınski də 1928-ci ildə RSFSR CM-nin 58-1, 58-2, 58-10 maddələri ilə ittiham olundu və 10 il müddətinə azadlıqdan məhrum edildi.

1955-ci ilin aprelində C.Hacınskinin Hərbi Dəniz Qüvvələrində səkkiz il xidmət etmiş oğlu Camal bəy atasına bəraət verilməsi üçün Dövlət Təhlükəsizliyi Komitəsinin sədri polkovnik Quskova müraciət etdi.

[19] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS-20251 saylı istintaq işi, v. 262.
[20] Yenə orada, v. 270.

# ƏKBƏR AĞA ŞEYXÜLİSLAMOV

(1891 – 1961)



Azərbaycanın tanınmış siyasi xadimi Əkbər ağa Şeyxülislamov 1891-ci ildə İrəvan şəhərində anadan olub. O, ilk təhsilini İrəvan Gimnaziyasında alıb. Gimnaziyada təhsilini başa vurduqdan sonra 1912-ci ildə Peterburq Yol Mühəndisliyi İnstitutuna daxil olub.

1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra o, Azərbaycana qayıdıb. Ə.Şeyxülislamov 1918-ci ilin fevralında Zaqafqaziya Seyminin üzvü seçilib.

1918-ci ilin Mayın 28-də Azərbaycan Cümhuriyyətinin yarandıqdan sonra Ə. Şeyxülislamov F.X.Xoyskinin yaratdığı birinci Hökumət kabinəsində Əkinçilik və Əmək naziri vəzifəsini icra edib.

Ə.Şeyxülislamov 1918-ci ilin dekabrın 7-də fəaliyyətə başlayan Azərbaycan Parlamentinin üzvü olub. O, parlamentdə sosialist fraksiyasının tərkibinə daxil idi.

Ə.Şeyxülislamov 1919-cu ilin yanvarında Azərbaycan Nümayəndə Heyətinin tərkibində Versal Sülh Konfransında iştirak etmək üçün Parisə gedib. 1920-ci ilin yanvarında Azərbaycanın dünya dövlətləri tərəfindən tanınmasında onun da xidməti olub.

1920-ci ildə Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra Ə.Şeyxülislamov Parisdə qalıb ağır mühacirət həyatı yaşayaraq sovet rejiminə qarşı mücadiləsini davam etdirib.

Ə.Şeyxülislamov 1961-ci ilin martın 2-də Parisdə dünyasını dəyişib.

# ƏKİNÇİLİK VƏ ƏMƏK NAZİRİ

Azərbaycan Cümhuriyyətinin tanınmış xadimlərindən sayılan Əkbər ağa İbrahim oğlu Şeyxülislamov 1891-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Orta təhsilini İrəvandakı gimnaziyada aldıqdan sonra Ə.Şeyxülislamov Peterburqa gedib, orada Yol Mühəndisliyi İnstitutunda təhsil almışdır.

1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra yaranmış siyasi vəziyyətlə əlaqədar Ə.Şeyxülislamov təhsilini başa vurmasına baxmayaraq, diplomunu almadan Azərbaycana qayıtmışdır.

1918-ci ilin əvvəllərindən onun siyasi fəallıq dövrü başladı. Ə.Şeyxülislamov həmin ilin fevralında Tiflisdə yaradılan Zaqafqaziya Seyminin üzvü seçildi. O, fevralın 28-də Seym tərəfindən təsdiq olunmuş Müsəlman fraksiyasının tərkibindəki Hümmət (menşevik) Partiyasına daxil idi[1].

Ə.Şeyxülislamov Zaqafqaziya Seymi tərəfindən Osmanlı Türkiyəsi ilə danışıqlar aparmaq üçün 1918-ci ilin martın 1-də yaradılmış Nümayəndə Heyətinin tərkibinə daxil idi və Zaqafqaziya Hökumətində Daxili İşlər nazirinin müavini vəzifəsini icra edirdi.

**1918-ci ilin mayın 28-də Azərbaycan istiqlalı elan edildi və İstiqlal Bəyannaməsinə imza atanlardan biri də Əkbər ağa Şeyxülislamov oldu.**

1918-ci ilin mayın 28-də istiqlalın elanından sonra Milli Şura F.X.Xoyskiyə Azərbaycan Cümhuriyyətinin birinci müvəqqəti Hökumətini təşkil etməyi tapşırdı. F.X.Xoyskinin yaratdığı Hökumətdə Əkinçilik və Əmək naziri vəzifəsi Ə. Şeyxülislamova tapşırılırdı[2].

**1918-ci ilin mayın 29-da Tiflisdə keçmiş Qafqaz canişini sarayında H.Ağayevin sədrliyi ilə Milli Şuranın ikinci iclası keçirildi. İclasda İrəvanın siyasi mərkəz kimi Ermənistana güzəştə gedilməsi müzakirə olundu. Milli Şura üzvü F.X.Xoyski Ermənistanla Azərbaycan arasında sərhəd məsələləri barədə şura üzvlərinin Ermənistan Milli Şura üzvləri ilə keçirdikləri görüş və burada ermənilərin siyasi mərkəz yaratması üçün Aleksandropolun Türk ordusu tərəfindən alındığından İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz olduğunu bildirdi.**

**Bu məsələnin müzakirəsində X.Xasməmmədov, M.Y.Cəfərov və M.Məhərrəmovla yanaşı, Ə.Şeyxülislamov da çıxış etdi. Onlar İrəvanın**

---

[1] M. Əliyev. Əkbərağa Şeyxülislamov. "Odlu Yurd" qəzeti, №22, noyabr 1988.

[2] Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şura iclaslarının protokolları. 1918-ci il. Протоколы заседаний Мусульманских фракций Закавказского Сейма и Азербайджанского Национального Совета. 1918 г. Б., 2006., s. 20.

**Ermənistana güzəştə gedilməsinin tarixi zərurət və bizdən ötrü acı bir həqiqət olduğunu bildirdilər. İrəvan məsələsi səsə qoyulduqda 28 nəfər Şura üzvündən 16-sı bu təklifin lehinə səs vermişdi[3].**

Həmin iclasda ermənilərlə konfederasiya yaratmaq məsələsi də müzakirə edilərək səsə qoyulduqdan sonra qəbul olundu.

Ə.Şeyxülislamovun Azərbaycan Cümhuriyyəti dövründəki fəaliyyətinin ən mühüm göstəricisi onun parlamentdəki çıxışlarıdır. O, parlamentdəki fəaliyyətini 1919-cu ilin yanvarın 9-na qədər davam etdirmiş, sonra Azərbaycan Nümayəndə Heyətinin tərkibində Fransaya getmişdir.

**1918-ci ilin dekabrın 7-də Azərbaycan parlamenti fəaliyyətə başladı.** Parlamentdə təmsil olunanlardan biri də Əkbər ağa Şeyxülislamov idi. O, parlamentdə sosialist fraksiyasının tərkibinə daxil idi.

Parlamentin açılış mərasimi 7 dekabrda gündüz saat 13:25 dəqiqədə oldu. Açılış mərasimində ilk olaraq M.Ə.Rəsulzadə çıxış etdi. Ş.Rüstəmbəyli tərəfindən Ə.M.Topçubaşovun parlamentin sədri, H.Ağayevin sədr müavini olması təklifi irəli sürüldü və qəbul olundu. H.Ağayevin qısa çıxışından sonra söz Nazirlər Şurasının Sədri F.X.Xoyskiyə verildi. F.X.Xoyskinin geniş məruzəsindən sonra M.Ə.Rəsulzadənin yeni Hökumətin təşkilinə qədər hazırkinin fəaliyyətini davam etdirməsi təklifi qəbul olundu. H.Ağayevin təklifi ilə üç komissiya – Etimadnamə, Tərtibat və ləvazimat, Nizamnamə komissiyalarının yaradılması razılaşdırıldı.

İttihad Partiyasının təklifi əsasında formalaşan komissiyalarda Əkbər ağa Şeyxülislamov Nizamnamə komissiyasına üzv seçildi. O, bu münasibətlə çıxış edərək dedi: "Hümmət firqəsi İttihadın arzu etdiyi təklifi qəbul və təbrik edir. Bu məsələni fraksiyada qaldırmaq istəyirdi. Fəqət bugünkü iclasda müzakirə edilməyəcəyini nəzərə alaraq qaldırmadı. Bu məsələnin firqələrin bəyannaməsində oxunmasına təsir etdik... Hər halda əfvi-ümumi və İttihada təşəkkür edirik"[4].

1918-ci ilin dekabrın 10-da parlamentin ikinci iclası keçirildi. İclas Həsən bəy Ağayevin sədrliyi və Rəhim bəy Vəkilovun katibliyi ilə açıldı. M.Ə.Rəsulzadə Türk Ədəmi Mərkəziyyət–Müsavat Partiyası adından bəyannaməni oxuduqdan sonra sosialistlər ittifaqı adından Aslan bəy Səfikürdski çıxış etdi.

Sonra söz Hümmət fraksiyası təmsilçisi Əkbər ağa Şeyxülislamova verildi. O, çıxışında dedi: "Möhtərəm Parlament əzası! Bu gün möhtərəm və səmimi revolyusionerlər (inqilabçılar – red) üçün böyük gündür. Bu asılan bayraq o inqilabın

---

[3] Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şura iclaslarının protokolları. 1918-ci il. Протоколы заседаний Мусульманских фракций Закавказского Сейма и Азербайджанского Национального Совета. 1918 г. Б., 2006., s. 20.

[4] Azərbaycan Respublikası Dövlət Arxivi, f.895, s. 1, i. 1, v.7.

atəşidir. Biz sosialistlər məramnaməmizin üçüncü maddəsində ümum millətlərin azadəliyini və qardaşlığını yazmış və şüarı bayrağımızda qaldırıb yürütmüşük və yürüyürük. Mən üzümü o şəxslərə tuturam ki, bizi beynəlmiləlçilikdə müttəhim və millətə zidd hesab edirlər. Beynəlmiləlçilik ümumi bəşəriyyətin azadə yaşaması və işləməsi deməkdir (*alqışlar*).

Biz deyirik ki, millətin yaşaması onun mədəni və iqtisadi tərəqqisi ilə ola bilər. Müsəlman qövmlərini o yerə çatdırmalıyıq ki, başqaları da müsəlmanların varlığını və onun hüququnun olduğunu anlasınlar. İnqilab genişlənir. İnqilab atəşindən ruh veriləcək. Və bunun bizə köməkliyi var. Hüququmuzu əlimizdən almaq və bayrağımızı yatırmaq istəyənlər! İstənilən müharibə meydanında birinci cərgədə biz sosialistləri görəcəksiniz (*alqışlar*). Bizim iki düşmənimiz var: biri xarici, biri də daxili.

Xarici düşmən o qədər də qorxulu deyildir. Daxili isə xarici düşməndən daha qüvvətlidir. Bunlar Tomsonun yanına qaranlıq künclərdən keçib. Azərbaycanı yıxmaq, milli müqəddəratımızı əlimizdən almaq istəyirdilər (*sürəkli alqışlar*). Biz sosialistlər Azərbaycan Cümhuriyyəti yolunda addımlarımızı bir daha geri götürməyəcəyik (alqışlar). Biz demişik ki, idarəçiliyi fəhlə və kəndçilər sinfinin iştirakı ilə təşkil edilən millətlər yaşayacaqdır...

Torpaq və fəhlə məsələsi burada həll olunmayacaqdır. Biz ancaq Seymdə həll olunan müəyyən məsələləri icraya qoymalıyıq. Fəhlə məsələsində müştərək müqavilə payidar olmalıdır. Mövcud ali imarətlər tikib, rahatlanmağımıza bais olan fəhlələrə köməklik edib, tezliklə onları aclıqdan qurtarmalıyıq. Biz ümumi seçki əsası ilə bu tezliklə Məclisi-Müəssisan çağırılmasını tələb edəcəyik. Özgə millətlər ilə əlaqəyə gəldikdə deyə bilərəm ki, "qardaşlıq ilə bir-birini anlamaq" sözləri yazılmış olan beynəlmiləl bayrağı altında gedənlərin məqsədi, rəyi məlumdur. Biz bu yolda durub və məqsədimizə nail olacağımıza da ümidvarıq.

Bir neçə söz də sosializm haqqında söyləməliyəm. Deyirlər, sosialistlər dövlətliləri və mülkədarları qırmağa dəvət edirlər. Mən bu mənbəri-alidən deyirəm ki, bizlər bəylər və dövlətlilər ilə mübarizə etmirik. Torpaqdan və ziraətdən mənfəətbərdar olmaq üçün mülkədarlıq və sərvətdarlıq əsası ilə mübarizə etmişik. Biz tökülmüş mülkədar qanlarının axıdılmasına nifrət və etiraz edirik.

Qadınlar məsələsinə bir şeyi unutmuş idim. Gərək bir qanun verilsin ki, o qanun üzrə hər bir kişinin bir nəfərdən artıq arvad almağa ixtiyarı olmasın (*gülüş, alqış*).

**Gələcək Hökumətdən tələbimiz bunlardır: 1. Hökumətə daxil olanlar Azərbaycanın istiqlalını müdafiə etməlidir. 2. Hökumət zor ilə deyil, qa-**

**nun ilə iş görməlidir. 3. Bu hökumət Məclisi-Müəssisan qarşısında məsul olmalıdır. 4. Hökumət əcnəbi siyasi ilə əlaqədar olmamalıdır.**

Bu barədə indiki Hökumətdən biz narazıyıq ki, indiyə qədər Avropa ilə münasibət peyda etməmişdir. İstiqlalımıza inanmayanlar hər firqədən olsalar da, Hökumətimizə daxil olmamalıdırlar.

**Yaşasın Azərbaycan Cümhuriyyəti, Gürcüstan, Ermənistan cümhuriyyətləri, Şimali Qafqasya Cümhuriyyətləri və millətlərin qardaşlığı!..** (*alqışlar*)"[5].

1918-ci ilin dekabrın 15-də Azərbaycan Parlamentinin 3-cü iclası keçirildi. Müzakirə edilən əsas məsələlərdən biri Tərtibat və ləvazimat komissiyası tərəfindən hazırlanmış layihə idi. Məruzəni həmin komissiyanın sədri A.Kazımzadə etdi. A.Kazımzadə parlamentin birillik büdcəsinin üzvlərə təqdim olunduğunu söylədi. O, qeyd etdi ki, smeta xərclərində parlamentin dəftərxana müdirinə ayda 2500 rubl, şöbə müdirinə 2000 rubl, sədr katibinə 2000 rubl, tərcüməçiyə 1400 rubl, xidmətçi və telefonçuya 550 rubl verilməsi nəzərdə tutulub. Bundan əlavə, o, bildirdi ki, parlament üzvlərinin maaşı üçün 4 milyon 656 min rubl, 100 min rubl ezamiyyət və sessiyalarda iştiraka görə, yol xərcləri üçün də 12 min rubl, parlament sədrinə 30 min rubl, sədrin iki müavininə 36 min rubl ayrılmalıdır.

Müzakirədə iştirak edən Ə.Şeyxülislamov təqdim olunan bu məqama etiraz edərək dedi: "Həmin məvacib məsələsi müzakirə olunduğu zaman hansı əsaslar nəzərə alındığını bilmirəm. Hökumət 550 rublə məvacib təyin edibsə də, yenə də azdır. Belə bir zamanda, belə az məvacib ilə dolanmaq olmaz. **Hərgah ərzaq işlərində bir qanun olsa idi, bəlkə də dolanmaq imkanı var idi. Lakin elə bir qanunsuz halda yaşayırıq ki, möhtəkirlər geniş bir surətdə müamilədə olurlar. Zəhmətkeşlər əziyyət çəkib müçkülat içərisində yaşayırlar. Əmələ və xadimlərin mənfəətini nəzərə alıb, onların yarım insanca dolanması üçün hər halda məvaciblərini artırmalıyıq. Təkrar edirəm ki, ərzaq qanunu yoxdur.** Xidmətçilərin məvacibini 680 rubladək əskik olmamaq şərtilə təyin edilməsini təklif edirəm. Onun üçün bu qanuna ya bu saat bu gün burada baxılsın, ya komissiya özü dübarə bu məsələni müzakirə etsin"[6].

Qeyd edək ki, bu məsələnin müzakirəsində M.Ə.Rəsulzadə ilə Ə.Şeyxülislamov arasında fikir müxtəlifliyi yaranmışdır.

1918-ci ilin dekabrın 20-də Parlamentin 4-cü fövqəladə iclası keçirildi. İclasın açılışında çıxış edən H.Ağayev bildirdi ki, parlamentin fövqəladə iclas keçirmə-

---

[5] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 1, v.12-21.

[6] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 88.

sinə səbəb iki başlıca hadisədir: birincisi, gürcü-erməni millətləri arasında qeyri-rəsmi müharibənin aparılması və ermənilərin Gəncə qəzasında, Ağdamda, Şuşada, Cəbrayıl və Zəngilanda vəhşiliklər törətməsidir.

Bu məsələlərin geniş müzakirəsində ilk çıxışı Nazirlər Şurasının Sədri F.X.Xoyski etdi. F.X.Xoyskidən sonra Ə.Cövdət (Pepinov), M.Mahmudov, sonra Ə.Şeyxülislamov məsələlərə münasibət bildirdilər. Ə.Şeyxülislamov çıxışında dedi: "Möhtərəm Məclis üzvləri! Bizim sosialistlər mənə bir ağır vəzifə vermişlər. Bu vəzifə bir millətin təqsirləndirilib, o birini müdafiə etməsi deyildir. Borcum deməkdir ki, həqiqəti ayaqlayırlar. Qafqaziya millətləri Rusiya inqilabından sonra öz muxtariyyətlərini əllərinə aldıqda bir yerə toplanıb, öz müqəddəratlarını qüvvətli bir əsas üzərində tikib, gözəl surətdə qurmalı idilər. Fəqət bu olmadı. Qafqaziya millətləri içində milli şovinizm baş qaldırır. Yenə də qanlar çay kimi axıdıldı. Biz sosialistlər bu qiyamətləri qoparanlara qarşı öz etirazımızı buradan bəyan edirik. Əgər bunların qabağı alınmaz isə Qafqaziya qitəsi Balkan yarımadası kimi qan dəryasına dönə bilər"[7].

**Ə.Şeyxülislamov baş vermiş hadisələrin təsadüf olmadığını, ermənilərin bu hərəkətlərinin hazırlanmış bir layihə əsasında baş verdiyini qeyd etdi. O, bildirdi ki, bu layihə daşnaklar tərəfindən hazırlanıb və indi icra edilməkdədir. Ə.Şeyxülislamov Azərbaycan torpaqlarının daşnakların proqramı ilə Ermənistana verilməsinin qəbuledilməzliyini, qan tökülmədən, sülh yolu ilə hüdud məsələsinin həllinin vacibliyini nəzərə çatdırdı.**

Ə.Şeyxülislamov qeyd etdi ki, Azərbaycan Hökuməti çalışıb Ermənistana səfir göndərməklə yanaşı, buraya da onların bir diplomatik elçisinin gəlməsini təmin etməlidir. O, çıxışında vurğulayırdı: "Biz sosialistlər müharibəyə zidd olduğumuz ilə bərabər, rəsmi bir müharibəyə şükr etməliyik. Çünki orada dinc əhalinin hüququnu mühafizəedici qanun vardır. Burada isə müharibə deyil, qoca, qarı, uşaq qırılır. Dinc əhalinin xanimanları dağılıb, özləri çöllərə buraxılır. Bizim parlamana qəti təklifimiz budur ki, Hökumət ermənilər ilə əlaqə yaradıb sülh üzrə bu məsələni həll edib qurtarsın"[8].

Azərbaycan Parlamentinin 1919-cu ilin yanvarın 8-də keçirilən toplantısında isə 4-cü məsələ olaraq İrəvan quberniyası müsəlmanlarının vəziyyəti haqqında ərizə-müraciət oxundu. Həmin sənəd belə adlanırdı: "Azərbaycan Parlamenti rəisinin hüzuruna. İrəvan quberniyası müsəlmanlarının nümayəndələrindən ərizə". Bu sənəd 1919-cu ilin yanvarın 4-də hazırlanaraq aşağıdakı şəxslər tərə-

[7] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 1, v.38-48.
[8] Yenə orada.

findən imzalanmışdı: parlament üzvü Teymur bəy Makinski, parlament üzvü M.Məhərrəmov, parlament üzvü Əkbər ağa Şeyxülislamov, Rəşid bəy İsmayılov, A.Makinski, Yusif Tahirov, A.Sultanov, Paşa bəy".

Ə.Şeyxülislamovun da imzaladığı bu sənəddə 1917-ci ilin dekabrından 1918-ci ilin iyununa qədərki dövrdə İrəvan quberniyası dairəsində erməni silahlılarının iki yüzdən çox müsəlman kəndlərini dağıtması, əhalinin isə dağlara qaçıb məhv olması göstərilirdi. Qeyd olunurdu ki, erməni silahlıları Sürməli qəzasını, İrəvan, Şərur və Eçmiədzin qəzalarının müsəlmanlar ilə məskun bölgələrini işğal edib Naxçıvan tərəfə hücum ediblər. Bu hücumlarda yerli müsəlman əhalini məhv edir, kəndlərindən çıxarıb İrana getməyə məcbur edirlər. Erməni silahlıları müsəlmanlardan təmizlədikləri yerlərə Osmanlı Ermənistanından erməniləri köçürürlər.

Bu ərizə-müraciət oxunduqdan sonra rus icmasının nümayəndəsi Vinoqradov çıxışında yaranmış vəziyyətdən narahatlığını bildirdi. O dedi: "Hər dövlətin xətti-hüdudunu təyin etmək ixtiyarına malik olan ümumcahan konfransının qərarına qədər hər kəsin öz yerində qalmasını tələb edirik"[1].

1919-cu ilin yanvarında Ə.Şeyxülislamovun da daxil olduğu Azərbaycanın Sülh Konfransına gedən Nümayəndə Heyətinin təntənəli yolasalma mərasimi oldu. Başda Nazirlər Şurasının Sədri F.X.Xoyski olmaqla nazirlər, parlamentin əksər üzvləri dəmiryolu vağzalına toplaşmışdılar. Heyət yola düşməzdən öncə ilk olaraq M.Ə.Rəsulzadə, sonra Ə.Cövdət (Pepinov) və Ə.Ağaoğlu çıxış etdilər[2].

Bu, Əkbər ağa Şeyxülislamovun Azərbaycanda keçən son günü idi. Bundan sonra o, ömrünün sonunadək Fransada qalıb, ağır mühacirət həyatı yaşamağa məcbur olacaqdı.

**Qeyd edək ki, Ə.Şeyxülislamov mühacirətdə olduğu illərdə** də **sovet rejiminə qarşı mübarizəsini davam etdirmişdir.**

1924-cü ilin payızından başlayaraq Polşa dövləti Marşal Pilsudskinin başçılığı altında Qafqaz mühacirlərinin bir təşkilatda birləşdirilməsi xəttini gücləndirməyə başladı. Bu məqsədlə Polşanın Türkiyədəki rəsmi təmsilçisi Roman Knoll tərəfindən İstanbulda Qafqaz Konfederatorlarının Birliyi Komitəsinin yaradılması qərara alındı[3]. Komitə üzvlüyünə Gürcüstanın, Azərbaycanın və Şimali Qafqazın sağ meyilli siyasi təşkilatlarının hər birindən üç nəfər daxil edildi. Həmin Komitədə Gürcüstanı – A.Asatiani, D.Vaçnadze, M.Sereteli; Azərbaycanı – X.Sultanzadə, Ə.Əmircanov və Ə.Şeyxülislamov; Şimali Qafqazı – V.Sabutay, Ə.Qantəmir və A.

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 155.
[2] "Azərbaycan" qəzeti, 10 yanvar 1919, №84.
[3] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения "Прометей". Сборник документов. М., 2012, с.7.

Namitov təmsil edirdilər. Bu Komitənin yaradılmasında başlıca məqsəd bolşevizmə qarşı mübarizədə Qafqazdan olan təşkilatların birliyini yaratmaq idi.



**Ə.Şeyxülislamov Azərbaycan Nümayəndə Heyəti ilə birlikdə (soldan dördüncü). Paris, 1919-cu il.**

Qeyd edək ki, 1924-cü ilin oktyabrında İstanbulda 3 Qafqaz Respublikasının – Azərbaycanın, Gürcüstanın və Şimali Qafqazın məsul siyasi xadimləri tərəfindən bu respublikalar arasında Konfederasiya yaradılması haqqında ittifaq aktını Azərbaycan adından imzalayanlardan biri də Ə.Şeyxülislamov oldu (X.Sultanzadə və Ə.Əmircanovla birlikdə).

Ə.Şeyxülislamov yaradılan bu ilk təşkilatda fəaliyyət göstərirdi. Əlavə edək ki, Sovet dövləti ilə Türkiyə arasında münasibətlərin yaxşılaşmasına, 1925-ci ilin dekabrın 17-də hər iki dövlət arasında dostluq və neytrallıq haqqında müqavilənin imzalanmasına baxmayaraq, mühacirlər 1931-ci ilə qədər bu ölkədə sovet rejimi əleyhinə təbliğat işləri apara bilirdilər.

Ə.Şeyxülislamovun 1920-ci illərdəki fəallığını təsdiqləyən sənədlər çoxdur. 1924-cü ilin dekabrın 14-də İstanbulda yaşayan Azərbaycan ictimai-siyasi xadimləri birləşmiş qrupunun Ə.M.Topçubaşova ünvanladığı məktubu X.Sultanov, Ə.Əmircanov, T.Makinski ilə birgə Ə.Şeyxülislamov da imzalamışdır. Həmin məktubda bütün ictimai-siyasi, antibolşevik qüvvələrin birləşdirilməsi, Vahid Qafqaz Konfederasiyası platformasında Gürcüstan və Şimali Qafqaz dağlıları ilə yaxınlaşmaq, Parisdəki Azərbaycan Nümayəndə Heyətini yeganə hüquqi təşkilat ola-

raq qəbul etmək, oradakı nümayəndələrin Qərblə çalışmasını, İstanbuldakıların isə Şərqdə və yerlərdə təşkilati işlə məşğul olmasını vacib saymaq və digər məsələlər qeyd olunmuşdu[4].

**1925-ci ilin avqustun 15-də Qafqaz Konfederatorlarının Birliyi Komitəsinin rəhbərləri X.Sultanzadə (Sultanov), Ə.Şeyxülislamov və Ə.Əmircanov Ə.M.Topçubaşova məktub göndərdilər. Məktubda onlar Ə.M.Topçubaşovdan Parisdəki azərbaycanlı neft-sənayeçilərindən rus monarxistlərinin qurultayında iştirakın qəbuledilməzliyini onların diqqətinə çatdırmağı xahiş etdilər. Ə.Şeyxülislamovun da imzaladığı məktubda yazılmışdı: "Cənab Əlimərdan bəy! Aldığımız məlumata görə, avqustun 29-da keçiriləcək monarxistlərin qurultayında bizim azərbaycanlı neft-sənayeçiləri də dəvət olunub. Hazırkı siyasi məqamda monarxistlər Rusiyanın ictimai və siyasi təşkilatlarının onlara olan münasibətindən Qərbin diplomatik dairələrində öz işləri üçün faydalanmaq istəyirlər. Azərbaycanlı neft-sənayeçilərinin monarxistlərin qurultayında iştirakı Azərbaycanın azad edilməsi işinə zərərlidir və bağışlanılmazdır. Odur ki, biz, Azərbaycan Nümayəndə Heyətinin sədri olaraq Sizə müraciət və xahiş edirik ki, azərbaycanlı neft-sənayeçilərini xəbərdar edəsiniz ki, atılan addım Qafqaz Konfederasiya Komitəsi tərəfindən diqqətə alınacaq və antimilli hərəkət sayılacaq"[5].**

Ə.Şeyxülislamovun 1925-ci ilin noyabrın 9-da İstanbuldan Ə.M.Topçubaşova göndərdiyi məktubda isə müsavatçılarla (xüsusən M.Ə.Rəsulzadə ilə), gürcü-sosial demokratları ilə apardığı danışıqlar haqqında onu məlumatlandırırdı. Onun bu danışıqları aparmaqda başlıca məqsədi onların nümayəndələrinin Qafqaz Konfederatorları Birliyi Komitəsinə daxil olmasını təmin etmək idi. Məktubdan aydın olurdu ki, bu danışıqları aparmaq heç də asan olmamışdır[6].

Ə.Şeyxülislamov İstanbuldan 1927-ci ilin martın 31-də Ə.M.Topçubaşova göndərdiyi digər məktubda yazırdı: "Çox hörmətli Əlimərdan bəy! Bir müddət əvvəl burada Azərbaycan Milli Mərkəzi yenidən formalaşdı. Milli Mərkəzin tərkibi Nümayəndə Heyətindən, Müsavat Partiyasından, Azərbaycan Sosialistlər Partiyasından, partiyasızlardan və Xosrov bəyin "partiyası"ndan ibarət oldu. Siz Azərbaycan Milli Mərkəzinin sədri seçildiniz və bu haqda Mərkəzin Bürosu Sizi məlumatlandırıb. Güman edirəm ki, çoxdan arzuladığımız Birlik Siz tərəfdən

---

[4] А.М.Топчибаши. Парижский Архив. 1919-1940. В четырех книгах. Книга третья. 1924-1930. М., 2017, с. 160-161.

[5] Yenə orada, s. 227-228.

[6] Yenə orada, s. 248-249.

yaxşı qarşılanacaq və bu birliyin sədri kimi bütün gücünüzü onun ən başlıca məqsədinə – vətənimizin azad olunmasına sərf edəcəksiniz. Mən inanıram ki, Siz bu Mərkəzin rəhbərliyini qəbul edəcəksiniz və Sizi məlumatlandırım ki, mən də oraya formal olaraq sosialist kimi daxil olsam da, real şəkildə Nümayəndə heyətinin üzvüyəm. Beləliklə, Nümayəndə heyəti üzvü cəhətdən Mərkəzlə əlaqəli olacaq. Bunun Mərkəzin işi üçün faydalı olacağı aydındır"[7].

1928-ci ilin iyunun 17-də Ə.Şeyxülislamov Ə.Əmircanova yazdığı məktubda Bülletenin çap olunmadığından şikayətlənir və əgər texniki cəhətdən bu mümkün deyilsə, onda materialların hazırlanması üçün ona göndərilməsini xahiş edirdi. O, eyni zamanda Azərbaycan Milli Mərkəzi ilə bağlı büdcənin hazırlanması haqqında da onun məlumatlandırılmasını vacib sayırdı. Ə.Şeyxülislamov məktubda ona çatacaq vəsaiti almadığından şikayətlənir və maliyyəsiz çalışmağın qeyri-mümkünlüyünü qeyd edirdi. O, məktubda yazırdı: "Mən Sosialist Konqresində olacağam və bütün vaxtı işləməliyəm: sosialist xadimlərlə görüşməliyəm, bir broşur buraxmalıyam və s. Bu işlər isə pul tələb edir"[8].

Qeyd edək ki, Ə.Şeyxülislamov sosialist baxışlara malik olduğundan, mühacirətdəki dövrdə Avropa ölkələrində olan həmin qurumlarla da əlaqə saxlamışdır. Onun 1920-ci illərdə Parisdə Azərbaycan adından II İnternasionalın üzvü olması haqqında məlumat da vardır[9].

Ə.Şeyxülislamov sosial-demokrat partiyaların beynəlxalq birliyi olan Sosialist Fəhlə İnternasionalının 1928-ci ilin avqustunda Brüsseldə keçirilən Konqresində də iştiraka hazırlaşırdı. Əlavə edək ki, Sosialist Fəhlə İnternasionalının əsası 1923-cü ildə qoyulmuş və İkinci Dünya müharibəsində dağılmışdı.

Ə.M.Topçubaşovun, Ə.Şeyxülislamov və M.Y.Mehdiyevin 1928-ci ilin oktyabrın 1-də İstanbuldakı Azərbaycan Milli Mərkəzinin katibliyinə göndərdikləri məktubda isə Azərbaycanın Parisdəki Nümayəndəliyinə maliyyə köməyi göstərilməsi xahiş edilirdi. Məktubda yazılırdı ki, Nümayəndə heyəti iki aya yaxındır heç bir vəsait almır və onların vəziyyəti çox ağırdır. Məktubda Nümayəndə heyətinə təcili olaraq aylıq büdcədə nəzərdə tutulduğundan azı 10 min fransız frankının göndərilməsi xahiş olunurdu[10].

---

[7] А.М.Топчибаши. Парижский Архив. 1919-1940. В четырех книгах. Книга третья. 1924-1930. М., 2017, с. 417.

[8] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения "Прометей". Сборник документов. М., 2012, с. 210.

[9] M. Əliyev. Əkbərağa Şeyxülislamov. "Odlu Yurd" qəzeti, №22, noyabr 1988.

[10] А.М.Топчибаши. Парижский Архив. 1919-1940. В четырех книгах. Книга третья. 1924-1930. М., 2017, с. 540.

1928-ci ilin dekabrın 4-də M.Ə.Rəsulzadə İstanbuldan Azərbaycan Milli Mərkəzinin Baş Katibi Ə.M.Topçubaşova məktub göndərdi. O, məktubda Azərbaycan Milli Mərkəzinin burada keçiriləcək konfransında iştirak məqsədi ilə M.Y. Mehdiyevin və Ə.Şeyxülislamovun gəlməsinə razılığını bildirirdi.

M.Ə.Rəsulzadə məktubda yazırdı: "Çox hörmətli Əlimərdan bəy! Sizin məktubunuzu noyabrın 27-də aldım. M.Y.Mehdiyevin və Ə.Şeyxülislamovun tez gəlməsi çox yerinə düşəcək. Mənim tərəfimdən təqdim olunan və Milli Mərkəz tərəfindən qəbul edilən, bir nüsxəsi Sizə göndərilən tezislərdə konfransın bütün üzvlərinin iştirakı ilə keçirilməsini qeyd etmişdim. Qoy indi dostlarımız viza almaqla məşğul olub məni də məlumatlandırsınlar ki, vizanın tez alınmasına kömək edim. Güman ki, yol xərcləri ödəniləcək. Keçən məktubumda Nümayəndə heyətinə kömək üçün 6000 frankın göndərilməsini yazmışdım. Lakin hazırda Əbdüləli bəyin olmamasına görə pulu göndərmək mümkün deyil. Hər ehtimala qarşı, qoy dostlarımız viza ilə məşğul olsunlar, qalan məsələlər həll ediləcək. Dərin hörmətlə, M.Ə.Rəsulzadə"[11].

Azərbaycan Nümayəndə heyətinin 1929-cu ilin aprelin 6-da keçirilən iclasının protokolundan bir çıxarışda Ə.M.Topçubaşova uzun müddətə məzuniyyət verilməsi qeyd olunub.

Həmin iclasa sədrliyi Ə.Şeyxülislamov etmiş, iştirakçılar isə M.Y.Mehdiyev, C. Hacıbəyli, M.Vəkilov və A.Atamalıbəyov olmuşdular. Nümayəndə heyətinin üzvləri Ə.M.Topçubaşovla görüşdüklərini, ona səhhəti ilə bağlı, öz istəyini nəzərə alıb məzuniyyət verilməsini vacib saymışdılar. İclasda məzuniyyət müddətində Ə.M.Topçubaşova büdcədə nəzərdə tutulan vəsaitin verilməsi də bildirilirdi[12].

Qeyd edək ki, 1929-cu ilin ilin iyunun 5-də Ə.M.Topçubaşov yenidən işinə qayıdıb vəzifəsini yerinə yetirmişdi.

Ə.Şeyxülislamov 1929-cu ilin dekabrın 31-də İstanbuldakı Azərbaycan Milli Mərkəzinin üzvlərinə məktub göndərib Milli Mərkəzin yenidən formalaşması ilə bağlı təkliflərini bildirmişdir. O, məktubda aşağıdakıları qeyd etmişdir: 1) Milli Mərkəz hazırda böhran dövrünü yaşayır; 2) Mövcud qaydalar məsələlərin həllinə imkan vermir; 3) Milli Mərkəz inqilabi yolla formalaşıb; 4) 1928-ci ilin iyununda Ə.M.Topçubaşovla M.Ə.Rəsulzadə arasında imzalanmış razılaşmaya görə Milli Mərkəz Nümayəndə heyətinin işinə müdaxilə edə bilməz, çünki, Nümayəndə heyəti Azərbaycan Hökumətinin mandatı əsasında fəaliyyət göstərir[13].

---

[11] А.М.Топчибаши. Парижский Архив. 1919-1940. В четырех книгах. Книга третья. 1924-1930. М., 2017, с. 560.

[12] Yenə orada, s. 592.

[13] Yenə orada, s. 642-648.

Ə.Şeyxülislamov vəziyyətdən çıxış kimi öz təkliflərini də bildirirdi: 1) İlk olaraq 1928-ci ilin iyunun 1-nə qədərki mövqeyə qayıtmaq, Nümayəndə heyəti ilə normal münasibətlər yaratmaq; 2) Milli Mərkəzin heyətinə bu günə qədər orada təmsil olunmayan partiya və təşkilat nümayəndələrini daxil etmək.

Ə.Şeyxülislamov Əbdüləli bəy Əmircanova 1929-cu ilin mayın 16-da Parisdən yazdığı məktubda qeyd edirdi: "Əzizim Əbdüləli bəy! Sizin 21 aprel 1929-cu il tarixli məktubunuzu aldım. Məktubun məzmunu məni yalnız təəccübləndirmədi, eyni dərəcədə daha çox təəssüfləndirdi. Görünür ki, Siz aramızda inamsızlıq yaradan xoşagəlməz bir təbliğatın qurbanı olmusunuz.

Mən Sizi tənqid etməyəcəyəm və haqq da qazandırmayacağam. Tezliklə, Sizə çatan şayiələrin yalan olduğuna inanacaqsınız. Mən Xəlil bəylə daima əlaqə saxlayıram və yəqin ki, o, Sizi məlumatlandırır. Əlimərdan bəyin uzaqlaşdırılması məlumatı əsassızdır. O, müvəqqəti ezamiyyət xahiş etdi və Nümayəndə heyəti də onun xahişini yerinə yetirdi. Nümayəndə heyətinin qərarı Milli Mərkəzə göndərilib. Bu haqda Ceyhun bəy də bilirdi. Biz əvvəlki kimi görüşürük: mən, Əlimərdan bəy və Ceyhun bəy. Əlimərdan bəy müalicə kursu keçir və ümid edirik ki, tezliklə sağalıb öz vəzifəsini yerinə yetirəcək. Onun müvəqqəti müavini Mir Yaqub Mehdiyev seçilib"[14].

Məktubda Ə.Şeyxülislamov Ə.Əmircanova şəxsi şikayətlərini edir, göndərdiyi məktuba cavab almadığını, ezamiyyətə gedərkən onu məlumatlandırmadığına narazılığını bildirir, ona maddi vəsaitin göndərilmədiyini, yaxud çatmadığını xatırladırdı.

Qeyd edək ki, Ə.Şeyxülislamov 1920-ci illərdə Azərbaycan işğal edildikdən və Nümayəndə heyəti Fransada qalmağa məcbur olduqdan sonra əvvəlcə Fransada yaşamış, Türkiyədə olmuş, İkinci Dünya müharibəsindən sonra isə fəaliyyətini bir müddət Almaniyada davam etdirmiş, sonra yenidən Fransaya qayıtmışdır.

Ə.Şeyxülislamov M.Ə.Rəsulzadə və onun İstanbulda başçılıq etdiyi Azərbaycan Milli Mərkəzinə qarşı çıxır, Azərbaycandan rəsmi olaraq Versal Sülhünə göndərilmiş Nümayəndə heyətini səlahiyyətli sayırdı.

Ə.Şeyxülislamov 1943-cü ildə Ə.F.Düdənginskinin və C.Hacıbəylinin yaratdığı Azərbaycan Milli Birlik Məclisinin də rəhbərliyinə daxil idi. O, Milli Birlik Məclisinin digər üzvləri olan C.Hacıbəyli və İ.Əkbərlə birgə Visbaden bəyannaməsini imzalamışdır.

Mühacirətdəki azərbaycanlılar arasında 1950-ci illərdə də problemlər mövcud idi. Belə ki, İkinci Dünya müharibəsindən sonra sovet rejimi əleyhinə birləşib

[14] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения "Прометей". Сборник документов. М., 2012, с. 219.

mübarizə aparmağa çox ehtiyac duyulurdu. Belə bir vaxtda vahid antibolşevik cəbhənin yaradılmasını vacib sayan Amerikan Komitəsi fəaliyyətə başlamışdır. Amerikan Komitəsi bildirirdi ki, millətlər, xalqlar sovet hökumətinin diktatorluğu altında qaldıqca insanların azad yaşaması mümkün olmayacaq. Odur ki, sovet imperatorluğuna qarşı əzilən millətlər arasında birlik yaradılmalıdır[15].

Amerikan Komitəsinin yardımı nəticəsində bir sıra rus təşkilatlarının iştirakı ilə 1951-ci ilin yanvarın 16-da Almaniyanın Füssen şəhərində konfrans keçirildi və oradakı mühacir ruslar yalnız Rusiyanın ərazi bütövlüyünün qorunması şərti ilə qeyri-rus mühacir təşkilatları ilə işbirliyini mümkün hesab etdiklərini bildirdilər. Yəni onlar çar Rusiyasından sonra yaranmış dövlətlərin (Azərbaycan, Gürcüstan və s.) müstəqilliyini şübhə altına alır, "Bölünməz Rusiya" ideyasını dəstəkləyirdilər.

Amerikan Komitəsinin yardımı ilə 1951-ci ilin noyabrın 7-də Visbaden şəhərində beş mühacir rus təşkilatının və beş də rus olmayan millətlərə mənsub təşkilatların nümayəndələrinin iştirakı ilə konfrans keçirildi. Konfransda ukraynalıların, gürcülərin, türküstanlıların, şimali qafqazlıların tanınmış nümayəndələri iştirak etmirdi.

Konfransda çıxış edən A.Kerenski "Bölünməz Rusiya" ideyasını müdafiə edirdi.

Konfransda Azərbaycan adından Azərbaycan Milli Birlik Məclisi üzvləri olan Ceyhun Hacıbəyli, Əkbər ağa Şeyxülislamov və İsmayıl Əkbər iştirak etmiş, rus mühacirləri ilə birgə bəyannamə imzalamışdılar[16].

Buna etiraz olaraq Türkiyədə yaşayan mühacirlər Milli Birlik Məclisi üzvlərinə ciddi etirazlarını bildirmişdilər. Bununla əlaqədar 1951-ci ilin noyabrın 21-də Ankarada Azərbaycan mühacirlərinin etiraz toplantısı keçirilmiş, başda Kerenski olmaqla "Bölünməz Rusiya" ideyasını müdafiə edənlərlə əməkdaşlığı qəbuledilməz saymışdılar.

Bu hadisə Ə.Şeyxülislamovun da Türkiyədə yaşayan mühacirlərlə münasibətini pisləşdirmişdi.

**Qeyd edək ki, mühacirətdə yaşayan azərbaycanlılar arasında, onların münasibətlərində problemlər mövcud idi. Vətənsizlik, Azərbaycanın işğalı, aparılan mübarizənin uzanması, ağır maddi vəziyyət, şübhəsiz ki, mühacirlərin münasibətlərinə də təsirsiz ötüşmürdü.**

Ə.Şeyxülislamovun siyasi mühacirləri birləşdirib vahid mərkəzdən idarə olunmasını təmin etmək istəyən Ə.M.Topçubaşovla da münasibətlərində gərginliklər yaşanırdı.

---

[15] "Azərbaycan" jurnalı. Münhen, №6-7, 1952, s. 46.
[16] N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 2012, s. 218-221.

1934-cü ildə Ə.Şeyxülislamov "Qafqaz" jurnalında "Azərbaycan mühacirətində" başlıqlı yazısında yenicə dünyadan köçmüş Ə.M.Topçubaşovu tənqid etmiş və onun bu hərəkəti Topçubaşovun ailəsinin etirazına səbəb olmuşdur[17]. Bundan sonra Ə.Şeyxülislamov Milli Mərkəz üzvlüyündən xaric edilmişdir.

Ə.Şeyxülislamov 1950-ci illərdə mühacirət mətbuatında "Azərbaycan necə quruldu" adlı dəyərli bir məqalə də yazıb nəşr etdirmişdir. Həmin məqalədə Azərbaycan Cümhuriyyətinin qurulması prosesi ilə bağlı maraqlı məqamlar vardır. Ə.Şeyxülislamovun ölümündən sonra məqalə İstanbulda nəşr edilən "Mücahid" jurnalında çap edilib[18].

Ə.Şeyxülislamov ömrünün son illərini yoxsulluq və ehtiyac içində keçirirdi. O,1961-ci ildə Parisdə vəfat etdi.O, Paris yaxınlığındakı Bobinyidə – müsəlman qəbiristanlığında dəfn olundu[19].



Ə.Şeyxülislamovun Parisdə məzarı.

Ə.Şeyxülislamovun məzarı sonralar baxımsızlıqdan dağılmışdı. Azərbaycanın 16 ilə yaxın Parisdə, YUNESKO-da çalışmış dəyərli ziyalısı Ramiz Abutalıbovun və Fransada yaşayan azərbaycanlı mühacirlər – Məmmədəli Tacəhmədi və Qədir Süleymanoğlunun köməyi ilə onun məzarı tapılıb təmir olunmuşdur.

**Azərbaycanın tanınmış dövlət xadimi Mustafa bəy Vəkilov Ceyhun Hacıbəylinin vəfatının ildönümü münasibəti ilə İstanbulda Çingiz Göygölün nəşr etdiyi "Mücahid" jurnalında (№53-54, 1962) çap etdirdiyi "Parisdə bir məzar daha" məqaləsində yazırdı: "Bir az o tərəfdə Əkbər ağa Şeyxülislam yatır. Yurdunun qurtuluşu uğrunda gənc yaşlarından bəri bir çox məşəqqətlərə köks gərmiş cəfakeş, idealist Əkbər ağa"[20].**

[17] X. İbrahimli. Azərbaycan siyasi mühacirəti. B., 1996, s. 140.
[18] "Mücahid" jurnalı. İstanbul, 1962, №53-54.
[19] Р.Абуталыбов. Годы и встречи в Париже. М., 2006, с. 150.
[20] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s. 82.

# ƏLİAĞA HƏSƏNOV

(1871 – 1933)



Azərbaycanın tanınmış dövlət xadimi Əliağa Hacı Süleyman oğlu Həsənov 1871-ci ildə Bakıda anadan olub. O, əvvəlcə Bakı Şəhər Gimnaziyasında, sonradan isə Kommersiya məktəbində təhsil alıb. Bakının ictimai həyatındakı fəal iştirakına görə o, Şəhər Dumasına üzv seçilib.

Ə.Həsənov Azərbaycan mətbuatı ilə də əlaqə saxlayıb və Ə.Hüseynzadənin (1864–1940) nəşr etdiyi "Füyuzat" jurnalında məqalələr çap etdirib.

O, 1918-ci ilin martında yaradılan Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü olub.

Ə.Həsənov 1918-ci ilin dekabrın 7-dən fəaliyyətə başlayan Azərbaycan Parlamentinə də üzv seçilib.

Ə.Həsənov Azərbaycan Nazirlər Şurasının Sədri N.Yusifbəylinin başçılığı ilə yaradılan Hökumət kabinəsində (14.03.1919 – 24.12.1919) Maliyyə naziri vəzifəsini icra edib.

Onun rəhbərliyi altında Bakıda 1919-cu ilin sentyabrında Azərbaycan Dövlət Bankı fəaliyyətə başlayıb.

1920-ci ildə Azərbaycan işğal edildikdən sonra Ə.Həsənov Azərbaycanın mədəni-ictimai tədbirlərində iştirak edib.

Ə.Həsənov 1933-cü ilin martın 18-də Bakıda vəfat edib.

# MALİYYƏ NAZİRİ, DÖVLƏT BANKININ SƏDRİ

Azərbaycan Cümhuriyyətinin Maliyyə və Bank sisteminin formalaşmasında tanınmış dövlət xadimi Əliağa Həsənovun böyük rolu olmuşdur.

Ə.Həsənov 1871-ci ildə Bakı şəhərində anadan olmuş, Bakı Şəhər Gimnaziyasında oxuduqdan sonra Bakı Kommersiya məktəbini bitirmişdir. O, türk, ərəb, fars və rus dillərini mükəmməl öyrənmişdir.

Ə.Həsənov Şəhər Dumasının üzvü seçilmiş və Bakıya şollar su kəmərinin çəkilməsində, kanalizasiya şəbəkəsinin yaradılmasında, Dənizkənarı parkın (Bulvarın) salınmasında xidmətlər göstərmişdir[1].

**Ə.Həsənov mətbuatla da əlaqə saxlamış, "Füyuzat" jurnalında məqalələr çap etdirmişdir. Ə.Həsənovun böyük rus yazıçısı L.N.Tolstoyla da dostluq münasibətlərinin olduğu qeyd olunur.**

1917-ci ilin Fevral-Burjua inqilabından sonra Ə.Həsənov Azərbaycanın siyasi həyatında daha yaxından iştirak etdi.

Məlum olduğu kimi erməni silahlı dəstələri 1918-ci ilin martında azərbaycanlılara qarşı soyqırım törətmişdilər. Rusiya ordusu sıralarında xidmət etmiş, Osmanlı Türkiyəsinə qarşı savaşda olmuş erməni silahlıları sonradan Bakıya qayıtmış və S.Şaumyanın göstərişi ilə Bakı Sovetinin qoşun hissələri tərkibinə daxil edilərək, 1918-ci ilin martın 29-31-də 10 mindən çox azərbaycanlını qətlə yetirmişdilər. Bu qırğının qarşısının alınması üçün digər ziyalılarla birlikdə Ə.Həsənov da çalışmışdı. O, soyqırımın son günündə yaradılan Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü olmuşdu[2].

Heç bir partiyaya daxil olmayan, bitərəf mövqedə dayanan Ə.Həsənov 1918-ci ilin dekabrından fəaliyyətə başlayan Azərbaycan Parlamentinin də üzvü seçilmişdi.

Ə.Həsənov F.X.Xoyskinin təşkil etdiyi üçüncü Hökumət kabinəsində (26.12.1918 – 14.03.1919) Maliyyə Nazirinin müavini, 1919-cu ilin yanvarın 16-dan isə Dövlət müfəttişi (ona qədər bu vəzifədə M.Hacınski olub) vəzifələrini yerinə yetirmişdir.

Azərbaycan Nazirlər Şurasının Sədri N.Yusifbəylinin yaratdığı 1-ci (ümumi sayca 4-cü) Hökumət kabinəsində o, Maliyyə naziri vəzifəsini icra etmişdir. Ə.Həsənov bu vəzifədə 1919-cu ilin 24 dekabrına qədər fəaliyyət göstərmişdir.

---

[1] M.Əliyev. Əliağa Həsənov. "Odlar Yurdu" qəzeti, №17, sentyabr, 1989.

[2] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 68.

O, 1919-cu ilin dekabrın 24-də Maliyyə naziri vəzifəsindən uzaqlaşdıqdan sonra (onun yerinə Əhrar Partiyasından R.Qaplanov təyin edilmişdi) Azərbaycan Dövlət Bankının müdiri vəzifəsində çalışdı.

Qeyd edək ki, Azərbaycan Cümhuriyyətinin müvafiq iqtisadi-maliyyə strukturlarının formalaşmasına 1918-ci ilin sonlarından başlanılmışdır. 1918-ci ilin oktyabrın 21-də Nazirlər Soveti qanunvericilik aktına əlavə olaraq Maliyyə Nazirliyi Şurasının hüquqi statusu haqqında qanunvericilik aktına əlavələri təsdiqləmiş, sonradan isə parlament "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında qaydaları" qəbul etmişdir[1].

Eyni zamanda, Maliyyə Nazirliyi yanında şura təşkil olunmuşdu. Həmin Şura Maliyyə Nazirinin sədrliyi ilə təsis edilmiş və 5 həlledici səsə, 4 məşvərətçi səsə malik olan üzvlərdən ibarət idi[2].

Yeni yaradılmış bu sistemin inkişafında Maliyyə naziri Ə.Həsənov önəmli rol oynadı.

Qeyd edək ki, Ə.Həsənova qədər Azərbaycan Cümhuriyyətinin Maliyyə nazirləri – Nəsib bəy Yusifbəyli (28.05.1918-17.06.1918), Əbdüləli bəy Əmircanov (17.06.1918-06.10.1918), Məhəmməd Həsən Hacınski (06.10.1918-26.12.1918), İ.Protasov (26.12.1918-14.03.1919) olmuşlar. Onların hər biri çox ağır vəziyyətdə olan ölkənin maliyyə problemlərinin həllinə çalışmışdırlar.

1919-cu ilin mayın 26-da Azərbaycan Hökuməti Dövlət Bankının yaradılması haqqında qanun layihəsini bəyənərək, parlamentin təsdiqinə verdi. 1919-cu ilin sentyabrın 18-də parlament "Azərbaycan Dövlət Bankı haqqında nizamnamə"ni qəbul etdi[3].

Azərbaycan Dövlət Bankının 1-ci maddəsində qeyd olunurdu ki, bankın yaradılmasında əsas məqsəd pul dövriyyəsinin yüngülləşdirilməsi, qısamüddətli kreditlər yolu ilə ticarətə, sənaye və kənd təsərrüfatına kömək göstərməkdir. Bu həm də pul sisteminin möhkəmləndirilməsinə imkan yaradacaqdı[4].

**1919-cu ilin 30 sentyabrında Azərbaycan Dövlət Bankının təntənəli açılışı oldu. 1919-cu ilin oktyabrın 25-də isə Azərbaycan Dövlət Bankının Gəncə şöbəsinin açılması haqqında qanun qəbul edildi.**

---

[1] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 3, i. 81, v. 15.

[2] М.Дамиров. Организация государственной власти в Азербайджане (1918-1920 гг). Одесса, 1998, с. 86.

[3] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 3, i. 242, v. 67-78.

[4] М.Дамиров. Организация государственной власти в Азербайджане (1918-1920 гг). Одесса, 1998, с. 87.

1919-cu ilin 11 oktyabrında Azərbaycan Parlamenti "Azərbaycan Dövlət Əmanət kassaları haqqında nizamnamə"ni təsdiqlədi və digər bölgələrdə də əmanət kassalarının açılıb fəaliyyət göstərilməsinə şərait yarandı.

1919-cu ilin iyulun 15-də xarici valyutanın kursunun müəyyənləşdirilməsi üçün Bank birjası yanında ayrıca komitə yaradıldı.

**Azərbaycan Cümhuriyyətinin maliyyə sistemini möhkəmlədən bu işlərin reallaşmasında nazir Ə.Həsənovun ciddi fəaliyyəti var idi.**



**Ə.Həsənov.**

Ə.Həsənov həm də neft gəlirinin əldə olunmasına diqqət edirdi. Neft sənayesi sahəsində görülən tədbirlər nəticəsində neft hasilatı əvvəlki dövrlə müqayisədə yüksəlmişdi. Əgər 1918-ci ilin avqustunda 11,2 milyon pud neft hasil olmuşdusa, 1919-cu ilin avqustunda bu rəqəm 20,4 milyona çatmışdır[5]. Maraqlıdır ki, Azərbaycan Cümhuriyyətinin mövcudluğu dövründə neft və neft məhsulları ehtiyatı 300 milyon puda yüksəlmişdi.

Bu rəqəmlər və göstəricilər dövlətin iqtisadi siyasətinin düzgün yürüdülməsinin nəticəsi idi.

1919-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin 25, 50, 100, 250 və 500 manatlıq dəyərində dövriyyəyə buraxılan kağız pullarının üzərində Nazirlər Şurasının Sədri N.Yusifbəylinin və Maliyyə naziri Ə.Həsənovun imzaları var idi.

1919-cu ilin sonunda Cümhuriyyət Hökumətinin rəsmi icazəsi ilə Bakıda şəhər idarəsinin 500 manat dəyərində istiqraz vərəqəsi dövriyyəyə buraxıldı. Buraxılan pulların qiymətdən düşməməsi, emissiya həcminin artmaması, devalvasiyaya uğramaması üçün Ə.Həsənov ciddi iş sistemi yaradırdı[6].

Tanınmış dövlət xadimi Ə.Həsənov Azərbaycan Parlamentinin də iclaslarında fəallıq göstərmişdir.

1919-cu ilin mayın 5-də parlamentin 5-ci iclası keçirildi. İclasda 10-na qədər məsələ müzakirə edilirdi. Sonra beş yüz və on milyon manat kağız pul buraxmaq haqqında hökumətin icazə verməsi ilə bağlı qanun layihəsinin müzakirəsi başladı.

[5] Дж.Гаджибейли . Избранное. Б., 1993, с. 19.
[6] M.Əliyev. Əliağa Həsənov. "Odlar Yurdu" qəzeti, №17, sentyabr, 1989.



**Ə.Həsənovun imzası ilə sənəd.**

Parlament üzvü M.Vəkilov hələ ötən 2-ci iclasda bu məsələ ilə bağlı qanun layihəsinin təqdim edildiyini və Maliyyə nazirinin izahat verməli olduğunu bildirdi.

Maliyyə naziri Ə. Həsənov çıxış edərək dedi: "Möhtərəm məbuslar! Azərbaycanın maliyyə və iqtisadi əhvalını təsvir etmək üçün lazım olan materiallar bu gün də əldə deyildir. Bir məmləkətin əhvalını təsvir etmək və onun maliyyə və iqtisadi işlərini bir neçə gündə öyrənmək çətin məsələdir. Bilirsiniz ki, maliyyə nəzarəti iki həftədir ki, bu işlərlə məşğuldur. Və onu ətraflıca izah eyləmək bu günlərdə bizim üçün mümkün deyildir. Lakin müxtəsər də olsa, izahat vermək olar. Əvvəla, bunu istəyirəm ərz edim ki, aləmşümul Cahan müharibəsinin cəmi dünyada sui-təsiri olduğu kimi, bizim məmləkətdə də olmuşdur. Bizim məmləkət də bu bəladan uzaq qalmayıbdır. Beş il tamamdır ki, adi məişət yaşayışı mümkün deyildir. Hər şey öz yolundan çıxmışdır... İndi səfərbərlik başlanıb. Tamam kişilərin işləməsi lazım olan yerlərdə – fabrikalarda, zavodlarda, yəni işlərin məhsulatı ilə gərək mənfəətbərdar olaydıq, iş getməyibdir. Odur ki, məmləkətin məhsulu az olubdur. Məhsul az olanda da dövlət az olur. Biz də müşkülata düçar olmuşuq. Bizim ticarətimiz ki, başlıcası neft ticarətidir, indi pozulubdur. Bazarlar bağlı, yollar bağlı, heç bir yerə çıxmır"[7].

**Ə.Həsənov çıxışında ağır vəziyyətdə olan Azərbaycanın reallıqlarından danışdı. O, qeyd etdi ki, 5 ildir bütün məmləkətdə anarxiyadır və güman edirdik ki, yollar açıq olacaq, mallarımız aparılıb satılacaq və oradan da bizim üçün hazır mallar gələcək. O, bildirdi ki, müharibənin başlanması ilə yollar bağlandı, ciddi problemlər yarandı və çətini odur ki, bu vaxta qədər özümüz üçün mal istehsal etməmişik.**

**Ə.Həsənov fikirlərini konkret müddəalar əsasında parlament üzvlərinə çatdırırdı: "Bu beş ildə nə əkmişik, nə biçmişik. Belə vəziyyət vardır. Dövlət haradan olsun? Gərək əkin əkilsin, yollar açıq olsun, ticarət olsun, əmniyyət olsun"[8].**

[7] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 480.
[8] Yenə orada, s. 482.

**Ə.Həsənov çıxışında bir vacib məqama da toxundu: "Bir haldayıq ki, xalqın mümkünü yoxdur ki, vergi versin. Varı olan da fikir etmir ki, Hökumət gərək öz xərcini-borcunu ödəsin. Hər kəs bu fikirdədir ki, azadlıqdır, vergi vermək lazım deyil. Bu fikir xalqın zehnindən götürülməlidir"**[9].

Ə.Həsənov bildirdi ki, kağız pulları buraxmaqda məqsəd xərcləri qaydaya salmaq, ölkənin fövqəladə xərclərinə sərf etməkdir. O, nəzərdə tutulan 510 milyonun 300 milyonunun çap edildiyini, 210 milyonun qaldığını, hökumətin işinin dayanmaması üçün parlamentin razılıq bildirməsini xahiş etdi. O, eyni zamanda pulun çapdan banka yox, birbaşa xəzinəyə getdiyini, hökumətin öz öhdəsinə götürdüyünə görə ingilislərə pul ayırdığını, türklərin şəhəri tərk etməsindən sonra bankın olmadığını, ingilislər Bakıya gəldikdən sonra bank düzəldib idarə etdiklərini və digər problemlərin mövcudluğunu qeyd etdi.

Ə.Həsənovdan sonra M.Ə.Rəsulzadə, M.Əfəndizadə, Ə.Cövdət, Sultan Məcid Qənizadə, A.Aşurov çıxış edərək məsələyə müxtəlif münasibətlər bildirdilər.

1919-cu ilin mayın 12-də parlamentin 36-cı iclası keçirildi. Müzakirə olunan "Hökumət qulluqçularının faiz əlavəsi haqqında olan qanun layihəsi" ilə bağlı Musa Rəfiyev məruzə etdi. Sonra söz hökumət nümayəndəsi olaraq Ə.Həsənova verildi. O, dedi: "Hökumətdə bir neçə cərəyan vardır. Biri 90 faizdən başlayıb aşağıya qədər faizin artırılması tərəfdarı idi. Bir təklif də var idi ki, 80 faizdən başlayıb aşağı getsin. Bu təklif azlıqda qaldı. Biz təklif edirik ki, 500-dən başlayıb hər iki 150 manata 5 faiz aşağı düşməklə 90 fazidən hesab edilsin. Bir təklif də var ki, bu məvaciblər martın əvvəlindən hesab olunsun. Mart ayında cəmi qulluqçular məvaciblərini iki dəfə alıblar. Martda artıq aldıqları pul çıxılmasın. Hökumət bunu qəbul edibdir"[10].

Ə.Həsənov çıxışında bir problemin olduğunu da vurğuladı: "Bir təklif irəli sürənlər də var ki, maaş əlavələri yanvarın əvvəlindən hesablanıb verilsin".

Ə.Həsənov bu təklifin xəzinəyə böyük zərər verəcəyini qeyd edərək ən uyğun variantın mart ayından hesablanmasını düzgün saydı. Müzakirədə iştirak edən S.M.Qənizadə, R.Qaraşarlı, A.Əfəndizadə, N.Yusifbəyli müxtəlif təkliflər irəli sürdülər.

Parlamentin 1919-cu ilin 26 mayında keçirilən iclasında "Bakı bələdiyyə idarəsinə 5 faizlə 10 milyon borc verilməsi haqqında" qanun layihəsi müzakirə olundu. Əsas məruzəçi olan M.Rəfiyevin çıxışından sonra İ.Əbilov, A.Aşurov, S.Ağamalıoğlu layihəyə münasibət bildirdilər. Maliyyə naziri Ə.Həsənovun çıxışı

[9] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 482.
[10] Yenə orada, s. 569.

belə oldu: "Mən onu demək istəyirəm ki, şəhər idarəsinin böyük xərci məktəblərədir. Məsarifin 25 faizdən artığı məktəblərə xərc olunur. Qabaqkı statistikaya görə, Moskvadan sonra Bakı ikinci şəhərdir ki, nə qədər pulsuz ibtidai məktəbləri var və məcbur olmadığı halda lazımından artıq məktəb açaraq 10 uşaq üçün bir məktəb saxlayıbdır. Bu axırıncı hadisələrə görə məktəblərdə uşaqların qədəri azalıb"[11].

Ə.Həsənov çıxışında bir statistikanı da xüsusi vurğuladı: "Bunu da nəzərə almaq gərək ki, şəhər əhalisinin 10 faizi burjuaziya və orta sinif, 90 faizi fəhlə, qulluqçudur. O xəstəxanalar ki, şəhərin var və şəhər idarəsi məsarifinin 25-30 faizi onlara xərc olunur, hansı dövlətli o xəstəxanalarda yatıb? O xəstəxanalarda yatanların hamısı kasıblar və fəqirlərdir. Heç bir dövlətli gedib orada yatmır. Bakı dövlətli şəhərdir. Ona görə füqareyi-kasibə hər yerdən buraya yığışıbdır. Çıxsan bazara, dəniz kənarına, bir faiz sərmayədar tapsan, qalanı zəhmətkeşlərdir. Bu, bir cəhəti. İkinci cəhəti budur ki, maliyyə cəhətindən etiraz olsa, ərz etməliyəm ki, bu verilən pullar bizim öz işlərimiz üçündür. Bu verilən pullar itmir, hədər getmir. Bu pulları şəhər idarəsi qızıl kimi saxlayır. Vaxtında da sizə qaytaracaqdır. Bakı zəngin şəhərdir. Bələdiyyə idarəsinin özünün mülkü, əmlakı var, artıq sərvətə malikdir. Və pul verməlidir ki, işlərini yaxşı aparsın. Yoxsa xəstəxanalar, məktəblər və qeyri bu kimi camaata xidmət edən müəssisələr bağlansa, Parlament də və Hökumət də zərər çəkər, xərcə düşər. Ona görə camaatı məktəbsiz, xəstəxanasız qoymamalıdır. Onlar da yavaş-yavaş öz işlərini düzəldər, pulları verməkdən aciz olmazlar"[12].

1919-cu ilin avqustun 28-də parlamentin 69-cu iclası keçirildi. İlk müzakirə edilən "Azərbaycan Hökumət Bankının təşkili haqqında qanun" layihəsi idi. Əsas məruzəçi R.Ağabəyov oldu.

Parlament üzvü Ə.Cövdətin (Pepinovun) təklifi ilə layihə maddələr üzrə səsə qoyulmamışdan öncə Maliyyə naziri Ə.Həsənovun izahat verməsi xahiş olundu.

Maliyyə naziri Ə.Həsənov Dövlət Bankının yaradılması ilə parlament üzvlərini məlumatlandırdı: "Dövlət Bankı barəsində olmuş və olacaq bil-cümlə etirazlara cavab verməyə hazıram. Əvvəla, etiraz belə olur ki, açılacaq bankın kənar sözləri var. Naməlum əhvalatları, intriqaları var. Halbuki, bu xüsusda qaranlıq və qapalı bir şey yoxdur. Bank təşkili xüsusunda qəbul etdiyimiz nizamnamə sənədlərindən biri böyük Rusiya daxilindəki banklarda işlənən nizamnamələrdən alınmışdır. Biz bunu qəbul edirik. Bank bir müəssisədir ki, onda qaranlıq olmaz,

[11] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. B., 1998, s. 608.
[12] Yenə orada, s. 609.

doğrudur, ticarət işlərində bir çox təsadüfi ziyanlar olur. Fəqət, bu məsələlər banklara məxsus deyildir. İndiyə qədər Rusiyada minlərcə bank olduğu halda belə bir şey olmamışdır. Ya xüsusi bizim açmaq istədiyimiz bank hökumət bankıdır ki, belə intriqalara qətiyyən meydan verilməz. Bəli, xüsusi banklarda münafiqlər ola bilər və yəni bizim açdığımız banka şəxsi bir mənfəət üçün deyil, ümumcamaata xeyir və mənfəəti üçün açılır. Camaatımızın əksəriyyəti demokratiya sinfinə mənsubdur. Dövlətli qismləri azdır və bir-iki faizdən artıq deyildir. Bu bank ən ziyadə demokratiya əsasları üzərinə qurulan və demokratiyanın mənfəətdar olması üçün açılır. Bankdan ehtiyacı olan kimsələr istifadə edəcək və dövlətlilər heç bir şey qazanmayacaqlar"[1].




**Ə.Həsənovun və N.Yusifbətlinin imzası ilə dövriyyəyə buraxılmış Azərbaycan pulu. 1919-cu il.**

Ə.Həsənov çıxışında Bank yaradılmasının maliyyə işlərinə ciddi təsirini qeyd etdi: "Əgər maliyyə işlərimizi yoluna qoymasaq, digər hərbi və maarif kimi işlərimiz qabağa getməz, çünki ona bağlıdır"[2].

Ə.Həsənov açılacaq yeni bankın köhnəsi ilə heç bir əlaqəsinin olmadığını bildirdi: "Sonra bu bankın keçmiş dövlət bankı ilə əlaqəsindən bəhs etmişdilər. Bunu sizə ərz etməliyəm ki, yeni bankın köhnə bank ilə əlaqəsi yoxdur və olmayacaqdır. O bir bankdır, qalıb öz yerində. Borcu var-yoxdur, işimiz deyil.Yeni bank isə yeni əsas üzrə sizə təqdim edilən nizamnaməyə müvafiq bir surətdə açılacaq. Bu bankın əsas sərmayəsi 50 milyon manat olacaq. 20 milyon manat da ehtiyac sərmayəsidir"[3].

Ə.Həsənov qeyd etdi ki, hazırda ölkədə 35 əmanət kassası var və köhnə kassaların 12 milyon borcunu da ödəməyi üzərimizə götürmüşük, bu borcları ödəməklə xalq arasında etibar da qazanmaq mümkündür.

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 53-54.
[2] Yenə orada, s. 54.
[3] Yenə orada.

Ə.Həsənovun bu məntiqli izahatından parlament üzvləri bank yaradılması haqqında olan layihəni maddələr üzrə oxuyub səsə qoyurlar.

1919-cu ilin noyabrın 27-də parlamentin 101-ci iclası keçirildi. İclasda 600 milyon manat pulun buraxılması ilə bağlı müzakirə davam etdi. Əsas məruzəçi S.Ağamalıoğlu iclasa gecikdiyindən, söz Y.Əhmədzadəyə verildi və geniş müzakirə başladı. Y.Əhmədzadədən sonra M.Ə.Rəsulzadə, Q.Qarabəyli, Malxazov, S.Ağamalıoğlu, Ə.Cövdət, M.Əfəndizadə, B.Cavanşir çıxış etdi və sonra söz Maliyyə naziri Ə.Həsənova verildi. O, dedi: "... Mən maliyyəyə aid olan sözlər barəsində bir neçə izahatı verməyi lazım bilirəm. O şeylər ki, burada nişanlamışam, sıra ilə bir-bir deyirəm. Qara bəy dedi ki, pulumuzun qiyməti yoxdur. Bu, dürüst deyil, zira bizim pulumuz elə təzə bir şeydir. Amma görürük ki, bir çox köhnə pullardan yaxşı haldadır. Məsələn, 3 ay bundan əvvəl bizim kursumuz (Denikin) pulundan 3 faiz aşağı idi. Amma indi 30 faiz yuxarı gedir. Hər nə olsa, o, köhnə bir dövlətin varisidir və onu nəinki rus könüllüsü qəbul edir, hətta ingilis kimi böyük bir dövlət onu pul deyə qəbul edərək hökm vermişdir ki, Batumda ancaq Don pulu qəbul edilsin. Deməli, ingilis kimi böyük bir dövlətin qəbul və təmin etdiyi puldan bizim pulumuz 30 faiz yuxarı gedir"[4].

Qara bəy Qarabəyovun müdaxiləsindən sonra Ə.Həsənov çıxışına davam etdi: "Götürək Kerenski pulunu. Kerenski pulu böyük bir puldur ki, Parisdə, Londonda, başqa dövlətlərdə işləyir. İki ay əvvəl bizim pulumuzun 2000 manatı Kerenskinin 1000 manatı idi, indi bərabər işləyir. Bəlkə çox yerdə Kerenskinin 1000 manatı bizim 800 manatımızdır. Bu saat bizim kassamız Kerenski pulunu qəbul etmir, halbuki qabaqda arzu edirdik ki, kassamıza Kerenski pulu gəlsin. Bir də Behbud xan deyir: pulumuzda yazılıb, rus pulu ilə bərabər işlənsin. O, qabaqda yazılmış bir arzu idi. Amma indi Rusiya nədir, xırda pulları bizimkindən 40 faiz əskik olur"[5].

Ə.Həsənov çıxışında yalnız Azərbaycanda deyil, eləcə də Fransada, Almaniyada da ümumi kağız pulların kursunun aşağı düşdüyünü qeyd edir. O, mövcud problemlərə də toxunur və vergi işlərinin müəyyən sistemə salınmadığını, verginin xalqa tanıdılıb qəbul etdirməyin çətinliyini vurğuladı, əlavə etdi ki, belə işlərin görülməsi üçün digər dövlətlər "əlli illərlə" zəhmət çəkmişlər, təcrübə toplamışlar. Ə.Həsənov ciddi islahatların aparıldığını parlament üzvlərinin diqqətinə çatdırdı, onları məlumatlandırdı ki, xammalın, yunun, pambığın və qeyri bu kimi malların xaricə çıxarılmasına şərait yaradılır və onlardan da

[4] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 166, v. 215-245.
[5] Yenə orada, v.235.

25 faiz vergi alınması haqqında hökumət qərar qəbul edib. O, bundan bir milyard manatdan artıq gəlirin olacağını söylədi. O, bildirdi ki, əgər su yollarımız açılıb Həştərxana neftimiz getsə, neftdən böyük mədaxilimiz olacaq. Ə.Həsənov Azərbaycanın daxildə mühasirə halında olduğunu, ötən ay Batuma az miqdarda nefti çatdırmaqla 50 milyon gəlirin olduğunu, Batuma gedən neft kəmərinin işləyəcəyi halda daha çox qazancın əldə ediləcəyini söylədi. O, gömrükdən smetada bir milyon manat yarım mədaxil hesablandığı halda, hazırda 20 milyon manat mədaxilin daxil olduğunu böyük uğur saydı.

Ə.Həsənovun bu çıxışları onun bacarıqlı Maliyyə naziri olduğunu təsdiqləyirdi.

1920-ci ilin aprelin 27-də Azərbaycan sovet Rusiyası tərəfindən işğal edildi.

Azərbaycan Cümhuriyyətinin süqutundan sonra Ə.Həsənov Azərbaycanın mədəni-ictimai həyatında fəal iştirak etdi, bir müddət Dövlət Bankının müdiri olaraq çalışdı.

Ə.Həsənov 1933-cü ilin martın 18-də Bakıda vəfat etmişdir.

# HƏMİD BƏY ŞAHTAXTİNSKİ

(1880 – 1943)



Azərbaycanın görkəmli ictimai-siyasi xadimi olan Həmid bəy Şahtaxtinski 1880-ci ilin mart ayının 12-də Naxçıvanın Şahtaxtlı kəndində anadan olub. Orta təhsilini Naxçıvan gimnaziyasında başa vurduqdan sonra Odessa Universitetinin hüquq fakültəsində təhsil alıb. Universiteti bitirdikdən sonra H.Şahtaxtinski Yelizavetpol (Gəncə) məhkəməsində andlı müvəkkil olaraq çalışıb. H.Şahtaxtinski siyasi mənsubiyyətinə görə İttihad Partiyasının üzvü idi.

H.Şahtaxtinski Azərbaycan Nazirlər Şurasının Sədri N.Yusifbəylinin 1919-cu ilin dekabrın 24-də formalaşdırdığı və fəaliyyəti 1920-ci ilin aprelin 1-nə qədər davam edən ikinci Hökumət kabinetində (ümumi sayca beşinci) Maarif və Dini Etiqad naziri vəzifəsini icra edib.

H.Şahtaxtinski Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra bir müddət Bakı Dövlət Universitetində mühazirələr oxuyub.

H.Şahtaxtinski 1941-ci ildə istintaqa cəlb olunaraq Arxangelskidəki həbsxanaya göndərilib və 1943-cü ildə orada vəfat edib.

# MAARİF VƏ DİNİ ETİQAD NAZİRİ

Azərbaycan Cümhuriyyəti dövründə Maarif və Dini Etiqad naziri olan Həmid bəy Ağa Xəlil oğlu Şahtaxtinski öz tərcümeyi-halında 1880-ci ilin mart ayının 12-də İrəvan quberniyasının Naxçıvan qəzasının Şahtaxtlı kəndində qulluqçu ailəsində anadan olduğunu, 5 yaşında ibtidai məktəbə getdiyini, ana dili və fars dilini öyrəndiyini, iki il sonra beşillik rus məktəbinə daxil olduğunu, oranı bitirdikdən sonra 1872-ci ildə Naxçıvanda peşə məktəbində oxuduğunu qeyd edir[1].

H.Şahtaxtinski sonradan İrəvan Müəllimlər Seminariyasına daxil oldu, 4 ildən sonra oranı əla qiymətlərlə bitirdi və 1899-cu ildə seminariyada saxlanılaraq Azərbaycan dilindən dərs dedi.

1907-ci ildə H.Şahtaxtinski Odessa Universitetinin hüquq fakültəsinə daxil oldu, ikinci kursda oxuyarkən xəstələnib Bakıya qayıtdı. O, bir il burada qalaraq Bakı Alekseyevsk ali hazırlıq məktəbində müəllim işlədi, bir il sonra yenidən Odessaya gedib təhsilini davam etdirdi, 1912-ci ildə universiteti bitirdi.

H.Şahtaxtinski 1912-ci ildə ali təhsilini başa vurduqdan sonra Bakıya – burada yaşayan ailəsinin yanına qayıtdı. 1913-cü ildən Bakı quberniyası Xalq məktəbləri direktorunun icazəsi ilə müəllimləri hazırlamaq üçün şəxsi kurslar açdı və eyni zamanda əvvəl Ramanada, sonra isə 1916-cı ilə qədər Alekseyevsk peşə məktəbində müəllim olaraq çalışdı.

H.Şahtaxtinski 1916-cı ilin əvvəlində Qafqaz Təhsil dairəsi müdiri Rudolfun əmri ilə Yelizavetpol şəhərindəki Yelizavetpol Müəllimlər Seminariyasına riyaziyyat müəllimi təyin olunaraq, bir il sonra isə keçmiş Yelizavetpol quberniyasının Qazax və Nuxa qəzaları üzrə Xalq məktəblərinin təlimatçısı işlədi.

Tanınmış tədqiqatçı M.Əliyev isə "Odlar Yurdu" qəzetində çap etdirdiyi "Həmid bəy Şahtaxtinski" məqaləsində onun ali təhsilini başa vurduqdan sonra Yelizavetpol (Gəncə) dairə məhkəməsində andlı müvəkkil köməkçisi olaraq iki ilə yaxın çalışdığını, sonra Bakıya köçüb dairə məhkəməsində eyni vəzifədə işlədiyini qeyd edir[2].

1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra H.Şahtaxtinski Tiflisdə keçirilən Müəllimlər qurultayında Müvəqqəti Zaqafqaziya Hökuməti tərəfindən Qafqaz Təhsil dairəsi komissarlığının üzvlüyünə seçildi.

H.Şahtaxtinski 1918-ci ildə Zaqafqaziya Seymi formalaşdıqdan sonra Zaqafqaziya Hökumətinin Xalq Təhsl naziri vəzifəsində çalışdı.

---

[1] L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. II c. B., 2000, s.38.
[2] M. Əliyev. Həmid bəy Şahtaxtinski. "Odlar Yurdu" qəzeti, №16(447), avqust 1989.

1918-ci ildə Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra H.Şahtaxtinski Hökumətin Təhsil işləri üzrə səlahiyyətli nümayəndəsi kimi Qafqaz Tədris Arxivinin Gürcüstan, Azərbaycan, Ermənistan arasında bölünməsi ilə bağlı bir müddət orada qaldı.

1918-ci ilin iyunun 6-da F.X.Xoyskinin Gəncədə formalaşdırdığı ikinci Hökumət kabinetində H.Şahtaxtinski Xalq Maarifi və Dini Etiqad nazirinin (nazir N. Yusifbəyli idi) müavini oldu və 1918-ci ilin oktyabrına qədər orada qalaraq xalq müəllimlərinin təkmilləşdirilməsi üzrə kurslara rəhbərlik etdi. O, bu işləri başa çatdırdıqdan sonra 1918-ci ilin noyabrında Bakıya gəldi.

1918-ci ilin dekabrın 26-da F.X.Xoyskinin formalaşdırdığı üçüncü Hökumət kabinetində də o, Maarif və Dini Etiqad nazirinin müavini olaraq çalışdı[3].

1919-cu ilin martın 14-də N.Yusifbəylinin yaratdığı 1-ci (sayca 4-cü) Hökumət kabinetində H.Şahtaxtinski Maarif və Dini Etiqad nazirliyinin idarəedicisi kimi fəaliyyətə başladı. Lakin sonradan onun Baş Nazir N.Yusifbəyli ilə münasibətlərində fikir ayrılığı yarandığından həmin işdən uzaqlaşmış, 7 ay yarım işsiz qaldı.

1919-cu ilin dekabrın 24-də N.Yusifbəylinin formalaşdırdığı ikinci (sayca 5-ci) Hökumət kabinetində H.Şahtaxtinski Maarif və Dini Etiqad naziri təyin olundu. O, bu vəzifəni 1920-ci ilin martın 5-nə qədər icra etdi. 1920-ci ilin martın 5-dən sonra isə bu vəzifə İttihad Partiyasının üzvü Mirzəməhəmməd Şahsuvarova tapşırıldı.

H.Şahtaxtinski Azərbaycan Cümhuriyyəti dövründə maarif sisteminin inkişafına böyük əmək sərf etdi. O, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasında, Bakı Dövlət Universitetinin açılışının təşkilində önəmli rol oynadı. O, eyni zamanda Azərbaycan Cümhuriyyəti Hökumətinin tapşırığı ilə xalq təhslinin yaxşı mütəxəssisi kimi Ali Pedaqoji İnstitutun yaradılması layihəsini tərtib etməyə başlamış, bu işi Azərbaycan sovetləşəndən sonra axıra çatdıraraq, Xalq Komissarları Sovetinin Sədri N.Nərimanova təhvil vermişdir.

H.Şahtaxtinski məktəb islahatlarının aparılması ilə bağlı müəyyən təkliflər hazırlayıb Hökumətə təqdim etmək üçün Nazirlər Şurasının qərarı ilə 1919-cu ilin avqustun 20-dən sentyabrın 1-dək Bakıda keçirilmiş Azərbaycan müəllimlərinin III qurultayına rəhbərlik etdi. Onun həmin qurultayda geniş məruzəsi dinlənildi.

Qurultayın təklifləri əsasında məktəb islahatlarının aparılması, ümumi təhsilin məzmunca milliləşdirilməsi ilə bağlı proqram, dərslik üzrə Dövlət Proqramı

[3] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 86.

hazırlanması üçün 1919-cu ilin noyabrın 7-də Xalq Maarif Nazirliyi yanında H. Şahtaxtinskinin sədrliyi ilə Hökumət komissiyası yaradılmışdı[4] (5).

H.Şahtaxtinski Azərbaycan Cümhuriyyəti dövründə mövcud olan bir çox mədəni və maarif cəmiyyətləri ilə də sıx əlaqə yaradaraq, həmin təşkilatların rəhbərliyində təmsil olundu.

H.Şahtaxtinski 1919-cu ilin iyulundan İttihad Partiyasının rəsmi üzvü idi və Azərbaycan Parlamentində təmsil olunurdu.

Məlumdur ki, 1917-ci ilin Fevral-Burjua inqilabından sonra təsis olunan Rusiyada Müsəlmanlıq Partiyası 1917-ci ilin sonlarından özünü İttihad Partiyası adlandırdı. Bu partiyanın proqram və əməli fəaliyyətində İslam ideologiyası üstünlük təşkil edirdi. Partiyanın sədri isə sonradan Azərbaycan Parlamentinin üzvü olan Qara bəy Qarabəyov (1871-1953) idi. Qeyd edək ki, H.Şahtaxtinskinin də təmsil olunduğu İttihad fraksiyası Azərbaycan Parlamentində Müsavatdan sonra ikinci güclü fraksiya idi.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra H.Şahtaxtinski Bakı Dövlət Universitetinə dəvət olundu və o, 1930-cu ilə qədər burada müəllim işlədi. Qeyd etmək lazımdır ki, hələ1926-cı ildə H.Şahtaxtinski həmin universitetin tibb fakültəsində də təhsil almışdır. 1929-cu ildə Universitetin yaradılmasının 10 illiyi münasibəti ilə H.Şahtaxtinskiyə professor fəxri adı verildi.

H.Şahtaxtinski 1930-1938-ci illərdə Azərbaycan Tibb İnstitutunda çalışdı.

1940-cı ilin yanvar ayının 5-də Azərbaycan SSR XDİK-in əməkdaşı, Dövlət Təhlükəsizlik mayoru Markaryanın təsdiq etdiyi qərara və Zaqafqaziya dairəsi hərbi prokurorunun sanksiyasına əsasən, XDİK DTİ 3-cü şöbənin 1-ci bölməsinin rəisi baş leytenant Martirosov yanvar ayının 6-da Bakı şəhəri, Karqanov




**H.Şahtaxtinski həbsdə.**

[4] "Azərbaycan müəllimi" qəzeti. 20 may 2011-ci il.

küçəsi 24 ünvanda yaşayan Həmid bəy Xəlil bəy oğlu Şahtaxtlını İran kəşfiyyatı ilə əlaqə saxlamaqda, bu ölkənin xeyrinə çalışmaqda günahkar sayaraq həbsə almağı və məsuliyyətə cəlb etməyi lazım bilir. H.Şahtaxtinski XDİK rəhbərliyinin imzaladığı 23 saylı order əsasında həbs olunur[5].

H.Şahtaxtinski həbs ediləndə ailə vəziyyəti belə idi: Səkinə Şahtaxtinskaya – həyat yoldaşı, 55 yaşında; Aliyə Şabanova – qızı, 32 yaşında; Məsmə Hüseynova – qızı, 30 yaşında; Leyla Şahtaxtinskaya – qızı, 28 yaşında; Səidə Şahtaxtinskaya – qızı, 18 yaşında.

60 yaşlı H.Şahtaxtinskiyə qarşı iztirablı, yorucu işgəncələr 1938-ci ilin yanvar ayından aprelin 26-na qədər davam edən sorğu-suallar çox dözülməz idi.

SSRİ XDİK yanında xüsusi müşavirə 11 iyun 1940-cı ildə H.Şahtaxtinskinin işinə baxdı və o, antisovet millətçi təşkilatda fəaliyyətinə görə islah-əmək düşərgəsində saxlanılmaqla 8 il müddətinə, 1940-cı ilin 6 yanvarından hesablanmaqla azadlıqdan məhrum edildi[6].

H.Şahtaxtinski 1943-cü ilin fevralın 3-də Arxangelsk vilayətindəki həbsxanada ağır şəraitə dözməyib 63 yaşında vəfat etdi.

Qeyd edək ki, Azərbaycan tarixində Şahtaxtinski soyadı ilə çox məşhur olan şəxsiyyətlər vardır: İsa Sultan Şahtaxtinski, Məhəmməd ağa Şahtaxtinski, Əbülfət Şahtaxtinski, Leyla xanım Şahtaxtinskaya, Behbud bəy Şahtaxtinski, Elmira xanım Şahtaxtinskaya və digərləri.

Bu nəslə bağlı olan H.Şahtaxtinskinin Azərbaycan dövlətçiliyi tarixində öz yeri vardır.

---

[5] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS-3435 saylı, Həmid Şahtaxtinskiyə aid istintaq işi, v. 3.
[6] Yenə orada, v. 21.

# KONSTANTİN NİKOLAYEVİÇ LİZQAR

(1882 – 1920)

Konstantin Nikolayeviç Lizqar 1882-ci ildə anadan olub. Azərbaycan Cümhuriyyətinin 3-cü Hökumət kabinetində Ərzaq naziri vəzifəsində çalışıb.

1914-cü ilə qədər Bakıda və Vladiqafqazda mağazalar sahibi olub. 1914-cü ildə leytenant rütbəsi ilə orduya çağırılıb. 499-cu səhra hospitalında, Tiflis avtomobil komandasında, Türküstanda xidmət edib. Xüsusi Zaqafqaziya Komitəsində Yollar komissiyasının kargüzarı və Yollar Komissarlığında xüsusi tapşırıqlar məmuru vəzifəsində çalışıb. 1918-ci ilin martında Slavyan-Rus Cəmiyyətini yaradanlardan biri və onun sədri olub. Həmin ilin oktyabrında Azərbaycan Cümhuriyyəti Hökumətinin Əkinçilik naziri Xosrov bəy Sultanovun dəvəti ilə Bakıya gəlib, nazirlikdə xüsusi tapşırıqlar məmuru təyin olunub. Azərbaycan Cümhuriyyətinin 3-cü Hökumət kabinəsində isə Ərzaq naziri vəzifəsini icra edib.

1920-ci ilin mayın 2-də XI Qırmızı Ordu İnqilabi Şurası yanındakı Xüsusi Şöbə tərəfindən həbs edilib. Mayın 15-də əksinqilabi fəaliyyətdə və Sovet hökumətinə qarşı düşmənçilikdə ittiham edilərək güllələnib.

***Qeyd:*** *K.Lizqarın fotosunu əldə etmək mümkün olmadı.*

# ƏRZAQ NAZİRİ

Azərbaycan Cümhuriyyətinin Ərzaq naziri olmuş **Konstantin Nikolayeviç Lizqar** F.X.Xoyskinin üçüncü Hökumət kabinetində (26.12.1918 – 14.03.1919) bu vəzifəni icra etmişdi[1].

O, Bakıdakı ingilis hərbu qüvvələrinin komandanı general Tomsonun Azərbaycan Hökuməti rəhbərliyinə "koalisyon hökumət"in yaradılması vacibliyini bildirdikdən sonra həmin vəzifəyə təyin olundu.

O dövrdə Azərbaycanda yaşayan ermənilər (onların sayı Cümhuriyyət dövründə 300 minə yaxın idi) və ruslar (onların sayı 300 mindən bir qədər çox idi) Azərbaycan Milli Şurasının bəyannaməsi ilə formalaşması vacib olan Parlamentdə təmsilçilikdən imtina edirdilər.

General Tomsonun Azərbaycan Parlamentinin yaradılmasına münasibəti birmənalı deyildi və Bakıda yaşayan ermənilərin, eləcə də rusların qismən təsiri altına düşürdü. O, Nazirlər Şurasının Sədri F.X.Xoyskiyə göndərdiyi məktubda bu sözləri yazmışdı: "Koalisiyalı Hökumətin tərkibi elan olunmayınca, Bakıda Parlamentin iclası keçirilə bilməz"[2].

**F.X.Xoyski general Tomsona israrlı şəkildə Hökumətin təşkilinin Parlament yolu ilə formalaşdırılması prinsipini irəli sürmüş və yalnız xalqın əsas hissəsi tərəfindən seçilmiş qanunvericilik orqanının səlahiyyəti ilə yaradılan Hökumətin həmin orqana arxalanaraq onun qarşısında hesabat verməli olduğunu qeyd etmiş, sonda bu yanaşma ilə Tomson da razılaşmışdı[3].**

General Tomson koalisyon Hökumətdə 5 azərbaycanlı və 5 nəfər azlıqda qalan qeyri-millətlərin (3 rus və 2 erməni) nümayəndələrinin olmasını irəli sürsə də, F.X.Xoyski ölkədə müsəlman əhalinin çoxluğunu əsas götürərək 7 azərbaycanlı, 3 erməni və 2 rus, yaxud 8 azərbaycanlı, 3 rus, 3 erməni olmaqla Hökumət təşkili fikrini irəli sürmüş, general Tomson sonuncu variantla razılaşmışdı. O, koalisiyalı Hökumət yaradılarsa, rusları və erməniləri Parlamentdə iştiraka məcbur edəcəyini söyləmişdi.

Belə olduqda, Bakıdakı iki əsas rus təşkilatından biri olan Bakı Rus Milli Şurası Parlamentdə iştirakdan qəti imtina etdiyindən, Slavyan-Rus Cəmiyyəti ilə

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 92.

[2] Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şura iclaslarının protokolları. 1918-ci il. Протоколы заседаний Мусульманских фракций Закавказского Сейма и Азербайджанского Национального Совета. 1918 г. Б., 2006., s. 20.

[3] Yenə orada.

danışıqlar aparıldı, onların sədrinin Hökumətdə də təmsilçiliyinə təklif bildirildi. Bu vəziyyətdə Slavyan-Rus Cəmiyyətinin sədri K.Lizqarın F.X.Xoyskinin formalaşdırdığı 3-cü Hökumət kabinetində Ərzaq Naziri vəzifəsini icra etməsi mümkün oldu. K.Lizqarın Azərbaycan ictimai-siyasi mühitində tanınmaması, yüksək ali savada malik olmaması, onun bu vəzifəyə təyinində ciddi maneə idi və ona bu imkanı yaradan Slavyan-Rus Cəmiyyətinin sədri olması idi.

Slavyan-Rus Cəmiyyəti 1918-ci ilin martın 14-də Tiflisdə yaradılmış və Tiflis Dairə məhkəməsi tərəfindən qeydiyyata alınmışdı[4]. Cəmiyyətin ilk ümumi yığıncağının sədri K.Lizqar, katibi isə M.Kozlov seçilmişdi.

Cəmiyyətin nizamnaməsində onun fəaliyyət istiqamətini müəyyənləşdirən aşağıdakı maddələr yazılmışdı: "1) Cəmiyyət Slavyan və rus əsilli və xristian məzhəbli vətəndaşların birliyi üçün təsdiq olunur; 2) birləşmə aşağıdakı məsələlər üzrə birgə işlə həyata keçirilir: milli, elmi, dini, məişət, texniki, tədris-tərbiyəvi"[5].

Nizamnamədə qeyd olunurdu ki, Cəmiyyət uşaq bağçaları, kitabxanalar, oxu zalları, uşaqlar üçün yaslı və yetimxanalar, kilsələr, müalicə müəssisələri, klublar açır, mətbuat yaradır, mətbəə işlədir.

Əslində Slavyan-Rus Cəmiyyəti vahid, bölünməz Rusiya uğrunda da mübarizə aparırdı. Onların bu fəaliyyəti "Cümhuriyyət hökuməti repressiya məngənəsində" kitabında belə izah edilir: "Əslində Denikinin və Antanta qüvvələrinin gizli himayəsi ilə təsis edilmiş və gələcək fəaliyyətində buna bel bağlayan Cəmiyyət bolşeviklərin öz ideyalarını keçmiş milli ucqarlarda yaymaları və burada hakimiyyəti ələ almalarına qarşı mübarizə məqsədi güdürdü. Bu məqsədlə də bütün slavyan və rus mənşəli şəxsləri öz ətrafına toplamağa çalışır, onları Çar Rusiyasının hansı formadasa yenidən bərpası istiqamətində vahid güc mərkəzində təşkilatlandırmağa səy göstərirdilər. Təsadüfi deyildi ki, Cəmiyyətdə bütün zümrələrin nümayəndələri təmsil olunmuşdular və onların arasında onlarla yüksək rütbəli zabit və bir neçə general vardı"[6].

Slavyan-Rus Cəmiyyəti N.Yusifbəylinin 1918-ci aprelində Zaqafqaziya Xalq Maarif Komissarı təyin edilməsindən sonra, Tiflisdə orta tədris məktəbləri açmaq imkanı əldə etmiş və bu işə əvvəllər razı olmayan gürcü Hökuməti faktla barışmaq məcburiyyətində qalmışdı[7].

---

[4] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PS-12174 saylı K.N.Lizqarın istintaq işi, v. 18.

[5] Yenə orada, v. 20.

[6] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 158-159.

[7] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PS-12174 saylı K.N.Lizqarın istintaq işi, v. 20.

Slavyan-Rus Cəmiyyəti Zaqafqaziyada fəaliyyətini gücləndirirdi. 1918-ci ilin dekabrında artıq bu Cəmiyyətin sıralarında 40.000-nə yaxın üzv var idi.

Slavyan-Rus Cəmiyyəti aşağıdakı beş nəfər üzvünün Azərbaycan Parlamentində təmsilçiliyinə razılıq verdi: 1) Mixail Nikolayeviç Vinoqradov (mühəndis); 2) Viktor Viktoroviç Klenevski (hüquq elmləri namizədi); 3) Vladimir Konstantinoviç Olonqren (albay); 4) O, Vasiliya Kravçenko (ruhani magistr); 5) Sergey Mixayloviç Mixaylov (təbiət elmləri namizədi)[8].


Азербайджанская Республика
МИНИСТЕРСТВО Продовольствія
12 Апрѣля 1919 г.
№ 9
гор. БАКУ.

Секретно въ собственныя руки.

Господину Министру Внутреннихъ Дѣлъ.

Возвращая переписку отъ 10 апрѣля сего года за № 74 сообщаю, что совершенно тождественное анонимное заявленіе прислано и мнѣ 7 апрѣля с. г. / Вход. № 6303-6012/.

По существу же заявленія анонимнаго автора нахожу возможнымъ препроводить Вашему Превосходительству въ копіяхъ, какъ прошеніе Джебраилбекова, такъ и докладъ по нему Чиновника Особыхъ Порученій Иванова, при чемъ ходатайство перваго, возбужденное не своевременно, мною оставлено безъ всякихъ последствій.-

Министръ Продовольствія К. Лизгаръ

Nazir K.Lizqarın Daxili İşlər nazirinə məktubu. 12 aprel 1919-cu il.

Slavyan-Rus Cəmiyyəti Azərbaycan Parlamentində təmsilçiliyinə baxmayaraq "Vahid, bölünməz Rusiya" mövqeyindən çıxış edirdi. Cəmiyyətin sədri K.Lizqarın 1918-ci ilin 7 dekabrında Müttəfiq qoşunların komandanına göndərdiyi 315 saylı məktubda qeyd edilmişdi: "Slavyan-Rus Cəmiyyətinin Qafqaz Şurası Qafqazın bütün milli təşkilatları ilə dostluq şəraitində işləməyə can ataraq, özünün beş üzvünü bu gün açılan Azərbaycan Parlamentinə göndərməyi vacib hesab edir. "Vahid, bölünməz Rusiya" uğrunda müttəfiq dövlətlərlə razılıqla öz fəaliyyətini davam etdirmək arzusunda olan Şura Siz Zat-Alilərindən xahiş edir, Azərbaycan Parlamenti üzvlüyünə bizim rus nümayəndələrin daxil olmasının Müttəfiq Dövlətlər tərəfindən elan olunmuş vahid, bölünməz Rusiyanın qurulmasına zərbə vura bilməz ki"[9].

K.Lizqar Slavyan-Rus Cəmiyyətinin sədri seçilənə qədər Müvəqqəti Hökumətin Xüsusi Zaqafqaziya Komitəsinin sərəncamında fəaliyyət göstərirdi. 1917-ci ilin avqustun 22-də Müvəqqəti Hökumətin Xüsusi Zaqafqaziya Komitəsinin ona verdiyi vəsiqədə yazılmışdı: "Bu vəsiqə Zaqafqaziya Xüsusi Komitəsinin sərəncamında olan poruçik (baş leytenant - red.) Lizqara verilir, ondan ötrü ki, o, Xüsusi Zaqafqaziya Komitəsi tərəfindən Göyçay İcraiyyə Komitəsinin və komissar Süleymanovun hərəkətlərini təhqiq etmək üçün Bakı quberniyasına ezam

[8] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PS-12174 saylı K.N.Lizqarın istintaq işi, v. 25.
[9] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 162.

olunur. Bütün vəzifəli şəxslər, müəssisə və idarələr göndərilən şəxsə qanuni köməklik göstərməlidirlər”[10].

Bu sənədi isə Zaqafqaziya Xüsusi Komitəsinin üzvü M.Y.Cəfərov imzalamışdı.

K.Lizqarın 1918-ci ilin 16 fevralında Zaqafqaziya Komissarlığının Ticarət və Sənaye Komissarı L.Behbudov tərəfindən verilmiş tapşırıqla Batuma gedib, 28 fevrala qədər təlimatda göstərilən işləri yerinə yetirib qayıtması ilə bağlı sənəd də var[11].

Bəs K.Lizqarı Azərbaycan Hökumətinə kim yaxınlaşdırmışdı? Azərbaycan Cümhuriyyətinin Gürcüstandakı Diplomatik nümayəndəsinin verdiyi vəsiqədə onun Əkinçilik naziri Xosrov bəy Sultanovun dəvəti ilə Tiflisdən Bakıya gəldiyi qeyd olunur[12].

Məlum olur ki, X.Sultanovun himayədarlığı və sərəncamı əsasında K.Lizqar Əkinçilik Nazirliyində xüsusi tapşırıqlar məmuru olaraq çalışmışdır.

K.Lizqar haqqında sonralar istintaqa ifadə verən, Slavyan-Rus Cəmiyyətinin üzvü M.Vinoqradov bu faktları açıqlamışdı: “K.Lizqarı mən 1918-ci ilin martından tanıyıram. Əvvəllər onunla dostluq münasibəti saxlamışam. Arvadının dediyinə görə, o, 15 il əvvəl Bayıl həbsxanasında özünü asan, neftin ötürülməsində və cinayətin gizlədilməsi məqsədi ilə üç nəfər ləzginin öldürülməsində günahlandırılan milyonçu Rılskinin qeyri-qanuni oğludur. Onu da bilirəm ki, Rılski onu öz oğulları ilə bir yerdə böyüdüb və Lizqar Stepan Rılskini başqa cür yox, qardaş adlandırır. Rılskinin ölümündən sonra Lizqara varis kimi pay düşdü və o, ticarət işinə qoyduğu bir milyondan çox pul əldə etdi. Ancaq tezliklə müflisləşib, Vladiqafqaza getdi və yenidən ticarət işlərinə başladı.

Tiflisdə o, ehtiyac içərisində yaşayırdı və bir xidmətçi ilə kifayətlənmişdi, yeməyi tez-tez arvadı hazırlayırdı. Bakıda da Ərzaq naziri təyin edilənə qədər eyni vəziyyət idi. Pulsuzluqlarını onunla izah edirdilər ki, S.Rılski Lizqarın hərəkətsizliyindən narazı qaldığı üçün onlara çox az pul verir. Bu vəziyyət Lizqarı Bakıda iş axtarmağa məcbur etmişdi”[13].

K.Lizqar 1918-ci ilin dekabrın 26-da Azərbaycan Cümhuriyyətinin Ərzaq naziri təyin edildi. Doğrudur o, Ticarət və Sənaye naziri vəzifəsinə sahib olmaq istəsə də, bu, baş tutmadı və F.X.Xoyski o sahəyə bitərəf Mirzə Əsədullayevi təyin etdi.

---

[10] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PS-12174 saylı K.N.Lizqarın istintaq işi, v. 62.
[11] Yenə orada, v. 63.
[12] Yenə orada, v. 65.
[13] Yenə orada, v. 106.

K.Lizqar nazir fəaliyyətinə başladıqdan sonra S.Rılskinin şirkətində müdir işləyən Suxaryevskini hüquq məsləhətçisi təyin etdi. Sonra onun məktəb yoldaşı Ratner, Dərbənddən olan bacanağı Sulyenko işə cəlb olundu.

1919-cu ilin yanvarında o, S.Rılski ilə buğda sövdələşməsinə başladı.

K.Lizqar artıq öz vəzifəsindən sui-istifadə edirdi. M.Vinoqradovun ifadələrində belə məlumatlar vardır: "Tezliklə onun buğda gətirilməsi ilə bağlı Hökumətin xeyrinə olmayan 10 milyon rubldan yuxarı miqdarda formal bankla sövdələşməyə girdiyi məlum oldu"[14].

1919-cu ilin martın 14-də F.X.Xoyski Hökuməti istefa verdi. Yeni yaranacaq Hökumət kabinetində yer ala bilməyəcəyindən narahat olan K.Lizqar Hökumətin ona 3 milyon pul ayıracağını düşünərək, bacanağı Sulyenkonu buğda almaq üçün Yekaterinodara göndərdi. Lakin, onun bu əməliyyatı özünü doğrultmadı[15].

F.X.Xoyski Hökuməti istefa verdikdən sonra, 1919-cu ilin martın 14-də N.Yusifbəylinin başçılığı ilə Azərbaycan Cümhuriyyətinin dördüncü Hökumət kabineti formalaşdı. Bu Hökumət kabinetində K.Lizqara nazir vəzifəsi verilmədi.

K.Lizqarın Azərbaycan Cümhuriyyətində nazir olaraq çalışması iki aydan bir qədər çox oldu. O, sonradan Neft Sənayeçiləri Cəmiyyətində işlə təmin edildi.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildi.

1920-ci ilin mayın 2-də Bakının "Qorçakovski"-14 ünvanında yaşayan, Azərbaycan Cümhuriyyətinin keçmiş naziri və Slavyan-Rus Cəmiyyətinin sədri K.Lizqar ilk həbs edilənlərdən oldu[16].

O, XI Ordunun İnqilabi Şurasının yanında Xüsusi şöbənin 292 saylı həbs vərəqi əsasında azadlıqdan məhrum edildi. Həbs vərəqində onun



ЕГО ВЫСОКОПРЕВОСХОДИТЕЛЬСТВУ

Господину Министру Продовольствія

По настоящему прошенію докладываю: 1/ храненіе своего зерна въ казенномъ складѣ, конечно, неправильно; 2/ по особымъ актамъ, на основаніи разныхъ данныхъ Комиссія изъ Уѣзднаго Начальника, мѣстнаго казія и турецкаго офицера своевременно безъ перевѣски установила, сколько зерна должно быть въ каждомъ складѣ; Джебраиль-Бековъ принялъ на себя отвѣтственность, что въ складѣ не менѣе указаннаго количества; если же тамъ было зерно его собственное, то ему надлежало объ этомъ заявить Комиссіи въ указанномъ составѣ, чего онъ не сдѣлалъ. На этомъ основаніи я полагаю, что о выдачѣ ему изъ склада 800 пудовъ зерна рѣчи быть не можетъ, - тѣмъ болѣе, что до настоящаго момента никакихъ документовъ онъ и не представилъ. /Подпись/ Чиновникъ особыхъ порученій М. Ивановъ, 9 марта 1919 г. № 50.

Резолюція: Въ выдачѣ отказать. 20 марта 1919 г. К. Лизгаръ.

Вѣрно: Завѣдующій Общимъ отд.

**K.Lizqarın məktubu. 20 mart 1919-cu il.**

[14] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PS-12174 saylı K.N.Lizqarın istintaq işi, v. 108.

[15] Yenə orada, v. 109.

[16] Yenə orada, v. 6.

38 yaşında olması, orta təhsilli, ixtisaslı zabit, neft sənayesi sahəsində çalışması, ailəliyi ilə bağlı qeydlər var idi.

K.Lizqarın istintaq prosesi çox çəkmədi. 1920-ci ilin mayın 15-də istintaqın çıxardığı qərar əsasında, yəni "1917-ci ildən əksinqilabi fəaliyyətə başlayan, Beynəlmiləlin yaxınlaşan təhlükəsinə qarşı 1918-ci ildə Slavyan-Rus Cəmiyyətini yaradan, sədr kimi onun Sovet Rusiyasına qarşı fəal mübarizəsinə rəhbərlik edən, bütöv, vahid, bölünməz Rusiyanın xilası uğrunda şüurlu mübarizədə Könüllü Ordu, İngiltərə və Amerikanın nümayəndələri ilə görüşən, əksinqilabi ideyalarını yaymaq üçün qəzet nəşr edən" K.Lizqar XI Ordu Xüsusi şöbəsinin 15 may 1920-ci il tarixli qərarı ilə güllələndi[17].


Показания по существу дела *)

Подпись

K.Lizqarın istintaq sənədi.

**K.Lizqar Azərbaycan Cümhuriyyətinin bolşeviklər tərəfindən güllələnən ilk naziri oldu.**

[17] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PS-12174 saylı K.N.Lizqarın istintaq işi, v.7.

# MUSA RƏFİYEV

(1888 – 1938)



Tanınmış ictimai-siyasi xadim Musa Rəfiyev 1888-ci ildə Gəncə şəhərində anadan olub. İlk təhsilini Gəncənin Şah Abbas məscidinin nəzdində fəaliyyət göstərən mədrəsədə alıb. O, sonradan Gəncə klassik gimnaziyasında oxuyub. M.Rəfiyev 1911-ci ildə Xarkov Universitetinin tibb fakültəsini bitirdikdən sonra Gəncəyə qayıdıb və burada həkim işləyib.

1918-ci ilin iyunun 17-də F.X.Xoyskinin başçılığı ilə ikinci Hökumət kabinəsi yaradıldıqda, M.Rəfiyev portfelsiz nazir vəzifəsini icra edib.

1918-ci ilin oktyabrın 6-da Nazirlər Şurasının Sədri F.X.Xoyski kabinədaxili dəyişikliklər etdikdən sonra M.Rəfiyevi Sosial Təminat və Dini Etiqad naziri təyin edib. M.Rəfiyev Sosial Təminat və Dini Etiqad naziri vəzifəsində 1919-cu ilin dekabrın 26-na qədər çalışıb.

M.Rəfiyev 1918-ci ilin dekabrın 7-də fəaliyyətə başlayan Azərbaycan Parlamentinə seçilərək Maliyyə-büdcə komissiyasında fəaliyyət göstərib.

M.Rəfiyev 1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra Türkiyədə və İranda mühacirətdə yaşayıb, Təbriz şəhərində vəfat edib.

# SOSİAL TƏMİNAT VƏ DİNİ ETİQAD NAZİRİ

Azərbaycanın görkəmli ictimai-siyasi xadimi olan Musa Rəfiyev 1888-ci ildə Gəncədə tanınmış maarifçi, ziyalı və xeyriyyəçi Hacı Məmmədhüseyn Rəfiyevin (1860-1920) ailəsində doğulmuşdur.

**Qeyd edək ki, Rəfiyevlər nəslindən aşağıdakı tanınmış şəxsiyyətlər çıxmışdır: 1) Xudadat bəy Rəfibəyli – Azərbaycan Cümhuriyyəti dövründə ikinci Hökumət kabinetində Səhiyyə naziri və Gəncənin general-qubernatoru; 2) Əyyub bəy Rəfibəyov – Şəki qəzasının rəisi, ictimai-siyasi xadim; 3) Abuzər bəy Rzayev – Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü; 4) Səməd bəy Rəfibəyli (Səməd Sayqun) – Azərbaycan Cümhuriyyəti Ordusunun zabiti, Atatürkün silahdaşı, paşa; 5) Ələkbər bəy Rəfibəyli – görkəmli ictimai və siyasi xadim; 6) Cavad bəy Rəfibəyli – maarif xadimi; 7) Cəmil bəy Rəfibəyli – hərbi xadim; 8) Nigar Rəfibəyli – tanınmış şairə.**

**Bu nəslin tanınmış nümayəndəsi olan Hacı Məmmədhüseyn Rəfiyev Azərbaycanın dahi şairi Nizaminin məqbərəsinin bərpasında və bu işin maliyyələşdirilməsində önəmli rol oynamışdır.**

O, 1902-ci ildə Gəncədə Azərbaycan məktəbi açılmasının təşəbbüskarlarından olmuşdur. H.M.Rəfiyevin Təbrizdə, Nijni-Novqorodda, İstanbulda, Tehran və Parisdə xalça mağazaları vardı. O, Gəncədə Müsəlman Xeyriyyə Cəmiyyətinin Fəxri üzvü və Gəncə Şəhər Dumasının üzvü olmuşdur.

Türkiyədə yaşayan, çox dəyərli bir tədqiqatçı olan Ömər Özcan 2013-cü ildə Bakıda nəşr etdirdiyi "Səlim Rəfiq Rəfioğlu (soyu, mühiti, təhsili, müəllimliyi, yaradıcılığı)" adlı kitabında bu nəslin nümayəndələri haqqında maraqlı məlumatlar verərək yazır: "Sonucda Səlim Rəfiq Rəfioğlunun adıyla yola çıxaraq əldə edə bildiyimiz qaynaqları dəyərləndirərkən ortaya bir ailənin tarixi çıxdı"[1].

Musa Rəfiyevin qardaşı Məşədi Əli Rəfiyev də (1880–1948) tanınmış ictimai-siyasi xadim olmuş, sonra mühacirətdə yaşamış və 1923-cü ildə M.Ə.Rəsulzadənin İstanbulda yaratdığı Müsavat Partiyası Xarici Ölkələr Bürosunun üzvü kimi fəaliyyət göstərmiş, 1948-ci ildə İstanbulda vəfat etmişdir.

Belə ailədə dünyaya göz açan M.Rəfiyev ilk təhsilini Gəncənin Şah Abbas məscidi nəzdində fəaliyyət göstərən mədrəsədə aldı, sonra isə Gəncə klassik gimnaziyasında oxudu. O, 1911-ci ildə Xarkov Universitetinin tibb fakültəsini bitirdikdən sonra Gəncəyə qayıdıb həkim işlədi. Bu sahədə olan yüksək fəaliyyə-

[1] Ö. Özcan Səlim. Rəfiq Rəfioğlu (soyu, mühiti, təhsili, müəllimliyi, yaradıcılığı). B., 2013, s. 38.

tinə görə ona 1913-cü ildə "Titulyar müşavir", 1914-cü ildə "Kollegiya assesoru", 1916-cı ildə "Saray müşaviri" çinləri verildi. M.Rəfiyev H.Ağayevlə birlikdə Gəncədə ilk Səhiyyə Cəmiyyətinin yaradılmasında iştirak etdi.

**Qeyd edək ki, M.Rəfiyev 1911-ci ildə Xarkovda təhsilini başa vurub Gəncəyə qayıtdıqdan sonra həkim vəzifəsində çalışmaqla yanaşı, xeyriyyə təşkilatlarının işində fəallıq göstərirdi. Onun əsas əlaqə yaratdığı təşkilat belə adlanırdı: Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti. Bu cəmiyyətə 1906-1914-cü illərdə Xəlil bəy Xasməmmədov, 1915-ci ildən isə Ələkbər bəy Rəfibəyov başçılıq etmişdir. Cəmiyyətin üzvləri Əsgər bəy Adıgözəlov, Ələsgər Xasməmmədov, Xanlar xan Ziyadxanov və Musa Rəfiyev idi**[2].

**Nizamnaməyə əsasən,** cəmiyyətin əsas hədəfi kasıb vəziyyətdə yaşayan müsəlmanları himayə etmək idi. Cəmiyyət üzvləri fəaliyyətlərini genişləndirmək üçün tamaşalar hazırlayır, şəhərin imkanlı şəxslərinin ianələrindən faydalanırdılar. **Yelizavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti ali və orta ixtisas məktəblərində təhsil alan gənclərə köməklik göstərirdi.**

**M.Rəfiyev** də cəmiyyətin fəallarından sayılırdı.

M.Rəfiyev siyasi fəaliyyətə 1917-ci ildə, Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra başladı. Həmin dövrdə N.Yusifbəyli Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını yaradıb, tanınmış ziyalıları təşkilata cəlb edə bilmişdi. M.Rəfiyev də həmin partiyanın üzvü olmuşdu.

1917-ci ilin aprelində Qafqaz Müsəlmanlarının Qurultayında M.Ə.Rəsulzadə ilə N.Yusifbəyli Türk Ədəmi-Mərkəziyyətlə Müsəlman Demokratik Partiyası – Müsavatın birləşdirilməsi razılığına gəldilər[3].

**1917-ci ilin iyunun 17-də Bakıda hər iki partiyanın Birləşmə qurultayı keçirildi.**

**Qurultayda bir çox məsələlərin müzakirəsində (xüsusən aqrar məsələyə münasibətdə) fikir ayrılığı yaransa da, bu problem növbəti qurultayadək təxirə salındı. Qurultayda ilk Mərkəzi Komitə yaradıldı. Komitənin tərkibinə aşağıdakılar daxil idi: Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Həsən Hacınski, Musa Rəfiyev, Mustafa Vəkilov, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyli, Mirzə Məhəmməd Axundov.**

---

[2] Azərbaycanın ilk qeyri-hökumət təşkilatları (materialları hazırlayan və elmi redaktor N.Yaqublu). B., 2013, s. 23.

[3] N. Yaqublu. Müsavat Partiyasının tarixi. B., 2012, s. 54.

M.Rəfiyevin də rəhbərliyinə daxil olduğu Müsavat Partiyası 1917-ci ilin oktyabrın 26-dan 31-dək ilk qurultayını keçirdi. Qurultay Partiyanın 76 maddədən ibarət olan Yeni Proqramını qəbul etdi[4].

Müsavat Partiyasının proqramında dövlət və muxtariyyət təşkilatı məsələsi kəskin olaraq bu şəkildə qoyulmuşdur: "Rusiya dövlətinin şəkli idarəsi milli məhəlli muxtariyyət əsası üzərinə quruluşlu Xalq Cümhuriyyətindən ibarət olmalıdır"[5].

1918-ci ilin oktyabrın 6-da Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının Sədri F.X.Xoyskinin kabinədaxili dəyişikliyindən sonra M.Rəfiyev Sosial Təminat və Dini Etiqad naziri təyin edildi. Həmin dövrə qədər Səhiyyə və Sosial Təminat Nazirliyi bir strukturda idi (nazir – X.Rəfibəyli), Xalq Maarif və Dini Etiqad Nazirliyi başqa strukturda idi (nazir – N.Yusifbəyli). F.X.Xoyski iki nazirliyi (Sosial Təminat və Dini Etiqad) birləşdirib, nazir vəzifəsinin icrasını M.Rəfiyevə tapşırdı. M.Rəfiyev Sosial Təminat və Dini Etiqad naziri vəzifəsində 1919-cu ilin dekabrın 26-na qədər çalışdı.

M.Rəfiyev 1918-ci ilin dekabrın 7-də fəaliyyətə başlayan Azərbaycan Parlamentinə seçilərək Maliyyə-büdcə komissiyasında fəaliyyət göstərdi.

M.Rəfiyev həm də 1917-ci ilin Fevral-Burjua inqilabından sonra Müvəqqəti Hökumətin yaratdığı Xüsusi Zaqafqaziya Komitəsinin Yelizavetpol quberniyası üzrə müvəkkili olmuşdur. Müsavat Partiyasının üzvü olan M.Rəfiyev Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının və Milli Şuranın da üzvü kimi fəallıq göstərdi.

1918-ci ilin iyunun 17-də Azərbaycan Cümhuriyyətinin F.X.Xoyskinin başçılığı altında ikinci Hökumət kabineti formalaşarkən M.Rəfiyev orada portfelsiz nazir (yəni müşavir) təyin edildi[6].

M.Rəfiyev Azərbaycan Parlamentinin üzvü olaraq iclaslarda əhəmiyyətli çıxışlar edirdi. O, Parlamentdə Müsavat Partiyasının təmsilçisi idi. Onun geniş çıxışına ilk olaraq Parlamentin 1919-cu ilin 25 yanvarında keçirilən 9-cu iclasında rast gəlmək mümkündür. M.Rəfiyev Parlamentin müzakirəsinə çıxarılan "Gəncə Bələdiyyə idarəsinə sarı xəstəliklərlə mübarizə üçün 450 min rubl borc verməsi haqqında qanun layihəsi" ilə bağlı əsas məruzəni etdi.

M.Rəfiyev çıxışında bildirdi ki, Bakıdan gəlmiş erməni mühacirləri vasitəsi ilə 1918-ci ilin dekabrın əvvəlindən səpmə yatalaq xəstəliyi yayılıb və xəstəxanalar olmadığından bu genişlənir və xəstələrin sayı 500-ə çatmışdır.

---

[4] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f.276, s. 7, i. 168, v. 1.

[5] N. Yaqublu. Müsavat Partiyasının tarixi. B., 2012, s. 57.

[6] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 91.

M.Rəfiyev qeyd etdi ki, Gəncə Bələdiyyə İdarəsinin dekabrın 29-da şəhər həkimlərinin əksəriyyətinin iştirakı ilə keçirilən fövqəladə iclasında yalnız 25 xəstənin müalicəsini xəstəxanada aparmaq mümkündür ki, bu da kifayət etmir. M.Rəfiyev bu problemi həll etmək üçün 450 min manat pula ehtiyac olduğunu bildirdi.

M.Rəfiyevin çıxışından sonra Maliyyə komissiyası bu məbləğin borc formasında buraxılmasını lazım bilərək qanun layihəsini qəbul etdi[7].

Parlamentin 1919-cu ilin fevralın 18-də keçirilən 15-ci iclasında "Dəmiryol tariflərinin artırılması haqqında" layihə müzakirəyə çıxarıldı. İlk olaraq Maliyyə-büdcə komissiyasının üzvü A.Rzayev çıxış edib dəmiryolu xidmətçilərinin maaşlarının artmasından dövlətin 8 milyon zərər çəkdiyini qeyd etdi. O, çıxışında bu zərərin azaldılması vacibliyini vurğuladı.

A.Rzayevdən sonra nazir X.Məlikaslanov və M.Rəfiyev çıxış etdilər. M.Rəfiyev dedi: "İndi əgər bu tariflər artırılmasa, o halda indi hər ay 8 milyon olmaq üzrə ildə 96, bəlkə 100 milyon manat zərər verəcəkdir. Azərbaycanın cəmi məxarici ayda 600 milyondur. Bunun da beşdə bir hissəsi dəmir yoluna düşür. Heç bir xəzinə buna dayanmaz. Elə isə tədbir görülməlidir ki, barı bu vaxtadək, əsasən, mənfəət verməkdə olan müəssisələr, heç olmasa, mənfəət götürməsə də, zərər verməsinlər"[8].

Parlamentin 1919-cu ilin fevralın 25-də keçirilən 16-cı iclasında M.Rəfiyev Maliyyə-büdcə komissiyasının sədr əvəzi olaraq çıxış etdi. O, bildirdi ki, Maliyyə-büdcə komissiyasına mühüm layihələr daxil olduğundan işi çoxdur. O, təklif etdi ki, komissiya 8 nəfər əvəzinə 20, yaxud 21 olsun, bundan ötrü hər kiçik fraksiyadan iki, böyük fraksiyadan 3-4 üzv verilsin.

M.Rəfiyevin bu təklifi parlament üzvləri tərəfindən qəbul edildi.

Parlamentin 1919-cu ilin fevralın 26-da keçirilən 17-ci iclasında M.Rəfiyev Bakı Bələdiyyə İdarəsinə dörd milyon manat borc pul buraxılması ilə bağlı bir layihə təklifi olduğunu bildirdi. O, qeyd etdi ki, ayrılacaq vəsait şəhərin təmirinə, şəhərdə səhiyyənin təşkilinə, Bakının iqtisadi, mədəni və elmi mərkəz kimi inkişafına sərf ediləcəkdir. O, qeyd etdi ki, üç ay ərzində şəhərə 8 milyon manat pul lazım olduğu halda, mədaxil 500 min manat, yəni az olubdur. M.Rəfiyev parlament üzvlərini məlumatlandırdı ki, şəhərin hazırkı xərclərini ödəmək üçün Şəhər İdarəsi Duma ilə birgə 7 milyon manat pul – istiqraz buraxmağa qərar vermiş, onun 3 milyonu alınmış, qalan 4 milyonunun buraxılması Hökumətdən

[7] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar).I c. B., 1998, s. 187.
[8] Yenə orada, s. 276.

xahiş olunur. O, qeyd etdi ki, Maliyyə-büdcə komissiyası layihəni qəbul edib və indi parlamentə təqdim olunub.

Bu layihə ilə bağlı geniş müzakirələr aparıldı və sonda qəbul olundu[1].

1919-cu ilin martın 20-də Parlamentin 25-ci iclası keçirildi. M.Rəfiyev "Daxiliyyə nəzarəti xidmətçilərinin məvaciblərinin artırılması və yeni vəzifələr təşkili (yaradılması – red)" ilə bağlı məruzə etdi. O, Daxiliyyə nəzarətindəki (Daxili İşlər Nazirliyi) problemləri sadaladı, müəyyən islahatların aparılmasını vurğuladı, Cavad və Göyçay qəzalarında iki sahənin təşkil edildiyini, Qubada, Salyanda, Lənkəranda 2 pristav olacağını (o vaxta qədər bir olub), Şuşa qəzası Ağdaş kəndində pristavlıq yaradıldığını, polis məmurlarının məvacibinin artırıldığını qeyd etdi)[2].

M.Rəfiyev məruzəsində xidmətçilərə aşağıdan məvacibin verilməsini vacib sayırdı: "1) Qubernatorlara (başqa yerlərə nisbətən Bakı bahalıq olduğundan, Bakı məvacibləri yuxarı hesab edilir). Bakı qubernatoruna ayda 3600 rubl, başqa yerdəkilərə 3000 rubl; 2) vitse-qubernatorlara Bakıda 2700 rubl, qeyri-yerlərdə 2500 rubl; 3) Bakı qubernatorunun kiçik məvacibinə ayda 2500 rubl; 4) Bakı polismeystrinə nəzarət 1800 rubl təklif etmişdir, lakin komissiya 2300 rubl təyin etmişdir; 5) Bakı polismeystrinin böyük müavininə və təhriri şöbəsi rəisinə nəzarət 1600 rubl təklif etmişdir, komissiya isə 1800 rubl təyin etmişdir..."[3].

Parlamentin 1919-cu ilin 5 iyununda keçirilən 45-ci iclasında M.Rəfiyev "Poçt-Teleqraf məmurlarına məxsus ambulatoriya təsisi haqqında qanun layihəsi" ilə bağlı məruzə etdi. O, bildirdi ki, Poçt-Teleqraf Nazirliyi bu sahədə çalışanlar üçün parlamentə layihə təqdim edib. Lakin əksəriyyət etiraz etdiyindən layihə qəbul olunmadı.

"Səhiyyə Nazirliyinə 7 milyon 83 min 500 rubl buraxılması haqqında qanun layihəsi" ilə də bağlı M.Rəfiyev məruzə etdi. O, çıxışında səpmə yatalaq (sıpnoy tif) xəstəliyinin qışda geniş yayıldığını qeyd edərək bildirdi ki, Səhiyyə naziri, yaxud da Şəhər İdarəsi belə xəstəliklərlə mübarizə üçün mövcud olan təşkilatları nəzarətə götürsün və əsas odur ki, əhali bu təşkilatlardan faydalansın[4].

Bununla əlaqədar o, bildirdi ki, Maliyyə-büdcə komissiyası indiyə qədər olan Səhiyyə Nazirliyinə aid xərclər təsdiq edilsin və Səhiyyə Nazirinin ixtiyarına bir milyon pul buraxılsın.

Sonra müzakirələr başladı. Müzakirələrdə Q.Qarabəyli geniş çıxış edir. Sonra əksəriyyət rəylə Maliyyə-büdcə komissiyasının Səhiyyə nazirinə 1 milyon pul ayrılması təklifi qəbul olundu.

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 335.
[2] "Azərbaycan" qəzeti, 1919, 4 aprel, №150.
[3] Yenə orada.
[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 665.

1919-cu ilin 19 iyununda parlamentin 49-cu iclasında M.Rəfiyev "Təbiblərin orduya çağırılması haqqında qanun layihəsi" ilə bağlı məruzə edərək Hərbi Nazirlikdən bu sənədin təcili qəbulunu xahiş etdi.

Müzakirədə çıxış edən Aşurov orduya çağırılanların yaş həddinin nə üçün 45-ə qədər olduğu ilə maraqlandı.

M.Rəfiyev cavab verdi ki, 45 yaş qoyulması bu əsas üzrə olub ki, hər bir ölkədə hər kəs birinci 20 il millətə xidmət etməlidir və əgər o, 25 yaşında universiteti bitirirsə, 20 il də işləməyə borcludur ki, bu da 45 yaş edir.

Bu qanun layihəsi də maddələr üzrə səsə qoyulduqdan sonra qəbul edildi.

Həmin iclasda M.Rəfiyev "Təbiblərin və baytarların yeni maaşları haqqında qanun layihəsi" ilə də bağlı məruzə etdi. O, həkimlərin maaşlarının azlığından şikayətləndi, baş feldşerlərin 452 manat aldığı halda, başqa Hökumət idarələri xidmətçilərinin 550 manat aldığını qeyd etdi və bildirdi ki, maaşların azlığından Azərbaycandakı təbiblərin ştatı 69 hesab olunsa da, cəmisi 31 təbib vardır, 38 yer boşdur. Feldşer və tibb bacılarının ştatının 200 olmasına baxmayaraq, hazırda 114 vardır, qalanı boşdur və s. O, Səhiyyə Nazirliyinin də təklifini əsas götürüb, feldşerlərə 750 manat, baş feldşerlərə 850 manat məvacib ayrılmasını və buraya ümumi cəm də əlavə olunarsa, onda həkimlərin maaşının artıb 2250 manat olacağını qeyd etdi[5].

Parlamentin 1919-cu ilin iyulun 14-də keçirilən 55-ci iclasında "Zəngəzur qaçqınlarına yardım etməkdən ötrü smetadan xaric olaraq 18.750.000 manat buraxılması haqqında" qanun layihəsi müzakirə edildi.

Müzakirədə çıxış edən M.Rəfiyev dedi: "Möhtərəm məbuslar! Bu axır illərdə həyatımızda baş verən hadisənin ən dəhşətli və ən qorxulusu qaçqın məsələsidir. Bu məsələ müharibənin əvvəlindən olub, indiyə qədər davam edir. Bakı Cəmiyyəti-xeyriyyəsində o vədə gördüyü işlər gözümüzün qabağındadır. Nə qədər qaçqınlara yardım etmək məcburiyyətində idik"[6].

M.Rəfiyev hazırda Zəngəzur qəzasından olan qaçqınların sayının 30 minə qədər olduğunu və onların yeməkdən, geyimdən məhrum olduğunu, ac yaşadıqlarını, onları bu fəlakətdən qoruyub saxlamağın vacibliyini, bu problemə kömək edəcək layihənin qəbulunun əhəmiyyətini qeyd etdi.

**1919-cu ilin noyabrın 20-də parlamentin 93-cü iclası keçirildi. İclasda 9-a qədər məsələnin müzakirəsi nəzərdə tutulmuşdu. "Suraxanı-Mərdəkan yolu çəkməkdən ötrü 3.399.000 rubl buraxılması haqqında qanun**

[5] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 720-721.
[6] Yenə orada, s. 839.

**layihəsi" ilə bağlı M.Rəfiyev məruzə etdi. O, dedi: "Bu layihənin iki tərəfi var. 1-ci** məqsəd qaçqınlara iş vermək, 2-ci məqsəd də bizim Azərbaycanımızda olan yolları təmir etmək və yolları yaxşı hala salmaqdır. Layihədə göstərilən bu məqsədlər doğrudur. Qaçqınlara kömək etmək lazımdır. **Belə ki o yol ilə onlar da havayı pul deyil, iş görüb də pul ala bilsinlər. Yollar da yaxşı halda deyildir. Onları da təmir etmək lazımdır. Bu məmləkətə məktəb lazım olduğu kimi, yol da lazımdır ki, köhnə zamanlarda yol üçün iş görülməyib. Əlbəttə ki, bu barədə çalışmalı, bu layihədəki məqsəd həll edilməlidir"**[7].

**M.Rəfiyev bu layihənin "ümumi xeyriyyə" nəzarətindən qaçqınlara kömək üçün göndərildiyini, eyni zamanda, yalnız Mərdəkan-Suraxanı yolu deyil, Nuxa-Yevlax, Nuxa-Zaqatala yollarının da xarab vəziyyətdə olduğunu bildirdi.**

**Sonra iclasda müzakirə başladı. Parlament üzvlərindən Ə.Qarayev, A.Əfəndizadə, H.Məmmədbəyov, H.K.Sanılı, Kiçikxanov çıxış etdilər. Geniş müzakirədən sonra parlament sədri Maliyyə-büdcə komissiyasının təklifini əsas götürüb, layihənin Yol Nazirliyinə göndərilməsini səsə qoydu. Bu təklif qəbul edildi.**

**M.Rəfiyev Azərbaycan Parlamentinin iclaslarında böyük fəallıq göstərir, hüquqi bir dövlətin formalaşmasına kömək edirdi.**

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra M.Rəfiyev Gəncədə sovet rejiminə qarşı başlanan üsyanda iştirak etdi. Həmin üsyan qəddarlıqla yatırıldıqdan sonra o, əvvəl Türkiyəyə, sonradan İrana gedib, Təbrizdə klinika açaraq ömrünün sonuna qədər həkimlik etdi.

M.Rəfiyev Türkiyədə mühacirətdə olduğu illərdə siyasi fəaliyyətini dayandırmadı, Azərbaycanın işğaldan azad edilməsi uğrunda mübarizə apardı.

Qeyd edək ki, 1922-ci ilin sonlarında Türkiyəyə gələn M.Ə.Rəsulzadə tezliklə İstanbulda Müsavat Partiyasının Xarici Ölkələr Bürosunu yaratdı. Xarici Büro **Azərbaycandakı Gizli Müsavat** təşkilatı ilə əlaqə saxlayaraq partiyanın bütün fəaliyyətinə rəhbərlik edirdi. Xarici Büronun Maliyyə Komissiyasına əvvəl M.Ə.Rəsulzadə, sonradan Təbrizdən gəlmiş M.Rəfiyev rəhbərlik etdi[8].

M.Ə.Rəsulzadənin 1933-cü ilin martında Müsavat Partiyasının mühacirətdəki şəxsi heyəti ilə bağlı hazırladığı anketdə aşağıdakı məlumatlar vardır: "İran: 1) Təbriz – Partiya Komitəsi. 12 üzv vardır. Məsul üçlük: M.S.Hulusi; Doktor Musa; Salman bəy; 2) Tehran – özəyi. 6 üzv vardır. Məsul nümayəndə Əlizadə; 3) Rəşt

---

[7] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 484.
[8] X. İbrahimli. Azərbaycan siyasi mühacirəti. B., 1996, s. 107-108.

– özək. 8 üzv vardır. Məsul nümayəndə: Əliağa: bundan başqa İranın müxtəlif şəhərlərində sayı 6 nəfərdən ibarət olan üzvlər vardır"[9].

Bu anketdən məlum olur ki, 1933-cü ildə M.Rəfiyev artıq Təbrizdə yaşayır və oradan sovet rejiminə qarşı mübarizəsini davam etdirirdi.

M.Ə.Rəsulzadənin 1936-cı ilin avqustunda Varşavada keçirilən Müsavat Partiyasının qurultayındakı çıxışında təşkilatın xarici bürolarından danışarkən ilk olaraq Konstantinopolun (İstanbulun) adını çəkir, sonra Avropada və İranda fəal mühacirətin olduğunu qeyd edirdi. Bildirirdi ki, İranın Təbriz, Rəşt və Tehran şəhərlərində Müsavatın komitələri və məsul səlahiyyətli şəxsləri vardır. Müsavatın İran təşkilatlarının Azərbaycanla canlı əlaqə saxladığını da M.Ə.Rəsulzadə bildirirdi[10].

M.Ə.Rəsulzadənin 1937-ci ilin iyulun 22-də Varşavada Azərbaycan mühacirətinin rəhbərləri ilə bağlı hazırladığı 16 nəfərlik siyahıda M.Rəfiyevin adı 13-cü sıradadır[11]. Həmin siyahıda M.Ə.Rəsulzadənin, Ə.M.Topçubaşovun M.Y.Mehdiyevin, C.Hacıbəylinin və digər tanınmış siyasi xadimlərin adı da var.

Bundan əlavə, Azərbaycan Nümayəndə Heyətinin rəhbəri Ə.M.Topçubaşovun Musa Rəfiyevə Parisdən, Sen Kludan 1924-cü ilin sentyabrın 10-da göndərdiyi məktubdan da müəyyən faktlar məlum olur. Aydın olur ki, M.Rəfiyev Azərbaycan Cümhuriyyəti Hökumətinin və Parlamentinin Üzvləri Komitəsinin İstanbuldakı sədridir. Ə.M.Topçubaşovun yazdığı məktubda Gürcüstanda baş verən antibolşevik üsyanlarla əlaqədar, Gürcüstan Respublikası rəhbərləri ilə məsləhətləşmələr və bununla bağlı atılacaq addımlar haqqında məlumatlar verilir. O, yazır: "Çox hörmətli Musa bəy! Dünən səhər M.Vəzirovdan Qafqazda alovlanan hadisələr haqqında məktub aldım. Ona dünən cavab yazdım və vəd etdim ki, gürcü rəhbərləri ilə bu danışıqlardan sonra, nə məlumatım olsa yazaram. Bu məktubda Mustafa bəydən xahiş etdim ki, o, Sizin Nümayəndə Heyəti ilə yazışmaları yeniləşdirmək və baş verən hadisələr haqqında cavab gözləmədən yazmaq xahişimi Sizə çatdırsın. Və mən məmnunam ki, bu gün səhər Sizdən hadisələrə aid olmasa da, bizim ümumi gücümüz sayəsində təşkilatlarımızın əlaqəni kəsmədiyini sübut edən məktub aldım. Bu, həm də əsaslı davamı ola biləcək fövqəladə hadisələrin başlandığı günə təsadüf edir. Odur ki, Mustafa bəyə vəd etdiyim, bu hadisələr haqqında məlumatları icazənizlə Sizə çatdırıram.

---

[9] А.М.Топчибаши. Парижский Архив 1919-1940. В четырех книгах. Книга третья. 1924-1930. М., "Художественная литература", 2017, с. 69.

[10] Yenə orada, s. 199.

[11] Из истории Азербайджанской эмиграции. М., 2011, с. 254.

Dünən N.Jordaniya, N.Ramişvili, Qeqeçkori və digərləri ilə görüşdüm. Onlar aldıqları məlumatlarla məni tanış etdilər. Hələ 31 avqustda Gürcüstanda üsyanla bağlı Konstantinopoldan məlumat alsalar da, inanmırdılar. Sentyabrın 2-dəki məlumatda Kutaisi quberniyasında olan döyüşlərin yeri göstərilir, 3 sentyabrda isə Gürcüstan və Azərbaycandakı silahlı üsyanlar qeyd olunurdu. Buradakı rəhbərlər Konstantinopoldan alınan bu məlumatlara ciddi əhəmiyyət vermir, teleqrafla yeni təsdiqləri tələb edirdilər. Hamı üçün Gürcüstanda üsyan olması faktı gözlənilməz idi. Yalnız sentyabrın 6-da Poti vasitəsi ilə bu faktı təsdiqləyən teleqram alındı. Sonra yenə həmin Kaonstantinopoldan, Berlindən, dünən isə Moskvadan məlumat alındı. İndi Gürcüstanda üsyan faktına gürcü rəhbərləri şübhə ilə yanaşmır və hamısı hadisənin gözlənilməzliyini təsdiq edirlər. Bunun belə olduğunu onlardan öyrənmək indi çətindir. Cənab Milyukovun burada nəşr etdiyi "Posledniye Novosti" qəzeti ("Son xəbərlər" – red.) Gürcüstanda üsyana hazırlığın avqustun ortalarında başlandığını, bolşeviklərin isə ora göndərilən silahları ələ keçirdiyini yazır. Dünən gürcülərin aldığı teleqrama görə bütün Gürcüstan, Tiflis və Batum istisna olmaqla, üsyançıların əlindədir, Dərbənddə döyüşlər gedir, hətta Kuban da mübarizəyə qalxıb. Dünən N.Jordaniya mənə bunun fakt olduğunu və bizim bu fakt qarşısında olduğumuzu söylədi. O, əlavə etdi ki, biz üç respublika – Azərbaycan, Gürcüstan, Şimali Qafqaz daha da birləşib, birlikdə işləməli, üsyançılara kömək etməliyik. Mən isə ona cavab verdim: "Siz artıq birgə addımlar atmağı qəbul etmisiniz, üstəlik də biz hadisələr barəsində tam inamlı deyilik, indiki zamanda vaxtından tez idi və bunun dəhşətli sonluğu ola bilər". Fikir mübadiləsindən sonra dağlıların da iştirakı ilə bu gün saat 4-də toplanmağı qərara aldıq. Nəticə haqqında sabah məlumat verəcəyəm. Məlumata görə gürcülər həmin hadisənin bu günə qədər çapından imtina edən rus və fransız qəzetlərində güclü təbliğatını aparırlar. "Havas" teleqraf agentliyinə də bir-birini təkzib edən informasiyalar daxil olur. Digər tərəfdən bolşeviklər tərəfindən alınmış qəzetlər və teleqraf agentlikləri gürcülərin məlumatlarını təkzib edir. Bugünkü "Posledniye Novosti" qəzetində Azərbaycanda və Şimali Qafqazda üsyanın yayılması haqqında məlumat var. Aydındır ki, Azərbaycan haqqında məlumatların olmaması axmaq bir hisslər yaradır ki, sanki Gürcüstan bolşeviklərə qarşı tək mübarizə aparır. Yalvarıram, təcili şəkildə yayılması mümkün olan məlumat çatdırın. İndi ən əsası şəxsi və ümumi işimizi də çətinləşdirən başlıca məsələ vəsaitin olmamasıdır. Dünən, əlbəttə, bu haqda danışdıq. Bu gün də onunla məşğul olacağıq. Lakin təəssüf! Ümid azdır! Mən indi Cenevrəyə gedə bilmirəm, baxmayaraq ki, burada olmalıyam, hər şeyi etməliyəm ki, Fransa Hökumətinin və ola

bilsin ki, SDM-in (Millətlər Liqasının – red.) həmin hadisələrə mənəvi yardımına nail olum. Sizin toxunduğunuz məsələlərdən hələlik yazmıram, bu həmişə belə "hadisələrlə" doludur. Qısaca deyim ki, bir qədər əvvəl, sentyabrın 4-də M.Vəkilova, 20 avqustda isə M.Ə.Rəsulzadəyə ermənilərlə birgə razılığımızla bağlı şayiələr haqqında yazmışam ki, birlikdə avqustun 4-də (№17811) Errioya nota verilib və notanın surəti Məmməd Əminə göndərilib. Və indi Türkiyə Hökumətinə ümumi müraciət hazırlanır, ancaq bu, layihədir və ermənilər Cenevrəyə gedənə qədər dayandırılıb. Çətin ki, indiki hadisələr şəraitində layihə həyata keçsin. Layihənin surətini göndərirəm. Təkrar edirəm, indi Qafqazdakı hadisələr hər şeyi üstələyib. Bizim ümumi salamımızı və ən yaxşı arzularımızı qəbul edin, işdə uğurlar, güc və qüvvət. Sizə hörmətlə, Ə.M.Topçubaşov"[12].

Ə.M.Topçubaşovun M.Rəfiyevə Parisdən göndərdiyi 11 sentyabr 1924-cü il tarixli məktubda isə Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələrinin Gürcüstanda baş verən antibolşevik üsyan, bu üsyanla əlaqədar görüləcək tədbirlərlə bağlı keçirilən toplantı haqqında məlumatlar verilir[13].

Ə.M.Topçubaşovun 1924-cü ilin 12 sentyabrında M.Rəfiyevə göndərdiyi digər məktubda Gürcüstanda sovet rejiminə qarşı baş verən üsyandan və bununla bağlı Qafqaz Respublikaları diplomatik nümayəndələrinin planlaşdırdığı işlərdən bəhs edilir. Məktubda yazılıb: "Çox hörmətli Musa bəy! Hadisələr böyük sürətlə gedir. Üsyan haqqında məlumatları fransız, ingilis və digər qəzetlərdən, eləcə də müxtəlif mənbələrdən öyrənmək mümkündür. Hamısında döyüşlər gedən Azərbaycan haqqında da məlumatlar var. İngilis qəzetlərində Gürcüstanla bərabər, adətən, Azərbaycan haqqında da məlumatlar verilir. Onlarda Anadolu Teleqraf Agentliyinin Ankaradan və İstanbuldan olan teleqramlar çap edilmişdir. Lakin Azərbaycanla bağlı konkret fakt hələlik yoxdur. Məlumatların birində Bakıda fəhlələrin tətili və 400 fəhlənin Bakıdan Rusiyaya sürgün edilməsi haqqında məlumat var. Məlumatlarda ümumi şəkildə Ağstafada, Qaryagində, Zaqatalada, Qazax qəzalarında döyüşlər getdiyi qeyd olunur. Dünən "Havas" agentliyi kifayət qədər sensassiyalı məlumatlar alıb: 1) Xasavyurdla Qudermes arasında 48-ci ordunu Zaqafqaziyaya köməyə aparan hərbi qatar saxlanılıb; 2) Batumdan başqa bütün Gürcüstan üsyançıların əlindədir; 3) Kutaisidə Müvəqqəti Gürcü Hökuməti elan edilib; İnanmaq olmur!.. Məlumat verirlər ki, üsyan Samara, Saratov quberniyalarına və Urala keçib. Lenin-

[12] А.М.Топчибаши. Парижский Архив 1919-1940. В четырех книгах. Книга третья. 1924-1930. М., "Художественная литература", 2017, с. 87-90.
[13] Yenə orada, s. 91-94.

qradda həyəcanlar qeyd olunur. Azərbaycanı deməsək də, Gürcüstanda da hadisələrin aydın mənzərəsi görünmür. Konstantinopoldan agentliklər vasitəsi ilə olan məlumatlar hamını heyrətləndirir. Xüsusən Ankaranın mümkün əlaqələrinin olması şərh edilir. Paris qəzetlərinin birində ("Le Petit Parisen" – "Kiçik Parisli" – red.) Qırmızı Ordunun müəyyən hissəsinin Türkiyəyə qarşı, yaxud Qafqazdakı hadisələrlə bağlı səfərbər edilməsi haqqında məlumat verilmişdir. Məlumat "Vətən" qəzetindən (Türkiyədə çıxan – red.) götürülmüşdür. Buradakı qəzet və jurnallarda məlumatlar azdır. Mən Sizə yazmışdım ki, Fransa və Türkiyədən başlayaraq müxtəlif ölkələrə ümumi müraciətlər edəcəyimizi qərara almışıq. Müraciətlərin mətni dünən müzakirə edilib bəyənildi. Müraciətdə baş verən hadisələrdən 3 nümayəndənin (Qafqaz təmsilçiləri – red) öz azadlığı uğrunda mübarizə aparan xalqlara mənəvi yardım göstərilməsi xahiş olunur. Mənəvi yardımın konkret formaları, ümid edirik ki, onlarla şəxsi görüşlərdə hökumətlərinə çatdırılması üçün izah olunacaq. Güman ki, müraciət bu gün yaxud sabah hamıdan əvvəl Errioya, sonra başqalarına veriləcək. Belə bir müraciət Türkiyə Hökumətinə də ediləcək. Müraciətin çatdırılma qaydası hələ müəyyənləşməyib. Lakin müraciətin ilk öncə Konstantinopola göndərilməsi güman edilir. Sabah gürcü hərbçisi gedir. Dünən son olaraq qərara aldıq ki, sənəd Sizə və Qvardcaladzeyə veriləcək və birlikdə Ankaraya çatdırarsınız. Bu haqda Sizə və Qvardcaladzeyə məlumat veriləcək və fransız dilində olan müraciət sənədi də çatdırılacaq. Nümayəndəmiz adından SDN-ə (Millətlər Liqası – red.) xüsusi müraciət hazırlamışıq. Mənim Cenevrəyə getməyim baş tutmadı, indi isə Parisdən çıxmağım çətin ki, mümkün olsun. Müraciəti xüsusi olaraq SDN-ə verəcəyik və artıq orada Gürücüstan haqqında danışıq gedir. Qeqeçkori isə güman edir ki, SDN-ə birlikdə getmək lazımdır. Yəqin ki, bu məsələni bu gün birlikdə müzakirə edəcəyik. İndi Paris qəzetlərinin birində ("Quatidien" – "Gündəlik" qəzet – red.) oxudum ki, Qafqazdakı bütün dəmiryolu üsyançıların əlindədir. Yenə Cənubda və Şərqi Zaqafqaziyada döyüşlərdən danışılır. Məhz indi maliyyə vəziyyəti hər addımda özünü hiss etdirir. Ümumi salam. Sizə hörmət edən Ə.M.Topçubaşov. Sizdən səbirsizliklə məlumatlar gözləyirəm"[14].

Qeyd edək ki, M.Rəfiyev ömrünün sonlarına qədər işğalçı sovet rejiminə qarşı mübarizə aparıb Azərbaycanın azadlığı uğrunda çalışdı.

M.Rəfiyev ömrünün son illərini Təbrizdə yaşadı. Orada açdığı klinikada həkimliklə məşğul oldu və 1938-ci ildə Təbrizdə vəfat etdi.

---

[14] А.М.Топчибаши. Парижский Архив 1919-1940. В четырех книгах. Книга третья. 1924-1930. М., "Художественная литература", 2017, с. 102-104.

# MİRZƏ ƏSƏDULLAYEV

(1875 – 1936)



Tanınmış ictimai xadim Mirzə Şəmsi oğlu Əsədullayev 1875-ci ildə Bakıda anadan olub. Orta təhsilini Bakı gimnaziyasında alıb. Bundan sonra atası Şəmsi Əsədullayevin (1840-1913) neft şirkətində çalışıb. Atası neft milyonçusu Şəmsi Əsədullayev 1903-cü ildə Moskvaya köçdüyünə görə Bakıdakı neft şirkəti ilə bağlı məsələləri M.Əsədullayev həll edib.

M.Əsədullayev neft satışı ilə əlaqədar Rusiyanın Peterburq, Moskva şəhərlərində olub, Avropa ölkələrini gəzib. M.Əsədullayev ana dilini daha mükəmməl öyrənmək üçün böyük bəstəkar Ü. Hacıbəylidən dərs alıb.

M.Əsədullayev Bakıdakı xeyriyyə təşkilatlarının işində də fəallıq göstərib. O, 1905-ci ildə Bakıda ilk qeydiyyata alınan Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin yaradıcılarından olub. Eyni zamanda onun köməyi ilə 1915-ci ildə "Qardaş köməyi" adlı qəzet də nəşr olunub.

M.Əsədullayev 1918-ci ilin dekabrın 7-də fəaliyyətə başlayan Azərbaycan Parlamentinin üzvü olub. O, Nazirlər Şurasının Sədri F.X.Xoyskinin təşkil etdiyi üçüncü Hökumət kabinetində Ticarət və Sənaye naziri vəzifəsini icra edib.

M.Əsədullayev 1920-ci ildə bolşeviklər tərəfindən həbs edilib. O, həbsdən buraxıldıqdan sonra xaricə gedib, ömrünün sonuna qədər Fransada yaşayıb.

M.Əsədullayev 1936-cı ildə Parisdə vəfat edib.

# TİCARƏT VƏ SƏNAYE NAZİRİ

Azərbaycan Cümhuriyyətinin tanınmış xadimlərindən olan **Mirzə Əsədullayev** məşhur Bakı milyonçusu Şəmsi Əsədullayevin oğludur. M.Əsədullayev 1875-ci ildə Bakı şəhərində anadan olmuş və təhsilini Bakı gimnaziyasında almışdır.

Qeyd edək ki, onun atası Ş.Əsədullayev dövrünün maarif məsələlərinin inkişafına diqqət yetirən şəxslərdən olub və Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutunun himayəçisi idi[1].

Ş.Əsədullayev ilk öncə az kapitalı ilə neft çıxaran və emal edən kiçik bir idarə açmış, 1893-cü ildə isə həmin müəssisəni "Şəmsi Əsədullayev və Ko" adlı böyük şirkətə çevirmişdi[2]. Ş.Əsədullayevin Bakıda bir neçə neftayırma zavodu, mexaniki emalatxanası, Suraxanı, Sabunçu və Ramanada 37 buruğu, Xəzər dənizində neft və neft məhsulları daşıyan gəmiləri var idi. Ş.Əsədullayev 1903-cü ildə Moskvaya köçmüş, Moskvada, Peterburqda da mülklər tikdirmişdi. Ş.Əsədullayev Moskvanın Kiçik Tatar döngəsində böyük ev tikdirmiş və onu Tatar Mədəniyyət Cəmiyyətinə bağışlamışdı. 1917-ci ilin mayında Ümumrusiya müsəlmanları qurultayı burada keçirilmişdi.

Ş.Əsədullayev 1903-cü ildə Moskvaya köçdükdən sonra onun Bakıdakı neft şirkəti ilə bağlı bütün işlərini oğlu M.Əsədullayev həll etmişdir.

M.Əsədullayev onlara aid olan neft ixracı məsələləri ilə əlaqədar tez-tez Rusiyaya getmiş, Moskva, Sankt-Peterburq şəhərlərində yaşamış, bu da ona rus mədəniyyəti ilə tanışlıq imkanı vermişdi. O, rus dilində təhsil aldığına görə, ana dilini öyrənmək üçün Ü.Hacıbəylidən dərs almışdır. Ü.Hacıbəyli Parisin Sorbonna Universitetində təhsil alan kiçik qardaşı Ceyhun Hacıbəyliyə 1912-ci ildə yazdığı məktubda bu haqda məlumat vermişdi[3].

M.Əsədullayev məşhur milyonçu Musa Nağıyevin qızı Ümmülbanu ilə ailə həyatı qurmuş, 1905-ci ildə onun dördüncü övladı doğularkən həyat yoldaşı vəfat etmişdir. Həyat yoldaşının xatirəsinə yeni doğulmuş uşağa anasının adını qoymuşdur. O, isə sonradan Fransada yaşamış məşhur yazıçı Ümmülbanudur (Banin).

M.Əsədullayevin xeyriyyə cəmiyyətlərində fəallığını təsdiq edən sənədlər çoxdur. 1905-ci ildə Bakıda ilk qeydə alınan Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti

[1] M. Əliyev. Mirzə Əsədullayev. "Odlar Yurdu" qəzeti, №2 1989.
[2] İ. Əliyeva. Ömrünü qürbətdə başa vurdu. "Azərbaycan" qəzeti, 28 may, 2014.
[3] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 53.

yaradılır. Bu əsasən Bakı varlılarının və ziyalılarının cəmiyyəti idi. Cəmiyyətin qurucuları arasında H.Z.Tağıyev, H.Zərdabi, Ə.M.Topçubaşov, Ə.Ağayev (Ağaoğlu), Ə.Hüseynzadə, İ.Hacınski ilə yanaşı M.Əsədullayev də vardı.


**M.Əsədullayev.**

Cəmiyyətin birinci iclasında H.Z.Tağıyev sədrliyə, İ.Hacınski müavinliyə seçildi.

Cəmiyyət xeyriyyə işləri ilə yanaşı, məktəblərin dərsliklə təminində, ən kasıb şagirdlərin məktəbə daxil olmasına və s. işlərə köməklik göstərirdi. M.Əsədullayev cəmiyyətin tədbirlərində fəal idi[1].

M.Əsədullayevin yardımı ilə 1915-ci ilin martın 11-də "Qardaş köməyi" adlı qəzet çap edilmiş və onun təşəbbüsü sayəsində həmin qəzetdən yığılacaq gəlir müharibədən zərər çəkən müsəlmanların faydalanmasına, çar ordusundakı müsəlmanlardan ibarət ("Dikaya diviziya" adlanan) süvari qoşun hissələrindəki döyüşçülərə sərf olunacaqdı[2].

M.Əsədullayev 1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra martın 27-də Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçildi. O, 1918-ci ildən Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının da sədri oldu. O, elə həmin ilin noyabrında Azərbaycan Milli Şurasının hazırladığı Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun əsasında Neft Sənayeçiləri Qurultayı Şurasından parlamentə üzv seçildi[3].

M.Əsədullayevin sonradan istintaqa verdiyi ifadələrdən aydın olur ki, o, 1918-ci ilin mart hadisələrindən sonra ailəsinin bir qrup üzvünü İranın Rəşt şəhərinə, digər hissəsini isə Moskvaya göndərib. O, ailə üzvləri ilə birlikdə 1918-ci ilin noyabrına qədər İranda yaşayıb[4].

Qeyd edək ki, 1918-ci ildə Azərbaycan Parlamentinin yaranması ərəfəsində Müttəfiq qoşunların komandanı general Tomsonun M.Əsədullayevlə görüşü ol-

---

1 Azərbaycanın ilk qeyri-hökumət təşkilatları (materialları hazırlayan və elmi redaktor N.Yaqublu). B., 2013, s. 16.

2 M.Əliyev. Mirzə Əsədullayev. "Odlar Yurdu" qəzeti, №2 1989.

3 İ. Əliyeva. Ömrünü qürbətdə başa vurdu. "Azərbaycan" qəzeti, 28 may, 2014.

4 L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. II c. B., 2000, s. 152.

muşdu. Bu haqda Azərbaycan Milli Şurasının 1918-ci ilin dekabrın 3-də axşam saat 8-də Hökumət üzvlərinin iştirakı və M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilən iclasda məlumat verilib[5].

Tomsonun F.X.Xoyskiyə açıqlamasından aydın olur ki, ona Hökumət təşkil edəcək iki adamın adı təqdim olunub: M.Əsədullayev və M.Hacınski. O, qeyd edib ki, ermənilər onların namizədliyi haqqında da təklif irəli sürüblər.

Bu söhbətin davamında F.X.Xoyski general Tomsona belə hakimiyyətə xalqın münasibətinin necə olacağı barədə onun da düşünməsini vacib sayıb.

Daxili İşlər naziri B.Cavanşirin verdiyi məlumatdan aydın olur ki, general Tomson dekabrın 2-də M.Əsədullayevi yanına çağırıb və onunla aparılan iki saatlıq söhbətdə Nazirlər Şurasının Sədri vəzifəsinə qeyri-müsəlman namizədin olmasını təklif edib. Lakin, M.Əsədullayevə Tomsonun Hökumət təşkili ilə bağlı təklifinin olunması məlumatı B.Cavanşirə bildirilməyib. Həmin iclasda iştirak edən İttihad, Müsavat, Hümmət və Sosialistlər blokunun nümayəndələri Tomsonun parlamentin öz işinə başlamazdan əvvəl koalisiyalı hökumət təşkili barədə təklifini yazılı şəkildə geri götürməsini məsləhət görüblər.

M.Hacınski bildirir ki, Tomson onun və M.Əsədullayevin Hökuməti təşkil etməyinə inanır. M.Hacınski bu söhbətdə iştirakının olmadığını və bunu M.Əsədullayevin söylədiyini qeyd edir.

M.Hacınski bildirir ki, X.Sultanov, B.Cavanşir və onunla yemək vaxtı bu təklifə rədd cavabı aldıqda, M.Əsədullayev onlara Tomsona verdiyi cavabı xatırladıb: "Fətəli xan Hökumət sədrliyinə birinci namizəddir" və sonra təkidlə deyib: "Fətəli xan Hökumətin sədri olsun!".

**M.Əsədullayev parlamentdə M.Ə.Rəsulzadənin başçılıq etdiyi Müsavat fraksiyasının (bitərəflərlə birgə) üzvü idi və o, bitərəf sayılırdı.**

**M.Əsədullayev 1918-ci ilin dekabrın 26-da F.X.Xoyskinin təşkil etdiyi Hökumət kabinetində Ticarət və Sənaye Naziri vəzifəsini icra etmişdir. O, bu vəzifəni 1919-cu ilin martın 14-nə – N.Yusifbəylinin formalaşdırdığı yeni Hökumət kabinəsinin fəaliyyətinə qədər davam etdirmişdir.**

**M.Əsədullayev bu vəzifədə çalışarkən Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin yaradılmasında və yerli sənayenin inkişafında mühüm rol oynamışdır.**

[5] Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şura iclaslarının protokolları. 1918-ci il. Протоколы заседаний Мусульманских фракций Закавказского Сейма и Азербайджанского Национального Совета. 1918 г. Б., 2006.,s. 20.

Azərbaycan Cümhuriyyəti dövründə xarici-iqtisadi sahədə müəyyən inkişaf başlamış, xarici dövlətlərlə əmtəə mübadiləsi üçün 20 milyon manatlıq fond yaradılmış, 1919-cu ilin 12 fevralında Hökumətin qərarı ilə bu fonddan ilkin ehtiyaclar üçün 10 milyon manat həcmində kreditin buraxılması qərara alınmışdı[6].

M.Əsədullayevin çıxışlarında və nazir olaraq fəaliyyətində əhalinin zəruri mallara olan ehtiyacının təminində xəzinə gəlirlərini artırmaq üçün əlavə mənbələr axtarmağı və bundan ötrü gömrük gəlirlərini formalaşdırmağı, hər hansı məhsulun xaricə satılıb, yaxud qadağan edilməsi zamanı onun nə dərəcə gərəkli olması, Hökumətə nə qədər gəlir gətirməsi əsas götürülürdü.

M.Əsədullayev Ticarət və Sənaye naziri olarkən Hökumətin hazırladığı qanun layihəsi əsasında xaricə konyak, üzüm və tut spirtinin ixracına icazə verilmişdi. Bu da əhaliyə öz təsərrüfat malları olan üzümü və tutu istehsal etməklə şərab zavodlarına qazanc götürmək imkanı verirdi.

**M.Əsədullayevin başçılıq etdiyi Ticarət və Sənaye Nazirliyi nəzdində xarici dövlətlər və bir-birinə yaxın sahələrlə əmtəə mübadiləsi komitəsi fəaliyyət göstərirdi ki, bu komitənin də başlıca** vəzifəsi ölkənin iqtisadi və maliyyə vəziyyəti ilə bağlı əsas sayılan neftin ixracını və satışını təşkil etməkdən ibarət idi[7].

Həmin komitənin 1919-cu ilin martında keçirilən iclasında geniş müzakirə aparıldıqdan sonra əmtəələrin iki qrupa bölünməsi, onların bir qrupunun xaricə satılmasına icazə verilməsi, digərinə isə qadağanın qoyulması qərara alındı. İclasdan sonra yaranan əsasnamədə taxıl, un, çörək, yarma, yem, at, mal-qara, ət, qənd, külçə və pul şəklində olan qızıl və gümüş, dəmir, soyuq silah və digərlərinin satışına icazə verilmirdi. Aşağıdakı malların isə ixracına icazə verilirdi: düyü, makaron, hər cür toxum və tərəvəz, çay, qəhvə, bitki yağı, şərab, duz, sabun, meşə materialları, neft və neft məhsulları, qızıl və gümüş məmulatı, maşın və alətlər.

M.Əsədullayev Azərbaycan Parlamentinin iclaslarında iştirakına baxmayaraq, çox az çıxışlar edib. Onun yalnız 1919-cu ilin dekabrın 1-də parlamentin yüz ikinci iclasındakı çıxışına rast gəlmək mümkündür.

Saat 11:45-də açılan iclasa sədrliyi H.Ağayev edirdi. O, bildirdi ki, növbədə "altı yüz milyon manatlıq emissiya müzakirəsi"nin davamıdır. H.Ağayev ilk olaraq sözü Q.Qarabəyliyə verdi. Onun geniş çıxışından sonra, M.Əsədullayev çıxış etdi.

M.Əsədullayev dedi: "Tənqid gözəl şeydir. Yaxşı olardı ki, tənqid olunduqda bir yol da göstərilsin. Keçən natiqlərdən birisi pək doğru olaraq söylədi ki, bura-

---

[6] İ. Əliyeva. Ömrünü qürbətdə başa vurdu. "Azərbaycan" qəzeti, 28 may, 2014.
[7] Yenə orada.

da tənqid olunur. Lakin heç bir yol göstərilmir. Qara əfəndi dedi ki, yol göstərmək bizim vəzifəmiz deyildir. Necə yəni, vəzifəmiz deyildir? Burada sağ sola, sol sağa bir çox sözlər dedi. Lakin mən o qədər deyə bilərəm ki, bir kərə ona yaxın düşsək, o vaxt məlum olar ki, gərək biz burada söylənilən sözlərin çoxunu danışmayaq. Sol firqələr burada sənayeçilərdən çox danışdılar. Deyirlər ki, sənayeçilər də çox pul qazanırlar. Bir sənayeçi var, bir də var alverçi. Bunlar bir-birinə qarışdırılmamalıdır.

Sosialistlər sosializmin Fransadan başladığına görə ən çox oradan danışırlar. Bizim halımızı Fransa ilə müqayisə etmək doğru deyildir. Fransa həmin Fransadır ki, beş milyardı rus müharibəsindən sonra bir il müddətində verə bildi. Burada deyirlər ki, bizim emissiyamız üç milyon idi, indi altı yüz milyon istənilir, sabah da doqquz yüz milyon olacaq. Görək bunu təmin edə bilirik, ya yox? Diqqətlə baxanda sol firqələrin hər zaman məbuslarının milliləşdirilməsini istəyirlər, bir kərə statistikaya nəzər salsanız, o zaman anlaşılar ki, mədən işləri nə haldadır. Əgər müsaidə buyursanız, mən sizə burada bir çox dəlillər göstərə bilərəm. Mən götürürəm 10-cu ildən. 10-cu ildə 474 milyon put, 12-ci ildə 474 milyon put, 13-cü ildə 460 milyon put, 16-cı ildə 434 milyon put neft hasil olduğu halda, 19-cu ildə 6 ay müddətində 127 milyon put hasil olmuşdur. 10-cu ildə 2840 dənə buruq var idi. 12-ci ildə 3142, 13-cü ildə 3445, 16-cı ildə 3573, 19-cu ildə 2027 buruq işləmişdir. 10-cu ildə 518 quyu qazılmışdır. 12-ci ildə 487, 13-cü ildə 708, 19-cu ildə 77 quyu qazılmışdır.

Sonra biz buradan 1910-cu ildə 280 milyondan 300 milyona qədər çıxarırdıq, amma indi çıxır 30 milyon put. Sol firqələr bizə deyirlər ki, siz fəhlələri boğursunuz. 13-cü ildə bizim 45 min əmələmiz var idi. Amma bu il 34 min olmuşdur. Demək, 12 min az olubdur. Halbuki, neft istehsalı görürsünüz ki, nə qədər azalmışdır. Sənayeçini güclə artıq adam saxlamağa vadar etmək olmaz.

O yerlər ki, Hökumət tərəfindən sənayeçilərə verilmiş, Hökumət ona şərikdir. Hazırda neft mədəni yerlərinin beş yüz desyatini dövlət yerləridir. Bu yerlərdə hasil olan neftin 30 faizdən 50 faizədəki hökumətə verilir. Demək, neft ticarətinə Hökumət şərikdir. Budur, Maliyyə naziri burada əyləşib, dəfələrlə ona müraciət edib demişik ki, bizi özbaşına buraxınız, biz artıq mədənləri işlədə bilmirik. Bizə demişlər ki, xeyır, gərək işlədəsiniz. Çünki, Hökumətə zərərdir. Bununla bərabər burada deyirlər ki, gərək xəzinədən neftçilərə avans pul verilməsin. Əmək naziri də o biri tərəfdən fəhlələri çıxarmağı əmr edir. Bir tərəfdən pul verilmir, digər tərəfdən fəhlələri çıxarmaq mümkün deyil. Böylə bir halda sənayeçi nə yapsın? Burada əsaslı vergidən danışdılar. Əsaslı vergi nədir? Hazırda 12 milyon əsaslı

vergidən xəzinənin mədaxili var. Bunu artırarsınız 24 milyon. Xəzinəni yaşadan bunlar deyildir. Xəzinəni dolduran ancaq birbaşa vergidir. Onu da sənayeçilər verir. Bir sənayeçinin neft işlərindən yüz milyonlar əgər qazansa, 35 milyon alacaqsan, sənayeçinin qazancından Hökumətə zərər dəyməz. Sən onunla çalış ki, milyonları küçələrdə qazanırlar, nə haqları, nə hesabları, nə kitabları, nə də hesabatları var"[8].

M.Əsədullayev ölkədə mövcud problemlərin həlli üçün fikirlərini bir qədər konkretləşdirir: "Məsələn, götürək neft mədənlərini, bu saat 250 milyon mədaxil var. Bunun qırx-əlli milyonu xəzinəyə girir. Bunlar həp mənfəətdirsə, həm sənayeçi saxlayırsan, həm də hökumət işlərini dolandırırsan. Mən deyirdim ki, bu barədə çox mühüm səhvlər var. Əmin olunuz ki, Bakıda olan mal heç bir tərəfdə yoxdur. Məmləkətimizin buğda, düyü kimi şeylərə ehtiyacı artıq ikən bunları saxlamayıb, bunların yerinə şokolad, konfet kimi şeylər məmləkətə girir. Məsələn, Ticarət Nazirliyi getdi, nə oldu? Bir neçə cüt corab, bir neçə şey gətirdi. Biz özümüzə gərək olanları burada qoymayırız, çıxıb hüdud xaricinə gedir. Mənfəətli şeylər əlimizdən gedir. Mənfəətsiz şeylər gəlir. Biz bunları nəzərə alaq, bu şeylərdən nə camaat, nə xəzinə mənfəət görür"[9].

M.Əsədullayev çıxışında ciddi təkliflər irəli sürür və onun dedikləri iclas zalından "doğrudur, doğrudur" sözləri ilə təsdiqlənir. O, deyir: "Əvvəl əhalidən pul yığılsın. Doğrudur, bizim cümhuriyyətimizdə gilyotin yoxdur ki, müqəssirlər cəzalandırılsın. Olsa da, sol tərəfdən çıxaracaqlar ki, nə səbəbə insanları öldürürsünüz? Bunlar mümkün şeylər deyildir, gərək Hökumətin bir qətnaməsi olsun. Məsələn, hər kəsdə on min rulədən ziyadə olarsa, Hökumət zəbt etsin. Mən özüm də pul verməyə hazıram və sizi də inandırıram. Fəqət, o pullar gərək pul verməyənlərdən və xəzinədən uzaq olanlardan da alınsın. Hökumət 1 milyard 400 min rublə pul buraxmışdır. Bundan sənayeçilərə susuda veribsiniz. İndi sormaq istəyirəm, o pullar ki, bankda yoxdur, əcəba, bəs harada və kimdədir?"[10].

M.Əsədullayev çıxışının sonunda aşağıdakı təkliflərini yekun olaraq bildirir: 1) Ölkənin ticarət siyasətini daha real və ciddi tədbirlərlə sağlamlaşdırmaq; 2) ölkənin maliyyə vəziyyətini göstərən Hökumət balansını təqdim etmək.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra, Azərbaycan Cümhuriyyətinin naziri olmuş şəxs kimi M.Əsədullayevin ağır günləri başladı.

---

[8] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. B., 1998, s. 558.
[9] Yenə orada, s. 559.
[10] Yenə orada.

M.Əsədullayevin qızı Ümmülbanu (Banin) "Qafqaz günləri" əsərində Azərbaycan Cümhuriyyətindən sonrakı ilk günlərdə, bolşeviklərin işğalı dövründə atasının vəziyyətini, hadisələrin ona təsirini belə yazırdı: "Atam dərin depressiyada idi. O, bütün vaxtı kədərli halda susurdu. O, qısa müddətli Respublikanın nazir vəzifəsinə aldanaraq, vaxtında Bakıdan gedib pullarını xarici banka köçürməmişdi. Onun sarı rəngli nazir qovluğu boşalmış, qapımızdakı gözətçilər götürülmüş, vəzifəsi əhəmiyyətini itirmişdi. Atamı uzaqgörən olmaması fikri üzürdü. Bir müddət ciddi bir dəyişiklik olmadı. Sonra atamı həbs etdilər. Onun nazir, varlı müxalifət partiyanın rəhbərlərindən olması yeni hakimiyyətin diqqətindən kənarda qala bilməzdi"[11].



M.Əsədullayevin qızı, tanınmış yazıçı Ümmülbanu (Banin).

Ümmülbanu atasının həbsxana həyatı haqqında belə məlumat da yazır: "Atamı hələ ki, azad etmirdilər və o, çox sıxılırdı. O, həbsxana emalatxanasında çilingər işləyirdi. Bu kiçik hiyləgərlik onun işini yüngülləşdirə bilərdi. Lakin, həbsxanada qalmaq təhlükəsiz deyildi. Doğrudur, ağqvardiyaçıların dağıdılmasından sonra, Rusiyada mövcud olan terror hələ Bakıya gəlib çatmamışdı... Hələ ki, faciə baş verməmiş və qohumlarımızdan heç kimi güllələməmişdilər. Lakin, dəxli yox idi, yaxın aylarda atamı həbsxanadan çıxarmaq lazım idi"[12].

M.Əsədullayevin yaxınları isə onun həbsdən azad olunması üçün çalışırdılar. Doğmaları Rəna, Leyla müxtəlif Xalq komissarlarının qəbuluna gedir, əlaqələr yaradır, onların keçmiş neft sahələrində işləmiş fəhlələri razılaşdırıb M.Əsədullayevin xeyrinə ərizələr yazmağı xahiş edirdilər.

M.Əsədullayev həbsdə olarkən, bacısı Sara xanım Həsənovanın və digər iki bacısının imzalayıb, Fövqəladə Komissiyaya göndərdiyi məktubda yazılmışdı: "Əksinqilabi ilə mübarizə üzrə FK-ya. "Qoqol" küçəsi, 9 saylı binada yaşayan Sara xanım Həsənova, qızlıq soyadı Əsədullayeva tərəfindən ərizə: "Cari ilin may ayı-

[11] Банун (Ум-Эль Бану). Кавказские дни. (Автобиографический роман). Баку, 2006, с. 122.
[12] Yenə orada, s. 139.

nın 27-də mənim qardaşım Mirzə Əsədullayev həbs edilib. Onun müntəzəm surətdə həkim köməyi tələb edən xəstə vəziyyəti həbs altında saxlandığı üçün onu bu imkandan məhrum edir və ona güclü fiziki əzablar verir. Buna görə, mən Fövqəladə Komissiyadan xahiş edirəm, onu həbsdən azad edərək, mənim və mənim bacılarımın himayəsinə versin. Bakı şəhəri, 27 may, 1920-ci il[1].

Ərizədə bu öhdəlik də qeyd olunurdu: "Biz aşağıda imza edənlər – Sara xanım Həsənova, Ağabacı Meylamova və Xədicə xanım Nağıyeva, qızlıq familiyaları Əsədullayeva, qardaşımız Mirzə Əsədullayevi zaminə götürərək, öhdəlik götürürük ki, Fövqəladə Komissiyanın ilk tələbi ilə onu Fövqəladə Komissiyaya təhvil verəcəyik"[2].

M.Əsədullayevin həbsdən azad olunması xahişi nəticəsində o, (onun 4 iyun 1920-ci ildən həbsxanada yatdığı qeydə alınmışdı) avqustun 26-da Fövqəladə Komissiya tərəfindən Bakı həbsxanasına göndərildi.

1920-ci ilin avqustun 29-da müstəntiq Miskeviç belə qərar verdi: "Mən – FK istintaq hissələrinin möhtəkirlik və cinayət işləri üzrə səlahiyyətli nümayəndəsinin müavini vəzifəsində olan Miskeviç 29 avqust 1920-ci ildə Mirzə Əsədullayevin böyük neft sənayeçisi, zavod, həmçinin ən nəhəng ev sahibi olmasını və tacir silkindən olmasını nəzərə alaraq qərar qəbul etdim: Əsədullayevi girov hesab etmək və işi arxivə göndərmək. Səlahiyyətli nümayəndənin müavini Miskeviç, səlahiyyətli nümayəndə M.Səfikürdski"[3].

M.Əsədullayevin qızı Ümmülbanu (Banin) xatirələrində atasının həbsdən azad olunmasına Cəmil adlı şəxsin vasitəsi ilə, onun dostu olan komissarın xüsusi köməyini qeyd edir.

Eyni zamanda bir məlumatda M.Əsədullayevin həbsdən azad olunmasında Bala Qocayev adlı bir şəxsin də köməyi qeyd edilir. Ümmülbanu isə onunla ailə qurmağa razılaşır. O, 1924-cü ildə B.Qocayevlə Gürcüstana, oradan Türkiyəyə və Fransaya gedir. O, İstanbulda ərindən ayrılır və Parisə gedib şəxsi həyatını qurur. Əvvəl katibə, maneken, tərcüməçi, jurnalist, sonra isə yazıçı kimi Fransada məşhurlaşır[4].

M.Əsədullayev həbsdən azad edildikdən sonra, Azərbaycan SSR Hökumətindən rəsmi icazə alaraq, 1921-ci ilin noyabrında Fransaya getdi və ömrünün sonuna qədər orada yaşadı.

---

[1] L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. II c. B., 2000, s. 153.
[2] Yenə orada.
[3] Yenə orada, s. 153-154.
[4] Р. Абуталыбов. Годы и встречи в Париже. М., 2006, с. 85.

M.Əsədullayev Fransada olduğu dövrdə Ə.M.Topçubaşovun tövsiyəsi ilə 1920-ci illərin ortalarında yaradılmış Azərbaycan Neft Sənayeçiləri Cəmiyyətinin sədri oldu. Cəmiyyətin İdarə Heyətinə Azərbaycan milyonçularının övladları, qohumları və digər neft sənayeçiləri də üzv idilər[5].

1927-ci ildə M.Əsədullayev "Royal Doyç" Deterding kampaniyası ilə gələcəkdə neft çıxarılması barədə 16 min funt sterlinq məbləğində müqavilə bağladı[6]. Bu müqavilə öz növbəsində "Royal Doyç"la rəqabət aparan "Standart Oyl" kampaniyasını bərk narahat etdi.

1927-ci ilin fevralın 21-də Azərbaycan neft sənayeçiləri qrupu, Azərbaycan Neft Sənayeçiləri Cəmiyyətinin Fransada sədri vəzifəsini icra edən M.Əsədullayevə fransız sahibkarı R.Dammanla müqavilə bağlamaq üçün mandat verdilər. Həmin müqavilədə Azərbaycan Respublikasının Nümayəndə Heyətinin Bakının Sabunçu rayonunda 25 desyatin neft olan sahəni R.Dammana icarəyə verilməsi qeyd olunurdu.

Bunun müqabilində Azərbaycan Nümayəndə Heyətinə bir milyon frank məbləğində pul ayrılır və Cəmiyyətin adından M.Əsədullayev təminatçı olurdu.

Mandatın M.Əsədullayevə verilməsini Cəmiyyətin aşağıdakı üzvləri imzaladılar: 1) Mirtağ Babayev (1867 – 1953) (Fransaya getmiş, sonra Tehranda yaşayıb, orada vəfat etmişdir); 2) Əhməd bəy Hacınski (1890 – 1963) (Sankt-Peterburq Universitetini bitirib, Fransaya köçmüş, Parisdə vəfat etmişdir); 3) Qasım Qasımzadə (1889 – 1959) (Sankt-Peterburq Universitetini bitirib, Parisdən Tehrana köçüb. Tehran Universitetinin professoru və senator olub. Tehranda vəfat edib); 4) Mütəllib Məlikov – Pa-



**M.Əsədullayevin Fransada məzarı.**

[5] X. İbrahimli. Azərbaycan Siyasi Mühacirəti. B., 1996, s. 116-117.
[6] Yenə orada, s. 117.

risdə yaşayıb; 5) Mövsüm Səlimov (1877 – ?) (Binəqədidə neft torpaqları olub. 1920-ci il işğalından sonra Fransada yaşayıb); 6) Ağahüseyn Tağıyev (1877 – ) Fransada yaşayıb)[7].

Ə.M.Topçubaşovun fransız sahibkarı R.Dammana 1927-ci il 21 fevral tarixli məktubunda 100 000 (yüz min) frank vəsaitin onların hesabına köçürüldüyü məlumatı vardır.

Aydın olur ki, Ə.M.Topçubaşov X.Sultanov vasitəsi ilə həmin puldan 5000 (beş min) frank məbləğində İstanbula – M.Ə.Rəsulzadəyə göndərmiş, o, isə həmin vəsaiti Milli Mərkəzin büdcəsinə təqdim etdiyini yazmışdır.

M.Əsədullayev 1936-cı ildə Parisdə vəfat etmişdir.

[7] А.М.Топчибаши. Парижский архив. 1919-1940 в четырех книгах. Книга третья. 1924-1930. М, "Художественная литература", 2017, с. 374-375.

# AĞA ƏMİNOV

(1888 – 1921)



Tanınmış siyasi xadim Ağa Əminov 1888-ci ildə Bakıda anadan olub. Bakı gimnaziyasında təhsil aldıqdan sonra Peterburq Dağ-Mədən Mühəndisləri İnstitutunda oxuyub.

A.Əminov 1912-ci ildən Müsavat Partiyasının üzvü olub. O, 1918-ci ilin dekabrında həmin partiyadan Azərbaycan Cümhuriyyətinin Parlamentinə üzv seçilib.

A.Əminov Azərbaycan Cümhuriyyətinin 4-cü Hökumət kabinəsində Ticarət və Sənaye naziri vəzifəsini icra edib. O, Azərbaycan iqtisadiyyatının inkişafında liberallaşma xəttinə üstünlük verib.

1920-ci ildə Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra bir müddət Azərneft sistemində işləyib.

1921-ci ildə Bakıda vəfat edib.

# TİCARƏT VƏ SƏNAYE NAZİRİ

Azərbaycanın tanınmış dövlət xadimi **Ağakərim Məşədi Kərim oğlu Əminov** 1888-ci ildə Bakıda anadan olmuşdur. O, 1907-ci ildə Bakıdakı gimnaziyanı başa vurduqdan sonra Rusiyanın Peterburq şəhərinə gedərək orada Dağ-Mədən Mühəndisləri İnstitutunda təhsil almışdır. A.Əminov Peterburqda oxuyarkən azərbaycanlı tələbələrdən ibarət Həmyerlilər Cəmiyyətinin üzvü kimi də fəallıq göstərmişdir.

O, 1911-ci ildə təhsilini başa vurub Bakıya qayıtdıqdan sonra Sabunçu-Suraxanı neft mədənlərində mühəndis işində çalışmışdır.

O, bu illərdə Bakıda yaradılmış və getdikcə xalq arasında nüfuz qazanan Müsavat Partiyası sıralarına daxil olmuşdur.

1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra A.Əminovun siyasi fəaliyyəti genişləndi.

A.Əminov 1917-ci ilin aprelin 15-20-də Bakıda keçirilən Qafqaz Müsəlmanları qurultayının iştirakçısı oldu, 1917-ci ilin oktyabrında isə Müsavat Partiyasının birinci qurultayının keçirilməsində fəal rol oynadı.

A.Əminov "Azərbaycan Milli Şurasının Məclisi-Məbusanı haqqında qanun"a əsasən, Müsavat Partiyasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçildi.

A.Əminov N.Yusifbəylinin 1919-cu ilin martın 14-də formalaşdırdığı və 1919-cu ilin dekabrın 22-nə qədər davam edən dördüncü Hökumət kabinəsində Ticarət və Sənaye naziri vəzifəsini icra etdi[1].

**O, nazir olduğu dövrdə iqtisadiyyatda liberallaşma xəttinə təşəbbüs göstərdi, neft və neft məhsullarının mal mübadiləsi aparmadan Azərbaycandan kənara sərbəst çıxarılması haqqında Hökumət qərarının qəbuluna nail oldu.**

**A.Əminov Azərbaycanda ilk dəfə olaraq məlumat alıb-ötürmək imkanlarının genişlənməsi üçün informasiya agentliyinin yaradılması ilə bağlı hökumətin hazırladığı qanun layihəsini parlamentə təqdim etdi. Sonradan onun bu çıxışı "AzərTAc" İnformasiya Agentliyinin yaradılmasında mühüm rol oynadı.**

A.Əminov 1918-1919-cu illərdə "Müsəlman gecələri" təşkilinin əsas təşkilatçılarından biri olmuş və 1919-cu ilin mayında Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqının yaradılmasında fəal rol oynadı.

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 92.



A.Əminov Azərbaycan Cümhuriyyəti Nazirlər Kabinetinin üzvləri arasında (arxa cərgədə soldan üçüncü). 1919-cu il.

Ağa Əminov 1918-ci ildə yaradılan Azərbaycan Parlamentinin üzvü idi və onun burada çıxışlarına rast gəlmək mümkündür.

Azərbaycan Parlamentinin 1920-ci ilin 19 fevralında keçirilən 126-cı iclasında 12-yə qədər məsələ müzakirəyə çıxarılmışdı. 4-cü məsələ, yəni "Gəncə şəhərində hərbi zavod açılması haqqında qanun layihəsi" barədə məruzəçi olaraq A.Əminov çıxış etdi. O, bildirdi ki, Gəncədə bir emalatxana vardır və bu da ordunun ehtiyacını təmin etmir, indi orada bir zavod tikmək nəzərdə tutulmuşdur. Bundan ötrü oraya Bakıdan müəyyən dəzgahlar və sairələr aparılacaqdır[2].

A.Əminovun məruzəsindən sonra H.Ağayev, İsmayılzadə (sosialist), S.Ağamalıoğlu, A.Aşurov, Hacı Molla Əhməd, İ.Əbilov, Ə.Qarayev, M.S.Axundzadə, A.Qardaşov çıxış etdilər.

**Sonda A.Əminov çıxış edərək, təcili hərbi hazırlıqlar lazım olduğunu, istiqlalımızı müdafiə etməyin vacibliyini, hərbi zavod açmağın əhəmiyyətini qeyd etdi.**

**Qanun layihəsinin ikinci oxunuşu səsə qoyularaq qəbul olundu.**

1920-ci ilin fevralın 23-də Parlamentin 127-ci iclası keçirildi. İclasa sədrliyi M.Y.Cəfərov, katibliyi isə M.Hacınski edirdi. İclasda 8 məsələnin müzakirəsi nəzərdə tutulmuşdur. Bu iclasda A.Əminov 3 məsələ ilə bağlı məruzə etdi: 1) Gəncə şəhərində hərbi zavod açılması haqqında qanun layihəsinin 3-cü oxunuşu; 2) Bakı Sahil Radiostansiyasının ştatı haqqında; 3) Zaqatala şəhərini Tala çay nəhrinin daşqınından saxlamaq üçün sədd çəkilməsi haqqında[3].

A.Əminovun məruzə edəcəyi "Gəncədə hərbi zavod açılması haqqında qanun layihəsi" 3-cü oxunuşda heç bir düzəliş, əlavə olmadığından qəbul olundu.

---

[2] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 743.
[3] Yenə orada, s. 747.

Parlamentin 3-cü məsələsi olan "Bakı Sahil Radiostansiyasının ştatı haqqında qanun layihəsi" ilə bağlı A.Əminov məruzə etdi. O, bildirdi ki, Bakıdakı radiostansiya (simsiz teleqraf) üç aparatdan ibarətdir və bu aparatlar bütün Avropanın üç böyük stansiyalarından eyni vaxtda gələn xəbərləri qəbul edə bilmir. A.Əminov təklif etdi ki, bu səbəbdən stansiya böyüdülüb genişləndirilməlidir.

O, qeyd etdi ki, ölkədə olan 3 aparatdan 2-si alıcı, 3-cüsü isə həm alıcı, həm də ötürücüdür. O, sonuncu aparatın ingilislərdən alındığını və onun vasitəsi ilə bütün Xəzər dənizi sahillərinə məlumatı çatdırmağın mümkün olduğunu dedi. A.Əminov bildirdi ki, teleqrafda işləmək çox çətindir və hər bir məmur qanuna görə teleqrafda olarkən 6 saat qulaq asmalıdır. O, məlumatlandırdı ki, Maliyyə-büdcə komissiyası iş vaxtını azaldıb 4 saat təyin etsə də, bu sahədə insanlar işləməyə maraq göstərmir. O, parlament üzvlərindən bunu nəzərə alıb radiostansiyanın ştatı ilə bağlı qanun layihəsinin qəbul edilməsini vacib saydı[4].

A.Əminov hazırda mövcud olan aparatın 24 saat ərzində 70 min sözdən artıq qəbul edə bilmədiyini və bir teleqraf agentliyi də təsis etməyin vacibliyini qeyd etdi. O, bildirir ki, mövcud layihəyə baxılarkən xarici dil bilən məmurlara artıq maaş verilməsi nəzərdə tutulmuşdur.

A.Əminov ştat cədvəlində 12 məmur əvəzinə 18-nin göstərildiyini, avqustun 20-dən yanvarın 1-dək radiostansiyaya 528,803 manat pul xərcləndiyini söylədi. Sonra o, teleqraf məmurlarının maaş cədvəllərinin rəqəmlərini parlament üzvlərinə göstərdi və onlardan layihənin qəbulunu xahiş etdi[5].

Bu məsələ ilə bağlı A.Əminovdan sonra A.Aşurov, Ə.Əmircanov, H.Ağayev də çıxış etdilər. Sonda katib qanun layihəsini oxudu və qəbul edildi.

Beləliklə, çox operativ bir şəkildə, bu müzakirələrdən bir həftə sonra Azərbaycan Teleqraf Ajanslığı – AzərTAC fəaliyyətə başladı.

Cümhuriyyətin rəsmi qəzeti olan "Azərbaycan" qəzeti 1920-ci il martın 2-də ilk dəfə olaraq "AzərTAC" imzası ilə xəbərlər yaydı[6].

Qeyd edək ki, hələ 1919-cu il martın 3-də Nazirlər Şurasının iclasında Azərbaycan Teleqraf Agentliyinin təşkili edilməsi məsələsi müzakirə olunmuşdu. Nazirlər Şurasının Sədri F. X. Xoyski bu məsələnin vacibliyi ilə bağlı məruzə etmişdi. Həmin dövrdə Xalq Maarif naziri olan N. Yusifbəyliyə isə Azərbaycan Teleqraf Agentliyini təşkil etmək tapşırılmışdı. Sonradan ortaya cıxan texniki problemlər

[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 748-749.

[5] Yenə orada, s. 749.

[6] N. Əhmədov. Cümhuriyyətin AzərTAC yadigarı: yaranma zərurəti və keçdiyi yol haqqında. "525-ci qəzet", 07.03.2018.

nəticəsində, yəni informasiyanın qəbulu və ötürülməsinin radio – texniki vasitələrdən asılılığını nəzərə alıb qərarın icrası Poçt və Teleqraf Nazirliyinə həvalə edilmişdi.

Parlament iclasında 6-cı məsələ olaraq "Zaqatala şəhərini Tala çayı nəhrinin daşqınından saxlamaq üçün sədd çəkilməsi haqqında qanun layihəsi" müzakirə olundu.

A.Əminov çıxış etdi və Zaqatala şəhərindən axan Tala çayının iki yerə böləndüyünü, sağ qolun şəhərin içindən keçdiyini, daşqın olanda bağlara və buradakı sənət məktəbinə çox zərər dəydiyini bildirdi. O, qeyd etdi ki, oraya Su İdarəsi mühəndislər göndərib və onlar Tala çayı ayrılan yerdə bir bənd və sədd hazırlanmasını təklif ediblər. O, qeyd etdi ki, belə olduqda daşan çayın zərərinin qarşısını almaq mümkün olacaq. Bundan ötrü smetaya görə 235 min 555 manat vəsait lazımdır.

Parlament üzvləri qanunun ikinci oxunuşuna keçilməsinə səs verdilər.

Parlamentin 1920-ci ilin martın 8-də keçirilən 131-ci iclasında 3-cü məsələnin müzakirəsi ilə bağlı A.Əminov məruzə etdi. O, məruzəsində əhalinin kasıb sinfinin və maaş alan məmurlarının ağır vəziyyətini söylədi. O, bildirdi ki, manatın kursunun aşağı düşməsi məmurların dolanışığına ciddi təsir göstərib. A.Əminov bir faktı açıqladı ki, ilk olaraq Məmurlar İttifaqı təşəbbüs göstərərək Hökumətə layihə təqdim edib və maaşlara faiz artırılması təklifini irəli sürüblər. A.Əminov Azərbaycanda ümumilikdə 40.000 məmurdan 60 faizinin ailəli olduğunu nəzərə alıb məsələnin ciddiliyini də önə çəkdi.

Bu məsələ parlamentdə geniş müzakirəyə səbəb oldu. Müzakirələrdə A.Qardaşov, A.Səfikürdski, Ə.Qarayev, R.Qaplanov, Q.Qarabəyli, C.Məlikyeqanov, A.Kazımzadə, İ.Əbilov çıxış etdilər. Sonda məsələnin müzakirəsi növbəti iclasa saxlanıldı[7].

1920-ci ilin aprelin 8-də parlamentin 139-cu iclası M.Y.Cəfərovun sədrliyi və R. Qaraşarovun katibliyi ilə keçirildi. Ə.Əmircanov dəmiryol tariflərinin artırılması haqqında qanun layihəsi ilə bağlı məruzə etdi. Məruzə ətrafında Q.Qarabəyov, nazir X.Məlikaslanov çıxış etdilər. Sonra sədr bildirdi ki, layihə ilə bağlı bir neçə fikir vardır. O, bildirdi ki, bu qanun layihəsi ilə bağlı fikir formasında olmasa da, təklif olaraq səslənmişdi ki, dəmiryolu ilə neft başqa sahələrdir və bu məsələlər bir-birindən ayrılmalıdır.

A.Əminov bu məsələdə Maliyyə-büdcə komissiyası adından iclasa həmin təkliflə bağlı məlumatlar verdi və o fikrin komissiya tərəfindən irəli sürüldüyünü

---

[7] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c., B., 1998, s. 819.

qeyd edərək dedi: "Tacirlər və alış-verişçilər buradan apardıqları nefti Batumda artıq qiymətə satırlar. Maliyyə-büdcə komissiyası, məmləkət daxilində həmişə vətənin mədaxilini artırıb məxaricini azaltmaq ilə məşğuldur. Bu komissiya ərzağın artırılması bahalığın qarşısının alınması və xəzinəni yaxşı bir hala gətirib qiymətləndirmək vəzifəsi ilə məşğuldur. O qərar qoyub ki, malımızı Batumda artıq satanların əlindən xilas edək və həmin mənfəətdən xüsusi şəxslər deyil, bəlkə məmləkətimiz mənfəətbərdar olsun"[1].

A.Əminovun belə mövqeyindən sonra nazir X.Məlikaslanov çıxış etdi və bu məsələyə Hökumətdə ayrıca baxılacağını bildirdi.

Parlamentin 1920-ci ilin 26 aprelində keçirilən 144-cü iclasında müzakirə edilən məsələlərdən biri də belə adlanırdı: "Orta təhsil məktəblərinin hazırlıq siniflərində dərs deyən müəllimlərin əmək haqqının artırılması haqqında qanun layihəsinin 2-ci müzakirəsi". Bu məsələ haqqında A.Əfəndizadə məruzə etdikdən sonra M.Mahmudov, A.Əminov və R.Qaraşarov çıxış etdilər[2]. Qanun layihəsi maddə-maddə müzakirə olunduqdan sonra, 2-ci oxunuşda qəbul edildi.

Bu, A.Əminovun Azərbaycan Cümhuriyyəti Parlamentində son çıxışı oldu.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra A.Əminov bir müddət "Azərneft" sistemində işləmişdir.

A.Əminov 1921-ci ildə Bakıda vəfat edib.

[1] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 288, v. 4-26.
[2] "Azərbaycan" qəzeti, 28 aprel, 1920-ci il, №84.

# RƏŞİD XAN QAPLANOV

(1883 – 1937)



Rəşid Zabit oğlu Qaplanov 1883-cü ildə Dağıstanın Xasavyurd qəzasının Ağsay kəndində anadan olub. Milliyyətcə qumıqdır. Əvvəl Vladiqafqazda Realnı məktəbdə, 1910-cu ildə isə Parisdəki Sorbonna Universitetinin hüquq fakültəsində təhsil alıb.

R.Qaplanov 1919-cu ilin əvvəllərində Bakıya köçüb. O, Azərbaycan Cümhuriyyətinin N.Yusifbəyli tərəfindən formalaşdırılan 4-cü Hökumət kabinetində Maarif və Dini Etiqad naziri vəzifəsini icra edib.

R.Qaplanov N.Yusifbəylinin 1919-cu ilin dekabrın 24-də təmsil etdiyi 5-ci Hökumət kabinetində Maliyyə naziri olub.

Azərbaycan 1920-ci ilin aprelin 27-də Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra R.Qaplanov həbs edilib, əvvəl Vladiqafqaza, sonra Moskvaya göndərilib.

R.Qaplanov 1937-ci ildə yenidən həbs olunaraq Moskvada güllələnib.

# MAARİF VƏ DİNİ ETİQAD NAZİRİ

Tanınmış siyasi və dövlət xadimi **Rəşid xan Qaplanov** Azərbaycanda fəaliyyətə 1919-cu ildə başlamış və cümhuriyyətin inkişafında böyük xidmətlər göstərmişdir.

Milliyyətcə qumıq olan R.Qaplanov 1883-cü ildə Dağıstanın Xasavyurd qəzasının Ağsay kəndində doğulmuşdur. Əlavə edək ki, Rəşid Qaplanovun mənsub olduğu və sayı hazırda 450 minə çatan qumıqlar Şimali Qafqazda yaşayan ən böyük türk etnosudur.

Tədqiqatçı-alim V.Quliyev qumıqlarla azərbaycanlıların əlaqələri haqqında belə bir məlumatı qeyd edir: "Qafqazdakı dil və din qardaşlarımız qumıqları bizə yaxınlaşdıran tarixi qohumluq əlaqələri də mövcuddur. Sonuncu Qarabağ hökmdarı Mehdiqulu xan Cavanşirin qızı, şairə Xurşud Banu Natəvan (1832-1897) Rəşid Qaplanovun doğulduğu Ağsay kəndindən olan knyaz, rus ordusunun general-mayoru Xasay xan Usmiyevlə (1808-1866) ailə qurmuşdur"[1].

R.Qaplanov Vladiqafqazdakı realnı məktəbdə oxuduqdan sonra Fransaya getmiş, 1910-cu ildə Parisdəki Sorbonna Universitetinin hüquq fakültəsini bitirmişdir. O, sonradan İstanbula getmişdir. İstanbula getməsinin əsas səbəbi iki il əvvəl burada gənc türklər inqilabının qələbəsi, eyni zamanda Parisdən tanıdığı İttihad və Tərəqqi Partiyasının bir sıra üzvlərinin hökumətdə mühüm vəzifə tutmaları idi[2].

Digər tərəfdən isə onun əmisi oğlu Əhməd Səid Qaplanov gənc türklərin liderləri arasında tanınırdı.

R.Qaplanov İstanbulda Mülkiyyə məktəbində dövlət hüququndan, Siyasi Elmlər məktəbində isə anayasa hüququndan dərs dedi, Ədliyyə Nazirliyində qanunvericilik islahatları komissiyasında çalışdı.

R.Qaplanov 1913-cü ildə atasının təkidi ilə Vladiqafqaza qayıtdıqdan sonra, burada məhkəmə sistemində müvəkkil olaraq işlədi.

R.Qaplanov 1917-ci ilin 1(14) – 8(21) may tarixlərində Birləşmiş Dağlıların Müvəqqəti MK-sının qurultayında iştirak etdi (həmin qurultayda qurumun adı – Şimali Qafqaz və Dağıstan Dağlıları İttifaqı adlanırdı).

Onun mayın 5(18)-də qurultaydakı məruzəsindən və müzakirələrdən sonra Dağlılar İttifaqının yaradılması haqqında qərar qəbul edildi[3].

---

[1] V. Quliyev. Cümhuriyyət naziri: Rəşid xan Qaplanov. www.kitabxana.net/03.10.2010.
[2] Yenə orada.
[3] Yenə orada.

**1918-ci ilin mayın 11-də Şimali Qafqaz Dağlıları Respublikası (çeçen milyonçusu Ə.Germoyevin başçılığı ilə) yaradıldı və R.Qaplanov da bu hökumətdə təmsil olundu.O, 27 nəfərlik Dağlı Parlamentinin də üzvü idi.**

**1919-cu ilin martında R.Qaplanov burada yeni hökumət kabineti formalaşdırmağa çalışsa da, bu, mümkün olmadı. 1919-cu ilin mayında Denikin Dağıstanı ələ keçirdi.**

**R.Qaplanov 1919-cu ilin əvvəllərində Bakıya köçdü, Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının Sədri N.Yusifbəylinin yaratdığı 4-cü Hökumət kabinetində Maarif və Dini Etiqad naziri vəzifəsini icra etdi. Onun rəhbərliyi altında Bakıda və Azərbaycanın bir çox şəhərlərində yeni məktəblər açılaraq, fəaliyyətə başladı.**

R.Qaplanov N.Yusifbəylinin başçılıq etdiyi 4-cü Hökumət kabinetində Maarif naziri olarkən (14 mart 1919 – 12 dekabr 1919) təhsil sahəsində ciddi inkişaf baş verdi. İlk olaraq, 1919-cu ilin noyabrında Bakı Dövlət Universitetinin açılışı oldu, yüzə qədər tələbənin Rusiya, Türkiyə və Avropa universitetlərinə göndərildi. Azərbaycan Hökumətinin böyük dəstək verdiyi bu işlərin reallaşmasında R.Qaplanovun da xidməti oldu.

1919-cu ildə Azərbaycan Hökuməti tədrisi gücləndirmək məqsədi ilə Türkiyədən türk müəllimlərini Bakıya dəvət etdi. Bu dəvətin reallaşdırılmasında Maarif naziri R.Qaplanovun da əlaqələrindən istifadə olundu.

1919-cu ilin noyabrında Bakı Dövlət Universitetinin açılmasında R.Qaplanov yaxından iştirak etmiş və bir məlumata görə, o, burada Osmanlı ədəbiyyatı tarixindən mühazirələr oxumuşdur.

1919-cu ilin dekabrın 24-də N.Yusifbəyli 5-ci Hökumət kabinetini formalaşdırdı və R.Qaplanovu Maliyyə naziri təyin etdi. R.Qaplanov Maliyyə naziri olarkən dövriyyəyə buraxılan pulların qiymətdən düşməməsi və devalvasiyaya uğramaması üçün böyük səy göstərdi. O, 1920-ci ilin fevralın əvvəllərində Bakı bonlarının Zaqafqaziya pullarına dəyişdirilməsini dayandırmaq barədə qərar verdi. Onun verdiyi qərara əsasən, 500 manat dəyərində olan kağız pul əlli beş seriya ilə dövriyyəyə buraxıldı.

27 aprel işğalından bir həftə əvvəl R.Qaplanov Batuma ixrac edilən neft və neft məhsulları üçün rüsumların yalnız Azərbaycan pulu ilə ödənilməsi haqqında sərəncam verdi.

R.Qaplanov Azərbaycan Parlamentinin iclaslarında da çıxışlar edirdi. Onun ilk çıxışı parlamentin 1919-cu ilin avqustun 21-də keçirilən 67-ci iclasında oldu.

Parlamentin toplantısında ilk olaraq "Azərbaycan Darülfünunun təşkili haqqında" məsələ müzakirə edildi. Əsas məruzəçi kimi çıxış edən parlamentin katibi Mehdi bəy Hacınski oldu. M.Hacınski bildirdi ki, darülfünunun yaradılması ilə bağlı Hökumətin yaratdığı komissiyaya professor-cərrah Razumovski (sədr), üzv olaraq iki nəfər qeyri-professor, Maarif Nazirliyindən bir nəfər, Bakı bələdiyyəsi və Neft Şurasının hərəsindən də bir nəfər daxildir. M.Hacınski komissiyanın bununla bağlı bir layihə hazırladığını qeyd etdi. O, bildirdi ki, bu məsələyə belə yanaşma vardır: darülfünun Azərbaycanda olsun, ya olmasın? O, qeyd etdi ki, bu barədə iki cərəyan vardır: biri lehinə, digəri isə əleyhinədir. Bəziləri zamanın uyğun olmadığını desələr də indi Maliyyə-büdcə komissiyasında hamı tərəfdar olduğunu bildirib[4].

Sonra darülfünun layihəsi ətrafında müzakirələr başlandı. İlk olaraq Kravçenko (rus dilində), sonra Q.Qarabəyli, M.Ə.Rəsulzadə, Y.Əhmədov, Vonsoviç (rusca danışır), A.Əfəndiyev, S.Ağamalıoğlu, M.Əfəndizadə, Ə.Qarayev çıxış etdilər.

Sonra söz Maarif naziri R.Qaplanova verildi. O, dedi: "Bulunduğumuz əsrdə yaşaya bilmək vəsaiti-maddiyyədən ziyadə vəsaiti-mənəviyyə olan elmə müvəffəqdir. Əsasən gözlərimiz önündə cərəyan edən əhval və vüquat bu həqiqəti göstərir. Bəziləri də Avropada elm var deyirlər, elə gözləri önündə olan elmi görmürlər.

Məlumunuzdur ki, hər hansı bir mühüm işə başlandığı vaxt, əvvəla məqsədi-əsliyyəni təhlil etmək lazımdır. Bunun üçün biz əvvəla darülfünun haqqındakı məqsədi-əslimizi təhlil etməliyik. Biz darülfünunu yalnız bir neçə müəllimi, bir neçə tələbəni hazırlamaq üçün açmırıq. Və heç də zənn etmirəm ki – bu şəraitlə qəbul edəlim. Bilirsiniz ki, hər mədəni millət və qövm darülfünun haqqındakı fədakarlıqdan çəkinməz...

Bir çoxları belə güman edirlər ki, darülfünun açılması Azərbaycanı nəzərlərdə yüksəldər və İstiqlalımızın qəbul və təsdiqi məsələsinin hüsni-həllinə kömək edə bilər"[5].

R.Qaplanov çıxışında universitet açılmasında tərəddüd edənləri inandırmağa çalışırdı: "Biz Azərbaycan Darülfünunun açılmasında israr edərkən ancaq Azərbaycan dövləti və türk mədəniyyəti-milliyyəsi mənafeyi nöqteyi-nəzərindən edirik. Müstəqil bir millət kimi yaşamaq üçün elani-istiqlal etmək kafi deyildir. **Həqiqətən müstəqil yaşaya bilmək və mədəni millətlər ailəsində**

[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 7-8.
[5] "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920). II c. B., 2016, s. 403.

**müəyyən bir mövqe tuta bilmək üçün elə möhkəm bir bünövrə qoymaq lazımdır ki, onun üzərində millətimiz dühayi-milliyyəsini, istedadi-xəllaqiyəsini, xüsusiyyətini ibraz edə bilsin və bununla da öz istiqlalını gələcək imtahanlardan təmin etmiş olsun. Zira mənliyini dərk etmiş bir millət üçün heç bir imtahan qorxunc deyildir”[6]**.

R.Qaplanov universitetin açılması ilə bağlı çıxışında inandırıcı fikirlər irəli sürür, bunun vacibliyini əsaslandırırdı: “Budur, darülfünun açmaqla təqib etdiyimiz əsas məqsəd həmin belə elmi qüvvələri və fənni mərkəzi təsis və hasil etməkdir. Ancaq bu, bizə həqiqi müstəqil həyat yaşamağa imkan verər və milli mədəniyyətimizi möhkəm əsaslar üzərində qoyar. Şübhəsizdir ki, bunun üçün tamamilə milli xüsusata malik bir mərkəzi-fənniyə yaradılmalıdır. Darülfünun tədris və tənimati-fənniyyə üçün dühayi-milliyyə xüsusiyyatı ilə ahəngdar şərait təmin etmək mənasında milli ola bilər və olmalıdır”[7].

R.Qaplanov qeyd etdi ki, biz milli bir darülfünun yaratmaq üçün onu Avropa dillərinin birində açmalıyıq. O, darülfünunun geniş imkanlı olması baxımından rus dilində açılıb, Azərbaycan dövlətinə, türk mədəniyyətinə xidmət etməyininin vacibliyini vurğuladı. O, bildirdi ki, darülfünunda tədricən yeni kafedralar açmaq, türk dilinin tədrisini genişləndirmək və müntəzəm olaraq milliləşdirmək lazımdır.

**R.Qaplanov çıxışını təsirli bir məntiqlə yekunlaşdırdı: “Biz müsəlmanlar məscidə gedərkən onun müqəddəsliyinə ehtiramən ayaqqabılarımızı çıxarırıq. Çox istərdim ki, darülfünunu da belə tədris edərək ona məbəd kimi baxaydıq və onun xüsusunda düşünərkən həqiqi bir elm məbədi yaratmağa xidmət edən mülahizatdan başqa digər fikir və mülahizələri kənara ataydıq. Çünki darülfünuna bağladığımız ümid və arzulara ancaq bu şərait altında nail ola bilərik”[8]**.

Azərbaycan Parlamentinin 1919-cu ilin 25 avqustunda keçirilən 68-ci iclasında isə 16-ya qədər məsələ müzakirə edildi.

Parlament iclasının 1-ci məsələsi Azərbaycan Darülfünunun təşkili haqqında 2-ci oxunuşun müzakirəsi oldu. M.Hacınski darülfünun haqqındakı qanun layihəsini maddələr üzrə oxudu. Bu oxunuşda türk dilinin darülfünunda (2-ci maddə) məcburi tədrisi, darülfünuna muxtariyyət verilməsi, bina ayrılması və digər məsələlər müzakirə edildi.

---

[6] “Azərbaycan” qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920). II c. B., 2016, s. 404.
[7] Yenə orada, s. 405.
[8] “Azərbaycan” qəzeti, 2 sentyabr, 1919, №266.

R.Qaplanov müzakirədə çıxış etdi və Bakıda darülfünunun binasının tikilməsi problemlərindən danışdı. O, qeyd etdi ki, darülfünunun təşkili üçün əvvəl 3 milyon manat yarım nəzərdə tutulsa da, müəyyən əşyalar xaricdən alındığına görə "bunun kifayətsiz olduğu hiss edildiyindən 5 milyona qədər artırıldı"[9].

Parlamentin 1919-cu ilin sentyabrın 22-də keçirilən 76-cı iclasında 17-yə yaxın qanun layihəsi müzakirəyə çıxarıldı. Birinci məsələ olaraq "Azərbaycan Hökumət Darülfünunun təşkili haqqında qanun layihəsi"nin növbəti müzakirəsi keçirildi. Bu müzakirədə ən çox diqqət edilən darülfünun Şurasında tələbələrin iştirakı məsələsi oldu. Ə.Pepinov və Q.Qarabəyli Şurada tələbələrin iştirakını vacib saysalar da, Maarif naziri R.Qaplanov etiraz edərək dedi: "Əfəndilər! Əski Rusiyada darülfünunlar bir müəssiseyi-məarifdən ziyadə, bir mərkəzi-siyasət olmuşdu. Ona görə tələbələr siyasət ilə məşğul olurdular. Bunun üçün tələbələr bu maddə əleyhinə çalışarlar. Bizdə isə belə deyildir. Azərbaycan kimi hüquqi-siyasiyyəyi təmin edən bir məmləkətdə tələbələrin hüquqi-siyasiyyələrindən bəhs etmək lazım deyil, bir də siyasət ilə məşğul olan böyük parlamentimiz və siyasi firqələrimiz vardır. Arzu edərdik ki, darülfünun siyasətdən uzaq olub elm və tədris ilə məşğul olsun"[10].

Bu geniş müzakirələrdən sonra 1919-cu ilin noyabrında Bakıda ilk darülfünunun (universitetin) açılış mərasimi oldu.

Palamentin 1920-ci ilin martın 8-də keçirilən 131-ci iclasında A.Əminov əhalinin kasıb sinfi və məmurlarının maaşlarının artırılması vacibliyinə toxundu və qeyd etdi ki, hazırda Azərbaycanda 40.000 hökumət məmuru vardır ki, onların 40 faizi subay, 60 faizi ailəlidir və bu insanların dolanışığında bahalaşma ilə əlaqədar çətinliklər yaranmışdır.

Bu məsələ ilə bağlı A.Qardaşov, A.Səfikürdski, Ə.Qarayev çıxış etdikdən sonra, söz Maliyyə naziri (o, artıq Maliyyə Naziri idi – red.) R.Qaplanova verildi. O, dedi: "Əfəndilər! Burada danışan natiqlər, ümumiyyətlə, hər kəsə bəlli olan həqiqətləri söylədilər. Təəssüflər ki, bu xəstəliyin əsasını söyləsə idilər, daha yaxşı olardı. Bunu söyləmədilər. Kim iddia edir ki, bu qanun layihəsi bizim halımızı tamamilə yaxşılaşdıracaq, bunu kimsə demədi və deyə də bilməzdi".

R.Qaplanov ölkə iqtisadiyyatında islahatların vacibliyindən, sərvət mənbəyi olan neftdən, son zamanlarda ehtiyaca görə pambıq, ipək yerinə buğda əkilməsindən, vergilərin bir hissəsinin artırılmasından və vəziyyətdən çıxmaq üçün Hökumətin çalışmasından danışdı[11].

---

[9] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 39.
[10] Yenə orada, s. 117.
[11] Yenə orada, s. 811-812.

R.Qaplanov Azərbaycan Cümhuriyyətinin istər Maarif, istərsə də Maliyyə naziri vəzifələrində çalışarkən dövlətin inkişafında önəmli rol oynadı.

1920-ci ildə Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra R.Qaplanovun da ağır, təqiblərlə müşahidə edilən həyatı başlandı. R.Qaplanov iyun ayında həbs olundu, azadlığa buraxıldıqdan sonra əvvəl Vladiqafqaza, sonra isə Moskvaya göndərildi. O, Moskvadakı Şərq Xalqları Universitetində Osmanlı imperiyası tarixindən dərs dedi, eyni zamanda, vəkil kimi də fəaliyyət göstərdi.

R.Qaplanovun Bakıda həbsdən azad olunmasında Stalinin köməyi qeyd edilsə də, bu, inandırıcı görünmür. Çünki Stalin Bakıya 1920-ci ilin oktyabrında gəlmişdir.

Digər məqamda isə (bu, daha realdır) R.Qaplanovun həbsdən xilasında Dağıstan İnqilab Komitəsinin Sədri Cəlaləddin Qorxmazovun (onların yaxın dostluq münasibətləri olmuşdur) və Nəriman Nərimanovun rolu qeyd edilir.

R.Qaplanov 1921-ci ildə də Buynaksda bolşeviklər tərəfindən həbs olunmuşdur. Çünki ondan Qafqazı tərk etmək tələb edilmişdi[1]. Bundan sonra o, Moskvada yaşamağa məcbur oldu. O, burada Ənvər Paşa ilə əlaqədə olmuş, 1923-cü ildə "Türkiyə tarixi üzrə mühazirələr" kitabını çap etdirdi.

1930-cu ildə R.Qaplanov yenidən həbs edilsə də, bir müddət sonra azadlığa çıxmışdı. O, bir müddət Ümumittifaq Yeni Əlifba Komitəsində hüquq məsləhətçisi olaraq çalışdı.

**R.Qaplanov 1937-ci ilin oktyabrın 8-də Moskvada həbs edildi. Həmin vaxt o, Özbəkticarət Müvəkkilliyinin Moskvadakı daimi nümayəndəliyində hüquq məsləhətçisi işləyirdi.**

**1937-ci ilin dekabrın 10-da o, "əksinqilabi hərəkatda, antisovet millətçi terror təşkilatında fəal iştirakına görə" ittiham edilərək güllələndi[2].**

R.Qaplanovun həyat yoldaşı yəhudi əsilli Olqa Arşon idi. R.Qaplanov güllələnəndə oğlu Muradın 22 yaşı vardı. Murad Moskva Energetika İnstitutunu bitirdikdən sonra tanınmış alim S.Korolyovun yaxın həmkarı oldu və "Molniya-1" raket qurğularının hazırlanmasında xidmətlər göstərdi. Ona iki dəfə SSRİ Dövlət Mükafatı təqdim edildi.

---

[1] V. Quliyev. Cümhuriyyət naziri: Rəşid xan Qaplanov. www. kitabxana. net/03.10.2010.

[2] Yenə orada.

# AĞA AŞUROV

(1880 – 1936)



Tanınmış dövlət xadimi Ağa Aşurov 1880-ci ildə Bakıda anadan olub. Bakıdakı gimnaziyanı bitirdikdən sonra Almaniyada mühəndis-texnoloq ixtisası üzrə ali təhsil alıb. Təhsilni başa vurduqdan sonra Bakıya qayıdıb və burada Bələdiyyə idarəsində çalışıb.

A.Aşurov Azərbaycan Cümhuriyyəti dövründə F.X.Xoyskinin formalaşdırdığı ikinci Hökumət kabinetində (17.06.1918 – 07.12.1918) Ticarət və Sənaye naziri, 1918-ci ilin oktyabrın 10-da aparılan kabinə dəyişikliyindən sonra isə Poçt və Teleqraf naziri olub.

Azərbaycan Cümhuriyyətinin ilk dövründə dövlətin ticarət-sənaye və ərzaq siyasətinin müəyyənləşdirilməsində A.Aşurov böyük xidmətlər göstərib.

1920-ci ilin aprelin 27-də Azərbaycan sovet rejimi tərəfindən işğal edildikdən sonra bolşeviklər onu da həbs etməyə çalışdı. Lakin A.Aşurov əvvəl Türkiyəyə getməyə cəhd göstərdi, bu baş tutmadıqda Rostov şəhərinə köçüb orada yaşadı.

A.Aşurov 1936-cı ildə Rostov şəhərində vəfat etdi və oradakı tatar qəbiristanlığında dəfn olundu.

# TİCARƏT VƏ SƏNAYE NAZİRİ

Azərbaycan Cümhuriyyətinin tanınmış simalarından olan **Ağa Hacı Aslan oğlu Aşurov** 1880-ci ildə Bakı şəhərində anadan olmuşdur. A.Aşurov Bakıdakı gimnaziyada oxuduqdan sonra Almaniyaya getmiş, orada mühəndis-texnoloq ixtisası üzrə ali təhsil almışdır.

A.Aşurov Almaniyada mühəndis diplomu alsa da bir il Xarkov Texnoloji institutunda da oxumuş və Rusiya diplomu almışdı.Buna səbəb Rusiyanın başqa ölkə ali məktəblərinin diplomunu tanımaması idi.

A.Aşurov təhsilini başa vurub Bakıya qayıtmış, Bələdiyyə idarəsində çalışmışdır. O, Bakının abadlaşdırılması sahəsində müəyyən işlər görmüşdür.

1908-ci ildə Bakıda A.Aşurovun rəhbərliyi ilə yeni elektrik stansiyasının tikilməsi ilə bağlı müqavilə bağlanmışdır. O, eyni zamanda H.Z.Tağıyevin təşəbbüsü və himayədarlığı ilə Bakıya Şollar su kəmərinin çəkilməsi prosesində iştirak etmişdir.

Aşurovlar ailəsi həm də Azərbaycanda gəmiçiliyin inkişafında mühüm rol oynamışdılar. A.Aşurovun atası Hacı Aslanın 5 buxar gəmisi, 5 yelkənli gəmisi, 3 barkası, 8 barjı vardı və onlar Bayılda tərsanə və iskələ də tikmişdilər.

Onu da əlavə edək ki, Çar II Nikolay 1903-cü il fərmanı ilə Aşurovlar ailəsinə fəxri vətəndaşlıq vermiş və onlar bu imtiyazdan faydalanırdılar.

A.Aşurov əsası 1906-cı ilin avqustun 1-də qoyulan, məqsədi müsəlman əhalinin arasında savadın yayılması olan və noyabrın 24-dən H.Z.Tağıyevin sədrliyi ilə fəaliyyət göstərən Nəşri-Maarif Cəmiyyətinin işlərində fəallıq göstərmişdir[1].

O, Bakı şəhər Dumasının üzvü kimi müəyyən işlər görmüşdür.

A.Aşurov 1906-cı ildə Ə.M.Topçubaşovun sədrliyi ilə Nijni-Novqorod şəhərində keçirilən Rusiya müsəlmanlarının 3-cü qurultayında iştirak etdi, qurultayın Rəyasət Heyətinin üzvü oldu.

A.Aşurov 1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra həmin ilin martında yaradılan Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçildi, eyni zamanda 1917-ci ilin aprelin 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında iştirak etdi.

1918-ci ilin mart hadisələrində o, ermənilərin müsəlmanlara qarşı həyata keçirdikləri qətliamı dayandırmaq üçün müsəlman nümayəndə heyətinin tərkibində İnqilabi Müdafiə Komitəsinin, Erməni Milli Şurasının üzvləri və İranın Bakıdakı konsulu Həbibulla xanla danışıqlar apardı.

[1] Azərbaycanın ilk qeyri-hökumət təşkilatları (hazırlayan və elmi redaktor: N. Yaqublu.) B., 2013, s. 30.

1918-ci ilin 28 mayında Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra A.Aşurov da dövlət quruculuğu işlərində fəallıq göstərdi.

1918-ci ilin iyunun 17-də F.X.Xoyski ikinci Hökumət kabinetini formalaşdırdıqda A.Aşurov Ticarət və Sənaye naziri təyin olundu[2].

A.Aşurov 1918-ci ilin oktyabrın 6-da olan kabinədaxili dəyişikliyə qədər, eyni zamanda ölkənin ərzaq sahəsinə də başçılıq etdi. 1918-ci ilin oktyabrın 6-da ayrıca Ərzaq Nazirliyi yaradıldı və bu sahə K.Lizqara həvalə edildi.

1918-ci ilin oktyabrın 6-dakı kabinədaxili dəyişiklikdən sonra A.Aşurov Poçt-Teleqraf naziri təyin olundu[3]. Onun əvvəl işlədiyi sahə üç nazirlik formasında (Ticarət, Sənaye və Daxili İşlər) birləşdirildi və B.Cavanşirə tapşırıldı.

1918-ci ilin dekabrında o, Azərbaycan Parlamentinə üzv seçilərək Müsavat və bitərəflər fraksiyasında təmsil olundu.

**Cümhuriyyətin ilk dövründə dövlətin ticarət, sənaye və ərzaq siyasətinin müəyyənləşdirilməsində onun böyük rolu oldu. Ölkədə müəyyən hallarda baş verən iqtisadi böhranla mübarizədə, iqtisadiyyat sahəsində dövlət nəzarəti sisteminin yaradılmasında, möhtəkirliyin qarşısının alınmasında A.Aşurov fəallıq göstərdi. O, dövlətin müstəqil iqtisadi xəttinin müdafiəçisi idi.**

A.Aşurov 1918-ci ilin dekabrın 7-dən fəaliyyətə başlayan Azərbaycan Parlamentinin iclaslarında da fəallıq göstərirdi. O, parlamentdə Müsavat və bitərəflər fraksiyasında təmsil olunurdu.

O, parlamentdə aparılan qanun layihələrinin müzakirələrində tez-tez çıxışlar edirdi.

1919-cu ilin fevralın 5-də keçirilən Azərbaycan Parlamentinin iclasında Hökumətə sorğu məsələsi müzakirə edildikdə, A.Aşurov belə təkliflə çıxış etdi: "Hökumətin sorğulara cavabını eşidərək Məclisi-Məbusan Hökumət rəisinin göstərmiş olduğu tədbirlərin tezliklə həyata keçirilməsi üçün Hökumətin bəyanatını kafi olaraq qəbul edir və növbədəki məsələlərin müzakirəsinə keçir"[4].

1919-cu ilin fevralın 26-da parlamentin 17-ci iclasında ilk olaraq M.Rəfiyev məruzə etdi. O, çıxışında Maliyyə-büdcə komissiyasının 21 fevral tarixli iclas protokolu əsasında Bakı Bələdiyyə idarəsinə 4 milyon rubl borc buraxılması ilə bağlı Daxiliyyə nəzarətinin qanun layihəsinin qəbulu üçün parlamentə təklifini bildirdi.

---

[2] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s. 91.
[3] Yenə orada, s. 92.
[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 263.

Bu məsələ ilə bağlı ilk olaraq A.Aşurov çıxış etdi. O, dedi: "Mən Bakı Bələdiyyə idarəsinə pul verilməsi tərəfdarı olardım və olmalıyam da. Pul verilməsini də istərəm. Heyif ki, bu layihədə bu borcun nə cür qaytarılacağı və mədaxil yolu göstərilmir. Parlament özünü aldatmamalıdır. Keçənlərdə bələdiyyə idarəsinə bir milyon borc verdik və onun qaytarılması vaxtı göstərildi. Fəqət bu dörd milyonu Bələdiyyə idarəsi qaytara bilməyəcəkdir... Mən təklif edirəm ki, bu pulu borc deyil, qaytarmamaq üzrə Bələdiyyə idarəsinə verin və mədaxilini artırmaq üçün yollar arayın"[5].

Həmin iclasda müzakirə edilən digər məsələ dəmiryol tarifinin artırılması idi. A.Rzayevin əsas məruzəsindən sonra S.M.Qənizadə, A.Əminov, Ə.Cövdət (Pepinov) çıxış etdilər. Bu məsələyə münasibət bildirən A.Aşurov dedi: "Deyirlər, tarifi artıraq. Bu sistem düzgün deyildir. Tarifi artırmaq öz-özündən sərbəst bir məsələ deyil, bu, bir başqa fraksiyadan asılıdır ki, tarifi nə vaxt və nə qədər artırmaq olar. Bu nəzərə alınmalıdır"[6].

A.Aşurov qeyd etdi ki, tarifin artırılması heç vaxt mənfəət verməyib və əvvəl bu, zərər vermişdir. Onun fikrincə, tarifi o zaman artırarlar ki, məxaric çox olsun, mədaxili də artırmaq mümkün olmasın.

Bu məsələnin müzakirəsi sonunda qanun layihəsi Maliyyə-büdcə komissiyasının göstərdiyi məzmunda qəbul edildi.

Parlamentin 1919-cu ilin martın 6-da keçirilən 20-ci iclasında "Spirtin aksiz altına alınmasına dair qanun layihəsi" müzakirə olundu. Bu haqda ilk olaraq M.Rəfiyev çıxış etdi. M.Rəfiyevdən sonra söz A.Aşurova verildi. O, dedi: "Möhtərəm məbuslar! Bu qəbul olunan qanun layihəsi ki, indi deyilir 10 dəfə, 5 dəfə artırılsın, mən bunu əsas ilə düz görmürəm. Yenə 10 dəfə artırılsa da, 20-200 və ya bir dəfə artırılsın. Mən deyirəm biz idrak ilə bir şeyi o vaxt qəbul edək ki, əvvəl büdcəmiz məlum olsun. Və bilək ki, nə qədər mədaxil lazımdır. Bunu biləndən sonra lazım gələrsə artırarıq"[7].

A.Aşurov bir fikri çıxışında xüsusi vurğuladı: "Ticarət ilə oynamaq olmaz. Ticarətə ayıq baxmaq lazımdır".

Parlamentin 1919-cu ilin 17 martındakı 24-cü iclasında "Hökumət məmurlarına bayram münasibəti ilə birdəfəlik fevral maaşının 75 faiz əlavəsi ilə müavinəti nəqdiyyə verilməsi üçün layihə" müzakirə olundu. Müzakirələrdə Ə.Pepinovun çıxışından sonra A.Aşurov öz fikrini bildirdi ki, bu layihədə müəllimlərin də mə-

---

[5] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 320-321.

[6] Yenə orada, s. 330.

[7] Yenə orada, s. 347.

vacibləri artırılmalıdır. A.Aşurov təklif etdi ki, bütün qulluqçuların məvaciblərinin artırılması üçün ayrıca bir layihə hazırlansın[1].

Həmin iclasda bir qanun layihəsi də müzakirə edilir: "Gömrük idarəsinin təğyir və təbdili barəsində" (Başqalaşdırılması və dəyişdirilməsi haqqında – red). Ş.Rüstəmbəylinin əsas məruzəsindən sonra A.Aşurov çıxış etdi. O, gömrükxana idarəsinin maliyyə nəzarətində olmasına etirazını bildirdi və sahənin Ticarət və Sənaye nəzarətinə verilməsini düzgün saydı.


МИНИСТРЪ ТОРГОВЛИ
и
ПРОМЫШЛЕННОСТИ
АЗЕРБЕЙДЖАНСКАГО
ПРАВИТЕЛЬСТВА

6 октября 1918 г.
№ 1093
Г. Елисаветполь

Г. Министру Внутреннихъ Дѣлъ.-

Препровождая при семъ обязательное постановленіе о порядкѣ передвиженія въ предѣлахъ Азербайджанской Республики пассажировъ и грузовъ, имѣю честь просить соотвѣтствующихъ распоряженій по подвѣдомственнымъ Вамъ учрежденіямъ.

Министръ Торговли и Промышленности

Секретарь

Дѣлопроизводитель

**Nazir A.Aşurovun Daxili İşlər nazirinə məktubu. 6 oktyabr 1918-ci il.**

1919-cu ilin mayın 5-də keçirilən parlamentin 33-cü iclasında "510 milyon emissiya – kağız pul buraxılması haqqında qanun layihəsi" müzakirə edildi. Maliyyə naziri Ə.Həsənovun parlamentin qərarı əsasında verdiyi izahatdan sonra ilk olaraq, M.Əfəndizadə, sonra Ə.Cövdət (Pepinov), S.M.Qənizadə çıxış etdilər. Sonra söz A.Aşurova verildi. O, təklif etdi ki, 510 milyonun çapına icazə verilməlidir və bu pul bir neçə aya kifayət edəcəkdir[2].

Parlamentin 1919-cu ilin 6 mayında keçirilən 34-cü iclasında şəhərdə fəhlələrin elan edilmiş tətili müzakirə olundu. Müzakirədə M.Ə.Rəsulzadə, N.Yusifbəyli, Ə.Cövdət (Pepinov), S.Ağamalıoğlu, A.Əfəndizadə, Qarabəy Qarabəyli, M.Vəkilov çıxış etdilər. Sonra çıxış edən A.Aşurov dedi: "Bu hərəkətləri edənlər bizim düşmənlərimizdir. Onlar bizimlə dost olmayanlar ilə işləyir və ayağımızdan çəkirlər. Keçən və indiki Hökuməti, bağışlayınız, bir az təqsirli görürəm, qurdun böyüməsinə və pis şeylərin ortalığa çıxmasına şərait yaradıblar. **Bir də Hökumətdən bir şey tələb edirəm: onlar – o adamlar çirkli əllərini bizim qoşuna uzadırlar. Onlara deyilməlidir ki, əlinizi rədd edin! O qoşundan əl çəkin! Çünki onun əlində bizim müqəddəs bayrağımız vardır!"[3].**

Parlamentin 1919-cu ilin 22 mayında keçirilən 41-ci iclasında isə A.Aşurov şəhərlərə ayrılan pulların faizlə və uzun müddətə verilməsini irəli sürdü, qısa müddətdə onların bu vəsaiti qaytarmasının qeyri-mümkünlüyünü bildirdi.

Parlamentin 1919-cu ilin 14 iyulunda keçirilən 55-ci iclasında müzakirə edilən bir məsələ də "Zəngəzur qaçqınlarına 18.750.000 rubl pul buraxılması

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 373.
[2] Yenə orada, s. 494.
[3] Yenə orada, s. 529-530.

haqqında qanun layihəsi" idi. Bu layihə haqqında M.Rəfiyevin məruzəsindən sonra R.Ağabəyov, H.K.Sanıyev, S.M.Qənizadə çıxış etdilər.

A.Aşurov isə fikrini belə bildirdi: "Bu işlər ümumi camaat köməyi ilə aparılmalıdır. Hökumət pulu ilə qaçqın saxlamaq olmaz. Mən burada bir proqram görmədim ki, danışam... Büdcəmizi, qüvvəmizi bilək, proqram da məlum olsun"[4].

Parlamentin 1920-ci ilin 12 fevralında keçirilən 124-cü iclasında "Bakı bələdiyyəsinə beş faizlə on milyon rubl verilməsi haqqındakı qanun layihəsi" müzakirə olundu. A.Rzayevin məruzəsindən sonra A.Aşurov çıxış edərək, şəhərin xərclərindən danışdı, xəstəxanalara isə Hökumətin xərc ayırmasının vacibliyini bildirdi[5].

Parlamentin 1920-ci ilin martın 9-da keçirilən 132-ci iclasında A.Aşurovun təklifi ilə məmurların maaş məsələsinin davamı müzakirə olundu. Məruzəçi Ə.Əmircanov layihəni maddələr əsasında müzakirəyə qoydu. A.Aşurov birinci maddə ilə bağlı dedi: "Möhtərəm məbus əfəndilər! Bu 80 faizi vermək hökumət qulluqçularının məişətini görək düzəldə bilirmi? Bizdə ticarət, ərzaq və maliyyə nəzarətləri var. Bunların siyasətləri bir-birinə kömək etməkdir. Görək ticarət, ərzaq nəzarətinin siyasəti maliyyə işlərimizə kömək edirmi? Əgər etmirsə, bu 80 faizin qətiyyən faydası olmayacaqdır"[6].

A.Aşurov çıxışında mədaxil yollarının artırılmasını, ticarətin sərbəst buraxılmasının vacibliyini bildirdi.

Parlamentin 1920-ci ilin 19 aprelində keçirilən 142-ci iclasında müzakirə olunan məsələlərdən biri də belə adlanırdı: "Azərbaycan Cümhuriyyəti tərəfindən 6 siyasi heyətin Avropanın qərb tərəfinə və Amerikaya göndərilməsi və Paris Sülh Heyətinin azad olunması haqqında qanun layihəsi". Bu haqda əsas məruzəçi olaraq M.Əfəndizadə çıxış etdi. O, əsas etiraz olmadığına görə üçüncü oxunuşa keçməyi təklif etdi.

M.Əfəndizadədən sonra M.Ə.Rəsulzadə, S.Ağamalıoğlu, Q.Qarabəyli, H.H.Əfəndizadə, A.Səfikürdski, Ə.Qarayev, A.Əfəndizadə, M.S.Axundzadə, A.Qardaşov, R.Ağabəyov çıxış etdilər.

A.Aşurov isə Amerikaya göndərilən heyətdən daha çox sayda Rusiyaya göndərilməsinin vacibliyini bildirdi


ОТЪ МИНИСТРА ТОРГОВЛИ И ПРОМЫШЛЕННОСТИ.-

ДОВОДИТСЯ ДО ВСЕОБЩАГО СВѢДѢНIЯ, ЧТО ВЪ ЦѢЛЯХЪ УРЕГУЛИРОВАНIЯ ПРОДОВОЛЬСТВЕННАГО ВОПРОСА ВЪ ГОРОДѢ БАКУ, РАЗРѢШЕНО ПРАВИТЕЛЬСТВОМЪ ВЪ ПРЕДѢЛАХЪ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ СВОБОДНОЕ ПЕРЕДВИЖЕНIЕ ГРУЗОВЪ И ПАССАЖИРОВЪ, КОТОРЫЕ ДОЛЖНЫ ИМѢТЬ ПРИ СЕБѢ УДОСТОВѢРЕНIЯ ЛИЧНОСТИ, ЗАСВИДѢТЕЛЬСТВОВАННЫЯ НАДЛЕЖАЩИМИ ВЛАСТЯМИ.-

МИНИСТРЪ ТОРГОВЛИ И ПРОМЫШЛЕННОСТИ А. АШУРОВЪ.-

СЪ ПОДЛИННЫМЪ ВѢРНО:
ДѢЛОПРОИЗВОДИТЕЛЬ

**Nazir A.Aşurovun məktubu.**
**7 oktyabr 1918-ci il.**

[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 844.
[5] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 249, v. 12.
[6] Yenə orada, s. 1, i. 276, v. 23-41.

və Rusiyadakı səfirliklə bağlı ayrıca bir qanun layihəsinin hazırlanmasının zəruriliyini qeyd etdi[7].

1920-ci ilin 27 aprelində parlamentin sonuncu – 145-ci iclası keçirildi. İclasda əksəriyyət səslə hakimiyyətin kommunistlərə verilməsi qərara alındı: bir nəfər əleyhinə oldu, üç nəfər bitərəf qaldı, üç nəfər səs vermədi.

Parlamentin necə olacağı və necə idarə ediləcəyi məsələsinə isə A.Aşurov belə münasibət bildirdi: "Onların (yəni bolşeviklərin – red.) fikirlərinə görə bu vaxta qədər olan hökumət parlamentə qulluqçu idi. Amma indi elə deyil. O adam sənə hökm edir, sən də qəbul edirsən. Məsələ bu növ bitir. Parlamentin qalmasını heç onlar da istəmirlər. Qəbul etsələr belə, yeni bir nəticə verməyəcəkdir"[8].

Bu, A.Aşurovun Azərbaycan Cümhuriyyəti Parlamentində dediyi son sözlər oldu.

1920-ci ilin 27 aprelində Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra bolşeviklər Ağa Aşurovu həbs etmək istəsələr də, o xilas ola bildi. Əvvəl Türkiyəyə getməyə çalışsa da, bunu həyata keçirə bilmədi. O, çıxış yolunu Rostov şəhərinə köçüb orada yaşamaqda tapdı. A.Aşurov burada mühəndis-texnoloq işlədi, 1936-cı ildə vəfat etdi. O, Rostovdakı tatar qəbiristanlığında dəfn olundu.

Qeyd edək ki, A.Aşurovun həbsi mümkün olmasa da, bolşeviklər onun bacısı Kübra xanımı ailəsi ilə (o, Məşədi Teymur Məlikovla ailə qurmuşdu) birgə Qazaxıstanda ağır sürgün həyatı yaşamağa məcbur etdilər.

---

[7] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 962.
[8] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 977.

# NURMƏMMƏD ŞAHSUVAROV

(1883 – 1958)



Tanınmış ictimai-siyasi xadim Nurməmməd bəy Şahsuvarov 1883-cü ildə Laçın rayonunun Minkənd kəndində anadan olub. Orta təhsilini kənd məktəbində aldıqdan sonra 1903-cü ildə Qori Müəllimlər Seminariyasında oxuyub. O, həm də Tiflis Aleksandr Müəllimlər İnstitutunda və Kiyev Universitetinin hüquq fakültəsində təhsil alıb.

N.Şahsuvarov 1918-ci ildə Dağlılar Respublikasının Xalq Maarif naziri təyin olunub.

N.Şahsuvarov 1919-cu ildə Bakıya qayıtdıqdan sonra N.Yusifbəylinin təşkil etdiyi birinci Hökumət kabinetində Maarif nazirinin müavini vəzifəsini icra edib.

N.Şahsuvarov Nazirlər Şurasının Sədri N.Yusifbəylinin ikinci Hökumət kabinetində 1920-ci ilin martın 5-də istefaya çıxan H.Şahtaxtinskinin yerinə Maarif və Dini Etiqad naziri olaraq çalışıb.

1920-ci ilin 27 aprelində Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal olunduqdan sonra N.Şahsuvarov Azərbaycan SSR Xalq Maarif Komissarlığında işləyib.

N.Şahsuvarov 1940-cı ildə həbs edilib və Krasnoyarsk bölgəsinə sürgünə göndərilib.

O,1958-ci ildə Bakıda vəfat edib.

# MAARİF VƏ DİNİ ETİQAD NAZİRİ


**N.Şahsuvarov.**

Azərbaycan Cümhuriyyəti dövründə Maarif və Dini Etiqad naziri vəzifəsini icra etmiş Nurməmməd Adilxan oğlu Şahsuvarov 1883-cü ildə Laçın rayonunun Minkənd kəndində anadan olmuşdur. O, ibtidai təhsilini kənd məktəbində almış, 1889-1903-cü illərdə isə Qori Müəllimlər Seminariyasında oxumuşdur. Seminariyanı başa vurduqdan sonra N.Şahsuvarov bir müddət Gəncədə rus dili müəllimi işləmişdir. Sonra o, Tiflisdəki Aleksandr Müəllimlər İnstitutuna daxil olub, 1912-ci ildə oranı bitirmişdir. Elə həmin ildə N.Şahsuvarov Kiyev Universitetinin hüquq fakültəsinə daxil olmuş və 1915-ci ildə universiteti ekstern yolu ilə bitirmişdir[1].

Universitet təhsilini başa vurandan sonra o, Dağıstan Vilayəti Xalq Təhsili İdarəsi üzrə Teymurxanşura (indiki Buynaksk) şəhərinə təlimatçı təyin olunmuşdur.

N.Şahsuvarov Şimali Qafqazda yaşadığı dövrdə burada ciddi siyasi hadisələr başladı və o da həmin proseslərin iştirakçısına çevrildi.

1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabı Şimali Qafqazda yaşayan azadlıq mübarizəsinə şərait yaratdı.

1918-ci ilin mayın 11-də Birləşmiş Dağlılar İttifaqının MK-sı Şimali Qafqaz Dağlıları Respublikasının yarandığını elan etdi. Hökumətin başında isə çeçen milyonçusu Əbdülməcid Germoyev dururdu.

Həmin Hökumətdə Xalq Maarifi naziri vəzifəsini Nurməmməd Şahsuvarov icra edirdi[2].

1919-cu ilin mayında Denikinin Dağıstanı ələ keçirib hakimiyyəti çar generalı Mustafa Xəlilova verməsindən sonra artıq N.Şahsuvarovun da orada qalıb işləməsi qeyri-mümkün oldu.

---

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s. 77.
[2] V. Quliyev. Cümhuriyyət naziri: Rəşid xan Qaplanov. www. kitabxana. net/03.10.2010.

Qeyd edək ki, N.Şahsuvarov Dağlı Respublikasının Daxili İşlər naziri və sonradan Azərbaycan Cümhuriyyətində Maarif və Dini Etiqad naziri olmuş Rəşid xan Qaplanovla bir müddət eyni hökumətdə çalışmışdılar.

N.Şahsuvarov 1919-cu ilin iyunun əvvəllərində Bakıya gəldi və Nazirlər Şurasının Sədri N.Yusifbəylinin 1919-cu ilin martın 14-də təşkil etdiyi birinci hökumət kabinetində Maarif və Dini Etiqad nazirinin müavini işlədi. Həmin dövrdə nazir vəzifəsini onun Dağlı Respublikasından tanıdığı R.Qaplanov icra edirdi.

1920-ci ilin martın 5-də N.Yusifbəylinin ikinci hökumət kabinetində Maarif və Dini Etiqad naziri H.Şahtaxtinski istefa verdi. Onun yerinə həmin vəzifəyə N.Şahsuvarov təyin olundu[3].

O, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılması və digər tədbirlərin həyata keçirilməsinə böyük zəhmət sərf etdi[4].

Azərbaycanın ilk ali məktəbi olan Bakı Dövlət Universitetinin təşkil olunmasında N.Şahsuvarovun da xidməti olmuşdur.

N.Şahsuvarov İttihad Partiyasının üzvü olaraq bu ideyanın daşıyıcısı idi.

N.Şahsuvarov Maarif və Dini Etiqad naziri vəzifəsində 1920-ci ilin martın 30-na qədər çalışdı. Həmin dövrdə N.Yusifbəyli hökuməti istefaya çıxdığı üçün o, vəzifədən uzaqlaşdı.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra N.Şahsuvarov bir müddət Azərbaycan SSR Xalq Maarif Komissarının müavini olaraq çalışdı. Bu illərdə o, Bakıda Pedaqoji, S.Ağamalıoğlu adına Torpaq və Geodeziya texnikumlarında rus dilindən dərs dedi, sonralar isə Bakı Dövlət Universitetində rus dili kafedrasının müdiri, Azərbaycan Neft İnstitutunda isə rus dili müəllimi vəzifəsində işlədi.

Qeyd edək ki, Azərbaycan Cümhuriyyətində nazir və nazir müavini işləmiş tanınmış bir dövlət xadiminə sovet rejimində rahat yaşamaq imkanının verilməsi də qeyri-mümkün idi.


СССР
й Комиссариат Внутренних Дел
Управление Государственной Безопасности

ОРДЕР № 1195

3 Марта дня 1938 г.

Главного
ия Государственной Безопасности НКВД
на производство

Зам. Народного Комиссара Внутренних Дел СССР
Начальник Второго Отдела ГУГБ

N.Şahsuvarovun həbs kağızı.
3 mart 1938-ci il.

[3] M. Əliyev. Nurməmməd bəy Şahsuvarov. "Odlar Yurdu" qəzeti, fevral, 1990-cı il, №4.
[4] "Azərbaycan müəllimi" qəzeti, 27 may, 2011-ci il.



**N.Şahsuvarov həbsdə.**

Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivində saxlanılan PR-6399 saylı istintaq işinin materiallarında N.Şahsuvarovun (və digərlərinin) həbsi səbəbi ilə bağlı məlumatlar əldə etmək mümkündür. Xalq Daxili İşlər Komissarlığı 4-cü şöbənin 4-cü bölməsinin rəisi, Dövlət Təhlükəsizliyi leytenantı Qriqoryan 1930-cu ilin iyulunda bu məzmunda arayış hazırlamışdı: "Tərəfimizdən həbs edilmiş Ümumittifaq Pantürkist Mərkəzin üzvü professor Çobanzadə Nurməmməd Şahsuvarovun Azərbaycan SSR-də əksinqilabi İttihadçı təşkilatın rəhbərlərindən biri olduğunu göstərmişdir. Tərəfimizdən həbs edilən əksinqilabi Burjua millətçi təşkilatının fəal üzvü Hənifə Zeynallı da Şahsuvarovun təhsil müəssisələrində əksinqilabi fəaliyyət göstərdiyini qeyd etmişdir.

Göstərilənlər əsasında Nurməmməd Şahsuvarovu Azərbaycan SSR Cinayət Məcəlləsinin 72, 73-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb etməklə həbs etməyi zəruri sayır və bu barədə Dövlət Təhlükəsizlik İdarəsi 8-ci şöbəsinin və XDİK işlərinə nəzarət edən prokurora xəbərdarlıq edirik. DTİ 4-cü şöbə, 4-cü bölməsinin rəisi DT baş leytenantı Qriqoryan. Təsdiq edirəm: 4-cü şöbənin rəisi, DT kapitanı Sinman. 20 iyul, 1937-ci il"[1].

N.Şahsuvarovun həbs edilməsi prosesi başlananda o, Moskvada yaşayır və Moskvada Qubkin adına İnstitutda dosent işləyirdi. Bu vaxt o, Feona Kuzmişina adlı bir xanımla evli idi və oğlu Cahangirin 21 yaşı var idi.

**1938-ci ilin fevralın 27-də Moskva yaxınlığındakı Leninisk rayonunda, Kalujsk şossesində Derevlevo kəndində, ev 52-də, bitərəf olan, Qubkin adına İnstitutda dosent işləyən, Q.Ş.Mixaylinovun mənzilində yaşayan N.Şahsuvarov Dövlət Təhlükəsizliyi Xidmətinin kapitanı Fedotov tərəfindən həbs edilərək Bakıya göndərildi[2].**

[1] Azərbaycan Respublikası, Dövlət Təhlükəsizlik İdarəsinin Arxivi. PR-6399 saylı N.Şahsuvarova aid istintaq işi, v.55.
[2] Yenə orada, v. 56.

N.Şahsuvarova qarşı ilk istintaq 1938-ci ilin martın 21-də aparıldı. Müstəntiqin ona ilk sualı belə oldu: "İstintaqa məlumdur ki, Siz Azərbaycanda mövcud olan əksinqilabi təşkilatın fəallarından biri kimi əhəmiyyətli rol oynamısınız. Siz bu əksinqilabi təşkilata daxilsinizmi?". Cavab: "Mən heç bir əksinqilabi təşkilatın üzvü deyiləm". Sual: "Siz elə birinci dəfədən istintaqa müqavimət göstərmək istəyirsiniz, ancaq bunu bacarmayacaqsınız"[3].

Sovet istintaq orqanlarının insanlardan işgəncələr vasitəsi ilə ifadələr almasını təsdiq edən çox sübutlar vardır. N.Şahsuvarova qarşı da bu "üsullar"dan istifadə olunurdu.

1938-ci ilin aprelin 15-də keçirilən növbəti istintaq prosesində o, "etiraf edərək" dedi: "Bəli, etiraf edirəm ki, əksinqilabi təşkilatın üzvü olmuşam"[4].

N.Şahsuvarova qarşı təzyiqlər haqqında onun 1939-cu ilin 29 noyabrında XDİK Xüsusi şöbəsinə yazdığı ərizədə görmək mümkündür. Müstəntiqin dediyi ifadələri o, ərizəsində belə qeyd edirdi: "Şahsuvarov, Sizi də Pənah Qasımovun taleyi gözləyir. Mən onun bütün dişlərini tökdüm, ağzını qulağına qədər cırdım. Sizi, Şahsuvarov, döşəmədə sürüyəcəklər, top kimi ayaqlarının ucunda vuracaqlar, Siz gəbərəcəksiniz, həkim çağırıb akt tərtib edəcəyik"[5].

1940-cı ilin fevralında N.Şahsuvarova "Millətçi antisovet, qiyamçı təşkilatlarda iştirakına görə 3 mart 1938-ci ildən hesablanmaqla 5 il müddətinə Kranoyarsk diyarına sürgün edilmək" hökmü kəsildi[6].



**N.Şahsuvarovun məzarı.**

N.Şahsuvarov ağır sürgün həyatından sonra 1943-cü ildə Bakıya qayıtdı. O, burada bir müddət Azərbaycan Tibb İnstitutunda Rus dili kafedrasının müdiri və müəllimi işlədi.

N.Şahsuvarov 1958-ci ilin avqustun 11-də Bakıda vəfat etdi.

N.Şahsuvarovun oğlu Cahangir Moskvada yaşadı. Moskvadakı Yerin Fizikası İnstitutunda çalışdı, fizika-riyaziyyat elmləri doktoru oldu. N.Şahsuvarovun qardaşı Mürsəl bəy Azərbaycan Cümhuriyyətinin xaricdə təhsil almağa göndərdiyi 100 tələbədən biri olmuşdur.

---

3 Azərbaycan Respublikası, Dövlət Təhlükəsizlik İdarəsinin Arxivi. PR-6399 saylı N.Şahsuvarova aid istintaq işi, v. 193.

4 Yenə orada, v. 195.

5 Yenə orada, v. 220.

6 L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. II c. B., 2000, s. 142.

# ASLAN QARDAŞOV

(1866 – ?)



Tanınmış ictimai-siyasi xadim Aslan Qardaşov 1866-cı ildə Zaqatala dairəsinin Çökəoba kəndində anadan olub. Milliyyətcə avardır. Zaqatala qəza məktəbində oxuyub. Sonra Müəllimlər Seminariyasını bitirib. O, İstanbul Universitetində təhsilini davam etdirib. Çar Rusiyasında II Dövlət Dumasına Dağıstan və Zaqataladan üzv seçilib.

A.Qardaşov 1917-ci ildə Müsavat Partiyasının sıralarına daxil olub.

A.Qardaşov Türkiyə ilə, Gürcüstanla, Dağıstanla sıx əməkdaşlığın tərəfdarı olsa da, Zaqatalanın Azərbaycanın tərkibinə daxil olması qərarının qəbulunda ən əhəmiyyətli rollardan birini oynayıb. Həmin qərar qəbul edilən dövrdə (24 iyun 1918) türk ordusunun dəstələri Zaqatalada olub.

A.Qardaşov N.Yusifbəylinin 1919-cu ilin martın 14-də təşkil etdiyi 4-cü Hökumət kabinetində Əkinçilik və Dövlət Əmlakı naziri vəzifəsini icra edib.

A.Qardaşov 1920-ci ilin aprelin 27-də hakimiyyətin kommunistlərə təhvil verilməsi haqqında ultimatumu müzakirə etmək üçün parlamentdə yaradılmış komissiyaya daxil olub və müzakirədə hakimiyyətin bolşeviklərə təhvil verilməsi təklifini müdafiə edib.

A.Qardaşov bolşevik istilasından sonra Zaqataladakı üsyanın başçılarından olub. O, sonradan Türkiyəyə gedib və ömrünün sonuna qədər orada yaşayıb.

# ƏKİNÇİLİK VƏ DÖVLƏT ƏMLAKI NAZİRİ

Azərbaycanın tanınmış siyasi xadimi A.Qardaşovun Azərbaycan Cümhuriyyəti dövründəki fəaliyyətinin öyrənilməsində parlament iclaslarının sənədləri mühüm mənbədir.

A.Qardaşovun Azərbaycan Parlamentində başçılıq etdiyi Əhrar fraksiyasında Ağdaşdan (Şəmsabad kəndi)  Muxtar Əfəndizadə, Oğuzun Xaçmaz kəndindən Qərib  Kərimoğlu, Şəkidən Abdulla bəy Əfəndizadə, Zaqataladan Bayram Niyazi Kiçikxanlı ilə bərabər Yevlaxlı Əşrəf Tağıyev də olmuşdur. Nazirlər Kabinəsində Aslan bəylə bərabər daha bir əhrarçı, Rəşid Qaplanov da təmsil edilmişdi. Yəni Əhrarı bir bölgəni təmsil edən  partiya kimi təqdim etmək də düzgün deyildir.

A.Qardaşovun Zaqataladan olan silahdaşları Abdulla Qəbulov (AXC dövründə Zaqatalanın qubernatoru, əslən Qaxdandı) və Faldar kəndindən Bayram Niyazi Kiçikxanlı milliyətcə türk olublar.

Əhrar sözü "azadlar" deməkdir və bu partiyanın dini siyasi istismar etməsi barədə ortada heç bir əsaslı sübut yoxdur.

A.Qardaşovun Azərbaycan Parlamentində müzakirə edilən məsələyə ilk münasibətlərinə 1919-cu ilin yanvar və fevral aylarında rast gəlmək mümkündür.

1919-cu ilin fevralın 4, 5 və 6-da (12, 13, 14 saylı iclaslar) parlamentdə 6-cı məsələ olaraq "Ticarət nazirinə bez, neft və buğda barəsində sorğu" müzakirə edildi. Müzakirədə çıxış edən A.Qardaşov hökumətin müxtəlif bölgələrə ayırdığı bez (parça) haqqında danışdı. O, qeyd etdi ki, 1918-ci ilin noyabrın əvvəlindən H.Z.Tağıyevin manufaktura fabrikası hökumət nəzarətinə alınıb və o vaxtdan dekabrın 10-na kimi 469.730 arşın manufaktura buraxılmışdır. Bakının 3 məscidinə 5 min, İran konsuluna 3 min, Türk ordusuna 65 min, Şuşa, Quba, Zaqatala, Şəki və Lənkərana 110 min arşın verilmişdir.

A.Qardaşov çıxışında 100 min əhalisi olan Zaqatala bölgəsinə ayrılan 30 min arşın bezə icazə verildiyi halda, hələ hazır olmadığını qeyd etdi[1].

O, dedi: "Yeni kabinet təşkil edildikdə Əhrar fraksiyası bu ümiddə deyildi ki, əski kabinetin tutduğu yol, etdiyi səhv və xətalar bir daha təkrar olunmayacaqdır, lakin təəssüflər ki, yeni kabinetin tutduğu yolun əskinin eyni olduğunu görürüz. Hökumətin bu gün verdiyi izahatdan vəziyyətin islah ediləcəyini də eşitmədik.

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 224-225.



A.Qardaşov.

Ona görə Əhrar fraksiyası, bez, neft və ərzaq haqqındakı hökumətin verdiyi izahatı kafi hesab etmir"[1].

1919-cu ilin martın 6-da parlamentin 20-ci iclası keçirildi. Parlamentin sədr müavini H.Ağayev bildirdi ki, Milli Şura Sədrinin müavini Hidayət Seyidov fevralın 23-də Ordubadda, general-mayor Süleyman Əfəndiyev isə yanvarın 21-də Ağdamda xəstəlikdən vəfat etmişdir. Onun təklifi ilə hamı ayağa qalxıb onların xatirəsini yad etdi. Sonra müzakirələr başlandı.

Parlamentdə Nazirlər Şurasının Sədri F.X.Xoyski çıxış edərək, Könüllü Ordunun Dağıstan üzərinə hücumundan, dağıstanlılara kömək etməyin vacibliyindən danışdı. Onun çıxışından sonra M.Ə.Rəsulzadə, Ə.Cövdət (Pepinov), Q.Qarabəyov, B.Axundov, Y.Əhmədov məsələyə münasibətlərini bildirdilər.

**Sonra söz A.Qardaşova verildi. O, dedi: "Bir vilayətə ki, xaricdən qorxu ola, zənn edirəm heç bir firqə olmaz ki, mübarizədən boyun qaçırsın. Məndən qabaqkı natiqlər məsələni ətraflıca söylədiklərindən çox danışmağı lazım bilmirəm. Natiqlərin sözlərinə əsasən və görülən tədbirlərdə iştirak etməklə bərabər, onu da deyirəm ki, Zaqafqaziya hökumətlərinin birliyi əmələ gəlməsə, mübarizə işi çətin olacaqdır. Ona görə ümidvarıq ki, Hökumət tərəfindən lazımi tədbirlər görüləcəkdir"[2].**

Parlamentin 1919-cu ilin martın 17-də keçirilən 24-cü iclasında 14-ə qədər məsələ müzakirə edilmişdir.

A.Qardaşov 5-ci məsələdə "Şəki şəhərinə səpmə yatalağına qarşı mübarizə etmək üçün 200 min manat faizsiz istiqraz verilməsi layihəsi"nin müzakirəsində əsas məruzəçi olaraq çıxış etdi. O, dedi: "Nuxa şəhərində səpmə yatalaq naxoşluğu şiddət etdiyinə görə Nuxa Bələdiyyə İdarəsi mübarizə aparmaq üçün pulu və lazımi alətləri olmadığından rica edir ki, dövlət xəzinəsindən ianə yolu ilə 200 min rubl buraxılsın. Nuxa Bələdiyyə idarəsi Daxiliyyə nəzarətinə müraciət edib, təvəqqesi də qəbul olunub. Lakin Daxiliyyə nəzarəti belə qəbul edibdir ki, Nuxa şəhərinə faizsiz olaraq dövlət xəzinəsindən 200 min rubl para borc verilsin və bu borc 1920-ci ildən başlamış 4 ilin müddətində geri alınsın (indi Daxiliyyə nəzarəti də həmin layihəni göndəribdir)[3].

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 227.
[2] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 7, i. 39, v. 1-36.
[3] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 378.

A.Qardaşov sonda bu layihənin parlament tərəfindən qəbulunu xahiş etdi. Sonra A.Qəbulzadə çıxış edərək Nuxa üçün ayrılacaq vəsaitin borc yox, ianə olaraq verilməsi təklifini irəli sürdü. A.Qardaşov bildirdi ki, bu məsələyə komissiyada baxılmış və ianə yox, borc formatında ayrılması razılaşdırılmışdır.

A.Qardaşovun təklif etdiyi bu layihə parlamentdə əksəriyyət səslə qəbul olundu.

Parlamentin 1920-ci ilin 22 yanvar tarixli 120-ci iclasında 11-ə qədər məsələ müzakirə edildi. İclasda Əhrar fraksiyasından gəlmiş bir məktub da müzakirəyə verildi. Məktubda bildirildi ki, A.Əfəndizadə Əhrar fraksiyasından azad olunduğuna görə onun yerinə başqalarının namizədliyi irəli sürülür və bunun da iclasda seçki ilə olması vacib sayılır.

Əhrarın bu təklifinə etiraz edildi və səbəb də komissiyaların parlament tərəfindən seçildiyi, fraksiyaların buna müdaxiləsinin düzgün olmadığı göstərildi.

A.Qardaşov fikrini belə əsaslandırdı: "İndi bizim nümayəndəmiz fraksiyalarda yoxdur. Abdulla bəy bizim fraksiyamızdan çıxmışdır. Bu surətdə komissiyalarda müzakirə edilən məsələlərdən bizim xəbərimiz olmur"[4].

Əhrar fraksiyasının təklifi səsə qoyuldu və qəbul olunmadı.

Parlamentin martın 8-dəki 131-ci iclasında A.Qardaşov bu fikirlərini açıqladı: "Dolanışığın bahalığı və həyatın güclənməsindən dolayı, əlbəttə, lazımdır ki, hökumət məmurlarının maaşları artırılsın. Amma onların maaşlarını artırmaqla güzəran tamam olmaz. Lazımi şey azuqə ilə yardımdır ki, azuqə məsələsində əhvalımız gündən-günə çətinləşir və fənalaşır, bir yaxşılıq da görünmür. Səbəbi – ticarət siyasətinin lazımi yolla həll olunmadığındandır"[5].

Parlamentin martın 11-də keçirilən növbəti iclasında A.Qardaşov az maaş alan məmurların vəziyyətlərinin çətinliyini və kiçik məmurlara 90, böyük məmurlara 70 faiz vəsait verilməsini təklif etdi.

Parlamentin 1920-ci ilin 27 aprelində keçirilən 145-ci iclasında A.Qardaşovun son sözü bu oldu: "Parlamentin necə olmasını təklif edən mən idim. İndi isə təklifimi geri götürüb rica edirəm ki, müzakirəsi olmasın"[6].

A.Qardaşov bolşevik istilasından sonra da istiqlal ideyalarına sadiq qaldı və Zaqataladakı üsyana rəhbərlik etdi.

Üsyandan sonra onun guya güllələndiyi barədə yazılanlar həqiqətə uyğun deyil. Onun repressiya olunmasına dair hər hansı fakt da yoxdur.

[4] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 720.
[5] Yenə orada, s. 803.
[6] Yenə orada, s. 978.


أيل

**A.Qardaşovun rəhbərliyi ilə nəşr edilən "El" qəzeti.**

Zaqatalada yaşayan qohumlarının məlumatına görə, üsyan yatırıldıqdan sonra A.Qardaşov əvvəl Gürcüstana, oradan da Türkiyəyə mühacirətə gedib.

O, 1934-cü ildə Zaqataladakı ailəsinə Türkiyədən məktub və şəkil göndərə bilib. Orada Aslan bəyin yeni ailə qurduğu məlum olub. Şəkildə yeni ailə qurduğu həyat yoldaşı ilə bərabər azyaşlı oğlunun da görüntüsü vardı. Həmin şəkli onun qohumları tərəfindən əhrarçı V.Hacıbəyliyə verilmiş, o, da tarixçi alim Mövsüm Əliyevə təqdim etmişdi. M.Əliyev vəfat etdiyindən həmin şəkil də tapılmadı.

A.Qardaşov Türkiyəyə getməmişdən öncə burada ailəli olmuşdu.

M.Ə.Rəsulzadənin 1933-cü ilin martın 21-də Varşavada Azərbaycan Milli Mərkəzi ilə bağlı hazırladığı anketdə təşkilatın fəaliyyəti haqqında məlumatlar yazılmışdır.

Eyni zamanda, anketdə Azərbaycan Milli Mərkəzinin Ə.M.Topçubaşova və hazırda Türkiyədə yaşayan yaşlı və əlil vəziyyətdə olan Aslan bəy Qardaşova kömək etdiyi qeyd edilmişdir[7].

M.Ə.Rəsulzadənin 1937-ci ilin iyulun 22-də Varşavada Polşa Məxfi İdarəsi üçün hazırladığı Azərbaycanın mühacirətdəki tanınmış xadimləri siyahısında A.Qardaşovun da 14-cü sırada adı yazılmışdır[8].

Bu məlumat A.Qardaşovun 1937-ci ildə hələ həyatda olduğunu göstərir.

[7] Из истории Азербайджанской эмиграции. Сборник документов, произведений. М., 2011, с. 61.
[8] Yenə orada, s. 254.

# TEYMUR BƏY MAKİNSKİ

(1874 – ?)

Tanınmış dövlət xadimi Teymur bəy Makinski 1874-cü ildə İrəvanda anadan olub. O, əvvəl İrəvan gimnaziyasında təhsil alıb. 1916-cı ildə Varşava Universitetinin hüquq fakültəsini bitirib.

T.Makinski 1918-ci ilin iyun-oktyabr aylarında Nazirlər Şurasının Şədri F.X.Xoyskinin təşkil etdiyi ikinci Hökumət kabinetində Ədliyyə nazirinin müavini, həmin ilin oktyabrın 20-dən noyabrın 6-dək Azərbaycan Hökumətinin Ermənistanda diplomatik nümayəndəsi olub.

T.Makinski 1918-ci ilin dekabrın 26-da F.X.Xoyskinin təşkil etdiyi üçüncü Hökumət kabinetində Ədliyyə naziri vəzifəsini icra edib.

T.Makinski İrəvan quberniyasında yaşayan azərbaycanlıların ermənilərdən qorunması üçün 1919-cu ilin yanvarında Bakıda təsis edilmiş İrəvan Quberniyası Həmyerliləri Cəmiyyətinin İdarə Heyətinin sədri seçilib.

O, 1919-cu ilin iyunundan 1920-ci ilin yanvarına qədər Azərbaycan Hərbi Məhkəməsinin sədri, 1920-ci ilin martından isə yenidən Azərbaycan Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi olub.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra T.Makinski Tiflisə gedib. O, sonradan Türkiyədə yaşayıb.

***Qeyd:*** *T.Makinskinin fotosunu əldə etmək mümkün olmadı.*

# ƏDLİYYƏ NAZİRİ. AZƏRBAYCANIN ERMƏNİSTANDAKI DİPLOMATİK NÜMAYƏNDƏSİ

Azərbaycan Cümhuriyyətinin tanınmış xadimlərindən olan **Teymur bəy Makinski** 1874-cü ildə İrəvanda anadan olmuşdur. T.Makinski İrəvan gimnaziyasını bitirdikdən sonra Polşaya getmiş, Varşava Universitetinin hüquq fakültəsində təhsil almış və 1916-cı ildə oranı birinci dərəcəli diplomla bitirmişdir.

T.Makinskinin mənsub olduğu nəslin adı 1747-ci ildə Nadir şahın öldürülməsindən sonra Cənubi Azərbaycanda yaranmış Maku xanlığı və oradakı Maku şəhərinin adı ilə bağlıdır. Cənubi Azərbaycanın bu bölgəsi Naxçıvan və İrəvan xanlıqları ilə həmsərhəddə yerləşir.

T.Makinskinin əmisi oğlu Abbasəli bəy Makinski də 1888-ci ildə İrəvanda doğulmuş, əvvəlcə İrəvan Gimnaziyasında, 1909-1914-cü illərdə isə Kiyev Universitetinin hüquq fakültəsində təhsil almış və Tiflis şəhərində yaşayıb vəkillik etmişdir. Abbasəli bəy və atası Bəhram bəy Azərbaycan Cümhuriyyəti dövründə Hökumətin dövlət qanunvericiliyinin tərtibi məsələlərində parlament komissiyalarına yaxından köməklik göstərmişlər.

Bolşeviklərin hakimiyyəti dövründə A.Makinski bir müddət vəkil olaraq çalışsa da, sonradan həbs edlmiş və 1938-ci ilin mart ayının 22-dən 23-nə keçən gecə güllələnmişdir.

T.Makinski 1918-ci ildə yaradılan Azərbaycan Milli Şurasının da üzvü idi.

T.Makinski 1918-ci ilin iyun-oktyabr aylarında Azərbaycan Hökuməti Ədliyyə nazirinin müavini, oktyabrın 20-dən noyabrın 6-dək Azərbaycan Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi oldu. O, bu vəzifəni həmin ilin dekabrın sonuna qədər yerinə yetirdi.

O, 1918-ci ilin dekabrın 26-dan 1919-cu ilin martın 14-nə qədər F.X.Xoyskinin 3-cü Hökumət kabinetində Ədliyyə naziri vəzifəsini icra etdi[1].

T.Makinski İrəvan quberniyasında yaşayan azərbaycanlıların erməni təhdid və zorakılıqlarından qorunması üçün 1919-cu ilin yanvarında yaradılmış İrəvan Quberniyası Həmyerliləri Cəmiyyətinin İdarə Heyətinin sədri seçilmişdir.

T.Makinski 1919-cu ilin iyunundan 1920-ci ilin yanvarına qədər Azərbaycan Hərbi Məhkəməsinin sədri işlədi.

T.Makinski 1920-ci ilin martından yenidən Azərbaycan Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi oldu.

---

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990, s. 92.

Qeyd edək ki, T.Makinski Ədliyyə naziri olduğu dövrdə İrəvan Quberniyası Həmyerliləri Təşkilatının 1919-cu ilin yanvarın 17-də keçirilən iclasında Azərbaycan Hökumətinə müraciət qəbul olunmuşdur.


ваться пребыванiемъ въ Тифлисѣ представителей Армянскаго Правительства, прибывшихъ на армяно-грузинскую конференцiю по вопросамъ о перемирiи, чтобы вступить съ ними въ переговоры об урегулированiи вопроса о положенiи мусульманъ Эриванской губернiи, обреченныхъ на истребленiе и погибель.

Для веденiя этихъ переговоровъ, по мнѣнiю Землячества, было бы желательно организовать спецiальную конференцiю изъ представителей Армянской и Азербайджанской Республикъ и союзнаго командованiя въ Тифлисѣ. Въ составъ этой комиссiи изъ Азербайджана могли бы войти кромѣ Дипломатическаго Представителя ДЖАФАРОВА кто либо изъ членовъ Правительства, знакомый съ Эриванскимъ вопросомъ и представитель Землячества.

Помимо сего крайне необходимо принять неотложныя мѣры къ скорѣйшему назначенiю Дипломатическаго Представителя при Правительствѣ Армянской Республики.

Объ изложенномъ имѣю честь довести до свѣдѣнiя Вашего Сiятельства.

Предсѣдатель Правленiя Т.МАКИНСКIЙ

18 января 1919 года
гор. Баку

**T.Makinskinin Nazirlər Şurasının Sədrinə məktubu. 18 yanvar 1919-cu il.**

Təşkilatın sədri T.Makinskinin imzası ilə yanvarın 18-də göndərilən müraciətdə qeyd edilirdi ki, türk qoşunlarının İrəvan quberniyasından çəkilməsindən sonra erməni silahlı qüvvələri Sürməli qəzasını bütünlüklə və Eçmiədzin qəzasının tamamilə müsəlmanlar yaşayan hissəsini ələ keçirmiş, üstəlik Şərur və Naxçıvan qəzalarını ələ keçirmək üçün hücuma keçmişlər. Məhv olmağa və ölümə məhkum edilmiş İrəvan quberniyası müsəlmanlarını xilas etmək üçün müttəfiqlərin komandanlığının iştirakı ilə Tiflisdə Azərbaycan və Ermənistan nümayəndələrinin xüsusi konfransının təşkil olunması təklif edilirdi.

Eyni zamanda, müraciətdə Ermənistan hökuməti yanında Azərbaycan diplomatik nümayəndəsinin təyin edilməsinin vacibliyi bildirilirdi[2].

Azərbaycan Respublikasının Dövlət Arxivində T.Makinskinin cümhuriyyət dövründəki fəaliyyəti ilə bağlı sənədlər vardır.

Onun 1919-cu ilin aprelin 14-də Bakıya – Nazirlər Şurasının Sədrinə göndərdiyi 33 saylı şifrəli teleqramda hansı fəaliyyəti göstərməyi ilə bağlı tapşırıqlar gözlədiyi qeyd olunmuşdur[3].

T.Makinski 1918-ci ilin dekabrın 7-dən fəaliyyətə başlayan Azərbaycan Parlamentinin üzvü oldu.

Onun Azərbaycan Parlamentinin yalnız bir iclasında fəaliyyətinə rast gəlmək mümkündür. 1919-cu ilin yanvarın 28-də parlamentin 11-ci iclasında müzakirə edilən birinci məsələ "Ticarət və Xüsusi İşlər İdarəsinə dair vəkalətnamə vədlərinin təmdidi haqqında qanun layihəsi" oldu. Bu qanun layihəsinə əlavə bir izahatı isə Ədliyyə naziri T.Makinski imzalamışdı.

Parlamentin katibi Ə.Cövdət Pepinov həmin izahatnamə və layihəni oxudu. Təqdim edilmiş qanun layihəsində aşağıdakı məqamlar öz əksini tapmışdı: "1)

[2] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 65, v. 10-12.
[3] Yenə orada, v. 15.


Шифрованная телеграмма
получена 14 апреля 1919 г.
вх № 33.

Баку
Министру-Председателю.

Томсон отнесся отрицательно делегации, отказал в содействии и охране; объясняя представителе Армении оказать содействие, если даже оно некстати, при существующей Армении анархии ~~много~~ лишено значения; кроме при подобных условиях весьма затруднительно. Жду указаний
№12 подпись Макинский.
Расшифровал
Секретарь М.И.Д.

T.Makinskinin Nazirlər Şurasının Sədrinə məktubu. 14 aprel 1919-cu il.

Ticarət və Xüsusi İşlər üçün verilən vəkalətnamələrdən vədeyi-vəkalətləri əski qayda ilə 1917-ci ilin 25 oktyabr, 1918-ci ilin 31 dekabr və yeni qayda ilə 1919-cu il 13 yanvar tarixləri aralarında xitam bulmuş olanları və yaxud təzə qayda ilə 1919-cu il 14 yanvar –14 iyul arasında qurtaracaq olan vəkalətnamələr 1919-cu il iyul ayının 14-dək öz qüvvələrində qalırlar; 2) Vəkalətnaməni verən və vəkilliyi qəbul edən şəxslər xahiş etdikləri halda, 1919-cu ilin iyulun 14-dən müqəddəm də olsa vəkalətnamələrini öz qüvvəsindən saqit etmək ixtiyarına malikdirlər”[1].

Qanun maddələr üzrə müzakirəyə qoyulduqda əvvəlcə parlament komissiyasına verilməsi təklif olundu. Ş.Rüstəmbəyli məsələyə fraksiyalarda baxılmış olduğunu qeyd edib, komissiyaya verilməsinə ehtiyacın olmadığını söylədi. R.Qaraşarov isə layihənin komissiyaya verilməsində israr etdi. Sonra çıxış edən Y.Əhmədov layihənin komissiyaya təqdimə ehtiyac olmadığını və qəbulunu vacib saydı.

Sonra T.Makinski çıxış edərək dedi: “Əgər bu qanun qəbul edilməsə və şəraitdən dolayı bir çox cəmiyyət və firmalar vəkalətlərini təzələyə bilməzlər: o halda fəhlələrə də muzd verməyə imtiyazları olmaz, bunun da ağır nəticələr, hətta tətil ilə təhdid etdiyi aşkardır”[2].

Sonda layihə maddələr üzrə səsə qoyularaq qəbul edildi.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra, 1920-ci ilin iyunun 15-də Ermənistan hökuməti Azərbaycanda bolşevik hökumətinin qurulduğunu səbəb göstərərək buradakı diplomatik nümayəndəliyin fəaliyyətini dayandırdı.

T.Makinski Ermənistanda diplomatik nümayəndə olarkən Zəngibasarda yaşayan soydaşlarımıza maddi yardım göstərdiyinə görə ona prokurorluq tərə-

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 200-201.
[2] Yenə orada, s. 201.

findən cinayət işi açılmışdı. Həbs ediləcəyini hiss etdikdə T.Makinski mayın 28-də İrəvanı qəflətən tərk etmiş və diplomatik nümayəndə vəzifəsini Adil Qiyasbəyova tapşırmışdır.

T.Makinski Bakıya qayıdıb, Sovet Azərbaycanının Xarici İşlər Komissarlığına yazdığı məlumatda diplomatik fəaliyyətlə məşğul olduğu dövrdə xərclənmiş pulların dəqiq hesabatını verdi, bolşevik hökumətinin ona qarşı qaldıra biləcəyi ittihamları önləyə bildi[3].

T.Makinski sonradan Azərbaycanı tərk etmək məcburiyyətində qaldı.



**T.Makinskinin əmisi oğlu A.Makinski (1888-1938)**

1921-ci ildə Gürcüstanın da bolşeviklər tərəfindən işğalından sonra T.Makinski Türkiyəyə getdi, İstanbulda yaşadı. O, burada yaradılan "Azərbaycanın İstanbuldakı İctimai-siyasi Mühacir Xadimlərinin Birliyi" qrupunun üzvü oldu və ciddi fəaliyyət göstərdi.

Bu qrupun 1924-cü ilin 14 dekabrında Ə.M.Topçubaşova göndərdiyi məktubda aşağıdakı şəxslərin imzaları vardır: Azərbaycan Parlamentinin üzvləri – X. Sultanov, T.Makinski, Ə.Əmircanov və Azərbaycan Nümayəndə Heyətinin Parisdəki nümayəndəsi Ə.Şeyxülislamov[4].

T.Makinskinin də imzaladığı məktubda Azərbaycandan olan bütün ictimai-siyasi və antibolşevik qüvvələrin birləşdirilməsi və Parisdəki Azərbaycan Nümayəndə Heyətinin Azərbaycan Parlamentindən səlahiyyət almış yeganə hüquqi qurum olduğu qeyd edilmişdir.

1924-cü ilin dekabrın 27-də T.Makinskinin də imzası ilə Azərbaycanın İstanbuldakı İctimai-siyasi Mühacir Xadimlərinin Birliyi üzvləri Müsavat Partiyasının İstanbul Komitəsinə müraciət ünvanladı[5]. Müraciətdə Vətənin azadlığı və müstəqilliyi üçün birləşmək problemlərinə toxunulurdu.

T.Makinskinin bundan sonrakı fəaliyyəti, yaşaması və məzarının harada olması haqqında məlumat yoxdur.

---

[3] N. Mustafa. Azərbaycan Cümhuriyyəti dövründə Azərbaycanın Ermənistandakı daimi nümayəndəliyinin fəaliyyəti. 30. 05. 2015. http://www.xalqqazeti.com/az/news/politic.
[4] А.М.Топчибаши. Парижский Архив. 1919-1940. В четырех книгах. Книга третья. 1924-1930. М., 2017, с. 160-161.
[5] Yenə orada, s. 162.

# RÜSTƏM XAN XOYSKİ

(1888 – 1948)

## SOSİAL TƏMİNAT NAZİRİ



Azərbaycanın tanınmış ictimai-siyasi xadimi Rüstəm xan Xoyski 1888-ci ildə Şəkidə anadan olub.

R.Xoyski Azərbaycan Nazirlər Şurasının Sədri F.X.Xoyskinin kiçik qardaşıdır.

R.Xoyski 1913-cü ildə Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdir. O, təhsilini başa vurduqdan sonra Gəncədə və Bakıda vəkil olaraq çalışmışdır.

R.Xoyski 1917-ci ildə baş verən Fevral-Burjua inqilabından sonra fəal siyasi mübarizəyə başlamışdır.

O, F.X.Xoyskinin 1918-ci ildə yaratdığı Hökumət kabinetində 1919-cu ilin yanvarın 1-nə qədər dəftərxana rəisi olaraq çalışmışdır.

R.Xoyski N.Yusifbəylinin təşkil etdiyi dördüncü Hökumət kabinetində də (14.03.1919 – 22.12.1919) dəftərxana rəisi vəzifəsini icra etmişdir.

R.Xoyski F.X.Xoyskinin formalaşdırdığı üçüncü Hökumət kabinetində Sosial Təminat naziri vəzifəsini 1919-cu ilin martın 14-nə qədər icra etdi[1]. O, bu vəzifələrdə çalışarkən ictimai təşkilatları sosial-təminat işlərinə cəlb etmək üçün

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s. 92.

Gəncəyə, Azərbaycanın digər bölgələrinə getmiş, qaçqınların, əmlakını itirmiş əhalinin işləri ilə bağlı məsələləri həll etməyə çalışırdı.

Azərbaycanın 1920-ci ilin aprelin 27-də sovet rejimi tərəfindən işğalından sonra R.Xoyski bir müddət Sosial Təminat Komissarının müavini işlədi. O, bu vəzifədə mayın 15-nə, yəni Sosial Təminat Komissarlığı Əmək Komissarlığı ilə birləşənə qədər çalışdı. O, sonradan bu işdən uzaqlaşdırıldı və N.Nərimanova müraciət etsə də, işlə təmin olunmadı.

R.Xoyski 1920-ci ilin iyunun 5-də Nardaran kəndində olarkən həbs edildi.

R.Xoyski həbs olunanda anası Şəhrəbanı xanım yeganə sağ qalan oğlunu xilas etmək üçün Hərbi İnqilab Komitəsinin sədri N.Nərimanova xahiş ərizəsi yazdı. O, bu ərizəni yazanda böyük oğlu, Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının Sədri F.X.Xoyski öldürülmüş, digər oğlu Hüseynqulu xan isə (o, Gəncənin qubernator müavini olmuşdu) Gəncə üsyanına rəhbərlik edənlər sırasında olduğuna görə Türkiyəyə getmək məcburiyyətində qalmışdır.

Şəhrəbanı xanımın üçüncü oğlunu bolşevik güllələnməsindən xilas etmək üçün N.Nərimanova yazdığı ərizədə çox təsirli sözlər vardı: "Mənim oğlum Rüstəm artıq beş aydır ki, Azərbaycan Fövqəladə Komitəsi tərəfindən həbs edilib və indiyə qədər həbsdədir... Bütün son illər ərzində mənim oğlum Rüstəm təhsil almaq üçün daim ciddi və vicdanlı zəhmətkeş olub. Öz qazancı ilə özünü saxlayıb. Bu barədə məlumatları onu tanıyanların hamısı, o cümlədən, yoldaş Ə.Qarayev, yoldaş M.D.Hüseynov təsdiq edə bilərlər. İndi budur, mənim ömrümün ahıl çağında bir tikə çörəksiz mən Sizdən acizanə xahiş edirəm, yoldaş Nərimanov, şəxsən, yaxud mənim xahişimi müzakirəyə qoyaraq, Azərbaycan İnqilab Komitəsi oğlumu, mənim yeganə ümidimi mənə qaytarsın və onu layiq olmadığı ləkədən xilas etsin. Mən əminəm ki, bədbəxt ağbirçək ananın xahişi Sizin tərəfinizdən cavabsız qalmayacaq. Şəhrəbanı xanım Xoyski"[2].

N.Nərimanov isə ərizəyə qəti cavab verə bilməyib bu sözləri yazmışdı: "AFK-da (Azərbaycan Fövqəladə Komissiyası – red.) baxılsın".

R.Xoyski 1920-ci ilin 31 avqustuna qədər həbsxanada saxlanıldı.

**R.Xoyskinin Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti Arxivində saxlanılan PR 20433 saylı istintaq işində onun haqqında 1920-ci ilin 21 avqustunda belə bir qərar qeyd edilib: "Az.FK-nın yığıncağının protokolundan çıxarış: Dinlənildi: Rüstəm Xoyskinin əksinqilabi ittiham olunması üzrə iş №725. Qərara alındı: Rüstəm Xoyskinin sinfi mənsubiyyətinə**

[2] L.Şüküroğlu.Cümhuriyyət hökuməti repressiya mənganəsində. II c. B., 2000, s. 92.

**görə sovet hakimiyyətinin qəti əleyhdarları sırasına mənsub olduğunu nəzərə alaraq qərar qəbul edir: Az. FK yanında girov kimi saxlanılsın"**[3].

R.Xoyski həbsdən sürgünə göndərildi və sonradan Moskvaya getdi, 1939-cu ildə orada vəfat etdi. R.Xoyski Novodeviçye monastrının qəbirstanlığında, qaynı – mühəndis İ.İ.Yutkeviçin yanında dəfn olundu.

**Onun qardaşı Hüseynqulu xan Xoyski (22 sentyabr 1869, Gəncə - 7 dekabr 1955, İstanbul) isə Türkiyədə** yaşamaq məcburiyyətində qaldı.

Gəncə üsyanına başçılıq etmiş polkovnik Cahangir bəy Kazımbəyli **Hüseynqulu xan Xoyskinin** qızı Valiyə xanımla ailə həyatı qurdu. Valiyə xanım azərbaycanlı legionerlərdən bir qrupunu sovet dövlətinə təhvil verilməməsi üçün Romaya apararkən təyyarə qəzası nəticəsində həlak oldu. C.Kazımbəyi isə sovet təhlükəsizlik orqanları bir agent xanımın vasitəsi ilə 1955-ci zəhərləyib öldürdü.

**R.Xoyskinin digər ögey qardaşı Cahangir xan Xoyski Azərbaycan ordusunun zabiti olmuş, Gəncə üsyanında bolşeviklərə qarşı savaşmışdı. O, 1920-ci ilin iyununda ailəlikcə həbs edilib Sibirə sürgünə göndərildi.**

---

[3] L.Şüküroğlu.Cümhuriyyət hökuməti repressiya məngənəsində. II c. B., 2000, s. 98.

# VİKTOR VİKTOROVİÇ KLENEVSKİ

(1883 – ?)



Azərbaycanın Sosial Təminat naziri olan Viktor Viktoroviç Klenevski 1883-cü ilin fevral ayında Yelizavetpol şəhərində anadan olub. Milliyyətcə polyakdır. Universitet təhsili alıb.

V.Klenevski Tiflisdə dövlət işində çalışıb. O, burada Qaçqınların işlə təmin edilməsi üzrə şöbə müdiri, Tiflis Dairə məhkəməsinin üzvü olaraq çalışıb.

V.Klenevski Azərbaycan Cümhuriyyəti dövründə Bakıya dəvət olunaraq Himayə (Sosial Təminat Nazirliyi) Nazirliyində Qaçqınların işi üzrə idarəyə rəis təyin olunub.

V.Klenevski 1919-cu ilin martından 1919-cu ilin dekabrına qədər N.Yusifbəylinin başçılıq etdiyi Hökumət kabinetində Sosial Təminat naziri vəzifəsini icra edib.

O, 1919-cu ildə Hökumət kabinetinin istefası ilə bağlı vəzifədən uzaqlaşıb.

Sovet hakimiyyəti dövründə həbs edilib qısa müddətdən sonra azadlığa çıxan V.Klenevskinin sonrakı həyatı haqqında məlumat yoxdur.

# SOSİAL TƏMİNAT NAZİRİ

Azərbaycanın Cümhuriyyəti dövründə Sosial Təminat naziri olan **Viktor Viktoroviç Klenevski** 1883-cü ilin fevralında Yelizavetpol (Gəncə –red.) şəhərində anadan olmuşdur. O, milliyyətcə polyakdır. Universitet təhsili almış və ixtisasca hüquqşünasdır.

V.Klenevski Universitet təhsilini bitirdikdən sonra Tiflisdə dövlət işində çalışmışdır. O, burada Qaçqınların işlə təmin edilməsi üzrə şöbə müdiri, Tiflis Dairə məhkəməsinin üzvü olaraq çalışmışdır.

O, Tiflisdə Qafqaz cəbhəsindən olan qaçqınların işi ilə məşğul olur, onların işlə təmin edilməsinə çalışırdı. Klenevski o dövrdə bu sahədə artıq yüksək nüfuz qazanmışdı. Bu nüfuzunun nəticəsi idi ki, Azərbaycan Cümhuriyyəti dövründə onu Sosial Təminat (Himayə) Nazirliyinə Qaçqınlarla iş üzrə idarəyə rəis təyin edirlər. Onun Azərbaycana dəvətində əvvəl hökumətdə nazir olmuş K.Lizqarın rolu vardı.

**V.Klenevski 1918-ci ilin dekabrında nümayəndə heyətinin başçısı kimi Zəngəzura və Qarabağa gedib qaçqınların vəziyyəti ilə tanış olmuş, onların ağır, dözülməz vəziyyətinin aradan qaldırılması ilə bağlı təcili tədbirlər görülməsi üçün hökumətə geniş məruzə hazırlamışdı. Onun bu məruzəsi parlament üzvləri arasında da geniş yayılmışdı.**

**V.Klenevski 1919-cu ilin martın 14-də N.Yusifbəylinin təşkil etdiyi ikinci (ümumi sayca beşinci) Hökumət kabinetində Slavyan-Rus Cəmiyyətinin təmsilçisi kimi Sosial Təminat (Himayədarlıq – red.) naziri təyin olundu. O, bu vəzifəni 1919-cu ilin dekabrın 24-nə – hökumətin istefasına qədər icra etdi.**

**O, nazir vəzifəsində çalışarkən xeyriyyəçilik fəaliyyətinə üstünlük verir, kimsəsiz uşaqların qayğısına qalır, hökumətin yığıncaqlarında, idarəçilik xarakterli toplantılarda iştirak edirdi.**

V.Klenevski nazir olaraq Azərbaycan Parlamentində ilk dəfə 1919-cu ilin 14 iyulunda keçirilən 55-ci iclasında çıxış etdi.

H.Ağayevin sədrliyi, Ə.Cövdətin (Pepinovun – red.) katibliyi ilə keçirilən iclasda 13-ə qədər məsələ müzakirəyə çıxarıldı. Müzakirə edilən 12-ci məsələdə Ermənistandan olan müsəlman qaçqınlarına, 13-cü məsələdə isə Zəngəzur qaçqınlarına yardım nəzərdə tutulurdu. Hər iki məsələ üzrə əsas məruzəçi Ə.Əmircanov idi[1].

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 830.

Bu məsələlər ətrafında M.Rəfiyev, R.Ağabəyov, H.K.Sanıyev, S.M.Qənizadə, A.Aşurov, A.Kazımzadə, M.Hacıbabayev çıxış etdilər.

M.Rəfiyevin ikinci dəfə çıxışından sonra söz Sosial Təminat naziri (sədr onu belə təqdim edir: Ümumi Xeyriyyə naziri) Klenevskiyə verildi. O, çıxışında dedi: "Hökumət bütün gücünü qaçqınlara köməyə sərf edir. Ancaq necə kömək etmək? Onların özlərini saxlaması üçün ən aşağı yaşam xərci ilə təmin etməliyik. Aşağı yaşam xərci hazırda ayda 600-800 rubl həcmindədir. Göründüyü kimi, heç bir dövlət, o cümlədən, Azərbaycan indiki vaxtda bu qədər pulu sərf edə bilməz. Əgər buna, minimumdan hesablasaq, 40 milyon rubl sərf etmək lazımdır. Himayədarlıq Nazirliyinin (Sosial Təminat – red.) vəzifəsi bir tərəfdən qaçqınların yaşamağını təmin etmək, digər tərəfdən bütün yollar axtarıb təsərrüfatı bərpa etməkdir. Ən başlıcası onları işləməyə öyrətmək və məcbur etməkdir. Nazirlik də hazırda Qarabağda emalatxana şəbəkəsi təşkil edir. Burada çıxış edən natiqlərdən birinin "emalatxana yalnız kağızda mövcuddur" deməsi düzgün deyildir. Ona görə ki, nazirlik bu emalatxanaların açılmasına yeni başlayıb və artıq Ağdamda, Bərdədə açılıb, hazırda Qarabağda açılır"[2].

V.Klenevski çıxışında başçılıq etdiyi nazirliyin qaçqınları işlə təmin etmək imkanları araşdırdığını, onların ərzaqla təmin edilməsi və cəmiyyətin faydalı üzvünə çevrilməsi ilə bağlı çalışdığını qeyd etdi.

O, bildirdi ki, bizim nazirliyin səlahiyyətinə aid olmasa da, Xankəndində xəstəxana açılıb və o, Səhiyyə Nazirliyinə təqdim ediləcəkdir.

V.Klenevski Zəngəzurda həkimin, feldşerin sayının az olmasını onların aldıqları 670 rubl həcmindəki aşağı miqdarda olan maaşla izah etdi. Qeyd etdi ki, bundan ötrü həkimlərin maaşları artırılmalıdır. O, bildirdi ki, səhiyyə dəstələrinin də təşkilinə başlanılmışdır. Və ilk olaraq, bu iş Qarabağda yaradılacaqdır. V.Klenevski eyni zamanda Şamaxıda 15 qida məntəqəsi və xəstəxananın açıldığını, tezliklə dağılmış evlərin bərpasına başlanılacağını qeyd etdi. O, Suraxanıdan Mərdəkana qədər yolun çəkilməsi üçün 3,5 milyon rubl lazım olduğunu da söylədi.

V.Klenevski çıxışının sonunda qaçqınların öz yerlərində qalması üçün Daxili İşlər və Əmək Nazirliklərinin təmsilçilərindən, eləcə də yerlərdəki nüfuzlu adamlardan və parlament üzvlərinin birindən ibarət olan komissiya yaradılmasını təklif etdi[3].

V.Klenevski Azərbaycan Cümhuriyyətində F.X.Xoyskinin 1918-ci ilin 26 dekabrında təşkil etdiyi Hökumət kabinetində Ərzaq naziri vəzifəsini icra etmiş K.

[2] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 100, v. 123.
[3] Yenə orada, v. 124.

Lizqarın ən yaxın dostu idi. Onların hər ikisi 1918-ci ildə Tiflisdə əsası qoyulmuş Slavyan-Rus Cəmiyyətinin üzvləri idi.

Bu cəmiyyət 1918-ci ilin dekabrın 7-də Müttəfiq qoşunların komandanına vurduğu 315 saylı teleqramda Azərbaycan Parlamentinə beş nəfər üzv göndərməsi haqqında məlumat vermişdi[4].

1919-cu ilin dekabrında N.Yusifbəylinin başçılıq etdiyi Hökumət kabineti istefa verdikdən sonra V.Klenevski də nazir vəzifəsindən uzaqlaşdı. Bundan sonra o, əvvəl Petrovsk şəhərinə getdi, Azərbaycan naziri kimi əks-kəşfiyyat tərəfindən həbs edildi. V.Klenevski iki gün həbsdə saxlanıldı, sonradan Rostov şəhərinə yola salındı. Burada onun məqsədi iş tapmaq idi. O, burada bir müddət xəstələndi və sonra 1920-ci ilin mayında Don-Rostanın (Rusiya Teleqraf Agentliyinin Don Vilayət şöbəsi) məsul əməkdaşı kimi çalışdı. Sonra o, Tiflisə ezamiyyətə göndərildi.

V.Klenevski Bakıdan kənarda Fövqəladə Komissiyanın 1238 saylı orderi ilə əməkdaş Mirko tərəfindən 18 noyabr 1920-ci ildə Vladiqafqazda həbs olundu[5].

O, həbs ediləndə həyat yoldaşı Klavdiya Andreyevna 30 yaşında, qızı Kseniya isə 8 yaşında idi.

V.Klenevski 1920-ci ilin dekabrın 1–2-si arasında Bakıya gətirildi. Dekabrın 3-də isə onu Az.FK-nın müstəntiqləri sorğu-suala çəkdilər. Ona qarşı irəli sürülən əsas ittiham Azərbaycan Cümhuriyyətində nazir olması idi.

Ağır istintaq proseslərindən sonra onu bolşeviklərlə əməkdaşlıq etməyə razı saldılar. Bundan əlavə, onun özü də bu məzmunlu müraciəti 1920-ci ilin 12 dekabrında FK sədri Xanbudaqova ünvanladı[6].

1920-ci ilin dekabrın 25-də Az.FK-nın müstəntiqi Ponomaryov "Müsavat naziri" kimi ittiham olunan V.Klenevskinin həbsdən buraxılması haqqında qərar çıxardı.

**V.Klenevskinin həbsdən sonrakı həyatı haqqında məlumat öyrənmək mümkün olmadı.**

---

[4] Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi. PS-12174 saylı K.Lizqara aid istintaq işi, v. 25.

[5] L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. II c. B., 2000, s. 106.

[6] Yenə orada, s. 115.

# YEVSEY YAKOVLEVİÇ GİNDES

(1872 – 1952)

## XALQ SƏHİYYƏSİ NAZİRİ



Azərbaycan Cümhuriyyəti dövründə Xalq Səhiyyə naziri işləmiş Yevsey Yakovleviç Gindes 1872-ci ildə Kiyev şəhərində anadan olub[1]. O, 1897-ci ildə Kiyev Universitetinin tibb fakültəsini bitirmiş, Kiyevdə professor Gernovun Uşaq klinikasında ordinator (1897 – 1905), Aleksandr xəstəxanasının yoluxucu xəstəliklər uşaq klinik şöbəsinin müdiri (1902 – 1903) işləmişdir.

O, 1905-ci ildə Bakıya köçmüş, Neft Sənayeçiləri Qurultayı Şurasının Qara şəhərdəki xəstəxanasının uşaq şöbəsinin müdiri (1905 – 1914), 1914-cü ildən isə Uşaq xəstəxanasının direktoru və baş həkimi olmuşdur (bu xəstəxana 1922-ci ildən Pediatriya İnstitutuna, sonralar isə Ana və Uşaqları Mühafizə İnstitutuna çevrilmişdir).

Y.Gindes uşaq xəstəlikləri ilə bağlı Zuğulbadakı sanatoriyanın təşkilatçısı və baş həkimi işləmişdir (1913–1930).

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c. B., 2004, s. 426.

O, Azərbaycan Cümhuriyyəti dövründə F.X.Xoyskinin yaratdığı 3-cü Hökumət kabinetində (26.12.1918 – 14.03.1919) Xalq Səhiyyəsi naziri vəzifəsində çalışdı[2].

Y.Gindes əsası 1918-ci ilin martında Tiflisdə qoyulmuş Slavyan-Rus Cəmiyyətinin üzvü olmuşdur. Bu cəmiyyət isə öz fəaliyyətində "Bölünməz Rusiya" ideyasını dəstəkləyirdi.

Bunu Y.Gindesin nazir olduğu dövrdə dostlarından birinə yazdığı məktub da təsdiqləyir: "Çox hörmətli Nikolay Alekseyeviç! Sizə Slavyan-Rus Cəmiyyətinin Azərbaycan Parlamentində elan olunmuş bəyanatını göndərirəm. Biz tam razılıqla parlamentə daxil olduq (onlar 5 nəfər olaraq cəmiyyət adından parlamentdə təmsil edilirdilər – red.). Mən Könüllü Ordu və İngiltərənin, ABŞ-ın təmsilçiləri ilə əlaqəyə girdim və onlarla vahid, bölünməz, böyük Rusiyanın xilası üçün tam həmrəyliyə gəldik. İndi hakimiyyətin konstruksiya prosesi gedir. Xalq Maarifi naziri vəzifəsinə mənimlə bərabər Sizin namizədliyiniz də irəli sürülüb. Burada öz orqanının çapı ilə məşğul olarsan. Əgər 400-500 min toplaya bilsən, bu da çoxdur. Hələlik 300 min rubl vardır. Bu miqdarda qəzet çap etməyə dəyərmi? Artıq bir illik kağız, mətbəə və yığım üçün lazım olan avadanlıqlar var"[3].

Y.Gindes 1932-1945-ci illərdə Bayıldakı Uşaq xəstəxanasının təşkilatçısı və baş həkimi işlədi. O, 1941-ci ildə dissertasiya müdafiə etmədən tibb elmləri doktoru, professor olaraq təsdiq edildi.

Y.Gindes 1945-1952-ci illərdə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda Uşaq xəstəlikləri kafedrasının professoru oldu. O, Qafqazda ilk uşaq məsləhətxanası, süd məhsulları ("Süd damcısı") mətbəxi (Bayıl və Sabunçu rayonlarında filialı var idi) təşkil etdi.

O, Bakıda ilk dəfə məktəb şagirdləri üçün uşaq yay düşərgələri təşkil etmiş (1906), fəhlə uşaqları üçün körpələr evi açdı.

Y.Gindes 150-dən çox tibbi-elmi əsərin müəllifi olmuşdur. Ona Azərbaycanın Əməkdar həkimi adı verildi.

Y.Gindes 1952-ci ildə Bakıda vəfat etmişdir.

---

[2] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1992, s. 92.
[3] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. I c. B., 2000, s. 162-163.

# İ.N.PROTASOV

## MALİYYƏ NAZİRİ

İ.N.Protasov Azərbaycan Parlamentinin üzvü olmuş və Slavyan-Rus Cəmiyyətinin adından orada təmsil edilmişdir O, həmin cəmiyyətin sədri olan K.Lizqar ilə eyni vaxtda (Y.Gindes də buraya daxil idi) F.X.Xoyskinin təşkil etdiyi 3-cü Hökumət kabinetində (26.12.1918 – 14.03.1919) çalışmış və Maliyyə naziri vəzifəsini icra etmişdir[1].

Qeyd edək ki, onların təmsil olunduğu Slavyan-Rus Cəmiyyəti Bölünməz Rusiya ideyasını dəstəkləyirdi.

İ.N.Protasov 1919-cu ilin martın 6-da parlamentə müzakirə üçün bir qanun layihəsi təqdim etmişdir[2]. Həmin qanun layihəsi belə adlanırdı: "Spirtin aksiz altına alınmasına dair qanun layihəsi".

Həmin qanunla bağlı ilk çıxışı M.Rəfiyev etdi. O, bu qanun layihəsinin spirt aksizinin artırılması haqqında olduğunu bildirdi.

İ.N.Protasovun təqdim etdiyi layihədə bu maddələr var idi: 1) Aksiz vergisi nizamnaməsinin 348, 349, 353, 379, 381 maddələri üzrə aksizsiz içki hissəsi ləğv olunur; 2) İstehsal olunacaq spirt hissəsinin aksizsiz buraxılması ləğvinin vaxtını təyin etmək ixtiyarı Maliyyə nazirinə həvalə edilir"[3].

Maliyyə naziri İ.Protasov çıxışında başçılıq etdiyi nazirliyin fəaliyyəti ilə parlament üzvlərini məlumatlandırdı. O, dedi: "Maliyyə nazirliyində işə başlayandan sonra büdcə haqqında qanunun olmadığına diqqət yetirdim. Odur ki, mənim gördüyüm ilk iş bu haqda qanun layihəsi hazırlamaq oldu. Çünki əks halda maliyyə sahəsində xaos yaranacaqdı. Qanun layihəsi artıq hazırdır və indi dövlət nəzarətinin son yoxlanışındadır. 2-3 gündən sonra mən onu geri alıb Nazirlər Şurasına aparacağam. Beləliklə, tez bir zamanda büdcə haqqında qanun layihəsi

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s. 92.
[2] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya mənganəsində. I c. B., 2000, s. 344.
[3] Yenə orada, s. 345-346.

sizə təqdim ediləcək. Bu qanunun qəbulunu gözləmədən biz bütün nazirliklərdən gəlir və xərcləri ilə bağlı smetanın təqdim olunmasını xahiş etmişik. Bugünədək yeddi nazirlik öz smeta xərclərini təqdim etmiş, digər nazirliklərdən isə sənəd daxil olmamışdır. Onlardan da sənədləri qəbul edib büdcəni hazırlayacağıq. Parlament üzvlərinin diqqətinə çatdırıram ki, Maliyyə Nazirliyi hər zaman bu məsələni tezləşdirməyə çalışır. Maliyyə nazirliyi özünə aid smeta layihəsini artıq hazırlamışdır"[4].

İ.N.Protasovun bu çıxışından görünür ki, o, maliyyə sahəsini daima inkişaf etdirməyə çalışmışdır.

İ.N.Protasovun həyatı haqqında geniş məlumat əldə etmək mümkün olmadı.

***Qeyd:*** *İ.N.Protasovun fotosunu əldə etmək mümkün olmadı.*

[4] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 7, i. 39, v. 1-36.

# NƏRİMAN BƏY NƏRİMANBƏYLİ

(1889 – 1937)

## DÖVLƏT NƏZARƏTİ NAZİRİ



Tanınmış ictimai-siyasi xadim olan Nəriman bəy Haşım oğlu Nərimanbəyli 1889-cu ildə Şuşada anadan olub. Onun ailəsi İrəvana köçdüyündən gənclik illəri də orada keçib.

N.Nərimanbəylinin atası Haşım bəy İrəvanda ana dilində məktəblərin yaradılmasında, xeyriyyə cəmiyyətlərinin təşkilində mühüm rol oynamışdır. Haşım bəyin digər müəllimlərlə birlikdə tərtib etdiyi "Ana dili" kitabı 1907-ci ildə İrəvanda, sonradan isə üç dəfə Tiflisdə çap edilmişdir.

N.Nərimanbəyli İrəvanda gimnaziya təhsili aldıqdan sonra əvvəlcə Moskva Universitetinin fizika-riyaziyyat şöbəsində, sonra isə Xarkov Universitetinin hüquq fakültəsində oxumuşdur. N.Nərimanbəyli burada oxuyarkən Azərbaycan Tələbə Həmyerlilər Təşkilatının rəhbərliyinə seçilmişdir.

O, 1915-ci ildə təhsilini başa vurub İrəvana qayıtdı, burada vəkil işlədi, Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbərlərindən oldu.

1917-ci ilin Fevral-Burjua inqilabından sonra N.Nərimanbəyli siyasi işlərlə daha fəal məşğul olmağa başladı.



**N.Nərimanbəyli.**

1917-ci ildə o, Bakıya köçdü və Müsavat Partiyasının sıralarına daxil oldu[1].

N.Nərimanbəyli 1917-ci ilin aprelin 15-20-də Bakıda keçirilən Qafqaz Müsəlmanları Qurultayında və həmin ilin oktyabrında Müsavat Partiyasının qurultayında iştirak etdi.

O, 1918-ci ilin fevralında Zaqafqaziya Seyminin üzvü seçildi və Seymin Müsəlman fraksiyasındakı Müsavat və bitərəflər qrupuna daxil oldu.

1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamenti fəaliyyətə başladıqda N.Nərimanbəyli burada Müsavat fraksiyasının üzvü kimi təmsil olundu.

N.Nərimanbəyli Azərbaycan Nazirlər Şurasının Sədri N.Yusifbəylinin təşkil etdiyi dördüncü hökumət kabinetində (14.03.1919 – 24.12.1919) Dövlət nəzarətçisi (Dövlət Nəzarəti naziri – red) vəzifəsini icra etdi[2]. O, bu vəzifədə 1919-cu ilin 24 dekabrına qədər çalışdı.

O, ictimai xadim olaraq da Bakıda keçirilən mədəni tədbirlərdə iştirak edirdi.

1920-ci ilin aprelin 27-də Azərbaycan sovet rejimi tərəfindən işğal edildikdən bir müddət sonra N.Nərimanbəyliyə olan münasibət dəyişdi. N.Nərimanbəyli daima təqib olunur, həbs edilir, iş yerindən uzaqlaşdırılırdı.

O, 1920-ci ilin mayından 1934-cü ilin iyuluna qədər müxtəlif fasilələrlə13 təşkilatda çalışmaq məcburiyyətində qaldı. Onun Sovet Azərbaycanında çalışdığı ilk iş yeri Azərbaycan Kənd Təsərrüfatı Xalq Komissarlığında xarici şöbənin katibi (1920-ci il may – 1921-ci il may), sonuncu qeyd edilən iş yeri isə 1934-cü ilin iyulunda Əli Bayramov adına fabrikdə hüquq məsləhətçisi oldu[3].

N.Nərimanbəyli ilk dəfə 1923-cü ilin iyunun 21-də həbs edildi. O, Azərbaycan Fövqəladə Komissiyasının 390 saylı orderi əsasında (483 saylı əmrlə) həbsdən azad olundu. Bu həbsində müstəntiqlər ondan daha çox Müsavat Partiyası və Müsavatla əlaqələri haqqında məlumatlar almağa çalışırdı.

---

[1] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s. 64.

[2] Yenə orada, s. 93.

[3] L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. II c. B., 2000, s. 89.

O, 1923-cü ilin oktyabrın 5-də Fövqəladə Komissiyanın 397 saylı orderi əsasında yenidən həbs olundu. Həbs anketində Zeynəb adlı həyat yoldaşının (25 yaş) olduğu da qeyd edilmişdir.

Budəfəki həbsdə də ondan Müsavat və bu partiyanın fəalları haqqında sorğu-sual etdilər. Onlar bir məsələni də öyrənmək üçün sualla müraciət edirdi: "1922-ci ilin 24 may tarixli Azərbaycan, Ermənistan və Gürcüstanın RSFSR yanında səlahiyyətli nümayəndəliyinin işi haqqında informasiya bülleteni Sizin əlinizə necə düşmüşdü?"[4].

Həbsxana həyatının dözülməzliyi onu Azərbaycan Fövqəladə Komissiyasının sədri M.C.Bağırova məktub yazıb görüş istəməsinə məcbur etdi.

Bu hadisədən sonra – onu sovet istintaq orqanları ilə əməkdaşlığa razılıq sənədinə imza etdirib sonra azadlığa buraxdılar.

N.Nərimanbəylinin 1925-ci ilin mayında üçüncü dəfə həbsi onun istintaq orqanları ilə əməkdaşlıqdan uzaqlaşdığını sübut edir.

N.Nərimanbəyli 1925-ci ilin iyunun 10-da "Bakı şəhərindən kənara çıxmamaq haqqında" sənədə qol çəkdikdən sonra növbəti dəfə həbsdən azad edildi.

O, sonralar da təqiblərdən xilas ola bilmədi: hüquqları məhdudlaşdırıldı, seçici hüququndan məhrum edildi, işdən uzaqlaşdırıldı və s.

**N.Nərimanbəyli 1937-ci ilin repressiyalarında həlak oldu.**

---

[4] L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. II c. B., 2000, s. 68.

# HEYBƏTQULU MƏMMƏDBƏYOV

(1879 – 1937)

## DÖVLƏT NƏZARƏTİ NAZİRİ



Heybətqulu Həbibulla oğlu Məmmədbəyov 1879-cu ildə Bakının Şağan kəndində anadan olub.

H.Məmmədbəyov 1892-ci ildə rus-tatar məktəbində oxumuş və 1896-cı ildə təhsilini tamamladıqdan sonra Mixaylovsk məktəbinə daxil olmuşdur. 1902-ci ildə həmin məktəbin mühasib kursunu bitirmişdir. Sonradan o, Şəmsi Əsədullayevin kontorunda (idarəsində – red.) 1905-ci ilə qədər müqavilə ilə işləmişdir. 1905-ci ildə H.Z.Tağıyevin yanında, 6 aydan sonra isə Əmiraslanov qardaşlarının kontorunda mühasib olaraq 1917-ci ilə qədər burada çalışmışdır.

H.Məmmədbəyov 1918-ci ilin fevralında Zaqafqaziya Seyminə üzv seçilmişdir.

O, 1918-ci ilin mayın 28-də Azərbaycan istiqlalı elan edildikdən sonra Bakı şəhər bələdiyyəsinin üzvü olaraq fəaliyyət göstərmişdir.

H.Məmmədbəyov 1918-ci ilin dekabrında fəaliyyətə başlayan Azərbaycan Parlamentinin üzvü olmuşdur.

Qeyd edək ki, H.Məmmədbəyov Azərbaycan Parlamentində Təsərrüfat komissiyasına İttihad fraksiyasının nümayəndəsi kimi daxil olmuşdur.

Parlamentin 1919-cu ilin aprelinə aid siyahısında da onun adı komissiyada təsərrüfat bölüşdürücü kimi qeyd olunmuşdur[1].

H.Məmmədbəyov 1919-cu ilin 24 dekabrından 1920-ci ilin martına qədər İttihad Partiyasının üzvü kimi Dövlət nəzarətçisi (Dövlət Nəzarəti naziri – red) vəzifəsində çalışdı[2].

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra 1920-ci ilin 12 iyununda H.Məmmədbəyov Ə.Qarayev tərəfindən Qarabağ qaçqınlarının yerləşdirilməsi üzrə səlahiyyətli şəxs təyin edildi. O, bu vəzifədə 1921-ci ilin iyun ayına qədər çalışdı.

H.Məmmədbəyov sonradan M.H.Hacınskinin köməyi ilə Zaqafqaziya Dövlət Ticarət İdarəsinin Bakı şöbəsinin rəis müavini təyin edildi. O, 1923-cü ilin iyununda işdən uzaqlaşaraq doğulduğu Şağan kəndinə getdi.

H.Məmmədbəyov 1923-cü ilin iyunun 15-də Azərbaycan Fövqəladə Komissiyası tərəfindən həbs edildi.

O, 1923-cü ilin noyabrına qədər həbsdə saxlanıldıqdan sonra azadlığa buraxıldı.

H.Məmmədbəyov növbəti dəfə 1925-ci ilin mayın 19-da Azərbaycan Fövqəladə Komissiyasının komissarı Qriçman tərəfindən yaşadığı "Persidski" küçəsindəki 120 saylı evdə həbs olundu[3].

Onun həbsi anketində bu sözlər yazılmışdı: "Heybətqulu Məmmədbəyov, türk, 47 yaş, bitərəf, mühasib, arvadı Gülsüm 38 yaş, oğlu Əmrulla 17, Nadir (oxuyur) 15 yaş, Adil 6 yaş, qızı Rəbiyyə 10 yaş (oxuyur), 1923-cü ildə İttihad Partiyasına mənsub olduğu üçün FK tərəfindən həbs edilib, əmək haqqı ilə yaşayır"[4].

1925-ci ilin iyunun 22-də o, həbsdən azad olundu.

1937-ci ilin dekabrın 7-də H.Məmmədbəyovu yenidən həbs etdilər. Bu dəfə onun qardaşı Cəfərqulu da həbsə alındı. Onların hər ikisini "seçkilərdə iştirak kimi tədbirlərin həyata keçirilməsinə qarşı çıxmaqda", "Sovet hakimiyyətinin yaxın vaxtlarda yıxılacağı barədə şayiələr yaymaqda", "əksinqilabi iş aparmaqda" günahlandırırdılar.

1937-ci ilin dekabrın 12-də 31 saylı protokoldan çıxarış əsasında Heybətqulu Məmmədbəyov və 67 yaşlı qardaşı Cəfərqulu Məmmədbəyov haqqında güllələnmə hökmü çıxarıldı.

**1937-ci ilin dekabrın 15-dən 16-na keçən gecə hər iki qardaş güllələndi.**

---

[1] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 58, v. 5-7.
[2] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990, s. 93.
[3] L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya məngənəsində. II c. B., 2000, s. 199.
[4] Yenə orada.

# MASEY ALEKSANDROVİÇ SULKEVİÇ

(1865 – 1920)



Tanınmış hərbçi, general-leytenent Masey Aleksandroviç Sulkeviç 1865-ci ildə indiki Litva ərazisində, Kemeyşi adlı ailə malikanəsində məskunlaşan tatar ailəsində doğulmuşdur.

O, ilk hərbi təhsilini Voronejdəki Kadet korpusunda və Peterburqda Mixaylovsk Artilleriya Məktəbində alıb. M.Sulkeviç 1894-cü ildə Rusiya imperiyasının Baş Qərargah Akademiyasını bitirib. O, 1910-cu ildə general-mayor, 1915-ci ildə isə general-leytenant rütbəsinə layiq görülüb.

M.Sulkeviç 1918-ci ildə Krıma gələrək burada yaradılmış Krım Diyar Hökumətinin sədri, Daxili və Hərbi İşlər naziri seçilib.

M.Sulkeviç 1919-cu ildə Azərbaycana gəlib və həmin ilin martın 19-da Azərbaycan Cümhuriyyəti Ordusunun Baş Qərargah rəisi təyin edilib. O, Azərbaycanın milli qoşun hissələrinin formalaşmasında böyük xidmət göstərib.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra M.Sulkeviç həbs edilib və iyunun 15-də güllələnib.

# AZƏRBAYCAN ORDUSUNUN BAŞ QƏRARGAH RƏİSİ

Azərbaycan Milli Ordusunun yaradılmasında və inkişafında böyük xidmətləri olan **Masey Aleksandroviç Sulkeviç** XIV yüzillikdə Krımdan köç edib indiki Litva ərazisində məskunlaşan tatar ailəsində doğulmuşdur. Onun doğulduğu bölgə belə adlanırdı: Kemeyşi, Lida qəzası, Viena quberniyası.

Bəs onlar nə üçün daha çox "Polşa tatarları" adlanır? Tədqiqatçı-alim V.Quliyev yazır: "Bu azsaylı etnik qrup müxtəlif qaynaqlarda "Litva tatarları", "Polşa tatarları", "Polşa müsəlmanları", "Lipkalar" (Litva tatarları anlamında) kimi fərqli adlarda xatırlanıb. Lakin XX əsrin əvvəllərindən etibarən onların Polşa tatarları kimi təqdim olunması meyli daha üstünlük qazanmağa başlayıb... Çünki Böyük Litva knyazlığı da daxil olmaqla tatarların kompakt halda məskunlaşdıqları tarixi ərazilərin hamısı bugünkü Polşanın sələfi sayılan Reç Pospolita dövlətinin sərhədləri içərisində idi"[1].

M.Sulkeviçin adı mənbələrdə müxtəlif olaraq yazılır: Matvey, Masey, Süleyman, Məhəmməd və s. Lakin arxiv sənədlərində və onun həbsi zamanı yazılan protokol və sənədlərdə Matvey olaraq qeyd edilib.

M.Sulkeviçin atası Aleksandr da Qusar (süvari) alayının polkovniki olub.

M.Sulkeviç 1865-ci ilin iyunun 20-də Kemeyşi adlı ailə malikanəsində doğulmuşdur. Tədqiqatçı-alim V.Quliyev M.Sulkeviçlə bağlı araşdırmalarında yazır: "Ailə mühitində tatar dili unudulsa da, onu kiçik yaşlarından əsl tatar və müsəlman kimi böyütmüşdülər. Böyük Litva knyazlığında və Polşada yaşayan tatar əsilzadələrinin əksəriyyəti kimi onun da gələcək həyat yolu əvvəlcədən müəyyənləşmişdir – Masey kiçik yaşlarından hərbçi kimi tərbiyə olunmuşdur"[2].

M.Sulkeviç ilk hərbi təhsilini Voronej Kadet Korpusunda və Peterburqda Mixaylovsk Artilleriya Məktəbində almış, 1888-ci ilin oktyabrın 3-də Rusiya imperiyasının Baş Qərargah Akademiyasına daxil olmuşdur. O, 1883-cü ildə çar Rusiyası ordusunda xidmətə başlayıb və qısa zamanda aşağıdakı rütbələri almışdır: 1886-cı ildə ilk zabit rütbəsi, 1899-cu ildə podpolkovnik,1910-cu ildə general-mayor, 1915-ci ildə general-leytenant.

M.Sulkeviç hərbi xidmətinə görə "Müqəddəs Stanislav" ordeninə layiq görülmüş və Odessa Hərbi Dairəsi Qərargahının baş yavəri vəzifəsinə təyin olunmuşdur.

---

[1] V. Quliyev. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: Masey Sulkeviç. "525-ci qəzet", 9 dekabr 1996-cı il.

[2] Yenə orada.


Телефонограмма

Ген. Сулькевич

General M.Sulkeviçin öz xətti ilə yazdığı telefonoqram. 1919-cu il.

O, 1904-1905-ci illərdə Rusiya-Yaponiya müharibəsində iştirak etmiş, xidmətlərinə görə 2-ci dərəcəli "Müqəddəs Anna" və 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordenləri ilə təltif edilmişdir.

M.Sulkeviç 1912-ci ildə 7-ci Ordu korpusunun qərargah rəisi, Birinci Dünya müharibəsi illərində isə Müsəlman korpusunun komandiri olmuşdur.

Onun Azərbaycan Ordusunun qurucuları olan general Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski ilə tanışlığı da məhz Port-Artur cəbhəsində olmuşdur.

1917-ci ilin Fevral-Burjua inqilabından sonra Rusiya əsarətində yaşayan türk-müsəlman toplumun dirçəlməsində 1917-ci ilin mayın 1-11-də keçirilən Ümumrusiya Müsəlmanları qurultayının böyük rolu oldu. Bu qurultayda türk-müsəlman əhalisinin təhlükəsizliyinin qorunması üçün "Hərbi qurumlar haqqında" qətnamə qəbul edildi. 1917-ci ilin 21-31 iyulunda keçirilən digər Ümumrusiya qurultayında isə Əsgəri Şuranın yaradılması qərara alındı[3].

Qurultayın qərarı ilə müsəlman əsgər və zabitlərdən ibarət hərbi birləşmələrin formalaşdırılması işi Masey Sulkeviçə tapşırıldı.

M.Sulkeviçin fəaliyyətinin bir mühüm dövrü də Krımla bağlıdır. O, 1918-ci ildə Krıma gəlmiş və burada yaradılmış Krım Diyar Hökumətinin sədri (Baş naziri), Daxili və Hərbi İşlər naziri seçilmişdir. Bu prosesdə almanların ona böyük dəstəyi olmuşdur.

Alman qoşunlarının Krımdan getməsindən sonra A.Denikin Krımı işğal etdi və bundan sonra M.Sulkeviç 1918-ci ilin noyabrın 15-də məcbur olub hakimiyyəti Solomon Krımın başçılıq etdiyi ikinci Krım Diyar Hökumətinə verdi.

[3] V. Quliyev. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: Masey Sulkeviç. "525-ci qəzet", 9 dekabr 1996-cı il.

Krımda qazandığı böyük nüfuza görə M.Sulkeviçi sonradan tatarlar hörmət əlaməti olaraq Süleyman Paşa adlandırırdılar[1].


Военная

САЛЬЯНЫ

Начальнику Ленкоранскаго отряда

Генералу САЛИМОВУ

Охрану русскаго населенія отъ вооруженнаго враждебнаго нападенія
олжна принять на себя администрація но не сами жители, поведеніе
оторыхъ весьма двусмысленное, а по послѣдней резолюціи краевого съѣзда
вызывающее вотъ тѣ причины по которымъ послѣдовало измѣненіе
ѣщанія воззванія 3688

Начгенштаб Сулькевич

M.Sulkeviçin general H.Səlimova teleqramı. 1919-cu il.

Bu hadisədən sonra M.Sulkeviç Azərbaycana gəlmiş və burada Məhəmməd adı ilə tanınmışdır. O, əvvəlcə Gəncədə Birinci Müsəlman Korpusunun komandiri olub, 1919-cu ilin martın 26-da Hərbi nazirliyin 147 saylı əmri ilə Azərbaycan Ordusunun Baş Qərargah rəisi təyin edilmişdir. Onun həyat yoldaşı Məryəm xanım H.Z.Tağıyevin Qızlar məktəbində işləyirdi və o, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəal üzvlərindən idi.

M.Sulkeviç 1919-cu ilin iyunun 9-da Azərbaycan Parlamentinin tövsiyəsi və Nazirlər Şurasının Sədri N.Yusifbəylinin fəallığı ilə yaradılan Dövlət Komitəsinin tərkibinə daxil idi.

**1919-cu ilin iyununda Azərbaycanla Gürcüstan arasında bağlanan hərbi müqaviləni hökumət adından M.Sulkeviç də imzalamışdır.**

Azərbaycan Respublikasının Dövlət Arxivində M.Sulkeviçin də imzası olan ciddi əhəmiyyətli hərbi sənədlər saxlanılmaqdadır. Bu sənədlər onun hərbi sərkərdə olaraq fəaliyyətinin öyrənilməsinə kömək edir.

M.Sulkeviç tələbkar komandir və Baş Qərargah rəisi idi. Onun imzası ilə Gəncədə 1919-cu ilin 17 mayında hazırlanan 5 saylı əmrdə belə qeydlər vardır: "Səhv həmişə mümkündür. Dövlət xəzinəsindən ayrılan xəzinə pulu birbaşa təyinatı üzrə sərf olunmalı və sənədlərdə təsdiq edilməlidir. Ordu və xəzinə maraqlarına qayğı çox olarsa, bunu edənlərə tərif və təşəkkür daha çox olar"[2].

M.Sulkeviç Azərbaycan Cümhuriyyəti Ordusunun milliləşməsinə də önəmli əhəmiyyət verirdi. Onun Baş Qərargah rəisi olaraq 1919-cu ilin avqustun 10-da verdiyi 561 saylı əmrdə maraqlı qeydlər vardır. Əmrdə göstərilir ki, Azərbaycan Ordusunun piyada və süvari alayları, eləcə də ayrıca batalyonları, hərbi məktəbləri üçün hazırlanan bayrağın bir tərəfində "Azərbaycan", digər tərəfində isə "Kömək Allahdandır, qələbə yaxındır!" sözləri yazılmalıdır. Göstərilirdi ki, bayra-

[1] Ş. Nəzirli. Güllələnmiş Azərbaycan generalları. B., 2006, s. 59.
[2] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i. 4, v. 135.

ğın parçasının kənarındakı zolaqlar Teymurləngin Səmərqənddəki qəbrində olan naxışlar kimi olmalıdır[3].

1919-cu ilin 19 avqustunda Azərbaycan Cümhuriyyəti Hərbi Nazirliyinin digər əmrində qeyd olunurdu: "Hərbi təyyarəçi Əfşar xan Teymurçin leytenant rütbəsi ilə Azərbaycan Respublikası Ordusuna qəbul olunur və avqustun 17-dən kiçik zabit maaşı almaqla bütün ərzaq, geyimlə təmin olunur"[4].

Əmri Azərbaycanın Hərbi naziri, Artilleriya generalı S.Mehmandarov və Baş Qərargah rəisi general-leytenant M.Sulkeviç imzalamışdılar.


Р. С. Ф. С. Р.
...бый Отдел при Револ. Воен. Совете XI армии
Арестный Лист №
Имя и отчество
Подпись:
Принял

M.Sulkeviçinin həbs sənədi.
8 may 1920-ci il.

Azərbaycan Cümhuriyyəti Hərbi Nazirliyinin Artilleriya generalı Ə.Şıxlinski və M.Sulkeviç tərəfindən imzalanmış 24 sentyabr 1919-cu il tarixli, 433 saylı əmrdə Baş Qərargahda xidmət üçün gənc zabitlərin hazırlanması məqsədi ilə 1-ci və 2-ci piyada diviziyasından 3 zabitin Baş Qərargahın Baş İdarəsinə göndərilməsi qeyd olunmuşdur[5].

Hərbi nazir S.Mehmandarovun və Baş Qərargah rəisi M.Sulkeviçin 7 oktyabr 1919-cu il tarixli, 459 saylı əmrində polkovnik Koçladzenin Hərbi Dəmiryol məktəbinə rəis təyin olunması qeyd edilmişdir[6].

**Bu əmrlərdən məlum olur ki, Azərbaycan Cümhuriyyəti dövründə ayrıca Hərbi Dəmiryolu məktəbi də fəaliyyət göstərmişdir.**

Azərbaycanda qayda-qanun yaradılması, ictimai-siyasi asayişin qorunmasının güclənməsində Azərbaycan Hərbi Nazirliyi böyük xidmətlər göstərirdi. Hərbi Nazir S.Mehmandarovun və Baş Qərargah rəisi M.Sulkeviçin 8 dekabr 1919-cu ildə hazırladığı 564 saylı əmrdə Dövlət Müdafiə Komitəsinin 27 noyabr tarixli

[3] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i .3, v. 149.
[4] Yenə orada, v. 135.
[5] Yenə orada, v. 138.
[6] Yenə orada, v. 139.

qərarı əsasında respublikanın bir çox rayonlarında daimi milislərin (polislərin – red.) təşkilinə başlanılması qeyd olunurdu[7].

**Azərbaycan Cümhuriyyəti dövründə Ermənistanla sərhəd ərazilərdə, Naxçıvanda, Dağlıq Qarabağda və Muğan bölgələrində hərbi əməliyyatların hazırlanıb həyata keçirilməsində, yeni yaranmış dövlətin ərazi bütövlüyünün qorunmasında M.Sulkeviç yaxından iştirak edirdi.**

1919-cu ilin 7 iyulunda Azərbaycanın Hərbi naziri S.Mehmandarovun və Baş Qərargah rəisi M.Sulkeviçin imzaladığı, Baş Nazir N.Yusifbəyliyə ünvanlanan raportda Denikin qüvvələrinin fəallaşdığı şəraitdə Xaçmaz istiqamətinin və ermənilərin təhlükə yaratdıqarı Qarabağ və Gəncəbasar bölgələrinin nəzarətsiz saxlanılmaması qeyd olunurdu.

**M.Sulkeviçin Qarabağın general-qubernatoru X.Sultanova 7 sentyabr 1919-cu il tarixində göndərdiyi məktubda ermənilərin Qarabağın tam şəkildə itirilməsi ilə barışa bilməyəcəyi, bunun üçün bütün imkanlardan istifadəyə çalışacağı bildirilirdi. Bununla əlaqədar o, ermənilərə nəzarət məqsədi ilə Xankəndindəki, gələcəkdə isə Gorusdakı qarnizonları tam tərkibdə öz yerlərində saxlamağı tələb edirdi.**

M.Sulkeviç yerli əhali arasında olan bacarıqlı, döyüşkən ruhlu insanlardan piyada və süvari partizan dəstələrinin təşkil olunmasını da vacib sayırdı. Onun təklifinə görə, 20-40 yaşlı sakinlərdən ibarət olan 4 batalyon yaradıb onlardan ərazilərin müdafiəsində istifadə edilməli idi.

M.Sulkeviçin və digər Azərbaycan generallarının səyi ilə güclü bir ordunun formalaşdığı dövrdə Rusiya bolşevikləri 60 minlik (bəzən 70 min də göstərilir) hərbi qüvvələrlə Azərbaycanı işğal etdilər.

Azərbaycanın işğalının ilk günlərindən ordu generallarını həbsə almağa başladılar. M.Sulkeviçi 1920-ci ilin mayın 8-də həbs etdilər.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində M.Sulkeviçə məxsus olan PS-1746 saylı istintaq işi saxlanılır. Bu sənədlərdə onun adı **Matvey** olaraq qeyd olunub.

Məlum olur ki, M.Sulkeviçi RSFSR-in XI Ordusunun Hərbi İnqilabi Şurası yanında Xüsusi şöbəsinin 438 saylı həbs vərəqi əsasında tutublar.

Həbs vərəqində onun 54 yaşının olduğu, Bakıda Telefonnı küçəsi-6, 10 saylı evdə yaşadığı və digər məlumatlar qeyd edilib[8].

---

[7] Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i.3, v. 141.

[8] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PS-17046 saylı M.Sulkeviçə aid istintaq işi, v. 1.

Aydın olur ki, həbs müddətində M.Sulkeviçlə əlaqədar istintaq aparılmayıb. Həmin qovluqda 1920-ci ilin sentyabrında Moskvadan Ümumittifaq Fövqəladə Komissiyasının Xüsusi şöbəsindən göndərilmiş bir teleqramda Sulkeviç haqda məlumat soruşulur. Həmin teleqramın üstündə karandaşla yazılıb: "güllələnib"[9].


ДЕЛО
№ 182
АЗЕР. СОВ. СОЦ. РЕСПУБЛИКА
Чрезвычайная Комиссия.
Начато 192 года
Кончено 192 года
ПРИЛОЖЕНИЕ:
Арх-ПС-17046

M.Sulkeviçə aid olan istintaq işi.

DTX-nin arxivində saxlanılan 17 iyun 1920-ci il tarixli arayışda onun "əksinqilabi fəaliyyətdə" ittiham əsasında güllələnib işinin arxivə verildiyi qeyd olunub[10].

**Bəzi tədqiqatlarda onun güllələnərkən bu sözləri dediyi qeyd olunmaqdadır: "Xoşbəxtəm ki, Müsəlman Ordusunun zabiti kimi ölürəm!"[11]**.

M.Sulkeviçin güllələnməsi ilə bağlı bir məlumat da Ş.Nəzirlinin "Güllələnmiş Azərbaycan generalları" kitabında Bakıda bolşeviklərin həbs etdiyi Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyi Diplomatik Departamentinin Ümumi şöbəsinin müdiri Vyaçeslav Stanislavoviç Rudzinski tərəfindən belə təqdim olunur: "Xudahafizləşərkən o, tam yəqinliklə bildirdi ki, onu güllələməyə aparırlar. Özümüzün sağ qalacağımıza heç bir ümidimiz olmasa da, ona təsəlli verirdik. Onu da qeyd etməliyəm ki, general özünü çox ləyaqətli və mərdanə aparırdı. Bir neçə gündən sonra qəzetlərdə "əksinqilabi fəaliyyətdə" ittiham olunanların güllələnməsi haqqında məlumatı oxuduq. Bu siyahıda general-leytenant Məmməd bəy Sulkeviçin familiyası da vardı"[12].

---

[9] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PS-17046 saylı M.Sulkeviçə aid istintaq işi, v. 9.

[10] Yenə orada, v. 8.

[11] Ş. Nəzirli. Güllələnmiş Azərbaycan generalları. B., 2006, s. 64.

[12] Yenə orada, s. 66.

# ƏLİAĞA ŞIXLİNSKİ

(1865 – 1943)

## HƏRBİ NAZİRİN MÜAVİNİ



Azərbaycanın görkəmli sərkərdəsi Əliağa Şıxlinski 1865-ci ilin aprelin 23-də Qazax qəzasının Qazaxlı kəndində anadan olub. Ə.Şıxlinski 1876-1883-cü illərdə Tiflis hərbi gimnaziyasında oxumuş və sonradan Peterburqdakı Mixaylov Artilleriya məktəbində hərbi təhsil almışdır.

1902-ci ilə qədərki hərbi fəaliyyətində o, "Müqəddəs Stanislav", "Müqəddəs Anna" ordenləri ilə təltif edilmişdir[1].

Ə.Şıxlinski 1904-cü ilin martında başlanan rus-yapon müharibəsində, Port-Arturun müdafiəsində böyük qəhrəmanlıqlar göstərmişdir.

Birinci Dünya müharibəsi başladıqdan sonra o, 1915-ci ilin sentyabrın 14-dən Ali Baş Komandanlığın qərargahında çalışmışdır.

1918-ci ilin mayın 28-də Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra Ə. Şıxlinski Hərbi nazir S.Mehmandarovun müavini təyin olunmuşdur.

Azərbaycanda hərbin inkişaf etdirilməsində və torpaqların müdafiə olunmasında Ə.Şıxlinskinin böyük xidmətləri olmuşdur.

[1] M. Əliyev. Əliağa Şıxlinski. "Odlar Yurdu" qəzeti, №23, dekabr 1988.

Azərbaycan Nazirlər Şurasının Sədri N.Yusifbəylinin 28 iyul 1919-cu il tarıxli 339 saylı əmrinə əsasən Azərbaycan ordusundakı xidmətlərinə görə Ə.Şıxlinskiyə Tam artilleriya generalı rütbəsi verilmişdir.

1920-ci ildə Azərbaycanı işğal edən Rusiya bolşevikləri həmin ilin mayında Ə.Şıxlinskini də həbs etdilər. Onların Ə.Şıxlinskiyə qarşı ittihamları belə idi: "1) 1917-1918-ci illərdə sovet hakimiyyətinə qarşı mübarizə aparmaq üçün hərbi hissələr yaratmaqda fəal iştirak etmişdir; 2) 1920-ci ildə qırmızı orduya qarşı cəbhə yaradılmasında ciddi-cəhd göstərmişdir; və s."[2]

Ə.Şıxlinski və S.Mehmandarov sonradan həbs şəraitində Moskvaya göndərilmişdilər.

Ə.Şıxlinskinin həbsdən azad olunmasında (S.Mehmandarovla birlikdə) N.Nərimanovun 1920-ci ilin avqustun 1-də Leninə yazdığı məktubun da rolu olmuşdur.

1920-ci ilin sentyabrın 3-də Ə.Şıxlinski həbsdən azad edilmişdir.

O, bir müddət Moskvada qalmış, burada Ali Topçuluq məktəbində, sonra isə Peterburq Topçuluq Akademiyasında dərs demişdir. Bir il Rusiyada yaşadıqdan sonra Azərbaycana qayıtmış və 1926-cı ildə Bakıda rus, ərəb və latın əlifbası ilə "Rusca-Türkcə qısa hərbi lüğət" də nəşr etdirmişdir[3].

Ə.Şıxlinski 1943-cü ildə Bakıda vəfat etmişdir.

---

[2] L. Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya mənganəsində. II c. B., 2000, s. 177.

[3] Ş.Nəzirli. Güllələnmiş Azərbaycan generalları. B., 2006, s. 329.

# HƏBİB BƏY SƏLİMOV

(1881-1920)

## AZƏRBAYCAN ORDUSUNUN BAŞ QƏRARGAH RƏİSİ



Həbib bəy Səlimov 1881-ci il fevralın 8-də İrəvanda doğulub. İlk təhsilini İrəvan Müəllimlər Seminariyasında alıb. O, 1900-cü ilin avqustunda 156-cı Yelizavetpol (Gəncə) süvari alayında xidmət edib. 1902-ci ildə Tbilisidə Hərbi Süvari məktəbini bitirəndən sonra Üçüncü Qafqaz Atıcı batalyonunda xidmətə başlayıb. H.Səlimov Peterburqda Baş Qərargahın Nikolayev Hərbi Akademiyasını bitirib.

H.Səlimova Azərbaycan Cümhuriyyətinin Hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 26 fevral 1919-cu il tarıxlı 30 nömrəli əmri ilə general-mayor rütbəsi verilib. O, 1920-ci ilin martında "Əsgəran müharibəsi" adı ilə məşhur olan cəbhənin qəhrəmanıdır.

1919-cu ilin iyul ayında briqada generalı H.Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda Azərbaycan milli hökumətini tanımaq istəməyən malakan və rus-erməni silahlı qüvvələri darmadağın edilmişdir. Muğan və Lənkəranı ana yurdu Azərbaycana qaytaran Həbib bəy buraya qısa müddətə vali təyin edilmişdir.

H.Səlimovun milli Azərbaycan Ordusunun formalaşdırılmasında da böyük tarixi xidmətləri vardır. Hələ 1918-ci ilin avqustunda Qafqaz İslam Ordusu komandanı Nuru paşanın əmri ilə Azərbaycan korpusu yenidən qurulmağa başlayanda hərbi təcrübəsinə və biliyinə görə o, bu korpusun qərargah rəisi təyin edilmişdir[4].

1920-ci ildə Azərbaycan Rusiynın XI ordusu tərəfindən işğal edildikdən sonra bolşeviklər general H.Səlimovu 1920-ci il dekabrın 30-da güllələdilər.


Приказъ
по
Военному Вѣдомству
Азербайджанской Республики
(По отдѣлу Главнаго Штаба)
№ 18.
«17» декабря 1918 года. Г. Гандже.

Нижепоименованные военные врачи, оберъ-офицеры, медицинские фельдшера и сестры милосердия, списокъ коихъ при семъ прилагается, принимаются на службу въ войска, лечебныя заведения и учреждения Азербайджанской Республики и зачисляются на денежное и другие виды довольствия, согласно отмѣткамъ, сдѣланнымъ противъ фамилии каждаго.

За Военнаго Министра,
Генералъ отъ Артиллерии Мехмандаровъ

Начальникъ Главнаго Штаба
Генеральнаго Штаба
Полковникъ

И. д. Дежурнаго Генерала
Главнаго Штаба
Полковникъ

**H.Səlimovun imzası olan sənəd.**
**17 dekabr 1918-ci il.**

[4] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005, s. 341.

# M.ŞEYXZAMANLI, N.ŞEYXZAMANLI

## ƏKSİNQİLABLA MÜBARİZƏ TƏŞKİLATININ RƏİSLƏRİ

Azərbaycan Cümhuriyyəti dövründə Əksinqilabla Mübarizə Təşkilatının ilk rəisi olan Məmmədbağır Şeyxzamanlı 1881-ci ildə Gəncədə anadan olub. O, Gəncənin Şeyxzamanlılar nəslindəndir. M.Şeyxzamanlı Difai Partiyasının Gəncə şöbəsinin yaranmasında fəal iştirak etmişdir. O, Gəncə Şəhər Dumasının üzvü seçilmiş və Müsavat Partiyasının sıralarına daxil olmuşdur.

M.Şeyxzamanlı 1919-cu ilin iyununda yaradılmış Dövlət Müdafiə Komitəsi Sədrinin (sədr N.Yusifbəyli idi – red.) əmri ilə Əksinqilabla Mübarizə Təşkilatının rəisi təyin olunmuş, dövlətin təhlükəsizlik xidmətinin formalaşmasında, xarici və daxili düşmənlərdən qorunmasında önəmli xidmət göstərmişdir.

1919-cu ilin avqustun 20-də o, öz xahişi ilə vəzifəsindən azad edilmiş və bu vəzifəyə onun kiçik qardaşı Nağı bəy Şeyxzamanlı təyin olunmuşdur. O, bu vəzifəni 1919-cu ilin avqustun 20-dən 1920-ci ilin martın 6-na qədər icra etmişdir.

N.Şeyxzamanlı 1883-cü ildə Gəncədə anadan olub. İlk təhsilini Gəncə gimnaziyasında alıb. O, Difai Partiyasının Gəncə Şöbəsinin Gənclik Təşkilatının, Müsavat Partiyasının üzvü idi.

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra N.Şeyxzamanlı Gəncəyə, daha sonra Tiflisə, oradan isə İstanbula getmişdir.

Türkiyədə yaşadığı illərdə N.Şeyxzamanlı "Keykuran" soyadını götürmüş və müxtəlif qəzetlərdə, jurnallarda yazılar çap etdirmişdir.

N.Şeyxzamanlı 1967-ci ildə İstanbulda vəfat etmişdir.



**Məmmədbağır Şeyxzamanlı**
**(1881-1920)**



**Nağı Şeyxzamanlı**
**(1883-1967)**

1920-ci ilin aprelin 27-də Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra M.Şeyxzamanlı ilk günlərdə həbs olunub, XI Ordunun Xüsusi şöbəsi tərəfindən güllələnmişdir[1].

[1] Nağı Şeyxzamanlının xatirələri. B., 1997, s. 262-263.

# NURU PAŞA KİLLİGİL

(1889-1949)

## QAFQAZ İSLAM ORDUSUNUN KOMANDANI



Bakının xilaskarı kimi tarixə daxil olmuş Nuru Paşa Killigil 1889-cu ildə Türkiyənin İstanbul şəhərində anadan olub. Tanınmış hərbçi Ənvər Paşanın qardaşıdır. Hərbi məktəbdə təhsil alıb, buradan məzun olub. 1909-cu ildə 3-cü Orduda, 1910-cu ildə Sultan xidmətindəki piyada bölüyündə, 1912-ci ildə 1-ci Korpus Komandanlığında, 1914-cü ildə isə Vyana hərbi attaşeliyində çalışıb. 1915-ci ilin fevralından 1918-ci ilin əvvəllərinə qədər Afrika Grupları Baş Komandanı vəzifəsini icra edib. 1918-ci ilin yanvarın 3-də Qafqaz İslam Ordusu komandiri təyin edilərək general rütbəsi ilə həmin ilin mayında Gəncəyə gəlib.

Azərbaycanın görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə Nuru Paşanın Gəncəyə gəlişini belə qeyd edirdi: "Cənubi Qafqaz nümayəndələri ilə türk nümayəndələri Batumda müzakirələr apararkən Nuru Paşa ilə bərabər tabeliyində olan bir çox zabitlər – İran və Qarabağ istiqamətindən Gəncəyə daxil oldular. O zaman müdhiş bir anarxiyaya məruz qalan, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qəbul etmişdi. Xalqın ona göstərdiyi istiqlal Gəncə tarixində görünməmişdi".



Nuru Paşa zabitlər arasında.

Nuru Paşa Gəncəyə gəldikdən sonra burada və ətraf bölgələrdə olan müqavimət dəstələrini təşkilatlandırmağa başladı.

Nuru Paşa ordu hissələrini qüvvətləndirmək üçün Gəncədə hərbi məktəb və qısa müddətli hərbi kurslar da təşkil etdi. Eyni zamanda, yaranmış Azərbaycan korpusuna bir neçə azəri türklərindən ibarət nizami alay, Dağıstan süvari alayı və bunlardan başqa, Azərbaycanın hər tərəfindən gələn arası kəsilməyən könüllülər də daxil olurdu.

Bakıya qəti hücum protokolu hazırlanırdı. Bununla əlaqədar Qafqaz İslam Ordusunun komandiri Nuru Paşanın 9-10 sentyabrda verdiyi əmrdə bildirilirdi: "1. Bakıya qəti hücum üçün hazırlıq aparılacaq və bu hazırlıq haqqında 11.09.1918-ci ildə, axşam saat 21-ə qədər mənə bildirəcəkdir. 2. İndiyə qədər Şərq cəbhəsi komandanlığı əmrində olan 5-ci və 15-ci diviziyalarla cənub qrupu halında mənə tabe olacaqdır...".

Həmin əmrdə digər qüvvələrin fəaliyyət istiqamətləri ilə yanaşı belə göstəriş də vardı: "5-ci diviziyanın Hacı Həsən-Ermənikənd istiqamətində, 15-ci diviziyanın böyük bir hissəsi ilə Biləcəri-Ermənikənd istiqamətində, digər süvari və milislər Balaxanı-Sabunçu cəbhəsində Hövsandan Əhmədli və Keşlə üzərinə hücum edəcəklər. Azərbaycan qüvvələrinə aid zirehli qatar isə Heybət stansiyası yaxınlığında Volçi-Vorotadakı düşməni məşğul edəcək".

Sentyabrın 13-də axşam Qafqaz İslam Ordusu komandirinin "Sarıxaçlı kilsə istiqamətində irəli" – deyə orduya müraciət əmri verildi. Bu əmr Bakıya qəti hücumun sentyabrın 14-də başlayacağını bildirirdi. 14 sentyabr səhər tezdən, hələ günəş çıxmamış xilaskar ordu Şubanı dağlarından enərək Yasamal yamaclarına çıxdı və əl bombaları ilə düşməni məhv edərək şəhərin girişində dayandı. Otuz altı saatlıq qanlı vuruşdan sonra bəyaz bayraqlı avtomobildə İran konsulu ilə bərabər döyüş yerinə gələn düşmənin Qərb cəbhəsi üzrə erməni komandiri şəhəri təslim etməyə hazır olduqlarını bildirdilər.

Bakı uğrunda döyüşlərdə 15-ci diviziyanın və 5-ci Qafqaz diviziyasının 800-1000-ə qədər itkisi oldu. Döyüşlərdə şəhid olanların sayı isə 1100-1200 olaraq göstərilir. Rüşdü bəy öz xatirələrində yazırdı: "Beşinci Qafqaz Firqəsinin dörd ay yarımdan bəri Azərbaycanın istiqlalı uğrunda çarpışaraq verdiyi şəhid və mərhumların qanları ilə sulanan bu qardaş məmləkət torpaqları üzərində, Gəncədə, Göyçay, Ağsu-Şamaxı-Bakı şossesi yolu kənarında, Müsüslü-Kürdəmir-Kərar-Hacıqabul-Bakı dəmir yolu boyunda, Qarabağda və Kür çayı sahillərində xalqın ziyarətgahına çevrilən bir çox məzarlara təsadüf olunur ki, iştə bunlar millətinin köməyinə gəlmiş Anadolu Məhmətciyinin mübarək məzarlarıdır. Əksər yerlərdə məhmətciklə bərabər yatan azəri türkləri vardır".

1918-ci ilin sentyabrın 15-də Bakı düşmənlərdən azad olundu.

Bakının azad edilməsi Azərbaycan xalqında böyük ruh yüksəkliyi yaratdı.[1].

Xilaskar türk əsgərlərinin Bakıya gəlişi hamını sevindirirdi. Türklərin gəlişinə şeirlər yazılır, mahnılar qoşulurdu. Tanınmış şair Abdulla Şaiqin yazdığı intizar və məhəbbət dolu misralar türklərin gəlişini gözləyən minlərlə azərbaycanlının ürəyindən idi:

*"Neçin böylə gecikdin!*
*Sənsiz qəlbim qırıq, sönük,*
*Çeynənmiş, xırdalanmış.*
*Ömür şüşəm daşa dəymiş,*
*Həyatım parçalanmış...*
*...Başqasını istəməm də, ey türk,*
*Tez gəl, sən gəl, sən!"*

Bakının azad edilməsi münasibəti ilə noyabr ayının 10-da Yay klubunun zalında Nuru Paşanın şərəfinə böyük bir ziyafət verildi. Tanınmış bəstəkar və jurnalist Üzeyir Hacıbəyli bu münasibətlə yazırdı: "Nuru Paşa həzrətlərinin salona vürudu əsnasında musiqi orkestri tərənnümə



**Cümhuriyyət dövründə Bakını azad etmiş türk şəhidlərinə qoyulacaq abidə. Sovet işğalı bu abidənin açılışına imkan vermədi.**

[1] N. Yaqublu. Qafqaz İslam Ordusu və Nuru Paşanın Azərbaycanda izləri. B., 2017, s.11.

başlayaraq məclis əhli ehtiramla Paşa həzrətlərini səmimiyyətlə salamladılar, hər kəs badə əlində stol başında özünəməxsus olan yerini tutdu və ziyafət başlandı. Yemək əsnasında baş nazirimiz Fətəli xan Xoyski həzrətləri birinci olaraq bəlağətli bir nitq söyləyərək, Azərbaycan türklərinin əsarət bəndindən xilası səadətinə nail olması yolunda tökülən Osmanlı türk qanına işarə ilə "Bu qan və bu qan tökülən mübarək yerlər heç bir vaxt unudulmaz və xatirdən çıxmaz" buyurdu. Azərbaycan türklərinin təşəkkürlərini Paşa həzrətlərinə bildirib qədəh qaldırdı. O halda bütün həzərat ayağa duraraq müzəffər və şanlı komandanımız Paşa həzrətlərinin şərəfinə şərbətnuş olub sürətli alqışlarla izhari məsərrət və şadyanalıq etdilər...".

Ü. Hacıbəyli ziyafət məclisində Azərbaycan Milli Şurasının Sədri Məhəmməd Əmin Rəsulzadənin də çıxışının alqışlarla qarşılandığını qeyd edirdi: "Rəsulzadə nitqinə davam edərək: "Siyasi üfüqdə qara buludlar görünən kimidir, lakin bu qara buludlara qarşı Nurularımızın zülmətqovan nuru vardır", – dedikdə bütün məclis əhli ayağa qalxıb Paşa həzrətlərini xüsusi bir təzimlə alqışlamağa başladılar".

Məclisdə çıxış edən Ə.Ağaoğlu isə bu sözləri söyləmişdi: "Mən Bakını İstanbulda və İstanbulu Bakıda görüb özümü o qədər bəxtiyar görürəm ki, daha ölsəm o qədər də qəmim yoxdur, dünyadan kam almış kimiyəm".

Ü. Hacıbəyli yazırdı: "Bu qədər nitq və alqışlara cavab olaraq Nuru Paşa həzrətləri gözəl İstanbul şivəsi ilə ruhumuza ləzzət verən və məzmunca qəlbimizi bir çox əndişələrdən təmiz etməklə bəlağətli və səlis nitqi ilə məclis əhlini şərəfyab və minnətdar etdi"[2].

Ziyafət məclisində tanınmış tədqiqatçı Salman Mümtaz Nuru Paşaya ithaf etdiyi "Öyün, millət" şeirini oxudu.

Tanınmış aktyor Abbas Mirzə Şərifzadə isə Osmanlı generallarına məxsus geyimdə zala daxil olub, Ənvər Paşanın qiyafəsində monoloq söylədi: "Ey qəhrəman türklərin igid balaları! Siz şanlı türk övladları olduğunuzu Bakının qurtuluşuna varmaqla sübut etdiniz...".

Ziyafətdə Nazirlər Şurasının Sədri Fətəli xan Xoyski "Ədirnənin fəthi" əsərinin müəllifi, gənc dramaturq Cəfər Cabbarlını Nuru Paşaya təqdim etmişdi.

Qeyd edək ki, böyük dramaturq Cəfər Cabbarlı 1919-cu ildə Bakının qurtuluşunun bir illik yubileyi münasibəti ilə "Bakı müharibəsi" pyesini yazmış və bu əsər həmin ilin sentyabrın 16-da Abbas Mirzə Şərifzadənin rəhbərliyi və iştirakı ilə tamaşaya qoyulmuşdu.

[2] N. Yaqublu. Qafqaz İslam Ordusu və Nuru Paşanın Azərbaycanda izləri. B., 2017, s. 12.

1919-cu ildə Bakının qurtuluşu münasibəti ilə tanınmış jurnalist Mirzə Bala Məmmədzadə də "Bakı uğrunda müharibə" pyesini yazıb nümayiş etdirmişdi.

1919-cu ildə isə Bakıda "Çəmbərəkənd" qəbirstanlığında türk şəhidlərinə abidə qoyulması ilə bağlı təməl daşının atılması mərasimi keçirilmiş və abidənin maketi də hazırlanmışdı.




**Nuru Paşanın İstanbulda məzarı.**

1920-ci ilin 27 aprelində Azərbaycanın bolşeviklər tərəfindən süqutundan sonra həmin abidənin də qoyulması mümkün olmadı.

1918-ci ilin noyabrın 17-də Müttəfiq Dövlətlər Birliyinin hərbi hissələrinin Bakıya daxil olması ilə əlaqədar Qafqaz İslam Ordusu Azərbaycandan geri çağırıldı[3].

Nuru Paşa 1919-cu ildə İngiltərə hökuməti tərəfindən həbs edildi. Sonradan onun Batumdakı hərbi cəza evindən Azərbaycana qaçışı təşkil olundu. Nuru Paşa Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra Qarabağda (əsasən Şuşada) sovet hökumətinə qarşı üsyana da başçılıq edənlərdən oldu.

O, sonradan Türkiyəyə getdi və Qurtuluş savaşında tabeliyindəki qüvvələrlə Şərq Cəbhəsinə könüllü olaraq qatıldı, ermənilərə qarşı aparılan mücadilədə 12-ci Tümənin sağ qanadını təşkil edərək, Sarıkamışın geri alınmasında mühüm rol oynadı. Daha sonra Şərq Cəbhəsi emalatxanalarında vəzifə aldı. 1923-cü ilin 4 oktyabrında təqaüdə çıxdı.

1949-cu ilin martın 2-də saat 16.30-da İstanbulda Nuru Paşaya məxsus olan silah fabrikinin partlayışı zamanı 27 nəfərlə birlikdə o, da həlak oldu.

[3] N. Yaqublu. Qafqaz İslam Ordusu və Nuru Paşanın Azərbaycanda izləri. B., 2017, s.14.

# ŞƏFİ BƏY RÜSTƏMBƏYLİ

(1893 –1953)



Şəfi bəy Rüstəmbəyli (Rüstəmbəyov) 1893-cü ildə Ağdaş qəzasının Məmmədli kəndində anadan olub. Gəncədə klassik gimnaziyada təhsil aldıqdan sonra 1911-1916-cı illərdə Kiyev Universitetinin hüquq fakültəsində oxuyub.

Ş.Rüstəmbəyli 1918-ci ildə formalaşan Zaqafqaziya Seyminə üzv seçilib, Azərbaycan İstiqlal Bəyannaməsini imzalayıb.

O, Azərbaycan Cümhuriyyəti dövründə parlamentin üzvü, Daxili İşlər nazirinin müavini (1920-ci ilin martından), "Azərbaycan" qəzetinin (rus dilində) redaktoru, Qaçqınlara Yardım Heyətinin rəisi vəzifələrində çalışıb.

1920-ci ildə Azərbaycanı bolşeviklər işğal etdikdən sonra o, Gürcüstana, 1921-ci ildə Gürcüstan işğal edildikdən sonra isə Trabzona, həmin ilin avqust ayında İstanbula gedib. O, burada siyasi fəaliyyətini davam etdirib

Ş.Rüstəmbəyli 1953-cü ildə dünyadan köçüb. Məzarı İstanbuldakı Fəriköy qəbiristanlığındadır.

# DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ. "AZƏRBAYCAN" QƏZETİNİN (RUS DİLİNDƏ) REDAKTORU



**Ş.Rüstəmbəyli (sağda).**

Şəfi bəy Rüstəmbəyli **(Rüstəmbəyov)** 1893-cü ildə Ağdaş qəzasının Məmmədli kəndində anadan olmuşdur (qeyd edək ki, vaxtilə Ağdaş, Göygöl, Qəbələ rayonlarının ərazisi Ərəş mahalında birləşmişdi). Orta təhsilini Gəncədə klassik gimnaziyada aldıqdan sonra 1911-ci ildə Kiyev Universitetinin hüquq fakültəsində oxumuşdur. Burada o, Azərbaycan Həmyerliləri Cəmiyyətinin başçılarından və fəal üzvlərindən biri olmuşdur. Həmin dövrdə Kiyev Universitetinin tibb fakültəsinin tələbəsi Mir Əbülfət xan Talışlı Cəmiyyətin sədri, Xəliyulla Yenikeyev müavini, Ş.Rüstəmbəyli isə cəmiyyətin xəzinədarı seçilmişdi[1].

O, Ümumrusiya Müsəlman Gəncləri Qurultayının keçirilməsi üçün "Qaydalar toplusu"nun (nizamnaməsinin) hazırlanmasında da fəallıq göstərmişdir.

Müsəlman gənclərinin qurultayını keçirmək ideyası 1912-ci ildə Stolıpinin ölümündən sonra yaranmışdı və bu fikrə əsas dəstək verən Rusiya Dövlət Dumasında Müsəlman Fraksiyasının katibi İbniamin Əhtyamov idi. O, bu məqsədi ilə müsəlman ziyalılarını birləşdirmək istəyirdi. O, bununla əlaqədar Kiyevə gəlib Rusiya Müsəlman Gəncləri Qurultayının təşkili ilə bağlı tədbirlər görməyə başladı. 1913-cü ilin aprelin 16-17-də qurultayın keçirilməsi planlaşdırılsa da, baş tutmadı. Polislər tədbirin keçirilməsinə imkan vermədi və Ş.Rüstəmbəyli də daxil olmaqla komissiya üzvləri həbs olundu və bir aydan sonra azadlığa buraxıldılar.

Ş.Rüstəmbəyli universitetdə təhsil aldığı müddətdə Y.V.Çəmənzəminli tərəfindən yaradılan Müsəlman Demokratik Partiyası – Müsavatın Kiyev şöbəsi ilə əməkdaşlıq edirdi.

Ş.Rüstəmbəyli Kiyevdə təhsilini başa vurduqdan sonra 1916-cı ildə Gəncəyə qayıdıb iki ilə qədər hüquqşünas olaraq fəaliyyət göstərdi. 1917-ci ilin aprelin

[1] İ.Əliyeva. Məsləkinə sadiq böyük mücahid. "Azərbaycan" qəzeti, 22 iyul, 2015.

15-20-də Bakıda keçirilən Qafqaz Müsəlmanları Qurultayında, həmin ilin mayında Moskvada keçirilən Rusiya Müsəlmanları Qurultayında yaxından iştirak etdi.

O, 1917-ci ildə rəsmi olaraq Müsavat Partiyasının üzvü oldu. 1917-ci ilin iyununda Bakıda Müsəlman Demokratik Partiyası – Müsavatla Türk Ədəmi-Mərkəziyyət Partiyası birləşdi. Hər iki birləşmiş partiyanın 8 nəfərdən ibarət Mərkəzi Komitəsi yaradıldı. Həmin komitəyə Ş.Rüstəmbəyli də daxil oldu[2].

Ş.Rüstəmbəyli 1918-ci ilin fevralında formalaşan Zaqafqaziya Seymindəki müsəlman fraksiyasının üzvlərindən də biri idi[3].

**1918-ci ilin martında Zaqafqaziya Seymi ilə Osmanlı Türkiyəsi arasında Trabzon danışıqları başladı. Burada səslənən tələblərdən biri Zaqafqaziyanın bolşevik Rusiyasından asılılığına son qoyulması və müstəqilliyinin elan edilməsi idi.** Bu danışıqlarda Türkiyə nümayəndələri Seym üzvlərindən müstəqil dövlətin yaranması haqqında bəyannamələr təqdim etməyi xahiş edirdilər.

Qeyd edək ki, Zaqafqaziya Seymindəki gürcü və erməni nümayəndələri Sovet Rusiyası ilə bağlanan Brest-Litovsk müqaviləsinə əsasən Qars, Ərdəhan və Batumun Türkiyəyə verilməsini qanunsuz sayırdı.

Zaqafqaziya hökuməti adından Türkiyəyə müharibə elan edilməsinə münasibətdə seymdəki Müsəlman fraksiyası  arasında fikir müxtəlifliyi vardı. Müsavat Partiyası, Partiyasızlar qrupu və İttihad nümayəndələri Türkiyənin tələbləri mövqeyində dayanırdı. Müharibə əleyhinə olan qətnaməni seymdə oxumaq isə Ş.Rüstəmbəyliyə həvalə edilmişdi[4].

**1918-ci ilin aprelin 22-də Zaqafqaziya Seymi tərəfindən Zaqafqaziya Demokratik Federativ Respublikası yaransa da, həm milli zəmində, həm də daxili və xarici siyasi maraqlar çərçivəsində olan ziddiyyətlər onun parçalanmasına gətirib çıxardı.**

**Zaqafqaziya Seymi dağıldıqdan sonra mayın 27-də Azərbaycan istiqlaliyyətini elan etmək məqsədi ilə Seymin bütün müsəlman nümayəndələrinin toplantısı keçirildi. Azərbaycan Milli Şurası yaradıldıqdan sonra, mayın 28-də isə Azərbaycan istiqlalı elan edildi** .

**Azərbaycan İstiqlal Bəyannaməsini imzalayanlar sırasında Ş.Rüstəmbəyli də vardı.**

---

[2] А.Балаев. Мамед Эмин Расулзаде. – М., 2009, с. 70-72.

[3] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan milli şurası iclaslarının protokolları 1918-ci il. Протоколы заседаний мусульманских фракций закавказского Сейма и Азербайджанского национального совета 1918 г. B., 2006, s. 2.

[4] Yenə orada, s. 3.

Azərbaycan İstiqlal Bəyannaməsi 6 maddədən ibarət idi və orada dövlətin idarə formasının Xalq Cümhuriyyəti olaraq mövcudluğu qeyd olunurdu.

O, Azərbaycan Cümhuriyyəti dövründə parlamentin üzvü, Daxili İşlər Nazirliyində Dəftərxana müdiri, Daxili İşlər nazirinin müavini (1920-ci ilin martından), "Azərbaycan" qəzetinin (rus dilində) redaktoru, Qaçqınlara Yardım Heyətinin rəisi vəzifələrində çalışmışdır.

**Ş.Rüstəmbəylinin fəaliyyətinin əsas bir dövrü onun "Azərbaycan" qəzetinin redaktoru vəzifəsində çalışması ilə bağlıdır.**

**Qeyd edək ki, 1918-ci ilin əvvəllərində Gəncədə "Azərbaycan" adlı hökumət qəzetinin nəşri haqqında qərar qəbul edildi. Qəzetin "Azərbaycan" adını daşımaqda məqsədi yeni yaranmış cümhuriyyətin Azərbaycan və rus dillərində nəşr ediləcək qəzet vasitəsi ilə təbliğatının aparılması idi[5]. Qəzetin Gəncədə çıxan 4 sayı rus və Azərbaycan dillərində "heyəti-təhriyə" ("redaksiya heyəti") imzası ilə yayımlanmışdır.**

Bakıda qəzetin Azərbaycan dilində ilk (ümumi sayca beşinci) sayı 1918-ci ilin oktyabrın 3-də, rus dilində isə oktyabrın 7-də çap olundu. Altıncı saydan Azərbaycan, beşinci saydan rus dilində qəzet: "Mühərrirləri: Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli" imzaları ilə çıxdı. 1918-ci ilin noyabrın 28-dən Azərbaycan dilində olan qəzet C.Hacıbəylinin, rus dilində olan qəzet isə Ş.Rüstəmbəylinin redaktorluğu ilə nəşr olundu. Bu qəzetlər bir-birinin təkrarı olmayıb, müxtəlif yazılar çap edirdi[6].

"Azərbaycan" – ictimai-siyasi, ədəbi-bədii qəzet idi. O, yarandığı gündən vətənpərvərliyin, mədəniyyətin təbliğat kürsüsünə çevrildi. İstər Gəncədə, istərsə də Bakıda nəşr edildiyi dövrlərdə "Azərbaycan" dövrün görkəmli şəxsiyyətlərini, ictimai və siyasi xadimlərini ətrafına toplamağı bacarırdı. Qəzet müxtəlif yazılarla xalqın milli şüurunu inkişaf etdirməyə, oxucuları Azərbaycan dövlətini sevməyə və onu qorumağa çağırırdı. Qəzet səhifələrində yerli xəbərlərlə yanaşı, beynəlxalq aləmdəki yeniliklər də məzmunlu şəkildə işıqlandırılırdı.

Azərbaycan Hökumətinin fəaliyyəti qəzetin səhifələrində geniş müzakirə olunmaqla yanaşı, həmin işlərin görülmə səbəbi, xalqa faydası da oxuculara izah edilirdi. Qəzetdə bədii əsərlərdən, poema və şeirlərdən parçalar dərc olunur və bu da oxucuların zövqünün inkişafına müsbət təsir göstərirdi. Əsas məqsəd

[5] A.Paşayev A. Açılmamış səhifələrin izi ilə. B., 2001, s. 102.
[6] Yenə orada, s. 105.

xalqa öz milli kimliyini xatırlatmaq, Azərbaycanın zəngin mədəniyyətinə maraq yaratmaqdan ibarət idi

**“Azərbaycan” qəzetində** parlamentdəki iclaslar, qəbul olunan qərarlar daima işıqlandırılırdı. Qəzetdə vacib sənədlərin mətni və fərmanlar da dərc olunurdu ki, bu da xalqı hökumətin fəaliyyəti, qəbul etdiyi qanunlardan xəbərdar edirdi.


Изданія годъ первый
Цѣна номера 1 руб.
АЗЕРБАЙДЖАНЪ
Выходитъ два раза въ недѣлю.
№ 4 Среда 25 Сентября 1918 года. № 4
ОБЪЯВЛЕНIЕ.
ОБЪЯВЛЕНIЕ.
Приказы.

Ş.Rüstəmbəylinin redaktorluğu ilə rus dilində nəşr edilən “Azərbaycan” qəzeti. 1918-1920-ci illər.

Qəzetin rus dilindəki sayında Azərbaycanın siyasi, ictimai, mədəni həyatındakı önəmli şəxsiyyətlər çıxış edirdi: M.Ə.Rəsulzadə, C.Dağıstani (C.Hacıbəyli) S.M.Axundov və b. Yazıları tez-tez dərc olunanlar arasında rus jurnalistləri də vardı: M.Spiridinov, S.M. Mixaylov, Əsəd. M. Aplinski. Onlar öz məqalələri ilə oxucularla fikirlərini bölüşürdü. Müəlliflərin əksəriyyətinin təxəllüsü vardı, yaxud da ad və soyadlarının baş hərflərindən istifadə edirdilər.

Qəzet rəsmi xarakter daşısa da, dərc olunan materialların əhatə dairəsi geniş idi. İnsan fəaliyyətinə aid bütün mövzular burada işıqlandırılır, maraqlı şəkildə auditoriya ilə paylaşılırdı. Uzun illər yad mədəniyyətin və başqa millətin təsiri altında yaşayan ölkənin, nəhayət, öz xalqının səsini duymaq, onu maraqlandıran sualların cavabını vermək imkanını əldə etməsi böyük önəm daşıyırdı.

**Ş.Rüstəmbəyli mətbuatı maarifləndirmənin yeganə vasitəsi olaraq qəbul edirdi. Onun fikrincə, qələm əhli savad, elm və mədəniyyətə olan bağlılığının köməyi ilə kütləni arxasınca apara bilər.**

Ş.Rüstəmbəyli məqalələrini öz adının baş hərfləri ilə, bəzən də “Azərbaycan” təxəllüsü ilə imzalayırdı.

Onun qələmə aldığı məqalələrin mövzusu çox şaxəli idi. Müəllif tarix elmini mükəmməl bildiyindən tez-tez bu sahəyə də diqqət ayırır, baş verən hadisələri, hər hansı konkret tarixi faktı geniş şəkildə təhlil edirdi. O, böyük bacarıqla ha-

disələrin inkişafının ardıcıllığını, qanunauyğunluğunu düzgün qiymətləndirir, bəzən heç kimin görmədiyi məqamları da açıqlaya bilirdi.

Ş.Rüstəmbəyli fikirlərini bütün yazılarında böyük məharətlə oxuculara çatdırır, sualları özünə ünvanlanmış kimi göstərir, sonra isə geniş şəkildə onları cavablandırmağa çalışırdı. Mövzular nə qədər mürəkkəb olsa da, onun yazı dili çox sadə və anlamlı idi. Heç vaxt mətnin struktur quruluşuna toxunmur, fikirlərini qarışdırmadan, ardıcıllıqla izah etməyə çalışırdı. Buna görə də onun yazı üslubu maraqlı və rəngarəng olurdu. İstedadlı jurnalist ən dərin mövzunu ən asan dillə oxucuya çatdırmağı bacarırdı. Hərtərəfli biliyə sahib olan bu şəxsiyyət siyasi savadına güvənərək beynəlxalq aləmdə baş verən hadisələri təhlil edir, sanballı məqalələr yazırdı. Parlamentdə isə ən mübahisəli məsələlərin həllində yüksək natiqlik bacarığından faydalanaraq digərlərinə təsir edir, müəyyən də nəticəyə nail olurdu.

Ş.Rüstəmbəylinin redaktorluğu dövründə qəzetin ilk aylardakı fəaliyyətindən Azərbaycanda gedən ictimai-siyasi prosesləri aydın görmək və ciddi təhlillər aparmaq mümkündür. Bu yazılar Azərbaycan Cümhuriyyəti yaradıcılarının böyük çətinliklərlə müstəqil dövlətimizi qurduğunu sübut etməkdədir. Həmin yazıların ümumi xronologiyasından bəzi məqamlar:

1) Qəzetin 11 noyabr 1918-ci il, 32-ci sayında "Azərbaycan Milli Şurasının Rəyasət heyətindən" adlı "Bildiriş" yayımlanmışdır. "Bildiriş"də deyilir: "Azərbaycan Respublikası hökumətinin qərarına, Hökumət başçısı Fətəli xan Xoyskinin məktubuna uyğun olaraq, Azərbaycan Respublikasının bütün yurddaşlarına noyabrın 16-da Azərbaycan Milli Şurasının çağırıldığını bildirib, Şuranın bütün üzvlərindən deyilən gündə Bakıya gəlmələrini, nədənsə ayrıca çağırış almamış yurddaş bəylərin bu bildirişlə kifayətlənmələrini istəyirəm. Azərbaycan Milli Şurasının başçısı, Məhəmməd Əmin Rəsulzadə"[7].

2) Qəzetin 12 noyabr 1918-ci il, 33-cü sayında birinci səhifənin başında Azərbaycan Milli Şurasının çağırılması ilə bağlı M.Ə.Rəsulzadənin adından yuxarıdakı "Bildiriş", altında "Bakı, 12 noyabr" yazısı verilmişdir: "Hökumət Azərbaycan Milli Şurasını Zaqafqaziya Seyminin Müsəlman Fraksiyasının sayına uyğun çağırmaq qərarını vermişdir"[8].

3) Qəzetin 17 noyabr 1918-ci il, 37-ci sayında, birinci səhifənin yuxarısında Baş Nazir F.X.Xoyski ilə, Daxili İşlər naziri Behbud xan Cavanşirin adından "Bakıda yaşayanlara""Bildiriş"i verilmişdir. "Bildiriş"də yazılmışdır: "Azərbaycan hökumətinin Birlik

[7] Газета "Азербайджан", 11 ноября 1918 г., №32.
[8] Yenə orada, 12 ноября, №33.

Dövlətlərinin Ənzəlidəki qoşunlarının başçısı general Tomsonla danışıqlarında əldə edilən razılaşma əsasında noyabrın 17-də səhər Azərbaycanın paytaxtına general Tomsonun başçılığında Birlik Ordusunun dəstəsi daxil olacaqdır”[9].



Ş.Rüstəmbəyli “Azərbaycan” qəzetinin əməkdaşları ilə (soldan birinci).

4) Qəzetin 18 noyabr 1918-ci il, 38-ci sayında “İngilis-Fransız-Amerikan Ordusunun Bakıya daxil olması” başlıqlı yazı çap olunmuşdur. Yazının “Gəmilərin gəlməsi” alt başlığında qeyd olunub: “Bazar günü, noyabrın 17-də, gündüz saat 1-də Birlik Dövlətlərinin Ordusu general Tomsonun başçılığında Bakıya gəldi”[10].

5) Qəzetin 21 noyabr 1918-ci il 41-ci sayında “Rəsmi bölmə” adı altında general V.M.Tomsonun “Danışıqsız əmr”i yayımlanıb: “1. 17 noyabr 1918-ci il, saat 12-dən Bakı şəhəri Hərbi vəziyyətə keçirilir. Onu mən, aşağıda qol çəkmiş general-mayor V.M.Tomsonla Birlik Dövlətlərinin adından təyin etdiyim şəxslər idarə edəcəklər.2. Hərbi vəziyyətdə mən, aşağıda imza edən Bakı şəhərinin hərbi qubernatoru olacağam! 3. Polkovnik F.P.Kokkorel Birlik Dövlətilərinin Bakıdakı polis komisarı təyin edilir. 4. Bakı Bələdiyyəsi, eləcə də başqa toplumsal təşkilatlar əvvəlkitək işləyirlər. 5. Hərbi vəziyyətin qaydaları tezliklə bildiriləcək, lazım olduqca yenilənəçəkdir. Göstərilən qaydalardan hansı biriyləsə günahlandırılanlar təyin etdiyim şəxslər tərəfindən kəskin cəzalandırılacaqdır.

Birlik Dövlətlərinin Bakıdakı Ordusunun komandanı, general-mayor V.M.Tomson. Bakı şəhəri, 17 noyabr 1918-ci il”[11].

6) Qəzetin 2 dekabr 1918-ci il, 51-ci sayında “Azərbaycan Parlamentinin çağırılması ilə bağlı” məlumatı yayımlanmışdır. “Azərbaycan Parlamentinin açılışının sonraya keçirilməsi” alt başlıqlı yazıda bu məlumatlar vardır: “Azərbaycan Parlamentinin açılışı, bölgədəki nümayəndələrin bütünlüklə gəlməməsi, eləcə

[9] Газета “Азербайджан”, 1918 г., 17 ноября, № 37.
[10] Yenə orada, 18 ноября, № 38.
[11] Yenə orada.

də qarşıdan gələn Məhəmmədi (mövlud) bayramı ilə bağlı dekabrın 7-nə keçirilmişdir. Bölgələrin çoxunda seçkilər keçirilmişdir. Məlumatlara görə polyaklar, yəhudilər, gürcülər, almanlar parlamentə qatılacaqlar.

Bakıdakı Daşnaksütun Partiyasının siyasətinə uymayan Yelizavetpol (Gəncə) erməniləri də parlamentə qatılmaq istəyir.

Məlumatlara görə Rus Milli Komitəsinin bildirişinin əksinə olaraq, Azərbaycanda yaşayan rusların yerli bir bölümü parlamentə qatılmaq istəyir"[12].

7) Qəzetin 7 dekabr 1918-ci il, 54-cü sayında bütün səhifələrin yuxarısında, böyük hərflərlə "Bu gün Azərbaycan Parlamenti açılır" məlumatı verilmişdir[13].

1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamenti fəaliyyətə başladı. Parlamentin yaradılması haqqında qanunda 120 Məclisi-Məbusanın olması nəzərdə tutulurdu. Parlament iclaslarının Azərbaycan dilində aparılması vacib sayılsa da, başqa millətlərin nümayəndələrinə rus dilində danışmağa icazə verilirdi.

Azərbaycan Parlamentində Ş.Rüstəmbəyli də Müsavat fraksiyasının üzvü olaraq təmsil olunurdu. O, parlamentdə iclaslarda çıxışlar edir, müzakirə edilən məsələlərlə bağlı fikirlərini söyləyirdi. Ş.Rüstəmbəylinin dedikləri çox vaxt əksəriyyətin mövqeyi ilə uyğun gəlməsə də, o, qətiyyətlə müdafiə olunmağı bacarırdı. Ş.Rüstəmbəyli parlament üzvü olaraq Azərbaycanda hüquqi dövlətin yaranmasında və formalaşmasında ciddi fəaliyyət göstərirdi. O, tez-tez parlamentdə qanun müzakirələrində iştirak edir, fikirlərini bildirir, düzəliş təklifləri irəli sürürdü.

Bu baxımdan onun Azərbaycan Parlamentində geniş çıxışına 1919-cu ilin sentyabrın 29-da 79-cu iclasda rast gəlirik. Həmin iclasda "Üsyan və hökumət əsaslarına sui-qəsd edənlərin məsuliyyəti" mövzusunda qanun layihəsi müzakirə edilirdi. Əsas məruzəçi isə Ş.Rüstəmbəyli idi. O, çıxışında dedi: "Rusiya qanunlarını ki yeni qəbul etmişik və bizdə davam edir, o qanunların bir neçə maddələrini zamana görə və bizə lazım olmadığından tədricən ləğv edirik. O cümlədən cəza qanunları vardır ki, bu qanunlar Rusiya hökumətində çar hökuməti dövründə yazılmış qanunlardır. O qanunlar bizə lazım olmur və lazım gəlir ki, ləğv olunsun. İndi bizim cümhuriyyətimiz köhnə qanunların bir qismini ləğv və bir qismini də düzəliş ilə qəbul edir. Cinayət qanunlarının 102, 110, 101, 103, 128 və 129-cu maddələri təhlil üçün qəbul olunur... Cümhuriyyətin əsasları əleyhində olan şəxslər üçün 102, 103 maddələr isə qəbul edilir..."[14].

---

[12] Газета "Азербайджан", 2 декабря 1918 г, №51.
[13] Yenə orada, 7 декабря, №54.
[14] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 179.

Sonra Ş.Rüstəmbəyli çar Rusiyası dövründən qalan digər qanunların da dəyişdirilməsi vacibliyindən danışdı. O, dedi: "Keçən Rusiya hökumətinə aid əski bir hissə qanunlar da var. Məsələn, millətin içində hürriyyətpərvərlər tərəfindən yaradılan gizli cəmiyyətlər Nikolay zamanında ləğv edilir və siyasiyyədən sayılaraq, bu cəmiyyətlərin adamları cəzalandırılırdı. Halbuki, hökumətimiz bunları kamilən ləğv edir"[15].

Parlament iclasında bəzi fraksiyalar bu müzakirəyə hazır olmadığından qanun layihəsi təxirə salındı.

Parlamentin həmin 79-cu iclasında Ş.Rüstəmbəyli "Əsgərlikdən azad olunanlardan alınan əsgəri vergilərin ləğvi haqqında" olan qanun layihəsi ilə bağlı məruzə də etdi. O, çıxışında dedi: "Rusiya hökuməti zamanında əsgərlikdən azad olan şəxslər üçün qərar qoyulmuşdu ki, müəyyən miqdar vergi verilsin. Bu qanun təcrübi cəhətdən yaxşı hazırlanmamışdı. Xərci zəhmətindən artıq idi. Bu qanun 1917-ci ildə Rusiyada ləğv edilmişdi. Amma o, vaxtında gəlib çatmadığından, xəzinə palatasında bu verginin alınması davam edirdi. Fəqət 1918-ci ildə verginin alınmasını kəsdilər. Bu vergidən 20 min manat mədaxil gözlənilirdi, ona görə bu zəhməti çox, mədaxili az olan qanunun ləğvi məqbul göründü"[16].

Ş.Rüstəmbəyli çıxışının sonunda bir fikri qəti olaraq bildirdi: "Hər halda Rusiya hökuməti tərəfindən tərtib edilmiş olan qanun bizim Azərbaycanda qəbul edilə bilməz. Təklif edirəm ki, bu qərar ləğv edilsin və bu barədə təklif etdiyim qanun qəbul olunsun"[17].

Ş.Rüstəmbəylinin təklif etdiyi qanunun 1-ci və 2-ci maddələri səsə qoyularaq qəbul olundu.

Azərbaycan Parlamentinin 1919-cu ilin 18 oktyabrında keçirilən 85-ci iclasında Ş.Rüstəmbəyli "Nəşr elanı" haqqındakı qanun layihəsini parlamentə təqdim etdi. O, dedi: "Bu vaxta qədər rəsmi idarələrin və dairələrin qərardadları və elanları, rəsmi qəzet olmadığından, elan edilib nəşr olunmayıbdır. Hərçənd ki, bizim "Azərbaycan" qəzetimiz var. Fəqət, o da bir növ qeyri-rəsmi hesab olunur. Zira camaatın əhvalını nəzərə alaraq, fəqət təzə xəbərlər yazmaqla məşğuldur. Bakıdan əlavə, qeyri şəhərlərdə, məsələn Gəncədə və qeyri yerlərdə belə qəzet heç yoxdur. Hərçənd Bakıda nəşr olunan "Azərbaycan" qəzetində bəzi elanlar nəşr edilir, fəqət onlar cüzidir"[18].

---

[15] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 76
[16] Yenə orada.
[17] Yenə orada.
[18] Yenə orada, s. 117.

Parlamentin həmin iclasında Ş.Rüstəmbəyli "Maliyyə Nəzarəti Şurası haqqında" olan qanun layihəsini də müzakirəyə təqdim etdi. O, qeyd etdi ki, Maliyyə Nəzarəti Şurası çoxdan mövcud olmasına baxmayarq, qanun yoxdur. Onun bu təqdimatından sonra qanun layihəsini Əhməd Cövdət türk və rus dillərində oxudu. Sonra parlamentdə müzakirələr başladı. Müzakirələrdə R.Ağabəyov, M.D.Hüseynov çıxış etdilər. Qanun layihəsi əksəriyyət səslə qəbul edildi.

Azərbaycan Parlamentində ən geniş müzakirə olunan məsələlərdən biri də "Mətbuat Nizamnaməsi haqqında"kı qanun layihəsi idi. Həmin müzakirə parlamentin 1919-cu ilin 25 oktyabrında keçirilən 88-ci iclasında başladı. İlk olaraq S.Ağamalıoğlu çıxış etdi. Müzakirələrdə M.Ə.Rəsulzadə, A.Kazımzadə, Ə.Qarayev, İ.Əbilov, Ə.Pepinov, H.K.Sanıyev, Ə.Əhmədzadə, A.Əfəndiyev çıxış etdilər.

Ş.Rüstəmbəyli mətbuatın bəşəriyyətin mədəni inkişafında əsas vasitələrdən biri olduğunu vurğulayırdı. Söz və mətbuatın onları məhdudlaşdıran maneələrdən azad olmasını zəruri sayırdı. Eyni zamanda qeyd edirdi ki, azadlıqdan hətta cinayət məqsədi ilə də istifadə etmək olar, ona görə də bu prosesləri tənzimləyən qanuna ehtiyac vardır. Qanundankənar hərəkətlər isə cinayət sayılaraq, səlahiyyətli, eyni zamanda ədalətli məhkəmə tərəfindən cəzalandırılmalıdır. Onun tərtib etdiyi qanun layihəsində mətbuata nəzarət və gündəlik müşahidə üçün mətbuat müfəttişi vəzifəsinin yaradılması nəzərdə tutulmuşdur. Lakin Qanunvericiliyə Nəzarət Komissiyası onun təklifi ilə razılaşmırdı.

Sonda Mətbuat Müfəttişliyi yaratmaq qərara alındı.

Ş.Rüstəmbəylinin təqdim etdiyi qanun layihəsinin aşağıdakı şərtləri vardı:

1. Hər bir vətəndaşa nəşriyyat sahibi olmaq və ilkin senzurasız, nəşr barədə icazə olmadan mətbuat nümunəsi çap etməyə icazə verilir.

2. Mətbuat azadlığının növbəti təminatı kimi inzibati cəzaların qəti şəkildə qadağan olunmasına, lazım gələrsə, məhkəmə yolu ilə cinayət işinin qaldırılmasına icazə verilir.

3. Mətbuatda qanuna nəzarət, həmçinin qanunun pozulmasına nəzarət inzibati quruma tapşırılır[19].

Qeyd olunmalıdır ki, bu şərtlər parlament üzvləri arasında qızğın mübahisələrə səbəb oldu. Hümmət Partiyasının üzvü S.Ağamalıoğlu qanun layihəsinə qarşı çıxaraq mətbuat azadlığı şəraitində hökumətin yanaşmasını yanlış adlandırdı. Sosialist fraksiyasının nümayəndəsi İ.Əbilov da onunla həmfikir olduğunu bildirərək bu qanunu söz azadlığına zərbə kimi qiymətləndirdi.

[19] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s.383.

S.Ağamalıoğlu fikirlərini belə əsaslandırırdı: "Birinci bölmədə deyilir ki, ölkənin istənilən vətəndaşı nəşriyyat açaraq, qəzet, jurnal, kitab və s. çap etdirə bilər. Eyni zamanda 11-ci bölümdə deyilir ki, naşir qəzetin çapından 7 gün öncə Mətbuat Müfəttişliyini xəbərdar etməlidir. Redaktorun savad dərəcəsinin ölçülməsi məsələsi də gülüncdür, bunu kim və hansı üsulla aparacaq, bu da müəmmadır..."[20].

Bir sözlə, onun fikrincə, həmin şərtlər mətbuatın azadlığını xeyli məhdudlaşdıra bilərdi.

**Müzakirədə Ş.Rüstəmbəylinin mövqeyini Nəsib bəy Yusifbəyli müdafiə etdi. O, dedi: "Mən böyük məmnunluq hissi ilə bildirirəm ki, parlamentdə elə bir partiya yoxdur ki, mətbuat azadlığına qarşı çıxsın. Mətbuat azad olmalıdır. Biz dəfələrlə öz hərəkətlərimizlə bunu sübut etmişik. Cənab Ağamalıoğlu istəyir ki, mətbuata heç bir qadağa qoyulmasın. Mən onunla razılaşa bilmərəm. Əgər mətbuatda pornoqrafiya tərkibli və ya dövlətçiliyimiz əleyhinə çıxışlar varsa, biz bunun qarşısını necə almalıyıq? Ağamalıoğlu və onun partiya yoldaşları bir neçə dəfə məndən antisosialist mətbuata qarşı islahedici tədbirlər görməyimi tələb ediblər, ona görə də Ağamalıoğlunun azad mətbuatın qeydinə qalması məndə şübhə doğurur"[21].**

Qeyd edək ki, bəzi məbuslar (parlament üzvləri – red.) parlamentin bu qanunun qəbulunu demokratiyaya zərbə kimi qiymətləndirir, M.Ə.Rəsulzadənin də daxil olduğu başqa qrup isə Ş.Rüstəmbəylinin mövqeyini müdafiə edirdi.

Mətbuat Nizamnaməsi ilə bağlı əsas məruzəçi olan Ş.Rüstəmbəyli çıxışlardan sonra fikrini belə yekunlaşdırdı: "Burada göstərilən maddələrdən bir neçəsi var ki, bizim sosialistlər onların barəsində çox danışdılar və dedilər ki, mətbuat aləmini bu qanun boğur. Mən təəccüb edirəm ki, bu hansı maddədir ki, mətbuatı boğur? Burada on birinci maddəni göstərdilər. 11-ci maddədə bir elə çətin şey yoxdur. 11-ci maddədə deyilir ki, kim ki, qəzet çıxarmaq istəyir, lazımdır bir neçə gün əvvəl polisə, yaxud mətbuat müdirinə məlumat versin və qəzetə çıxaran imzasını qoymalıdır. İstər yazsın havayıdır, istər 10 manatdır, hansı mətbəədə çap olunur, ünvanı nədir. Qəzetə çıxaranın familiyası, işi nədir? Əcəba, göstərilən şeylərin hansı mətbuatı boğur, məhdudlaşdırır?"[22].

Uzun müzakirələrə baxmayaraq, iştirakçılar ortaq məxrəcə gələ bilmədi. Səsvermə keçirilməsi qərara alındı. Səs çoxluğu ilə (29 səs – 27 səsə qarşı)

[20] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998.
[21] Yenə orada, s. 384.
[22] Yenə orada, s. 345.

Ş.Rüstəmbəylinin təqdim etdiyi qanun layihəsi qəbul olundu. Lakin sonradan nəticə ləğv olunaraq, daha iki səsvermə keçirildi. Narazılıqlar yarandığına görə yekun nəticənin növbəti iclasda elan ediləcəyi bildirildi.

Mətbuat haqqında müzakirələr parlamentin fəaliyyəti dövründə ən mübahisəli məsələ kimi tarixə düşdü. Qanuna həsr olunmuş 3-cü iclasda Sosialist Fraksiyasının üzvləri müəyyən dəyişikliklərin olmayacağı təqdirdə sənədə imza atmaqdan imtina edəcəklərini bildirdilər. Yekun məruzə ilə çıxış edən Ş.Rüstəmbəyli komissiyanın da mövqeyini nəzərə alaraq dəyişikliklərin lazım olmadığını və qanunun ilk təqdim olunduğu şəkildə qəbulunu elan etdi. Bu da sosialistlərin möhkəm narazılığına səbəb oldu və onlar zalı tərk etdilər. Onların ardınca Rəyasət Heyətinin üzvü Ə.Pepinov da getdi. Bu mövqelər parlament sədrində narazılıq yaratdı. Uzun debatlardan və gərgin müzakirələrdən sonra Ş.Rüstəmbəyli mətbuatın nizamlanması ilə bağlı planını həyata keçirə bildi. Bu, dövlət üçün vacib addımlardan biri oldu[23].

"Mətbuat Nizamnaməsi" geniş müzakirələrdən sonra lehinə 28, əleyhinə 21, səs verməyən 1 olmaqla parlamentin 30 oktyabrda keçirilən 90-cı iclasında qəbul edildi.

Ş.Rüstəmbəyli Azərbaycan Parlamentinin sonrakı iclaslarında da fəallıq göstərirdi. Parlamentin 1919-cu ilin 9 fevralında keçirilən 123-cü iclasında o, "Əfvi-ümumi" ("Ümumi bağışlama") haqqında olan qanunla bağlı məruzə etdi və bu layihə təcili surətdə baxılıb qəbul olundu.

Azərbaycan Parlamentinin 1920-ci ilin martın 9-da keçirilən 132-ci iclasında "Qars məsələsi" müzakirə olundu. Bu müzakirədə Ş.Rüstəmbəyli kəskin mövqedən çıxış etdi: "Biz görürük ki, erməni hökuməti özünün tutduğu məsləkdən ayrılmayır. Öz xaniman söndürən siyasətini təqibdə davam edir. İndi də Qars vilayəti müsəlmanlarını qırmağa, onların köylərini dağıtmağa başlamışdır. Oradan hər gün alınmaqda olan xəbərlərdən anlaşılır ki, Ermənistan sistematik bir üsul ilə öz planını icra edir. O, istədiyi yerləri müsəlmanlardan təmizləmək siyasətini güdür. Bu, açıq və aydındır. Bunu İrəvan quberniyasında və Bəyazid qəzasında icra etdi.Bu kimi planını hazırda Qars vilayətində də icra etməkdədir. Bu saat Qars vilayəti müsəlmanları başsız qalmışdırlar. Kimsəyə öz ah və əminlərini eşitdirə bilmirlər. Adamları yoxdur ki, fəryadlarını Avropaya bildirsinlər. Başsız, təşkilatsız qalmışlardır"[24].

[23] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 385-388.
[24] Yenə orada, s. 820.

Sonda Ş.Rüstəmbəyli Qars müsəlmanlarına qardaşlıq köməyi etməyin vacibliyini bildirdi.

1920-ci ilin aprelin 1-də Azərbaycan Parlamentinin 137-ci iclası keçirilir. İclasda sol sosialistlərdən Əliheydər Qarayev çıxış edərək Əli Bayramovun qətlində hökuməti günahlandırdı. Həmin dövrdə Daxili İşlər nazirinin müavini olan Ş.Rüstəmbəyli onun bu ittihamlarını rədd edərək dedi: "Bir neçə gün bundan əvvəl polis bir sui-qəsd və üsyan qaldırmaq planı kəşf etdi. Bu üsyanda hökuməti yıxmaq, parlamanı dağıtmaq, burada Şura hökuməti elan etmək istənilirdi. O sui-qəsdə imza edənlərin birisi Əli Bayramovdur. Habelə o kağızlarda parlament üzvü Əliheydər Qarayev cənablarının da imzası var (*səslər: ar olsun, eyib olsun, rədd olsun xain*!).

Polisə əmr olunmuşdu ki, o adamlar tutulsun. Polis axtarır, lakin tapa bilmirdi. Bu aralıq xəbər çıxdı ki, Əli Bayramov yoxdur"[25].

**Ş.Rüstəmbəyli çıxışında Ə.Bayramovun hökumət tərəfindən öldürülməsi fikrinə ciddi etirazını bildirdi. Qeyd etdi ki, kimin müqəssir olduğunu məhkəmə qərarı müəyyənləşdirər və o şəxs də cəzalanar.**

**1920-ci ilin 27 aprelində Azərbaycan Parlamentinin sonuncu – 145-ci iclası keçirildi. Son iclasda M.Ə.Rəsulzadə belə bir təklif etdi: "Ölkə parlamentinin qapısını açıq qoyaq ki, hər kəs nə cür təhlükəli vəziyyət içində olduğumuzu, nə cür qərar qəbul edəcəyimizi bilsin".**

**M.Ə.Rəsulzadənin bu təklifindən sonra stenoqramdakı məlumata görə, Şəfi bəy Rüstəmbəyli Azərbaycanın işğalına, istiqlaliyyətin əldən getməsinə dözməyib ağlamışdır.**

**Belə fakt da qeyd olunur ki, 1920-ci il aprelin 27-də N.Yusifbəylinin yanında məhdud dairədə keçirilmiş toplantıda Ş.Rüstəmbəyli qan tökülməməsindən ötrü Bakıdan çıxmağı və bolşeviklərə qarşı mübarizə aparmaq üçün Gəncəyə köçməyi təklif edir. Lakin onun bu təklifi qəbul olunmur[26].**

**Onun bu təkliflə çıxış etməsi isə mümkündür. Çünki mühacirətdə olduğu dövrdə o, bəzi silahdaşlarını Azərbaycan hökumətini "bir ovuc" bolşevikə təslim etməkdə günahlandırırdı.**

Azərbaycan sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bolşeviklər amansız qətliamlar törətdi. Azərbaycan Cümhuriyyətinin tanınmış şəxsləri olan

---

[25] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II c. B., 1998, s. 887.

[26] İ. Əliyeva. Məsləkinə sadiq böyük mücahid. "Azərbaycan" qəzeti, 22 iyul, 2015.

N.Yusifbəyli qətlə yetirildi, F.X.Xoyski, H.Ağayev, X.Rəfibəyli güllələndi, M.Ə.Rəsulzadə həbs edildi[27].

1920-ci ilin aprel işğalından sonra Ş.Rüstəmbəyli Tiflisə getdi, yaxın qohumları isə Azərbaycanda qaldı. Atası Mustafa bəy və qardaşı Hacı bəy bolşeviklər tərəfindən amansızlıqla qətlə yetirildi. Mustafa bəy ölüm ayağında onu oğlundan öncə güllələməyi xahiş etsə də, Qızıl Ordu əsgərləri Hacı bəyi atasının gözü qarşısında öldürdülər.

Məlumatlara görə, Sovet hakimiyyəti Ş.Rüstəmbəylinin həbsi ilə kifayətlənməyərək onun güllələnməsinə çalışırdı. Buna görə də o, gizlənməyə məcbur idi. Atası Mustafa bəy də azadlıq mübarizəsində fəallığına görə yox, məhz Ş.Rüstəmbəyliyə görə güllələnmişdi. Onların Pirəli kəndində olan evləri bu günə qədər qorunub saxlanılır. Onun atası Qəbələnin hörmətli şəxsiyyətlərindən idi və indi də adı xüsusi ehtiramla çəkilir. Məşhur dramaturq Ə.Haqverdiyev özünün "Ağacın kölgəsi" pyesini məhz Mustafa bəyə həsr etmişdi.

1921-ci ilin fevralında Tiflisdə Sovet hakimiyyəti qurulandan sonra Ş.Rüstəmbəyli Gürcüstanı da tərk edərək Trabzona oradan isə İstanbula getmiş və fəaliyyətini orada davam etdirmişdir.

Tanınmış Rusiya tarixçisi S.İsakovun bir məlumatında isə Ş.Rüstəmbəylinin 1921-ci ilin fevralında Tiflisdə Azərbaycanı Xilasetmə Komitəsinə başçılıq etməsi qeyd olunur[28].

Ş.Rüstəmbəyli İstanbulda olarkən dövri mətbuatda mühacirlərə aid bir sıra məqalələr çap etdirdi. İlk olaraq 1923-cü ildə işıq üzü görmüş "Yeni Qafqasya", sonradan nəşr edilən "Azəri-Türk", "Yaşıl Yarpaq", "Odlu Yurd" jurnalı ilə əlaqə saxladı.

Bəzi məlumatlara görə, Ş.Rüstəmbəyli Qəbələ rayonundan bir xanımla evli olmuş, lakin övladı olmamışdır. Sonralar Türkiyədə yenidən evlənsə də, o övlad sahibi ola bilməmişdir.

Ş.Rüstəmbəyli qardaşı uşaqlarını – Bəhramı və Şükürü Azərbaycanda ölüm təhlükəsi ilə qarş-qarşya qoymamaq üçün gizlicə İstanbula gətizdirərək onları böyütmüş, yaxşı təhsil vermişdir. Bəhram bəy Londonda, Şükür bəy isə Sorbonnada universitet bitirmişdilər. Onların 1927-ci ildə İstanbulda birgə fotoları da vardır.

Ş.Rüstəmbəylinin bir şəxsiyyət olaraq xarakterinin açılmasında silahdaşı Behbud xan Cavanşirin erməni terrorçusu Torlakyan tərəfindən qətli ilə bağlı keçirilən məhkəmə prosesindəki çıxışının çox əhəmiyyəti vardır. Bu haqda geniş

---

27 Н.Ягублу. Энсиклопедия Мухаммеда Эмина Расулзаде. М., 2015, с. 59-60.
28 М.Э.Расулзаде. Сборник произведений и писем. М., 2010, s. 34.

bilgiləri Əhməd Cəmaləddinin 1921-ci ildə İstanbulda yayımlanmış "Torlakyan davası: Behbud xan Cavanşirin qətli" kitabından almaq mümkündür. Həmin kitab 2007-ci ildə Bakıda "Yom Yayımları" nəşriyyatında təkrar nəşr olunmuşdur. Qeyd edək ki, həmin kitabı Türkiyənin tanınmış qəzetçisi Murat Gulcu 1990-cı ildə öz imzası ilə "Erməni intriqalarının pərdəarxası:Torlakyan davası" adı ilə İstanbulda çap etdirmişdir.

B.Cavanşirin 1921-ci ilin avqustunda keçirilən məhkəməsi, o dövrdə İstanbul ingilis işğalı altında olduğundan ingilis prokuroru Qribbonun, məhkəmə sədri Freeizin başçılığı ilə aparılırdı. Ş.Rüstəmbəyli məhkəmədə B.Cavanşir haqqında çox müsbət fikirlər söyləyir, onun həm də məşhur mühəndis olduğunu qeyd edir[29]. Məhkəmə prosesində o, Torlakyanın erməni vəkillərinin suallarına da sərt və məntiqli cavab verir. Ş.Rüstəmbəyli 1918-ci ilin mart hadisələrində ermənilərin bolşeviklərlə birləşərək 14 minə qədər müsəlmanı qətl etdiyini məhkəmədə söyləyir. O, qeyd edir ki, bolşeviklərə çatdırılan yalan məlumatlar əsasında (guya ki, müsəlmanlar xristianları məhv edirlər) onlar hərbi gəmilərdən müsəlmanlar yaşayan yerləri bombalayırdılar. O, bildirir ki, həmin hadisələrdə ermənilər qadınları, uşaqları, günahsız insanları qətl edirdi.

Ş.Rüstəmbəyliyə hadisədən kənar, qərəzli suallarla müraciət olunsa da o, bir hüquqşünas, jurnalist və siyasi xadim kimi əsaslı cavab verir. B.Cavanşirin ölümü ilə bağlı keçirilən məhkəmədə ona verilən suallar bu məzmunda idi: "1918-ci ilin sentyabrında Bakı türklər tərəfindən müharibə ilə alındımı?"; "Türklərə qarşı müharibə edən kimlər idi?"; "Gəncədə erməni varmıdır?"; "Müsavat Partiyasının Proqramı İttihad və Tərəqqi Partiyasının proqramına uyğun idimi?"; "Azərbaycan" qəzetinin nə zaman redaktoru oldunuz?"; "O qəzeti nəşr etdiyiniz mətbəə kimə aid idi?"; "Ermənilər ingilislərə qarşı hərb etdilərmi?": "Sizin fikrinizə görə, azərilər Anadoludakı türklərlə birləşmək üzrə Ermənistanı çeynəyib keçmək istərlərmi?".



**Ş.Rüstəmbəylinin İstanbulda məzarı.**

Ş.Rüstəmbəyli suallara Azərbaycan mənafeyindən ciddi cavablar verirdi: "Azərbaycan Cümhuriyyəti vətəndaşından hər kəs

[29] Ə.Cəmaləddin. Torlokyan davası: Behbud xan Cavanşirin qətli. B., 2007, s. 257.

nazir ola bilərdi"; "Xeyr, azəri türkləri vardır"; "Bilmirəm. Bu, ingilis komandanlığının biləcəyi bir şeydir"; "Azərbaycanın siyasəti türklərlə və Avropa hökumətləri ilə dostcasına yaşamağa bağlı idi"; "Azərbaycan bolşevik istilasına uğradı, hökumət də təslim oldu"[30].

Ş.Rüstəmbəyli mühacirətdə olduğu dövrdə siyasi cəhətdən də ağır həyat yaşamışdır. Onun 1920-1930-cu illərdəki mühacirət həyatında M.Ə.Rəsulzadəyə qarşı ziddiyyətli fikirləri özünü göstərmişdir. Xüsusən, Müsavat Partiyasının Xarici Bürosunun üzvü olarkən çəkişmələr getdikcə dərinləşmiş və o, 1934-cü ildə M.Ə.Rəsulzadənin əleyhinə "Yıxılan bütlər" kitabını yazmışdır[31]. Buna cavab olaraq M.Ə.Rəsulzadə 1934-cü "Şəfibəyçilik" kitabını çap etdirmiş, bu mövqeyi "Milli Azərbaycan hərəkatına qarşı şübhəli intriqalar" adlandırmışdı.

Qeyd edək ki, mühacirət həyatının ağır şərtləri müəyyən məqamlarda həmin şəxsiyyətlər arasındakı münasibətlərə də təsirsiz ötüşmürdü.

Əlavə edək ki, Ş.Rüstəmbəyli mühacirətdə olduğu illərdə böyük siyasi fəallıq göstərmişdir.

M.Ə.Rəsulzadənin Polşa Dövlətinə təqdim etdiyi məlumatlarda Ş.Rüstəmbəylinin də adına Azərbaycan Milli Mərkəzinin 1-ci (1927-1928-ci illər) siyahısında rast gəlmək mümkündür[32].

M.Ə.Rəsulzadənin 1937-ci ilin 22 iyulunda Polşa Dövləti üçün hazırladığı "Azərbaycanın mühacirətdə olan məsul xadimləri" siyahısında Ş.Rüstəmbəylinin adı 15-ci sırada yazılaraq "Keçmiş Daxili İşlər Nazirinin müavini olaraq qeyd edilmişdir[33].

Ş.Rüstəmbəyli də digər mühacirlər kimi ağır həyat yaşamışdır. Azərbaycandan gedən mühacirlərin ona yardım etdiklərini və bunun nəticəsində Ş.Rüstəmbəylinin xırda təsərrüfatla, müəyyən qədər də ticarətlə məşğul olduğu faktı söylənilir. 1930-cu illərin sonlarından onun siyasi fəaliyyəti ilə bağlı məlumatlar, demək olar ki, yoxdur.

Ş.Rüstəmbəyli 1953-cü ildə dünyadan köçmüşdür. Məzarı İstanbuldakı Fəriköy qəbiristanlığındadır.

---

[30] Ə.Cəmaləddin. Torlokyan davası: Behbud xan Cavanşirin qətli. B., 2007, s. 262.
[31] X.İbrahimli. Azərbaycan siyasi mühacirəti. B., 1996, s. 170.
[32] Из истории Азербайджанской эмиграции. М., 2011, с. 249-250.
[33] Yenə orada, s. 254.

# CEYHUN HACIBƏYLİ

(1891 – 1962)



Azərbaycanın görkəmli ictimai-siyasi və mətbuat xadimi Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli 1891-ci ilin fevralın 3-də Şuşa şəhərində anadan olub. İbtidai təhsilini Şuşada, orta təhsilini isə Bakıda alıb.

C.Hacıbəyli 1908-ci ildə Ə.Hüseynzadənin müdir olduğu "Səadət" məktəbində müəllim işləyib.

O, Peterburq Universitetinin hüquq fakültəsində bir il oxuduqdan sonra 1909-cu ildə Fransaya gedib və Sorbonna Universitetində təhsil alıb.

1916-cı ildə Fransada təhsilini başa vurduqdan sonra Bakıya qayıdıb, "İttihad" və "Müsəlmanlıq" qəzetlərində redaktor olaraq çalışıb.

1918-ci ilin 28 mayında Azərbaycan istiqlalının elanından sonra C.Hacıbəyli Ş.Rüstəmbəyli ilə birlikdə "Azərbaycan" qəzetini nəşr edib (qəzet Azərbaycan dilində onun, rus dilində isə Ş.Rüstəmbəylinin redaktorluğu ilə çıxıb).

1919-cu ilin yanvarında C.Hacıbəyli Azərbaycan Nümayəndə Heyətinin tərkibində məsləhətçi kimi həmin il keçiriləcək Versal Sülh Konfransında iştirak etmək üçün Parisə yola düşüb.

1920-ci ilin 27 aprelində Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildiyindən bir daha vətənə qayıda bilməyib.

C.Hacıbəyli 1962-ci ilin oktyabrın 22-də Parisdə vəfat edib.

# "AZƏRBAYCAN" QƏZETİNİN REDAKTORU

Tanınmış ictimai-siyasi xadim olan Ceyhun Hacıbəyli Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutmaqdadır. O, həm də Azərbaycanın böyük bəstəkarı Ü.Hacıbəylinin doğma qardaşıdır.

C.Hacıbəyli 1891-ci ilin fevralın 3-də Şuşada anadan olmuş və ibtidai təhsilini tanınmış jurnalist və incəsənət xadimi Haşım bəy Vəzirovun (1866-1926) müdir olduğu məktəbdə, orta təhsilini isə Bakıda almışdır[1].

1908-ci ilin yanvarın 12-də H.Z.Tağıyev teatrında Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası tamaşaya qoyuldu. Tamaşada iştirak edən Ceyhun bəy İbn-Səlam rolunu oynayırdı.

C.Hacıbəylinin musiqi istedadı olsa da, bu sahə ilə məşğul olmamışdır.

C.Hacıbəyli orta təhsilini Bakıda tamamladıqdan sonra qardaşı Üzeyir bəylə Əli bəy Hüseynzadənin müdir olduğu "Səadət" məktəbində müəllim vəzifəsində çalışmışdır.

Sonradan C.Hacıbəyli milyonçu M.Muxtarovun (1855-1920) vəsaiti ilə Peterburq Universitetinin hüquq fakültəsində oxumuşdur. Bu universitetdə təhsil aldıqdan sonra 1909-cu ilin yayında Fransanın paytaxtı Parisə getmiş, Sorbonna Universitetində və Siyasi Biliklər məktəbində oxumuşdur.

Fransada oxuduğu illərdə o, Fransa mətbuatında "Leyli və Məcnun" operası ilə bağlı çıxış etmiş, Avropa ictimaiyyətini məlumatlandırmışdır.

C.Hacıbəylinin bu dövrdə nəşr edilən "Revyü dyu Mond Myuzulman" jurnalında müxtəlif mövzuda yazıları çap olunmuşdur.

C.Hacıbəyli 1916-cı ildə Parisdə təhslini başa vurduqdan sonra Bakıya qayıtmış və "Kaspi" qəzetində çoxlu sayda məqalələr çap etdirmişdir ("Kaspi", №18, 22, 24, 28, 34, 1917-ci il).

1917-ci ildə Rusiyada baş verən Fevral-Burjua inqilabından sonra C.Hacıbəyli rus dilində nəşr edilən "İttihad" və "Müsəlmanlıq" qəzetlərinin redaktoru olmuşdur.

**1918-ci ilin mayın 28-də Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra C.Hacıbəyli yeni formalaşmaqda olan dövlətin təbliğat sisteminin əsasını qoyanlardan biri oldu. 1918-ci ilin sentyabrın 15-dən onun və Ş.Rüstəmbəylinin redaktorluğu ilə birlikdə iki dildə – Azərbaycan və rus dillərində çap olunan "Azərbaycan" qəzeti nəşr edilməyə başladı.**

[1] M. Əliyev. Ceyhun Hacıbəyli. "Odlar Yurdu" qəzeti, №20, oktyabr 1988.



C.Hacıbəyli oğlu ilə.

Bu qəzetin nəşri haqqında C.Hacıbəyli 1951-ci ildə Almaniyanın Münhün şəhərində Ə.F.Düdənginskinin redaktorluğu ilə Azərbaycan və rus dillərində nəşrə başlayan (ilk sayı Azərbaycan və rus dillərində qarışıq çap olunmuşdu) "Azərbaycan" jurnalında yazırdı: "Məqsədimiz milli birliyi qurmaqdır və birlik mühacirətdə başlamalıdır. Bütün azərbaycanlıları bilaistisna bu birliyə dəvət edirik. Zatən "Azərbaycan" başlanğıcda həmən birliyin simvolu idi. "Azərbaycan" milli bir orqan idi və feilən rəsmi hökumət məhafilinin (heyətinin) rəy və mülahizatını izhar edəcəyinə, kəndi (öz) yolunu sərbəstcəsinə cızıb kəndi öz qənaətini bəyan edərdi.

**Bu xüsusda vaxtında nəşriyyat işləri ilə** məşğul nazirlərimizdən rəhmətlik Nəsib bəyin geniş nəzərliyini, təbiətinin nazikliyini və ona məxsus qiraətini (məlumatlılığını) hörmətlə analım. Kəndisi (özü) firqəsi olduğu halda, hökumətin rəsmi orqanını firqəsi olmayan bir şəxsə həvalə etməsi həddi zatında simvolik bir jest idi. Onun üçün millət firqənin önündə gəlirdi"[2].

**"Azərbaycan" qəzetinin ilk sayı 1918-ci ilin sentyabrın 15-də Gəncədə Yelizavetpol qubernatorunun mətbəəsində çap edildi[3]**.

**"Azərbaycan" qəzetinin redaksiyası Gəncədə "Bulatov" küçəsindəki 26 saylı evdə yerləşirdi[4]**

"Azərbaycan" qəzetinin iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində, eyni sayda, A-2 formatda çap edilmişdir. Qəzetin rus variantı müəyyən istisnalar olmaqla, Azərbaycan nüsxəsindən materialların tərcüməsi olaraq çap edil

[2] A. Paşayev. Açılmamış səhifələrin izi ilə. B., 2001, s. 3-4.
[3] Yenə orada, s. 102.
[4] A. Rüstəmli. "Azərbaycan" qəzetinin Gəncə dövrü. "Azərbaycan" – 90. B., 2008 , s. 320.


آذربایجان

**C.Hacıbəylinin redaktorluğu ilə nəşr edilən "Azərbaycan" qəzeti. 1918-ci il.**

mişdir. Qəzetin ilk sayında redaktor imzası yerində "Heyəti-Təhriyə" (Redaksiya Heyəti) yazılmışdır.

Qəzetin birinci sayında Azərbaycan və rus dillərində nəşr edilən "Bakının süqutu" yazılarında Qafqaz İslam Ordusunun komandiri Nuru Paşanın Bakının azad olunması haqqında teleqramı çap edilmişdi.

Bakının alınması münasibəti ilə Azərbaycan Nazirlər Şurasının Sədri F.X.Xoyskinin Nuru Paşaya cavab teleqramı da elə həmin sayda dərc edilmişdi.

İlk sayda şair M.Hadinin türk əsgərinin şücaətinə həsr etdiyi "Türk nəğməsi" şeiri, "Müharibə meydanında", "Gəncə xəbərləri", "Azərbaycan hökumətinin qərarları", ayrı-ayrı nazirliklərin əmrləri, Daxili İşlər naziri Behbud xan Cavanşir tərəfindən imzalanmış elanlar da verilmişdi[5].

Qəzetin rus dilindəki səhifələrində də Hökumətin qərarları, Bakının alınması ilə bağlı xəbərlər, Nuru Paşa və F.X.Xoyskinin təbrikləri, Gəncə xəbərləri, xronika və s. çap olunmuşdur.

Qəzetin ilk saylarında redaktor imzaları olmasa da, yazıların toplanılmasında, çapa hazırlanmasında C.Hacıbəyli və Ş.Rüstəmbəylinin xidmətləri böyükdür. "Azərbaycan" qəzetinin 2-ci sayı sentyabrın 19-da, üçüncü sayı sentyabrın 22-də rus dilində çap olunmuşdur. Qəzetin sentyabrın 25-də Gəncədə sonuncu – 4-cü sayı çıxmışdır (üç səhifə rus, bir səhifə isə Azərbaycan dilində).

"Azərbaycan" qəzetinin Bakıda ilk (ümumi sayı 5-ci) sayı 1918-ci ilin oktyabrın 3-də, rus dilində oktyabrın 7-də işıq üzü gördü.

"Azərbaycan" qəzeti Bakıda hər iki dildə müstəqil nəşr edilməsinə baxmayaraq, 6-cı saya qədər Azərbaycan, 5-ci saya qədər isə rus dilində "Heyəti-Təhriyə" imzası ilə çap olunub. Qəzet yalnız 6-cı saydan Azərbaycan, 5-ci saydan isə rus dilində "Mühərrirləri: Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli" imzaları ilə nəşr edilib[6].

---

[5] A. Paşayev. Açılmamış səhifələrin izi ilə. B., 2001, s. 103.

[6] Yenə orada, s. 105.

1918-ci ilin noyabrından qəzet Azərbaycan dilində C.Hacıbəylinin, rus dilində isə Ş.Rüstəmbəylinin redaktorluğu ilə nəşrini davam etdirib.

"Azərbaycan" qəzeti noyabrın 28-dən "Müdiri Ceyhun Hacıbəyli", noyabrın 29-dan isə "Müdir və baş mühərriri Ceyhun Hacıbəyli", noyabrın 29-dan rus dilində çıxan sayından isə "Qəzet redaktoru Şəfi bəy Rüstəmbəyli" imzası ilə nəşr olunurdu.

C.Hacıbəylinin redaktorluğu dövründə "Azərbaycan" qəzetinin 88-ci sayı çap olunmuşdu. Bu saylarda Azərbaycanla, dünya, region ölkələri ilə bağlı yazılara rast gəlmək mümkündür. Qəzetin səhifələrində Azərbaycan Milli Şurasının fəaliyyəti, 1918-ci ilin dekabrın 7-dən işə başlayan Azərbaycan Parlamentinin iclasları geniş işıqlandırılmışdır.

Qəzetdə C.Hacıbəyli "C.Dağıstani" imzası ilə "Tarixi gün" (Bakının qurtuluşuna həsr edilmiş) adlı məqalə çap etdirmişdi. O, Yazırdı: "8 zilhiccə – 15 eylülün (15 sentyabrın – red.) bütün türk və islam aləminin ən səadətli, ən şövkətli günlərindən ibarət olacağı şübhəsizdir... Bimihil-kərim, düşmənlər öz maraqlarına yetmədilər, məyus oldular. Türkün qəhrəman oğulları öz istedadlarını, öz rəşadətlərini, özlərinin yaşamaq üçün ölməyə hazır olmalarını bütün aləmin gözünə çırpdılar və bununla böylə yüz illərcə başqalarının təxti-təzyiqində əzilən milyonlarca dindaş və millətdaşlarımıza böyük-böyük ümidlər bəxş etdilər"[7].

1919-cu ilin dekabrın 28-də Azərbaycan hökuməti Parlamentin Ağsaqqallar Şurası üzvlərinin iştirakı ilə Paris Sülh Konfransında iştirak etmək üçün nümayəndə heyətinin tərkibini müəyyənləşdirdi və C.Hacıbəyli də oraya daxil edildi.

C.Hacıbəyli Sülh Konfransına getməsi ilə bağlı qəzetin 1919-cu il 9 yanvar tarixli 83-cü sayında yazırdı: "Möhtərəm qarelərimizə" (oxucularımıza – red.) "Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəni qəzetimizin müdiri sifətiylə ifaya məşğul ikən vətən övladlarının xahiş və əmrinə məti olaraq, Cahan Sülh Konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü"[8].

"Azərbaycan" qəzeti C.Hacıbəylinin redaktorluğu ilə sonuncu dəfə 1919-cu ilin yanvarın 15-də (88-ci sayı) çap edildi.

Bu, C.Hacıbəylinin Azərbaycanda son fəaliyyəti oldu və o, bir daha vətənə qayıda bilmədi. Bu haqda isə sonradan 1951-ci ildə mühacirətdə nəşr etdiyi "Azərbaycan" jurnalında bu sözləri yazacaqdı: "Bundan 32 il əvvəl idarə etdiyim milli "Azərbaycan" qəzetimizi istəkli qardaşım Üzeyirə həvalə edərək yeni bir və-

[7] "Azərbaycan" qəzeti, 3 oktyabr 1918, №5.
[8] A. Paşayev. Açılmamış səhifələrin izi ilə. B., 2001, s. 106.

zifə ilə Avropaya gəldik. Yeni təşkil etdiyimiz Azərbaycan dövlətini başqa mədəni millətlər və Sülh Konfransına toplanmış böyük dövlətlər tərəfindən rəsmi surətdə tanıtdırmışdıq. Misyonumuzun üç ay sonunda bitəcəyini zənn edirdik"[9].

C.Hacıbəylinin də daxil olduğu Azərbaycan nümayəndə heyəti 1919-cu ilin əvvəllərində böyük çətinliklə Parisə getdi. Onlar qısa müddət ərzində Azərbaycanla bağlı 3 kitab və 12 informasiya bülleteni çap edib Avropa ictimaiyyətini məlumatlandırdılar.

**1919-cu ilin sonlarında C.Hacıbəylinin fransız dilində nəşr edilən "Revyü dyu Mond Myuzulman" jurnalında "Birinci Müsəlman Respublikası – Azərbaycan" məqaləsi çap olundu[10].**

İki çap vərəqi həcmində olan bu məqalədə yığcam, lakin çox məzmunlu formada Azərbaycanın tarixi, coğrafiyası və inkişafı haqqında məlumat verilmişdi.

1920-ci ilin yanvarın 11-də Azərbaycan de-fakto olaraq dünya dövlətləri tərəfindən tanındı. Bu böyük hadisənin baş verməsində C.Hacıbəylinin də böyük xidməti olmuşdur.

1920-ci ilin 27 aprelində Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra nümayəndə heyətinin digər üzvləri kimi C.Hacıbəylinin Azərbaycana qayıtması mümkün olmadı. C.Hacıbəyli Fransada qalıb Azərbaycanın Rusiya bolşeviklərindən azad edilməsi uğrunda mübarizə apardı.

C.Hacıbəyli Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı ilə bağlı məqalələr yazıb Fransa ictimaiyyətini bilgiləndirirdi.

1920-ci illərdə o, Ü.Hacıbəylinin "Arşın mal alan" əsərini fransız dilinə tərcümə edib tamaşaya qoydu. C.Hacıbəyli 1926-cı ildə "Azərbaycan teatrı" adlı məqalə yazaraq "Revyü dyu Mond Myuzulman" jurnalının 3-cü sayında çap etdirib fransız oxucularına H.Cavid, C.Cabbarlı kimi məşhur dramaturqların yaradıcılığı haqqında məlumatlar verdi[11].

O, 1928-ci ildə "Aziatik" jurnalında çap olunan "A.Bakıxanov" məqaləsində fransız oxuculara Azərbaycanın görkəmli alimini tanıtdı.

C.Hacıbəylinin 1931-ci ildə "Aziatik Revyu" jurnalının 27-ci cildinin 90-cı sayında dərc edilmiş 1905-1910-cu illər Azərbaycan mətbuatı haqqındakı məqaləsi çox əhəmiyyətli idi.

C.Hacıbəyli 1933-cü ildə "Aziatik" jurnalının yanvar-mart ayındakı sayında "Qafqaz Azərbaycanının Qarabağ dialekti"adlı elmi məqaləsini də çap etdirdi.

---

[9] Ceyhun Hacıbəyli. "Azərbaycan" davam edir. "Azərbaycan", 1951, №1. Münhen, s. 3.

[10] Р. Абуталыбов. Годы и встечи в Париже. Б., 2006, с. 57.

[11] M.Əliyev. Ceyhun Hacıbəyli. "Odlar Yurdu" qəzeti, №20, oktyabr 1988.

Bundan əlavə, o, Almaniyanın Münhen şəhərində Azərbaycan və rus dillərində nəşr olunan "Azərbaycan" jurnalında müxtəlif yazılar da çap etdirdi. O, bu yazılarında Azərbaycanın tarix və mədəniyyətini təbliğ etməklə yanaşı, sovet rejiminin işğalçı mahiyyətini də tənqid atəşinə tuturdu.




**C.Hacıbəylinin "İslam əleyhinə təbliğat və onun Azərbaycanda üsulları" kitabı. Münhen, 1959-cu il.**

C.Hacıbəyli mühacirətdə olduğu dövrdə Qafqaz xalqlarının təmsiçiləri ilə də tez-tez görüşür, müxtəlif tədbirlərdə iştirak edirdi.

1936-cı ilin dekabrın 9-da Parisdə üç Qafqaz Respublikası Şurasının Müstəqil Qafqaz Komitəsi üzvlərinin iştirakı ilə keçirilən iclasında C.Hacıbəyli də vardı. Həmin görüşdə Azərbaycan adından Ə.M.Topçubaşov və X.Sultanzadə (Sultanov), gürcülərdən A.Çxenkeli, Ş.Amiredjibi, N.Ramişvili, Q.Qvazava, Dağlılardan H.Bammat və A.Germoyev də iştirakçı idi.

Tədbirin əsas mövzusu Üç Respublika Şurası ilə Müstəqil Qafqaz Komitəsinin münasibətlərinin aydınlaşdırılması idi. Geniş müzakirədən sonra hər iki təşkilatın eyni hüquqlar çərçivəsində Qafqaz Respublikalarının müstəqilliyinin bərpası üçün mübarizə aparması razılaşdırıldı[12].

Qeyd edək ki, C.Hacıbəyli 1920-ci ilin 27 aprelindən – Azərbaycanın işğal edildiyi vaxtdan başlayaraq bolşevik rejiminə qarşı kəskin siyasi mübarizə aparırdı. Bununla əlaqədar olaraq mühacirətdə yaradılan təşkilatların fəaliyyətində onun imzasına tez-tez rast gəlmək mümkündür. C.Hacıbəylinin bu çalışmaları onun tanınmış siyasi xadimlərlə yazışmalarında daha geniş əksini tapmışdır.

Azərbaycan işğal edildikdən sonra 1920-ci ilin 15 iyulunda Ə.Topçubaşov Belçikanın SPA şəhərindən C.Hacıbəyliyə göndərdiyi qeydində yazırdı: "Əzizim Ceyhun bəy! Burda nə mümkün idisə etdik: nota verdik, ayrı-ayrı müttəfiqlərin bir neçə katibləri ilə, eləcə də İtaliyanın, Belçikanın, Polşanın nazirləri ilə görüşdük. Bu gün ikinci notanı verdik və surətini faydalanmağınız üçün göndərirəm (Abbas bəydən götürün). Bu gün Paderevski ilə (məşhur Polşa musiqiçisi və Polşanın Xarici İşlər Naziri – red.) görüşdük. Görüşümüzdə ətraflı danışaram. Hələlik

[12] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения "Прометей". Сборник документов. М., 2012, с. 70.

xanım Broşenin (Dabs-Broşe – İsveçrə yazıçısı – red.) bizim burada olmağımız haqqındakı qeydlərini göndərirəm. Olsun ki, bu qeydləri SPA-dan məqalə kimi qəzetdə çap edəsiniz.

Sabah Brüsselə gedirik və ümid edirəm ki, bazar günü Parisdə görüşərik. Hamıya, xüsusən Zöhrəyə salamlar, uşaqları öpürəm. Salamat olun. Ə.M.Topçubaşov"[13].

C.Hacıbəyli Azərbaycan Cümhuriyyəti dövründə xaricdə təhsil almağa göndərilmiş və Azərbaycan işğal edildiyinə görə maddi köməkdən məhrum edilən tələbələrə də qayğı göstərirdi. Parisdə yaşayan Azərbaycanlı Tələbələr Assosiasiyasının 1922-ci ilin 6 iyulunda C.Hacıbəyliyə göndərdiyi məktubda yazılırdı: "Hazırda Komitə diqqətinizə çatdırır ki, Fransada oxuyan azərbaycanlı tələbələrin ümumi yığıncağı 16 iyun tarixli iclasında təşkilatımıza ayırdığınız 300 franka görə Sizə təşəkkür bildirmişdir. Böyük hörmətlə, Komitənin sədri, C.Rəhimov"[14].



C.Hacıbəylinin M.Ə.Rəsulzadəyə məktubu. 30 iyun 1936-cı il.

S.Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılan 648 və 649 saylı fondlardan Ə.M.Topçubaşov və C.Hacıbəyli arasında olan yazışma və qeydlərdən də onların mühacirətdəki fəaliyyətini öyrənmək mümkündür.

C.Hacıbəylinin Azərbaycanın tanınmış dövlət xadimi M.Ə.Rəsulzadə ilə də 1920-1930-cu illərə aid yazışmaları mövcuddur. M.Ə.Rəsulzadənin 1932-ci ildə dekabrın 10-da Varşavadan C.Hacıbəyliyə göndərdiyi bir məktubda "İstiqlal" qəzetinin siqnal nüsxəsi üçün hazırlanmış bir anketə diqqət göstərilməsinin vacibliyi qeyd olunmuşdur. Həmin anketdə Qafqaz Konfederasiyasının fəaliyyəti ilə bağlı suallar qoyulmuşdur[15].

[13] S.Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, f. 648, s. 6, iş 2, v. 2.
[14] А.М.Топчибаши. Документы из личных архивов 1903-1934 гг. М., 2012, с. 187.
[15] М.Э.Расулзаде. Сборник произведений и писем. М., 2010, с. 348-349.

İkinci Dünya müharibəsi illərində C.Hacıbəyli Almaniyada Azərbaycan Milli Birlik Məclisinin yaradılmasında yaxından iştirak etdi və Ə.Şeyxülislamovla, Ə.F. Düdənginski ilə birlikdə həmin təşkilatın rəhbərlərindən oldu.

Qeyd edək ki, Azərbaycan Milli Birlik Məclisi 1943-cü ilin noyabrında Berlində Milli Azərbaycan Qurultayının keçirilməsində önəmli rol oynamışdı.

İkinci Dünya müharibəsindən sonra C.Hacıbəyli Azərbaycan mühacirlərinin fəallaşması istiqamətində çalışdı. Onun 1945-1950-ci illərin əvvəllərində tanınmış legioner və mühacir Ə.F.Düdənginski ilə yazışmaları bu mənada faydalıdır.

Onların arasında ilk yazışmalar 1947-ci ilin oktyabrın 10-dan başladı. Bu yazışmalarda bolşevizmə qarşı mübarizə məqsədi ilə ABŞ dövlətinin yaratdığı Amerikan Komitəsinin fəaliyyəti, Münhendə nəşr olunan "Azərbaycan" jurnalının fransız dilində çap edilməsi, Azərbaycan təşkilatları arasında fikir ayrılığının və müxtəlif yanaşmaların olması problemlərinə toxunulurdu[16].

C.Hacıbəyli Sovet rejiminə qarşı aparılan "soyuq müharibə" dövründə də fəallıq göstərdi. O,1951-ci ilin noyabrında Almaniyanın Visbaden şəhərində keçirilən konfransda Azərbaycanın təmsilçisi olaraq iştirak etdi.

1952-ci ildə ABŞ dövləti Sovet rejiminə qarşı təbliğat işini gücləndirmək məqsədi ilə Münhen şəhərində SSRİ-ni Öyrənmə İnstitutu yaratdı. Bu İnstitutun müxtəlif dillərdə "Dərgi" jurnalı çap olunurdu. C.Hacıbəyli həmin İnstitutla sıx əməkdaşlıq edirdi. Bunun nəticəsi idi ki, həmin institut 1959-cu ildə C.Hacıbəylinin "Azərbaycanda İslam əleyhinə təbliğat və onun vasitələri" adlı kitabını rus dilində çap etdi[17].

C.Hacıbəyli qürbətdə olduğu 43 il müddətində həmişə Azərbaycan haqqında düşünmüşdür. Burada onun yaxın qohumları, dostları yaşayırdı. Bu mənada qardaşı Ü.Hacıbəylinin onunla yazışmaları çox təsirlidir. Ü.Hacıbəylinin Bakıdan Ceyhun bəyə yazdığı ilk məktub 1919-cu ilin 19 martına təsadüf edir. Bu məktubda maraqlı bir məlumat açıqlanıb. Ü.Hacıbəyli yazırdı: "... Səndən sonra Nəsib bəy mənimlə görüşüb dedi ki, sən müdir olduğuna görə Ceyhunun məvacibini al və Məmməd Əmin də (M.Ə.Rəsulzadə – red.) sənin məvacibini alsın"[18].

Ü.Hacıbəyli məktubda bir məqama da toxunurdu: "Azərbaycan işinə gəldikdə, Xan Xoyski hökuməti istefa verdi. Səbəbi İttihadçılar oldu. Yeni kabinə işi Nəsib bəyə həvalə olundu. Yəni Baş nazir oldu. Lakin hələ hökumət düzəlməyibdir. Yəqin sabah düzələcəkdir. Hər halda işimiz yaxşıdır. Könüllüləri və

[16] N. Yaqublu. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. B., 2009, s. 28-29.

[17] Д.Гаджибейли. Избранное. Б., 1993, с. 6.

[18] Qürbətdən gələn səslər (Ceyhun Hacıbəylinin mühacirət həyatı). B., 2016, s. 50.

sairələri şəhərdən qovduq, ingilis polisinə da ehtiyac qalmadı: bu günlərdə öz qoşunumuz gəldi"[19].

Ü.Hacıbəyli qardaşından və onun ailəsindən nigaranlıqla yazırdı: "Məni sizin əhvali-maddiyəniz çox fikirlərə salır, bilmirəm nə ilə dolanırsınız. Sənin bir işin varmı ki, ondan mədaxil ola, bəlkə ehtiyac içindəsiniz? Və bir də sizin buraya gəlməyiniz nə vaxt mümkün ola bilər? Sizi ordanmı buraxmırlar, yoxsa bura gəlməkdənmi ehtiyat edirsiniz?"[20].




C.Hacıbəylinin Parisdə məzarı.

Bu məktublardan məlum olur ki, Ü.Hacıbəyli qardaşının Bakıya qayıtmasına çalışırdı. Yazdığı məktublarda onun bu istiqamətdə "hökumətlə, komissarla, Nərimanovla" danışıqlar apardığını öyrənmək mümkündür.

Ü.Hacıbəylinin Ceyhun bəyə ünvanladığı son məktubu 1927-ci ilin 26 fevralına aiddir. Çox ehtimal ki, sovet dövləti sonradan onların yazışmalarını dayandırmışdır.

C.Hacıbəyli başqa mühacirlər kimi mühacirət həyatının ağır şərtləri altında yaşamağa məcbur olmuşdur.

1932-ci ildə təhsil haqqını ödəyə bilmədiyindən C.Hacıbəylinin oğlunu dərslərə buraxmırdılar. Bununla əlaqədar Ə.M.Topçubaşov da zəmanət məktubu ilə məktəbin direktoruna müraciət etmişdi[21].

C.Hacıbəylinin həyat yoldaşı Zəhra xanım Hacıqasımova onunla birlikdə Parisə getmiş və orada vəfat etmişdir. Onların iki övladı olmuşdir: Ceyhun və Timuçin.

Qeyd edək ki, İkinci Dünya müharibəsi illərində C.Hacıbəylinin oğlu Ceyhun da (atasının adını daşıyırdı) faşizmə qarşı Fransa dövləti tərəfindən döyüşmüş və 1943-cü ildə həlak olmuşdur.

Ceyhun bəy 1918-ci ilin 12 aprelində Bakıda anadan olsa da, Parisdə yaşamış, orada təhsil almış və 1937-ci ilin iyulun 5-də Fransada hüquq sahəsi üzrə bakalavr pilləsini bitirərək diplom almışdır.

C.Hacıbəyli 1962-ci ilin oktyabrın 23-də Parisdə vəfat etmişdir.

[19] Qürbətdən gələn səslər (Ceyhun Hacıbəylinin mühacirət həyatı). B., 2016, s. 51.
[20] Yenə orada, s. 57.
[21] S.Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, f. 649, s. 3, i. 103, v. 1.

Azərbaycanlı mühacirlərin İstanbulda nəşr edilən "Mücahid" jurnalında (redaktoru Ç.Göygöl idi) C.Hacıbəylinin ölümü münasibəti ilə "Azərbaycanlıların böyük itkisi" başlıqlı matəm xəbərində yazılmışdır : "Kədərlə öyrəndiyimizə görə, Azərbaycan Milli Hökumətinin Versal Sülh Konfransına göndərmiş olduğu nümayəndə heyəti üzvlərindən və Azərbaycan Milli Qurtuluş Birliyi Avropa başkanı, Milli Azərbaycan Hökuməti rəsmi orqanı "Azərbaycan" qəzetinin baş yazarı, ünlü Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin qardaşı, Azərbaycanın tanınmış siyasət adamı, yazar, bəstəçi və Qarabağın tanınmış şəxsiyyətlərindən Hacı Əbdülhüseyn bəyin oğlu və doktor Timuçin Hacıbəylinin atası Ceyhun bəy Hacıbəyli Parisdə 23 oktyabr 1962-ci il tarixində qısa bir xəstəlikdən sonra vəfat etmişdir"[22].

[22] Qürbətdən gələn səslər (Ceyhun Hacıbəylinin mühacirət həyatı). B., 2016, s. 468.

# ÜZEYİR HACIBƏYLİ

(1885 – 1948)



Üzeyir bəy Hacıbəyli 1885-ci ilin sentyabrın 18-də Ağcabədidə anadan olmuş, uşaqlıq illəri isə Şuşada keçmişdir.

O, ilk təhsilini rus-türk məktəbində alıb. Sonradan Qori Müəllimlər Seminariyasında oxuyub.

Ü. Hacıbəyli musiqi təhsilini artırmaq məqsədi ilə Moskvaya gedib, orada Filarmonik Cəmiyyətin musiqi kurslarında və Peterburq Konservatoriyasında təhsil alıb.

Ü.Hacıbəyli "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "Azərbaycan" qəzetləri ilə əməkdaşlıq edib və həmin mətbuat orqanlarında "Filankəs", "Üzeyir" və digər imzalarla yazılar çap etdirib.

Üzeyir bəy "Həqiqət" qəzetində, bir müddət isə "Azərbaycan" qəzetində redaktorluq edib.

Ü.Hacıbəyli 1908-ci ilin yanvarında Azərbaycanın musiqi tarixində ilk dəfə olaraq "Leyli və Məcnun" operasını tamaşaya qoyub.

O, müasir Azərbaycan musiqişünaslığının elmi əsasını qoyaraq çoxlu məqalələr yazıb, tədqiqatlar aparıb.

Ü.Hacıbəyli 1948-ci ilin noyabrın 23-də Bakıda vəfat edib.

# AZƏRBAYCAN CÜMHURİYYƏTİ HİMNİNİN MÜƏLLİFİ

Azərbaycanın görkəmli ictimai xadimi, tanınmış bəstəkarı və publisisti **Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli** 1885-ci ilin sentyabrın 18-də Ağcabədidə anadan olmuşdur. Onun uşaqlıq illəri isə Şuşada keçmişdir.

Ü.Hacıbəyli ilk təhsilini Şuşadakı ikisinifli rus-türk məktəbində almışdır. Sonra o, Qori Müəllimlər Seminariasında oxumuşdur.

Üzeyir bəy hələ gənc yaşlarından musiqiyə böyük maraq göstərmişdir. Onun böyüdüyü Şuşa mühitinin zəngin musiqi ənənələri var idi.

Ü.Hacıbəylinin qardaşı C.Hacıbəyli "İlk Azərbaycan operası necə yarandı?" məqaləsində bu haqda maraqlı məlumatlar vermişdir: "Qardaşım Üzeyirlə (o, məndən üç yaş böyükdür) gənc yaşlarımızdan musiqiyə maraq göstərdik. Qarabağın öz təbiəti, xüsusən, rəsm kimi çəkilmiş paytaxtı Şuşa lirika və poeziya sahəsində romantizm və yaradıcı ilhamla bol idi. Ən istedadlı müğənni və sazəndələr əslən Qarabağdan olanlar idi... Bizim ana qohumları arasında dayıoğlular, dayımız və digərləri daxil olmaqla 4 nəfər xanəndə, 3 tarçı isə hörmətli şəxslərin xahişi ilə məclislərdə çıxış edirdilər.

Qardaşım Üzeyirlə mənim çox gözəl səsimiz vardı və tezliklə təcrübə əsasında klassik musiqinin bütün incəliklərini öyrəndik..."[1].

Ü.Hacıbəyli Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra Cəbrayıl qəzasının Tuğ kəndində müəllimlik etdi. O, ilk yazılarını da buradan – Cəbrayıl qəzasından "Kaspi" qəzetinə göndərmişdir. Onun ilk göndərdiyi yazı 1904-cü ilin sentyabrın 24-də "Kaspi" qəzetinin 215-ci sayında bu başlıqda çap edilib: "Yazışma. Cəbrayıl qəzasından (Müxbirimizdən)"[2].

Ü.Hacıbəylinin Cəbrayıl qəzasından "Kaspi"yə göndərdiyi sonuncu yazı 1905-ci ilin 13 yanvarında çap edilib.

Tuğ kəndində müəllimlikdən sonra Ü.Hacıbəyli 1905-ci ildə Bakıya qayıtdı. O, burada bir müddət "Bibiheybət"də çalışdıqdan sonra, "Həyat" və "İrşad" qəzetləri ilə əməkdaşlıq etdi[3].

Ü.Hacıbəylinin 1904-1920-ci illərdə (Sovet rejiminə qədər) çap edilən yazıları haqqında məlumat belədir: 1) "Kaspi" qəzetində 10 məqalə (2 sentyabr 1904 – 13 yanvar 1905; 2) "Həyat" qəzetində 5 məqalə və felyeton; 3) "İrşad" qəzetində

---

[1] Д. Гаджибейли. Избранные. Б., 1993, с. 120.
[2] Ü.Hacıbəyli. Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri. B., 2009, s. 275.
[3] Üzeyir Hacıbəyov Ensiklopediyası. B., 2007, s. 216.


№ 1 Пятница 25 Декабря 1909 года.

1-ый годъ изданія

حقيقت

„ПРАВДА"

Ежедневная газета „ХАКИКАТЪ"-„ПРАВДА"

**Ü.Hacıbəylinin redaktorluğu ilə nəşr edilən "Həqiqət" qəzeti. 25 dekabr 1909-cu il.**

241 məqalə və felyeton (1905-ci ilin 28 dekabrından – 1908-ci ilin 24 iyununa qədər); 4) "Tərəqqi" qəzetində 102 məqalə (1908-ci ilin 24 iyunundan – 1909-cu ilin 28 sentyabrına qədər); 5) "Həqiqət" qəzetində 43 məqalə (1909-cu ilin 25 dekabrından – 1910-cu ilin 9 mayına qədər); 6) "Molla Nəsrəddin" jurnalında 1 məqalə (1911-ci il); 7) "Məktəb" jurnalında 1 məqalə (1911-ci il); 8) "İqbal" qəzetində 12 məqalə (1912-1913-cü illər); 9) "Yeni İqbal" qəzetində 70 məqalə (1915-1917-ci illər); 10) "İttihad" qəzetində 2 məqalə; 11) "Azərbaycan" (rusca) qəzetində 1 məqalə; 12) "Azərbaycan"(Azərbaycan dilində) qəzetində 68 məqalə (1918-1920-ci illər).

Ü.Hacıbəyli 1909-cu ilin iyunun 28-dən oktyabrın 25-dək "Tərəqqi" qəzetində (Ə.Ağaoğlu Türkiyəyə getdikdən sonra), 1909-cu ilin 25 dekabrından 1910-cu ilin mayın 28-nə qədər "Həqiqət" qəzetində, 1919-cu ilin 16 yanvarından 1920-ci ilin 28 aprelinə qədər (fasilələrlə) "Azərbaycan" qəzetində redaktor (müdir) olaraq çalışmışdır.

O, yazılarını bu imzalarla çap etdirirdi: "Hacıbəyli Üzeyir", "Üzeyir", "Ü.Hacıbəyli", "Çı", "Behmənkəs", "Lal uşaq", "Bisavad", "Musiqiçi".

Üzeyir bəy "Oradan-buradan", "O yan, bu yan" başlıqları altında olan felyetonlarına "Filankəs" imzası qoyurdu.

Ü.Hacıbəylinin 1920-ci ilə qədər iki kitabı nəşr edilmişdir: 1) "Hesab məsələləri", 2) Türk-Rusi və Rusi-Türk lüğəti" (1907-ci il). Bu kitabın naşiri M.Ə.Rəsulzadə olmuşdur[4].

Ü.Hacıbəyli 1920-ci ilə qədər olan fəaliyyətində "Leyli və Məcnun"dan başqa aşağıdakı operalarını yazmışdır: "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşid banu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915).

[4] Türk-Rusi və Rusi-Türk lüğəti (müəllif Üzeyir Hacıbəyov, naşiri Məhəmməd Əmin Rəsulzadə). B., 2013, s. 30.



Ü.Hacıbəyli "Azərbaycan" qəzetinin əməkdaşları arasında (ikinci sırada əyləşənlərdən sağdan ikinci). 1919-cu il.

Ü.Hacıbəyli məşhur operettalarını da bu illərdə yazmışdır: "Arşın mal alan", "O olmasın, bu olsun" və s.

Ü.Hacıbəyli "Çırpınırdı Qara dəniz" musiqisini (sözləri Əhməd Cavadındır) bəstələmiş və onun Azərbaycan Cümhuriyyəti dövründə yazdığı Dövlət Himni bu gün də rəsmi tədbirlərdə səslənməkdədir.

Ü.Hacıbəyli 1918-ci ildə Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra, "Azərbaycan" qəzetində müstəqil dövlətimizin geniş təbliğatını apardı. "Azadlıq", "Cümhuriyyət", "Parlament" sözləri onun yazılarının əsasını təşkil edirdi.

Ü.Hacıbəyli ilk dəfə olaraq 1918-ci ilin dekabrın 5-də "Azərbaycan" qəzetinin 56-cı sayında "Azərbaycan Parlamanı" məqaləsində Azərbaycan Cümhuriyyəti haqqında fikirlərini ifadə edirdi. O, yazırdı: "Bəli, bu günlərdə milli Parlamanımız açılasıdır, deməli, Azərbaycan istiqlalı təmin edilmiş olmasa da, təkmil ediləcək və cümhuriyyətimiz siyasi bir vahid olmaq üzrə mükəmməl bir surətə girəcəkdir"[5].

**Ü.Hacıbəyli "Azərbaycan" qəzetindəki "Tarixi günümüz" məqaləsində dekabrın 7-də açılacaq parlamentin əhəmiyyətini belə dəyərləndirirdi: "Böylə olan surətdə, deməli, qəlbimizdə bəslədiyimiz ümid – parlamanımızadır və ümidvarıq ki, cavan parlamanımız bu ümidimizin hüsuli yolunda var qüvvəsi ilə çalışacaq və siyasi imtahanının xaricilər ənzari qarşısında parlaq bir surətdə verməklə vətənimizin istiqlal və azadlığına birinci**

[5] "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920). I c. B., 2015, s. 44.



Ü.Hacıbəylinin "Azərbaycan" qəzetində imzası.



Müvəqqəti müdir Hacıbəyli Üzeyir bəy.

**səbəb olacaqdır. Yaşasın Türk Azərbaycan Cümhuriyyətinin cavan parlamanı!"[6].**

**1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamentinin açılış mərasimi oldu. Ü.Hacıbəyli "Təəssürat" məqaləsində həmin hadisəni belə təsvir edirdi: "Parlamanımız açıldı, gördük, Fətəli xan doğru dedi ki, yatsa idik də, yuxumuza girməzdi..."[7].**

**Sonra Ü.Hacıbəyli təsirli bənzətmələrlə fikrini gücləndirərək yazırdı: "Parlaman imarətinin içində ziynət cümləsindən diqqəti cəlb edən şey qiymətli xalılar deyil idi, bəlkə qiyməti ucuz, lakin mahiyyəti-milliyyə və siyasiyəsi dedikcə baha olan üçrəngli milli bayrağımız idi"[8].**

Ü.Hacıbəyli parlamentin açılış mərasimindən çox maraqlı məqamları oxuculara çatdırırdı: "Məhəmməd Əmin (Rəsulzadə – red.) nitqində bu üç rəngin: "Türkləşmək, islamlaşmaq və müasirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə bu bayraq endiriləməz!" – dedikdə bütün Məclis ayağa qalxıb, əl çala-çala bayraqları salamlarkən təəssürati-fövqəladəmdən başımın tükləri biz-biz durdu"[9].

Ü.Hacıbəyli məqaləsini təsirli cümlələrlə davam etdirirdi: "Padşahlıq məmləkətlərdə Məclisi-Məbusanı padşah açar, amma Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusanını bir nəfər vətən övladı açdı. Məhəmməd Əmində natiqlikdə "patent" qazanmış olan "orator"lara məxsus qol atma, baş oynatma, üz-gözünü sifətdən-sifətə dəyişmə kimi hərəkətlər yox idi. Bunların əvəzində özgə bir hal var idi ki, o da keçdikcə qızışıb sözlərinin dəruni qəlbdən söyləndiyini eşidənlərə hiss etdirməklə dərin təsir oyatmaq idi"[10].

Ü.Hacıbəylinin "İstiqlal və istiqlal ümidi" məqaləsi Versalda keçiriləcək Sülh Konfransına həsr edilib. O, yazırdı ki, həmin toplantıda istiqlalımıza "hə" və "yox" nəticəli qərar veriləcəkdir və oraya göndərilən nümayəndələrimiz çalışıb Azərbaycanı dünyaya tanıtmalıdır. O, narahatlıq içərisində yazırdı: "Lakin Allah eləməsin ki, "yox" xəbəri ilə qayıtsınlar! O halda bütün ümidlərimiz, bütün amal və ar-

---

[6] "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920). I c. B., 2015, s. 51.
[7] Ü.Hacıbəyli. Təəssürat. "Azərbaycan" qəzeti, 9 dekabr 1918, №60.
[8] Yenə orada.
[9] Yenə orada.
[10] Yenə orada.

zumuz məhv və nabud olub da, əvəzində qeyri-qabil təsəlli, bir hüzn və olduqca dərin bir yas və əməl əmələ gəlib, artıq dünya üzündə yaşamaq həvəsindən düşərək və ya yaşasaq da ölü olduğumuzun və ya diri qaldığımızın heç bir fərqi olmaz, çünki hüquqi-siyasi və milliyyəsindən məhrum edilmiş olan bir millətin diriliyi ölülüyünə bərabərdir"[11].

Ü.Hacıbəyli Azərbaycan Cümhuriyyətinə bağlı olmaq, dəyərləndirmək, onu müdafiə etmək prinsiplərini yazılarında əks etdirirdi: "Amma bu gün biz bu cürə dövləti qorumağa və ictimai işlərə girişməyə məcburuq. Bu cürə işlərə kənardan baxmağa və biganə qalmağa haqqımız yoxdur, çünki biz daha özgə vətənin ögey oğlu deyilik. Öz vətənimizin doğma oğluyuq. **Vətən də bizimdir, hökumət də bizimdir, camaat da bizimdir.** Bu gündən böylə hər bir əmri məhz hökumətin boynuna atmaq, "Hökumət özü bilər" demək, hökuməti təkbaşına buraxmaq, hökumətə əldən gələn köməyi etməmək mənafei-milliyyə və istiqlaliyyətimizin və həm də şan və şərəfimizin təmin və təyidi (qüvvətlənməsi – red) yolunda işləməmək, müstəqil yaşamaq iddiasında olan millət üçün günahdır"[12].

Ü.Hacıbəyli Azərbaycan Cümhuriyyətinin böyük qurucularından olan F.X.Xoyskinin istefa vermək təklifi ilə bağlı yazdığı "Yeni böhran" məqaləsində Nazirlər Şurası Sədrinin fəaliyyətini yüksək dəyərləndirirdi: "Yeni vücuda gəlmiş olan Azərbaycan hökumətinin bir neçə rəisülvüzərası (Baş nazir – red) olmaqla, Azərbaycan tarixində mühüm bir mövqe tutmuş olan Fətəli xan həzrətləri, bu yeni dövlətin vəziyyətini köhnə parələrdən əmələ gəlmiş bir gəmiyə bənzədirdi ki, bu kimi fırtınalı bir gündə dərya üzərində hər saat və hər an dağa-daşa çırpılıb dağıla bilmək təhlükəsi qarşısında qalmış bütün ümidini gəmiçinin ustadlıq və məharətinə bağlamışdı[13].

**Ü.Hacıbəyli Azərbaycan istiqlalının bir illiyinə həsr etdiyi məqaləsini "Bir yaş" adlandırırdı. Onun bu yazısında Azərbaycan istiqlalına böyük bağlılıq vardır. Üzeyir bəy yazırdı: "Bu gün istiqlalını elan etmiş olduğumuz və bu istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanımanlarımızı xərabə qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk Dövlətinin bir yaşı tamam olub da iki yaşa qədəm qoyduğu gündür.**

Novzad dövlətimizin təvəllüdü, ana vətənin bətnindən doğulması çətinliklə əmələ gəldi. Ana vətən balasını doğarkən özünü qurban edəcək dərəcəsinə

[11] Ü.Hacıbəyli. İstiqlal və istiqlal ümidi. "Azərbaycan" qəzeti, 30 dekabr 1918, №74.
[12] Ü.Hacıbəyli. Cəmaət köməkliyi. "Azərbaycan" qəzeti, 8 yanvar 1919, №82.
[13] Ü.Hacıbəyli. Yeni böhran. "Azərbaycan" qəzeti, 28 fevral 1919, №125.

gəlmişdi. Azərbaycan torpağı bir xarabazara, bir viranəyə dönəcək idi. Onun, o madəri-mehribanın nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar həm anasını, həm bətnindəki balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurd-xəşil etməklə anasını da, balasını da öldürmək istəyirdilər. Lakin bu zəif sinə içinə gizlənmiş olan eşq və məhəbbət o dərəcə böyük bir qüvvəti haiz idi ki, zəif cisim, qüvvətli ruh sayəsində düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarını qeyb etmədi"[14].

**Ü.Hacıbəyli Azərbaycan istiqlalının mövcud durumunu belə təqdim edirdi: "Biryaşlı dövlətimiz gələcəkdə və yaxın gələcəkdə türklüyün ümidgahı, islamlığın pənahı və aləmi-mədəniyyətin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda hər kəsə bildirməkdədir"[15].**

Ü.Hacıbəyli "Azərbaycan" qəzetində o dövrdə Qarabağda baş verən hadisələrlə də bağlı yazılar çap etdirir, bu bölgədə erməni silahlılarının dinc insanlara qarşı törətdikləri vəhşiliklərdən yazırdı: "Təqribən bir ay bundan əvvəl idi ki, Qarabağdan gələn ahu-fəryadlar həm hökumətimizi, həm də cəmiyyətimizi təchiz etməklə Azərbaycan torpağının bu hissəsinə xüsusi bir nəzər yetirilməsini tələb edirdi. Nə olmuşdu orada? Ermənilərin generalı sayılan Andronik öz quldur dəstəsi ilə Qarabağın Zəngəzur adlanan qəzası üzərinə tökülüb müsəlman əhalisini qətli-qarət kimi quldurlara məxsus əməlləri ilə tədhiş edib buraları müsəlmanlardan təmizləmək istəyirdi. Şübhəsizdir ki, hökumətimiz Azərbaycan türklərinə qarşı icra edilən və rəva görülən bu vəhşiliklərə göz yuma və istimdad (komək) fəryadlarına qulaq asmaya bilməzdi. Hökumətimiz ingilis komandanlığının nəzərini dəxi bu günə, vəhşi əməllərə cəlb edib Andronikin əməli-vəhşiyanəsinə nəhayət çəkdirdi"[16].

Ü.Hacıbəylinin "Azərbaycan" qəzetində çap edilən **"İçimizdəki Denikinlər"** məqaləsi də çox əhəmiyyətlidir. 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin sərhədlərində dayanan, çar Rusiyasının generalı olmuş Denikin "Bölünməz Rusiya" xülyalarından uzaqlaşa bilmir, yaranmış müstəqil dövlətləri təhdidlər altında saxlamağa çalışırdı.

Azərbaycan Cümhuriyyətinin fəaliyyətinə ölkə daxilində mane olanları Ü. Hacıbəyli "İçimizdəki Denikinlər" adlandırıb yazırdı: "Bir Denikin var ki, bizi xaricdən təhdid edir. Bir çox denikinlər də var ki, içimizə dolub, ən xətərli yerlərimiz-

---

[14] "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920). II c. B., 2016, s. 147.
[15] Yenə orada.
[16] Ü.Hacıbəyli. Fitnələr qarşısında. B., 1995, s. 52-53.

də gizlənib də bizi daxildən qorxudurlar. Heç şübhə edilməsin ki, bu daxili denikinlərimizin qorxusu xarici Denikinin qorxusundan daha böyük və daha xətərlidir. Çünki xarici Denikin göz önündədir, aşkardır. Daxili denikinlər isə içimizdə gizlənmişlər, özlərini göstərmirlər. Gizli düşmənin aşkara düşməndən daha təhlükəli olduğu hər kəsə məlumdur".



Üzeyir bəyin qardaşı C.Hacıbəyliyə məktubu. 10 iyun 1923-cü il.

**Ü.Hacıbəylinin "Azərbaycan" qəzetindəki son yazısı "Zurna" adlanırdı. Yazı 1920-ci ilin aprelin 25-də qəzetin 82-ci sayında "Çı" imzası ilə çap olundu.**

**Ü.Hacıbəyli böyük uzaqgörənliklə iki gündən sonra Azərbaycanı işğal edəcək bolşeviklər haqqında yazırdı: "Mən demirəm ki, Nikolay hökuməti ilə Lenin hökuməti arasında təfavüt yoxdur, xeyir! Təfavüt vardır və o özü də bundan ibarətdir ki, nikolaylar və generallar hökuməti bizə həmişə "usvoloç" (itoğlu – red) deyib, atamıza söyərdilər, mujik və raboçi (fəhlə – red) hökuməti məşhur rus söyüşü ilə anamıza söyəcəklər"[17].**

**1920-ci ilin aprelin 27-də Rusiyanın XI işğalçı ordusu Azərbaycan sərhədlərini keçib ölkə ərazisini işğal etdi.**

Sovet işğalının ilk illərində Ü.Hacıbəylinin həyatı sakit keçmədi. Bəzi məlumatlarda onun da bolşeviklər tərəfindən güllələnmə ehtimalı qeyd olunmaqdadır. Üzeyir bəyin xilasına kömək edən əsas şəxsin onun həyat yoldaşı Məleykə xanımın qardaşı İ.Terequlov olduğu söylənilməkdədir (İ.Terequlov o dövrdə Fövqəladə Komissiyada çalışırdı).

Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra o, mənən qəbul etmədiyi, məcbur olub 28 il yaşadığı sovet dövründə ümumilikdə 90-na qədər (Azərbaycan və rus dillərində) məqalə çap etdirdi.Azərbaycanın işğalına qədər isə onun (1904-cü ildən 1920-ci ilə qədər) 16 il ərzində 600-ə yaxın məqaləsi çap olunmuşdur.

[17] Ü. Hacıbəyli. Fitnələr qarşısında. B., 1995, s. 162.

Ü.Hacıbəylinin Sovet dövründə 1 kitabı rus dilində çap edildi: **"Azərbaycan xalq musiqisinin əsasları".**

**Ü.Hacıbəyli sovet dövründə bütün fəaliyyətini Azərbaycan musiqisinin inkişafına həsr etdi. 1920-ci ilə qədər çoxlu sayda musiqi əsərləri bəstələyən Ü.Hacıbəyli yalnız 1937-ci ildə bir opera əsəri – "Koroğlu"nu yazdı[18].**

Bolşeviklər böyük bəstəkar Üzeyir Hacıbəylinin musiqisini də xalqa unutdurmaq istədilər. Bununla yanaşı, Azərbaycana bəstəkar da dəvət etdilər. Tanınmış rus bəstəkarı Qliyer, bəstəkar Zülfüqar Hacıbəylinin "Açıq Qərib" operasını "Şahsənəm" operasına çevirib təqdim etdi. Lakin bu Qliyer musiqisi özünü doğrultmadı.



**Ü.Hacıbəyli ömrünün sonlarında.**

Ü.Hacıbəylinin əsərlərini kölgədə saxlamaq istəyən bolşevik ideoloqları buna nail olmadı. Qliyer kimi bəstəkarlar Ü.Hacıbəyli musiqisinin dəyərini əvəz edə bilmədilər

Ü.Hacıbəylini Azərbaycan Sovet dövlətinin himnini yazmağa cəlb etsələr də, onu SSRİ-nin orden və medalları ilə təltif etsələr də, xalqa bağlılıq ruhunda olan əsərlərini inkar etdirə bilmədilər. Sanki bu Qliyerlərə, "Şahsənəm"lərə cavab olaraq Ü. Hacıbəyli 1937-ci ildə özünün növbəti bir ölməz əsərini – "Koroğlu"nu yazdı.

Sovet rejimində Ü. Hacıbəyli 1938-ci ilə qədər böyük həcmli əsər də yazmadı. Tanınmış mühacir Ə.F.Düdənginski Münhendə nəşr edilən "Azərbaycan" jurnalında yazırdı: "Bu qaynar yaradıcı fəaliyyət birdən-birə kəsilir. Sovet istilasından ta 1938-ci ilə qədər bəstəkarımız susmağa məcbur olur. Sovet hökuməti öz "socialist ismarlamaları" ilə Üzeyir bəyi yaradıcılıq böhranına məruz qoyur və musiqi fəaliyyətini davam etdirmək üçün bir açıq qapı da buraxmır. Şübhəsiz ki, sovetlərin ismarlamaları və əmrləri ilə Hacıbəyli yarada bilməzdi"[19].

[18] Üzeyir Hacıbəyov Ensiklopediyası. B.,.2007, s.222.
[19] Ə. Fətəlibəyli. Azərbaycan xalqının böyük oğlu. "Azərbaycan" jurnalı, Münhen, 1952-ci il, N6-7, s. 7.

Ü. Hacıbəyli bu illərdə fəaliyyətsiz dayanmadı. Gənc musiqiçilər yetişdirdi, Azərbaycan Xalq Musiqisini nota köçürdü, Azərbaycan Musiqi Məktəbinin direktorluğunu etdi, Azərbaycan Konservatoriyasının rektoru oldu, Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik etdi, böyük bir xor heyəti yaratdı.

Bu dövrdə Üzeyir bəysiz opera sənəti inkişaf etmədi. Azərbaycan SSR-nin Xalq Maarif Komissarı Mustafa Quliyev və başqaları Üzeyir bəyin əsərlərini aşağılayaraq "Quba meydanı" kimi adlandırmışdılar (yəni təhqiramiz münasibət).

1908-ci ildən 1920-ci ilə qədər 10-a qədər opera yazan Ü.Hacıbəyli Azərbaycanın sovetləşməsindən keçən 17 ildə heç bir opera əsəri yazmadı. Əslində, ona bu imkanı heç yaratmadılar da.

1920-ci illərdə Ü.Hacıbəyliyə qarşı mənəvi terror və ittihamlar davam edirdi. 1920-ci illərdə Ü.Hacıbəylinin əsərləri haqqında mətbuatda nəşr edilən yazılardan:

– "Onun (Ü. Hacıbəylinin) bütün operaları və operettaları mistik və idealist motivlər ilə doldurulmuşdur. Əsərlərinin əsasında fatalist dünyagörüşü hakimdir".

– "Varlı tacirləri, insaflı mülkədar məişətini təsvir edən Nuh əyyamından qalma "Arşın mal alan" operettasının sosializm mədəniyyəti ilə nə kimi əlaqəsi ola bilər?"

– "Truppa utanmadan bu yaxınlarda "Leyli və Məcnun" kimi lüzumsuz, mənasız və zərərli operanı oynadı".

Ü. Hacıbəyli bu sıxıntılara baxmayaraq 1937-ci ildə "Koroğlu" operasını yazdı və sanki bu əsəri ilə o, xalqı bolşevik rejiminə qarşı üsyana çağırdı. "Koroğlu"nun "Üvertürası" isə 1918-1920-ci illərdə mövcud olmuş azad bir dövlətin - Azərbaycan Cümhuriyyətinin ruhunu yaşadırdı. Bu, Ü. Hacıbəylinin qanlı bir bolşevik diktaturasına qarşı 17 illik susmağından sonra barışmazlığı və etirazı idi.



**Ü.Hacıbəylinin dəfni. 23 noyabr 1948-ci il.**

Ü.Hacıbəyliyə qarşı sovet rejiminin mənfi münasibəti 1920-ci illərin sonlarında daha sərt oldu. Ona bu

münasibətin yaranmasında qardaşı C.Hacıbəylinin Avropada sovet dövləti əleyhinə çalışmalarının da böyük təsiri vardı.

Ü.Hacıbəyli isə ciddi cəhd göstərməsinə baxmayaraq qardaşının Azərbaycana qayıtmasına nail ola bilmədi.

Bu mənada onun C.Hacıbəyliyə yazdığı məktublarda təsirli məqamlar çoxdur. Ü.Hacıbəyli bu məktublarında ailə, məişət və dolanışıq problemləri ilə yanaşı, qardaşından nigaranlığını, onun ailəsindən, uşaqlarından ötrü darıxdığını ağrılı bir formada açıqlayırdı.

Ü.Hacıbəyli peşəcə müəllimə olan Məleykə xanım Terequlova ilə ailə həyatı qurmuşdu. Lakin onların 40 illik birgə həyatında övladları olmadı.

Ü.Hacıbəyli 1948-ci ilin noyabrın 23-də dünyasını dəyişdi.

**Azərbaycan Milli Qurtuluş hərəkatının ideoloqu M.Ə.Rəsulzadə Ü.Hacıbəyli haqqında yazırdı: "Başda bir həvəskar olaraq işə başlayan Hacıbəyli sonra özü-özünü yetişdirmiş, musiqi təhsilini tamamlamış, nəticədə sözün Avropa mənası ilə otoritəsini** (nüfuzunu – red.) **hər kəsə tanıtmış bir bəstəkar olmuşdur. Yazıq ki, bolşevik rejimi *Azərbaycanın bu müstəsna zəkasını da* öz diktatorluğu altına almış və onu bayağı mənfəətləri üçün sümürdükcə sümürmüş və verdiyi bir neçə rəsmi, siyasi vəzifə və ünvanlarla onu "mənimsəmişdir".**

**Fəqət beyhudə, dəmir pərdənin arxasında özünə süni marşlar yazdırılsa da, tabutu başında Azərbaycan mənəviyyatı ilə ilgiləri olmayan komissarlar növbədə dursalar da, Hacıbəyli Üzeyiri Azərbaycandan, Azərbaycan kültüründən və Azəri türk tarixindən kimsə ayıramaz! O, milli Azərbaycan varlığının məsnədləri** (qaynaqları – red.) **arasında qalacaq ayrılmaz bir dəyərdir"**[20].

[20] M.Ə.Rəsulzadə. Hacıbəyli Üzeyir. "Azərbaycan" jurnalı, Ankara, 1952, № 8, s. 8-9

# ƏHMƏD CAVAD

(1892 – 1937)



Azərbaycanın tanınmış şairi Əhməd Cavad 1892-ci ilin mayın 5-də Gəncə qəzası, Şəmkir nahiyəsinin Seyfəli kəndində anadan olub. 1906-cı ildə mədrəsə adlanan Yelizavetpol (Gəncə) Müsəlman Ruhani Seminariyasında oxuyub.

Ə.Cavad 1912-ci ilin mayın 27-də təhsilini başa vurub.

Ə.Cavad Müsəlman Xeyriyyə Cəmiyyətinin məsul katibi olaraq 1914-1918-ci illərdə böyük fəaliyyət göstərib.

1927-1933-cü illərdə Gəncədəki Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışıb.

Ə.Cavad 1937-ci ilin oktyabrın 13-də güllələnib.

# DÖVLƏT HİMNİNİN MÜƏLLİFİ

Azərbaycanın Dövlət Himninin müəllifi, tanınmış şair və cümhuriyyət dövrünün qüdrətli tərənnümçüsü Əhməd Cavad (Cavad Məhəmmədəli oğlu Axundzadə) 1892-ci ilin mayın 5-də Gəncə qəzası, Şəmkir nahiyəsinin Seyfəli kəndində anadan olmuşdur.

Ə.Cavad səkkiz yaşında olarkən atasını itirmiş, ilk olaraq molladan ərəb-fars dillərini öyrənmişdir.

Ə.Cavad ilk şeirini 1906-cı ildə yazmışdır. Elə həmin ildə o, mədrəsə adlanan Yelizavetpol (Gəncə) Müsəlman Ruhani Seminariyasına daxil olub, 1912-ci ildə təhsilini tamamlamışdır[1].

Ə.Cavada 1912-ci ilin mayın 27-də verilən şəhadətnamədən məlum olur ki, həmin seminariyanı bitirən şəxs digər fənlərlə yanaşı, Azərbaycan dili də daxil olmaqla dörd dil öyrənirdi: rus, ərəb, fars.

Ə.Cavad 1914-cü ildə Türkiyədə olmuş, Birinci Dünya müharibəsi başladığından bir neçə ay sonra geri qayıtmışdır.

Ə.Cavad 1914-1918-ci illərdə Müsəlman Xeyriyyə Cəmiyyətinin katibi olmuş, ön cəbhəyə gedərək məqalələr, xəbərlər, reportajlar yazıb qəzet və jurnallarda çap etdirmişdir.

Ə.Cavad **"Çırpınırdı Qara dəniz, baxıb türkün bayrağına"** adlı şeirini də məhz həmin dövrdə – 1914-cü ildə yazmışdır.

Şair həm həsrətlə, həm qürurla bu misraları yazırdı:

***Çırpınırdı Qara dəniz***
***Baxıb türkün bayrağına!***
***"Ah!.." deyərdim, heç ölməzdim***
***Düşə bilsəm ayağına!***[2]

**Sonralar böyük bəstəkar Ü.Hacıbəyli bu şeirə təsirli musiqi bəstələmişdir.**

Ə.Cavad Xeyriyyə Cəmiyyətinin tapşırığı ilə 1915-1916-cı illərdə Acarıstana – Batuma getmiş, orada Süleyman bəyin qızı Şükriyyə xanımla ailə həyatı qurmuşdu[3].

**1918-ci ilin mayın 28-də Azər-baycan Cümhuriyyətinin yaradılması Ə. Cavadın həyatında və yaradıcılığında mühüm rol oynadı.**

---

[1] Ə. Cavad. Seçilmiş əsərləri. I c, B., 1992, s. 11.
[2] Yenə orada, s. 149.
[3] N. Yaqublu. Ağrılı ömürlər. B., 1990, s. 232.


Ə.Cavad.

Ə.Cavad cümhuriyyətin ilk dövründə Maarif naziri olan (28.05.1918 – 26.12.1918)[4] N.Yusifbəylinin yaxın köməkçisi və dostu idi.

Ə.Cavad Müsavat Partiyasının üzvü olmaqla yanaşı parlamentin işinə kömək edir, yeni universitetin və bir çox məktəblərin açılmasında yaxından iştirak edirdi.

Ə.Cavad yeni yaranmış Azərbaycan Cümhuriyyətinin tərənnümçüsü və böyük istiqlal şairi idi.

O, 1918-1920-ci illərdə yaradıcılığında Azərbaycan bayrağını, Azərbaycanı xilasa gəlmiş türk əsgərini böyük sevgi ilə tərənnüm edirdi.

Ə.Cavadın Azərbaycan Cümhuriyyəti dövründə yazdığı ilk şeir belə adlanır: **"Elin bayrağı"**. Şeirin Milli Şuraya həsr edildiyi yazılıb. Bu şeir 1918-ci ildə Azərbaycan Cümhuriyyəti hökuməti Gəncədə olarkın qələmə alınmışdır. Dörd bənddən ibarət olan şeirdə bu misralar var:

*Bu bəxtsiz millətin daddığı acı,*
*Çalış əlac olsun, diriltsin onu!*
*Düşmən başındakı o zəfər tacı*
*Görsün ki, hər qəmin deyildir sonu!*

*Təmiz al alnındakı tozu, torpağı,*
*Haqq üçün açdığın əllərinlə sil!*
*Qalxıb bir də enməz elin bayrağı,*
*O sənin, o mənim əlimdədir, bil!*[5].

Bu şeir Azərbaycan ədəbiyyatı tarixində bayrağımıza həsr edilən ilk şeir hesab edilməkdədir.

Qeyd edək ki, Ə.Cavad bu şeiri yazanda Azərbaycan Cümhuriyyəti hökumətinin 1918-ci il 21 iyun tarixli qərarı ilə dövlət bayrağımız qırmızı rəngdə idi. Üçrəngli milli bayrağımız haqqındakı qərar isə 1918-ci ilin noyabrın 9-da qəbul edildi.

---

[4] N. Yaqublu. Müsavat Partiyasının tarixi. B., 2012, s. 91.
[5] Ə. Cavad. Seçilmiş əsərləri. I c, B., 1992, s. 140.

Ə.Cavad 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Gəncəyə Bakını azad etmək üçün gələn qəhrəman türk əsgərini alqışlayaraq **"Ey əsgər!"** şeirində yazırdı:

*Dağa, daşa sancağını öpdürüb,*
*Duman kimi bu dağları bürüdün!*
*Dənizlərə salam rəsmi yapdırıb,*
*Göylərdəki bulud kimi yürüdün!*
*Yürü, yürü batan günəş izinə!*
*Gülümsəyir doğan günəş yüzünə!*

*Arslan kibi saldırdığın düşmana,*
*Ər oğlu ər olduğunu göstərdin!*
*Fələk bu gün uyğun sana diyor ki,*
*Türk əsgəri, sən böyləmi istərdin?!*[6].

Ə.Cavadın bu şeiri türk əsgərlərinin Bakıya daxil olma ərəfəsində Güzdək bölgəsində yazdığı qeyd edilməkdədir.

Ə.Cavadın 1918-ci ilin iyulun 16-da yazdığı **"Bismillah"** şeiri çox təsirli idi. Şair bu şeirində düşmən üzərinə qorxmadan hücum edən, Bakını xilasa çalışan əsgərin qəhrəmanlığından danışırdı:

*Atıldı dağlardan zəfər topları,*
*Bürüdü elləri əsgər, bismillah!*
*O xan sarayında çiçəkli bir qız*
*Bəkliyor bizləri zəfər, bismillah!*

*Ey Bakı, sən qorxma, gəldik, gələli,*
*Səninçün atıldıq daim irəli!*
*Sağ qalanlar annələrə təsəlli,*
*Şəhidlərin ruhu gülər, bismillah!*[7].

Ə.Cavad hələ Gəncədə olan, Bakını xilasa hazırlaşan türk ordusuna sevgisini **"Türk ordusu"** şeirində belə açıqlayırdı:

*Ey şanlı ölkənin şanlı ordusu,*
*Unutma Qafqaza girdiyin günü!*
*Gəlirkən qovmağa Turandan urusu,*
*Ayağını Qara dəniz öpdümü?*[8].

---

[6] Ə. Cavad. Seçilmiş əsərləri. I c. B., 1992, s. 151.
[7] Yenə orada, s. 147.
[8] Yenə orada, s. 152.

**Bakını düşmənlərdən azad edərkən mindən çox türk əsgəri şəhid oldu. Türkiyədən gəlib yalnız Bakını yox, bütövlükdə Azərbaycanı azad etmiş şəhidlərin bir çox bölgələrdəki məzarları müqəddəs ziyarətgahlara döndü.**

Ə.Cavad xalqın türk şəhidlərinə olan sevgisini **"Şəhidlərə"** şeirində belə duyğularla çatdırırdı:

*Qalx, qalx sarmaşıqlı məzar altından,*
*Gəlmiş ziyarətə qızlar, gəlinlər!*
*Ey karvan keçidi, yollar üstündə,*
*Hər gələn yolçuya yol soran əsgər!*

*Sənin qovduqların yabançı xanlar,*
*Qurtardı ölkəni tökdüyün qanlar!*
*Bax nasıl öpməkdə tozlar, dumanlar,*
*Qərib məzarını, mən də bərabər!*[9].

Ə.Cavadın 1919-cu ilin iyulun 24-də yazdığı şeir üçrəngli bayrağımıza həsr edilmişdi və belə adlanırdı: **"Al bayrağa".** Ə.Cavad bu şeirində bir rəssam kimi bayrağın təsvirini belə təqdim edirdi:

*Gül rəngində bir yaprağın*
*Ortasında bir hilal!*
*Ey al bayraq, sənin rəngin*
*Söylə neyçin böylə al!?*

*Ey sevgili bayrağımın*
*O dalğalı duruşu!*
*Sandım salam rəsmi sana*
*Buludların yürüşü!*[10].

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildi. 1920-ci ilin mayın 3-də işğalçı əsgərlər parlament binasına qalxıb üçrəngli bayrağımızı aşağı endirdilər. O müqəddəs və azadlıq rəmzi olan bayrağımızın yerinə yad bir ideyanın daşıyıcısı olan qırmızı sovet bayrağını asdılar.

---

[9] Ə. Cavad. Seçilmiş əsərləri. I c. B., 1992, s. 154.
[10] Yenə orada, s. 141.

Bir müddət sonra üçrəngli bayrağın həsrətini çəkən Ə.Cavad bu misraları yazdı:

*Çoxdandır ayrı düşdüm*
*Üç boyalı bayraqdan.*
*A dostlar, mən yoruldum,*
*Bu gizli ağlamaqdan*[11].

Ə.Cavad 1920-1922-ci illərdə Qubada Xuluq kəndində müəllimlik etdi, Xalq Maarifi şöbəsində çalışdı. O, 1927-ci ildən Pambıqçılıq İnstitutunda (sonradan Gəncə Kənd Təsərrüfatı İnstitutu adlandı – red.) müəllim, dosent, kafedra müdiri işlədi. 1930-cu ildən institut Gəncəyə köçürüləndə o da Bakıdan getdi. Ə.Cavad həmin institutda türk və rus dillərini tədris edirdi.

Ə.Cavadı ilk dəfə 1923-cü ildə həbs etdilər. Onu müsavatçı M.B.Məmmədzadənin Azərbaycandan qaçmasına şərait yaratmaqda təqsirləndirdilər. Onun həbsdən azad olunmasında keçmiş müəllim yoldaşı Mir Cəfər Bağırov və H.Musayev önəmli rol oynadı.

Ə.Cavadın əleyhinə sovet mətbuatında vaxtaşırı yazılar çap edilirdi. O, sərt şəkildə tənqid olunurdu. Sovet tənqidçiləri yazırdılar: "Bir az da əski şairlərdən bəhs edək. Biz güman etmirik ki, Cavad Axundov və Hüseyn Cavid kimi şairlərdə bu yaxın zamanlarda lazımi bir dönüş əmələ gələcəkdir... Mündəricə etibarı ilə bu şairlərin yazıları yeni cəmiyyətin və yeni Azərbaycan mədəniyyətinin əleyhinədir"[12].

Ə.Cavadın 1930-cu ilin aprelində yazdığı **"Kür"** əsəri də sovet tənqidçilərini narahat etdi. Əsərdə səslənən "Əyil Kürüm, əyil, keç! Meydan sənin deyil, keç!" misralarına siyasi xarakter verdilər.

Ə.Cavadın 1925-ci ildə yazdığı **"Göygöl"** şeirindəki bir bənd ona daha böyük problem yaratdı:

*Sənin gözəlliyin gəlməz ki, saya,*
*Qoynunda yer vardır yıldıza, aya.*
*Oldun sən onlara mehriban daya,*
*Fələk büsatını quralı, Göygöl!*[13].

Şeirdə işlədilən "ulduz", "ay", "yaşıl" sözlərinə görə onu ittiham etdilər. Onu ötən günləri, üçrəngli bayrağı və Müsavatı yada salmaqda günahlandırdılar.

[11] N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 2012, s. 154.
[12] N. Yaqublu. Ağrılı ömürlər. B., 1990, s. 238.
[13] Ə. Cavad. Seçilmiş əsərləri. I c. B., 1992, s. 230.


Ə.Cavad həbsxanada.

**M.Ə.Rəsulzadə çağdaş Azərbaycan ədəbiyyatı ilə bağlı məqaləsində Ə.Cavad haqqında yazırdı: "Milli cərəyanın digər nümayəndəsi Cavad Axundzadənin işi bolşevik dövründə qətiyyən gətirmir. Əski bir müsavatçı olduğuna görə onu həbs edirlər. Mətbuat səhifələrində, ədəbiyyat qurultaylarında hər yerdən uzaqlaşdırılır və qovulur"**[14].

Ə.Cavadı 1937-ci ilin iyunun 4-də həbsə aldılar. Onunla bağlı istintaq prosesi 1937-ci ilin sentyabrın 25-də başa çatmışdır.

Ə.Cavada həbsxanada işgəncə verirdilər. Onun həyat yoldaşı Şükriyyə xanıma tanışı Mariya Sergeyevna belə məlumat çatdırmışdı ki, Ə.Cavadı Bayıl həbsxanasının səyyar xəstəxanasına başı tənziflə sarınmış halda, 40 dərəcə temperaturda gətiriblər.

Ə.Cavadın 1937-ci ilin oktyabrın 12-də qapalı keçirilən məhkəməsi 15 dəqiqə davam etmişdi.

**1937-ci ilin oktyabrın 12-dən 13-nə keçən gecə Ə.Cavadı güllələdilər.**

1938-ci ilin fevralında onun həyat yoldaşı Şükriyyə xanımı da həbs edib, səkkiz il müddətinə Qazaxıstana sürgünə göndərdilər.

Bu hadisədən sonra qorxudan qaçıb gizlənən Ə.Cavadın böyük oğlu 20 yaşlı Niyazi də axtarılıb tapıldı və üç ay yarım həbsdə saxlanıldı. Ə.Cavadın 16 yaşlı oğlu Aydın Keşlə həbsxanasına aparıldı, 14 yaşlı oğlu Tuqay Volqa-Nikolayev şəhərindəki çətin tərbiyə olunan uşaq yetimxanasına göndərildi. Ə.Cavadın bir yaş yarımlıq kiçik oğlu Yılması isə Volodarsk fabriki nəzdindəki körpələr evinə apardılar.

Ə.Cavadın həyat yoldaşı Şükriyyə xanım səkkizillik sürgün həyatından sonra 1946-cı ildə Bakıya qayıtsa da, ona Bakıda yaşamağa icazə verilmədi. O, Şəmkirə getməyə məcbur oldu.

---

[14] M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. B., 1991, s. 68.

AZƏRBAYCANIN SÜLH NÜMAYƏNDƏ HEYƏTİNİN ÜZVLƏRİ

# MİR YAQUB MEHDİYEV

(1891 – 1949)



Mir Yaqub Mehdiyev 1891-ci ildə anadan olub. İttihad Partiyasının rəhbərlərindəndir. Peterburq Politexnik İnstitutunda və Almaniyada təhsil alıb. İqtisadçıdır. Zaqafqaziya Seyminin üzvü idi. 1918-ci ilin fevral-martında Zaqafqaziya nümayəndəliyinin üzvü kimi Trapezund Sülh Konfransına göndərilib.

M.Y.Mehdiyev Azərbaycan Parlamentinin də üzvü idi. 1918-ci ilin 7 dekabrındakı 1-ci iclasda o da komissiya təşkilinə "hər partiyadan bir nümayəndə, əyalət, şəhər nümayəndələrindən isə bir nəfər üzv" təklifi ilə çıxış edib[1].

1919-cu ilin yanvarında məsləhətçi olaraq Paris Sülh Konfransına göndərilən Azərbaycan Nümayəndə heyətinin tərkibinə daxil edilib.

1920-ci ildən mühacirətdə yaşayıb. Prometey hərəkatında yaxından iştirak edib. Onun Polşada – Varşavada türk və rus dillərində nəşr edilən "Şimali Kafkasiya" – "Severnıy Kavkaz" jurnalında 6-ya qədər məqaləsi və digər mətbuat orqanlarında da yazıları çap olunub. 1994-cü ildə Bakıda "Beynəlmiləl siyasətdə petrol" kitabı da nəşr edilib.

[1] Azərbaycan Xalq Cümhuriyyəti Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 45




**M.Mehdiyevə məxsus sənəd.**

M.Y.Mehdiyev İkinci Dünya müharibəsi illərində Türkiyəyə gedib və 1949-cu ildə orada vəfat edib.




**M.Mehdiyevin İstanbulda məzarı.**

# MƏMMƏD MƏHƏRRƏMOV

(1895 – 1982)



Məmməd Məhərrəmov 1895-ci ildə anadan olub. Peterburq İmperator Universitetinin tibb fakültəsində oxuyub, sonradan isə Moskva Universitetində təhsilini davam etdirib. Sosialistlər Partiyasına mənsub idi. 1918-ci ildə Azərbaycan Parlamentinin üzvü seçilib.

M.Məhərrəmov Azərbaycan Parlamentinin ilk iclaslarında böyük fəallıq göstərib. 1918-ci ilin 7 dekabrında keçirilən ilk iclasda o, Ədliyyə komissiyası yaradılması təklifini irəli sürmüşdür.

Parlamentin 15 dekabrda keçirilən 3-cü iclasında o, Etimadnamə komissiyası adından geniş məruzə etmişdir[2].

Parlamentin 1918-ci ilin 20 dekabrında keçirilən 4-cü iclasında M.Məhərrəmov ermənilərin Qarabağda, Cəbrayılda və Zəngəzurda törətdikləri vəhşiliklər haqqında hökumətin məlumat verməsini xahiş etmişdir.

Parlamentin 1918-ci ilin 26 dekabrında keçirilən 5-ci iclasında M.Məhərrəmov Sosialistlər İttifaqı fraksiyası adından yeni hökumətə etimad bəyan etdiyini bildirmişdir.

[2] Azərbaycan Xalq Cümhuriyyəti Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 145

Parlamentin 30 dekabrda keçirilən 6-cı iclasında M.Məhərrəmov polis məmurlarının bəzi siyasi firqə üzvlərini həbs etmələrinin müzakirəsini təklifini irəli sürmüşdür.

1919-cu ilin yanvarında Azərbaycan Nümayəndə Heyətinin tərkibində müşavir olaraq Paris Sülh Konfransına göndərilmişdir. 1920-ci ildən mühacirətdə yaşamışdır.

O, Prometey hərəkatının fəallarından idi. 1972 və 1975-ci illərdə Bakıya gəlmək və qohumları ilə görüşmək imkanı əldə etmişdir.

M.Məhərrəmov 1982-ci ilin martın 3-də Parisdə vəfat etmiş və Monparks qəbiristanlığında dəfn olunmuşdur[3].



**M.Məhərrəmov (soldan birinci), M.Mehdiyev və Ə.M.Topçubaşov. Paris.**




**M.Məhərrəmovun Parisdə məzarı.**

[3] M.Həsənov. Qərib məzarlar. B., 2015, s. 90.

# ABBAS ATAMALIBƏYOV

(1895 – 1971)



Abbas Atamalıbəyov 1895-ci ildə anadan olub. Sankt-Peterburq Politexnik İnstitutunda hərbi dəniz mühəndisliyi ixtisasını öyrənib. Eser Partiyasına mənsub idi. 1918-ci ilin dekabrın 7-dən fəaliyyətə başlayan Azərbaycan Parlamentində Sosialistlər İttifaqı fraksiyasına daxil idi. 1919-cu ilin sentyabrında Parisə göndərilib və Azərbaycan Nümayəndə heyətinin katibi funksiyasını yerinə yetirib. 1920-ci ildən Fransada mühacirətdə yaşayıb. 1923-cü ildə Parisdə Siyasi Elmlər İnstitutunu bitirib. Prometey hərəkatının fəallarından olub. 1935-1939-cu illərdə Qafqaz Konfederasiya Şurasının tərkibinə daxil olunub[1].

1948-1966-cı illərdə Çilidə, 1967-ci ildən isə ABŞ-da yaşayıb.

A.Atamalıbəyov 1971-ci ildə ABŞ-ın Klivlend şəhərində vəfat edib[2].




**A.Atamalıbəyovun məzarı.**

[1] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения "Прометей". Сборник документов. М, 2012, с. 215.
[2] M.Həsənov. Qərib məzarlar. B., 2015, s. 55.

# ƏHMƏD AĞAOĞLU (AĞAYEV)

(1869 – 1939)



Əhməd bəy Ağaoğlu (Ağayev) 1869-cu ildə Şuşada anadan olub. İlk təhsilini Şuşadakı rus məktəbində və Tiflis gimnaziyasında alıb. Peterburq Mühəndis-Texniki İnstitutunda oxuyub, burada təhsilini yarımçıq qoyub, 1888-ci ildə Parisə gedib. Parisdə hüquq məktəbini və Sorbonna Universitetini bitirib. 1894-cü ildə Bakıya qayıdıb, 1905-ci ildə Difai Təşkilatını yaradıb. 1905-ci ilin dekabrından "İrşad" qəzetini nəşr edib. Sonradan təqib edildiyindən Türkiyəyə gedib.

Ə.Ağaoğlu 1918-ci ildə Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın siyasi müşaviri kimi Azərbaycana gəlib. O, Zəngəzurdan Azərbaycan Parlamentinə üzv seçilib.

Rusca "Azərbaycan" qəzetinin 18 noyabr 1918-ci il 38-ci sayında İ.Q. adlı yazarın "Azərbaycan Elçiliyinin İngiltərə, Amerika, Fransa elçilərilə görüşü" adlı məqaləsindəki "Əhməd bəy Ağayevlə danışma" alt başlığında bu məlumat qeyd olunub: "Birlik Dövlətlərinin Rusiyada bolşeviklərə qarşı olduqlarını, buna görə Qafqazı öz bazaları etmək istədiklərini öyrənəndən sonra Əhməd bəy Ağayev, Musa bəy Rəfiyev, Nəsib bəy Yusifbəylidən qurulmuş Elçilik bu böyük dövlətlərin yetkililərilə görüşmək üçün Ənzəliyə getdi". Bu məlumat Ə.Ağayevin general Tomsonla görüşdə olduğunu təsdiqləyir.




**Ə.Ağaoğlunun redaktoru olduğu "İrşad" qəzeti. 1905-1908-ci illər.**

Ə.Ağaoğlu Azərbaycan Parlamentində ilk dəfə 1918-ci ilin dekabrın 26-da keçirilən 5-ci iclasında çıxış edib. O, çıxışında bu sözləri demişdi: "Azərbaycan istiqlalı bizim hamımızın başlıca amalımızdır. Hər bir öz şərəfini, öz amalını bilən azərbaycanlı bunu duymalı və bu yolda olmalıdır"[1]. O, çıxışında "hökumətin daxildən təsdiq edilməsi", "Azərbaycanın Avropaya tanıdılması" vacibliyini qeyd edib.

1919-cu ilin yanvarında Azərbaycan Nümayəndə heyətinin Bakı Dəmiryolu vağzalından yola salınma mərasimində Ə.Ağaoğlu çıxış etmişdir.

Ə.Ağaoğlu 1919-cu ilin yanvarında Azərbaycan Nümayəndə heyətinin tərkibində Paris Sülh Konfransına göndərilsə də, İstanbulda ingilislər tərəfindən həbs olunaraq Malta adasına sürgün edilib. Beləliklə, o, Sülh Konfransında iştirak edə bilməyib.

Ə.Ağaoğlu sonradan Türkiyədə yaşayıb. Ə.Ağaoğlu Türkiyədə olduğu dövrdə çox önəmli vəzifələrdə çalışıb. O, Mətbuati-ümumi müdiri, Türkiyə Böyük Millət Məclisinin üzvü (Qars bölgəsindən), yarı-rəsmi "Hakimiyyəti-milliyə" qəzetinin baş redaktoru, Ankara Hüquq Məktəbinin professoru, Atatürkün istəyi ilə yaradılmış Sərbəst Cümhuriyyət Partiyasının əsas rəhbərlərindən olmuşdur[2].

Ə.Ağaoğlu 1939-cu ildə vəfat edib.

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti. Parlament. (Stenoqrafik hesabatlar). I c. B., 1998, s. 127.
[2] V.Quliyev. Məhəmməd Əmin Rəsulzadə Əhməd Ağaoğlu haqqında. "525-ci qəzet", 12.03.2018.

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

(1887 – 1943)

## AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN TÜRKİYƏDƏ SƏFİRİ



Tanınmış yazıçı Yusif Vəzir Çəmənzəminli 1887-ci ilin sentyabrında Şuşada anadan olub[1]. 1910-cu ildə Kiyevdə Müqəddəs Vladimir adına İmperator Universitetinin hüquq fakültəsinə daxil olub. 1915-ci ildə Birinci Dünya müharibəsinin gedişi ilə bağlı çar hökuməti Kiyev Universitetini müvəqqəti olaraq Saratova köçürüb. Y.V.Çəmənzəminli 1915-ci ildə Universiteti Saratovda bitirib.

Y.V.Çəmənzəminli 1919-cu ildə N. Yusifbəylinin təklifi ilə Azərbaycan Cümhuriyyətinin səfiri kimi İstanbula göndərilib.

Azərbaycan 1920-ci ildə Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra o, Parisə gedib.

Y.V.Çəmənzəminli 1926-cı ildə Bakıya qayıdıb.

1938-ci ildə Özbəkistana – Urgənc şəhərinə işləməyə gedib. O, 1940-cı ilin yanvarın 25-də həbs edilib.

Y.V.Çəmənzəminli 1943-cü ilin yanvarın 3-də Nijni-Novqorod vilayətindəki həbs düşərgəsində vəfat edib.

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c. B., 2004, s. 313-316.

# MƏHƏMMƏD XAN TƏKİNSKİ

(1879 – 1938)

## AZƏRBAYCANIN ERMƏNİSTANDA DİPLOMATİK NÜMAYƏNDƏSİ



Məhəmməd xan Təkinski tanınmış siyasətçi, diplomat və dövlət xadimidir. 1879-cu ildə (bəzi mənbələrdə 1880-ci il yazılır – red.) Mərkəzi Asiyanın Axal-Təki Vadisində anadan olsa da, Naxçıvanda böyüyüb[1]. O, Kəngərlilər nəslindən olan II Ehsan xanın oğulluğudur.

M.Təkinski 1908-ci ildə Odessada yerləşən Novorossiysk İmperator Universitetinin hüquq fakültəsini bitirib.

M.Təkinskinin ilk formalaşan Azərbaycan Hökumətində Xarici İşlər naziri vəzifəsini həyata keçirdiyi də qeyd olunmaqdadır.

O, 1919-cu ilin yanvarın 29-da Ermənistanda Azərbaycan Cümhuriyyətinin diplomatik nümayəndəsi təyin edilib.

M.Təkinski 1919-cu ilin oktyabr ayının 1-də Xarici İşlər nazirinin müavini təyinatını alıb.

M.Təkinski sovet rejimi dövründə repressiyaya məruz qalmış və bəzi mənbələrdə onun 1938-ci ilin martın 18-də güllələnməsi qeyd olunmuşdur.

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005, s. 399.

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

(1870 – 1933)

## AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN DAĞLI RESPUBLİKASINDA VƏ ERMƏNİSTANDA DİPLOMATİK NÜMAYƏNDƏSİ



Azərbaycanın tanınmış yazıçı və dramaturqu Əbdürrəhim bəy Haqverdiyev 1870-ci ildə Şuşada anadan olub[1]. Peterburq Yol Mühəndisləri İnstitutunda təhsil alıb.

Azərbaycan Cümhuriyyəti dövründə 1919-cu ilin fevralın 25-də Dağlı Respublikasında diplomatik nümayəndə təyin olunub. Könüllü Ordunun Petrovsk və Dərbəndi işğal etməsindən sonra 1919-cu ilin noyabrın 6-da Xarici İşlər naziri M.Y.Cəfərovun 69 saylı əmri ilə Dağlı Respublikasında diplomatik nümayəndəlik ləğv edilib. Bundan sonra Ə.Haqverdiyev Ermənistana diplomatik nümayəndə göndərilib.

Ə.Haqverdiyev 1933-cü ildə Bakıda vəfat edib.

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c. B., 2004, s. 446-447.

# ADİL XAN ZİYADXANOV

(1872 – 1954)

## AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN İRANDA DİPLOMATİK NÜMAYƏNDƏSİ



Adil xan Ziyadxanov 1872-ci ilin sentyabrın 25-də Gəncədə anadan olub[1]. Tiflis Gimnaziyasında oxuduqdan sonra Moskva Universitetinin hüquq fakültəsində təhsil alıb.

Azərbaycan Cümhuriyyəti yaradıldıqdan sonra Xarici İşlər nazirinin müavini təyin edilib (30.10.1918).

A.Ziyadxanovun yazdığı, ana dilimizdə və fransızca nəşr edilən "Azərbaycan" kitabı 1919-cu ildə Parisə – Ə.M.Topçubaşova göndərilmiş və orada yayılmışdır.

Azərbaycan Hökumətinin 16 iyun 1919-cu il tarixli qərarına əsasən Tehranda Azərbaycan diplomatik nümayəndəliyi yaradıldı. A.Ziyadxanov həmin ilin oktyabrın 4-dən nümayəndəliyin rəhbəri olaraq fəaliyyətə başladı. 1920-ci ilin yanvarın 15-dən isə A.Ziyadxanov İranda Fövqəladə və səlahiyyətli səfir kimi çalışdı.

1920-ci ilin aprelin 27-də Azərbaycan sovet rejimi tərəfindən işğal edildikdən sonra A.Ziyadxanov bir müddət Tehranda qaldı. O,1934-cü ildə Türkiyəyə köçdü, orada İstanbul Universitetində çalışdı.

A.Ziyadxanov 1954-cü ildə vəfat edib.

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005, s. 471.

# CƏFƏR BƏY RÜSTƏMBƏYOV

(1890 – 1938)

## AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN KUBAN BÖLGƏSİNDƏ DİPLOMATİK NÜMAYƏNDƏSİ

Cəfər bəy Rüstəmbəyov 1890-cı ildə Ərəş qəzasının Məmmədli kəndində doğulub. 1909-cu ildə Kiyev Universitetinin tibb fakültəsinə daxil olub[1]. Universiteti bitirdikdən sonra hərbi həkim kimi səfərbər edilib, 58-ci piyada polkunda, 1917-ci ildən isə Krımda həkim işləyib.

Azərbaycan Nazirlər Şurasının Sədri və Xarici İşlər naziri F.X.Xoyskinin 1919-cu ilin aprelin 3-də imzaladığı əmrlə Cəfər bəy Rüstəmbəyov martın 19-dan etibarən Azərbaycanın Kuban bölgəsində və Krımda diplomatik nümayəndəsi, eyni zamanda Ticarət müvəkkili təyin edildi.

Qeyd edək ki, Könüllülər ordusunun Azərbaycan Cümhuriyyətinə təcavüzündən qorunmasında və Qafqazda baş verə biləcək qırğının qarşısının alınmasında C.Rüstəmbəyovun də xidmətləri olmuşdur.

C.Rüstəmbəyov 1919-cu ilin noyabrın sonlarında ağqvardiyaçılar tərəfindən həbs olunacağı təhlükəsini nəzərə alıb Bakıya qayıtdı.

Azərbaycan 1920-ci ilin aprelin 27-də Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra C.Rüstəmbəyov həbs edilərək 1938-ci ildə güllələnmişdir.

***Qeyd:*** *C.Rüstəmbəyovun fotosunu əldə etmək mümkün olmadı.*

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005, s. 323.

# FARİS VƏKİLOV

(1886-1982)

## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİYİNİN RƏHBƏRİ



Faris Vəkilov 1886-cı ildə Tiflisdə anadan olub.General İbrahim ağa Vəkilovun oğludur.1914-cü ildə Peterburq Texnologiya İnstitutunu bitirib.Peterburqdakı Putilov və Feniks zavodlarında mühəndis işləyib.O, rus,türk, gürcü və fransız dillərini mükəmməl bilirdi.

F.Vəkilov Azərbaycan Cümhuriyyəti dövründə - 1918-ci ilin dekabrında Azərbaycanın Gürcüstandakı Nümayəndəliyinin rəhbəri təyin edilib.Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafında onun böyük rolu olub.

Sovet rejimi dövründə - 1940-cı ildə F.Vəkilov 10 il müddətinə həbs edilmiş və əlavə olaraq, 5 il də bütün hüquqlardan məhrum olunmuşdur.

O, 1982-ci ildə Bakıda vəfat etmişdir[1].

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005. s. 430.

# VASİLİ İVANOVİÇ RAZUMOVSKİ

(1857 – 1935)

## BAKI DÖVLƏT UNİVERSİTETİNİN İLK REKTORU



1919-cu ilin noyabrında Azərbaycan Cümhuriyyəti dövründə ilk universitetin yaradılıb fəaliyyətə başlaması böyük hadisə oldu.

İlk yaradılan Bakı Dövlət Universitetinin rektoru vəzifəsini Vasili İvanoviç Razumovski icra etdi. V.İ.Razumovski peşəcə cərrah idi. 1887-ci ildən Kazan Universitetinin professoru olaraq çalışıb. V.Razumovski 1909-cu ildə Saratov, 1918-ci ildə Tbilisi Universitetlərinin əsasını qoyanlardan olub. O, 1909-1912-ci illərdə Saratov Universitetinin, 1919-1920-ci illərdə isə Bakı Universitetinin ilk rektoru vəzifəsini icra edib.

O, yazırdı: "Azərbaycan öz maarif ocağını yaratdı.Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşağında yeni məşəl yandı.Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hesab edə bilərik"[1]..

1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra V.İ.Razumovski Kazana qayıtmış, oradakı universitetdə dərs demişdir. V.İ.Razumovski Kazanda 1930-cu ildə təqaüdə çıxmış, 1935-ci ildə isə vəfat etmişdir.

---

[1] A.Məhərrəmov. Bakı Dövlət Universiteti. B., 2009, s.24

# STANİSLAV STANİSLAVOVİÇ VONSOVİÇ

(1889 – ?)

## AZƏRBAYCAN PARLAMENTİNDƏ POLYAK KOMİTƏSİNİN NÜMAYƏNDƏSİ



Stanislav Stanislavoviç Vonsoviç 1889-cu ilin mayın 8-də anadan olub. Zadəgan ailəsinə mənsub idi. Peterburq Universitetinin hüquq fakültəsini bitirib. Çar Rusiyası ordusunda zabit olaraq xidmət edib[1].

S.S.Vonsoviç Polşanın Bakıdakı Konsul agentliyinin katibi vəzifəsini yerinə yetirib.

O, Azərbaycan Parlamentində Qanunvericilik komissiyasının katibi kimi çalışıb.

S.S.Vonsoviç 1920-ci ilin avqustun 14-də rus bolşevikləri tərəfindən həbs edilib[2].

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində S.S.Vonsoviçə aid olan PR-20193 saylı istintaq işindən

---

[1] Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, S.S.Vonsoviçin PR-20193 saylı istintaq işi, v.20.

[2] Yenə orada, v.1.

məlum olur ki, o, 1920-ci ilin dekabrına qədər həbsdə saxlanılıb. S.S.Vonsoviç həbs edilərkən həyat yoldaşı 28 yaşında, oğlu Stanislav isə 5 yaşında olub.



Р. С. Ф. С. Р.
Особый Отдел при Револ. Воен. Совете XI армии

Арестный Лист № 1846
14/VIII 20 г.

Фамилия Вонсович Имя и отчество Станислав Станиславович
Адрес:
Возраст 31
Образование Высшее
Профессия Юрист
Где работает и долго ли
Партийность беспартийный
Состоит ли членом какой либо организации и долго ли
На какие средства живет
Имеет ли семью есть
Кем арестован
На каком основании по ордеру № 339

Подпись:
Приметы:
Сдал: Принял

S.S.Vonsoviçin həbs edilməsi haqqında sənəd. 14 avqust 1920-ci il.



Архивный № 687

АЗЕРБАЙДЖАНСКОЕ
ГОСУДАРСТВЕННОЕ ПОЛИТИЧЕСКОЕ УПРАВЛЕНИЕ
ПРИ СОВНАРКОМЕ

ДЕЛО №

№
№

По обвинению гр.

Начато 14 августа 1920 г.
Окончено 15 декабря 1920 г.
На листах

Передачу взятых из УГСО архивных дел в другие отд. АзГПУ и другие органы хотя бы и временно, производить ис-

Архивн. № 687

S.S.Vonsoviçin istintaq işi.
14 avqust 1920-ci il – 15 dekabr 1920-ci il.

S.S.Vonsoviç istintaqa verdiyi ifadədə Bakıda çoxdan yaşadığını və buradakı polyakların hamısını tanıdığını bildirmişdir.

S.S.Vonsoviç sonradan həbsdən azad edilmişdir.

# RƏHİM BƏY VƏKİLOV

(1897-1934)

## AZƏRBAYCAN PARLAMENTİNİN ƏN GƏNC KATİBİ



Rəhim bəy Vəkilov 1897-ci ildə anadan olub. Bakı Realnı məktəbində oxuyub.R.Vəkilov Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının və Azərbaycan Milli Şurasının üzvü olub. Azərbaycan İstiqlal Bəyannaməsində onun da imzası vardır.

O, Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 1918-ci ilin dekabrın 7-də H.Ağayevin təklifi ilə 21 yaşında ən gənc üzv olaraq Azərbaycan Parlamentinin katibi seçilib. R.Vəkilov Müsavat fraksiyasının üzvü idi.

Sovet rejimi dövründə - 1923-cü ildə R.Vəkilovu 3 il müddətinə Rusiyanın Yaroslavl şəhərinə sürgünə göndərdilər. Sürgündən sonra onu yenidən həbs edib, 1927-ci ildə 8 il müddətinə SSRi-nin şimalına sürgün etdilər.R.Vəkilov sürgündən qayıtdıqdan sonra da təqiblərdən xilas olmadı və 1934-cü ildə intihar etdi[1].

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005. s. 432.

# ZİVƏR BƏY ƏHMƏDBƏYOV

(1873-1925)

## BAKININ BAŞ ARXİTEKTORU



Tanınmış arxitektor Zivər bəy Əhmədbəyov 1873-cü ildə Bakıda anadan olmuşdur. 1902-ci ildə Rusiyada Mühəndislər İnstitutunu bitirmişdir. 1918-1922-ci illərdə Bakı şəhərinin Baş arxitektoru olmuşdur. Onun layihəsi ilə Bakıda və onun ətrafında çoxlu binalar tikilmişdir: "Cümə" məscidi, Mixail xəstəxanası (sonradan M. Əzizbəyov adına doğum evi), "Səadət" məktəbinin binası, Uşaq xəstəxanası (indiki Ana və Uşaqları Müdafiə Elmi-Tədqiqat İnstitutunun binası)[1].

Eyni zamanda, o, 1918-ci ildə Nuru Paşanın başçılığı altında Bakını azad etmiş Qafqaz İslam Ordusunun şərəfinə qoyulacaq abidənin layihə müəllifi idi.

Qeyd edək ki, həmin abidənin təməlqoyma mərasimi Bakının azad edilməsinin bir illiyində – 1919-cu ilin sentyabrın 15-də olub. Keçmiş Çəmbərəkənd (sonradan Dağüstü parkda, indiki Şəhidlər xiyabanında) adlı yerdə keçirilən tədbirdə M.Ə.Rəsulzadə abidənin ilk təməl daşını ataraq bu müraciəti etmişdir: "Ey hürr Azərbaycanın hürr vətəndaşları!... Bu böyük şəhidlər kimi biz də fəda-

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c. B., 2004. s. 356.

kar olacaq, hürriyyətimizi, milli vəhdət və istiqlalımızı canımızı verərək müdafiə edəcəyik"[2].

Nəzərdə tutulmuşdu ki, abidənin açılış mərasimi 1920-ci ilin sentyabrın 15-də olsun. Təəssüflər ki, bu baş tutmadı. 1920-ci ilin aprelində Azərbaycan işğal edildi.

Azərbaycanı işğal edən bolşeviklər ermənilərin ciddi fəallığı ilə Azərbaycan xalqından qisas alaraq 1920-ci ilin sentyabrında Bakını azad edənlərə yox, Bakıda 31 Mart soyqırımını törədənlərə abidə qoydular – onları burada dəfn etdilər.

Baş arxitektor Z. Əhmədbəyovu isə bolşevik müstəntiqləri istintaqa cəlb etdilər, sorğu-suala tutdular, incitdilər. Sonda bu əziyyətlərə dözə bilməyən Z.Əhmədbəyov özünü asıb intihar etdi[3].

[2] N. Yaqublu. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. Bakı, 2013, s. 120.
[3] А.М.Топчибаши и М.Э.Расулзаде. Переписка, 1923-1926. Москва, 2012, с. 332.

# ƏLAVƏLƏR

## 1918-Cİ İLİN 28 MAYINDA QƏBUL EDİLƏN İSTİQLAL BƏYANNAMƏSİ



1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq, öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.

6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycan idarəsinin başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

# AZƏRBAYCAN CÜMHURİYYƏTİ DÖVRÜNDƏ QƏBUL EDİLƏN MÜHÜM QƏRARLAR:

1. **Dövlət bayrağı haqqında (ilk qərar).** 1918-ci il 21 iyun. Azərbaycan bayrağını qırmızı materialdan üstündə ağ aypara və qırmızı fonda ağ səkkiz guşəli ulduzun təsviri verilmiş bayraq kimi qəbul etmək.



**Dövlət bayrağı ilə bağlı ikinci qərar.** 1918-ci il 9 noyabr. Azərbaycanın milli bayrağını mavi, qırmızı və yaşıl rəngli ağ aypara və səkkiz guşəli ulduzun təsviri olan bayraq kimi qəbul etmək.



ВЫПИСКА

из журнала постановлений Правительства Азербайджана от 9-го Ноября 1918 г.

| СЛУШАЛИ: | ПОСТАНОВИЛИ: |
| --- | --- |
| Доклад Председателя Совета Министров о национальном флаге.- | Национальным флагом признать флагъ, состоящий из зеленаго, краснаго и голубого цветов съ белымъ полумесяцемъ и восьмигранной звездой.- |

Делопроизводитель

Настоящая выписка препровождается Г. Министру Юстиции для сведения.

Ноября "11" дня 1918 г.

гор. Баку.

№ 2248.

Секретарь Правительства

Делопроизводитель

2. **Dövlət dili haqqında.** 1918-ci il 27 iyun. Türk dilini dövlət dili kimi qəbul etmək.



اذربايجان جمهوريتى

حكومتك قانون و بناكذارلقلرى مجمعى .

| ۱۵ تشرين ثانى ۱۹۱۹ | نومرو ۱ | باكو شهرى |
| --- | --- | --- |

حكومت ۲۷ ايون ۱۹۱۸ ده قرار ويردى:

3. **Dövlət gerbi.** Dövlət gerbi haqqında ilk dəfə 1919-cu ilin martın 23-də müsabiqə elan edilmişdi. 1920-ci il yanvarın 30-da Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurası Dövlət bayrağı istisna olmaqla, digər rəmzlərin layihələrinin hazırlanması haqqında yenidən qərar qəbul etdi. Dövlət gerbinin layihəsi də sifariş verildi. Layihələr Xalq Maarif Nazirliyinə təqdim olunmalı, Milli İstiqlalın ikinci ildönümünədək (28.05.1920) təsdiq edilməli idi. Lakin 1920-ci ilin 27 aprelindən – Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra müsabiqənin keçirilməsi mümkün olmadı və sovet Azərbaycanı öz gerbini qəbul etdi.

## DÖVLƏT GERBİMİZ HAQQINDA
ÜMUMİ MƏLUMAT



Qeyd edək ki, **“gerb” polyak sözüdür, “irs” kimi** təqdim olunur. Gerb, irs – sahibin, xalqın yaşadığı ərazinin, torpağının, millətin adətinin, dilinin yığcam şəkildə təcəssümüdür. Gerblər müxtəlif qruplara bölünür: dövlət gerbi, torpaq gerbi, quberniya gerbi, nəsil gerbləri və s.

**Dövlət gerbimizin təsviri** belədir: çevrə formasında olan qalxanın üzərində dairəvi göy, qırmızı və yaşıl rəngin fonunda səkkiz guşəli ulduz verilmişdir. Ulduz təsvirinin mərkəzində isə Odlar Yurdunun simvolu olan od atəşi öz əksini tapmışdır. Xarici işğalçılara qarşı Azərbaycan xalqının qəhrəmanlıq simvolu kimi verilən çevrə formalı qalxan aşağıdan sünbül və dəfnə ağacı budaqları ilə əhatə olunaraq bir-birinə lent vasitəsi ilə bağlanmışdır.

4. **Azərbaycanın himni.** Azərbaycanın dövlət himninin sözləri Əhməd Cavadın, musiqisi Üzeyir Hacıbəylinindir.

## MİLLİ MARŞ

**Azərbaycan! Azərbaycan!**
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan verməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!
Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə minbir məhəbbət,
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
**Azərbaycan! Azərbaycan!**

***Sözləri: Əhməd Cavadın,***
***Musiqisi: Üzeyir Hacıbəylinindir***

## DÖVLƏT RƏMZLƏRİNİN BƏRPASI

1. **Bayraq.** 1988-ci ildə Azadlıq hərəkatı başladıqda Üçrəngli bayraq yenidən xalqımızın başı üzərində dalğalandı. **1990-cı ilin noyabrın 29-da "Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında" fərman verildi və 1991-ci ilin fevralın 5-də qanunvericilik orqanı tərəfindən təsdiqləndi.** Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə hazırlandı. Dövlət bayrağı haqqında məsələ Azərbaycan Respublikası Konstitusiyasında təsdiq edildi. Konstitusiyanın 23-cü maddəsinin 2-ci bəndində göstərilir: "Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir".
2. **Gerb.** Azərbaycan Cümhuriyyəti dövründə hazırlanmış gerb layihəsi rəssam R.Məmmədov tərəfindən təkmilləşdirilmişdir. **1993-cü ilin 19 yanvar tarixli** Konstitusiya qanunu ilə Dövlət gerbimizin rəngli və ağ-qara təsviri, fevralın 23-də isə Əsasnaməsi təsdiq edildi.
3. **Himn.** Müəllifləri Ü.Hacıbəyli və Əhməd Cavad olan Dövlət Himnimiz **Azərbaycan Milli Məclisinin 1992-ci il 27 may tarixli** qərarı ilə qəbul edilib. 1993-cü ilin mayın 2-də Dövlət Himni haqqında Əsasnamə təsdiq olunub. Himnimiz bəstəkar A.Əzimov tərəfindən böyük xor və orkestr üçün oranjeman edilmişdir.




**Azərbaycan Cümhuriyyətinin pulu. 500 rubl.**




**100 rubl.**




**Poçt markaları.**



Döş nişanı.




Möhürlər.




Azərbaycan Cümhuriyyətinin İstanbuldakı Konsulluğunun lövhəsi.







Azərbaycan Cümhuriyyətinin ştampları.










Azərbaycan Cümhuriyyəti nazirliklərinin və
Qarabağ General-Qubernatorluğunun blankları.



Azərbaycan ordusunun topçu əsgərləri.



Azərbaycan ordusunun zabitləri.



Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümünə həsr olunmuş Azərbaycan ordusunun hərbi paradı.



Cümhuriyyət tələbələri.




Azərbaycan Cümhuriyyətinin dövlət xadimləri. 1919-cu il.




Azərbaycan Cümhuriyyətinin Tiflisdə elan edildiyi Qafqaz Canişinliyinin binası üzərindəki lövhə.



1918-ci ildə Gəncədə Azərbaycan Cümhuriyyəti Hökumətinin yerləşdiyi bina (hazırda burada Azərbaycan Dövlət Aqrar Universiteti fəaliyyət göstərir).



Parlamentin bir qrup üzvü və Azərbaycan Cümhuriyyəti dəftərxanasının işçiləri.



**Azərbaycanın parlamentinin toplantısı. M.Ə.Rəsulzadə və N.Yusifbəyli ön cərgədə.**



**Azərbaycanın müstəqilliyinin tanınması münasibətilə parlament qarşısında bayram mitinqi. 14 yanvar 1920-ci il.**


شهادتنامه

آذربایجان جمهوریتی مجلس مبعوثان
اعضاسندن اولدیغی تصدیق ایدیلیر
مجلس مبعوثان رئیسی
باش کاتب

Удостовѣреніе.

Предъявитель сего ... состоитъ членомъ Азербайджанскаго Парламента, что подписями и приложеніемъ печати удостовѣряется.

Предсѣдатель Парламента

Секретарь

Azərbaycan Parlamentinin üzvlük vəsiqəsi.




Azərbaycan Cümhuriyyətinin xəritəsi.

**Azərbaycan Cümhuriyyətinin birinci hökumət kabineti**
**28 may 1918 – 17 iyun 1918**

1. Nazirlər Şurasının Sədri və daxili işlər naziri – Fətəli xan Xoyski (bitərəf).
2. Hərbi nazir – Xosrov Paşa bəy Sultanov (Müsavat).
3. Xarici işlər naziri – Məmmədhəsən Hacınski (Müsavat).
4. Maliyyə və xalq maarifi naziri – Nəsib bəy Yusifbəyli (Müsavat).
5. Ədliyyə naziri – Xəlil bəy Xasməmmədov (Müsavat).
6. Ticarət və Sənaye naziri – Məmməd Yusif Cəfərov (bitərəf, sonra – Müsavat).
7. Əkinçilik və Əmək naziri – Əkbər ağa Şeyxülislamov (Hümmət).
8. Yollar, Poçt və Teleqraf naziri – Xudadat bəy Məlikaslanov (bitərəf).
9. Dövlət müfəttişi – Camo bəy Hacınski (Sosialist).

**Azərbaycan Cümhuriyyətinin ikinci hökumət kabineti**
**17 iyun 1918 – 7 dekabr 1918**

1. Nazirlər Şurasının Sədri və Ədliyyə naziri – Fətəli xan Xoyski (bitərəf).
2. Xarici işlər naziri (eyni zamanda, müvəqqəti olaraq, Dövlət Nəzarəti naziri) – Məmmədhəsən Hacınski (Müsavat).
3. Xalq Maarifi və Dini Etiqad naziri – Nəsib bəy Yusifbəyli (Müsavat).
4. Daxili İşlər naziri – Behbud xan Cavanşir (bitərəf).
5. Əkinçilik naziri – Xosrov Paşa bəy Sultanov (Müsavat).
6. Səhiyyə və Sosial Təminat naziri – Xudadat bəy Rəfibəyli (bitərəf).
7. Yollar naziri (eyni zamanda, müvəqqəti olaraq, Poçt və Teleqraf naziri) – Xudadat bəy Məlikaslanov (bitərəf).
8. Ticarət və Sənaye naziri – Ağa Aşurov (bitərəf).
9. Maliyyə naziri – Əbdüləli bəy Əmircanov (bitərəf).
10. Portfelsiz nazir – Əlimərdan bəy Topçubaşov (bitərəf).
11. Portfelsiz nazir – Musa bəy Rəfiyev (Müsavat).
12. Portfelsiz nazir – Xəlil bəy Xasməmmədov (Müsavat).

**1918-ci il sentyabrın 17-də Cümhuriyyət hökuməti Gəncədən Bakıya köçdükdən sonra, oktyabrın 6-da ikinci hökumət kabinetində dəyişikliklər edildi:**
1. Nazirlər Şurasının Sədri – Fətəli xan Xoyski (bitərəf).
2. Ticarət, Sənaye və Daxili İşlər naziri – Behbud xan Cavanşir (bitərəf).
3. Xarici İşlər naziri – Əlimərdan bəy Topcubaşov (bitərəf).
4. Maliyyə naziri – Məmmədhəsən Hacınski (Müsavat).

5. Xalq Maarifi naziri – Nəsib bəy Yusifbəyli (Müsavat).
6. Yollar naziri – Xudadat bəy Məlikaslanov (bitərəf)
7. Əkinçilik və Dövlət Əmlakı naziri – Xosrov Paşa bəy Sultanov (Müsavat).
8. Xalq Səhiyyəsi naziri – Xudadat bəy Rəfibəyli (bitərəf)
9. Poçt və Teleqraf naziri – Ağa Aşurov (bitərəf)
10. Sosial Təminat və Dini Etiqad naziri – Musa bəy Rəfiyev (Müsavat)
11. Hərbi işlər üzrə müvəkkil – İsmayıl xan Ziyadxanov (bitərəf)
12. Dövlət nəzarəti naziri – Əbdüləli bəy Əmircanov (bitərəf).

### Azərbaycan Cümhuriyyətinin üçüncü hökumət kabineti 26 dekabr 1918 – 14 aprel 1919

1. Nazirlər Şurasının Sədri və xarici işlər naziri – Fətəli xan Xoyski (bitərəf).
2. Daxili İşlər naziri – Xəlil bəy Xasməmmədov (Müsavat)
3. Maliyyə naziri – İ. Protasov (Slavyan-Rus Cəmiyyəti)
4. Yollar naziri – Xudadat bəy Məlikaslanov (bitərəf)
5. Ədliyyə naziri – Teymur bəy Makinski (?)
6. Maarif və Dini Etiqad naziri – Nəsib bəy Yusifbəyli (Müsavat)
7. Poçt, Teleqraf və Əmək naziri – Aslan bəy Səfikürdski (Sosialist)
8. Hərbi nazir – Səməd bəy Mehmandarov (bitərəf)
9. Sosial Təminat naziri – Rüstəm xan Xoyski (bitərəf)
10. Xalq Səhiyyəsi naziri – Yevsey Gindes (Slavyan-Rus cəmiyyəti)
11. Ticarət və Sənaye naziri – Mirzə Əsədullayev (bitərəf)
12. Dövlət Nəzarəti naziri – Məmmədhəsən Hacınski (16.01.1919 tarixindən – Əliağa Həsənov)
13. Ərzaq naziri – Konstantin Lizqar (Slavyan-Rus cəmiyyəti)
14. Əkinçilik və Dövlət Əmlakı naziri – Xosrov Paşa bəy Sultanov (Müsavat)

### Azərbaycan Cümhuriyyətinin dördüncü hökumət kabineti 14 aprel 1919 – 22 dekabr 1919

1. Nazirlər Şurasının Sədri və Daxili İşlər naziri – Nəsib bəy Yusifbəyli (bitərəf)
2. Maliyyə naziri – Əlağa Həsənov (bitərəf)
3. Ticarət və Sənaye naziri – Ağa Əminov (bitərəf)
4. Xarici İşlər naziri – Məmməd Yusif Cəfərov (Müsavat)
5. Yollar naziri – Xudadat bəy Məlikaslanov (bitərəf)
6. Poçt və Teleqraf naziri – Camo bəy Hacınski (Sosialist)

7. Hərbi nazir – Səməd bəy Mehmandarov (bitərəf)
8. Sosial Təminat naziri – Viktor Klenevski (Slavyan-Rus cəmiyyəti)
9. Səhiyyə naziri – A.Dastakov (?)
10. Maarif və Dini Etiqad naziri – Rəşid xan Qaplanov (Əhrar)
11. Əkinçilik və Dövlət Əmlakı naziri – Aslan bəy Qardaşov (Əhrar)
12. Portfelsiz nazir – X.Amaspür (daşnaksütun)
13. Dövlət Nəzarəti naziri – Nəriman bəy Nərimanbəyli (Müsavat)
14. Ədliyyə və Əmək naziri – Aslan bəy Səfikürdski (Sosialist)
15. Daxili İşlər naziri (1919, oktyabr) – Məmmədhəsən Hacınski (Müsavat)

**Azərbaycan Cümhuriyyətinin beşinci hökumət kabineti**
**22 dekabr 1919 – 30 mart 1920**

1. Nazirlər Şurasının Sədri – Nasib bəy Yusifbəyli (Müsavat)
2. Xarici İşlər naziri – Fətəli xan Xoyski – (bitərəf)
3. Hərbi nazir – Səməd bəy Mehmandarov (bitərəf)
4. Daxili İşlər naziri – Məmmədhəsən Hacınski (Müsavat)
5. Ədliyyə naziri – Xəlil bəy Xasməmmədov (Müsavat)
6. Maliyyə naziri – Rəşid xan Qaplanov (Əhrar)
7. Maarif və Dini Etiqad naziri – Həmid bəy Şahtaxtinski (İttihad)
8. Əmək və Əkinçilik naziri – Əhməd bəy Pepinov (Sosialist)
9. Yollar naziri (eyni zamanda, müvəqqəti olaraq, Ticarət, Sənaye və Ərzaq naziri) – Xudadat bəy Məlikaslanov (bitərəf)
10. Poçt və Teleqraf naziri – Camo bəy Hacınski (Sosialist)
11. İctimai Təminat və Səhiyyə naziri – Musa bəy Rəfiyev (Müsavat)
12. Dövlət Nəzarəti naziri – Heybətqulu bəy Məmmədbəyov (İttihad)

**Qeyd: 1920-ci il fevralın 18-dən Mustafa bəy Vəkilov Daxili İşlər naziri, Məmmədhəsən Hacınski Ticarət, Sənaye və Ərzaq naziri, martın 5-dən isə Nurməmməd Şahsuvarov Xalq Maarifi və Dini Etiqad naziri olmuşdur.**

# ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar): 2 cilddə, I c., Bakı: Azərbaycan, 1998
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar): 2 cilddə, II c., Bakı: Azərbaycan, 1998
3. "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920). I c. B., 2015.
4. "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920). II c. B., 2016.
5. "Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920). III c. B., 2017.
6. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c. B., 2004.
7. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005.
8. Azərbaycan Sovet Ensiklopediyası. 10-cu cild, Bakı, 1987.
9. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti: 1918-1920. B., 1990.
10. Azərbaycanın ilk qeyri-hökumət təşkilatları (materialları hazırlayan və redaktor Nəsiman Yaqublu). B., 2013.
11. Anar. Sizsiz. B., 1992.
12. Bünyadov Z. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, 330 s.
13. Cəfərli M. Bolşevizm və faşizm arasında. "Azadlıq" qəzeti, Bakı, 2000, N 57 (1566)
14. Cəmaləddin Ə. Torlakyan davası: Behbud xan Cavanşirin qətli. B., 2007.
15. Çingizoğlu Ə. Səfikürdlülər. B., 2005.
16. Elçin. Azərbaycan mühacirəti haqqında. "Odlar Yurdu" qəzeti, Bakı, 1991, 11 noyabr
17. Əliyev M. Məhəmməd Əmin Rəsulzadə. "Odlar Yurdu" qəzeti, Bakı, 1988, N 17
18. Əliyev M. Nurməmməd bəy Şahsuvarov. "Odlar Yurdu" qəzeti, №4. fevral 1990-cı il.
19. Əliyev M. Mirzə Əsədullayev. "Odlar Yurdu" qəzeti, №2 1989.
20. Əliyev M. Həmid bəy Şahtaxtinski. "Odlar Yurdu" qəzeti, №16(447), avqust 1989.
21. Əliyev M. Əliağa Həsənov. "Odlar Yurdu" qəzeti, №17, sentyabr, 1989.
22. Əliyev M. Xudadat bəy Məlikaslanov. "Odlar Yurdu" qəzeti, №5-6, mart, 1989.
23. Əliyev M. Cəmo bəy Hacınski. "Odlar Yurdu" qəzeti, №18, sentyabr, 1989.
24. Əliyev M. Əkbərağa Şeyxülislamov. "Odlar Yurd" qəzeti, №22, noyabr 1988.
25. Əliyev M. Əbdüləli bəy Əmircanov. "Odlar Yurdu" qəzeti, №24, dekabr 1989-cu il.
26. Əliyev M. Əhməd bəy Pepinov. "Odlar Yurdu" qəzeti, №15 (446), avqust 1989.
27. Əliyev M. Xudadat bəy Rəfibəyov. "Odlar Yurdu" qəzeti, 8 aprel 1989.
28. Əliyev M. Səməd bəy Mehmandarov. "Odlar Yurdu" qəzeti, №13, iyul 1988.
29. Əliyev M. Aslan bəy Səfikürdski. "Odlar Yurdu" qəzeti, №19, sentyabr 1989-cu il.
30. Əliyeva İ. Cavanşir nəslinin nazir oğlu. "Azərbaycan" qəzeti, 5 avqust 2015.

31. Əliyev M. Behbudağa Cavanşir. "Odlar Yurdu" qəzeti, №12, iyun 1989.
32. Əliyev M. Həsən bəy Ağayev. "Odlar yurdu" qəzeti, №3, fevral 1989.
33. Əliyev M. Məmməd Yusif Cəfərov. "Odlar Yurdu" qəzeti, №13, iyul 1989.
34. Əliyev M. Nəsib bəy Yusifbəyli. "Odlar Yurdu" qəzeti, №22, noyabr 1989.
35. Əliyev M. Behbudağa Cavanşir. "Odlar Yurdu" qəzeti, №12, iyun 1989.
36. Əli Şamil. https://ali-shamil.tr.gg
37. Əliyeva İ.Məsləkinə sadiq böyük mücahid."Azərbaycan" qəz.,22 iyul 2015.
38. Əliyeva İ. Ömrünü qürbətdə başa vurdu. "Azərbaycan" qəzeti, 28 may 2014.
39. Əliyeva İ. Xudadat bəyin acı taleyi. "Azərbaycan" qəzeti, 29 avqust 2013.
40. Əliyeva İ. Əqidəsi xalqına sevgisindən qaynaqlanırdı. "Azərbaycan" qəzeti, 31 may 2013-cü il.
41. Fətəli xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar). Bakı, 1998.
42. Hacıbəyli Ü."Qarabağ hadisatı". "Azərbaycan" qəzeti, 24 iyun, 1919, №210
43. Hacıbəyli Ü. "Siyasi imtahan". "Azərbaycan" qəzeti, 11 may 1919, №177.
44. Hacıbəyli Ü. Yeni kabinə təşkilinə dair. "Azərbaycan" qəzeti, 23 sentyabr 1919, №280.
45. Hacıbəyli Ü. Yeni kabinə təşkilinə dair. "Azərbaycan" qəzeti, 19 mart 1919, №140.
46. Həsənova Ş. Mühacirət irsimizdən səhifələr. Bakı: Maarif, 1995, 152 s.
47. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr, 1993, 362 s.
48. Həşimova A. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti. Bakı: Azərnəşr, 1993, 170 s.
49. Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. Bakı: Adiloğlu, 2004, 526 s.
50. Hüseynov R. Rəfibəylilər. B., 1996.
51. Hüseynov R. Millətin zərrəsi. B., 2001, s. 2451.
52. Xudiyev R. Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat. "Elm və Həyat", N5, 1990.
53. İbrahimli X., Zeynalov R. Müsavat Partiyasının 1920-ci il 27 Aprel istilasından sonrakı fəaliyyəti tarixindən // Müsavat, Bakı, 1993, N1(5), s. 24-26
54. İbrahimli X. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı: Elm, 1996, 304 s.
55. İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, 184 s.
56. Kazımbəy C. Gəncə üsyanı haqqında xatirələr. "Azərbaycan" qəzeti, №123-124 (639-640), 1993.
57. Qafarov T. Azərbaycan tarixi: 1920-1991. Bakı: Mütərcim, 1989, 356 s.
58. Quliyev V. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: general Masey Sulkeviç. "525-ci qəzet" qəzeti, Bakı, 2 dekabr 2006.
59. Quliyev V. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: general Masey Sulkeviç. "525-ci qəzet" qəzeti, 9 dekabr 2006.
60. Quliyev V. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: general Masey Sulkeviç. "525-ci qəzet" qəzeti, 16 dekabr 2006.
61. Quliyev V. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: general Masey Sulkeviç. "525-ci qəzet" qəzeti, 23 dekabr 2006
62. Quliyev V. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: general Masey Sulkeviç. "525-ci qəzet" qəzeti, 30 dekabr 2006.

63. Quliyev V. Cümhuriyyət naziri: Rəşid xan Qaplanov. www. kitabxana. net/03.10.2010.
64. Quliyev V. Biz gedəsiyik, dünya qalası. Bakı, 2001, 400 səh.
65. Quliyev V. Ağaoğlular. B., 1998.
66. Qəhrəmanlı N.Nəsib bəy nümunəsi. B., 2008.
67. Məmmədov X. Azərbaycan Milli Hərəkatı (1875-1918-ci illər). Bakı: Sabah, 1996, 175 s.
68. Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
69. Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. Bakı, Azərnəşr, 1994,
70. Miloş Q., Ancey A. Azərbaycan və Polşa // Azərbaycan, Bakı, 1973, N1, s. 15-20
71. Mir Cəfər Bağırovun məhkəməsi. Bakı: Yazıçı, 1993, 118 s.
72. Mustafa N. Azərbaycan Cümhuriyyəti dövründə Azərbaycanın Ermənistandakı daimi nümayəndəliyinin fəaliyyəti. 30. 05. 2015.http: // www. xalq qazeti. com/az/news/politic.
73. Nağı Şeyxzamanlının xatirələri. B., 1997
74. Nəcəfov B. Azərbaycan Demokratik Respublikası. Daxili və xarici siyasəti. Bakı: Azərnəşr, 1992, 118 s.
75. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: Elm, 1990, 112 s.
76. Nəzirli Ş. Güllələnmiş Azərbaycan generalları. B., 2006
77. Oruclu M. Müsavat Partiyasının Azərbaycanda və mühacirətdə fəaliyyəti. Bakı: Adiloğlu, 2001, 310 s.
78. Özcan Ö. Səlim Rəfiq Rəfioğlu (soyu, mühiti, təhsili, müəllimliyi, yaradıcılığı). B., 2013.
79. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərnəşr, 2001, 536 s.
80. Rəfiyev B. Aysberqin sualtı hissəsi. Bakı: Gənclik, 1995, 35 s.
81. Rəsulzadə M. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 112 s.
82. Rəsulzadə M. Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 110 s.
83. Rəsulzadə M. Ə. Azərbaycan şairi Nizami. Bakı, Azərnəşr, 1991,
84. Rəsulzadə M. Ə. Əsərləri: I c., Bakı: Azərnəşr, 1992, 470 s.
85. Rəsulzadə M. Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı: Sabah, 1994, 134 s.
86. Rəsulzadə M. Ə. Azərbaycan davası. Bakı: Ay-ulduz, 1998, 64 s.
87. Rəsulzadə M. Ə. Əsərləri. II c., Bakı: Şirvannəşr, 2001, 528 s.
88. Rəsulzadə M. Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I c. Bakı: Ol, 2016.
89. Rəsulqızı G. Səməd bəy Mehmandarovun Bakıda səssiz ölən oğlu – İqor Mehmandarovdan qalan yeganə nişan kimdir?.. 19.06.2017. Modern.az. saytı.
90. Sadıq H. Məşədi Əli bəy Hacıməmməd Hüseyn oğlu Rəfiyev. "Yeni Müsavat", N16 (75), 1993.
91. Sultanlı V. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı: Sirvannəşr, 1998, 170 s.
92. Şüküroğlu L. Cümhuriyyət hökuməti repressiya məngənəsində.I. c. B., 2000.
93. Şüküroğlu L. Cümhuriyyət hökuməti repressiya məngənəsində.II. c. B., 2000.
94. Tahirli A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991). Bakı: Ozan, 2005, 528 s.
95. Yaqublu N. Ağrılı ömürlər. Bakı: Yazıçı, 1990, 320 s.

96. Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, 305 s.
97. Yaqublu N. M. Ə. Rəsulzadə / Üzeyir Hacıbəyov Ensiklopediyası. Bakı: Azərbaycan, 1996, s. 152-153
98. Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı: Ay-Ulduz, 1997, 327 s.
99. Yaqublu N. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı: Adiloğlu, 2001, 154 s.
100. Yaqublu N. Azərbaycan legionerləri. Bakı: BDU, 2003, 307 s.
101. Yaqublu N. Azərbaycan-Polşa münasibətlərində M. Ə. Rəsulzadənin rolu. Bakı: Adiloğlu, 2007, 212 s.
102. Yaqublu N. Əbdürrəhman Fətəlibəyli Düdənginski. Bakı: Adiloğlu, 2008, 262 s.
103. Yaqublu N. "Türkiyənin azərbaycanlılara müstəqillik mücadiləsində dəstəyi (Sovetlər dönəmi: 1920-1991-ci illər). Bakı: Abşeronnəşr, 2009, 264 s.
104. Yaqublu N. "Bakının Qurtuluşu". Bakı: Elm və Təhsil, 2010, 199 s.
105. Yaqublu N.Müsavat Partiyasının tarixi. B., 2012
106. Yaqublu N.Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. B., 2013
107. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şura iclaslarının protokolları. 1918-ci il. Протоколы заседаний Мусульманских фракций Закавказского Сейма и Азербайджанского Национального Совета. 1918 г. Б., 2006.

## Dövlət Arxivləri

108. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 4, v. 1-2.
109. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 5, v. 1.
110. Azərbaycan Respublikası Dövlət Arxivi, F 897, s. 1, i. 22a, v. 4.
111. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 6, i. 17, v. 6-7.
112. Azərbaycan Respublikası Dövlət Arxivi, f 970, s. 1, i. 95, v. 52-54.
113. Azərbaycan Respublikası Dövlət Arxiv, f.970, s 1, i. 157, v. 42.
114. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 221, v. 6-7.
115. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 96, v. 44.
116. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 104, v. 38.
117. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 62.
118. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 96, v. 58.
119. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 70.
120. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 82.
121. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 90.
122. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 95.
123. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 98.
124. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 65, v. 25.???
125. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, iş 145, v. 109.
126. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 18, v. 32.
127. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 970, s. 1, i. 65, v. 15.

128. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 970, s. 1, i. 65, v. 10-15.
129. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 970, s. 1, i. 138, v. 5.
130. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 15, v. 6-7.
131. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 60, v. 9.
132. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 2, i. 45, v. 15.
133. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 2, i. 120, v. 4.
134. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 88, v. 3.
135. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 15, v. 10.
136. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 65, v. 20.
137. Azərbaycan Respublikası Dövlət Arxivi f. 970, s. 1, i. 65, v. 100.
138. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 7, v. 3.
139. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 18, v. 5.
140. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 2, i. 120, v. 10.
141. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 45, v. 15.
142. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 970, s. 1, i. 184, v. 11.
143. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 5, v. 63.
144. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 8, v. 56.
145. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 8, v. 54.
146. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 1, i. 31, v. 2-7.
147. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 40, v. 3-4.
148. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 40, v. 101-103.
149. Azərbaycan Respublikası Dövlət Arxivi. f.894, siy.2, iş 88,v.3-4.
150. Azərbaycan Respublikası Dövlət Arxivi, f.894, siy.2, iş 88,v.6-7.
151. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 12, v. 54.
152. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 12, v. 71.
153. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, iş 7, v. 112.
154. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 5, v. 50.
155. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 96, v. 30.
156. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 124, v. 15-16.
157. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 10, i. 31, v. 56.
158. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 12, v. 11.
159. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 7, i. 12, v. 6.
160. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 894, s. 1, i. 23, v. 21.
161. Azərbaycan Respublikası Dövlət Arxivi f. 894, s. 10, i. 120, v. 92.
162. Azərbaycan Respublikası Dövlət Arxivi f. 894, s 10, i. 112, v. 11.
163. Azərbaycan Respublikası Dövlət Arxivi f. 894, s. 1, i. 13, v. 27-28.
164. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, siy. 1, iş 262, v. 1-8.
165. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 895, s. 1, iş 1, v. 29-36.
166. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 895, s. 1, iş 1, v. 60.
167. Azərbaycan Respublikası Dövlət Arxivi, f.895, s. 1, i. 1, v.7.

168. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 1, v.12-21.
169. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 1, v.38-48.
170. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 3, i. 165, v. 57.
171. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 166, v. 215-245.
172. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 3, i. 242, v. 67-78.
173. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 3, i. 81, v. 15-15a.
174. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 288, v. 4-26.
175. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i.249, v. 12.
176. Azərbaycan Respublikası Dövlət Arxivi, f.895, s. 1, i. 276, v. 23-41.
177. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, v. 38-48.
178. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, s. 1, i. 1, v. 50-57.
179. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 895, siy. 7, iş 39, v. 1-36.
180. Azərbaycan Respublikası Dövlət Arxiv, f. 895, s. 1, i. 9, v. 44.
181. Azərbaycan Respublikası Dövlət Arxivi f. 897, s. 1, i. 11, v. 4.
182. Azərbaycan Respublikası Dövlət Arxivi f. 897, s. 1, i. 48, v. 2.
183. Azərbaycan Respublikası Dövlət Arxivi f. 897, s. 1, i. 22a, v. 4.
184. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 1046, s. 2, i. 1, v. 17.
185. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i. 1, v. 24.
186. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i. 1, v. 26.
187. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i. 3, v. 135.
188. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i .3, v. 138.
189. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i.3, v. 139.
190. Azərbaycan Respublikası Dövlət Arxivi, f .2894, s. 1, i.3, v. 141.
191. Azərbaycan Respublikası Dövlət Arxivi,f. 2894, s. 1, i .3, v. 149.
192. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 1, i. 4, v. 135.
193. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2898, s. 2, i. 22, v. 152.
194. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2898, s. 2, i. 22, v. 33.
195. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2898, s. 2, i. 22, v. 4.
196. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2898, s. 2, i. 22, v. 26.
197. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2894, s. 2, i. 5, v. 15.
198. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 2898, s. 6, i. 5, v. 19-45
199. Azərbaycan Respublikası Dövlət Arxivi, f.2898,s.2,i.22.
200. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 3172, siy. 1, iş 2, v. 20.
201. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 3172, siy. 1, iş 4, v. 7-8.
202. Azərbaycan Respublikası Dövlət Arxivi, f.3172, siy.1, iş 2,v.14-15.
203. Azərbaycan Respublikası Dövlət Arxivi, f.3172, siy.1, iş 2, v.15-16.
204. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 19, s. 3, i. 203, v. 84.
205. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 51, siy. 1, iş 2, v. 103.
206. Azərbaycan Respublikası Dövlət Arxivi,.f.100, siy. 2, iş 97, v. 74.

207. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi , f. 276, siy. 7, iş 168.
208. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 277, siy. 2, iş 89.
209. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f.276, s. 7, i. 168, v. 1.
210. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 277, s. 2, i. 7, v. 37-38.
211. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 277, s. 2, i. 17, v. 84.
212. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 277, s. 2, i. 21, v. 4-5.
213. Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi. PR 28006 saylı Ə.Pepinova aid istintaq işi.
214. Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS-20251 saylı istintaq işi
215. Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS-3435 saylı, Həmid Şahtaxtinskiyə aid istintaq işi.
216. Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PR-6399 saylı N.Şahsuvarova aid istintaq işi
217. Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS-17046 saylı M.Sulkeviçə aid istintaq işi.
218. Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PR 20584 saylı Xosrov bəy Sultanova aid istintaq işi.
219. Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, PS-12174 saylı K.N.Lizqara aid istintaq işi.
220. S.Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, f. 649, s. 3, i. 99, v. 1.

## Şəxsi arxivlər

221. Fətəlibəyli Ə. Düdənginski. Ailəsinin və qohumlarının sürgünə göndərilməsi ilə bağlı sənədlər. Abid Qayıbovun şəxsi arxivindən. Surəti müəllifdədir.
222. Musazadə M. Azərbaycan Qızıl Ordusunun qurulması və ləğv edilməsi. "Azadlıq" radiosunda efirə getmiş verilişin mətni. Məcid Musazadənin şəxsi arxivindən. Surəti müəllifdədir.
223. Musazadə M. Stalin terrorunun qurbanları: Əliheydər Qarayev. "Azadlıq" radiosunda efirə getmiş veriliş. Məcid Musazadənin şəxsi arxivindən. Surəti müəllifdədir.
224. Musazadə M. Azərbaycanın Şaumyan fitnəkarlığından qurtulması münasibəti ilə. "Azadlıq" radiosunda efirə getmiş veriliş. Məcid Musazadənin şəxsi arxivindən. Surəti müəllifdədir.

**Qəzetlər**

225. "Azərbaycan" qəzeti, 5 dekabr 1918, №56.
226. "Azərbaycan" qəzeti, 17 dekabr 1919-cu il.
227. "Azərbaycan" qəzeti, 9 dekabr 1919-cu il, №340.
228. "Azərbaycan" qəzeti, 28 may 1919-cu il, №110.
229. "Azərbaycan" qəzeti, 7 mart 1919, №131.
230. "Azərbaycan" qəzeti, 3 avqust 1919-cu il.
231. "Azərbaycan" qəzeti, 10 yanvar 1919, №84.
232. "Azərbaycan" qəzeti, 19 mart 1919-cu il, №140.
233. "Azərbaycan" qəzeti, 21 mart 1919-cu il, №142.
234. "Azərbaycan" qəzeti, 30 aprel 1919-cu il, №169.
235. "Azərbaycan" qəzeti, 15 avqust 1919-cu il, №252.
236. "Azərbaycan" qəzeti, 19 fevral, 1919-cu il.
237. "Azərbaycan" qəzeti, 6 fevral 1919, №107.
238. "Azərbaycan" qəzeti, 19 fevral 1919, №117.
239. "Azərbaycan" qəzeti, 24 fevral 1919, №121.
240. "Azərbaycan" qəzeti, 10 yanvar 1919, №84.
241. "Azərbaycan" qəzeti, 4 aprel 1919, №150.
242. "Azərbaycan" qəzeti, 2 sentyabr 1919, №266.
243. "Azərbaycan" qəzeti, 23 sentyabr 1919, №280.
244. "Azərbaycan" qəzeti, 9 yanvar 1920-ci il, №8.
245. "Azərbaycan" qəzeti, 4 aprel 1920-ci il, №66.
246. "Azərbaycan" qəzeti, 18 yanvar 1920, №14
247. "Azərbaycan" qəzeti, 15 fevral 1920, №32.
248. "Azərbaycan" qəzeti, 28 aprel 1920-ci il, №84.
249. "Azərbaycan" qəzeti, 16 yanvar 1920, №13.
250. "Günay" qəzeti, 26 fevral 2000-ci il, №8.
251. "Azərbaycan müəllimi" qəzeti. 20 may 2011-ci il.
252. "Azərbaycan müəllimi" qəzeti, 27 may 2011-ci il.
253. "Qardaş köməyi" jurnalı. Bakı, 2013-cü il.

**Türkiyə türkcəsində**

254. Ağaoğlu B. Solovkide gördüklerim. "Bildiriş" qəz., İstanbul, 1930, N 9
255. Ağaoğlu B. Solovkide gördüklerim. "Bildiriş" qəz., İstanbul, 1930, N 10
256. Ağabəyov A. QPU haqqında. "Bildiriş" qəz., İstanbul, 1930, N 10, 11, 12
257. Alman mətbuatında 28 Mayıs. "İstiqbal" qəz., Berlin, 1933, N 36
258. Atamalıbeyov A. Milli Azerbaycan Qurultayındakı çıxışının metni. "Azerbaycan" qəz., Berlin,1943, N 46 (74)
259. Azerbaycanın Böyük matəmi 27 nisan: 1920 // Azərbaycan Yurt Bilgisi, 1933, N 16, s. 146

260. Aküzüm F. Mehemmed Emin Resulzadeye göre çeşidli cehdleri ile Azerbaycan istiqlal mücadilesi. Ankara, 1977,
261. Bammat H. Lehistan ve Kafkasya // Kafkas, 1936, N 17, 26-32 s.
262. Berlinde 28 May merasimi. "İstiqlal" qez., Berlin, 1932, N 11
263. Cengiz O. İrtica. 1945-1999. İstanbul: Yayınevi, 1999, 319 s.
264. Çekist Ağabekovun ifşaatı. "Bildiriş" qəz., İstanbul, 1930, N 10
265. Çekist Aqabekovun ifşaatı. "Bildiriş" qəz., İstanbul, 1930, N 11
266. Eli Y. Qerib vetenimde. "Bildiriş" qəz., İstanbul, 1931, N 43
267. Fetelibeyli E. Kommunizm utopiyadır // Azerbaycan, 1953, N 11, s. 26-31
268. Hacıbeyli C. Visbadenden – Ştarnberge // Azerbaycan, 1952, N 3, s. 3-4
269. Hacıbeyli C. Koordinasyon Mərkəz // Azerbaycan, 1952, N 6-7, s. 3-5
270. Hacıbeyli C. Azerbaycan davam ediyor // Azerbaycan, 1951, N 1, s. 3-4
271. İstiqlal qurbanları. "Bildiriş" qez., Berlin, 1931, N 43
272. Karaca E. 28 Mayıs 37 yaşında // Azerbaycan, 1955, N 2-3 (38-39), s. 17-20
273. Karaca E. Qafqaziya Konfederasionu Kafqasiya Cumhuriyyetinin emniyyet kalxanı ola bilirmi?// Azerbaycan, Ankara, 1995, №305, s. 17-23.
274. Kazımbey C. Azerbaycan Milli Kurultayındakı çıxışı. "Azerbaycan" qez., Berlin, 1943, N 46 (74)
275. Keykurun N. Türk Edemi-Merkeziyyet firgesinin fealiyyeti ve Müsavat Partiyası ile birleşmesi // Musavat Bulleteni, 1962, N 4, s. 28-34
276. Mehmetzade M. B. Solovkiden gelen sesler //Odlu Yurt, 1929, N 27, s. 20-23
277. Mehmetzade M. B.On illik istismar //Odlu Yurt, 1930, N 2, s. 11-14
278. Mehmetzade M. B. 28 Mayıs //Odlu Yurt, 1930, N 16, s. 140-142
279. Mehmetzade M. B. Azerbaycan dövleti //Odlu Yurt, 1931, N 3, s. 70-74
280. Mehmetzade M. B. Matemimiz. "İstiqlal" qəz., Berlin, 1933, N 33
281. Mehmetzade M. B. İstiqlal mücadilesi." İstiqlal" qəz., 1933, Berlin, N 35
282. Mehmetzade M. B. Dövlet oluş günümüz // Kurtuluş, 1935, N 7-8, s. 195-198
283. Mehmetzade M. B. Milli mücadilede sosial şüarlar //Musavat Bulleteni, 1937, N 3, s. 5-8
284. Mehmetzade M. B. Bize göre Milli Birlik //Musavat Bulleteni, 1937, N 3, s. 26-30
285. Mehmetzade M. B. Kafkasyada Milli Herekat //Kurtuluş, 1937, N 36, s. 7-11
286. Mehmetzade M. B. Her şeyden önce Milli İstiklal //Kafkasya, 1952, N 15, s. 14-18
287. Mehmetzade M. B. İstiklalın diplomatik cebhesi //Azerbaycan, 1954, N 2-3 (26-27), s. 12-14
288. Mehmetzade M. B.Azerbaycan Misaki-Millisi. Ankara: 2002, 87s.
289. Mühlen P. Z. Camalihaç ile Kızılyıldız arasında. Ankara: 1984, 298 s
290. Resulzade M. E. Ateş Çalan Promete //Yeni Kafkasya , 1923, N 1, s. 2-3
291. Resulzade M. E. Tutduğumuz yol // Azeri türk, 1928, N 1, s. 1
292. Resulzade M. E. On senelik Azim ve cihad //"Azeri Türk", 1928, N 9, s 2-6
293. Resulzade M. E. Çöhremiz // Odlu Yurt, N 1, s. 2-3
294. Resulzade M. E. Öyreden bir musibet //"Odlu Yurt", 1929, N 3, s. 83-84
295. Resulzade M. E. Temmuz hadisesi münasibeti ile //"Odlu Yur"t, 1929, N1

296. Resulzade M. E İstila kurbanları "Nesib bey". //Odlu Yurt, 27 aprel 1929, №3.
297. Resulzade M. E. Kafkas Birliyi şüarı altında //Odlu Yurt, 1930, N20, s. 332-340
298. Resulzade M. E. Kesilmeyen ses. "İstiklal" qəz., Berlin, 1932, N 1
299. Resulzade M. E. Açık diplomasi. "İstiklal" qəz., Berlin, 1932, N 2
300. Resulzade M. E.Mücadilenin taktikası. "İstiklal" qəz., Berlin, 1932, N 3
301. Resulzade M. E. Şefibeyçilik. İstanbul, 1934,
302. Resulzade M. E. Yozef Pilsudski // Kurtuluş, 1935, N 7-8, s. 192-196
303. Resulzade M. E. Lehistan müselmanları // "Kurtuluş", 1935, N 13-14, s. 365-370
304. Resulzade M. E.20-ci Yıl dönümündə // Kurtuluş, 1938, N 43, s. 5-8
305. Resulzade M. E. Azerbaycan davası // Azerbaycan, 1954, N 2-3 (26-27), s. 5-9
306. Resulzade M. E. Kurtulan Şerqin simvolu. // Azerbaycan,1953,N8-9(20-21) s. 13-15.
307. Resulzade M. E. Azerbaycan Problemi. Ankara: 1993, 42 s.
308. Resulzade M. Ə. Azerbaycan Cümhuriyyeti: keyfiyyeti-teşekkülü və şimdiki veziyyeti. İstanbul: 1990, s. 205.
309. Şimşir S. Mehmet Emin Resulzadenin Türkiyedeki hayatı, fealiyyetleri ve düşünceleri. Ankara: 1995, 128 s.
310. Şimşir S. Azərbaycanlıların Türkiyədə siyasi və kültürəl fəaliyyətləri (1920-1991). Ankara: 2001, s. 256.
311. Türkequl M. Kızıl rus imperatorluku qan üzerinde kurulmuşdur // "Kafkasya", 1952, N 14, s. 15-17
312. Unutkan tarih. (Sovyet Sonrası Türkdilli Alan hazırlayan: Semih Vaner). İstanbul: 1996, s. 397.
313. Yakublu N. M. Ə. Resulzadenin Poloniyada basılan kitabları üzerine //Azərbaycan, 2009, №376, s. 43-47
314. Yakublu N. Poloniy Cümhuriyyeti arxivlərində M. E. Resulzadə ile ve azerbaycanlılarla ilgili bilgiler //Türk Yurdu, 2011, № 285, s. 79-80
315. Yakublu N. M. Ə. Resulzadenin Poloniya Dış İşlər bakanlığı ilə gizli yazışmaları // Azərbaycan, 2011, №378, s. 33-36
316. Yakublu N. Mehmet Emin Resulzade Ansiklopedisi.Ankara, 2015
317. Yurtsever E. V. Azerbaycan istiklal savaşından sehneler //Azerbaycan, 1960, N 12, s. 14-16
318. Yurtsever E. V. Gizli Musavat teşkilatının harakterik vezifeleri //Musavat Bulleteni, 1962, N 4, s. 22-27

**Türkiyyə Cümhuriyyətinin arxiv materialları**

319. "İstiqlal" qezetinin yasaq edilmesi. Kararname. Türkiyə Cumhuriyyəti Başbakanlık Cumhuriyyət arxivi. 030. 18. 01. 02. 50. 87. 7.
320. Kafkas muselmanlarının vetendaşlığa alınması. Kararname. Türkiyə Cumhuriyyəti Başbakanlık Cumhuriyyət arxivi. 030. 18. 01. 02. 4. 35. 3.
321. "Kurtuluş" dergisinin yasaq edilmesi. Türkiyə Cumhuriyyəti Başbakanlık Cumhuriyyət arxivi. 030. 18. 01. 01. 019. 30. 2.

322. Muxtelif memleketde olanların vetendaşlığa alınması. Kararname. Türkiyə Cumhuriyyəti Başbakanlık Cumhuriyyət arxivi. 030. 18. 01. 02. 5. 49. 16.
323. Türk vetenaşlığına qebul edilenler. Kararname. Türkiyə Cumhuriyyəti Başbakanlık Cumhuriyyət arxivi. 080. 18. 12. 22. 59. 13.
324. Türk vetendaşlığına alınmış muhacirlerin siyahısı. Kararname. Türkiyə Cumhuriyyəti Başbakanlık Cumhuriyyət arxivi. 930. 02. 2. 15.
325. Türkiye vetendaşlığına kebul. Kararname. Türkiyə Cumhuriyyəti Başbakanlık Cumhuriyyət arxivi. 030. 18. 01. 01. 03. 23. 20.
326. "Yeni Kafkas", "Odlu Yurd", "Azeri-Türk" jurnallarının və "Bildiriş" qezetinin kapadılması. Kararname. Türkiyə Cumhuriyyəti Başbakanlık Cumhuriyyət arxivi. 080. 18.01.02.4.59.13.

**Qəzet və jurnallar**

327. "Azerbaycan" derg. Münhen, №6-7, 1952.
328. "İstiklal" qəz., Berlin, 1932, №5.
329. "İstiklal" qəz., Berlin, 1933, №30.
330. "Mucahit" derg. İstanbul, 1962, №53-54.
331. "Odlu Yurd" derg. İstanbul, 1929, №1.
332. "Odlu Yurt" derg. İstanbul, 1930, iyun, sayı 17 (5).
333. "Bildiriş" qəz., İstanbul, mart 1931.
334. "Bildiriş" qəz., 1931-ci il, №27.
335. "Musavat bulleteni". Varşava, 1936, №1.

**Rus dilində**

336. Абуталыбов Р. Годы и встречи в Париже. М.: SIS Media, 2006, 222 с.
337. Адрес Календарь Азербайджанской Республики на 1920 год. Под ред. А. И. Ставровского. Б.: 1920, 283 с.
338. Алан Б. Гитлер и Сталин. М.: 2001. 341 с.
339. Алиева Р.Первый министр. Газета "Вышка", 14 февраля 2003 г., №6.
340. Банун (Ум-Эль Бану). Кавказские дни. (Автобиографический роман). Баку, 2006.
341. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 г. Б., 1957.
342. Балаев А. Мамед Эмин Расулзаде. М. 2010, 270 с.
343. Балаев А. Азербайджанское национальное движение в Азербайджане в 1917-1918 гг. Б., 1998.
344. Гаджибейли Д. Избранное. Б.: Азернешр, 1993, 128 с.
345. Гусейнбейли А. Эмигранты. Б.: Азернешр, 1994, 224 с.
346. Дамиров М. Организация государственной власти в Азербайджане (1918-1920 гг). Одесса, 1998.
347. Из истории эмиграционной печати Азербайджана. М.: 2010, 348 с.

348. Из наследия политической эмиграции Азербайджана в Польше. Б.: Озан, 2011, 548 с.
349. Ислам в Москве: энсиклопедический словарь. Сост. и отв. редактор – Д.З.Хайретдинов.-Н.Новгород, 2008.
350. Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения "Прометей". Сборник документов. М., 2012.
351. Колесников Д.А. Трудовики в период первой российской революции. М., 1985.
352. Красная книга ВЧК. Т. 1, М.: Политическая литература, 1990, 415 с.
353. Красная книга ВЧК. Т. 1, М.: Политическая литература, 1990, 420 с.
354. Летопись Внешней Политики СССР 1917-1978 г. М.: Политическая литература, 1978, 367 с.
355. Мамулиа Г, Абуталыбов Р. Страна огней в борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945.Париж-Баку,2014
356. Метлдисон Д. Иностранные легионы на службе у третьего Рейха. США, 1987, 270 с.
357. Расулзаде М.Э. Пантуранизм и Кавказская проблема. В.: 1930, 32 с.
358. Расулзаде М.Э. Сборник произведений и писем. Москва, 2010, 350 с.
359. Советский Энциклопедический Словарь / Советская Энциклопедия. М.: 1980, 450 с.
360. Солженицын А. Архипелаг ГУЛАГ. Т. 7, М.: Мыком НВ, 1997, 525 с.
361. Солженицын А. Архипелаг ГУЛАГ. Т. 6, М.: Мыком НВ, 1991, 574 с.
362. Суворов В. Ледокол. М.: 2000, 432 с.
363. Топчибаши А.М. Документы из личных архивов.1903-1934.М.,2012
364. Топчибаши А.М. Парижский Архив. 1919-1940. В четырех книгах. Книга третья. 1924-1930. Москва, 2017.
365. Топчибаши А.М. Письма из Парижа. Б.,1998.
366. Топчибаши А.М. и Расулзаде М.Э. Переписка, 1923-1926. Москва, 2012, 148 с.
367. Фаталибейли А. Отчет Азербайджанскому народу о борьбе его сынов за независимость Родины, в период Второй Мировой войны // Азербайджан, 1951, N13-18
368. Фаталибейли А. Дуденгински. Может ли коммунизм обеспечить жизнь народам? // Азербайджан, 1952, N4, с. 24-28
369. Фаталибейли А. Дуденгински. Психологическая война против СССР // Азербайджан, 1952, N4, с. 22-25
370. Ягублу Н. Эмиграционная печать, запрещенные советским государством // Молодой Ученый, 2011, № 2
371. Ягублу Н. Прометей // Новый Прометей, 2011, № 1
372. Ягублу Н. М. Э. Расулзаде как основатель Азербайджанской эмиграционной печати // Вопросы Филологии, 2011, № 11, с. 318-324
373. Ягублу Н.Энциклопедия Мухаммеда Эмина Расулзаде.М.,2015

**Dövlət Arxivi materialları**
**(Rus dilində)**

374. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, 05.12.1947. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора. ГА Лит. и Искус. Им. С. Мумтаза: Ф. 648, оп 2, л. 9-11.
375. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, 29.10.1950. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора. ГА Лит. и Искус. Им. С. Мумтаза: Ф. 648, оп 2, л. 13-15.
376. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. 4.01.1952. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора. ГА Лит. и Искус. Им. С. Мумтаза: Ф. 648, оп 2, л. 18-21.
377. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. 27.03.1952. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора. ГА Лит. и Искус. Им. С. Мумтаза: Ф. 648, оп 2, л. 23-25.
378. Фаталибейли А. Дуденгински. Письмо к Джейхуну Гаджибейли. Мюнхен, 19.04.1952. Из личного архива Рамиза Абуталыбова. Копия письма у автора. ГА Лит. и Искус. Им. С. Мумтаза: Ф. 648, оп 2, л. 27-28.

**Şəxsi arxivlər**

379. Фаталибейли А. Текст передачи на радио "Свобода", 1953 г. Номер передачи: Б-2931. Из личного архива Абида Гаибова. Копия документа у автора.
380. Фаталибейли А. Последние новости, радио "Свобода", ред. Азербайджан. 29 июня, бюллетень № 109. Из личного архива Абида Гаибова. Копия документа у автора.

**Rus dilində**
**(qəzetlər)**

381. Газета "Азербайджан", 1918 г., 13 ноября., № 34.
382. Газета "Азербайджан", 1918 г., 11 ноября, №32.
383. Газета "Азербайджан", 1918 г.,12 ноября,. №33.
384. Газета "Азербайджан", 1918 г.,17 ноября, № 37.
385. Газета "Азербайджан", 1918 г., 18 ноября, № 38.
386. Газета "Азербайджан", 1918 г., 2 декабря, №51.
387. Газета "Азербайджан", 1918 г., 7 декабря, №54.
388. Газета "Азербайджан", 1920 г, 14 января.
389. Газета""Азербайджан", 1920 г, 9 marta, №48.
390. Газета "Азербайджан", 1920, 7 апреля, №70.
391. Газета "Азербайджан", 1920, 20 апреля, №77.
392. Газета "Каспий", 1917, №109.
393. Газета "Коммунист", 1920, №105.

### Polyak dilində

394. Aratun-Bej. General Maciej Sulkiewicz (1865-1920) / Roczmik Tatarski, T. 1,Vilno, 1932, p. 32-44
395. Baranowski B., Baranowski K. Historia Azerbeydzani. Ossolineum: 1987, 220 p.
396. Chodubski A. Aktywnosc kulturalna Polakow w Azerbeydzanie w XIX I na Pogzatku XX wieku. Gdansk: 1986, 230 p.
397. Kryczynski S. Materjaly do historji pulkow tatarskich w Polsce / Roczmik Tatarski, T. 1,Vilno, 1932, p. 38-42
398. Kryczynski L. M. Tatarzy litewsey w wojsku polskiem w powstaniu 1831 roku / Roczmik Tatarski, T. 1,Vilno, 1932, p. 45-49
399. Kryczynski L. M. Aleksandr Sulkiewicz (Czarny Michat, 1867-1916) / Roczmik Tatarski, T. 1,Vilno, 1932, p. 52-55
400. Mikulicz S. Prometeizm w Polityce II Rzeczypospolitej. Warszawie: Biblioteka Uniwersytecka, 1971, 250 p.
401. Resulzade M. E. Aleyhim Selam! / Roczmik Tatarski, T. 1,Vilno, 1932, p. 206-208
402. Resulzade M. E. Azerbaydzan w walce o niepoleglosc. Azerbaydjanskie wydawnictwo narodowe Warsawa: 1938, p. 258.
403. Swietochowski T. Azerbejdzan. Warszawa: 2006, p. 300.
404. Zajgezkowski A. Les elements turgues sur le territorie polonais / Rocznik Tatarski. T. 1,Vilno, 1932, p. 82-86

### Polşa Respublikasının Dövlət Arxivi
### (Rus dilində)

405. Векилли М. Письмо Тадеушу Голувко. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1926 г.), Дело N 6689, л. 43-45.
406. Векилли М. Письмо Тадеушу Голувко. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1926 г.), Дело N 6688, л. 48-52.
407. Поддержка Кавказских эмигрантских организации. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1930 г.) , Дело N 6685, л. 17-24.
408. Поддержка Кавказских эмигрантских организации. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1927-1929 гг.) , Дело N 6690А, л. 74-76.
409. Поддержка Кавказских эмигрантских организации. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1926 г.) , Дело N 6687, л. 17-24.

410. Поддержка Кавказских эмигрантских организации. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1929 г.) , Дело N 6693, л. 13-45.
411. Поддержка Кавказских эмигрантских организации. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1931 г.) , Дело N 6708, л. 41-44.
412. Поддержка Кавказских эмигрантских организации. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1931 г.) , Дело N 6690, л. 148-206.
413. Расулзаде М. Э. Письмо маршалу К. Пильсудскому. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1923 г.), Дело N 3180, л. 3-6.
414. Расулзаде М. Э. Письмо Тадеушу Голувко. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1926 г.), Дело N 6687, л. 32-35.
415. Расулзаде М. Э. Письмо Тадеушу Голувко. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1927 г.), Дело N 6687, л. 78-79.
416. Расулзаде М. Э. Письмо Тадеушу Голувко. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1928 г.), Дело N 6688, л. 14-19.
417. Расулзаде М. Э. Письмо Тадеушу Голувко. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1927 г.), Дело N 6688, л. 2933.
418. Расулзаде М. Э. Письмо Тадеушу Голувко. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1927 г.), Дело N 6688, л. 35-37.
419. Расулзаде М. Э. Письмо Тадеушу Голувко. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1928 г.), Дело N 6688, л. 29-30.
420. Расулзаде М. Э. Письмо Тадеушу Голувко. Польская Республика, Варшава, Акт Новых Документов, Министерство Иностранных Дел (1929 г.), Дело N 6688, л. 24-28.

## Alman dilində

421. Hoffmann L. Die Ostlegionen 1941-1943: Turkotataren, Kaukasier und Wolgafinen im deutschen Neer. Freiburg: Rombach, 1976, 197 p.
422. Nussein A. Wer hat den Mord bestellt? News. "Abendzeitunq", Munhen, 1954, N282

## İnternet saytları

423. www.resulzade.org
424. http://axc.preslib.az
425. https://az.wikipedia.org/wiki/Azərbaycan_Xalq_Cümhuriyyəti

# NƏSİMAN YAQUBLU



Nəsiman Qara oğlu Yaqublu Zəngilan rayonunda anadan olub. Həmin rayonda orta məktəbi bitirib. 1980-1983-cü ilərdə Bakı Dövlət Universitetində oxuyub, 1983-1986-cı illərdə isə Sankt-Peterburq Universitetində təhsilini davam etdirib. 1986-1992-ci illərdə "Yazıçı" nəşriyyatında redaktor vəzifəsində çalışıb. 1993-cü ildə könüllü olaraq Azərbaycan Ordusunda xidmətə başlamış və "Azərbaycan Ordusu" qəzetinin Baş redaktoru olmuşdur. 1993-cü ildən Bakı Dövlət Universitetində müəllim olaraq çalışır. Tarix elmləri doktorudur.

N.Yaqublu Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadənin üç dildə (Azərbaycan, Türkiyə türkcəsi və rus dillərində) biblioqrafiyasını nəşr etdirmişdir. Bundan əlavə o, M.Ə.Rəsulzadənin mühacirətdəki yazılarından ibarət olan "Əsərləri"nin 10 cildliyini nəşrə hazırlayıb. "Əsərlər" in 1-ci cildi artıq nəşr edilib.

N.Yaqublu rus dilindən və Türkiyə türkcəsindən bir çox əsərləri Azərbaycan dilinə tərcümə etmişdir.

N.Yaqublunun nəşr edilmiş kitabları:

1. "Ağrılı ömürlər". Bakı, 1990; 2. "Məmməd Əmin Rəsulzadə". B., 1991; 3. "Xocalı soyqırımı". B., 1992; 4. "Müsavat Partiyasının tarixi". B., 1997; 5. "Məhəmməd Əmin Rəsulzadə və Azərbaycan istiqlalı". B., 2001; 6. "Azərbaycan legionerləri". B., 2002; 7. "Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan-Polşa əlaqələrində rolu". B., 2007; 8. "Bakının Qurtuluşu". B., 2008; 9. "Əbdürrəhman Fətəlibəyli-Düdənginski". B., 2008; 10. "Azərbaycanda yaşayan milli azlıqların nəşrləri". B., 2011; 11. "Müsavat Partiyasının tarixi" (yenidən işlənilmiş və əlavələrlə). B., 2012; 12. "Türkiyənin azərbaycanlılara müstəqillik mücadiləsində dəstəyi (sovet dövrü:1920-1991). B., 2013; 13. "Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası". B., 2013; 14. "Ermənilər türklərə qarşı". B., 2014; 15. "Azərbaycan mühacirət irsi". B., 2014; 16. "Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası"(rus dilində). Moskva, 2015; 17. "Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası" (Türkiyə türkcəsində). Ankara, 2015; 18. "Məhəmməd Əmin Rəsulzadə" (Azərbaycan və ingilis dillərində biblioqrafik məlumat). B., 2014; 19. "Azərbaycan mühacirət mətbuatı" (dərslik). B., 2015; 20. "Qafqaz İslam Ordusunun Azərbaycanda izləri". B., 2017.

NƏSİMAN YAQUBLU

# CÜMHURİYYƏT QURUCULARI

100 il

bp

Nəşriyyat redaktoru:
Suğra Osmanova

Dizayn və tərtibat:
Fəxri Vəliyev

Yığılmağa verilmişdir: 14.03.2018. Çapa imzalanmışdır: 18.04.2018.
Ölçü: 70x100 1/16. Çap vərəqi: 31,5. Sifariş: 085/18. Say: 1000 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi pr. 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az

9 789952 507966